NAZİM RZA İSRAFİLOĞLU

# NEFT
# və
# CAHAN SAVAŞI

*(İkinci cahan savaşında neft amili)*

1082

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

MÜTƏRCİM

Bakı - 2005

NAZIM RZA ISRAFILOGLU

# OIL and WORLD WAR

*(The oil factor during the World War II)*

MÜTƏRCİM
Baku - 2005

НАЗИМ РЗА ИСРАФИЛОГЛУ

# НЕФТЬ и МИРОВАЯ ВОЙНА

*(фактор нефти во второй мировой войне)*

MÜTƏRCİM
Baku - 2005

Elmi redaktor
*tarix elmləri doktoru, professor*
**Elmira Muradəliyeva**

Redaktor
**Seyfullah Cəfərli**

Korrektor
**Səmayə Xəlilova**

Kompüter yığımı və dizaynı
**Səbinə Məmmədova**

İngilis dilinə tərcümə edən
**Lüdmila Canıbəyova**

Nazim Rza İsrafiloğlu. Neft və cahan savaşı. – Bakı, Mütərcim, 2005, - 316 səh.

Kitab İkinci cahan savaşında **«böyük neft»** uğrunda gedən mübarizədən, Bakı neftinin son dərəcə önəmli rolundan və ümumiyyətlə müharibənin müqəddəratında duru yanacağın – neftin həlledici amil olmasından bəhs edir.

Müəllif kitabın hazırlanmasında göstərdikləri yardıma görə tarix elmləri doktoru, professor Elmira Muradəliyevaya, jurnalist Seyfullah Cəfərliyə, M.F.Axundov adına Milli kitabxananın direktoru Leyla Qafurovaya, biblioqraf Tərlan Hacıyevaya və Səmayə Xəlilovaya dərin minnətdarlığını bildirir.

Çapa imzalanıb: 084.04.05.
Qarnitur Azeri Times Lat. Format 60x84 1/16. Həcmi 19,75 ç.v.
Tiraj 500 (I z-d). Sifariş .

«Mütərcim» TM
Bakı, Rəsul Rza küç., 125
tel./faks (99412) 499 21 44
e-mail: mutarjim@mail.ru

«Əbilov, Zeynalov və oğulları»
NPE mətbəəsi.
Bakı, M.İbrahimov küç., 43
tel. (99412) 497 36 23

İ 4702060000 25-05
026

© Nazim Rza, 2005.

# ÖN SÖZ

1911-ci ilin yayında Böyük Britaniyanın o vaxtkı hərbi-dəniz naziri Uinston Çörçill bir gecədə öz baxışlarını dəyişməli oldu. O vaxt onun qarşısında çox mürəkkəb və mübahisəli bir məsələ durmuşdu – şöhrətli Britaniya Hərbi-Dəniz Donanmasını ənənəvi kömürdən neftə keçirmək. İlk baxışda texniki görüntüsü olan bu məsələnin XX yüzillik üçün taleyüklü əhəmiyyəti aşkar oldu. Duru yanacağın mühüm strateji əhəmiyyəti vardı – hərb gəmilərinin döyüş qabiliyyətinin 50 faiz artırılması və insan resurslarının səmərəli istifadəsi. Bu üstünlüklər Çörçill üçün o dərəcədə önəmli idi ki, məsələ qısa bir zamanda həll olundu.

Beləliklə, Böyük Britaniya dənizdə öz hökmranlığının əsası üçün nefti seçdi. Bununla da XX yüzillik tarixə neft yüzilliyi kimi daxil oldu. Çünki hökmranlıqdan ötrü neft həqiqətən həlledici amilə çevrildi. Məhz buna görə XX yüzillik müharibələr tarixində yeni mərhələ açdı – bu, 1914-1918-ci illər və 1939-1945-ci illər d ü n y a müharibələri idi.

Xoşbəxtlikdənmi, ya əksinə, Azərbaycan xalqı da neftlə zəngin torpaqlara malikdir. Bu torpaqlar uzaqgörən ölkələri maqnit kimi özünə cəzb edirdi. Artıq XIX yüzilliyin sonundan etibarən Bakı nefti uğrunda dünya rəqabəti güclənir. İlk çağlarda iqtisadi xarakter daşıyan bu rəqabət, zaman ötdükcə neftin məhz hərbi-strateji əhəmiyyətini önə çəkmişdi. Artıq XX yüzillikdə neftin hərbi-strateji önəmi iqtisadi əhəmiyyətini üstələdi. Nəticədə «neftin hakimliyi» qlobal qanlı savaşlara gətirib çıxardı. Birinci dünya savaşı sübut etdi ki, neft kimdə varsa, son nəticədə qələbə də onda olacaq. Bundan sonra neftə olan tələbat sürətlə artmağa başladı və bu günümüzədək davam edir.

Bu baxımdan neft mövzusu ilə bağlı hər bir araşdırma aktualdır. Bakı neftinin tarixi təkcə Azərbaycan tarixinin yox, həm də dünya tarixinin bir hissəsidir. Hələ 1923-cü ildə ingilis-amerikan münasibətlərini neft siyasəti kontekstində araşdıran N.Deyvenport öz kitabında yazırdı ki, dünyanın neft sərvətləri ümumbəşəri sərvət kimi qiymətləndirilməlidir

və bəşəriyyətin əmin-amanlığı naminə işlənməlidir[1]. Bunu hələ İkinci dünya savaşının dəhşətlərini görməmiş bir insan yazıb.

Nazim Rza İsrafiloğlunun yeni kitabı neft mövzusuna həsr edilib. Ümumiyyətlə neft mövzusu N.Rzanın yaradıcılığının özəyidir. 2002-ci ildə onun «Odlu məmləkət» adlı kitabı çıxmışdır[2]. Bu kitabın nəşrindən bir qədər əvvəl televiziya ekranlarında eyniadlı elmi-publisistik kinoserial nümayiş etdirildi. Təqdim olunan yeni kitab İkinci cahan savaşının strategiyasında neftin, xüsusilə Bakı neftinin həlledici amil olduğu, onun qarşı-qarşıya durmuş hər iki tərəf üçün eyni dərəcədə həyati əhəmiyyəti araşdırılır. Əsər sovet və qərb tarixi tədqiqatları, yüksək rütbəli hərbçilərin memuarları və eyni zamanda arxiv sənədləri əsasında yazılıb. Fəsillər boyunca N.Rza problem üzrə müəlliflərlə ya dialoqdadır, ya da polemika aparır.

İkinci dünya savaşında iki nəhəng hərbi-siyasi blok yarandı: Berlin-Roma-Tokio ox dövlətləri və ABŞ – Böyük Britaniya – SSRİ müttəfiq dövlətlər. Yanacaq baxımından onlar fərqli vəziyyətdə idilər. Dünya neftinin əsas hissəsi Amerika qitəsində, Yaxın və Orta Şərqdə, habelə Qafqazda hasil edilirdi. 1940-cı ildə Bakıda rekord göstərici – 21 mln. 329 min ton neft hasil edilmişdi. Bu rəqəmi dərk etmək üçün yalnız bunu demək kifayətdir ki, Bakı, ABŞ və Venesueladan sonra dünyada üçüncü yerə çıxdı. Bakı neftinin miqdarı bütün Yaxın Şərqdə çıxarılan neftin cəmindən xeyli çox idi. Və SSRİ məhz bu resursla öyünürdü. Amma ideologiyalaşdırılmış sovet tarixşünaslığında Bakı nefti amili kiçildilərək, onun əhəmiyyəti adiləşdirilərək digər xalq təsərrüfatı məhsulları ilə eyni cərgəyə qoyulub və sovet-alman cəbhəsinin çoxsaylı hadisələrindən biri kimi qiymətləndirilib. N.Rzanın kitabında fəsilbəfəsil Bakı neftinin həm şərq, həm də qərb cəbhələrində qlobal xarakteri açıqlanır.

Beləliklə, nəzərə alsaq ki, Yaxın Şərqin də neft mədənləri tarixən ingilislərin inhisarında idi, məlum olur ki, ABŞ, Böyük Britaniya və SSRİ zəngin duru yanacaq mənbələrinə malik idilər. Əksinə, Almaniyanın, İtaliyanın və Yaponiyanın duru yanacaq ehtiyatları son dərəcə məhdud idi. Bunu Hitler və onun müttəfiqləri aydın başa düşürdülər və məhz buna görə də özlərinə yanacaq problemi yaratmamaq üçün «Blits-kriq», yəni ildırım sürətli müharibə taktikasını seçmişdilər.

Almaniyanın Amerika qitəsində neft mənbələrinə sahib olmaq imkanları yox dərəcəsində idi. Atlantik okeanının o biri tayına hərbi müda-

[1] O'Коннор Х. «Империя нефти». Москва, 1958, с. 485.
[2] Nazim Rza İsrafiloğlu. «Odlu məmləkət». Bakı, 2002.



xilə Almaniyanın strateji planlarına daxil ola bilməzdi. Ona görə Almaniyanın ixtiyarında 2 yol qalırdı: Qafqaz – Bakı və Yaxın Şərq.

Müharibənin gedişi göstərdi ki, Almaniyanın kifayət qədər güclü hərbi texnikası yanacaqsızlıq ucbatından Quzey Afrikada, Qafqazda, Moskva və xüsusilə Stalinqrad kampaniyalarında adi bir metal yığıntısına çevrildi. Belə ki, Paulyusun 6-cı ordusu yanacaqsız tam hərəkətsiz donub qalmışdı. Səngərlərdə qızınmaq üçün hətta kiçicik bir manqal da qalamaq qeyri-mümkün idi. Bu əməliyyatlar bir daha təsdiqlədi ki, neftə çatmaq üçün məhz neft gərəkdir. Lakin sovet tarixçiləri bu mühüm amilə lazımi qiymət verməmiş, almanların məğlubiyyətini başqa səbəblərlə əlaqələndirməyə çalışmışlar. Minlərlə tankın, təyyarənin, sualtı və suüstü gəmilərin intensiv surətdə hərbi əməliyyatlarda iştirakı duru yanacağı bu nəhəng müharibənin əsas aparıcı qüvvəsinə çevirmişdi. Dəmir yollarının da kömür və duru yanacaqla işləməsini bunlara əlavə etsək, enerji amilinin nə demək olduğu daha aydın dərk edilər. Bunun müqabilində müəllif haqlı bir sualla müraciət edir: «Qafqaz neftinin və xüsusilə Bakı neft rayonunun almanların tam nəzarəti altına keçdiyi təqdirdə, «rus xalqının yüksək mənəvi dəyanəti» ilə «rus ordularının gücü» hansı miqyasla ölçülərdi?» Bu gün tam inamla deyə bilərik ki, Sovet İttifaqının əsas gücü, ilk növbədə, Bakı neftinin mövcudluğunda və onun ixtiyarında olmasında idi.

Ümumiyyətlə, 1942-ci il böyük neft uğrunda on qanlı müharibə ilinə çevrildi və son nəticədə yanacaq problemini birmənalı şəkildə ön plana çəkdi. Müharibə səhnəsinin genişlənməsi və onun üzüntülü xarakter alması (bu «Blits-kriq»in iflası idi) yanacağın strateji əhəmiyyətinin son dərəcə vacib olduğunu sübut etdi. Birinci dünya savaşının sonunda olduğu kimi, mühüm hərbi əməliyyatların marşrutu şüurlu surətdə neftlə zəngin olan bölgələrə doğru uzandı. Belə ki, alman orduları neft mənbələrinə doğru hər iki istiqamətdə hərəkətə başladı. Rommelin «Afrika korpusu» ciddi problem yaradırdı. Müəllifin fikrincə Çörçillin Rommelə böyük diqqət yetirməsi və Quzey Afrikanı 2-ci cəbhə adlandırması heç də əbəs deyildi. Almanlar Liviyada və Misirdə bir sıra ciddi qələbələr əldə etmişdilər. Və almanların Afrika ekspedisiyasının nə ilə nəticələnəcəyi hələ heç kəsə bəlli deyildi. Burada Britaniyanın strateji uğursuzluğu, son nəticədə nəinki Böyük Britaniyanın, eyni zamanda, SSRİ-nin də fəlakəti ilə nəticələnə bilərdi.

1942-ci ilin yayında yaranmış hərbi vəziyyət istər Quzey Afrikada, istərsə də SSRİ-nin cənubunda müttəfiqləri narahat edirdi. Hər hansı cəbhədən birinin məhvi digərini də fəlakətə sürükləyə bilərdi. Almanların Stalinqradda başladıqları son hücumlardan bir neçə gün sonra,

oktyabrın 23-də ingilis qoşunları əl-Alameyn altında Rommelə qarşı hücuma keçdilər. N.Rza yazır ki, bu, öz hərbi-strateji əhəmiyyətinə görə Stalinqraddan heç də geri qalmayan bir əməliyyat idi. Stalinqrad cəbhəsindən alman təyyarələri Quzey Afrikaya göndərildi, halbuki Paulyusun 6-cı ordusu artıq mühasirə günlərini yaşayırdı və yanacaq problemi gü-nü-gündən artırdı.

Lakin sovet tarixçiləri Quzey Afrikadakı hadisələrə obyektiv qiymət verməkdən çəkinmişlər, çünki onlar tərəfindən İkinci cahan savaşı, demək olar ki, yalnız sovet-alman qarşıdurması kimi qələmə alınıb. Və bunun nəticəsi olaraq saxtalaşdırılmış bir fikir tarixə gətirilib ki, guya İkinci cahan savaşının ağırlıq mərkəzi yalnız və yalnız SSRİ məkanında olub.

Sənədləri araşdırarkən, Nazim Rza 1942-ci ildə ikinci cəbhənin açılmamasının səbəbini göstərir. O, yazır ki, Britaniya Almaniyadan fərqli olaraq, müharibənin ağırlıq mərkəzini daha düzgün müəyyən etmişdi. Odur ki, Stalinin dəfələrlə etdiyi təkidlərə baxmayaraq, Çörçill əsas təhlükəni Orta və Yaxın Şərqin işğal edilməsində görürdü və Avropanın qərbində ikinci cəbhənin açılmasına razılıq vermədi. Əksinə, Quzey Afrikanı daha mühüm müharibə səhnəsi hesab edərək, əsas diqqəti məhz bu bölgəyə yetirməyi daha vacib saydı. Çünki almanlar Orta və Yaxın Şərqi ələ keçirdikdən sonra Bakı neft mədənlərinə daha asanlıqla çata bilərdilər, nəinki bütün Şərqi Avropanı keçib böyük bir coğrafi əraziyə malik olan Sovet İttifaqının hərbi qüdrətini sarsıtmaqla.

Müharibənin sonuna doğru Vermaxtın yüksək rütbəli hərbçisi Albert Şneyer İtaliyada hərbi əməliyyatları davam etdirən 10-cu orduya nəzər yetirərkən, belə bir mənzərənin şahidi olmuşdu: alman ordusunun 150 yük maşınının hər birini dörd öküz dartırdı. Yanacaq yox idi[3].

Günümüzdə dünyada neft ehtirasları yenə də qızışmaqdadır. Nazim Rza İsrafiloğlunun «Neft və cahan savaşı» adlı kitabı hər bir oxucunu düşündürmək üçün bir çox məqamları xatırladır. Çünki neft misilsiz yanacaq kimi nəinki maşınları hərəkətə gətirən, həm də bir anda dünyada hərbi-siyasi münasibətləri alışdıran ecazkar bir cövhərdir.

**Elmira Muradəliyeva,**
*tarix elmləri doktoru, professor.*

[3] Дэниел Ергин. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть. Москва, 1999, с. 369.

*Həyatını Azərbaycan xalqının istiqlalına və maarifləndirməsinə həsr etmiş görkəmli ictimai və siyasi xadim, şair, dramaturq, xalq müəllimi Mirzə Məhəmməd Axundzadənin əziz xatirəsinə ithaf olunur.*

# MÜƏLLİFDƏN

Azərbaycan neftinin qədim və zəngin tarixini, habelə onun ətrafında baş verən çoxsaylı hadisələri araşdırıb təhlil edərkən İkinci cahan savaşında həlledici amillərdən birinə çevrilmiş neft amilinin nə dərəcədə müstəsna əhəmiyyət kəsb etdiyi diqqətimi xüsusilə cəlb etdi.

Bəşər tarixində ən dəhşətli savaş olan İkinci cahan müharibəsində milyonlarla insan həlak oldu, minlərlə şəhər, qəsəbə, kənd xarabazara çevrildi. Dünyanın onlarla ölkəsi, dinindən, irqindən, cinsindən asılı olmayaraq planetimizin müxtəlif yerlərində yaşayan xalqlar misli görünməyən mənəvi və fiziki məhrumiyyətlərlə üzləşdilər. Saysız-hesabsız maddi və mənəvi sərvətlər məhv edildi. Öz miqyasına, əhatə dairəsinə və qəddarlığına görə misli görünməyən bu müharibə sözün əsl mənasında bəşəriyyətə və insanlığa qarşı törədilmiş bir cinayət kimi qiymətləndirilməlidir. Və təəssüflər olsun ki, böyük «neft» uğrunda aparılan bu müharibənin belə faciəli xarakter almasında ulu Tanrının insanlara bəxş etdiyi ecazkar və bənzərsiz sərvət olan neft son dərəcə aparıcı və həlledici amilə çevrilmişdir. Odur ki, kitab üzərində işləyərkən, bir daha əmin oldum ki, neft xalqlar və ölkələr arasında müharibəyə, insanlığa qarşı zorakılığa, hərbi və siyasi qarşıdurmalara, maddi və mənəvi sərvətlərin məhv edilməsinə deyil, planetimizin hər bir guşəsində əmin-amanlığa, insanların xoşbəxt gələcəyinə, bəşər sivilizasiyasının daha yüksək inkişafına xidmət etməlidir.

Neftə köklənmiş İkinci cahan savaşının tarixini tədqiq və təhlil edərkən gəldiyim əsas nəticə ondan ibarət oldu ki, öz mahiyyəti etibarilə neft dağıdıcı deyil, yaradıcı qüvvədir. Və ona da xidmət etməlidir. Planetimizin təhlükəsiz gələcəyi də məhz elə bunu tələb edir.

Hörmətli oxucu, sizə təqdim etdiyim kitabda buna nail ola bilmişəmsə, özümü son dərəcə xoşbəxt hesab edirəm.

# GİRİŞ

Bəşər tarixində baş vermiş müharibələrin nə sayı var, nə də hesabı. Onların törənmə səbəbləri müxtəlif olduğu kimi, döyüş qaydaları və üsulları da zaman keçdikcə dəyişmişdir. İllər, əsrlər ötdükcə hərb sənəti durmadan mükəmməlləşərək inkişaf etmiş, öz dövrünün qarşıya qoyduğu, eyni zamanda da gündən-günə artan tələblərə cavab verməyə çalışmışdır. Hərb sənəti təkmilləşdikcə, onun texniki imkanları artdıqca hərbi münaqişələrin də miqyası kəskin surətdə genişlənmiş, artıq müharibə səhnəsinə təkcə ayrı-ayrı ölkələr, məmləkətlər deyil, bütöv qitələr cəlb edilmişdir. Bu mənada XX yüzillik bəşəriyyətin hərb tarixində müstəsna yer tutur. Birincisi, müharibənin ümumbəşəri xarakter alması məhz XX əsrin payına düşür. İkincisi, hərbi texnikanın yaradılmasına xidmət edən texnologiyanın getdikcə daha geniş vüsət alması və müharibənin taleyinin həll edilməsində mühüm amillərdən birinə çevrilməsinə görə. Üçüncüsü isə son dərəcə dağıdıcı gücə və tarixdə misli görünməyən kütləvi insan qırğını törətmək qabiliyyətinə malik olduğuna görə.

Birinci cahan savaşı total müharibələr tarixində ilk böyük addım, ilk sınaq olmaqla yanaşı, həm də döyüş əməliyyatlarının gedişatını istər taktiki, istərsə də strateji nöqteyi-nəzərdən keyfiyyətcə yeni, kəmiyyətcə daha yüksək mərhələyə qaldırdı. Gələcək müharibələrə gedən yollar artıq aydın görünürdü. Birinci cahan savaşının sonlarına qədər günbəgün artan, təkmilləşən mühərrikli hərbi texnika artıq döyüş bölgələrinin ən müxtəlif sahələrində: quruda, havada, okean və dənizlərdə, hətta suyun altında belə geniş tətbiq olunurdu. Müharibənin taleyini də əsasən hərbi-texniki qüdrət və ilk növbədə, texnikanı hərəkətə gətirən sehrli maddə neft oldu. Neft kimdə vardısa, son nəticədə qələbə də onun oldu. Müharibənin sonlarına yaxın hərbi münaqişəyə cəlb edilmiş dövlətlərin neft uğrunda, xüsusilə də Bakı nefti uğrunda apardıqları mübarizənin son dərəcə kəskinləşməsi hamıya məlumdur.

Birinci cahan savaşı bir də onu göstərdi ki, gələcəkdə yeni müharibə baş verərsə, o, miqyasına görə əvvəlkilərdən daha geniş, daha dəhşətli, daha dağıdıcı olacaq. Və müharibə ilk növbədə mühərriklər müharibəsi olacaqdır. Bu, o deməkdir ki, neft amili son dərəcə mühüm önəm kəsb edəcək. Gələcək müharibə döyüşən ölkələrdən tükənməz neft ehtiyatları tələb edəcək. Neft əldə etmək, ona sahib olmaq yollarında ölüm-dirim müharibəsi gedəcək.



Dünyada baş verən sonrakı hadisələr birmənalı surətdə göstərdi ki, bu ehtimallar həqiqətdən heç də uzaq deyilmiş. 1939-cu ildə başlayıb 1945-ci ildə bitən, dünyanın bütün qitələrini zəncirvari reaksiya kimi özündə qovuşduran bir müharibənin — İkinci cahan savaşının cazibə nöqtələrindən biri də təbii ki, öz əvvəlki şöhrətini həmin dramatik dövrə qədər qoruyub saxlayan bizim şan-şöhrətli Bakı neftimiz idi.

Təəccüblü deyil ki, faşist Almaniyasının hərbi-strateji planlarında Bakı neft rayonu son dərəcə mühüm yer tuturdu. Abşeronun zəngin neft mədənləri Almaniya üçün hava-su kimi lazım idi. Çünki Hitler və onun komandası yaxşı başa düşürdü ki, Bakı neft rayonunu qısa vaxtda ələ keçirə bilməsə, həyata keçirməyə cəhd etdiyi nəhayətsiz hərbi planlar nəinki boş bir xülyaya çevrilə bilər, hətta Almaniyanın böyük dövlət kimi öz gələcəyi belə şübhə altında qala bilər. Odur ki, Bakı neftini ələ keçirməkdən ötrü səlahiyyətində və ixtiyarında olan və olmayan bütün imkanlardan istifadə etməyə çalışırdı. Qara dənizdən Xəzər dənizinə qədər Baş Qafqaz dağları silsiləsi boyunca uzanan nəhəng cəbhə xətti əsasər bir məqsədə — Bakı neft rayonunun mümkün qədər tez işğal olunmasına xidmət edirdi. Vaxtın darlığı Hitleri və alman strateqlərini xüsusilə narahat edirdi. Onlar Bakını xeyli əvvəl və asanlıqla ələ keçirməyi planlaşdırmışdılar. Lakin alman komandanlığının sovet-alman cəbhəsində buraxdığı müəyyən səhvlər, Bakı neft rayonu kimi vacib bir strateji məntəqəni vaxtında ələ keçirməyə imkan verməmiş və əksinə, böyük problemlərlə üzləşdirmişdi. Çünki antihitler koalisiyasına daxil olan ölkələrdən SSRİ, ABŞ və Böyük Britaniyadan fərqli olaraq, Almaniyanın və müttəfiqlərinin duru yanacaq ehtiyatı heç də tükənməz deyildi. Sakit okeandan Atlantik okeanına qədər, Şimal Buzlu okeandan Hind okeanına qədər nəhəng bir ərazini əhatə edən müharibə səhnəsində cərəyan edən hərbi əməliyyatlarda on minlərlə tankın, təyyarənin, zirehli maşın və yük avtomobillərinin, sualtı və suüstü hərbi gəmilərin və digər texnikanın iştirakını nəzərə alsaq, günbəgün, saatbasaat tələb olunan duru yanacağın ümumi miqdarını təsəvvür etmək heç də çətin olmaz.

Müharibənin uzanması, daha dəqiq desək, Bakı neftini ələ keçirmək perspektivinin yubadılması Almaniyanı tez bir zamanda əvəzsiz böyük itkilərlə, müharibənin gələcək taleyini həll edən hərbi kataklizmlərlə üzləşdirə bilərdi. Sonrakı hadisələr bunun gerçəkdən də belə

olduğunu əyani şəkildə sübut etdi. Xüsusilə də Stalinqrad uğrunda gedən və bir an da səngiməmk bilməyən ağır döyüşlər, onun dəhşətli və faciəli nəticələri deyilənləri təsdiq etdi. Ümumiyyətlə, Stalinqrad uğrunda gedən döyüşlərlə, Bakını əldə etmək üçün Qafqaz istiqamətində aparılan hərbi əməliyyatları bir-birindən ayırmaq və onları ayrılıqda təhlil etmək heç bir məntiqə uyğun gəlmir. Doğrudur, bu barədə sonra ətraflı danışacağıq. Lakin bircə onu əvvəlcədən qeyd etmək lazımdır ki, Stalinqrad və Qafqaz uğrunda gedən hərbi əməliyyatlar qırılmaz tellərlə bir-birilə bağlıdır. Özü də hər iki tərəf üçün. Stalinqradın süqutu Qafqazın süqutu demək idisə, Bakı başda olmaqla, Qafqazın süqutu da nəinki Stalinqradın süqutu, həm də bütövlükdə SSRİ-nin bir dövlət kimi tam iflası demək idi. Müharibənin sonrakı taleyi böyük şübhə altında qala bilərdi.

Bunu Hitler də yaxşı başa düşürdü. O, hər vəchlə Bakını ələ keçirməyə çalışırdı. Odur ki, ən güclü hərbi hissələri, ən səriştəli generalları Qafqaz cəbhəsinə göndərirdi. Stalinqradda özünü göstərən duru yanacaq qıtlığı artıq Qafqaz cəbhəsində də özünü hiss etdirirdi. Bu, ciddi təhlükəyə çevrilmişdi. Almaniyanın öz ərazisindən çox-çox uzaqlarda döyüş əməliyyatları aparan çoxsaylı və yüksək dərəcədə motorlaşdırılmış bir ordunu gecəli-gündüzlü duru yanacaqla təmin etməsi günlər keçdikcə böyük problemə çevrilirdi. Qroznı ələ keçsə də, neft mədənləri tələf edilmişdi. Maykop mədənləri də həmçinin. Bircə Bakı qalırdı.

Bütün bu məsələləri biz ayrıca ətraflı təhlil etməyə çalışacağıq. Çünki buna olduqca böyük ehtiyac duyulur. Bakı neftinin İkinci cahan savaşındakı misilsiz əhəmiyyətini, böyük qələbədə Bakı neft amilinin müstəsna, deyərdim ki, həlledici rolunu hərtərəfli təhlil edib üzə çıxarmaq, onun bəşər tarixində ən dəhşətli müharibədəki tarixi mövqeyini müəyyənləşdirmək son dərəcə mühüm önəm kəsb edir.

Müharibədən sonrakı illərdə istər qərb ölkələrində, istərsə də keçmiş SSRİ-də İkinci dünya müharibəsinə həsr edilmiş saysız-hesabsız elmi əsərlər, memuarlar yazılmış, müxtəlif dillərdə kitablar, monoqrafiyalar çap edilmişdir. Bu əsərlərdə müharibənin səbəblərindən tutmuş onun nəticələrinə kimi bütün mərhələlər addım-addım izlənmiş və hərtərəfli tədqiq və təhlil edilmişdir. Bu da həqiqətdir ki, qeyd edilən tədqiqlər və təhlillərin heç də hamısı obyektiv və həqiqətə uyğun deyildir. Bu, həm qərb, həm də sovet müəlliflərinə aiddir. Halbuki onu da qeyd etmək vacibdir ki, sovet tarixşünaslığında və hərbi memuaristikasında obyektivlik hissi zəif olduğu kimi, tarixi hadisələrin, ayrı-ayrı faktların təhlili də bir çox hallarda həqiqətdən daha çox kommunist ideologiyasına yarınmaq və nəhayət arzu xarakteri daşıyırdı. Bu da şübhəsiz ki, məhz sovet ideya-siyasi və elmi prinsiplərinə xas olan bir



cəhətdir. Çünki o vaxt hakim olan totalitar və avtoritar bir rejimin saxta və süni təbliğatının ayrılmaz tərkib hissəsi olan sovet tarixşünaslığı başqa cür ola da bilməzdi. İyirminci əsrin iki nəhəng totalitar rejiminin ölüm-dirim çarpışmasında mühüm qələbə qazanmış Sovet totalitarizmi bu dəfə də özünə sadiq qaldı. 1917-ci il oktyabr çevrilişindən sonra özəlləşdirdiyi tarix elminin həqiqətən də tükənməz potensialını, qələbənin əldə edilməsində əsas amil kimi ideoloji amili tərənnüm etməyə yönəltdi. Daha doğrusu, bu, sovet quruluşunun, kommunizm rejiminin üstünlüklərini bir daha bütün dünyaya car çəkmək və Almaniya üzərindəki qələbənin tarixi və məntiqi cəhətdən qanunauyğunluğunu sübut etmək cəhdi idi. Belə bir ideoloji şəraitdə Ordunun yenilməzliyi onun məhz Sovet ordusu olması ilə, döyüşçülərin şücaəti onların əksəriyyətinin məhz kommunist və komsomolçu olması ilə, arxa cəbhədəki qələbələrin də məhz adamların sosialist vətənlərinə sədaqətləri ilə, cəbhədəki kiçik və ya böyük qələbənin isə ilk növbədə, ellər atası, dahi Stalin başda olmaqla Sovet İttifaqı Kommunist Partiyasının müdrik rəhbərliyi ilə əlaqələndirilirdi.

Təbii ki, belə bir şəraitdə, konkret faktlara, məntiqi mülahizələrə, obyektiv fikirlər və dəlillərə, ən önəmlisi isə əsl həyati həqiqətlərə əsla istinad etmək olmazdı. Halbuki tarixi gerçəklik aydın sübut edir ki, şərq cəbhəsində cərəyan edən hərbi əməliyyatlarda, bu əməliyyatların gedişindən əldə edilən nəticələrdə neft amili çox mühüm rol oynayıb. Neft amili deyəndə hökmən Bakı neftini nəzərdə tuturuq. Çünki SSRİ-də hasil olunan neftin 75 faizi Bakının payına düşürdü. Hazır neft məhsullarına gəldikdə isə Bakı üzrə bu rəqəm daha böyük idi. Belə ki, yüksək oktanlı benzinin 80 faizi, kerosinin, liqroinin 90 faizi, sürtgü və maşın yağlarının 95 faizi Abşeron mədənlərində hasil olunmuş neftdən hazırlanırdı[1].

İstər Hitler, istərsə də faşist Almaniyasının hərbi-siyasi elitasını təşkil edən digər yüksək rütbəli şəxslər Bakı neftinin misilsiz əhəmiyyətini və onun ələ keçirilməsinin Almaniya üçün son dərəcə həyati zərurətini öz çıxışlarında dəfələrlə vurğulamış, Vermaxtın baş qərargahının diqqətini daim bu mühüm məsələnin tez bir zamanda həll olunmasına yönəltməyə təkid etmişdilər. Almanlar gizlətmirdilər ki, Bakını tutduqları təqdirdə «Rusiya dizi üstə çökdürüləcək»dir. Bu sözləri sadəcə qəbul etmək düzgün olmazdı. Onun əsl mahiyyəti çox geniş və dərindir. Bu o deməkdir ki, Sovet İttifaqının əsas gücü, ilk növbədə, Bakı neftinin mövcudluğunda və onun əlində olmasındadır. Buna həmahəng olaraq, almanlar arasında belə bir fikir də dərin kök salmışdı ki, «müharibə pis şeydir, Bakını tutsaq müharibənin sonu olacaq, tutmasaq – bizim sonumuz». Bu sözlər bir daha sübut edir ki, almanlar Bakı neftini qələbənin əsas amili

hesab edir və son nəticədə ona sahib olan ölkənin müharibədə də zəfər çalacağını yaxşı anlayırdılar.

O dövrün ən müasir hərbi texnikası ilə təchiz olunmuş, yüksək intizama və döyüş qabiliyyətinə malik olan alman ordusu əgər Bakı neft rayonunu ələ keçirməyə müvəffəq olardısa, Almaniyanın dünyaya ağalıq etmək haqqında indi xülya adlandırılan planları bəlkə də reallaşa bilərdi.

Sənədlər təkzib edilməz şəkildə sübut edir ki, Bakı nefti Almaniyadan başqa, koalisiyaya daxil olan müttəfiq ölkələrin – ABŞ və Böyük Britaniyanın hakimiyyət dairələrini də az maraqlandırmırdı. ABŞ prezidenti Franklin Ruzveltin və Böyük Britaniyanın baş naziri Uinston Çörçillin SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinlə müharibə illərindəki məxfi yazışmaları bunu birmənalı şəkildə sübut edir.

Müttəfiqlər, yəni ABŞ və Böyük Britaniya bir yandan Bakının almanların əlinə keçəcəyindən ehtiyatlanır və Stalinə xəbərdarlıq teleqramları göndərərək təcili və etibarlı tədbirlər görülməsini təkidlə vurğulayırdılar. Digər tərəfdən 1942-ci ilin payızında Stalinqradda sovet ordusunun düçar olduğu ağır vəziyyəti bir qədər yüngülləşdirmək və alman ordusunun təzyiqini azaltmaq məqsədilə Stalinin müttəfiqlərdən qırıcı təyyarələr göndərilməsi barədə xahişini əldə əsas tutaraq, Ruzvelt və Çörçill ona yeni bir təkliflə müraciət etdilər. Onlar təyyarələri öz heyətləri ilə birlikdə göndərməyi daha məqsədəuyğun hesab edirdilər. Onlar hətta, eskadrilyaları yerləşdirmək üçün xüsusi hərbi-hava bazalarının yerlərini də tezliklə müəyyənləşdirməyi Stalindən xahiş edirdilər.

Ola bilsin ki, müttəfiqləri narahat edən başqa bir məsələ də var idi. Belə ki, müharibənin nə ilə qurtaracağı hələ şübhəli idi. Çünki alman ordusu 1942-ci ilin payızında hələ çox güclü idi. Odur ki, Hitler başda olmaqla Üçüncü reyxin digər rəhbərlərinin ambisiyaları nəinki azalmış, əksinə, əvvəlkindən də xeyli artmışdı. Çünki Bakını almaqla almanlar istər ABŞ-ı, istərsə də Böyük Britaniyanı böyük təhlükə qarşısında qoya bilərdilər. Odur ki, hər iki ölkə Güney Qafqazda hərbi-hava qüvvələrini yerləşdirməklə bölgədə öz nəzarətlərini artırmaq məqsədi güdürdülər. Digər tərəfdən isə müharibə qurtardıqdan sonra onun nəticələrindən asılı olaraq dünyanın sonrakı hərbi-siyasi durumunu müəyyən etmək 1942-ci ilin payızında hələ müşkül məsələ idi. Güney Qafqazda möhkəmlənməklə, ABŞ və Böyük Britaniya, Bakı neft rayonu da daxil olmaqla, strateji cəhətdən bu mühüm bölgəyə tam nəzarəti təmin edər, həm hərbi, həm də siyasi təşəbbüsü əldə saxlamağa nail ola bilərdilər. Çünki, hətta qalib gəlsə belə, SSRİ-nin müharibədən zəif çıxacağına müttəfiqlərin heç bir şübhəsi yox idi. Odur ki, onlar, xüsusilə də Böyük Britaniya 1919-cu ildə



buraxdığı səhvi düzəltməyə, tarixin verdiyi ikinci fürsəti əldən verməməyə, onu gec də olsa, həyata keçirməyə çalışırdılar.

Yaxşı məlumdur ki, 1918-ci ilin dekabrın sonunda başda Böyük Britaniya olmaqla müttəfiqlərin silahlı qüvvələrinin Bakı da daxil olmaqla Azərbaycana girməsi Güney Qafqazdakı siyasi duruma əsaslı təsir göstərdi. Həmin ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti və hökuməti təşkil edildi. Azərbaycan müstəqil dövlət kimi öz milli siyasətini yeritməyə başladı. Rusiyanın bölgədəki əvvəlki nüfuzu heçə endirildi. İqtisadi sahədə islahatlar yoluna qədəm qoyuldu. Lakin bununla belə müttəfiqlərin birləşmiş komandanlığının nüfuz dairəsi də son dərəcə geniş idi. Xüsusilə də neft sahəsində. Doğrudur, hələ əsrin əvvəlində ingilislər İranın cənubunda böyük neft bölgəsi aşkar etmişdilər. Lakin buna baxmayaraq, Bakı hələ də dünyanın ən böyük neft rayonu hesab edilirdi. Əgər illərdən bəri neft hasilatı ilə bağlı burada yaradılmış infrastrukturu da nəzərə alsaq, hələ o zaman Bakının strateji cəhətdən əvəzsiz olduğunu görmüş olarıq. İngilislərin o vaxt Bakıda yaratdıqları «Britaniya neft idarəsi» Bakı – Batumi neft kəməri və dəmir yolunda neft daşınmasına nəzarəti öz əlinə almaqla neft və neft məhsullarının maneəsiz olaraq Azərbaycandan çıxarılmasına nail olmuşdu. İngilislərin Azərbaycanda olduqları 9 ay ərzində ümumi dəyəri 113 milyon 500 min rubl olan 30 milyon pud neft və neft məhsulları daşınmışdı[2]. Üstəlik heç bir gömrük rusumu da ödənilmirdi. Neft faktiki olaraq pulsuz daşınırdı.

1919-cu ilin avqustunda ingilislərin Azərbaycandan, həmçinin Transqafqazdan çıxması bir qədər sonra ağır nəticələrə gətirib çıxardı. Tezliklə hər üç respublika Sovet Rusiyası tərəfindən işğal edildi, 1922-ci ilin dekabrında isə Sovet İttifaqı adlandırılan yeni bir imperiyanın tərkibinə qatıldı.

Sonrakı illərdə Böyük Britaniyanın siyasi dairələrində belə bir fikir hökm sürürdü ki, Antanta Transqafqazı, o cümlədən Bakı neft rayonunu müdafiə edə bilərdi və etməli idi də.

Odur ki, Böyük Britaniyanın baş naziri Uinston Çörçill tarixin verdiyi yeni bir fürsəti əldən vermək istəmir və öz niyyətini həyata keçirmək üçün hətta ABŞ prezidenti Franklin Ruzveltin də dəstəyini almağa çalışırdı. Artıq indi hamıya yaxşı məlumdur ki, müttəfiqlərin bu cəhdi uğurla nəticələnmədi. Onun da öz səbəbləri vardı. Ən mühümü isə almanların general-feldmarşal Paulyusun komandasında olan 6-cı ordusunun Stalinqradda düçar olduğu fəlakət idi. Sovet Ordusunun Stalinqraddakı böyük qələbəsi də, almanların ilk böyük məğlubiyyəti də, nə qədər təəccüblü görünsə də, ilk növbədə Bakı nefti ilə bağlı idi. Döyüşən tərəflərdən birinin, yəni SSRİ-nin duru yanacaqla aramsız təmin olun-

ması, rəqibinin isə, yəni Almaniyanın neftə kəskin surətdə möhtac olması SSRİ ərazisində gedən ən böyük döyüş əməliyyatlarından biri olan Stalinqrad uğrunda mübarizənin müqəddəratını həll etdi. Bu da öz növbəsində Qafqaz cəbhəsinə də əsaslı təsir göstərdi. Obyektiv dəlillər, tarixi faktlar, Stalinqrad döyüşlərinin bilavasitə iştirakçılarının söylədikləri və müxtəlif sənədlər sübut edir ki, Bakı nefti olmasaydı, nəhəng Stalinqrad çarpışmasının son nəticəsi də başqa cür ola bilərdi. Doğrudur, alman komandanlığının və şəxsən Hitlerin buraxdığı kobud səhvlər də özünün məhvedici rolunu az oynamadı. Lakin duru yanacaq, şübhəsiz ki, əsas amillərdən biri sayılmalıdır. Almanlar Paulyusun mühasirəyə düşmüş ordusunu xilas etməkdən ötrü hərbi nöqteyi-nəzərdən avantüra xarakterli üsullara da əl atdılar. 6-cı ordunu duru yanacaqla və başqa döyüş sursatı ilə təmin etməkdən ötrü Almaniyanın hərbi-hava qüvvələrinin hamisi reyxs-marşal German Görinq fantastik bir ideya irəli sürdü və onun icrasının təşkilini də öz üzərinə götürdü. Bu sərsəm ideyanın məğzi ondan ibarət idi ki, 6-cı orduya lazım olan duru yanacaq, hərbi sursat və ərzaq hava yolu ilə xüsusi təyyarə dəstələrindən ardıcıl olaraq istifadə etməklə daşına bilərdi. Lakin böyük əksəriyyət, o cümlədən ordunun komandanı Paulyus bu əməliyyatın heç bir fayda verməyəcəyini söylədilər. Doğrudan da çox qısa bir vaxtda məlum oldu ki, Görinqin heç bir reallığa əsaslanmayan bu ideyası xülyadan başqa bir şey deyildir. Tam uğursuzluqla nəticələnən bu üzdəniraq hava əməliyyatları təbii ki, mühasirədə çırpınan 6-cı ordunu nəinki xilas edə bilməzdi, hətta onun çıxılmaz vəziyyətini azacıq da olsa yüngülləşdirməyə qadir deyildi.

Stalinqrad uğrunda gedən döyüşlərin yuxarıda göstərilən bu reallıqları da sovet tarixşünaslığında və müharibəyə həsr olunmuş hərbi memuar ədəbiyyatında, təəssüflər olsun ki, öz əksini tapmamışdır. Halbuki bayaq qeyd edildiyi kimi, duru yanacaq amili Stalinqrad döyüşlərinin müqəddəratında aparıcı rol oynamışdı.

Stalinqrad əməliyyatı ilə bilavasitə əlaqəsi olan yüksək rütbəli sovet hərbçiləri K.Moskalenko «На юго-западном направлении», A.Yeryomenko «Сталинград», İ.Çistyakov «Служим Отчизне», A.Vasilyevski «Дело всей жизни» memuarlarında, habelə bir sıra başqa müəlliflər də, ənənəyə sadiq qalaraq, Stalinqrad döyüşlərini birtərəfli təhlil etmiş və əldə olunmuş qələbəni yalnız ideoloji motivlərlə əsaslandırmağa çalışmışlar.

Savaşın hətta ən dramatik, taleyüklü dövrlərində belə sovet ordusu aramsız olaraq Bakıdan göndərilən duru yanacaq və sürtgü yağları ilə fasiləsiz təchiz olunmuşdur. Alman təyyarələrinin və artilleriyasının ardı-arası kəsilməyən atəşi sayəsində külli miqdarda yanacağın yanıb tələf



olmasına baxmayaraq, neft məhsullarının cəbhə xəttinə çatdırılması bircə an da səngiməк bilmirdi. Halbuki külli miqdarda neft məhsullarını cəbhə bölgələrinə vaxtında çatdırmaq praktiki olaraq müşkül bir iş idi. Çünki Bakıdan şimal istiqamətində gedən ənənəvi kommunikasiya xətləri artıq 1942-ci ilin yayından başlayaraq almanların tam nəzarəti altında idi. Lakin buna baxmayaraq, Azərbaycan neftçilərinin fədakar əməyi nəticəsində hasil edilən Abşeron nefti böyük məhrumiyyətlər, ağlasığmaz çətinliklərlə gecəli-gündüzlü dolayı yollarla cəbhə bölgələrinə çatdırılırdı. Alman komandanlığı isə bunu ancaq arzu edə bilərdi. Sovet Ordusunun Bakı nefti ilə aramsız təchiz olunması fonunda Görinqin rəhbərlik etdiyi «hava körpüsü» əməliyyatının tam uğursuzluğu xüsusilə acınacaqlı idi. Bu əməliyyat 1942-ci ilin sonu, 1943-cü ilin yanvarında kəskin şaxtalı hava şəraitində, uzun müddət üzüntülü mühasirədə olan general-feldmarşal Paulyusun 6-cı ordusu üçün son və yeganə qurtuluş imkanı idi. Çünki duru yanacağın olmaması almanların hətta mühasirə şəraitində belə ixtiyarında olan saysız-hesabsız müxtəlif çeşidli hərbi-texnikasını adi bir metal yığınına çevirmiş, minlərlə əsgər və zabitinin heç bir güllə yarası almadan, şaxtadan donub səngərlərdə, hətta örtülü daldalanacaqlarda ölməsinə səbəb olmuşdu. Yanacağın olmaması alman əsgərlərinin döyüş qabiliyyətini kəskin surətdə zəiflətmiş, böyük əksəriyyətinin iradəsini qıraraq ümidsizliyə düçar etmişdi. Bunun da nəticəsində istər komanda heyətində, istərsə də sıravi döyüşçülər arasında ruh düşgünlüyünə səbəb olmuş, təslimçilik meyllərini getdikcə gücləndirmişdi.

Bütün bunlar sovet tarixşünaslığında və memuar ədəbiyyatında diqqətdən kənarda qalmış, ikinci dərəcəli amillər sayılaraq öz obyektiv qiymətini almamışdır. Hətta müharibənin əvvəlindən axırına qədər onun strateji xəttinin hazırlanıb həyata keçirilməsində əsas simalardan biri olan və Stalinqrad əməliyyatını dərindən bilən Sovet İttifaqı Marşalı Georgi Jukov da yazdığı üç cildlik «Воспоминания и размышления» adlı memuar əsərində bu mühüm amilə obyektiv diqqət yetirməmiş və ümumiyyətlə müharibənin taleyinin həll olunmasında duru yanacaq amilinin ətraflı və layiqli təhlilini verməmişdir.

Halbuki faşist Almaniyasının əsl niyyəti çoxdan bəlli idi və onlar bunu heç gizlətməyə də çalışmırdılar.

Bunu müharibənin elə ilk günlərində, daha doğrusu, 1941-ci il iyulun 3-də Ümumittifaq radiosu ilə məşhur çıxışında Ali Baş Komandan İ.V.Stalin birmənalı təsdiqləmişdi. Öz çıxışında o belə demişdi: «...Düşmən qəddar və amansızdır. O öz qarşısına alın tərimizlə sulanmış torpaqlarımızı, əməyimizlə hasil edilmiş taxılımızı və **n e f t i m i z i** *(seçmə mənimdir – müəllif)* ələ keçirmək vəzifəsini qoymuşdur»[1].

1082
Işlər İdarəsinin KİTABXANASI

SSRİ neft sənayesinə, xüsusilə də Azərbaycan neft sənayesinə ətraflı bələd olan və müharibə dövründə SSRİ neft sənayesi naziri vəzifəsində işləmiş Nikolay Baybakov 1969-cu ildə Moskvada çap etdirdiyi «Дело жизни» monoqrafiyasında müharibənin bütün dövrü ərzində Bakı neftinin misilsiz əhəmiyyətini inandırıcı faktlarla göstərərək, bu mövzunun, yəni Bakı nefti və İkinci dünya müharibəsi mövzusunun obyektiv təhlilini verməyə çalışmışdır. Lakin təəssüflər olsun ki, bu monoqrafiyada da Bakı neftinin İkinci cahan savaşındakı qələbədə həlledici amillərdən biri olması fikri istənilən, daha doğrusu, obyektiv səviyyədə əsaslandırılmamışdır. Dəqiq desək, Bakı neftinin müharibə strategiyasında həlledici rolunun olmasını göstərən fövqəladə statusu qabarıq şəkildə göstərilməmişdir. Halbuki Bakı neftinin qlobal önəm daşıması nəinki Almaniyanın, həmçinin müttəfiq dövlətlərin: ABŞ və Böyük Britaniyanın siyasi və hərbi dairələrinin, xüsusi xidmət idarələrinin daim diqqət mərkəzində olmuşdur.

SSRİ-dən fərqli olaraq Almaniyanın Bakı neftinə münasibəti heç də ideoloji xarakter daşımırdı. Onlar Bakı neftinə münasibətdə xalis əməli məqsədlər güdürdülər. Bakı neftini ələ keçirdikdən sonra onlar İran aşırımlarına yiyələnmək, daha sonra İraqı və Hindistanı işğal etmək niyyətində idilər. Bakı nefti olmadan bu planlar yalnız xülyaya çevrilə bilərdi. Alman təbliğatının baş carçısı Yozef Göbbels açıq deyirdi: «Müharibə kömür, dəmir və **n e f t** *(seçmə mənimdir – müəllif)* uğrunda gedir».

Stalinqrad epopeyası müharibənin taleyində neft amilinin nə dərəcədə mühüm olduğunu əməli şəkildə sübut etdi. Bunu alman hərbi strateqləri də tezliklə başa düşdülər və Qafqazın, xüsusilə də Bakının neft mədənlərinin vaxtında ələ keçirilməməsini o vaxta qədər buraxılmış ən böyük və bağışlanmaz səhv adlandırdılar. Lakin Stalinqrad yalnız məntiqi nəticə idi. Əsas səhv 1941-ci ilin payızında gedən üzüntülü döyüşlərdən sonra məlum oldu. Moskva ətrafındakı məğlubiyyət Hitleri sanki yuxudan oyatdı. O, özünə xas dəhşəti və hiddətini, ilk növbədə, yaxın ətrafına, xüsusən də silahlı qüvvələrin baş qərargahının rəisi general Brauxiçə yönəltdi və onu tutduğu vəzifədən kənarlaşdırdı. O, yalnız indi başa düşdü ki, ölkənin paytaxtı Moskva deyil, ilk növbədə Qafqazın neft mədənləri, xüsusən də Bakı neft rayonu ələ keçirilməli idi.

Alman generalı, müharibədə fəal iştirak etmiş Kurt Tippelskirxin «İkinci dünya müharibəsinin tarixi» kitabında, zənnimizcə çox maraqlı bir fikir irəli sürülür. Dünya müharibəsinə kənardan yox, içəridən bələd olan bu təcrübəli hərbi xadim və hərbi tarixçi yazır: «...Əgər Sovet İttifaqı müharibəni aparmaq üçün ona son dərəcə vacib olan Qafqaz neftini və Şərqi Ukraynanın aşağı Volqa axarına qədər olan münbit kənd təsərrüfatı vilayətlərini itirsəydi, o zaman amerikan yardımı (o cümlədən B.Britaniya) çox güman ki, bu itkilərin yerini heç cür doldura bilməzdi»[4].



Ümumiyyətlə, istər alman mənbələrində, istərsə də digər qərb ölkələrində yazılmış və İkinci cahan savaşının nəticələrini təhlil edən elmi əsərlərdə və memuar ədəbiyyatında neft amilinə ciddi diqqət yetirilmiş və onun müstəsna əhəmiyyəti obyektivcəsinə qiymətləndirilmişdir.

Alman müəlliflərindən Helmut Veltsin, Hans Dörrün, Kurt Tippelskirxin, Vilhelm Adamın, ingilis tədqiqatçısı Con Fullerin, «Sandi tayms» qəzetinin və BBC radiosunun 1942-ci ilin iyulundan 1946-cı ilə qədər olan müddətdə SSRİ-dəki müxbiri Aleksandr Vertin[5] kitablarında qarşıya qoyduğumuz mövzunun təhlil və tədqiq edilməsinə yönəldilmiş maraqlı, həm də xeyli obyektiv xarakterli materiallara, mülahizələrə, fikirlərə və tarixi sənədlərə rast gəlmək mümkündür. Adlarını çəkdiyimiz əsərləri sovet müəlliflərinin əsərləri ilə müqayisə etdikdə onların ideoloji doğmalardan nə qədər uzaqda olduğu aydın görünür. Doğrudur, bu əsərlərdə subyektiv fikirlər də az deyil və onların müəllifləri əsasən öz qarşılarına qoyduqları problemlərin tədqiqinə və təhlilinə geniş yer vermişlər. Yəni Bakı nefti ilə bağlı xüsusi olaraq tədqiqat aparmamışlar. Lakin bununla yanaşı, Bakı neftinin müharibənin taleyində həlledici amillərdən biri olması, faşist Almaniyasının hərbi strategiyasında onun tutduğu mühüm yer və ümümiyyətlə, istər müharibədən əvvəl, istərsə də müharibə illərində Bakı neftinin daim savaşın orbitində durması, onun mövcudluğu, qarşı-qarşıya durmuş hər iki tərəf üçün eyni dərəcədə həyati əhəmiyyətə malik olması, onun itiriləcəyi və ya zəbt ediləcəyi təqdirdə tərəflərdən biri üçün hansı faciələrə səbəb olacağı və bu kimi başqa fikirlər adları çəkilən əsərlərdə açıq-aşkar hiss olunur. O da qeyd edilməlidir ki, bu əsərlərin müəllifləri öz fikir və mülahizələrini ifadə etdikdə son dərəcə azaddırlar və heç bir senzura kabusu onları narahat etmirdi.

Stalinqrad əməliyyatı almanların Qafqazı, xüsusilə də Bakı neft rayonunu işğal etmək yolunda apardıqları mübarizənin mühüm tərkib hissəsi olmasına baxmayaraq əsas hadisələr, gözlənildiyi kimi, məhz Bakı istiqamətində cərəyan edirdi. Burada heç bir qeyri-adilik yox idi. Çünki Ali Baş Komandan Stalindən və SSRİ-nin digər yüksək rütbəli hərbi sərkərdələrindən fərqli olaraq, alman komandanlığı əsas strateji nöqtə Stalinqradı yox, təbii ki, Bakı neft rayonunu hesab edirdilər. İstər Hitler, istərsə də Üçüncü reyxin digər siyasi və hərbi başçıları bunu dəfələrlə söyləmiş və 1942-ci ilin yay kampaniyasını da məhz Bakı istiqamətində keçirməyi qərara almışdılar.

Lakin Sovet hərbi komandanlığı vəziyyəti düzgün qiymətləndirməyi bacarmadı. Almanların əsl niyyətini Ali Baş Komandan Stalin də əvvəlcə səhv təhlil etdi. Stalin başda olmaqla, çoxları elə düşünürdü ki, almanlar 1941-ci ildə Moskva yaxınlığında düçar olduqları məğlubiyyətin əvəzini çıxmağa çalışacaqlar. Bunu 1942-ci il noyabrın 6-da Böyük Oktyabr sosialist inqilabının 25 illiyinə həsr edilmiş təntənəli mərasimdə Dövlət Müdafiə Komitəsinin sədri Stalin belə şərh etmişdi: «...Bizim cəbhədə özlərinin yay hücumunu başlayarkən alman-faşist strateqləri hansı əsas məqsədi güdürdülər? Əgər xarici, o cümlədən də alman mətbuatındakı yazılara istinad etsək, belə düşünmək olar ki, hücumun əsas məqsədi Qroznını və Bakının neft rayonlarını ələ keçirməkdir. Lakin faktlar belə mülahizəni qətiyyətlə rədd edirlər. Faktlar deyir ki, almanların SSRİ-nin neft rayonlarına doğru hərəkəti əsas deyil, köməkedici məqsəd daşıyır.

Bəs belə olduqda alman hücumunun əsas məqsədi nədən ibarətdir? Ondan ibarətdir ki, Moskvanın şərq tərəfinə keçmək, onun Volqa və Ural ilə olan əlaqəsini kəsmək, sonra isə Moskvaya zərbə endirməkdir». Sonra öz fikrini daha da inkişaf etdirərək o demişdir: «Almanların cənuba, neft rayonlarına doğru irəliləməsinin köməkedici məqsədi təkcə ona görə deyil ki, neft rayonlarını ələ keçirsin, ona görədir ki, bizim əsas ehtiyatlarımızı cənuba doğru yayındırsın və bununla da Moskva cəbhəsini zəiflətməklə Moskvaya zərbə endiriləndə asanlıqla müvəffəqiyyət qazansın»[6].

Lakin sonrakı hadisələr göstərdi ki, bu heç də belə deyilmiş. Almanlar Stalinin təsəvvür etdiyi planla deyil, özlərinin tərtib etdiyi plana əsasən hərəkət etməyə başladılar. Beləliklə qısa vaxtda Qafqazın neft mədənləri, xüsusilə də Bakı neft rayonu böyük və ciddi təhlükə ilə üzləşməli oldu. Ali Baş Komandanlığın buraxdığı operativ-strateji səhvləri, sonralar Sovet İttifaqı Marşalı Georgi Jukov da təsdiqlədi. O yazırdı: «Qərargah və bəzi cəbhələrin komandanlıqları tərəfindən buraxılmış operativ-strateji səhvləri (bu səhvlər Hitler qoşunlarına Stalinqrad rayonuna və Şimali Qafqaza çıxmağa imkan vermişdi) aradan qaldırmaq üçün bütün ölkənin fövqəladə səyləri tələb olunmuşdu»[7].

Odur ki, Qafqaz istiqamətində gedən döyüş əməliyyatlarının məntiqi, ətraflı təhlili və tədqiqi müstəsna əhəmiyyət kəsb edir. Onun Stalinqrad əməliyyatları ilə sıx vəhdətdə olması, eyni strateji məqsədə xidmət etməsi əsas zərbənin istiqamətinin Bakı neft rayonuna doğru yönəldilməsi, onun uğuru və yaxud uğursuzluğu sonda hansı nəticələrə səbəb ola biləcəyi və bir sıra başqa məsələlərin geniş və ətraflı şəkildə araşdırılmasına böyük ehtiyac duyulur.



Qafqaz uğrunda gedən döyüşlərin ətraflı təsviri Sovet İttifaqı marşalı A.Qreçkonun «Битва за Кавказ» memuarında verilmişdir. Başqa müəlliflərdən fərqli olaraq, marşal Qreçko məsələnin əsl mahiyyətini göstərməyə çalışır. Alman strategiyasının ana xəttinin məhz Bakı neft rayonuna yönəldildiyini şərh etməklə, o bir növ Stalinin 1942-ci il noyabrın 6-da söylədiyi fikirləri, gec də olsa təkzib edir. Bununla belə Qreçko Birinci dünya müharibəsini də yada salmağı vacib bilir. 1917-ci ilin Oktyabr çevrilişindən sonra Rusiya imperiyasının dağılması, müharibə aparan dövlətlərin Bakı nefti uğrunda apardıqları mübarizəni daha da şiddətləndirdi. Yaxşı məlumdur ki, bu mübarizədə Almaniya da bilavasitə iştirak edir və Bakı neftini əldə etməklə müharibənin müqəddəratını öz xeyrinə həll etməyə çalışırdı.

A.Qreçko hətta almanların 1918-ci ildə Bakı neftindən bəhrələnmək yolunda həyata keçirmək istədikləri hərbi, siyasi və təşkilati tədbirləri qısaca olsa da təsvir etməklə, 1942-ci il əməliyyatı ilə bir növ analogiya yaratmağa çalışdı və müəyyən mənada buna nail oldu. Bununla əlaqədar qeyd etmək lazımdır ki, ümumiyyətlə Birinci və İkinci dünya müharibələrində Bakı neftinin müstəsna əhəmiyyəti olması haqqında nisbətən dolğun fikirlər məhz Qreçkonun adı çəkilən memuarında öz əksini tapmışdır. Digər əsərlərdə bu məsələyə ya heç toxunulmamış, ya da bir neçə cümlə ilə ötəri münasibət göstərilmişdir. Mən, əlbəttə ki, ilk növbədə sovet müəlliflərinin əsərlərini nəzərdə tuturam. Bu yazılarda əsas etibarilə almanların Sovet İttifaqına qarşı ərazi iddiaları, onların dünyada ilk sosialist dövlətini məhv etmək arzuları, ideoloji qarşıdurma və s. ön plana çəkilirdi. Halbuki onların ideoloji düsturları arasında heç bir əsaslı fərq mövcud deyildi. Bu, sadəcə iki nəhəng totalitar və avtoritar rejimin dünyada öz ağalığını bərqərar etmək üçün apardıqları ölüm-dirim mübarizəsi idi. Faktiki olaraq hər iki rejim istər daxili, istərsə də xarici siyasətdə, eyni məqsədə nail olmağa cəhd göstərirdi. Yəni məzmun eyni idi, üsullar isə başqa-başqa. Təəssüflər olsun ki, onların reallaşması üçün Bakı neftinin müstəsna əhəmiyyəti vardı. Qara dənizdən Xəzərə qədər uzanan Qafqaz dağlarında gedən amansız mübarizə də, tökülən qanlar da məhz bu məqsədə xidmət edirdi.

Başqa əsərlərdə olduğu kimi, Qreçkonun memuarında da döyüş əməliyyatlarının xronologiyası, taktiki gedişlər, bu və ya digər tərəfdən buraxılan səhvlərin təhlili, ayrı-ayrı cəbhə bölgələrində gedən döyüşlərin ümumi panoraması geniş təsvir olunmuşdur.

Lakin Stalinqrad haqqında yazılmış digər əsərlərdən fərqli olaraq, hərbi əməliyyatların əsas məqsədi burada daha aydın hiss olunur. Halbuki bir daha təkrar edirəm, Stalinqrad və Qafqaz əməliyyatlarını bir-

birindən ayırmaq və təklikdə təhlil etmək əsla yaramaz. Onlar bir zəncirin iki həlqələri idi və eyni məqsədə xidmət edirdilər. Bunu öz kitabında Qreçko da qeyd edir. O yazır: «Volqada gedən döyüşlərin ən məsuliyyətli anlarında hitlerçilər Şimali Qafqazdan Stalinqrada iri qüvvələr göndərə bilmədilər. Beləliklə, Qafqazdakı döyüş əməliyyatları Stalinqrad döyüşlərinə və Sovet Ordusunun əks-hücumuna şərait yaradılmasına müsbət təsir göstərməklə bərabər, Stalinqrad ətrafındakı qələbə də düşmənlərin Qafqazdakı hərbi-strateji vəziyyətinin pisləşməsinə eyni dərəcədə həlledici təsir göstərdi»[8].

Bu bir daha göstərir ki, cəbhələrdən hər hansı birinin məğlubiyyəti avtomatik olaraq digərinin də məğlubiyyəti demək idi. Bununla da Bakıya gedən yollar tamamilə açılmış olurdu. Hər iki cəbhənin eyni əhəmiyyətə malik olduğunu almanlar da təsdiq edirdi. General-polkovnik Kurt Tseytsler yazırdı: «1942-ci ilin yay kampaniyasını planlaşdırarkən Hitler hər şeydən əvvəl Stalinqradı və Qafqazı tutmaq məqsədi güdürdü»[9].

Bu fikir digər alman mənbələrində də, rəsmi sənədlərdə də dəfələrlə vurğulanıb. Zaqafqaziya cəbhəsinin komandanı, ordu generalı Tülenev yazırdı: «...Oktyabrın *(1942-ci il – müəllif)* əvvəlində Hitler Berlində proqram nitqi ilə çıxış etdi. Çıxışında o, xüsusilə qeyd etdi ki, qarşıya bu il bizim neft mənbələrimizə doğru yönəlmək, ya onları tutmaq mümkün olmazsa, onlara gedən yolları kəsmək vəzifəsi qoyulmuşdur. Bu bəyanatdan sonra rəqib neft mənbələrinə doğru dolama yolların axtarışını daha da gücləndirdi»[10].

Bu bir daha göstərir ki, alman komandanlığının planlaşdırdığı 1942-ci il yay kampaniyası Moskva istiqamətində deyil, cənuba, Qafqazın ilk növbədə isə Bakının neft mədənlərinə ünvanlanmışdı. Artıq 1942-ci ildə duru yanacaq sarıdan ciddi problemlərlə üzləşən Almaniya, eyni zamanda, Sovet Ordusunun o dövrdə əsas və yeganə gücünü də məhz Sovet İttifaqının neft ehtiyatlarının tükənməz olduğunda görürdülər. Odur ki, əlində olan hərbi və texniki imkanların böyük hissəsini cəmləşdirib, neft probleminin tezliklə həllinə yönəltdilər. Almanlar üçün həyati əhəmiyyətə malik olan bu plan üçün iki variant nəzərdə tutulmuşdu. Bunu, onların yüksək rütbəli hərbçilərinin verdikləri bəyanatlar da sübut edir. Birinci variant: mədənləri ələ keçirib tam nəzarətə almaq; ikinci variant: əgər bu mümkün olmasa, Sovet ordusunu da mədənlərdən məhrum etmək. Görünür, alman komandanlığı belə hesab edirdi ki, əgər Sovet Ordusu duru yanacaqdan məhrum olarsa, o zaman alman ordusuna qarşı güclü mübarizə aparmaqda onların əlində etibarlı arqument də olmayacaqdır. Çox güman ki, alman strateqlərinin bu məntiqi həqiqətdən heç də uzaq deyildi. Çünki onların istər havada, istər quruda, istərsə də



dənizdə texniki imkanları son dərəcə yüksək idisə və onlar bu potensialı istədikləri vaxt artıra bilərdilərsə, əksinə 1942-ci il də daxil olmaqla, Sovet Ordusu belə səviyyəli hərbi təchizatı yalnız xəyalından keçirə bilərdi. Sovet və alman hərbi texnikası keyfiyyət və kəmiyyətcə heç cür müqayisə edilə bilməzdi. Qafqaz cəbhəsində və Stalinqrad rayonunda 1942-ci ilin payızında yaranmış təhlükəli vəziyyət Ali Baş Komandan Stalini dəfələrlə ABŞ prezidenti Franklin Ruzveltə və Böyük Britaniyanın baş naziri Uinston Çörçillə müraciətlə qırıcı təyyarələr daxil olmaqla, çoxlu hərbi texnika göndərilməsini dönə-dönə xahiş etməyə məcbur eləmişdi. Müttəfiqlər Stalinin bu təkidli xahişini təcili yerinə yetirməklə, öz mənfəətlərini də müdafiə etmək məqsədi güdürdülər. Belə ki, əvvələ Birinci dünya müharibəsinə yekun vuran Versal sülhündən sonra qalib ölkələr olan ABŞ və Böyük Britaniya əsas rəqibləri Almaniyanın istər iqtisadi, istərsə hərbi cəhətdən zəifləyəcəyini, uzun müddət öz daxili problemlərilə əlləşərək beynəlxalq aləmdə gedən proseslərə ciddi müdaxilə etmək iqtidarında olmayacağını nəzərə alaraq, öz ölkələrində hərbi quruculuq işlərinin miqyasını nisbətən azaltdıqlarından geniş miqyaslı hərbi əməliyyatlara tam hazır deyildilər. İkincisi, şərq cəbhəsinə mümkün qədər çox alman hərbi hissələrinin cəlb edilməsi bu baxımdan onlar üçün son dərəcə əlverişli sayılmalı idi. Odur ki, Stalinin bu xahişi onların da maraqlarına xidmət etməklə yanaşı, həm də «Lend-liz» qanununa əsasən bağlanmış müqavilənin şərtlərinə də uyğun gəlirdi.

Onu da qeyd edək ki, «Lend-liz» haqqında qanun 1941-ci il martın 11-də ABŞ Konqressi tərəfindən qəbul edilmişdir. Bu qanun ABŞ hökumətinə ixtiyar verirdi ki, öz təhlükəsizliyini müdafiə etmək məcburiyyətində qalan ölkələrə lazım olan müxtəlif müdafiə xarakterli malları və materialları borc və ya icarəyə versin. Lakin bir şərtlə. Əgər o ölkələrin müdafiəsi, ABŞ-ın müdafiəsi üçün həyati əhəmiyyətə malikdirsə. Bunu müəyyən etmək hüququ isə şəxsən ABŞ prezidentinin səlahiyyətində idi.

Ümumiyyətlə, İkinci cahan savaşının istər siyasi, istərsə də hərbi aspektlərinin ardıcıl və hərtərəfli təhlili belə bir nəticə çıxarmağa imkan verir ki, Bakı məsələsində o, bir növ, Birinci cahan savaşındakı yarımçıq qalmış mübarizənin davamına çevrilib. Birincidə olduğu kimi, İkinci cahan savaşında da münaqişəyə cəlb edilmiş dövlətlərin Bakı barəsində öz konkret niyyətləri vardı. Buna bir tərəfdən hərb yolu ilə, digər tərəfdən isə diplomatiyaya xas olan üstüörtülü üsullarla nail olmağa cəhd edilirdi. İkinci cahan savaşını təhlil edən sovet müəlliflərinin demək olar ki, böyük əksəriyyəti Bakı nefti amilini kiçildərək onu sovet-alman cəbhəsinin lokal xarakterli çoxsaylı hadisələrindən biri kimi qələmə verməklə, Bakı neftinin əhəmiyyətini də digər məhsullar ilə demək olar

ki, eyni cərgəyə qoyur. Bununla da müharibənin müqəddəratında (təkcə şərq cəbhəsində deyil) onun fövqəladə rolunu adiləşdirməyə çalışırdılar. Lakin əslində bu belə deyildi. Bakı amili xeyli böyük, hətta, demək olar ki, qlobal xarakter daşıyırdı. Bakı amili İkinci dünya müharibəsinin taleyində son dərəcə önəmli və tarixi yer tuturdu. Bəşər tarixində ən dəhşətli və miqyasına görə misli görünməyən bir savaşın bir çox taleyüklü və həlledici məqamlarında Bakı neftinin göstərdiyi xidmətləri heç cür azaltmaq mümkün deyildir. Bu, həm şərq, həm də qərbdə mövcud olan cəbhələrə aid idi. Çünki şərq cəbhəsindəki hər hansı bir nəticə qərbdəki hərbi vəziyyətə də mənfi və ya müsbət təsirini mütləq göstərməliydi. Stalinqrad ətrafında və Qafqazdakı hərbi əməliyyatlar bunu birmənalı sübut edirdi.

Azərbaycanda İkinci cahan savaşına həsr edilmiş memuar ədəbiyyatının istənilən səviyyədə olmaması, yazılmış az saylı memuarlarda isə Bakı neftinin rolu barəsində geniş məlumatın olmaması, təbii ki, bu problemin əsas ağırlığını tarix elmi ilə mütəmadi məşğul olan alimlərin üzərinə qoyurdu. Zira araşdırmalar göstərir ki, bu sahədə fundamental tədqiqatlar olmadığına görə bu vacib, maraqlı, həm də böyük önəm kəsb edən problemin lazımi, daha dəqiq desək, tələb olunan səviyyədə təhlili indiyədək aparılmayıb. Doğrudur, Azərbaycan neft sənayesinin müharibə illərindəki fəaliyyəti, onun cəbhəni lazımi neft məhsulları ilə təmin etməsi xronikası o dövrün qəzetlərinin səhifəsində çap edilmiş xəbər, reportaj, əmək raportları idi, habelə mədən fəhlələrinin alman-faşist işğalçılarına qarşı nifrət və qəzəb dolu mitinqlərində qələmə alınmış geniş yazılarda öz əksini tapmışdı. Lakin onlar bir qayda olaraq, kommunist rejiminin inhisarına məhkum edilmiş bir mətbuata xas olan təbliğat xarakteri daşıyırdı.

Sonrakı illərdə Bakı nefti və müharibə mövzusu bir sıra tədqiqat xarakterli məqalələrdə, monoqrafiyalarda öz əksini tapdı. Lakin XIX əsrin sonu XX əsrin əvvəlləri ilə müqayisədə, İkinci dünya müharibəsi dövrü, öz əhatə dairəsi, problemin mürəkkəbliyi və dərinliyi nöqteyi-nəzərindən xeyli az işlənmiş, nədənsə tədqiqatçı alimlərin diqqətindən bir qədər kənarda qalmışdır. Bu mövzunun və problemin həm də ümummilli, ümumdövlət əhəmiyyət daşımasını da nəzərə alsaq, yazılmış monoqrafiyaların sayca azlığı da təəssüf doğurmaya bilməz. Odur ki, bu mövzuda yazılmış hər bir tədqiqat əsəri ciddi maraq doğurmalı, diqqətdən yayınmamalıdır. Odur ki, tarix elmləri doktoru Q.Mədətovun və M.Abbasovun monoqrafiyaları[11] bu yolda atılmış vacib, eyni zamanda, təqdirəlayiq addımlar hesab edilməlidir. Bu əsərlərdə müharibə dövrünün mürəkkəb və amansız şəraitində fəaliyyət göstərən Azərbaycan neft



sənayesi haqqında faktiki rəqəmlərlə zəngin olan xeyli məlumat verilir. Azərbaycan neftçilərinin fədakar əməyi, partiya və sovet orqanlarının rəhbər rolu, təşkilatçılıq fəaliyyəti və başqa bu kimi amillər geniş təsvir olunur. Həmin sözləri Azərbaycan SSR Elmlər Akademiyasının hazırladığı «Azərbaycan tarixi»[12] kitabına da şamil etmək olar.

Lakin Azərbaycan tarixçiliyi də daxil olmaqla, sovet tarix elminin Sovet İttifaqı Kommunist Partiyasının və ümumiyyətlə sovet totalitar rejiminin inhisarında olması, tədqiq edilən mövzunun əhəmiyyətini arzu olunan qlobal yüksəkliyə qaldırmağa imkan verməmişdir. Təkcə, Böyük Vətən müharibəsi adlandırılan müharibədə deyil, ümumiyyətlə İkinci dünya savaşında Bakı amilinin mövcudluğu və amilin önəmi tək Almaniyanın deyil, həm də SSRİ-nin müttəfiqləri ABŞ və Böyük Britaniyanın da açıq-gizli strateji planlarında mühüm yer tuturdu. Və bu strateji maraq müharibə illərində deyil, ondan xeyli əvvəl təşəkkül tapmışdı. Odur ki, Bakıya elementar yanacaq doldurma məntəqəsi kimi baxmaq böyük sadəlövhlük olardı. Halbuki kommunist ideologiyasına xidmət göstərməyə məcbur edilmiş rəsmi sovet təbliğatı və memuar ədəbiyyatı da daxil olmaqla sovet tarixşünaslığı məhz bu fikri aşılamağa və təlqin etməyə təhrik edilmişdi ki, bunu da professor S.Əliyarovun sözləri ilə desək, «sovet tarixçilik imperializmi» kimi qiymətləndirmək olar. Yəni son dərəcə siyasiləşdirilmiş tarix elmi bu və ya digər mövzunu aşkarlamaqda qeyri-rəsmi, daha dəqiq desək, yazılmamış qanunlara əsasən qoyulmuş kvota və çərçivələrə uyğun hərəkət etməli idi. Məhz elə buna görə də bəşər tarixinin inkişafı gedişinə əhəmiyyətli düzəlişlər vermiş olan İkinci dünya savaşında Bakı amilinin mövcudluğunu inkar etmək və onun əhəmiyyətini adiləşdirmək Sovet imperiya siyasətinə və ideologiyasına tam uyğun gəlirdi. Halbuki hələ Birinci cahan savaşının başlanmasına hələ xeyli qalmış, neftin gələcək müharibədə əsas həlledici rol oynayacağı artıq çoxlarına yaxşı bəlli idi. Odur ki, istər-istəməz Birinci cahan savaşının ilk günlərində «Neft Napoleonu» adlandırılan, məşhur «Royal/Datç-Şell» neft şirkətinin başçısı Henri Deterdinqin yavəri olmuş Elliot Alvesin dediyi sözlər yada düşür: «Ordu da, donanma da, dünyanın bütün qızılları və xalqları da neftə sahib olanlar qarşısında gücsüz və acizdirlər».

İkinci dünya savaşı bir daha sübut etdi ki, bu doğrudan da belədir.

Yeri gəlmişkən onu da qeyd etmək vacibdir ki, müharibədə neft amili təkcə sovet-alman cəbhəsi və Bakı nefti ilə məhdudlaşmırdı. Problem daha qlobal xarakter daşıyır və istər-istəməz müharibənin, bir növ, ana xəttinə çevrilirdi. Bu xüsusda Quzey Afrikada cərəyan edən və sovet tarixçiliyinin məlum səbəblərə görə diqqətindən yayınan və dərin

araşdırmalardan kənarda qalan hadisələr İkinci cahan savaşının mühüm mərhələlərindən biri kimi qiymətləndirilməlidir. Çünki, general Ervin Rommelin komandanlıq etdiyi Almaniyanın «Afrika korpusu»nun hərbi-ekspedisiya fəaliyyəti ilk növbədə neft amili ilə əlaqədar idi. Əsas məqsəd Liviya və Misirin boş səhralarını işğal etmək yox, əksinə Süveyş kanalını addayaraq İraqın və Yaxın Şərqin neftlə zəngin digər bölgələrini ələ keçirmək idi. Bu baş tutacağı təqdirdə Böyük Britaniya şübhəsiz ki, həlledilməz problemlərlə üzləşməli olacaqdı. Ona görə ki, onun əsas neft mənbələri məhz bu bölgədə yerləşirdi. Yaxın Şərqə çıxacaqları təqdirdə, Almaniya həmçinin İranın güneyində yerləşən «İngiltərə-İran» neft şirkətinə məxsus neft mədənlərinə sahib olmaq imkanı əldə edərdi. Digər tərəfdən isə Qafqazda hərbi əməliyyatlar aparan «A» ordular qrupunun Bakı neft rayonunu ələ keçirəcəyi təqdirdə, Rommelin «Afrika korpusu»nun onunla birləşməsi asanlıqla reallaşa bilərdi. Bu isə öz növbəsində Hitler Almaniyası qarşısında ağlasığmaz perspektivlərin açılması, Böyük Britaniya ilə SSRİ-nin qarşısında isə çox ciddi kataklizmlərin yaranması demək olardı. Odur ki, Stalindən fərqli olaraq, bu problemi zənnimcə daha dərindən dərk edən Çörçill, Quzey Afrikada öz təzyiqini gündən-günə artıran və qısa müddətdə xeyli uğurlar qazanmış alman silahlı qüvvələrinə qarşı daha ciddi, daha səmərəli mübarizə aparmaq məcburiyyətində qalmışdı. «Lend-liz» qanununa əsasən SSRİ-yə göstərilən yardımın daşınmasının Şimal marşrutundan cənuba, İran körfəzinə keçirilməsi də elə bu zərurətdən doğurdu. Quzey Afrikada ağır döyüşlər aparan Böyük Britaniya ordusunu hərbi sursatla fasiləsiz təchiz etmək məqsədi daşıyırdı. Bu, Stalinin etirazlarına baxmayaraq, Çörçillin ardıcıl həyata keçirdiyi şəxsi təşəbbüsü idi. Müharibənin gedişində bu özünü tamamilə doğrultdu. General Rommel son nəticədə qarşısında duran strateji vəzifəni yerinə yetirə bilmədi. Lakin onu da qeyd etmək vacibdir ki, «Afrika korpusu»nun hərəkətini əngəlləyən təkcə Britaniya silahlı qüvvələri deyildi. Duru yanacağın ardıcıl olaraq çatışmazlığı almanları daim müşayiət edən ən böyük problemlərdən biri idi. Böyük hərbi əməliyyatların ən həlledici məqamında və almanların üstünlüyü artıq heç kimdə şübhə doğurmadığı bir vaxtda duru yanacağın yoxluğu Rommelin sərəncamında olan tankların və digər hərbi texnikanın tam hərəkətsizliyinə və hərbi təşəbbüsün əldən verilməsinə səbəb oldu. İnanılmaz vəziyyət ondan ibarət idi ki, neft mənbələrinə çatıb ona sahib olmaqdan ötrü də külli miqdarda duru yanacaq ehtiyatına malik olmaq gərək idi. Belə vəziyyət müharibənin ən müxtəlif səhnələrində dəfələrlə təkrarlanmış, bu və ya digər hərbi əməliyyatların, ayrı-ayrı məhəlli döyüşlərin taleyini həm taktiki, həm də strateji nöqteyi-nəzərdən həll etməyə qadir olmuşdur. Təəssüflər olsun



ki, bu hadisələr konseptual nöqteyi-nəzərdən istər Azərbaycan, istərsə də keçmiş SSRİ tarixçiliyində öz əksini, yumşaq desək, demək olar ki, tapmamışdır.

Nəzərə alsaq ki, İkinci cahan savaşından sonra neft uğrunda mübarizələr nəinki sönmişdir, əksinə, daha ciddi, daha geniş miqyas almışdır. Əgər yeni dünya savaşı başlayarsa, şübhəsiz ki, neft amili yenə də əsas səbəblərdən birincisi olacaqdır. O zaman sağlıq olarsa, yuxarıda adı çəkilən problemin böyük əhəmiyyət kəsb etdiyinin dübarə şahidi olarıq. Allah millətimiz üçün xeyirlisini qismət eləsin!

Bizim günlərdə Bakı növbəti neft mərhələsinə daxil olur. Zaman göstərdi ki, neftin həlledici amil kimi əhəmiyyəti nəinki azalmayıb, əksinə, daha da artıb. Neft milli təhlükəsizlik, iqtisadi inkişaf, qarşılıqlı əməkdaşlıq amilinə çevrilməklə yanaşı, hərbi və siyasi qarşıdurma, qaynar nöqtələr, regional münaqişə və mübahisə meydanına, qlobal siyasətdə fövqəl dövlətlərin çəkişməsinə səbəb olub. Bakı nefti ətrafında baş verən müxtəlif hadisələr və bir çox hallarda əsl qalmaqal deyilənləri bir daha təsdiq edir. Odur ki, ötən illərdə baş vermiş qlobal hadisələri dərindən təhlil etmək və lazımi nəticələr çıxarmaq mühüm önəm kəsb edir. Qarşıya qoyulan vəzifə də məhz bu məqsədə xidmət edir. Çünki Bakı neft amili həmişəkindən daha aktualdır və hələ uzun illər boyu gündəmdən düşməyəcəkdir.

# I FƏSİL

## SAVAŞDAN SAVAŞA

1914-cü il iyun ayının 28-də Bosniyanın Sarayevo şəhərində Avstriya taxt-tacının vəliəhdi Frants Ferdinandın qətlə yetirilməsi ilə başlanan Birinci dünya savaşı dörd il dörd ay davam etdi. 1918-ci il noyabrın 11-də Paris yaxınlığındakı Kompyen meşəsində qoyulmuş dəmiryol vaqonunda Almaniya hökuməti təslim aktına imza atdı. Bununla da bəşər tarixində ilk Dünya savaşı sona yetdi. Öz miqyasına, münaqişədə bilavasitə və dolayı iştirak edən ölkələrin sayına, tətbiq edilən hərbi texnikanın miqdarına görə tarixdə misli görülməmiş bu savaşa 1919-cu il iyunun 28-də son qoyuldu. Həmin gün Paris yaxınlığındakı Versal sarayının güzgülü salonunda sülh müqaviləsi imzalandı. Tarixə Versal sülhü kimi daxil olan bu müqavilə qalib ölkələrlə məğlub olmuş Almaniya arasında bağlanmışdı. Sülh danışıqları çox çətin keçmiş, böyük mübahisələrə səbəb olmuş, odur ki, aylarla uzanmışdı. Nəhayət Almaniya qaliblərin – Antanta dövlətlərinin iradəsinə tabe olmaq məcburiyyətində qalmışdı. İmzaatma mərasiminin toplardan atılmış yaylım atəşinin gurultulu sədaları altında keçirilməsi isə bir növ rəmzi xarakter daşıyırdı. Bu, eyni zamanda Birinci dünya müharibəsinin artıq tarixə çevrildiyini bildirən axırıncı top atəşləri oldu. Lakin illər ötdükdən sonra bəlli oldu ki, əsl faciələr, ən taleyüklü hadisələr hələ qabaqdadır.

Birinci dünya savaşının iştirakçısı, ingilis hərbi yazıçısı general-mayor Con Fuller həmin sülh müqaviləsini belə şərh etmişdi: «Beləliklə top atəşlərinin gurultusu altında Birinci dünya müharibəsi basdırıldı, ikincinin isə əsası qoyuldu»[1]. Beləliklə, Fullerin fikrincə Versal sülhü İkinci dünya müharibəsinin səbəbkarına çevrildi. Belə mülahizə təbii ki, müxtəlif suallar doğurmaya bilməzdi. Görəsən nə üçün? Necə ola bilərdi ki, sülhü bərqərar etmək naminə bağlanmış bir müqavilə yenidən, əvvəlkindən daha dəhşətli bir müharibəyə təkanverici səbəb olsun. Lakin müqavilənin maddələrini təhlil etdikdən sonra, bunun doğrudan da həqiqətə uyğun olduğuna inam yaranır. Həm də bu, Fullerin tək öz mülahizəsi deyildi. Hələ sülh danışıqlarının gedişi günlərində belə onun yararsızlığı,

Avropanın gələcəyi üçün ciddi təhlükəyə çevriləcəyi barədə açıq fikirlər söylənilir, etiraz xarakterli addımlar atılırdı.

İtaliyanın o zamankı baş naziri Nitti bunu belə şərh edirdi: «Bu dəhşətli hadisə çağdaş tarixdə həmişəlik qalacaq: heç bir anda, heç bir ənənəyə baxmadılar, Almaniya nümayəndələrinə söz də vermədilər. Onların isə imzalamaqdan başqa çarələri qalmamışdı; aclıq, üzüntü, inqilab təhlükəsi onlara başqa cür hərəkət etmək imkanı vermədi... Əski kilsə qanununa görə, hətta iblis də dinlənilmək hüququna malikdir. Millətlər birliyi yaratmaq niyyətində olan yeni demokratlar, günahkarlar üçün hətta orta əsrlərin zülməti şəraitində belə müqəddəs sayılan qaydaları (qanunları) yerinə yetirmədilər»[2].

Versal sülhünün Almaniyaya qarşı yönəldilmiş və əsasən birtərəfli mövqedən olan müddəaları iyirmi il keçdikdən sonra Adolf Hitlerə öz təcavüzkar planlarını əsaslandırmağa bir növ hüquqi zəmin yaratdı. 1939-cu il sentyabrın 1-də Reyxstaqda etdiyi çıxışında o, bu sözləri bəyan etdi: «Müqavilə bizə gicgahımıza dirənmiş tapançanın lüləsi və milyonlarla insana qarşı yönəlmiş aclıq təhlükəsi altında sırınmışdır»[3].

1918-1920-ci illərdə keçirilmiş Paris sülh konfransında tərtib edilmiş Versal sülhünün şərtlərinə görə Almaniya öz ərazisinin xeyli hissəsini qonşu dövlətlərə qaytarmalı idi. Belə də oldu. Elzas və Lotaringiya Fransanın, Malmezi və Eypen dairələri Belçikanın, Poznan şəhəri, Pomeraniyanın bir hissəsi də daxil olmaqla Qərbi Prussiyanın digər əraziləri isə Polşanın tərkibinə keçdi. Dansiq (indiki Qdansk) şəhərinin Almaniyanın nəzarətindən çıxarılmasını və «azad şəhər» statusu almasını nəzərə alsaq, bunun Almaniya üçün istər mənəvi, istərsə də siyasi cəhətdən nə qədər böyük zərbə olduğu aydın görünər. Bu həm də keçmiş imperiyanın dizi üstə çökdürülməsi demək idi.

Versal sülh müqaviləsinin iqtisadi nəticələri də Almaniyanın xoşbəxt gələcəyini şübhə altında qoyurdu. Məşhur ingilis iqtisadçısı Con Keynsin bu məsələyə münasibəti böyük maraq doğurur. Müharibə dövründə Britaniya xəzinəsinə işə dəvət edilən Keyns, sonradan onun Paris sülh konfransındakı rəsmi nümayəndəsi təyin edilmiş və 1919-cu il iyun ayının 7-nə kimi bu vəzifədə çalışmışdır. O, həmçinin Antantanın Ali İqtisadi Şurasının iclaslarında da bilavasitə iştirak etmişdir. Lakin gördükdə ki, sülh müqaviləsinin layihəsinə əhəmiyyətli dəyişikliklər etmək üçün heç bir ümid qalmayıb, o öz səlahiyyətlərindən imtina etmək məcburiyyətində qalır. Onun etirazı nəinki bu müqavilənin əleyhinə, həmçinin, Avropanın iqtisadi problemlərinə göstərdiyi münasibətə görə konfransın bütün siyasətinə qarşı yönəlmişdi.



Etirazın səbəblərini o elə həmin ildə yazdığı və çap etdirdiyi «Versal sülh müqaviləsinin iqtisadi nəticələri» əsərində aydınlaşdırır. Kitabdakı hər söz, hər fikir bütün dünyaya bəlli olan faktlara əsasən formalaşıb ki, bu da onların hər kəs tərəfindən qavranmasını yüngülləşdirir.

Keyns əsərin 1922-ci ildə rus dilində çap edilmiş nəşrinə yazdığı müqəddimədə qeyd edir: «Oxucuların diqqətinə çatdırılan bu kitab iki il əvvəl Versal müqaviləsi Almaniya Reyxstaqı tərəfindən ratifikasiya edildikdən dərhal sonra yazılıb». Lakin müəllif *(yəni Keyns - müəllif)* artıq o zaman görürdü ki, Almaniyaya məcburən sırınmış şərtlər, onün üçün yerinə yetirilməzdir... O qeyd edirdi ki, «Versal müqaviləsində olan şəkildə formalaşmış sülh şərtləri, məğlub ölkələrin nə vaxtsa qalib ölkələrin «mehriban qonşularına» çevrilə biləcəyi bütün ümidləri öldürür»[4].

Hələ 1919-cu ildə peyğəmbərcəsinə deyilmiş bu sözlər Keynsin nə dərəcədə haqlı olduğunu tarixi faktlarla və dünyada baş vermiş hadisələrlə sübut etdi. Keynsi ilk növbədə bir iqtisadçı kimi heyrətləndirən və hiddətləndirən o idi ki, «Versal müqaviləsi Almaniya üzərinə çox böyük kömür təzminatı qoyub: o, *(yəni Almaniya – müəllif)* müttəfiqlərə yaxın illər ərzində, hər il 20 milyon ton daş kömür göndərməyi və bundan əlavə Fransaya dağıdılmış mədənlərinin (Şimal və Pa-de Kale) müharibədən əvvəlki və sülh bağladıqdan sonrakı istehsalları arasındakı fərqi ödəməyi boynuna götürürdü. Lakin elə hesablanmalı idi ki, həmin kömürün miqdarı yaxın illər ərzində 20 milyon tondan artıq olmasın. Beləliklə, son yekuna görə Almaniya müttəfiqlərə ildə 40-41 milyon ton kömür verməyi öhdəsinə götürürdü (VIII hissə, V əlavə, §2-4)»[5].

Bununla da Almaniya XX əsrdə xüsusilə böyük həyati əhəmiyyət kəsb edən və hər hansı ölkənin iqtisadi bazasının əsası olan enerji daşıyıcılarının böyük bir hissəsindən məhrum olmaq təhlükəsi ilə üzləşdi. Duru yanacaq ehtiyatlarının olmamasını da nəzərə alsaq, Almaniyanın düşdüyü fəlakətli vəziyyəti təsəvvür etmək o qədər də çətin olmaz.

Versal sülhünü Rusiya kommunistlərinin lideri Vladimir Lenin də özünəməxsus tərzdə şərh etmişdi: «...Versal müqaviləsi zəif millətlər üzərində alman yunkerlərinin və kayzerin Brest - Litovsk müqaviləsindən daha vəhşi və alçaq bir zorakılığıdır»[6].

Keyns isə daha dərinə gedərək, özünün nəinki iqtisadi proqnozunun ciddi məntiqə söykəndiyini sübut etmiş, həmçinin siyasi uzaqgörənliyini də nümayiş etdirmişdi. O, vətəndaşı olduğu İngiltərəni, qələbə eyforiyasına uyaraq, gələcəkdə çox güman ki, məruz qalacağı təhlükəni görməməkdə suçlamışdı. Onun Avropanın qalan problemlərinə olan laqeyd münasibəti Keynsi çox narahat edirdi.

Sülh müqaviləsinin həyatiliyini şübhə altında qoyan Keyns, İngiltərəni kontinental Avropa ilə vəhdətə dəvət edir və qarşılıqlı əməkdaşlıq etməklə gələcək kataklizmlərin qarşısını almağa çağırırdı. O yazırdı: «İngiltərə hələ də elə bil Avropadan kənarda durmuş kimi görünür. Avropa qitəsinin səssiz çırpıntıları onun şüuruna çatmır. O, *(yəni Avropa – müəllif)* özünün xüsusi həyatı ilə yaşayır. İngiltərə isə bundan kənardadır. Lakin Avropa vahid, ayrılmaz, bütöv bir məkandır. Fransa, Almaniya, İtaliya, Avstriya, habelə Hollandiya, Rusiya, Rumıniya və Polşa vahid bir nəbzin döyüntüsü ilə yaşayırlar. Onların daxili quruluşu və sivilizasiyası mahiyyətcə eynidir. Onlar birlikdə çiçəklənib, müharibənin səfalətlərini də birgə əxz ediblər. O müharibədə ki, biz miqyaslı iştirakımıza və verdiyimiz qurbanlara baxmayaraq, iqtisadi baxımdan kənarda məkan tutmuşduq: bu ölkələr isə birlikdə də uçuruma yuvarlana bilərlər. Paris sülhünün dağıdıcı əhəmiyyəti də məhz elə bundadır.

Əgər Avropada vətəndaş müharibəsinin sonunda Fransa və İtaliya özlərinin əldə etdikləri və müvəqqəti qəliblərə xas möhtəşəm gücdən hazırda haldan düşmüş Almaniyanı və Avstriya-Macarıstanı dağıtmaq üçün istifadə edərlərsə, o zaman özlərinin süqutunu hazırlamış olarlar. Çünki onları öz qələbələrinin qurbanları ilə gözə görünməyən möhkəm psixi və təsərrüfatçılıq telləri bağlayır»[7].

İqtisadi və mənəvi durğunluğun zaman keçdikcə əvvəlcə siyasi, sonra da hərbi proseslərə təsir edəcəyini Keyns artıq hiss etməyə başlamışdı. Dediyi sözlər də onun sanki ilk xəbərdarlığı idi. Bu xəbərdarlıq ilk növbədə İngiltərəyə, vətəndaşı olduğu bir ölkəyə ünvanlanmışdı. Tarix göstərdi ki, o, yanılmamışdır. Çünki Almaniyanın ilkin zərbələri Britaniya adalarına da tuşlandı.

Sülh müqaviləsi hələ imzalanmamışdan əvvəl 1919-cu il martın 3-də icmalar palatasında çıxış edərkən Böyük Britaniyanın baş naziri Lloyd Corc yaranmış vəziyyəti belə təsvir etmişdi: «Blokadanı böyük əzmlə həyata keçiririk. Güclü orduları hazır vəziyyətdə saxlayırıq. Ordu hücuma keçmək üçün bir işarəyə bənddir. Almaniya aclıqdan ölmək həddinə çatıb. Hərbi nazirlik tərəfindən Almaniyaya göndərilən və ölkənin hər yerini gözləri ilə görmüş zabitlərdən aldığım məlumatlar göstərir ki, birincisi, alman xalqı böyük məhrumiyyətlərə düçar olub, ikincisi, elə bir böyük təhlükə yaranıb ki, aclıq və yoxsulluğun təzyiqi altında alman milli və sosial quruluşunun bütün strukturu tamamilə dağıla bilər. Məhz indi sülh danışıqlarına başlamağın vaxtı çatıb»[8].

Beləliklə, Lloyd Corcun bu çıxışından göründüyü kimi, Antanta dövlətləri Almaniyanı can çəkişməsi vəziyyətinə saldıqdan və uçurumun



kənarına çatdığını yəqin etdikdən sonra sülh danışıqlarının aparılmasını lazım bildilər.

Versal sülhü Rusiyada da böyük əks-səda doğurmuşdu. Vətəndaş müharibəsinin alovları içində hələ də vurnuxan Rusiya, görünür Antantanın həddindən çox qüvvətlənməsindən ehtiyatlanır, potensial müttəfiqi saydığı Almaniyanın isə tam iflasa uğramasından narahatlıq keçirirdi. Oktyabr çevrilişinin həyata keçirilməsində əhəmiyyətli rol oynamış Almaniyanın mövcud vəziyyəti Leninin də qayğılarını artırmış və onu çıxış yolları axtarmağa məcbur etmişdi. Lakin bunu o, əvvəllərdə olduğu kimi, ilk növbədə ideoloji mübarizədə görürdü. RK(b)P* Moskva təşkilatı fəallarının yığıncağında (6 dekabr 1920-ci il) çıxışında o belə demişdi: «Almaniya məğlub olmuşdur, Versal müqaviləsi onu əzmişdir, lakin onun çox böyük iqtisadi imkanları vardır. Əgər Amerika birinci hesab edilsə, Almaniya iqtisadi inkişaf dərəcəsinə görə dünyada ikinci ölkədir... Bax belə bir ölkəyə Versal müqaviləsi qəbul etdirilmişdir, o isə həmin müqavilə ilə yaşaya bilmir. Almaniya özü güclü, qabaqcıl kapitalist ölkələrindən biridir. Versal müqaviləsinə o dözə bilməz. Buna görə də özü imperialist ölkəsi olan Almaniya, əzilmiş bir ölkə olduğu üçün ümumdünya imperializminə qarşı özünə **m ü t t ə f i q  a x t a r m a l ı d ı r** *(seçmə mənimdir – müəllif)*. Bax, istifadə etməli olduğumuz vəziyyət belədir»[9].

Müttəfiq dedikdə Lenin şübhəsiz ki, Rusiyanı nəzərdə tuturdu. O yaranmış vəziyyətdən istifadə edərək, ABŞ ilə Avropa, Antanta ilə Almaniya arasındakı ziddiyyətlərdən istifadə edərək, onları daha da dərinləşdirməyə səy göstərirdi. Bununla yanaşı, Almaniyanı hər vəchlə Rusiyaya yaxınlaşdırmağa çalışır və bundan da Antantaya qarşı istifadə edirdi. Almaniyada sosial-demokratların nüfuzunun bir müddət artması, Rusiya inqilabının oraya da ixrac ediləcəyi və bərqərar olacağı perspektivi yaradırdı. Avropanın mərkəzində (göbəyində) yaxın gələcəkdə Almaniya kimi kommunist təmayüllü müttəfiq bir dövlətin mövcud ola bilməsi fərziyyəsi Lenini sevindirməyə bilməzdi. Bu həm də onun bütün dünyada proletar inqilabının bərqərar olması nəzəriyyəsinə uyğun gəlirdi. Odur ki, alman kartından hərtərəfli istifadə etməyi qərara aldı. Tezliklə siyasi münasibətlərin iqtisadi müstəviyə də keçməsinə nail oldu. Genuya konfransına hazırlıq dövründə əsasən Antanta dövlətlərini təmsil edən neft şirkətləri ilə ortaq məxrəcə gələ bilməyən Rusiya gözlənilmədən özünün gizli variantı olan alman kartını üzə çıxardı. Genuya konfransının açılışı ərəfəsində qonşuluqda yerləşən kiçik kurort şəhəri

* Rusiya Kommunist (bolşeviklər) Partiyası

Rapalloda 1922-ci il aprelin 10-da Rusiya ilə Almaniya arasında separat müqavilə imzalandı. İqtisadi xarakter daşıyan bu müqavilə iqtisadi böhran içində üzülən, ən vacibi isə yanacaq sarıdan böyük məhrumiyyətlərlə üzləşən Almaniya üçün də hava-su kimi lazım idi. Birinci dünya müharibəsi duru yanacağın – neftin misilsiz əhəmiyyətini yeni mərhələyə çatdırdıqdan sonra ona olan tələbat da sürətlə artmağa başladı. Təbii neft ehtiyatları olmayan Almaniya üçün duru yanacaq əldə etmək həyati tələbata çevrilmişdi. Rapallo müqaviləsi isə bu tələbatın ödənilməsində əvəzsiz bir imkan idi. Bu, Rusiyanın da maraqlarını təmin edir, onun ətrafında yaradılmış blokadanı qismən də olsa parçalayırdı. Beləliklə, Birinci cahan savaşının sonunda almanların ələ keçirə bilmədikləri Bakı nefti müqavilənin şərtlərinə görə dörd il keçdikdən sonra Almaniyaya axıdıldı. Bununla da Bakı lap yaxın gələcəkdə beynəlxalq siyasətdə mühüm amillərdən biri olmaq təhlükəsi ilə üz-üzə qaldı.

O zaman heç kim bilməzdi ki, çox tez bir zamanda vəziyyət kəskin surətdə dəyişəcək, Almaniyada hakimiyyətə yeni siyasi qüvvələr gələcək və Versal sülhünün tərtib edib təsdiqlədiyi Avropanın yeni xəritəsinə və təkcə Avropanın deyil, həmçinin dünyanın xəritəsinə yeni nəzərlərlə baxacaqdır. Və bu xəritə ehtirasları əməkdaşlıq etdiyi SSRİ-ni də ondan az maraqlandırmayacaqdır.

İkinci cahan savaşının səbəbləri həmişə böyük maraq doğurub. Bu sahədə aparılan tədqiqatların uğurlu olması problemə obyektiv nöqteyi-nəzərdən yanaşılmasını, onun köklərinin düzgün müəyyənləşdirilməsini tələb edir. İstər sovet, istərsə Azərbaycan tarixşünaslığında onun səbəbləri əsasən ideoloji amillərlə əsaslandırılırdı. Lakin o da gizlin deyil ki, hər hansı bir siyasi və ideoloji durumun yaranmasının öz obyektiv və ya subyektiv səbəbləri var. Bu da öz növbəsində göstərir ki, bu və ya digər ciddi problemi törədən səbəbin dərin də kökləri olur.

Müharibənin səbəblərini obyektiv araşdıran tədqiqatçıların bir çoxunun qəti fikrinə görə, onun bilavasitə səbəbkarı Versal müqaviləsi idi. Lakin təkcə ona görə yox ki, o, sərt idi və sağlam təxəyyüldən xəbər vermirdi. Ona görə ki, Versal müqaviləsi 1918-ci il noyabrın 11-də bağlanmış barışıq şərtlərini pozurdu.

«...Məhz bu ləyaqətsiz addım Hitlerə imkan verdi ki, Almaniyanı öz ətrafında birləşdirsin və Versal müqaviləsinin hər bir pozulma hallarına və bu yolda atdığı addımlara alman xalqının nəzərində bəraət qazandırsın»[10].

ABŞ prezidenti Vudro Vilsonun təklif etdiyi barışıq şərtləri 14 maddədən, 4 prinsipdən və 5 əlavədən ibarət idi. Əsaslı öyrənilib təhlil edildikdən sonra Almaniya hökuməti prezident Vilsona müraciət edib bildirdi ki, onların hamısını qəbul edir və sülh danışıqlarının başlanmasını arzulayır.



1918-ci il oktyabrın 5-də göndərilmiş bu müraciətə çox keçmədən Vilson cavab göndərir. O, bilmək istəyir ki, doğrudanmı Almaniya hökumətinin məqsədi gələcək danışıqlarda barışıq şərtlərinin həyata keçirilməsinin praktiki detalları barədə razılığa gəlməkdir? Almanlar buna da müsbət cavab verdilər və danışıqlara hazır olduqlarını bildirdilər.

Prezident Vilson məsələnin təfərrüatı barədə Konqressə də məlumat verdi və bildirdi ki, müttəfiq ölkələrin hökumətləri də tam razıdırlar və Almaniya hökuməti ilə sülh bağlamaq arzusundadırlar. Bu, yaranmış gərginliyi bir qədər azaltdı. Problemin tezliklə çözüləcəyinə ümidi isə artırdı.

Lakin Antanta sözünün üstündə durmadı, götürdüyü öhdəliyi birtərəfli qaydada pozdu. Bu da öz növbəsində onsuz da ağır vəziyyətdə olan Almaniyanın vəziyyətinin daha da pisləşməsinə səbəb oldu. «Prezident Vilsonun iyirmi üç şərtindən son nəticədə yalnız dördü nisbi dəqiqliklə sülh müqaviləsinə daxil edildi»[11].

1919-cu il martın 3-də icmalar palatasında etdiyi çıxışdan təqribən üç həftə sonra Böyük Britaniyanın baş naziri Lloyd Corc Paris sülh konfransının ünvanına bir memorandum göndərdi. «Şərtlərin *(müqavilə şərtləri nəzərdə tutulur - müəllif)* sonuncu variantının hazırlanması başa çatmamışdan əvvəl konfrans iştirakçılarının nəzər-diqqəti üçün bir neçə mülahizə» adlanan bu sənəddə deyilirdi: «Siz Almaniyanı müstəmləkələrindən məhrum edər, silahlı qüvvələrini adi bir polisə çevirər, onun hərbi-dəniz donanmasını beşinci dərəcəli ölkənin donanması səviyyəsinə endirə bilərsiz, lakin son məqamda Almaniya hiss etsə ki, 1919-cu ildə sülh müqaviləsi bağlanarkən ona qarşı ədalətsizlik ediblər, o zaman o, özünü məğlub edənlərdən əvəz çıxmağa imkan tapar... Sülhün saxlanması... əsəbilik səbəblərinin aradan qaldırılmasından asılı olacaqdır. Çünki bu, həmişə vətənpərvərlik ruhunu yüksəldir. Sülhün saxlanması üçün ədalət də vacibdir. Hamıya aydın olmalıdır ki, adamlar itkilərin əvəzini çıxmaq yolunda vicdanla hərəkət edirlər. Zəfər çağında edilə bilən ədalətsizlik və təkəbbür heç vaxt unudulmur və bağışlanmır.

Bu mülahizələrə görə də mən böyük miqdarda almanın Almaniyadan başqa dövlətlərin hökmranlığı altına verilməsinin qəti əleyhinəyəm. Praktiki olaraq nə qədər mümkündürsə, bunun qarşısını almaq lazımdır. Mən gələcək müharibənin səbəblərini onda görürəm ki, özünü dünyanın ən təşəbbüskar, ən güclü millətlərindən biri kimi nümayiş etdirmiş alman xalqı, bir sıra kiçik dövlətlər tərəfindən əhatə olunacaqdır. Onların bir çoxunun xalqları əvvəllərdə heç zaman özləri üçün sabit

hökumətlər yarada bilməyiblər, indi isə həmin dövlətlərin hər birinin tərkibinə öz vətənləri ilə birləşməyi tələb edən alman kütləsi daxil olacaq.

Polşa məsələləri üzrə komissiyanın 2 milyon 100 min almanın, başqa bir dindən olan və özünün bütün tarixi boyu sabit özünü idarə etmək bacarığını sübut edə bilməyən bir xalqın hakimiyyəti altına vermək təklifi, mənim fikrimcə əvvəl-axır Avropanın Şərqində yeni müharibəyə səbəb olacaqdır»[12].

1919-cu il martın 25-də yazılmış və sonralar İtaliyanın keçmiş baş naziri Nittinin «Avropada sülh yoxdur» kitabında çap edilmiş bu sənəd sülh müqaviləsinin hazırlanmasının qızğın bir dövründə mühüm əhəmiyyət kəsb etməklə yanaşı, həm də Lloyd Corcun yaxın gələcəkdə baş verə biləcək qlobal təhlükəni aydın hiss etməsindən də xəbər verirdi. O artıq başa düşmüşdü ki, gələcəyin münaqişələri əvvəlkilərdən də dəhşətli ola bilər. Lakin o bir məsələdə səhv etmişdi. O, bilmirdi ki, müharibə təkcə Şərqdə deyil, Qərbdə də alovlanacaq, o cümlədən İngiltərə də daxil olmaqla. Həm də onu söndürmək, yandırmaqdan qat-qat çətin olacaq.

Fəqət Lloyd Corcun bu memorandumu son dərəcə ciddi və açıq-aydın xəbərdarlıq olmasına baxmayaraq, mövcud əhval-ruhiyyəni, konfransda artıq çoxdan formalaşmış siyasi durumu dəyişdirə bilmədi.

Nəticədə Birinci dünya müharibəsinin əsas günahkarı Almaniya elan edildi. Qalib ölkələrin istər siyasi, istərsə iqtisadi, istərsə hüquqi tələbləri və təmənnaları da Almaniyaya qarşı ünvanlandı. Bir sözlə, nəzərdə tutulan nə varsa, həyata keçirildi. Almaniya diz üstə çökdürüldü. Onun iqtisadi ehtiyatı tamamilə dağıdıldı. Hətta böyük bir ərazi Şərqi Prussiyadan qopardılıb Polşaya birləşdirildi. Almaniya üzərinə ödənilməsi müşkül olan ağlabatmaz bir mükəlləfiyyət qoyuldu. Hələ bu azmış kimi, 1923-cü il yanvarın 11-də Fransa Almaniyanın Rur vilayətini də işğal etdi. Bu vilayət Almaniya iqtisadiyyatının onurğa sütunu sayılırdı. Onun sənaye potensialı ölkənin gələcək inkişafı üçün əsas aparıcı gücə malik idi. Almaniyanın sonrakı maliyyə sisteminin iflası da məhz bununla əlaqələndirilirdi. Çox keçmədən böyük işsizlər ordusu bütün ölkəni bürüdü.

Almaniyanı ağuşuna almış iqtisadi, siyasi sarsıntılar, mənəvi və ruh düşkünlüyü, gələcəyə inamsızlıq, cəmiyyətin gündən-günə radikallaşması ilk növbədə Britaniyada böyük əks-səda doğurdu. Rur vilayətinin işğalı isə onsuz da mövcud olan həyəcanı daha da artırdı. İctimaiyyət istər-istəməz öz münasibətini bildirməyə məcbur oldu. «Liberal meqezin» jurnalı yazırdı: «Yeni müharibənin bir neçə ildən sonrakı perspektivi getdikcə daha aydın və inandırıcı görünür»[13].



Parlamentin üzvü Çarlz Robertsin təşvişi daha böyük idi. O deyirdi: «İndi həyata keçirilən **t ə h l ü k ə l i** (*seçmə mənimdir - müəllif*) tədbirlər son məqamda bir nəticəyə yeni dünya müharibəsinə gətirib çıxaracaq, bu isə mənim fikrimcə sivilizasiyanın qürubu deməkdir»[14].

İllik «Liberal ir buk» jurnalının proqnozu isə nikbinlikdən daha uzaq idi: «Avropa müharibəsinin qaçılmazlığı gündən-günə daha da aydınlaşır... Təcili tədbirlər görmək üçün çox az vaxt qalmışdır, bəlkə də nə isə etmək artıq gecdir»[15].

Jurnal «Avropa müharibəsi»ndən yazırdı. Yəqin ki, onun tezliklə dünya müharibəsinə çevriləcəyini heç təsəvvür etmirdi. Lakin təəssüflər olsun ki, hadisələr məhz dünya müharibəsi istiqamətində inkişaf edirdi. Onun bir çox məqamları nəinki Birinci dünya müharibəsinin hadisələri ilə eynilik təşkil edirdi, həm də o zaman həll edilməmiş bir çox problemi yenidən üzə çıxardı və onların həlli əsas strateji məsələlərdən birinə çevrildi. Onların arasında Bakı nefti amili xüsusi yer tuturdu.

# II FƏSİL

## ALMANİYANIN İKİNCİ CAHAN SAVAŞINA YUVARLANMASI və SSRİ-nin BUNA MÜNASİBƏTİ



Artıq 1929-cu ildə Almaniyanın iqtisadi vəziyyəti böhranlı həddə çatmışdı. Veymar respublikasına illərdən bəri bəslənilən ümidlər heç cür özünü doğrultmurdu. Ölkə öz problemləri ilə yaşamaqda davam edirdi.

Brüninqin, Papenin, və Şleyxerin başçılıq etdikləri hökumətlər ciddi iqtisadi uğurlar əldə edə bilmədilər. Xalqın narazılığı gündən-günə artır, siyasi qarşıdurma şiddətlənirdi. Ölkənin düşdüyü ağır vəziyyətdən istifadə edən nasional-sosialistlər nüfuzlarını durmadan artırır, əhatə dairəsini getdikcə genişləndirirdilər. Faşistlərin illərlə apardıqları məqsədyönlü zəhərli təbliğatın təsiri artıq öz bəhrəsini verməkdə idi. Hitlerin populist ideyalarla zəngin olan «Mayn kampf» *(«Mənim mübarizəm» - müəllif)* kitabı xalq kütlələri arasında geniş yayılmış, onun «vətənpərvərlik» ruhu çoxlarında milli duyğular oyatmışdı. Hitler və onun komandası inamlı addımlarla hakimiyyətə doğru gedirdi. Avropa bunu görür, başa düşür, lakin heç nə edə bilmirdi. İnsanlar isə Almaniyada yeni eranın, milli yüksəlişin başlandığını, bütün problemlərin tezliklə aradan qaldırılacağını, ölkənin qüdrətli dövlətlər sırasında yenidən öz layiqli yerini tutacağını zənn edirdilər.

Nəhayət, 1933-cü il yanvar ayının 30-da Veymar respublikasının son prezidenti feldmarşal Paul fon Hindenburq 43 yaşlı böyük ambisiya və avantürist ideyalar sahibi Adolf Hitleri Almaniyanın yeni kansleri elan etdi.

Birinci dünya müharibəsində əvvəlcə Şərq cəbhəsinin komandanı, 1916-cı ildən Baş qərargah rəisi və faktiki olaraq alman ordusunun baş komandanı olmuş general-feldmarşal fon Hindenburq müharibənin nə olduğunu çox gözəl bilir, onun törətdiyi faciələri də az görməmişdi. Sıravi əsgərdən feldmarşal rütbəsinə qədər yüksələn, bütün həyatını hərb sənətinə sərf edən Hindenburq Hitleri qəlbən heç də qəbul edə bilmir, onu təsadüfi, avantürist meylli bir şəxs hesab edirdi. Lakin yaxın ətrafının və xüsusilə də iri sənayeçilərin mütəmadi təkidləri və təzyiqləri öz işini gördü. Hindenburq Hitlerin kansler *(baş nazir - müəllif)* olmasına razılıq

verdi. Beləliklə özü də bilmədən ölkənin gələcəkdə yeni iflasına bir növ xeyir-dua vermiş oldu.

Birinci cahan savaşının sonuna yaxın Bakı nefti uğrunda gedən mübarizənin şiddətlənməsi və bu mübarizədə Almaniyanın hərtərəfli iştirakı şübhəsiz ki, Hindenburqun xatirindən silinməmişdi. Öz xatirələrində o yazırdı: «İngiltərə Rusiyada öz nüfuzunu eyni zamanda həm Ağ Dəniz və Arxangelsk, həm də Xəzər dənizi və Bakı vasitəsilə təmin etmək istəyir. Bu əsasda Osmanlı planlarının yerinə yetirilməsi... bizim də maraqlarımıza uyğun gəlir»[1]. O, Qafqazın vacibliyini etiraf edərək, «Zaqafqaziyanın zəngin xammal ehtiyatlarından *(şübhəsiz ki, neft nəzərdə tutulur - müəllif)* heç olmasa bir qədər istifadə etməyi»[2] arzulayırdı.

Almaniyanın son müharibədəki məğlubiyyətinin əsas səbəblərindən birinin duru yanacağın kəskin çatışmazlığından irəli gəldiyini Hindenburq yaxşı bilirdi. Odur ki, yeni müharibə başlayarsa, neft amilinin hansı əhəmiyyət kəsb edəcəyini də gözəl anlayırdı. Onu da bilirdi ki, heç bir neft ehtiyatına malik olmayan Almaniya ilk növbədə bu problemi həll etməlidir. Lakin necə? Hansı yolla? O, Hitlerin atdığı addımları görür, niyyətini getdikcə aydın başa düşürdü. Lakin Hitler də az bilmirdi. Almaniyanın problemlərinə də artıq yaxşı bələd idi. Ötən müharibənin dərslərini də unutmamışdı. Odur ki, böyük bir ehtirasla yeni müharibəyə hazırlaşırdı. Elə ilk günlərdən başlayaraq neft haqqında düşündü. Hakimiyyətə gəldikdən üç gün sonra, 1933-cü il fevralın 3-də Berlində generallar qarşısında ilk dəfə çıxış etdi. Vaxtilə çox gizli saxlanılan bu sənəddəki müəyyən fikirlər indi də böyük maraq doğurur.

Hitlerin generallar qarşısında etdiyi ilk çıxışın yazısı: «3 fevral 1933-cü il. Berlin. Piyada qoşunları generalı baron Hammerşteyn – Ekvodla görüşmək məqsədilə onun mənzilinə təşrif gətirən reyxskansler Hitlerin quru qoşunları və hərbi-dəniz qüvvələri baş komandanlarının qarşısında bəyan etdiyi mülahizələr: «Bütün siyasətin məqsədi birdir – yenidən siyasi möhtəşəmlik əldə etmək. Dövlət rəhbərliyi (bütün orqanlar) bütövlüklə buna yönəldilməlidir»[3].

Bu, Hitlerin siyasi kursunun hansı istiqamətdə inkişaf edəcəyini birmənalı şəkildə izah edən bir bəyanat idi.

1936-cı ilin avqustuna aid edilən «Müharibəyə iqtisadi hazırlıq haqqında memorandum» isə Hitlerin başqa bir niyyətini açıqlayır: «Bununla əlaqədar olaraq *(müharibə nəzərdə tutulur - müəllif)* bundan sonra olduqca böyük sürətlə özümüzün yanacaq istehsalımızı inkişaf etdirməli və 18 ay müddətində onu tənzimləməliyik.

Müharibənin aparılmasına hansı inadkarlıqla yanaşılırsa, bu məsələnin də həllinə o cür yanaşmaq lazımdır. Çünki gələcəkdə **m ü h a r i-**



**b ə n i n a p a r ı l m a s ı b e n z i n e h t i y a t l a r ı** *(seçmə mənimdir - müəllif)* yaradılmasından yox, məhz bu məsələnin **h ə l l i n-d ə n** *(seçmə mənimdir - müəllif)* asılı olacaqdır»[4].

Memorandumda sonra deyilir: «...Daha sonra kartofun spirtə çevrilməsini təcili surətdə qadağan etmək lazımdır. Yanacağı torpaqdan almaq lazımdır, kartofdan yox»[5].

Bu artıq Hitlerin yanacaq proqramının qəti ifadəsi idi. Almaniyada neft mənbələrinin olmamasını nəzərə alsaq, onun «yanacağı torpaqdan almaq lazımdır» mülahizəsinin nə demək olduğunu başa düşmək heç də çətin deyil. Deməli, başqa ərazilərdən. Bu da ancaq müharibə yolu ilə mümkün idi. Lazımi qədər duru yanacaq ehtiyatı olmadan müharibəyə başlamağın ağılsızlıqdan başqa bir şey olmadığını Hitler yaxşı başa düşürdü.

Yanacaq mövzusunu davam etdirərək Hitler adı çəkilən memorandumda daha sonra yazırdı: «Qiymətli vaxtımızın dörd ili artıq arxada qalıb. Heç şübhə yoxdur ki, özümüzün yanacağa... olan tələbatımızı xaricdən asılı olmadan tam ödəyə bilərik. Əgər biz indi 700-800 min ton benzin istehsal edə biliriksə, deməli 3 milyon ton da istehsal edə bilərik»[6]. Memorandumda daha sonra deyilirdi: «Nəyi bacarmadığımızı müəyyən etmək üçün bu ötən dörd ildə istənilən qədər vaxtımız var idi. İndi isə nəyi bacardığımızı müəyyən etməliyik.

Mən qarşıya bu vəzifələri qoyuram:

1) Dörd ildən sonra biz döyüş qabiliyyətli orduya malik olmalıyıq.

2) Dörd ildən sonra Almaniyanın iqtisadiyyatı müharibəyə hazır olmalıdır»[7].

Beləliklə, Hitler Almaniyanın dirçəlişini əsas etibarilə güclü ordunun və duru yanacaq istehsalının yaradılmasında görürdü. Siyasət də daxil olmaqla iqtisadiyyatın bütün sahələri məhz bu ali məqsədə xidmət etməli idi. Kiçik zaman kəsiyində qənaətbəxş nəticələrin əldə olunması Hitlerin nikbinliyini və qarşısına qoyduğu məqsədlərə çatacağına ümidini artırmışdı. Doğrudan da faktlara nəzər salanda, bu uğurların şahidi oluruq.

Əgər 1929-cu ildə Almaniya cəmi 109 min ton neft əldə etmişdisə, artıq 1938-ci ildə bu rəqəm 609 min tona çatdırıldı[8]. 1939-cu ildə isə Almaniya anşlüs nəticəsində özünə birləşdirdiyi Avstriya ilə birlikdə 886 min ton neft hasil etməyə nail olmuşdu[9].

Hərbi iqtisadiyyatda kimya sənayesinin rolu misilsizdir. Odur ki, Almaniyada hakim mövqe tutan «İQ Farben» konserninin «istehsal etdiyi 43 əsas məhsul növündən 23-ü müharibə ehtiyacları üçün idi. Bundan başqa konsern neft əvəzedicilər və kauçuk istehsalını da mənimsədi»[10].

Ümumiyyətlə müharibədən əvvəl Almaniyada duru yanacaq istehsalının (benzin və benzolun) artım sürətini təsəvvür etmək üçün aşağıdakı cədvələ nəzər salmaq kifayətdir. Bu cədvəl 1929-1938-ci illəri əhatə edir və 1939-40-cı illərdə buraxılmış illik imperiya statistik jurnalının (min ton-la) məlumatlarına əsaslanır[11].

| İl | Benzin istehsalı | Benzol istehsalı |
|---|---|---|
| 1929 | 292,6 | |
| 1933* | 295,5 | |
| 1934 | 370,5 | 221,8 |
| 1935 | 577,0 | 327,5 |
| 1936 | 877,8 | 378,6 |
| 1937 | 1259,9 | 403,1 |
| 1938** | 1494,0 | 450,0 |

Cədvəldən göründüyü kimi, müharibədən əvvəlki Almaniyada duru yanacaq istehsalı sürətlə artdı. 1929-cu illə müqayisədə 1938-ci ildə onun həcmi təxminən 5 dəfə çoxaldı. Süni yolla alınmış yanacağı da əlavə etsək, artıq 1941-ci ildə ölkə 8 milyon ton neft ehtiyatına malik idi. Lakin qarşıya qoyulmuş qlobal strateji məqsədlərə çatmaq üçün bu da azlıq edirdi. Ümumiyyətlə istər əvvəl, istərsə də müharibə dövründə Almaniyanın bir əsas problemi var idisə, o da neft problemi idi. Bunu həm sovet, həm də qərb müəllifləri bu və ya digər şəkildə etiraf edirdilər.

Marşal Jukov öz xatirələrində yazırdı: «Müharibə ərəfəsində Almaniya işğal etdiyi ölkələrlə birlikdə 31,8 milyon ton polad, təkbaşına 257,4 milyon ton, əlaltısı olan ölkələrlə birlikdə isə 439 milyon ton kömür. Sovet İttifaqı isə 18,3 milyon ton polad, 165,9 milyon ton kömür istehsal edirdi. Almaniyanın zəif yeri neft hasilatı idi ki, onu da rumın neftinin idxalı, habelə yaratdığı ehtiyatlar və sintetik yanacaq istehsalı vasitəsilə kompensasiya edirdi»[12].

Göründüyü kimi, Almaniya təkcə neftdən savayı əsas iqtisadi göstəricilər üzrə SSRİ-dən əhəmiyyətli dərəcədə yüksəkdə dururdu. Sovet İttifaqı isə neft hasilatını durmadan artırır, yeni neft mədənləri aşkar edirdi. Bu sürətli artımın zirvəsində təbii ki, Bakı neft rayonu dururdu. Öz əvvəlki potensialını bərpa edən və hətta onu ötüb keçən dünyanın bu

* - kömür və yanar şistdən emal edilən neft də daxil olmaqla
** - Avstriya üzrə olan istehsal da daxil olmaqla



qədim neft rayonu artıq müharibə ərəfəsində, daha doğrusu, 1940-cı ildə 21 milyon 329 min ton neft hasil etməyə nail oldu. Bu rekord nəticə idi. Onun xəbəri hər yerə yayıldı və şübhəsiz ki, Almaniyaya da. Bu məlumatlar sözsüz ki, Hitlerin də nəzərindən yayına bilməzdi. Çünki Bakı dünyanın ən zəngin neft ehtiyatlarına malik olan bölgələrindən biri olduğunu bir daha sübut etdi. Bunun fonunda Almaniyanın böyük zəhmət hesabına yaratdığı neft ehtiyatı son dərəcə cılız görünürdü. Bu fərqi almanlar da yaxşı bilirdi. General Kurt Tippelskirx həmin vəziyyəti xatırlayaraq yazırdı: «Yalnız yanacağın vəziyyəti lap əvvəldən ciddi təşviş doğururdu. Ordunun motorlaşdırılması, aviasiya və donanmanın duru yanacağa keçirilməsi, habelə ölkənin iqtisadiyyatı milyon tonlarla yanacaq tələb edirdi. Almaniyanın özündə neft çox az çıxarılırdı. Bundan əlavə yalnız rumın neftinə və Estoniyada o qədər də çox olmayan yanar şist ehtiyatlarına bel bağlamaq olardı. Dünya əhəmiyyətli iri neft rayonlarına yalnız dəniz vasitəsilə çatmaq olardı. Dənizdə isə ingilis donanması ağalıq edirdi»[13].

Müharibəyə hazırlığın texniki problemlərini həll etməklə yanaşı (ordunun təşkili, yanacaq məsələsi, silah istehsalı və s.), Hitler onun əl-qolunu bağlayan Versal sülhünün şərtlərindən də birdəfəlik qurtulmağın yollarını axtarmağa başladı. O, ilk növbədə ABŞ və İngiltərənin etimadını qazanmağı qərara aldı. Kommunizm təhlükəsinin qərb ölkələri üçün arzuedilməz olduğunu əldə əsas tutaraq, o, fəal surətdə özünün antisovet niyyətlərinin geniş təbliğinə başladı. Hitler bunun əsl səbəblərini belə izah edirdi: «Mən kapitalizmlə top-top oyunu oynamalı, kommunizm kabusunun mövcudluğundan istifadə edib Versal dövlətlərini neytrallaşdırmalı və onları inandırmalıyam ki, Qırmızı axın qarşısında Almaniya sonuncu dayaqdır. Bu yeganə vasitədir ki, böhranlı dövrü adlayaq, Versal ilə haqq-hesabı çürüdək və yenidən silahlanaq»[14].

Ümumiyyətlə, Lloyd Corcun vaxtilə Paris sülh konfransına göndərdiyi memorandum, bir çox siyasi xadimlərin etdiyi xəbərdarlıqlar və nüfuzlu mətbuat orqanlarındakı yazılar, sülh müqaviləsinin şərtləri ucbatından Almaniyada yaxın gələcəkdə qisasçılıq meyllərinin cücərəcəyini istisna etmirdi. Həqiqətən də o tezliklə İkinci dünya müharibəsinə hazırlaşmağa başladı. Bunu Nürnberq məhkəməsində Almaniyada silah sənayesinin atası sayılan Krupp da təsdiqləmişdi. Onun dediklərinə görə, «Versal sülhü imzalandıqdan dərhal sonra Almaniyada bu sahədə gizli iş başlandı və nəticədə təyin olunmuş saatda, vaxtı və qazanılmış təcrübəni itirmədən alman silahlı qüvvələrinə işləməkdən ötrü, elmi və möhkəm bünövrə yaradıldı»[15].



*Almaniya prezidenti P.Hindendurq və A.Hitler. 1933-cü il*



*B.Mussolini və A.Hitler*



Tezliklə Almaniya qəti addımlar atdı. 1935-ci il martın 16-da ümumi hərbi mükəlləfiyyətin tətbiq olunmasını elan etdi. 1936-cı il martın 7-də Reyn vilayəti yenidən hərbiləşdirildi. 1938-ci il martın 13-də Hitler çoxdan arzuladığı bir əməliyyatı – Avstriyanın Almaniyaya ilhaqını həyata keçirdi. Çox keçmədən Çexoslovakiyanın Sudet vilayəti, 1939-cu ildə isə bütövlüklə Çexoslovakiya işğal edildi. Bundan sonra Almaniya Dansiqin (Qdansk) qaytarılmasını və Polşa dəhlizindəki yoldan istifadə olunmasını Polşadan tələb etdi.

Hitlerin antisovet bəyanatları qərbdə böyük maraq doğururdu. ABŞ-ın və İngiltərənin hakimiyyət dairələrində belə bir fikir formalaşmışdı ki, «Almaniya Avropa qitəsində hakim ölkə olmalıdır, çünki nasional-sosializm kommunizmə qarşı yeganə dayaq nöqtəsidir»[16].

Bu fikrin təşəkkül tapmasında SSRİ də az iş görməmişdi. Onun təcavüzkar xarici siyasəti, bu yolda atdığı konkret addımlar, qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları, ən başlıcası isə kommunizm ideyalarını bütün dünyaya yaymaq və bərqərar etmək istəyi, Qərb dövlətlərini təşvişə salır, Hitlerin fəaliyyətinə göz yummağa məcbur edirdi. SSRİ-nin 1939-cu ilin dekabrında Finlandiyaya təcavüzü qərb ölkələrinin bu təşvişlərinin əsassız olmadığını sübut edirdi.

«Rus radiosu xəbər verdi ki, Sovet İttifaqı Finlandiya tərəfindən «dəfələrlə edilmiş təxribatlardan» sonra hərbi əməliyyatlara başlayıb»[17]. Beləliklə, «180 milyon əhalisi olan böyük bir dövlətin silahlı qüvvələri, 3,5 milyon əhaliyə malik kiçik bir dövlətə qarşı durdu»[18].

SSRİ-nin bu açıq-aydın hərbi təcavüzü Millətlər Cəmiyyətinin qəti etirazına səbəb oldu. Şuranın qəbul etdiyi qərara əsasən o «təcavüzkar» adlandırıldı və Millətlər Cəmiyyətindən xaric edildi.

Lakin SSRİ-nin İngiltərə və Fransa ilə münasibətləri getdikcə daha da gərginləşdiyi halda, sovet-fin müharibəsinin bütün dövrü ərzində Almaniya ilə münasibətləri zahirən qarşılıqlı ehtirama əsaslanırdı. Hətta «anadan olmasının 60 illiyi münasibətilə 1939-cu il dekabrın 21-də Hitler və Ribbentrop Stalinə təbriklər də göndərmişdilər. Ribbentrop öz teleqramında xüsusilə «incə hisslər» ifadə etmişdi. Stalin onlara təşəkkürünü bildirdi»[19].

Sovet İttifaqının başladığı bu şərəfsiz müharibədə Qərb dövlətləri Finlandiyanı hərtərəfli dəstəklədilər. ABŞ, İngiltərə və Fransa ona geniş miqyasda hərbi yardım etməyə başladılar. SSRİ üçün biabırçılıqla nəticələnən və onun hərbi «qüdrətinin» səviyyəsini dünyaya faş edən bu müharibə tezliklə başa çatdı. Lakin o, bir çox vacib üstüörtülü suallara cavab verməklə yanaşı yenilərinin də yaranmasına səbəb oldu.

Bir şey aydın idi ki, müharibəyə təkan verici amillərdən biri də yenicə yaranmış SSRİ – Almaniya «dostluğu» oldu.

Buna nə Hitlerin açıq-açığına antisovet bəyanatları, nə «Mayn Kampf»da əks olunmuş hərəkət proqramı mane ola bildi: «Əgər söhbət Avropada yeni ərazilər əldə etməkdən gedirsə, onda onu əsas etibarilə Rusiyanın hesabına etmək gərəkdir»[20].

Beləliklə artıq 1939-cu il avqustun 23-də SSRİ xalq xarici işlər komissarı Molotov və Almaniyanın xarici işlər naziri Ribbentropun imzaladıqları müqavilə və gizli protokollar hər iki totalitar dövləti bir-birinə «yaxınlaşdırmaqla» bərabər, həm də yeni dünya müharibəsinin bünövrəsini qoymuş oldu. Çünki əsas hadisələr, təcavüzkar əməllər əsasən bundan sonra başlandı. SSRİ – Finlandiya müharibəsi də bunun məntiqi nəticələrindən biri idi.

Bağlanmış müqavilənin şərtlərinə görə SSRİ Almaniyanı bir sıra vacib strateji materiallarla təchiz etməli idi. Onların arasında Almaniya üçün böyük həyati əhəmiyyətə malik olan neft xüsusi yer tuturdu. Onun da əsas hissəsi Bakının payına düşürdü. Bakı – Batumi neft kəmərinin mövcudluğu, SSRİ-də hasil edilən xam neftin 75 faizini təşkil edən Bakı neftinin ixracı üçün heç bir problem yaratmırdı. Beləliklə, çox keçmədən Bakı neftinin gecəli-gündüzlü Almaniyaya daşınması adi hal aldı.

SSRİ – Almaniya müqaviləsi və onun şərtlərinə əsasən yaradılmış Bakı – Almaniya neft xətti bütün Avropanı, xüsusən də İngiltərə və Fransanı ciddi təşvişə saldı. Reallaşa biləcək müharibədə neftin nə qədər rolu olduğunu onlar hələ Birinci cahan savaşından yaxşı bilirdilər. Bakı nefti uğrunda gedən ciddi mübarizələr də yaddaşlardan hələ silinməmişdi. Digər tərəfdən, Bakı neft rayonunun yeni intibahı, dünya müharibəsi başlayacağı təqdirdə Bakının yenidən, necə deyərlər, şərikli almaya çevrilməsinə səbəb ola bilərdi.

Almaniyanın isə öz duru yanacaq ehtiyatlarını SSRİ-nin əli ilə Bakı vasitəsilə sürətlə artırması, Hitlerin qisasçı arzularının reallaşması üçün əlverişli imkanlar yaradırdı. Alman ordusunun ən müasir silahlarla silahlanması və bir sıra hərbi aktları həyata keçirməsi fövqündə bu, Almaniyanın keçmiş rəqibləri üçün doğrudan da böyük təhlükə yaradırdı.

Hitlerin müharibə ehtirasını yüksək rütbəli alman hərbçiləri də təsdiqləyirdi. General Tippelskirx yazırdı: «Lokal xarakterli olsa da Hitlerin müharibə istəməsi, sənədlərlə təsdiq olunmuş faktdır. Lakin əgər o, Sovet İttifaqı, İngiltərə və Polşanın simasında özünə lazımi müttəfiqlər və rəqiblər tapmasaydı buna nail ola bilməzdi. Sovet İttifaqının mövqeyi həlledici əhəmiyyətə malik idi. Hitler onun razılığını əldə etdikdən sonra onda belə bir inam yarandı ki, Qərb dövlətlərinə qarşı müharibədə qalib gələ bilər»[21].



Daha sonra Tippelskirx daha da dərinə gedərək belə bir fikir söyləyir ki, «müharibənin o səviyyəyə çevrilməsini heç kim, hətta Hitler də istəmirdi, onun marağı olan yeganə bir dövlət vardı – Sovet İttifaqı»[22].

Müharibənin indi bizə məlum olan şəkil almasında və bəşəriyyət tarixində misli görülməyən fəlakətlərlə nəticələnməsində Hitlerin marağının olub-olmaması başqa bir söhbətin mövzusudur. Lakin Sovet İttifaqının maraqlı olması faktı, həqiqətən son dərəcə diqqət çəkən bir məsələdir.

Almaniyanın daxili və xarici siyasətinin radikallaşmasına Sovet İttifaqının biganə münasibəti onun qonşu dövlətlərə qarşı təcavüzkarlığına və məhdud xarakterli olsa da, hərbi əməliyyatlar aparmasına göz yumması, habelə imzalanmış müqavilə və gizli protokollar Tippelskirxin söylədiyi açıqlamanın həqiqətdən heç də uzaq olmadığını təsdiq edir. Qonşu dövlətlərə qarşı ənənəvi olaraq ərazi iddiaları irəli sürən Sovet İttifaqı üçün, qisasçılıq arzusu ilə yaşayan Almaniya və keçmiş Antanta ölkələri arasında hərbi toqquşma perspektivi olduqca zəruri idi. Əgər Qərb ölkələri Avropanın təhlükəsizliyini qoruyub-saxlamaqdan ötrü Almaniyanın işğalçılıq ehtirasını, mövcudluğunu heç cür həzm edə bilmədikləri SSRİ-yə yönəltmək məqsədi güdürdülərsə, əksinə, Sovet İttifaqının məqsədi tamamilə başqa idi. Əvvəla, «dostluq və əməkdaşlıq» müqaviləsi imzalamaqla Almaniyadan təhlükəsizlik təminatı əldə etmək, ikincisi, Almaniyanı Qərbə hərbi müdaxiləyə təhrik etməklə, yaranmış vəziyyətdən istifadə edərək, özünün yarımçıq qalmış işğalçılıq planlarını həyata keçirmək və bununla öz nüfuz dairəsini daha da genişləndirməkdi. Sonrakı hadisələr göstərdi ki, bu həqiqətən belədir.

Almaniyanın müasir hərbi texnika ilə silahlanmış güclü ordusu olduğunu, lakin duru yanacaq ehtiyatlarının kifayət qədər olmadığını nəzərə alan Sovet İttifaqı Qərbi Avropada müharibə yanğınını tezləşdirmək məqsədilə onun kifayət qədər duru yanacaqla təminatını da öz üzərinə götürdü. Beləliklə, Bakı nefti Avropada genişlənməkdə olan dəhşətli yanğını daha da alovlandırdı. Tezliklə bu, dünya müharibəsinə çevrildi. Onun içərisində öz nefti ilə birlikdə Bakıya da yer tapıldı.

Onu da qeyd etmək lazımdır ki, SSRİ-nin istər Almaniya, istər Qərb dövlətlərilə siyasətində heç bir yenilik yox idi. Bu, sadəcə iyirminci illərin əvvəllərindəki Lenin siyasətinin mövcud dövrə uyğunlaşdırılmış adicə davamı idi. Bir də yada salmaq istəyirəm ki, o zaman Lenin də Almaniyanı Rusiyaya yaxınlaşdırmaqla bərabər, onunla Antanta dövlətləri arasında ixtilaf salmağa səy göstərirdi. Rapallo müqaviləsi də əsasən bu

müstəvidə imzalanmışdı. Elə o zaman da Almaniyanı dirçəltmək üçün duru yanacağa nəhayətsiz tələbat vardı. Rusiya – Almaniya neft xətti isə elə o zaman da Bakıdan başlanırdı.

Almaniyanın dünya müharibəsinə yuvarlanmasının əsas səbəblərini və SSRİ-nin buna münasibətini təhlil edərkən Tippelskirx yazırdı: «Sovet İttifaqı nəinki bitərəf deyildi, əksinə, külli miqdarda xammal və ərzaq göndərməyi də boynuna götürmüşdü ki, onları da sənaye mallarına dəyişirdi...»[23].

Əlbəttə, xammal dedikdə, general Tippelskirx şübhəsiz ki, nefti nəzərdə tuturdu. Çünki bir qədər əvvəl qeyd etmişdik ki, artıq müharibə ərəfəsində Almaniya iqtisadi inkişafın əsasını təşkil edən digər xammal növlərinin, ilk növbədə kömür və polad istehsalının ümumi həcminə görə Sovet İttifaqını xeyli geridə qoymuşdu. Odur ki, SSRİ bu məhsulları istəsə də göndərə bilməzdi. Qalırdı bircə Bakı nefti və Ukrayna taxılı.

# III FƏSİL

# ALMANİYANIN QƏRB və YAXIN ŞƏRQ ƏMƏLİYYATLARI

Sovet İttifaqının Almaniyaya neft ixracı Bakını yenidən dünyanın diqqət mərkəzinə çevirməklə yanaşı, həm də böyük bir təhlükə ilə üzbəüz qoydu.

Almanlar 1940-cı ildə Parisi işğal etdikdə onların əlinə xeyli məxfi sənəd keçmişdi. Həmin sənədlərdən məlum olurdu ki, 1939-1940-cı illərdə Avropada siyasi ab-havanın kəskinləşməsi, Almaniyanın və SSRİ-nin artmaqda olan hərbi müdaxilələri və təcavüzkar niyyətləri Qərb ölkələrini, ilk növbədə İngiltərə və Fransanı cavab tədbirlərinə sövq etmişdi. Millətlər Cəmiyyəti Şurasının qərarına əsasən SSRİ-nin «təcavüzkar» adlandırılması və Cəmiyyətin üzvlüyündən kənar edilməsi onlara öz planlarını həyata keçirmək üçün etibarlı hüquqi baza yaradırdı. Sovet İttifaqına qarşı İngiltərə və Fransanın hazırladıqları müharibə planına görə əsas zərbələrdən biri Bakı neft rayonuna yönəldilməli idi. 1939-cu il avqustun 23-də bağlanmış sovet-alman paktı və həmin il sentyabrın 28-də imzalanmış «Dostluq və sərhədlər» haqqındakı Almaniya – SSRİ müqaviləsi hər iki dövlətin strateji məqsədlərinin nə dərəcədə məkrli olduğundan xəbər verirdi.

Fransanın quru qoşunlarının baş komandanı general M.Qamelen baş nazir Daladyeyə göndərdiyi 1940-cı il 22 fevral tarixli raportunda qeyd etmişdi ki, Bakı SSRİ neftinin 75 faizini verir. SSRİ ondan məhrum olsa ağır vəziyyətə düşəcək. Başqa bir sənəd də rus iqtisadiyyatının köklü surətdə zəif – Qafqaz neftindən asılı olması haqqındadır.

Hələ 1939-cu ilin oktyabrında ABŞ-ın Fransadakı səfiri U.Bullit Vaşinqtona teleqram göndərib xəbər vermişdi ki, Parisdə Bakının bombardman edilib dağıdılması məsələsi müzakirə olunur.

Türkiyənin müharibə illərində İsveçrədəki səfiri U.Qaraosmanoğlu yazırdı: «Fransız səfiri hər dəfə mənimlə görüşəndə deyərdi: Sizin 25-30 diviziyanız var. Yaxın Şərqdə bizim 500 min nəfərlik ordumuz var. Müttəfiqlərin güclü donanmalarını da buna əlavə edin. Rusiyanın neft rayonunu 5-10 günə elə keçirərək Qızıl Ordunun motorlu hissələrini yanacaqdan məhrum edərik»[1].



Məşhur fransız hərbi və siyasi xadimi, Fransanın sabiq prezidenti general Şarl de Qoll öz memuarlarında yazırdı: «Bizim hakim dairələr hitlerizmə qarşı mübarizə aparmaq barədə daha az düşünürlər, nəinki SSRİ-yə zərbələr endirmək, Bakını bombardman etmək, İstambula qoşun çıxarmaq barədə»[2].

General Şarl de Qollun dediklərini Fransanın Yaxın Şərqdə olan qoşunlarının baş komandanı general M.Veyqanın köməkçisi general Jüponun aviasiya naziri Loran-Eynaka təqdim etdiyi raport da təsdiq edir. General Jüpo demişdi: «Mənə aviasiya azlıq edir, onu verin, çünki müharibə Qafqazda həll ediləcək, qərb cəbhəsində yox... Biz qərbdə döyüşməyəcəyik, Qafqazda döyüşəcəyik»[3].

1940-cı il yanvarın 19-da Fransanın baş naziri Daladye Bakını bombardman etməyi SSRİ-yə vurula biləcək zərbə üçün ən səmərəli, ən əhəmiyyətli vasitə hesab edirdi. Odur ki, Rusiyanın neft hasilatı sənayesinin darmadağın edilməsi üçün plan tərtib edilməsi barədə quru qoşunları baş komandanı general Qameleno və hərbi-dəniz donanmasının komandanı admiral J.Darlana yazılı göstəriş verdi.

Baş qərargah tərəfindən hazırlanmış planda göstərilirdi: Hərbi əməliyyatlar nəticəsində ilkin olaraq Bakı və Batumi şəhərləri işğal edilməli idi. Burada hər şey son dərəcə aydın idi. Çünki əgər Bakı əsas neftçıxarma mərkəzi idisə, Batumi Transqafqaz neft kəmərinin sonuncu məntəqəsi idi. Bakı neftinin ixrac əməliyyatı da elə buradan başlanırdı.

SSRİ-yə qarşı hazırlanmış hücum əməliyyatları 1940-cı il martın 15-nə nəzərdə tutulmuşdu və eyni zamanda iki istiqamətdə başlanmalı idi. Biri şimaldan Finlandiya ərazisindən, ikincisi isə Yaxın Şərqdən Bakıya doğru. Bu əməliyyatı reallaşdırmaq məqsədilə tərkibində 100-dən artıq təyyarəsi olan 150 minlik fransız ordusu Suriyada cəmləşdirildi. General Qamelenin tərtib etdiyi plana əsasən SSRİ-yə, o cümlədən Bakıya qarşı hazırlanmış bu əməliyyatda Türkiyə, İran, Rumıniya, Yunanıstan və Yuqoslaviyanın da iştirakı nəzərdə tutulmuşdu.

Hərbi əməliyyatlara bilavasitə rəhbərlik edən general Veyqan Qamelenə belə yazmışdı: «Mən öz tərəfimdən hesab edirəm ki, əsas məsələ Sovet İttifaqının boynunu Finlandiyada, ya «başqa yerdə» sındırmaq lazımdır»[4].

«Başqa yer» dedikdə Veyqan şübhəsiz ki, Bakını nəzərdə tuturdu. Lakin Bakını işğal etməyin öz çətinlikləri də az deyildi. Çünki şəhər əməliyyatda iştirak etməli olan ölkələrin sərhədlərindən azı 500 kilometr aralıda yerləşirdi. Odur ki, hava zərbələri xüsusilə səmərəli sayılırdı ki, onu da Türkiyə, İran, Suriya və İraq ərazisində yerləşdirilmiş aviaeskadrilyaların qüvvəsi ilə həyata keçirmək mümkün idi.

Bakı barəsində İngiltərənin strategiyası Fransanınkı ilə üst-üstə düşürdü. Çünki Almaniya Fransaya olduğu qədər Britaniya adalarına da ciddi təhlükə yaradırdı. Və bunda dolayı yolla SSRİ-nin də əli olduğunu yaxşı anlayırdı. 1918-1919-cu illərdə Bakıda olan və onun neft potensialına yaxşı bələd olan Böyük Britaniyanın hakim dairələri Bakının neft mədənlərinə dağıdıcı zərbələr vurulduğu təqdirdə SSRİ-nin iflic vəziyyətinə düşəcəyinə zərrə qədər də şübhə etmirdilər. Çünki onlar gözəl bilirdilər ki, Rusiyanın *(SSRİ – müəllif)* müharibə etmək iqtidarı ilk növbədə Bakı neftindən asılıdır. Beləliklə, hərbi «qüdrəti» şərəfsiz sovet-fin müharibəsində bütün gerçəkliyi ilə faş olan, müasir tələblərə cavab verməyən hərbi-sənaye kompleksinə və səmərəsiz iqtisadiyyata malik totalitar bir dövlət, tükənməz Bakı neftinə və 180 milyonluq insan kütləsinə arxalanaraq faşist Almaniyası ilə avantüra xarakterli hərbi-siyasi, son nəticəsi olduqca fəna olan oyunlarda fəal iştirak etməklə nəinki dünyanın ən qədim neft rayonu Bakını, həmçinin öz gələcək varlığını şübhə altında qoymuş oldu. Yaxın gələcəyin həyəcanlı və təhlükəli məqamları sübut etdi ki, əgər Bakı neft amili olmasaydı, bu perspektiv reallaşa bilərdi.

İngilis diplomatı, SSRİ üzrə mütəxəssis Maklin hesab edirdi ki, ingilis-fransız hərbi-hava qüvvələri Bakı və Şimali Qafqazın neft mədənlərinə və neftayırma müəssisələrinə, Bakı və Batuminin neftötürmə qurğularına, habelə Transqafqaz neft kəmərinə ciddi və dağıdıcı zərbələr vurmaq iqtidarındadır. Böyük Britaniyanın Xarici İşlər Nazirliyindən bu ölkənin Türkiyədəki səfiri Natqbali-Hücessenə göndərilmiş teleqramda deyilirdi ki, hazırda Bakıya hücumun mümkünlüyü həm strateji, həm də siyasi nöqteyi-nəzərdən öyrənilir ki, «bu da İngiltərənin Sovet İttifaqı ilə müharibəyə başlaması deməkdir»[5].

Britaniya hərbi-hava qüvvələri qərargahının ehtimalına görə üç bombardmançı eskadrilya təxminən üç ay ərzində bütün neft mədənlərini məhv edə bilərdi.

1940-cı il martın 7-də Britaniya hərbi-hava qüvvələrinin Yaxın Şərqdə yerləşən qrupunun komandanı aviasiya marşalı Mitçell Beyrutda Veyqan ilə görüşündə Londondan aldığı təlimat haqqında məlumat verdi. Orada Bakının neft hasil edilən rayonlarının və Batuminin neftayırma müəssisələrinin mümkün bombardmanına hazırlıqdan bəhs olunurdu.

Üç həftə sonra Uinston Çörçill hərbi komitənin iclasında çıxış edib Bakı neft mədənlərini hərbi-iqtisadi cəhətdən səciyyələndirdi və belə bir fikir irəli sürdü: «Bakı əməliyyatı əvəzinə Qara dəniz akvatoriyasına sualtı qayıqlar göndərmək və bununla da sovet limanlarından dəniz vasitəsilə neft daşınmasının qarşısını kəsmək daha çox məqsədəuyğun olardı». Bu fikri baş nazir Nevill Çemberlen də dəstəklədi.



Lakin 1940-cı ilin baharından başlayaraq Avropada hərbi-siyasi durum kəskin surətdə dəyişdi.

Həmin ilin aprelində almanların Danimarka və Norveçi tutması, bir qədər sonra isə Belçika və Fransanın süqutu, yetişməkdə olan ingilis-fransız müdaxiləsini və mədənlərin bombardman edilməsi təhlükəsini aradan qaldırdı. Birinci dünya müharibəsinin iki qalib ölkəsinin hərbi-siyasi birliyi, köhnə rəqibləri olan almanların qəti tədbirləri nəticəsində aradan qaldırıldı.

Almaniyanın Qərbi Avropa istiqamətində belə sürətli və təcili həyata keçirilmiş bu hücumunun mühüm səbəbləri vardı. Bunun əsas səbəblərindən biri almanların Bakı neft rayonuna olan xüsusi marağları idi. Dünyanın ən zəngin neft bölgələrindən olan Bakı barəsində Almaniyanın öz niyyəti vardı. İngiltərə və Fransanın Bakı neft rayonuna qarşı hazırladıqları hava hücumları və hərbi müdaxilə almanların hərbi-strateji planlarına real təhlükə yaradırdı. Odur ki, Fransanın labüd işğalı bu təhlükəni aradan qaldırmaqla bərabər, həm də Böyük *Britaniyanın* təklənməsinə səbəb oldu.

Bu, Sovet İttifaqının da maraqlarına tam uyğun gəlirdi. Birincisi, Bakı neft rayonunun itirilməsi SSRİ-yə çox baha başa gələ bilər və onu həlledilməz problemlərin girdabına sürükləyərdi. İkincisi isə Almaniyanın qərb əməliyyatları SSRİ-nin də əl-qolunu açır, təcavüzkar planlarını reallaşdırmağa əlverişli imkanlar yaradırdı. Ümumiyyətlə, 1941-ci ilin iyununda sovet-alman müharibəsi başlanana qədərki dövrə diqqətlə nəzər salsaq Almaniya ilə SSRİ arasında olan münasibətlərdəki qeyri-adiliyin şahidi olarıq. Aralarında baş verən hərbi toqquşmaya qədər hər hansı bir dövlətin həyata keçirdiyi hərbi təcavüzə qarşı digərinin loyal münasibəti diqqəti xüsusilə cəlb edir. Bu qarşılıqlı «anlaşma», 1939-cu ilin avqust və sentyabr aylarında bağlanmış müqavilələrdən sonra daha da möhkəmləndi. Hər iki dövlətin ayrı-ayrılıqda atdığı hərbi-siyasi addımlarda bir ümumilik, oxşarlıq nəzərə çarpırdı. Birinin marağı digərinin ilə üst-üstə düşürdü. Sovet-fin müharibəsində Almaniyanın susması, Polşanın qarşılıqlı surətdə bölüşdürülməsi, Baltikyanı respublikaların SSRİ tərəfindən ilhaqı, Norveç, Danimarka, Belçika və Fransanın almanlar tərəfindən işğalı və bu hadisələrə hər iki dövlətin loyal münasibəti deyilənləri bir daha təsdiqləyir.

Lakin Almaniya SSRİ-ni yeni ərazilər zəbt etməyə şirnikdirməklə vaxt qazanmaq və bununla da öz problemlərini tez bir zamanda həll etməyə çalışırdı. Bu problemlərdən biri də neft problemi idi. Çünki Hitler çoxdan başa düşmüşdü ki, geniş miqyaslı müharibə külli miqdarda duru yanacaq tələb edəcək. Danimarka, Norveç, Belçika və Fransaya qarşı

həyata keçirdiyi və Almaniya üçün bir o qədər də çətin olmayan hərbi kompaniya xeyli duru yanacaq israfına səbəb olmuşdu. Təkcə «Somme üzərinə edilən hücum vaxtı Vermaxt 15 milyon litr benzin... sərf etmişdi»[6].

Bununla belə qərbdə qazandığı ilk hərbi uğurlar Almaniyaya böyük neft ehtiyatları ələ keçirməyə imkan verməmişdi. Hitleri narahat edən də əsasən bu idi. Tükənməz neft ehtiyatlarına gedən yollar isə son dərəcə mürəkkəb və enişli-yoxuşlu idi. O, həmçinin bu mənbələrin rəqibləri tərəfindən tutulmasına da yol verə bilməzdi.

Odur ki, hələ 1940-cı ilin baharından etibarən almanlar Bakıya qarşı reallaşmaqda olan ingilis-fransız təhlükəsini aradan qaldırmaq məqsədilə qəti tədbirlərə əl atmaq məcburiyyətində qaldılar. Almanların İrandakı geniş casusluq şəbəkəsi bu işdə xüsusilə məhsuldar fəaliyyət göstərirdi. Admiral Kanarisin casusu Leverkün Təbrizə konsul təyin olunduqdan sonra Almaniyaya göndərilən kəşfiyyat xarakterli məlumatların sayı artdı. Nəticədə alman kəşfiyyatı fransızların Suriyada Bakı əleyhinə apardıqları hərbi hazırlıqların gedişini nəzarətdə saxlamağa nail oldu. Lakin Bakını müttəfiqlərin tutmaq təhlükəsi yarandığı təqdirdə mədənlərin məhv edilməsi üçün Almaniyanın xüsusi xidmət orqanları tərəfindən müvafiq əməliyyat planının həyata keçirilməsi də nəzərdə tutulmuşdu. Fəqət 1940-cı ilin may-iyun aylarında Fransanın almanlar tərəfindən darmadağın edilməsi ingilis-fransız planını alt-üst etdi və Suriyada hazır vəziyyətdə olan Veyqan ordusunun Bakıya qarşı labüd təhlükəsini aradan qaldırdı. Bu onu göstərir ki, Almaniyanın Fransaya hərbi təcavüzü həm də məcburi xarakter daşıyırdı və Bakı amili ilə birbaşa əlaqəsi vardı. Lakin Bakı nefti uğrunda başlanmış yeni mübarizə bununla bitmədi. Əksinə, daha da kəskinləşib olduqca təhlükəli xarakter aldı. Almaniyanın Bakı neftinə olan təmənnası açıq-aydın göründü. Bakıdan məsafəcə çox-çox uzaqda yerləşməsinə baxmayaraq, Almaniya onun nefti uğrunda fəal mübarizəyə artıq başlamışdı. Doğrudur, bu mübarizə hələ uzaqlarda, başqa coğrafi məkanlarda gedirdi. Hələlik Almaniya Bakı neftinə şərik çıxmaq istəyən ölkələrin neytrallaşdırılması ilə məşğul idi. Və bu sahədə artıq nəzərə çarpan uğurlar da əldə etmişdi. Fransanı diz çökdürməklə, Bakıya qarşı reallaşmaqda olan ingilis-fransız təhlükəsini sovuşdurması deyilənlərə əsaslı sübutdur. SSRİ-nin hərbi-siyasi şıltaqlıqlarına müəyyən zaman kəsiyində göz yumması da əsasən bununla əlaqədardır. Tezliklə Bakı nefti uğrunda mübarizənin yeni mərhələsi başlanacaqdı. Elə mübarizə ki, Birinci cahan savaşının sonunda olduğu kimi, vuruşan dövlətləri öz nəzərlərini və niyyətlərini Bakı meridianına yönəltməyə məcbur etdi. Belə bir vəziyyətdə Birinci dünya mü-



haribəsinin həlledici məqamlarından birində general Erix Lüdendorfun özünə verdiyi bir sual, öz aktuallığı ilə yenidən ortaya çıxdı. Lüdendorf o zaman belə demişdi: «Bakıdan nefti, biz yalnız öz qüvvələrimizə arxalanmaqla ala bilərdik. Lakin əsas problem, əlbəttə, ondan ibarət idi ki biz Bakıya necə daxil olaq?»[7].

«Barbaros» əməliyyatı hazırlanarkən Lüdendorfun bu sualı şübhəsiz Hitleri də çox düşündürmüşdü. Bakıya gedən yollar müxtəlif olduğu kimi, ona çatmaq üsulları da müxtəlif idi. Bakı nefti təkcə SSRİ üzərində qələbə deyildi. O həm də Yaxın Şərqə, uzaq Hindistana çıxmaq üçün ən etibarlı vasitə idi. Hitler Almaniyanın gələcəyini də məhz bu cəzbedici perspektivdə görür, ölkə əhalisini bu çətin yolda labüd məhrumiyyətlərdən qorxmamaq, hər şeyə sinə gərmək ruhunda tərbiyə etməyi tələb edirdi. O, bu fikri sıravi əsgərdən tutmuş hərbi elitanın hər bir üzvünə sirayət etdirməyə çalışır, imkan düşdükcə dəfələrlə təkrar edirdi. 1939-cu il noyabrın 23-də Vermaxt başçılarının yığıncağında çıxış edərkən Hitler demişdi: «Mübarizə üçün özündə güc tapmayan xalq səhnədən getməlidir. İndi mübarizə tamamilə başqadır, nəinki 100 il bundan əvvəl. ...Bu gün biz neft mənbələri, kauçuk, faydalı qazıntılar uğrunda mübarizə aparırıq»[8].

Müharibə ərəfəsində bütün dünyada neft hasilatı kəskin surətdə artdı. 1940-cı ildə onun ümumi həcmi 2 milyard 149 barrel[*] idi. Onun 1 milyard 353 milyonu ABŞ-ın, 185 milyonu Venesuelanın, 44 milyonu Meksikanın, 66 milyonu İranın, 24 milyonu İrakın, 5 milyonu isə Səudiyyə Ərəbistanı ilə Küveytin payına düşürdü[9]. SSRİ-də xam neftin 75 faizini verən Abşeron mədənləri isə həmin ildə 21 milyon 329 min ton (134 mln. 772 min barrel) neft hasil etməklə dünyanın ən böyük neft bölgələrindən biri olduğunu yenidən sübuta yetirdi.

Beləliklə, Bakı, ABŞ və Venesueladan sonra dünyada üçüncü yerə çıxdı. Onun hasil etdiyi neftin miqdarı İran, İraq, Səudiyyə Ərəbistanı və Küveyt də daxil olmaqla, bütünlükdə Yaxın Şərqdə hasil edilən neftin cəmindən xeyli çox idi. Lakin dünya neftinin əsas hissəsi, daha dəqiq desək, 1 milyard 582 milyon barreli Amerika qitəsində hasil edildiyindən Almaniyanın o bölgədə neft mənbələrinə sahib olmaq imkanları sıfıra bərabər idi. Atlantik okeanının o biri tayına hərbi müdaxilə Almaniyanın strateji planlarına daxil ola bilməzdi. Bunun üçün dünya okeanında hökmranlıq edə biləcək hərbi-dəniz donanması tələb olunurdu. Lakin tarixdən hamıya yaxşı bəllidir ki, okean və dəniz sularında ağalıq etmək heç vaxt Almaniyaya nəsib olmayıb. Bunu Hitler də pis bilmirdi. Çünki

---

[*] 1 barrel 159 litrə bərabərdir.

hətta Aralıq dənizində belə Almaniya donanması ingilislərin öhdəsindən gələ bilmir, tez-tez məğlubiyyətə düçar olurdu. Britaniyanın dənizdəki ağalığını Hitler özü də şəxsən etiraf edirdi. Belə olduqda Almaniyanın ixtiyarında iki yol qalırdı: biri Bakı, digəri isə Yaxın Şərq. Ən əhəmiyyətlisi isə ondan ibarət idi ki, hər ikisinə gedən yollar qurudan keçirdi. Almanların quru qoşunlarına və hərbi-hava donanmasına isə söz ola bilməzdi. Bakıya gedən yol SSRİ ərazisindən keçirdi. Yaxın Şərqə isə, almanların fikrincə, yalnız Quzey Afrikadan keçməklə çatmaq mümkündür. Lakin Yaxın Şərqin neft mədənləri lap əzəldən ingilislərin inhisarında idi. Hələ iyirminci əsrin əvvəllərində uzun çəkən axtarışlardan sonra Uilyam d'Arsinin təşkil etdiyi ekspedisiya İranın cənubunda zəngin neft yataqları aşkar etmişdi. Bu hadisədən dərhal sonra «İngiltərə-İran neft kompaniyası» təsis edildi və tezliklə İran Yaxın Şərqdə ən iri neft bölgəsinə çevrildi. Beləliklə, İran, habelə Mesopotamiya, Mosul, sonralar Səudiyyə Ərəbistanı və Küveyt neft hasilatını ildən-ilə artıraraq, onun ümumi həcmini birlikdə 100 milyon barrelə çatdırdılar[10]. Almaniya hələ XIX əsrin sonu, XX əsrin əvvəllərində bu bölgəyə xüsusi diqqət yetirir, əsaslı surətdə möhkəmlənməyə cəhd göstərirdi. Kayzer İkinci Vilhelmin 1898-ci ildə Yaxın Şərqə gəlməsi və Türkiyə sultanı ilə danışıqlar aparması da məhz bu məqsədə xidmət edirdi. Onun bu rəsmi səfəri, hər yerdə olduğu kimi, Almaniyada da böyük əks-səda doğurmuşdu. Almaniyada çıxan «Aldoyçe bletter» 1898-ci il 6 noyabr sayında yazırdı: «Beləliklə tam kurs ilə Dəclə və Fəratdan İran körfəzinə, sonra da quru yolu ilə Hindistana doğru hər şey əməksevər və döyüşkən alman əllərinə keçməlidir. Çünki bu ona məxsusdur»[11].

İkinci Vilhelm İstanbulda türk sultanı tərəfindən böyük təmtəraqla qəbul olundu. Bu, adi dövlət səfəri deyildi. Kayzer ilə birlikdə hərbçilər və diplomatlardan başqa, iri alman inhisarlarının təmsilçiləri, habelə alman bankının direktoru Georq fon Simens də bu səfərdə iştirak edirdilər. Nümayəndə heyətinin belə tərkibi səfərin xüsusi əhəmiyyət kəsb etməsindən xəbər verirdi.

Nəhayət, 1899-cu il dekabrın 23-də Türkiyə ilə Almaniya arasında Bağdad dəmir yolunun çəkilməsi haqqında müqavilə imzalandı. Hər iki ölkənin strateji maraqlarına cavab verən bu yol Bosfordan başlayaraq Türkiyədən və neftlə zəngin Mosuldan keçməli, Mesopotamiyaya və İran körfəzinə qədər uzanmalı idi. Zəngin neft ehtiyatları olan Mosul vilayəti Almaniya üçün xüsusilə əhəmiyyətli idi. Berlindən Bağdada qədər dəmir yolunun mövcudluğu onun bu bölgədə daha da möhkəmlənməsinə səbəb ola bilərdi. Lakin Birinci dünya müharibəsi və onun acı nəticələri Almaniyanın böyük uğurlar vəd edən bütün niyyətlərini puça çıxardı.



Odur ki, Hitler yeni müharibəyə hazırlaşarkən Yaxın Şərqi də öz strateji planlarına daxil etmişdi. Məhz elə buna görə də hələ müharibəyə başlamazdan xeyli əvvəl bu bölgədə hakim mövqe tutan Böyük Britaniyanın, habelə Fransanın mövqelərini sarsıtmaq məqsədilə müxtəlif tədbirlərə əl atdı. Onlardan biri İraqda, digəri isə Şimali Afrikada idi.

Nəhayət, 1941-ci il aprelin 3-də İraqda alman kəşfiyyatının təşkil etdiyi dövlət çevrilişi cəhdi baş tutdu. Hakimiyyət vaxtilə ingilislərin kənarlaşdırdığı keçmiş baş nazir Rəşid əl-Qaylaninin əlinə keçdi. Qaylani vaxt itirmədən, ilk növbədə, alman silahlı qüvvələri üçün təcili surətdə dayaq məntəqəsi yaratmağa başladı. Əvvəlcə hər şey tərtib edilmiş plana əsasən həyata keçirilirdi. Almanlar Qaylaniyə maliyyə yardımı etdilər. Lakin vəd verilmiş böyük ordu əvəzinə İraqa almanların kiçik bir hərbi dəstəsi gəldi. Almaniya hökumətinin Bağdadda olan xüsusi nümayəndəsi doktor Qrobb məlumat verib, İraq hökumətinə izah etdi ki, bu, Quzey Afrikada gedən şiddətli döyüşlər ilə əlaqədardır.

İraqdakı hadisələrdən təşvişə düşən ingilislər Bəsrəyə qoşun çıxardılar. 1941-ci il mayın 2-də ingilis silahlı qüvvələri ilə İraq ordusu arasında toqquşma baş verdi. İngilislərə qarşı yönəldilmiş may üsyanı zamanı almanların bombardmançı, nəqliyyat və qırıcı təyyarələrindən ibarət olan böyük birləşmələri İraq səmasında tez-tez görünür və bir sıra əməliyyatlarda bilavasitə iştirak edirdilər. Bu əməliyyatların uğurlu olması barədə arabir cılız informasiyalar da yayılırdı. Alman hərbi təyyarələri bir müddət Bağdad, Bəsrə, Mosul üzərində hökmranlığa nail oldular. Lakin ingilis silahlı qüvvələri kontingentinin qəti tədbirləri almanlara öz hərbi aksiyalarını genişləndirməyə imkan vermədi.

Almanların ikinci cəhdi Fransanın süqutundan sonra baş verdi. Fransızların Vişi hökumətinin başçısı marşal Petenin loyal münasibətindən istifadə edən almanlar neftçıxarma rayonlarına soxulmaq üçün Fransaya məxsus Suriya ərazisindən istifadə etməyə çalışdılar. Onlar Aralıq dənizindəki limanlara yanacaq nəql edən neft kəmərini məhv etmək və bununla da ingilisləri duru yanacaqdan məhrum etmək istəyirdilər. Lakin almanların bu cəhdi də baş tutmadı. Son anda Vişi hökumətinin başçısı marşal Peten tərəfindən Suriyada və Livanda yerləşən fransız silahlı qüvvələrinə komandan təyin edilmiş general Dents almanlarla əməkdaşlıqdan imtina etdi, faşistpərəst Vişi hökuməti ilə əlaqələri kəsib «Azad Fransa» hərəkatına qoşuldu.

Tezliklə ingilis silahlı qüvvələri general de Qollа sadiq qüvvələrlə birləşib Suriya və Livanı tutdular. Belə oduqda almanlar başqa üsula əl atdılar. Onlar kiçik heyətlərdən ibarət desant qruplarını nəqliyyat gəmiləriylə Suriya istiqamətində göndərməyə başladılar. Bu da mümkün olmadı. Kipr adası yaxınlığında ingilislərin sualtı qayıqları onları dəniz su-

larına qərq etdi. Bu bir daha sübut etdi ki, almanların dənizdə ingilislərə üstün gəlməyə heç bir ümidi yoxdur. Odur ki, Almaniya Yaxın Şərq ümidlərini Quzey Afrikadakı hərbi əməliyyatlara bağlamağa məcbur oldu.

1941-ci il yanvar ayının 11-də ali komandanlığın əmrinə müvafiq olaraq Quzey Afrikaya yeridilmiş general-feldmarşal Ervin Rommelin başçılıq etdiyi «Afrika korpusu» ona tapşırılmış mühüm vəzifənin icrasına başladı. «Səhra tülküləri» adlandırılan alman əsgərləri Liviya səhralarını keçib Misiri tutmalı, sonra da Süveyş kanalını qət edib Yaxın və Orta Şərqin neft bölgələrinə çıxmalı idilər.

Almaniya ilə təkbaşına mübarizəyə düçar olan və hələlik özünə yeni müttəfiq əldə edə bilməyən Britaniyanın qarşısında duran problem əsas etibarilə müdafiə xarakteri daşıyırdı. O, həm özünü müdafiə etməli, həm də Misiri qoruyub saxlamalıydı. Misirin Britaniya üçün mühüm strateji əhəmiyyəti vardı. Təkcə ona görə yox ki, Süveyş kanalı onun ərazisində yerləşirdi. Həm də ona görə ki, İngiltərənin mühüm hərbi bazası burada idi. Bu bazadan istənilən Avropa ölkəsinə güclü hava zərbələri endirmək olardı.

Misirin itirilməsi həmçinin bütün Quzey Afrikanın itirilməsi demək idi. Yaxın Şərq ətrafında cərəyan edən bu hadisələr və onların fövqündə duran Rommelin «Afrika korpusu»nun əməliyyatları uğurla nəticələnərdisə, Orta və Yaxın Şərq öz neft mənbələrilə birlikdə almanların tam hərbi nəzarəti altına keçər və bununla da bir yandan Böyük Britaniya və onun imperiyası məhv ola bilər, digər tərəfdən SSRİ-yə qarşı müharibəyə hazırlaşan Almaniya üçün əlverişli imkanlar yaranardı. Çünki «alman orduları zərbə endirmək üçün rusların mühüm strateji rayonu olan Qafqazın neft mədənlərinə tam yaxınlaşmış olardılar»[12].

İran hökumətinin və şəxsən Rza şahın Almaniyaya loyal münasibətini, habelə alman kəşfiyyatının oradakı geniş fəaliyyətini də nəzərə alsaq, aydın olar ki, SSRİ-nin bu cənub qonşusu alman silahlı qüvvələri üçün bir növ tranzit yolu ola bilərdi. Odur ki, Afrikanın şimalında, ucsuz-bucaqsız Liviya səhralarında həm də Bakının taleyi həll olunurdu.

Sovet tarixşünaslığında İkinci cahan savaşı ilə bağlı məsələlər həmişə birtərəfli işıqlandırıldığından, Quzey Afrikada Rommelin «Afrika korpusu» ilə çətin və mürəkkəb iqlim şəraitində aparılan mübarizənin də obyektiv və hərtərəfli təhlili verilməyibdir. Halbuki müharibə səhnəsinin bu bölgəsində gedən hərbi əməliyyatlar və onun son nəticəsi müharibənin gələcək taleyində əhəmiyyətli rol oynamışdı. Və həmin o dramatik anlarda bunu Böyük Britaniyanın baş naziri Çörçill ilə olan yazışmada Stalin də etiraf etmişdi. Lakin sovet-kommunist cəmiyyətində tarix elmi daim konyuktura qurbanı olduğundan İkinci dünya müharibəsinin tarixi



də zaman keçdikcə qeyri-obyektiv təhlilə məruz qalmış, onun yaranma səbəblərindən tutmuş son nöqtəsi qoyulana qədər əsl mahiyyəti qərəzsiz olaraq tam araşdırılmamışdır. Halbuki ucu-bucağı görünməyən müharibə səhnəsində baş verən hər bir hadisə az da olsa müəyyən əhəmiyyət kəsb edirdi. Müharibə yalnız sovet-alman cəbhə xəttindən ibarət deyildi. Bu və ya digər cəbhədə baş verən hadisələr, mütləq başqa, hətta ən uzaq cəbhələrdə belə əks-səda verir və ordakı əməliyyatlara təsir göstərirdi. Böyük Britaniyanın taleyi Quzey Afrikada, Yaxın və Uzaq Şərqdə həll edildiyi kimi, SSRİ-nin də taleyi təkcə Stalinqrad çöllərində, Qafqaz dağlarında və ya Kursk qövsündə deyil, həmçinin Uzaq Şərqdə, Şimal dənizində, Quzey Afrikada həll olunurdu. İrili-xırdalı yüzlərlə-minlərlə cəbhədən ibarət olan müharibə səhnəsi, bir-biri ilə möhkəm tellərlə bağlı canlı bir orqanizm idi. Dünyanın coğrafi baxımdan ən müxtəlif yerlərində, müxtəlif siyasi quruluşa, ideologiyaya, həyat tərzinə və inkişaf səviyyəsinə malik olan ölkələr ittifaqlar bağlayıb bir-birilə ölüm-dirim mübarizəsi aparır, nəticədə hər birinin öz şəxsi maraqlarına xidmət edirdi.



*A.Hitler və komandası*

Bu mənada Yaponiyada çıxan «Nippon» qəzeti 1941-ci il 9 iyul tarixli sayında yazırdı: «Yaponiyanın müdafiəsinin ön xətti Karsk dənizindən başlayaraq Ural dağlarından keçməklə Xəzər dənizinə, daha sonra Qafqaz və Kürdüstan (İran aşırımları nəzərdə tutulur - müəllif) dağ zirvələrindən İran körfəzinə, Səudiyyə Ərəbistanını keçməklə cənubda Ədənə qədər olan bir ərazidən keçməlidir»[13].

Yaponiyanın «müdafiəsini» təmin edə biləcək ön xəttin keçəcəyi coğrafi əraziləri təhlil etsək, görərik ki, söhbət yalnız SSRİ hesabına ərazi iddialarından getmirdi. Məsələ daha dərin idi. Yaponiyanın hərbi-siyasi strategiyasından neft qoxusu gəlirdi. Deməli, Qafqaz neftini, xüsusilə də Bakı neft rayonunu ələ keçirmək perspektivi yapon planlarına da daxil idi. Bu həm də onu göstərir ki, Almaniya və İtaliya ilə bir hərbi-siyasi paktda təmsil olunan Yaponiya ilk növbədə öz şəxsi mənafeyini güdür və bu zəmində Almaniya ilə labüd qarşıdurma perspektivindən də ehtiyatlanmırdı.

Halbuki Almaniyanın Qafqaz, xüsusən də Bakı neftinə hədsiz marağı Yaponiya hökumətinə çoxdan bəlli idi. Bunu Hitler 1942-ci ilin yanvarında yapon səfiri Osima ilə söhbətində bir daha vurğulamışdı. Həmin ilin yay kampaniyası ərzində neft mədənlərini ələ keçirməyi planlaşdıran fürer, qeyd edirdi ki, alman silahlı qüvvələrinin hücumunun əsas istiqaməti Qafqaza doğru yönəldiləcəkdir. Hitler o zaman yapon səfirinə birmənalı şəkildə demişdi: «Neftə çatmaq lazımdır...»[14] Daha sonra sözünə davam edərək əlavə etmişdi: «Əlbəttə, bundan əlavə çalışacağam ki, Moskva və Leninqradı məhv edim»[15].

Bu bir daha sübut edir ki, 1942-ci ildə almanlar üçün ən ümdə məsələ neft idi. Digər məsələlər arxa plana çəkilmişdi.

Hitler ola bilsin «Nippon» qəzetində açıqlanmış yaponların Qafqaza və Yaxın və Orta Şərqə olan niyyətlərindən xəbərsiz idi və ya bir o qədər ciddi saymırdı. Hər halda buna baxmayaraq Yaponiyanı SSRİ-yə qarşı müharibəyə başlamağa təhrik edirdi və onun «Böyük Asiya» yaratmaq planlarını da dəstəkləyirdi. Hitler hesab edirdi ki, Yaponiya SSRİ-yə qarşı müharibəyə qoşulsa, o zaman Sovet Ordusunun müəyyən hissəsi şərqdə yaranmış yeni cəbhədə döyüşmək məcburiyyətində qalacaqdır. Bu da öz növbəsində alman ordularına qarşı təzyiqi azaldar, onların öz məqsədlərinə çatmasını xeyli asanlaşdırardı. Lakin Uzaq Şərqdə, Sakit okean akvatoriyasında gündən-günə güclənən Yaponiya-Amerika hərbi qarşıdurması buna imkan vermirdi. Bu bir daha onu göstərir ki, hərbi əməliyyatların hansı coğrafi məkanda aparılmasından asılı olmayaraq, onların biri digərinə təsir etmək gücünə malikdir. Odur ki, Uzaq Şərqdə ikinci cəbhə təhlükəsinin reallaşmaması sovet hərbi komandanlığına əsas qüvvələri sovet-alman cəbhəsində cəmləşdirməyə şərait yaratdı.

# IV FƏSİL

# SOVET-ALMAN SAVAŞI ƏRƏFƏSİNDƏ

1939-cu ilin avqust və sentyabrında bağlanmış müqavilələr Almaniya – SSRİ münasibətlərinə yeni çalarlar gətirdi. Uzun müddət istər bu müqavilələrin və məxfi protokolların, istərsə də hər iki totalitar dövlət arasında yaranmış qarşılıqlı münasibətlərin əsl mahiyyəti ictimaiyyətdən gizlin saxlanılırdı.

Lakin çox keçmədən bu müqavilələrin ilk «bəhrələri» göründü. 1939-cu il sentyabrın 1-də səhər saat altıya 15 dəqiqə qalmış faşist Almaniyasının 63 motorlaşdırılmış atıcı və tank diviziyaları, 6 min 500 təyyarəsi və çoxlu miqdarda başqa hərbi texnikası, habelə piyada qüvvəsi Polşa ərazisinə daxil oldu. Ölkəni işğal edən ordunun ardınca neft mütəxəssisləri gəlirdi. Tezliklə Novı-Sonç – Sanok rayonundakı neft mədənləri yaradılmış Xüsusi komissiyanın nəzarətinə keçdi. Almanlar neft hasilatını tez bir zamanda təşkil edib, benzin və müxtəlif sürtgü yağlarının istehsalına başladılar.

Belə olduqda SSRİ də müqaviləyə əsasən özünə ayrılmış payı almağa tələsdi və sentyabrın 17-də müharibə elan etmədən Qızıl ordunu qonşu ölkənin ərazisinə yeritdi. 18 gün ərzində alman ordusunun darmadağın etdiyi Polşa ordusu artıq müqavimət göstərmək iqtidarında deyildi. Şəxsi heyətdən 694 min nəfəri almanlara, 217 min nəfəri isə Qızıl orduya əsir düşdü. Bunun ardınca Moskvada həmin il sentyabrın 28-də dostluq və sərhədlər haqqında yeni sovet-alman müqaviləsi imzalandı. Bununla da Polşanın bölünməsi praktiki olaraq rəsmiləşdirildi. Beləliklə Avropa yeni bir müharibə girdabına qədəm qoydu. 1939-cu il sentyabrın 3-də Böyük Britaniya Almaniyaya müharibə elan etdi.

Buna səbəb «Ateni» adlı ingilis gəmisinin almanların V–30 sualtı qayığı tərəfindən batırılması idi. Ertəsi gün, yəni ayın 4-də Britaniya aviasiyası Vilhelmshafen və Brünsbütteldəki alman donanmasına zərbə endirdi. Oktyabrın 6-da Hitler barışıq təklif etdisə də, rədd cavabı aldı.



Görünür Britaniya ilə hərbi qarşıdurmanın belə tezliklə baş verməsi onun üçün sərfəli deyildi.

Tezliklə heç kimin gözləmədiyi halda yeni hərbi kompaniya başlandı. Avropada yaranmış qeyri-sabit vəziyyətdən istifadə edən Sovet İttifaqı noyabrın 30-da Finlandiya ilə müharibəyə başladı. Qüvvələr nisbəti təbii ki, Finlandiyanın xeyrinə deyildi. Bir tərəfdə 1,6 milyon əsgəri, 9 min tankı və 10 min təyyarəsi olan 100 diviziyadan ibarət bir ordu durmuşdu. Digər tərəfdə isə cəmi 3 diviziya və 33 min əsgəri olan 1 süvari briqadası, bir dəstə tank, 60 ədəd döyüşə yararlı təyyarə və sahil artilleriyası da daxil olmaqla 250 top[1]. Bu kiçik orduya marşal Mannerheym rəhbərlik edirdi.

Məlum olduğu kimi, bu müharibə SSRİ-yə heç bir şöhrət gətirmədi. Əksinə onun bütün qüsurlarını üzə çıxardı. Onu diqqətlə izləyən Hitler belə bir nəticəyə gəldi ki, 1939-1940-cı illərin sovet ordusu öz səviyyəsinə və döyüş qabiliyyətinə görə 1916-1917-ci illərdəki rus ordusunun eynidir. Bu hal şübhəsiz ki, Hitlerin nikbinliyini xeyli artırdı. Sovetlərdən geri qalmayan Almaniya tez bir zamanda və çox asanlıqla Danimarkanı və Norveçi, sonra da Hollandiyanı tutdu.

Almanların Skandinaviyaya soxulması İngiltərədə Hitlerin böyük səhvi kimi qiymətləndirildi. Uinston Çörçill bu barədə belə demişdi: «Mənə gəldikdə belə hesab edirəm ki, Hitlerin Skandinaviyaya girməsi, 1807 ya da 1808-ci ildə Napoleonun İspaniyaya girməsi kimi böyük strateji və siyasi səhvdir»[2].

Lakin İkinci dünya müharibəsi təhlil edilərkən belə bir sual çoxlarını düşündürürdü: doğrudanmı Almaniyanın bu addımı səhv idi? Bir çox hərbi xadim bunun düzgün addım olduğunu söyləyirdi. Çünki Hitlerin məqsədi Qərb ölkələrini ələ keçirmək idi. Yalnız bundan sonra şərqdə cəbhə açıb SSRİ-yə qarşı müharibə apara bilərdi. Odur ki, o əvvəlcə Fransanı və Britaniyanı məhv etməli idi. Fransa Almaniya üçün çətin rəqib deyildi. Əsas problem, əlbəttə, Britaniya sayılırdı. Bu da onun adada yerləşməyindən irəli gəlirdi. Özünü müdafiə etməkdən ötrü ingilislərin tələb olunan qədər güclü hərbi dəniz donanması var idi və almanların hər cür cəhdinin qarşısını almağa qadir idi. Bu əsas manenin aradan qaldırılması son dərəcə vacib məsələ sayılırdı. Çünki başqa yolla Britaniyanı diz çökdürmək müşkül idi. 1940-cı ilin avqustunda İngiltərəyə qarşı «Dəniz şiri» şərti adı ilə başlanmış hücum əməliyyatları bunu bir daha sübut etdi. Belə ki, döyüşlərin getdiyi «3 ay ərzində ingilislərin hərbi-hava donanması 900 təyyarə itirdisə, «lüftvaffe» - 1700

təyyarə itirmişdi»[3]. Təqribən iki dəfə çox. Odur ki, Britaniyanın dəniz donanmasının zərərsizləşdirilməsi günün təxirəsalınmaz məsələsi idi. Bunun üçün ilk növbədə Şimal dənizinin neytrallaşdırılması və Norveçin Atlantik sahillərində sualtı qayıqlar üçün baza və hərbi-hava bazası yaradılması almanlar üçün olduqca vacib idi.

Fransanın tutulması heç də çətin olmadı. Ancaq Britaniyanın öhdəsindən Almaniya müharibənin sonunadək nəinki gələ bilmədi, əksinə, İngiltərə Almaniyanın süqutunda həlledici qüvvələrdən biri oldu.

Bağlanmış müqavilələrə, gündən-günə genişlənən qarşılıqlı əməkdaşlığa baxmayaraq, SSRİ-nin durmadan artan iştahası Almaniyanı təşvişə salmaqla bərabər, onun siyasətinə qarşı da inamsızlıq yaradırdı.

Sovet İttifaqının Rumıniya ərazisinin müəyyən hissəsinə təmənnası Almaniyanı narahat etməyə bilməzdi. Britaniya ilə müharibə ərəfəsində Almaniya hələ də lazımi səviyyədə mühüm xam neft mənbələri əldə edə bilməmişdi. Odur ki, 1940-cı il mayın 29-da Rumıniyadan neft alınması barədə razılıq əldə edildi. Ona əsasən Almaniya hər il 3 milyon ton neft almalı idi ki, onun da qiyməti dünyada bu xammalın qiymətinin 33 faizini təşkil edirdi[4].

Buna həmahəng olaraq, həmin il iyunun 26-da Sovet İttifaqı Birinci dünya müharibəsindən sonra Rumıniyanın tərkibinə qatılmış Bessarabiyanın qaytarılmasını, habelə üstəlik Şimali Bukovinanın da verilməsini tələb etdi. SSRİ ilə müharibə etməyə gücü çatmayan Rumınıya bu tələblərin hamısını yerinə yetirmək məcburiyyətində qaldı. İyunun 28-də artıq hər iki əyalət sovet silahlı qüvvələrinin nəzarəti altına keçdi.

Sovet İttifaqının birtərəfli qaydada atdığı bu addım Almaniyanın bu bölgədəki maraqlarına tamamilə zidd idi. «Sərhədlərin belə dəyişməsindən Hitler çox narazı qalmışdı. Çünki Sovetlər İttifaqı, beləliklə Rumıniyanın neft rayonlarına təhlükəli olan bir məsafəyə yaxınlaşmışdı. Halbuki rumın nefti Almaniyaya müharibəni uğurlu aparmaq üçün olduqca vacib idi»[5].

Ola bilsin ki, SSRİ-nin Rumıniyaya olan təmənnası təkcə ərazi iddialarından ibarət deyildi. Burada neft amili ehtimalı da güman edilə bilər. Əvvəla, imkan düşdüyü təqdirdə rumın mədənlərinin zəbt edilməsi gündəlikdə dura bilərdi. Digər tərəfdən Almaniyanın neft asılılığını nəzərə alaraq, gələcəkdə yaranmış vəziyyətlə əlaqədar onu bu mənbələrdən təcrid etmək olardı. Şübhəsiz ki, belə bir təhlükəli perspektiv Almaniyanı heç cür qane edə bilməzdi. Odur ki, 1940-cı il oktyabrın 12-də Rumıniya hökuməti ilə bağlanmış razılığa əsasən Almaniyanın silahlı



qüvvələri Rumıniya ərazisinə yeridildi. Onların miqdarı getdikcə xeyli artırıldı. Artıq 1941-ci ilin aprelində Rumıniyada almanların 200 minlik böyük ordusu məskunlaşmışdı. Rəsmi dairələrdə bu əməliyyat neft rayonlarının mühafizəsi və rumın ordusunun yenidən qurulması üçün atılmış bir addım kimi qiymətləndirilirdi. Əslində isə ölkənin iri neft mənbələri alman ordusunun tam nəzarəti altına keçirilmişdi.

«Rumıniya bağlanmış sazişə rusların gələcəkdə qeyri-qanuni hərəkətlərinə qarşı ən yaşı müdafiə vasitəsi kimi yanaşırdı.

Hitler isə ona *(sazişə - müəllif)* daha böyük əhəmiyyət verirdi. O, iyul ayında ilk dəfə olaraq Sovet İttifaqına qarşı müharibənin mümkünlüyü fikrinə gəldikdən sonra, Rumıniya onun üçün Şərqə doğru hücum meydanına çevrildi»[6].

Müharibə dövründə bir müddət quru qoşunları baş qərargahının rəisi olmuş general Halderin gündəliyindəki bir yazı diqqəti cəlb edir. Orada belə deyilirdi:

«31.7.1940-cı il (Berqhof, Hitlerin qərargahı)... Hitler:

Əgər Rusiya darmadağın edilsə, İngiltərənin son ümidi puç olar. O zaman Avropada və Balkanlarda Almaniya hökmranlıq edəcəkdir.

**Nəticə:** deyilənlərə əsasən Rusiya aradan götürülməlidir.

**İcra müddəti** – 1941-ci ilin baharı

Rusiyanı nə qədər tez əzsək, bir o qədər yaxşıdır. Əməliyyatın əsl mənası yalnız o zaman məlum olacaq ki, əgər biz ölkəni bir zərbə ilə dağıda bilək.

**Məqsəd** – Rusiyanın həyat qüvvəsini məhv etmək.

**Əməliyyat bölünür:**

**Birinci zərbə:** Kiyev, Dnepra çıxış, aviasiya körpüləri dağıdır. Odessa.

**İkinci zərbə:** Pribaltika, Belorusiyaya, Moskvaya doğru istiqamət.

**Bunlardan sonra:** şimaldan və cənubdan ikitərəfli mühasirə, daha sonra Bakı rayonunu tutmaq üçün ayrıca əməliyyat»[7].

Görünür SSRİ-nin Rumıniyaya təzyiqi, Hitlerin belə qənaətə gəlməsinin sürətlənməsinə səbəb olmuşdu.

Hər halda 1940-cı ilin ikinci yarısından etibarən alman komandanlığı Sovet İttifaqına qarşı müharibənin konkret operativ-strateji planını hazırlamağa başladı.

Almaniyanın hərbi elitasının üzvlərindən biri olan feldmarşal Keytel öz münasibətini belə ifadə edirdi: «Şərqdə müharibənin operativ-strateji planını hazırlayarkən mən aşağıdakı amilləri nəzərə alırdım:

a) Rusiyanın ərazisi son dərəcə böyük olduğuna görə onun tam işğalı mümkün deyildir;

b) SSRİ-yə qarşı müharibədə qələbə qazanmaq üçün mühüm operativ-strateji əraziyə malik olmaq kifayətdir. Daha dəqiq desək, Leninqrad – Moskva – Stalinqrad – Qafqaz xəttinə. Belə olduqda Rusiya praktiki olaraq hərbi müqavimət göstərmək imkanından məhrum olar. Çünki ordu öz mühüm bazalarından, birinci növbədə isə **n e f t d ə n** (*seçmə mənimdir - müəllif*) aralı salınmış olacaqdır»[8].

Sovet hökumətinin Baltikyanı ölkələrə: Litva, Latviya və Estoniyaya qarşı yeritdiyi təxribat xarakterli siyasət çox keçmədən rəsmi ultimatumla nəticələndi. 1939-cu ilin payızında Molotov ilə Ribbentrop arasında imzalanmış və 80-ci illərin sonlarında rəsmən üzə çıxarılmış gizli protokollar hərəkətə gəldi. Nəticədə 1940-cı ilin avqustunda hər üç respublika SSRİ-yə ilhaq edildi. Bunun sayəsində SSRİ ərazisi Şərqi Prussiya sərhədlərinə qədər genişləndi. Şübhəsiz ki, Hitler bunları bilir və lazımi nəticə çıxarırdı. Lakin başı Qərbdə Britaniyaya qarışdığından hadisələrə açıq münasibət bildirməyə tələsmir və ola bilsin, SSRİ-nin gündən-günə artan iştahasına göz yummaqla, öz problemlərini həll etmək, sovetlərin diqqətini daha vacib məsələlərdən yayındırmaq istəyirdi.

Lakin zor və təzyiq yolu ilə son illərdə əldə etdikləri artıq onu (*yəni SSRİ-ni - müəllif*) təmin etmirdi. Bunu 1940-cı il avqustun 2-də xarici siyasət haqqında etdiyi çıxışında Molotov da təsdiq etdi. O, açıq şəkildə bildirdi ki, «Sovet İttifaqı indiyə qədər əldə etdiyi nailiyyətlərlə kifayətlənə bilməz». Bu, «Hitlerin şübhələrini daha da artırdı, qərarını isə *(SSRİ ilə müharibə nəzərdə tutulur – müəllif)* möhkəmləndirdi»[9].

Alman hərbi komandanlığına yaxın hərbçilərdən general Tippelskirx həmin dövrü təhlil edərək söyləyir: «Arxasında belə bir təhlükəli qonşusu olduğu halda, o, *(Hitler - müəllif)* İngiltərə ilə həlledici mübarizəyə girişməyi mümkün saymırdı. Ona elə gəlirdi ki, «Şərqdəki hissiyyatsız dilənçilərlə» müharibəyə başlamağın vaxtını özü müəyyən edərsə, bu daha yaxşı olar. Belə ki, alman silahlı qüvvələrinin zərbə gücündən cəld istifadə edib, ruslara öz iradəmizi qəbul etdirə bilərik. Beləliklə, «Barbaros» planının həyata keçirilməsi Sovet İttifaqına qarşı müharibə siyasətinin leytmotivinə çevrildi»[10].

Nəhayət, 1940-cı il sentyabrın 27-də Berlində Almaniya, İtaliya və Yaponiya pakt bağlamaq haqqında razılığa gəldilər. Bu, müharibənin yeni mərhələyə daxil olduğunu göstərirdi.





*Almaniyanın xarici işlər naziri İ.Ribbentrop Moskva aerodromunda. 30 mart 1939-cu il*



*Sovet-alman müqaviləsinin imzalanması. Şəkildə: Molotov, Jdanov, Voroşilov, Ribbentrop və Stalin. Moskva, 28 sentyabr 1939-cu il.*

Pakta əsasən dünya bu üç ölkə arasında bölünməliydi. Əgər Avropa qitəsində üstünlük Almaniya və İtaliyaya verilirdisə, Asiyada Yaponiyanın əsas və həlledici rola malik olması yekdilliklə qəbul edilirdi. Beləliklə «Böyük Asiya» yaradılması ideyasının reallaşdırılması Yaponiyanın öhdəsinə verilirdi. Bundan başqa Şərqi Asiyanın Yaponiyanın təsir və nüfuz dairəsinə verilməsi həm də o demək idi ki, ABŞ Amerika qitəsi çərçivəsində davranmalı və başqa bölgələrə, xüsusən də Şərqi Asiyaya müdaxilə etmək meyllərindən birdəfəlik əl çəkməlidir. SSRİ-yə gəldikdə isə göstərilirdi ki, o Asiyada onsuz da böyük əraziyə malikdir və onu digər dövlətlərlə razılığa gəlmək yolu ilə İrana və Hindistana qədər artıra da bilər. Bununla Almaniya SSRİ-nin üzünü Asiyaya doğru çevirməklə, Avropanın qapılarını onun üzünə bağlamaq məqsədi güdürdü. Çünki o zaman alovlanmaqda olan müharibənin əsas konturları tam müəyyənləşməmişdi və hətta onun tezliklə başa çatacağı zənn edilirdi. Halbuki həqiqətdə bu uzun çəkən, faciəli məqamlarla zəngin olan bir yolun lap başlanğıcı idi. O zaman ilk baxışda adi görünən bəzi məsələlər, sonralar olduqca böyük, həlledilməz problemlərə çevrildi və müharibənin sonunadək həll edilmədi. Bu əsasən Almaniyaya aiddir. Problem də ilk növbədə duru yanacaq – neftlə bağlı idi. Almanlar üçün bu problem çox tez, daha doğrusu 1941-ci ildə onların Moskva yaxınlığında düçar olduqları ağır və gözlənilməz uğursuzluqdan sonra ortaya çıxdı. Belə ki, onlar vaxt itirmədən öz hərbi-strateji konsepsiyalarına yenidən baxmağa və *əhəmiyyətli dəyişikliklər etməyə məcbur oldular. Bu barədə biz* sonrakı fəsillərdə daha ətraflı söhbət edəcəyik.

Berlin-Roma-Tokio hərbi xəttinin yaradılması, dünyanın nüfuz dairələrinə bölünməsi yolunda atılan addımlar təbii ki, Sovet İttifaqının diqqətindən yayına bilməzdi. Odur ki, ümumdünya bölgüsündə öz tələblərini irəli sürmək məqsədilə Molotov 1940-cı il noyabrın 12-də Berlinə gəldi. Danışıqlar zamanı o bildirdi ki, Sovet İttifaqı prinsip etibarilə üç ölkənin – Almaniya, İtaliya və Yaponiyanın bağladıqları pakta daxil ola bilər. Lakin bu bir sıra şərtlərdən asılıdır. O, bəyan etdi ki, əvvəla SSRİ-nin xarici siyasətinin bəzi konkret məqsədləri barədə Almaniya ilə razılığa gəlməsi olduqca vacibdir. Sonra Molotov SSRİ-nin Finlandiyaya olan təmənnasını bir daha açıqladı və nəzərə çatdırdı ki, 1940-cı ilin martında həmin ölkə ilə bağlanmış sülh müqaviləsi Sovet İttifaqının maraqlarına ziddir.

İki gün davam edən danışıqlar sübut etdi ki, SSRİ-nin iştahası gözlənildiyindən də böyükdür. Bu, Türkiyə və Balkanlar məsələsində



xüsusilə aydın göründü. Molotov keçmiş Rusiya imperiyasının əski hərbi-strateji məqsədlərini yenidən, bu dəfə Sovet İttifaqının simasında həyata keçirməyə çalışdı.

Berlin danışıqlarına yaxından bələd olan general Tippelskirx yazdığı *memuarda* Molotovun tələblərini belə çatdırır: «Sovet İttifaqı istərdi ki, üçüncü ölkənin iştirakı olmadan Türkiyə ilə Dardanel məsələsi barədə razılaşma əldə etsin. Çünki rusların fikrincə, bu məsələnin həlli, dəniz boğazlarında *(Bosfor, Dardanel - müəllif)* quru qoşunları və hərbi-hava bazaları yaradılmasını təmin etmiş olar»[11].

Bu çox ciddi tələb idi. Almaniyanın hərbi-strateji planlarına heç cür uyğun gəlmirdi. Daha sonra Tippelskirx Molotovun dediklərini belə şərh edir: «Nəhayət Molotov Yunanıstana, Rumıniyaya, Yuqoslaviyaya və Bolqarıstana canlı maraq göstərdi və işarə etdi ki, Sovet İttifaqı Al*maniyanın Balkanlarda uzun müddət möhkəmlənməsini əsla arzu etmir.* Ona etiraz etdilər ki, Almaniya bu rayona müharibənin genişlənməsi səbəbindən müvəqqəti daxil olub və əmin-amanlıq dövründə onun burada yalnız iqtisadi maraqları olacaqdır»[12].

Molotovun Balkanlara, xüsusilə də Yunanıstana və Rumıniyaya göstərdiyi maraq Hitlerin daha çox təşvişinə səbəb olmuşdu. Bu onunla əlaqədar idi ki, Molotovun səfərindən bir qədər əvvəl, oktyabrın 28-də Mussolini Yunanıstana müharibə elan etmişdi. Hitler nə qədər çalışsa da bunun qabağını ala bilməmişdi. Çünki o, İtaliyanın təkbaşına bunun öhdəsindən gələ bilməsinə şübhə ilə baxırdı. C.Fuller yazır: «Çox güman ki, Mussolini bunu almanların Rumıniyanı işğal edəcəkləri barədə ona qabaqcadan məlumat vermədikləri üçün onlardan intiqam almaq məqsədilə edib»[13].

Hitler səhv etməmişdi. İtaliyanın Yunanıstana hərbi əməliyyatı 4 həftədən sonra tam uğursuzluqla nəticələndi və Berlin-Roma-Tokio birliyinin nüfuzuna ciddi zərbə endirdi. Bu, Hitleri hövsələdən çıxardı və noyabrın 20-də Mussoliniyə böyük bir məktub göndərməyə məcbur etdi. General Tippelskirx məktubun bəzi müddəalarını belə şərh edir: «Hitler öz məktubunda qarşısında duran saysız-hesabsız həlledilməyən, qarmaqarışıq problemlərin könülaçmayan mənzərəsini təsvir etmişdi.

O, pakta daxil olan dövlətlərin Yunanıstanda düçar olduqları uğursuzluqların psixoloji və hərbi nəticələri haqqında öz fikrini bildirdi.

Hitler vəziyyəti düzgün qiymətləndirirdi: əgər pakta daxil olan ölkələrin məğlubedilməzliyi barəsindəki əfsanə təhlükəyə uğrayıbsa, deməli, bundan İngiltərənin nüfuzu xeyli yüksəlib. Daha sonra Hitler

Yunanıstanla olan ixtilafın hərbi nəticələri barəsində yazırdı: «İngiltərə bir sıra dayaq məntəqələrini tutmaqla. Ployeştinin *(Rumıniya - müəllif)* neft rayonuna 500 km yaxınlaşa bilər. Halbuki bu vaxta qədər o. ingilislərin bombardmançı təyyarələri üçün əlçatmaz idi. Hava hücumlarına qarşı etibarlı müdafiəmiz yoxdur. neftayırma müəssisələrinin dağıdılması misilsiz ziyana səbəb ola bilər.

Hitlerin gəldiyi nəticə belə idi: «Hərbi nöqteyi-nəzərdən belə vəziyyət təhlükəlidir. iqtisadi cəhətdən isə böyük təşviş doğurur. Çünki söhbət Rumıniyanın neft rayonlarından gedir»[14].

Rumıniyanın təhlükəsizliyinin təmin edilməsi Almaniya üçün önəmli həyati əhəmiyyət kəsb edirdi. Bu barədə Almaniyanın hakim dairələrinin rəyi qəti idi. Tippelskirx bunu belə izah edirdi: «Almaniya imkan verməzdi ki, Rumıniya təhlükəyə məruz qalsın, çünki müharibədə Almaniyanın qələbəsi onun neftindən asılı idi. Odur ki, Rumıniya ilə Rusiya arasında yaranmış gərginlikdən həvəslə istifadə edirdi»[15].

Buna görə də, Molotovun Almaniyaya 2 günlük səfəri uğurlu ola bilməzdi. Çünki Rumıniya Almaniya üçün çox incə bir mətləb idi və onun ətrafındakı hər hansı bir söz-söhbət isə Hitlerin qısqanclığına səbəb olurdu. Təbii ki, Hitler Molotovun səfərindən bir neçə gün sonra bu görüşlərin ümidverici nəticələr verməyəcəyini söyləmişdi. Tippelskirx isə Molotovun danışıqlar üçün «olduqca tərs və çətin tərəfdaş olduğunu»[16] qeyd edirdi. Onun fikrincə. o. *(Molotov - müəllif)* «Almaniyanın qələbə çalmaq ümidlərinə şübhəli münasibətini gizlətmirdi»[17].

Lakin Rumıniya neftinin Almaniya üçün həyati və hərbi əhəmiyyətindən danışarkən bir mühüm cəhəti nəzərdən qaçırmaq olmaz. Əvvəla, Almaniya Avropada müharibənin çox qısa vaxtda bitəcəyinə əmin idi. Üç dövlətin bağladığı paktı xarakterizə edərkən, bunu Tippelskirx də qeyd etmişdi. İkincisi. Sovet İttifaqına qarşı müharibəni isə son dərəcə yüngül bir əməliyyat hesab edir və onu qısa bir vaxtda başa çatdıracağına möhkəm inanırdı. «Blits-kriq» ideyası da şübhəsiz ki, məhz bu inamdan yaranmışdı. Belə olduqda, Almaniyanın süni yolla aldığı benzin də daxil olmaqla, yanacaq ehtiyatı ilə rumın nefti onun bütün hərbi ehtiyaclarını çox güman ki, ödəyə bilərdi. Lakin müharibənin istər Avropada, istərsə də Rusiyada uzandığı təqdirdə bu neft ehtiyatı yalnız taktiki əhəmiyyət kəsb edərdi. Lakin Hitlerin fərziyyəsinin əksinə, müharibə səhnəsinin demək olar ki, əksər bölgələrində döyüş əməliyyatları səngimək bilmirdi. SSRİ ərazisində isə müharibə daha üzüntülü xarakter almışdı. Artıq 1942-ci ilin sonlarına yaxın almanların duru yanacağa olan ehtiyacı



gündən-günə artdı. Stalinqrad döyüşlərində və Qafqaz əməliyyatında bu problem bütün kəskinliyi ilə ortaya çıxdı.

İki günlük Berlin danışıqları açıq ixtilafa səbəb olmasa da, hər halda onun qeyri-qənaətbəxş nəticələri hər iki ölkə arasındakı əvvəlki münasibətlərə kölgə saldı. Molotovun səfərindən bir qədər sonra Moskva yeni bir cəhdə əl atdı. Almaniyaya göndərdiyi notada uğursuzluqla bitən danışıqlara istinad edərək Molotovun söylədiyi bəzi mülahizələrin. əsl mahiyyətini aydınlaşdırmağa çalışdı. Notada əsasən Bolqarıstan. Finlandiya və Dardanel problemlərindən bəhs olunurdu.

Lakin Almaniya bu notaya laqeyd münasibət göstərdi və hətta cavab verməyi də rəva görmədi.

Moskvanın Rumıniyaya olan hədsiz marağı Hitlerin səbr kasasını doldurub daşdırdı. Tippelskirx yaranmış vəziyyəti belə şərh edirdi: «Şübhəsiz ki, Molotovun səfəri Hitlerə bir daha sübut etdi ki. ruslar bir tələbdən başqa tələbə keçəcəklər və üzlərini «şərqə doğru döndərmək» fikrində deyillər»[18].

Beləliklə, Hitler artıq tamamilə əmin oldu ki. Moskvanın nəzərləri məhz Avropaya dikilib, Asiyaya yox. Odur ki, SSRİ ilə müharibənin qaçınılmazlığı daha da aydınlaşdı.

Beləliklə, İngiltərə ilə çətin qarşıdurmaya baxmayaraq. Almaniya SSRİ ilə də müharibəyə hazırlaşmağa başladı. Lakin o, Britaniyanın Yaxın Şərqdəki mövqelərinə mühüm əhəmiyyət verdiyindən Afrika əməliyyatını mümkün qədər tez başa çatdırmaq niyyətində idi. Hitleri Yaxın Şərqə cəlb edən sözsüz ki, hasilatı ildən ilə artmaqda olan zəngin neft mədənləri idi.

Lakin Yaxın Şərq neftinə aparan yol isə İngiltərənin Quzey Afrikada və Aralıq dənizində öz nəzarəti altında saxladığı ərazilərdən keçirdi. Bu məqsədlə Quzey Afrikaya çıxarılmış alman silahlı qüvvələri ingilis hərbi hissələri ilə ağır döyüşlər apararaq. çox çətinliklə irəliləyirdilər.

Nəticədə əl-Alameyndə ilişib qaldılar və bir addım da irəli ata bilmədilər. «Afrika korpusu»na böyük ümidlər bəsləyən Hitler o zaman nəinki bu əməliyyatın son dərəcə uzanacağını, hətta özünün ən böyük məğlubiyyətlərindən birinə çevriləcəyini heç ağlına da gətirə bilməzdi. Halbuki o zaman alman hərbi qüvvələrinin baş komandanlığının 32 saylı direktivinə əsasən Yaxın Şərq bölgəsində iri miqyaslı strateji əməliyyat aparmaq üçün üç zərbə nəzərdə tutulmuşdu. Birincisi, qərbdən Liviya. Misir və Süveyş istiqamətində. ikincisi, şimal-qərbdən, Türkiyədən keçməklə Bolqarıstandan Suriya və Fələstin istiqamətində və nəhayət üçün-

cüsü, şimaldan – cənubi Qafqazdan, İran vasitəsilə İraqın neft rayonlarına və İran körfəzinə.

Beləliklə, Rommelin Afrika korpusunun Quzey Afrikada apardığı hərbi əməliyyatın strateji mənası aydınlaşır. Onun *(«Afrika korpusu»nun - müəllif)* əsl məqsədi gələcək perspektivdə Cənubi Qafqazdan gələn qüvvələrlə İraq ərazisində birləşmək idi. Bu bir daha göstərir ki, Almaniya nəinki SSRİ-yə qarşı müharibəni, hətta Bakı neft rayonunu da tutmağı artıq planlaşdırmışdı. Bakı neft rayonunu və Yaxın Şərqdəki neft mədənlərini ələ keçirdikdən sonra Almaniya ABŞ və Britaniyaya qarşı uğurlu müharibə aparmaq ümidində idi. Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi Rumıniya nefti deyil, məhz Bakı nefti Almaniya üçün mühüm hərbi-strateji əhəmiyyət kəsb edirdi. Bir yandan o, SSRİ-ni Bakı neftindən, Britaniyanı isə Yaxın və Orta Şərq neftindən tamamilə məhrum etmək, digər tərəfdən isə hər ikisinə sahib olmaq ümidində idi. Və bu yolda nə qədər qan lazım idisə, tökməyə hazır idi.

SSRİ ərazisindən İraq istiqamətində hərbi əməliyyatı həyata keçirmək məqsədilə «Qafqaz-İran» əməliyyat qrupunun yaradılması nəzərdə tutulurdu. Onun tərkibi iki tank, bir motorlaşdırılmış və iki dağ-atıcı diviziyalarından ibarət olmalı idi.

Bunu general Halder öz gündəliyində 1941-ci il iyulun 3-də qeyd etmişdi: «Nil və Fərat çayları istiqamətində həm Kirenaika, həm də Anadolu tərəfdən, habelə Qafqazdan İrana doğru… hücumların hazırlanması.

Bolqarıstanda istənilən qədər qüvvə hazırlandıqdan sonra Anadoludan keçib, Qafqazdan köməkçi əməliyyatla birlikdə Suriyaya qarşı əməliyyata başlamaq olar. Əməliyyata hazırlıqla eyni vaxtda bu qüvvələrdən Türkiyəyə qarşı siyasi təzyiq göstərmək üçün istifadə etmək olar ki, o, ordunu ərazisindən buraxmağa razı olsun»[19].

Türkiyə buna razı olmadığı təqdirdə 32 saylı direktivə əsasən onun müqavimətini silah gücünə qırmaq tələb olunurdu.

Hücumun Qafqaz istiqamətindən nəzərdə tutulan hissəsi alman silahlı qüvvələri baş komandanlığının tərtib etdiyi planda belə görünürdü:

**Məqsəd:**

Məqsəd Qafqazın neft rayonlarını ələ keçirmək və 1942-ci ilin sentyabrına qədər İran-İraq sərhəddindəki aşırımları tutmaq və sonra Bağdada doğru hərəkət etmək.

**Əməliyyatın mərhələləri:**

Əməliyyat 6 mərhələdə aparıla bilər (Güman edilən müddəti 1941-ci ilin noyabrından 1942-ci ilin sentyabrına qədər).





*V.Molotov və İ.Ribbentrop sovet-alman müqaviləsini imzaladıqdan sonra. Moskva, 28 sentyabr 1939-cu il.*

**Bu mərhələlər belədir:**

1. Quzey Qafqazda strateji əməliyyatların hazırlanması üçün yararlı bölgələrin tutulması (1941-ci ilin noyabrından).
2. Qafqazdan hücum etmək üçün qüvvələrin hazırlanmasının başa çatdırılması (1942-ci il mayın sonuna qədər).
3. Qafqazdan iki mərhələdən ibarət olan hücum (1942-ci il iyul).
4. Güney Qafqazdan Araza qədər hücum.
5. İran-İraq sərhəddinə doğru hücum etmək üçün Təbriz və Kirmanşah rayonlarında hücum mövqelərini əldə etmək.
6. Əməliyyatın məqsədinə nail olmaq, Rəvanduz və Xanəqan sərhəd aşırımlarını ələ keçirmək (4-6 iyuldan 1942-ci il sentyabrın əvvəlinə qədər)[20].

Bu sənəd 1941-ci ilin iyul ayında tərtib edilmişdi. O, bir daha sübut edir ki, neft amili Almaniya üçün birinci dərəcəli əhəmiyyət daşıyırdı. Onu əldə etməkdən ötrü ən mürəkkəb, ağlabatmaz əməliyyatlardan belə çəkinmirdi. Bu sənəd bir də təsdiq edir ki, alman komandanlığı Qafqaz, o cümlədən Bakı neftinin ələ keçirilməsi perspektivinə son dərəcə inamla yanaşır və onun reallaşması gününü yalnız zamanın ixtiyarına verirdi. Fəqət onu da gözəl bilirdi ki, Qafqaz nefti olmasa İrana, İraqa doğru planlaşdırdığı əməliyyat da baş tuta bilməz. Bu həqiqətən də belə idi. Bunu Stalinqrad ətrafında və Qafqaz dağlarında gedən döyüşlər də

aydın göstərdi. Çünki hərbi əməliyyatların xarakteri elə bir sonluqla nəticələndi ki, almanlar hərəkət etmək üçün yanacaq tapa bilmirdilər. Hətta yollar açılsaydı belə alman tanklarının Bakı istiqamətində hücumu yanacaq olmadığından çox güman ki, baş tutmayacaqdı. Lakin o vaxtlara hələ çox qalırdı. «Barbaros» planı üzərində gərgin və ardıcıl iş yenicə başlanmışdı.

Müharibədən əvvəl Almaniyanı təbii neftlə təmin edən iki mənbə vardı. Biri Rumıniyada, digəri Macarıstanda idi. Bundan əlavə 10 iri müəssisə süni yanacaq istehsal edirdi. Onlar Leun, Pelitse, Gelzenberq, Bruks, Bolen, Tseyts, Vesselinq, Şolven, Maqdeburq və Velheym şəhərlərində yerləşirdi.

1939-cu il sentyabrın 2-də Polşa almanlar tərəfindən işğal edildikdən sonra Fransa və İngiltərə hökumətləri bəyanat verib qeyd etmişdilər ki, onlar «çox dar çərçivədə hərbi obyektlər» bombardman edəcəklər. Təbii ki, bəyanat Almaniyaya şamil edilirdi və 1922-ci ildə silahlanmanın məhdudlaşdırılması haqqında Vaşinqton konfransının qəbul etdiyi qərarlara (maddə 22, hissə II) tam uyğun idi. Altı aydan sonra bunu İngiltərənin baş naziri Çemberlen bir daha təsdiq etdi. 1940-cı il fevralın 15-də icmalar palatasında çıxış edərkən o, belə demişdi: «Başqaları hər nə istəyirsə etsin, bizim hökumət heç vaxt terrorçuluq xatirinə nə qadınlara, nə də başqa mülki şəxslərə əclafcasına hücum etməyəcəkdir»[21].

Lakin hakimiyyətə gələn Çörçill dərhal Almaniya ərazisində yerləşən strateji obyektlərin bombardman edilməsi barədə əmr verdi.

Artıq ertəsi gün – mayın 11-də Badenin Freyburq şəhəri ingilislərin hava bombardmanına məruz qaldı. Bununla əlaqədar ingilis siyasətçiləri hesab edirlər ki, Almaniya-Britaniya müharibəsinin əsl səbəbkarı Almaniya deyil, məhz İngiltərədir. O dövrdə Britaniya aviasiya nazirinin baş köməkçisi olmuş Speyt yazırdı: «*Almanlar Britaniya adalarını* bombardman etməmişdən əvvəl, biz (ingilislər) Almaniyada olan obyektləri bombardman etmişdik. Bu, tarixi faktdır və hamı tərəfindən təsdiqlənib»[22].

O zaman Hitlerin başı Fransaya qarışdığından cavab zərbələrinə imkan tapa bilmədi. Lakin ingilislərin zərbələri əsas etibarilə sənaye obyektlərinə endirilirdi. Fəqət o dövrün texniki imkanları ilə almanların hərbi sənayesinin böyük hissəsini məhv etmək praktiki olaraq mümkün deyildi. «Almaniyanın hərbi müəssisələri 130 kv. mil sahəsi olan bir ərazidə yerləşirdi və onları hətta bir neçə il ərzində bombardman etmək



üçün elə bir astronomik miqdarda təyyarə tələb olunardı ki, İngiltərənin bütün sənaye imkanları onları istehsal etmək iqtidarında olmazdı»[23].

Con Fuller yazır ki, «əgər Çörçill ağıllı fikirləşsəydi, hər yeri ölü zonaya çevirmək əvəzinə, ona aydın olardı ki, sənaye müəssisələri deyil, onların enerji mənbələri – kömür və neft obyektləri bombardman edilməli idi. Əgər bu mənbələr mütəmadi olaraq zəiflədilsəydi, son nəticədə alman sənayesinin 90 faizi dayanmış olardı»[24].

Lakin bu baş vermədi. Almaniya demək olar ki, müharibənin sonuna qədər ərazisindəki süni yanacaq istehsal edən müəssisələri qoruyub saxlamağa müvəffəq olmuşdu. Rumıniya nefti itirildikdən sonra Almaniyanın yeganə ümid yeri məhz bu müəssisələrdi.

Hitler müharibəyə İspaniyanı da cəlb etmək fikrində idi. Lakin vətəndaş müharibəsindən yenicə qurtulmuş bir ölkə üçün bu son dərəcə çətin bir məsələ idi. Vətəndaş müharibəsi dövründə Almaniyanın hadisələrə fəal müdaxiləsi və hərtərəfli yardımı hərbi vəziyyətin kəskin surətdə dəyişməsinə və kommunistlərin məğlubiyyətinə səbəb olmuşdu. Bunun müqabilində İspaniya diktatoru Bahamonde Franko öz himayədarı olan Hitlerə başladığı müharibədə yardımçı olmaq istərdi. Fəqət iqtisadi imkanlarının məhdudluğu buna mane olurdu. O 1941-ci il fevralın 12-də Mussolini ilə görüşündə də bu problemə toxunmuşdu.

Bundan doqquz gün sonra Franko Hitlerə yazırdı: «İspaniyanın müharibəyə girməsinin tarixini deyə bilməməsinin yeganə səbəbi iqtisadi çətinliklərlə bağlıdır»[25].

Almaniyanın İspaniyadakı səfiri fon Ştorer isə daha lakonik idi. O 1940-cı ilin avqustunda öz hökumətinə yazıb məlumat verirdi: «İspaniyada olan benzin yalnız ay yarıma çata bilər»[26].

İspaniya tamamilə ingilis və amerikan yanacağından asılı idi və *əgər müharibəyə girsəydi, onlardan da məhrum* olacaqdı[27].

Əlbəttə ki, belə bir şəraitdə İspaniyanın müharibəyə qoşulması xeyirdən çox zərər gətirə bilərdi. Özünün duru yanacağa olan tələbatını çox çətinliklə ödəyən Almaniya İspaniyanı, müharibəyə girdiyi təqdirdə uzun müddət yanacaq ilə təmin etmək iqtidarında deyildi. Digər tərəfdən İspaniyanın hərbi potensialı sıfıra bərabər idi və müharibədə onun iştirakı yalnız rəmzi xarakter daşıya bilərdi. Hitler isə bunu qəbul etmək istəmədi. Odur ki, bu plan tezliklə rədd edildi. Beləliklə, neft amili burada da öz həlledici sözünü dedi. Hətta Almaniya kimi hərbi, siyasi və iqtisadi cəhətdən qüdrətli bir ölkə İspaniyanın 30-35 minlik ordusunun neft yanacağı ilə təminatını öz boynuna götürməyə cürət etmədi. Çünki istər

Bakı nefti, istərsə Yaxın və Orta Şərqin neft rayonu nə qədər cazibədar olsa da, yalnız gələcəkdə Almaniyaya məxsus ola bilərdi. Bunu Hitler də yaxşı anlayırdı. Hələlik isə üçdə biri almanlardan, üçdə ikisi italyanlardan təşkil edilmiş feldmarşal Rommelin ordusu Liviya səhralarında ingilislərlə döyüşür. Misirə, Süveyş kanalına doğru yol açmağa, Hitlerin Yaxın Şərq planlarını həyata keçirməyə çalışırdı. Dəniz döyüşlərində heç bir əsaslı nəticəyə nail ola bilməyən Almaniya bütün ümidini öz hərbi-hava qüvvələrinə bağlamışdı. Rommelin ixtiyarında olan alman təyyarələri ingilis aviasiyasını xeyli üstələmişdi. Almanların qırıcı təyyarələri xüsusilə fərqlənirdi. Döyüşlərdə iştirak edən motorlaşdırılmış hərbi texnikanın miqdarı gündən-günə çoxalırdı. Odur ki, aviasiyanın imkanlarından mümkün qədər geniş istifadə etməyə çalışırdılar. 1941-ci ilin mayında mühüm strateji əhəmiyyəti olan Krit adasının alınmasında da alman aviasiyası həlledici rol oynamışdı. «Hamburqer fremdenblatt» qəzeti yazırdı: «Krit uğrunda gedən döyüşlərdə aviasiya təkzibedilməz surətdə sübut etdi ki, hətta ən qüdrətli donanma belə, uzun müddət rəqibin miqdarca böyük üstünlüyə malik hərbi-hava qüvvələrinin əməliyyatları qarşısında duruş gətirə bilməz»[28].

Tezliklə Britaniya başa düşdü ki, davam etmə müddətindən asılı olmayaraq, təkbaşına müharibədə qalib gəlmək iqtidarında deyil. Yaxın Şərqdəki neft mənbələrinin itirilməsi isə onu daha böyük problemlərlə üzləşdirə bilərdi. Bunun üçün hər cür imkan vardı. Belə ki, Rommelin başçılıq etdiyi «Afrika korpusu» da məhz bu məqsədə yönəldilmişdi və həqiqətən də real təhlükə təşkil edirdi. Odur ki, etibarlı və güclü müttəfiq əldə etmək Britaniya üçün həyati əhəmiyyəti olan bir məsələyə çevrilmişdi.

Nəhayət, yaranmış vəziyyət belə bir imkanın reallaşmasına əlverişli şərait yaratdı.

1941-ci il mayın 16-da Britaniyanın baş naziri Çörçill Cənubi Afrika İttifaqının baş naziri Smets cənablarına ümidlə dolu bir teleqram göndərdi. Orada deyilirdi: «Hitler öz qüvvələrini Rusiyaya qarşı cəmləşdirir. Qoşunlar fasiləsiz olaraq göndərilir: tank qüvvələri və aviasiya Balkanlardan şimala, Fransa və Almaniyadan isə şərqə. Şəxsən mən belə hesab edirəm ki, onun üçün ən əlverişlisi Ukraynaya və Qafqaza hücum etməkdir. Bu onu taxıl və neft ilə təmin edər»[29].

Sovet İttifaqı Marşalı Jukovun müharibədən sonra verdiyi bir açıqlamadan bəlli olur ki, Çörçillin buna bənzər bir göndərişi bir qədər əvvəl, 1941-ci il mayın 16-da Stalinə də çatdırılmışdı. «Etibarlı olması şübhə doğurmayan bir agentdən aldığım dəqiq bir məlumata görə, almanlar Yuqoslaviyanın onların toruna düşdüyünü yəqin etdikdən sonra, daha doğrusu, martın 20-də Rumıniyada olan beş zirehli tank diviziyasından üçünü Polşanın cənub hissəsinə yeritməyə başladılar. Lakin serblərin inqilabı haqqında xəbər gəldikdən sonra bu təxirə salındı. Əlahəzrət cənabları bu faktların mənasını çox asanlıqla qiymətləndirə bilər»[30].



Beləliklə böyük neft uğrunda mübarizənin ikinci mərhələsi başlayırdı. Ən mürəkkəb, ən taleyüklü mərhələsi. Bu, hamıdan çox Britaniyanı sevindirirdi. Çünki arzuladığı müttəfiqi Sovet İttifaqının simasında əldə edə bilərdi. Lakin sonrakı hadisələr göstərdi ki, SSRİ-nin də belə bir müttəfiqə ehtiyacı hədsizdir.

Hitlerin gördüyü hazırlıq tədbirlərinin ardıcıllığı belə idi: 1940-cı il dekabrın 18-də silahlı qüvvələrin baş komandanlarına «İngiltərə ilə müharibə qurtarana qədər Sovet Rusiyasını tez bir vaxtda darmadağın etməyə» hazırlaşmaq barədə gizli direktiv verildi. Hazırlıq 1941-ci il mayın 15-nə kimi başa çatmalı idi. 1941-ci il fevralın 3-də Hitler planı tam təsdiqlədi, lakin hücumun dəqiq tarixini təyin etmədi; aprelin 1-də Hitler hücuma iyunun ikinci yarısında başlamağı qərara aldı, iyunun 6-da isə hücum tarixini qətiləşdirdi – 22 iyun»[31].

Uzun müddət Sovet tarixşünaslığında və Kommunist partiyasının inhisarında olan təbliğat və kütləvi informasiya vasitələrində belə bir fikir aşılanırdı ki, guya Sovet hökumətinin Hitlerin SSRİ-yə qarşı niyyətlərindən xəbəri yox idi. Müharibə SSRİ üçün gözlənilməz idi. Almaniya Sovet İttifaqına qəflətən və quldurcasına basqın edib və sairə. Lakin necə deyərlər, cidanı çuvalda gizlətmək olmaz. Keçmiş SSRİ məkanında 80-ci illərin sonlarından başlanan tədricə demokratikləşmə prosesləri, bağlı qapıların və gizli arxivlərin bir-birinin ardınca açılması, məxfi sənədlərin üzə çıxarılması birmənalı şəkildə sübut etdi ki, bu heç də belə deyilmiş. İstər daxildə, istərsə də xaricdə baş verən hər bir hadisədən xəbəri olduğu kimi Stalin və onun komandası Hitlerin niyyətlərindən çox yaxşı xəbərdar idi. Sadəcə, totalitar və avtoritar kommunist rejiminə xas olan ifratçılıq təbii ki, bu məsələdə də özünü göstərməliydi. Halbuki SSRİ-nin hüdudlarından kənarda hələ o zaman bu, hətta geniş ictimaiyyətə də bəlli idi.

«1941-ci ilin əvvəlində hamı intizarda idi ki, müharibə hökmən bu il başlayacaqdır»[32]. «Sibirdən keçib gələnlər deyirlər ki, böyük miqdarda rus əsgəri dəmiryolu ilə qərbə doğru göndərilir»[33].



*Almaniyanın SSRİ-yə hücum etməsindən 15 dəqiqə əvvəl. Tank qrupu komandanı Quderian (mərkəzdə ikinci) qərargah zabitləri ilə Brest ərazisində Qərbi Buq çayı sahilində.*

General Martell sübut edir ki, «hücum hələ başlanmamışdan əvvəl ruslara xəbərdarlıq edilmişdi ki, almanlar hücuma keçəcəklər»[34].

Bir qədər əvvəl oxucuların nəzərinə çatdırdığım bir rəsmi sənəd də, daha dəqiq desək, Britaniyanın baş naziri Çörçillin Cənubi Afrika Respublikasındakı həmkarı Smetsə hələ mayın ortalarında göndərdiyi teleqram da sübut edirdi ki, bir çox xarici ölkələrin hakimiyyət dairələrində də Almaniyanın SSRİ-yə hücum niyyəti barədə məlumat az deyildi. Sovet İttifaqı ilə müharibənin əsl mənası da onlara çoxdan bəlli idi. Almanların özlərinin dediyi kimi, bu müharibə taxıl, kömür və **n e f t** (*seçmə mənimdir – müəllif*) uğrunda aparılırdı.

# V FƏSİL

# ALMANİYANIN ALİ BAŞ KOMANDANLIĞINDA İKİTİRƏLİK

Birinci cahan savaşı dövründə Fransanın neft təchizatı baş komissarı vəzifəsində çalışmış, sonralar isə Fransanın Vaşinqtonda səfiri olmuş Anri Beranje neft haqqında öz fikirlərini hələ 1918-ci ildə yığcam şəkildə belə ifadə etmişdi: «Neft kimdə varsa, dünya da onun olacaq. Çünki mazutun sayəsində o, dənizdə hökmranlıq edəcək, avia benzinin sayəsində havada, avtomobil benzini və işıqlandırıcı kerosinin sayəsində isə quruda hökmran olacaqdır. Bundan əlavə neftdən əldə etdiyi fantastik var-dövlət sayəsində o, iqtisadi cəhətdən öz yaxınlarına da rəhbərlik edəcəkdir. Bu qəribə maddəni daha çox axtarırlar, nəinki qızılı. Çünki o qızılın özündən də qiymətlidir»[1].

Beləliklə, O'Konnorun sözləri ilə desək, «neft nəinki qələbə əldə etmək üçün bir vasitədir, həm də bu qələbəyə görə verilən mükafatdır»[2].

Odur ki, Almaniya hər ikisinə nail olmaq əzmində idi: həm qələbəyə, həm də mükafata.

Nəhayət, 1941-ci il iyun ayının 22-də səhər saat dördün yarısında, tərkibində 5.5 mln. əsgər olan 190 alman diviziyası Baltik dənizindən Qara dənizədək olan bir sahədə SSRİ ərazisinə hücuma keçdi. Bu nəhəng orduda tarixdə misli görünməyən miqdarda hərbi texnika: 3712 tank, 4950 təyyarə, 47260 top və minaatan, 190 hərbi gəmi[3] cəmləşdirilmişdi. Əməliyyatda həmçinin əlaltı ölkələrin 37 diviziyası və 1000-ə[4] qədər təyyarəsi də bilavasitə iştirak edirdi.

Alman orduları nəinki SSRİ-nin bütün ərazisini, heç onun Avropa hissəsini də işğal etmək niyyətində deyildilər. Və çox güman ki, praktiki cəhətdən bu heç mümkün də deyildi.

Onların qarşılarına qoyduqları əsas vəzifə bundan ibarət idi: ölkənin «qərbindəki mühüm strateji rayonlarını Rusiyadan təcrid etməklə, onun iqtisadi potensialını kəskin surətdə azaltmaq»[5]. Con Fuller qeyd edir: «Belə olduqda SSRİ hərbi cəhətdən Almaniya qarşısında aciz vəziyyətə düşmüş olardı»[6]. Sonra Fuller öz fikrini daha da açıqlayaraq belə bir obyektiv qənaətə gəlir ki, nəticədə «Rusiya aşağıda göstərilən mühüm rayonlardan məhrum olardı:

1. Leninqrad
2. Moskva



3. Ukrayna və Donets hövzəsi
4. Kubaŋ və Qafqaz. Birinci (*yəni Kuban - müəllif*), qiymətli kənd təsərrüfatı rayonudur, ikinci isə (*yəni Qafqaz - müəllif*) Rusiyanın əsas neft rayonu. Belə ki, o, bütün neftin 90 faizini verirdi ki, onun da 70 faizi (*əslində 75 faizi - müəllif*) təkcə Bakının payına düşürdü»[7].

Fullerin təhlilinə əsasən «birinci üç rayonu işğal edib, dördüncüyə toxunmamaq kifayət etməzdi, çünki Rusiya özünün əsas neft mənbələrindən məhrum olmazdı və buna görə də qüdrətli hərbi dövlət olaraq qalmaqda davam edərdi. Bundan savayı, axı, Almaniyanın özünün nefti çatmırdı. Odur ki, Rusiyanın əsas strateji rayonu olan Qafqaz Almaniyanın **s t r a t e j i** *(seçmə mənimdir - müəllif)* məqsədi idi. Lakin Qafqazı tutmaqdan ötrü əvvəlcə rus ordusunun müqavimətini qırmaq lazım gəlirdi. Bu isə Almaniyanın **t a k t i k i** *(seçmə mənimdir - müəllif)* məqsədi idi. Hər iki məqsədin əlaqələndirilməsinə nail olmaq məsələsi Almaniya qarşısında duran bir problem idi»[8].

Sovet-alman cəbhəsində cərəyan edən sonrakı hadisələr göstərdi ki, Almaniya Ali Baş Komandanlığının bir sıra səhvləri bu problemin həlli yolunda yeni problemlər yaratdı. Bu problemlər 1942-ci ilin sonunda, 1943-cü ilin əvvəlində Almaniyanın müharibədə ümumi qələbəsini sual altında qoydu. Görünür hansı məqamdasa Hitler müasir müharibədə vacib amillərdən birinə – qələbə üçün əsas vasitə olan neftin əldə edilməsinə etinasız yanaşmış və onun həllini ikinci mərhələyə keçirmişdi. Təbii ki, bu da ona baha başa gəldi.

Bu problemin təhlilini davam etdirməzdən əvvəl Hitlerin 1940-cı il dekabrın 18-də imzaladığı 21 saylı direktivinə nəzər salmaq lazımdır. Məlum olduğu kimi, SSRİ-yə qarşı müharibə əvvəlcə 1941-ci ilin mayına nəzərdə tutulmuşdu. Hərbi əməliyyatlar isə qısa vaxta – 5 aya başa çatdırılmalı idi.

«İlkin plana görə zərbənin biri Pripyat çayından cənuba – Kiyevə, digəri isə Baltikyanı respublikalardan və Belorusiyadan Moskvaya endirilməli idi»[9]. «...Bundan sonra ayrıca bir əməliyyatla Bakı rayonu işğal edilməli idi»[10].

Hitlerin imzaladığı bu direktivdə ilkin mərhələdə Qafqaz haqqında heç bir şey deyilmirdi. Bu, görünür həm də onunla əlaqədar idi ki, Almaniya müharibəni qısa vaxtda başa çatdırmaq ümidində idi. «Blitskriq» *(ildırım sürətli - müəllif)* ideyasının uğurla nəticələnməsi, onların fikrincə Sovet İttifaqının bir dövlət kimi tezliklə dağılmasına gətirib çıxaracaqdı. Bundan sonra başqa əraziləri asanlıqla tutmaq olardı. Qafqazı, o cümlədən Bakını ələ keçirmək üçün elə ciddi bir əməliyyat keçirmək lazım gəlməzdi. Lakin belə olmadı.

Fuller isə problemin həllini belə görürdü:

«1. Orta Şərqi işğal etmək. Türkiyəni tutmaq.

2. Riqa-Pinsk xətti üzrə fəal müdafiə tədbirləri görmək.

3. Pinsk ilə Dnestrin orta axarı arasından Kiyev, Xarkov və Stalinqrad istiqamətində hücuma başlamaq.

4. Ərzurum və Təbriz arasındakı rayondan Tbilisi və Stalinqrad istiqamətində hücuma başlamaq.

5. Üçüncü və dördüncü vəzifələri yerinə yetirən qoşunlar Don rayonunda görüşdükdən dərhal sonra, Ərzurum və Təbrizdən hücum etmiş qoşunların təchizatı Qara dənizdəki limanlara həvalə olunur. Birləşmiş ordular daha sonra cənubdan, ikinci vəzifəni yerinə yetirən qoşunlar isə eyni zamanda qərbdən Moskvaya doğru hücuma başlayırlar»[11].

Fuller, həmçinin qeyd edir: «Mühasirə etmək üçün iki belə böyük əməliyyatı bir kampaniya ərzində yerinə yetirmək mümkün olmazdı»[12]. Onun fikrincə, «bunun əvəzinə üzüb əldənsalma strategiyası tətbiq etməklə, müharibəni bir neçə kampaniyaya planlaşdırmaq lazım idi ki, onun da həyata keçirilməsini iki və üç ilə başa çatdırmaq mümkün olardı»[13].

Daha sonra Fuller, zənnimizcə, son dərəcə maraqlı bir ideya irəli sürürdü. O deyirdi: «Bu əməliyyatlar Almaniyadan öz hərbi gücünü hər bir kampaniya ərzində elə qənaətlə sərf etməyi tələb edirdi ki, son kampaniyanı, məhvetmə strategiyasına uyğun olaraq həyata keçirməyə imkan versin»[14]. Öz fikrini daha da dəqiqləşdirərək, o əlavə edir: «Axırıncı kampaniyanı çıxmaq şərtilə, bütün kampaniyaların əsas vəzifəsi rus ordularını məhv etmək deyil, yanacaqdan məhrum etməklə, onları fəaliyyətsiz qoymaqdan ibarətdir»[15].

Beləliklə, daha dəqiq desək, zərbə qoşunlara deyil, neftə endirilməli idi. Fullerin təhlili belə bir nəticə çıxarmağa imkan verir ki, o, sovet silahlı qüvvələrinin əsas gücünü duru yanacağın istənilən qədər olmasında görürdü. Bunu Hitler də yaxşı bilirdi. Hətta müharibəyə başlamazdan bir qədər əvvəl, o, Bakı neftindən bəhrələnə də bilmişdi. Bağlanmış müqaviləyə əsasən Sovet İttifaqı az bir vaxtda Almaniyaya 900.000 ton neft məhsulları göndərmişdi ki, onun da 100 min tonu aviasiya benzini idi[16]. Məhz elə həmin dövrdə də Hitler Polşaya, Danimarkaya, Norveçə, Fransaya müdaxilə etmiş, bununla da yeni dünya müharibəsinin reallaşmasını sürətləndirmişdi.

Bəs belə olduqda niyə alman orduları öncə cənuba, Qafqaz neftinə doğru deyil, şimala, Moskva istiqamətinə üz tutdular. Sonrakı illərdə hadisələrin müxtəlif səviyyələrdəki təhlili və tədqiqi bunun bir neçə səbəbi olduğunu göstərdi. Bu səbəblər isə alman komandanlığının buraxdığı bağışlanmaz səhvlərlə əlaqədar idi. Lakin əsas məsələ Almaniyanın Ali Baş Komandanlığındakı ikitirəlikdən doğurdu. Bir tərəfdən Hitler, digər tərəfdən isə silahlı qüvvələrin baş komandanı Brauxiç və onu dəstəklə-



yən generallar arasında yaranmış fikir ayrılığı müharibənin ilkin mərhələsinə mühüm təsir göstərməklə bərabər, savaş taktikasının əhəmiyyətli dəyişikliklərə uğramasına da səbəb oldu.

Hitler ilə Brauxiç arasındakı fikir ayrılığı Smolensk alındıqdan sonra daha prinsipial xarakter aldı. Hitler özünün direktivinin müddəalarına istinad edirdi. Tippelskirxin fikrincə «Brauxiç və Halder, habelə «Mərkəz» ordular qrupunun bir neçə iri rütbəli zabiti əməliyyatların əsas məqsədini rusların silahlı qüvvələrinin məhv edilməsində görürdülər. Onlar hesab edirdilər ki, buna nail olmağın ən tez və doğru yolu Moskva üzərinə hücumun davam etdirilməsidir»[17].

Hitler isə bunun əksini tələb edirdi. O, direktivdə nəzərdə tutulduğu kimi əvvəlcə şimalda və cənubda həlledici qələbə əldə etmək və eyni zamanda da mühüm iqtisadi rayonları ələ keçirmək istəyirdi. Hitler belə hesab edirdi ki, Ukrayna taxılının, Qafqazın neft rayonlarının və Krımın ələ keçirilməsi daha vacibdir, nəinki hərbi qələbə.

Müharibənin gələcək taleyində böyük əhəmiyyət kəsb edən bu fikir ayrılığını aydın təsəvvür etmək üçün general Halderin öz gündəliyində yazdığı bəzi qeydlər böyük maraq doğurur.

«4.8. 1941-ci il (44-cü gün).

1) Fürerin gəldiyi nəticələrin məzmunu

2) Fürer Leninqrada, həmçinin cənub rayonlarının işğalına xüsusi əhəmiyyət verir. Moskvanın ələ keçirilməsinə Fürer heç bir əhəmiyyət vermir...

Hoyzinger və Paulyus ilə danışıqlar. Axşam quru qoşunları baş komandanı ilə bu mövzuda danışıqlar aparıldı.

Operativ məsələlərin həll edilməsi vaxtı biz öz diqqətimizi ayrı-ayrı detallar üzərində cəmləşdiririk ki, bu da ordular qrupları komandanlığına aid olan işdir. Ancaq bundansa ordular qrupları qarşısına dəqiq vəzifələr qoymaq və sərbəst hərəkət etmələri üçün ilkin məlumatlar vermək lazımdır.

Bunu etməkdən ötrü, belə bir məsələyə tam aydınlıq gətirilməsi vacibdir ki, siyasi rəhbərlik nəyi əsas məqsəd sayır.

Bunu bildikdən sonra nəyin daha vacib olduğu sualına cavab tapa bilərik: Qafqaz və Ukraynanı mümkün qədər tez tutmaq, yoxsa rəqib qoşunlarının tamamilə məhv edilməsi məsələsini həll etmək. Birinci məqsədə çatmaq yolunda qüvvə və imkanlarımızdan istifadə etmək üçün tam sərbəstlik tələb olunacaqdır. Bu, öz-özlüyündə də aydındır. Bu il qoşunlar Moskva yaxınlığında olacaqlar, ərazi tutulması isə öz-özünə, hadisələrin inkişafından asılı olaraq baş verəcəkdir. Qışın əvvəlinə kimi Qafqaza gələ biləcəyimizi gözləməyin.

Birinci məqsədin əldə edilməsi neft rayonlarının (Bakı) tutulması üçün iri qüvvələr tələb edəcəkdir...»[18].

Bu qeydlər göstərir ki, Hitlerin əksinə olaraq, general Halder də Brauxiçin mövqeyini dəstəkləyir və Moskva istiqamətini mühüm sayırdı. Lakin bu iki variant üzərində gedən müzakirələr və mübahisələr səngimək bilmirdi. Odur ki, iki gün sonra yeni bir müşavirə keçirildi.

«6.8. 1941-ci il (46-cı gün)

...Fürerin iştirakı ilə «Cənub» ordular qrupunun qərargahında müşavirə.

Müşavirədə məni müavinim general Paulyus təmsil edirdi. Mənim xahişimə görə «Cənub» ordular qrupunun komandanı müharibənin əsas məqsədləri ilə əlaqədar bəzi məsələlərə toxundu və Moskvanın əhəmiyyəti barədə məsələ qaldırıldı. Fürer bir daha Moskvanın tutulması planını rədd etdi»[19].

Ertəsi gün general Halder öz gündəliyində belə yazdı:

«7.8. 1941-ci il. (47-ci gün)

Saat 17:00-da Yodl ilə danışıqlar apardım.

A) Bizim əsas məqsədlərimiz nədir: rəqibi məhv etməkmi istəyirik, yaxud iqtisadi məqsədlər güdürük (Ukrayna və Qafqazın tutulması)?

**Yodl:** Fürer hesab edir ki, hər iki məqsədə eyni zamanda çatmaq olar»[20].

Mübahisələrin uzandığını görən Hitler buna son qoymaq məqsədilə yeni bir əmr verməkdə məcburiyyətində qaldı. Onun mətnində deyilirdi:

**Vermaxtın qərargahının 1941-ci il 21 avqust tarixli**
**ƏMRİ**

*21.8.1941-ci il*

Silahlı qüvvələrin Ali Baş Komandanı
Quru qoşunları baş komandanına

«Quru qoşunları baş komandanlığının şərq istiqamətində gələcək əməliyyatların aparılması barəsində avqustun 18-də yürütdüyü fikirlər mənim planlarıma uyğun gəlmir.

**Əmr edirəm:**

1. Qış girənə qədər əsas vəzifə Moskvanı almaq deyil, Krımın, Donetsin sənaye və kömür rayonlarının ələ keçirilməsi, rusların Qafqazdan neft götürmək imkanlarından məhrum edilməsidir. Şimalda isə Leninqradın mühasirə olunması və finlərlə birləşməkdir»[21].

Bu sənəd bir daha sübut edir ki, Hitler başlanmış müharibədə neft amilinə xüsusi əhəmiyyət verirdi. Odur ki, Sovet silahlı qüvvələrinin Qafqazın neft mənbələrindən tezliklə təcrid olunması üçün əlində olan hər bir imkandan istifadə etməyə çalışırdı. Hətta onu nə Moskva ətrafında toplanmış çoxlu miqdarda sovet silahlı qüvvələri, nə də onların tez



bir zamanda darmadağın edilməsi maraqlandırırdı. Onun strategiyası tamamilə başqa ideyaya söykənirdi.

Silahlı qüvvələrin baş komandanlığının gündəliyində bu məsələ ilə bağlı yuxarıda göstərilən əmrdən bir gün əvvəl, avqustun 20-də belə bir yazı qeyd olunmuşdu. Orada deyilirdi:

«Əməliyyatların davam etdirilməsi barədə quru qoşunları komandanının 18.8. (avqust) tarixli təklifləri ilə fürer razı deyil. Onun üçün Moskva və düşmənin orada cəmləşmiş iri qüvvələri heç də vacib deyil. Əksinə, ilk növbədə vəzifə ondan ibarətdir ki, rusları sənaye rayonlarından məhrum etmək və yaxud onları ələ keçirib öz məqsədlərimiz üçün istifadəyə verməkdir. Bundan əlavə, ingilis-rus planlarına münasibət barədə İranın mövqeyinə təsir göstərmək üçün sürətlə cənuba doğru hərəkət etmək tələb olunur. Həmçinin xüsusilə vacibdir ki, sovetlərin hərbi-hava bazası kimi Krım ləğv edilsin və rumın neft rayonlarına olan təhlükə aradan götürülsün»[22].

Beləliklə, bu sənəddə neft siyasəti aydın görünür. Belə ki, əvvəla Krımı təcili tutmaqla Hitler Almaniya üçün əsas neft mənbəyi olan Rumıniyanın neft rayonlarına ola biləcək labüd təhlükəni mümkün qədər tez sovuşdurmaq, digər tərəfdən isə cənuba doğru hərəkəti sürətləndirməklə bir yandan Bakı neft rayonu başda olmaqla Qafqaz neftinə yiyələnmək və eyni zamanda da SSRİ-ni məhz elə həmin neft mənbələrindən təcrid etmək məqsədi güdürdü. Hitler hesab edirdi ki, Sovet İttifaqı neftdən məhrum olarsa, onu məhv etmək də çətin olmaz.

Quru qoşunları baş qərargahının rəisi Halder hələ 1941-ci il iyulun 3-də, yəni müharibənin başlanmasının on ikinci günündə Vermaxtın ali generaliteti qarşısında çıxış edən Hitlerin aşağıdakı sözlərini öz gündəliyinə yazmışdı. Həmin yığıncaqda o demişdi: «...İrəliyə baxmağın vaxtı çatıb. Söhbət Donbasın kömür və Qafqazın neft mədənlərinin ələ keçirilməsi üçün açılan imkanlardan gedir. Qafqazdakı əməliyyat üçün böyük qüvvələr tələb olunacaq, lakin neftə görə çox şeydən imtina etmək gərəkdir. Həm də Qafqazın tutulması İranı işğal etməyə və İran-İraq sərhəddindəki aşırımları ələ keçirməyə imkan yaradır»[23].

Qafqazın neft rayonlarına sahib olmağın son dərəcə vacibliyini Hitler sovet-alman cəbhəsində əməliyyatların davam etdirilməsi məsələsi barədə 1941-ci il avqustun 22-də yazdığı məktubda bir daha təkrar etmişdi. O yazırdı ki, bu həyata keçdikdə «Moskva problemi öz əhəmiyyətinə görə əsaslı surətdə arxa plana çəkiləcək. Mən qəti şəkildə nəzərinizə çatdırmaq istəyirəm ki, bütün bunlar yeni nəzəriyyə deyil, onların hamısı əməliyyatlar hələ başlamazdan əvvəl mənim tərəfimdən dəqiq və aydın şəkildə izah edilmişdi»[24].



A.Hitler



İ.Stalin



Hitlerin silahlı qüvvələrin ali komandanlığında olan müşavirləri də quru qoşunları komandanlığı başçılarının təklifləri ilə razı olduqlarını bildirir və Hitleri öz inadından döndərməyə çalışırdılar. Fəqət Hitler əsl həqiqətin onun tərəfində olduğuna möhkəm inanır, onun əksinə olan bütün cəhdləri qətiyyətlə rədd edirdi.

Lakin ümumi hərbi vəziyyət Hitleri də öz fikrindən döndərməyə məcbur etdi. Nəticədə 21 avqust tarixli direktivin əksinə olaraq Moskva yenidən hücum əməliyyatları üçün mühüm amilə çevrildi.

Bununla əlaqədar Moskvaya doğru hərəkət edən «Mərkəz» ordular qrupu xeyli qüvvətləndirildi. Oktyabr ayının 2-də bütün cəbhə boyu hücum etmək üçün əmr verildi.

Beləliklə Hitlerin dönə-dönə təkrar etdiyi ilkin qərarların əksinə olaraq böyük miqdarda alman silahlı qüvvələri Moskva ətrafında uzun sürən ağır döyüşlərə cəlb edildi. Bu almanlara baha başa gəldi. Bunu müharibə səhnəsindəki sonrakı hadisələr də təsdiq etdi. Əvvəla, Hitlerin böyük ümid bəslədiyi «Blits-kriq» ideyası uğursuzluqla nəticələndi. İkincisi, hərbi strateqlərin fikrincə bu kampaniya gözlənilən nəticəni vermədi. İldırım sürətli müharibə ideyasının iflasa uğraması Almaniya üçün arzuedilməz üzüntülü müharibə perspektivi yaratdı. Strateji planda isə Almaniya qarşıya qoyduğu məqsədə nail olmadı. Fuller yazır: «Rus orduları möhkəmcə əzişdirilsələr də məhv edilmədilər, Moskva tutulmadı, Arxangelskə gedən yol bağlanmadı, Leninqrad alınmadı, Qafqazın neft mədənləri isə hələ də uzaqda idi. Lakin bununla yanaşı ruslara dəhşətli zərbə endirildi və əgər qış gözlənilmədən tez gəlməsəydi, onlar çox güman ki, Moskvanı itirə də bilərdilər. Dekabrın 6-na qədər hər iki tərəfin qələbəyə və məğlubiyyətə şansı eyni idi»[25].

Moskva yaxınlığındakı məğlubiyyət almanların Bakı neftinə olan planlarının icrasını uzun müddətə təxirə saldı.

General Günter Blümentrit Moskva ətrafındakı məğlubiyyətin əsas səbəbini Hitlerin müharibə strategiyasına iqtisadi mövqedən yanaşmasında görürdü. «O bol taxılı olan Ukraynanı, sənaye mərkəzi Donets hövzəsini, sonra isə Qafqaz neftini ələ keçirmək istəyirdi»[26].

Lakin Hitler və onun yaxın ətrafı quru qoşunları baş komandanı feldmarşal fon Brauxiçi və baş qərargah rəisi general Halderi məğlubiyyətin əsas günahkarları hesab edirdilər. Onların fikrincə Brauxiç və Halder qərargahın və şəxsən Hitlerin müqavimət göstərməsinə baxmayaraq, hərbi əməliyyatları Moskva istiqamətinə doğru yönəltməyə nail oldular. Halbuki bütün əsas qüvvələr tədriclə Sovet İttifaqının cənubunda cəmləşdirilməli, qələbə də məhz orada axtarılmalı idi. Moskva yaxınlığında alman ordularının heç kimin gözləmədiyi halda məğlubiyyətə uğraması üçüncü reyxin siyasi elitasını da son dərəcə məyus etdi. Almaniyanın təbliğat

naziri İoahim Göbbels «Blits-kriq»in uğursuzluğu barədə Hitler ilə olan söhbətini gündəliyinə qeyd edərək, 1942-ci il martın 20-də yazırdı: «Məsuliyyətin böyük hissəsini Brauxiç daşıyır. Fürer onun barəsində ikrahsız danışa bilmir. Şöhrətpərəstin, qorxaq əclafın biri vəziyyəti nəinki düzgün qiymətləndirə bilmədi, heç ona təsir etmək iqtidarında da olmadı. Daim müdaxilə etmək, ardıcıl olaraq itaətsizlik göstərməklə Şərq kampaniyasının bütün planını tamamilə korladı, halbuki onun ideyasını fürer billur aydınlığı ilə müəyyən etmişdi. Fürerin planı bizi qələbəyə gətirə bilərdi. Əgər Brauxiç ondan tələb olunanı etsəydi və əslində onu etməli idi də, bizim Şərqdəki vəziyyətimiz bu gün tamamilə başqa cür olardı. Moskvaya hücum etməyə fürerin əsla heç bir niyyəti yoxdu. O Qafqazı tutmaq və bununla da sovet sistemini onun ən zəif yerində məğlubiyyətə düçar etmək istəyirdi. Lakin Brauxiç və onun baş qərargahı bunu düzgün hesab etmirdilər. Brauxiç daim Moskvaya doğru getməyi tələb edirdi. O əsl uğurların əvəzinə, öz nüfuzu naminə uğurlara can atırdı»[27].

Acınacaqlı, həm də gözlənilməz məğlubiyyət Hitlerin hədsiz hiddətinə səbəb oldu. Əsas günahkarlar sayılan Brauxiç və Halder tutduqları yüksək hərbi vəzifələrdən kənarlaşdırıldılar. Silahlı qüvvələrə komandanlığı Hitler şəxsən öz üzərinə götürdü. General Yodl və general Tseytsler onun müavinləri oldular. «Şimal» ordular qrupunun komandanı feldmarşal fon Leeb, «Mərkəz» ordular qrupunun komandanı feldmarşal fon Bok, «Cənub» ordular qrupunun komandanı feldmarşal fon Raunştedt, habelə feldmarşal List, general Quderian və general fon Kleyct də məğlubiyyətdə suçlandırıldılar və müvəqqəti olaraq komandanlıqdan kənar edildilər.

Müharibədən sonra Moskva yaxınlığındakı döyüşlərin təhlilini verərkən əksər müəlliflər almanların məğlubiyyətinin qanunauyğun olduğunu vurğulayır, SSRİ silahlı qüvvələrinin yüksək döyüş qabiliyyətini, xalqın arxa cəbhədəki fədakarlığını, sovet sisteminin təkzibolunmaz üstünlüklərini xüsusi qeyd edirdilər. Lakin bəşəriyyət tarixində baş vermiş saysız-hesabsız müharibələrin tarixinin təhlili dəfələrlə sübut edib ki, hər bir qanunauyğunluğun da uyğunsuzluqları var. Bununla əlaqədar istər alman müəllifləri, istərsə müstəqil və bitərəf ekspertlər döyüşlərin gedişinə ciddi təsir göstərən və son nəticədə almanların məğlubiyyətinə səbəb olan bir sıra əsaslı dəlillər də irəli sürmüşdülər. Fəqət onları bir daha açıqlamağa ehtiyac duymayaraq, yalnız birini vurğulamağı son dərəcə faydalı və əhəmiyyətli hesab edirik. Belə ki, 1941-ci il noyabrən 11-də Moskva uğrunda gedən döyüşlərin qızğın dövründə, alman ordularının Moskvanın cəmi 20-25 kilometrliyində olduğu bir vaxtda, almanların quru qoşunlarının baş komandanlığına Vermaxtın Ali Baş Komandanlığından təcili bir direktiv gəldi. Orada belə deyilirdi: «...hava şəraiti münasib olduğu təqdirdə lazımdır ki, sərəncamımızda olan bütün



qüvvələrdən məqsədyönlü istifadə edərək, cənubda Stalinqrada zərbə endirmək, ya da cəld manevr edib Maykop, Qroznı xəttinə çıxmaq nəticəsində ordunun neftlə təchizatı yaxşılaşdırılsın, çünki bizim bu sahədə olan imkanlarımız məhduddur»[28].

Çətin və dözülməz rus qışı şəraitində Moskvaya yeriyən 1,5 mln. nəfərdən artıq şəxsi heyəti, misli görünməmiş miqdarda mexanikləşdirilmiş və motorlaşdırılmış nəhəng bir ordunun döyüşlərin ən kəskin və həlledici çağlarında duru yanacaq sarıdan korluq çəkməsi görünür, məğlubiyyətə aparan mühüm səbəblərdəndir.

Moskva əməliyyatının nəzərdə tutulduğundan artıq uzanması və ən nəhayət özünü getdikcə büruzə verməkdə olan yanacaq problemi Hitleri yenidən bu məsələyə xüsusi diqqət yetirməyə və təcili tədbirlər görməyə məcbur etdi. Ola bilsin o, Brauxiçin və onu dəstəkləyən digər generalların məsləhətlərinə və yağlı vədlərinə uyub Moskva əməliyyatına başlamağı və nəzərdə tutduğu ilkin plandan imtina edərək Qafqaz neftinə doğru yeriməməyi özünə bağışlaya bilmirdi. Hər halda Moskva əməliyyatının əsas təşəbbüskarlarından biri olan general Halderin söylədiyinə görə hələ Moskva yaxınlığındakı döyüşlərin şiddətli vaxtında və onun nəticəsindən asılı olmayaraq artıq 1941-ci il noyabrın 19-da 1942-ci il üçün əsas vəzifələri o, belə müəyyən etmişdi: «Gələn il üçün vəzifə: birinci növbədə Qafqaz, məqsəd – rusların cənub sərhəddi...»[29]

Beləliklə Vermaxtın Ali Baş Komandanlığı hələ 1941-ci ilin payızında Moskva tutulduqdan dərhal sonra Qafqazın, o cümlədən Bakının neft rayonlarını ələ keçirməyi planlaşdırırdı. Bunun üçün yalnız quru qoşunlarından və hava desantından istifadə etməyi məqsədə daha uyğun sayırdı. Bombardmançı aviasiyadan imtina etməklə alman komandanlığı neft mədənlərini gələcək istismar üçün mümkün qədər salamat saxlamaq arzusunda idilər. Odur ki, paraşüt birləşmələrindən səmərəli istifadə etməklə onlar Bakının şimal-qərbindəki neft mədənlərini qəfildən tutmaq, bununla geri çəkilməkdə olan sovet silahlı qüvvələrinə mədənləri dağıtmaq imkanından məhrum etmək məqsədi güdürdülər. Lakin Moskva yaxınlığındakı məğlubiyyət bu planları da alt-üst etdi. Hər şeyi yenidən başlamaq lazım gəlirdi. Hitler Qafqaz neft rayonlarını tutmaq üçün tələsiklikdən əl çəkməyə, uzun müddətli hazırlıq işləri görməyə, yeni əməliyyat planları hazırlamağa, ordu birləşmələrini yenidən qruplaşdırmağa məcbur oldu.

Beləliklə Almaniyanın böyük neft uğrunda başladığı mübarizə böyük məhrumiyyətlərə, itkilərə baxmayaraq heç bir nəticə vermədi. Nə Rommel Yaxın Şərqə sahib ola bildi, nə də şərq cəbhəsində cəmləşdirilmiş nəhəng bir ordu Bakıya. Rumın neftinin Almaniyanın qlobal strateji planlarını tam təmin edə bilməyəcəyi də tezliklə bəlli oldu. Bununla da neft uğrunda mübarizənin birinci mərhələsi sona yetdi. Qarşıdan 1942-ci il gəlirdi. Hitler şübhəsiz ki, ona böyük ümidlər bəsləyirdi.

# VI FƏSİL

# ANTİHİTLER KOALİSİYASI və İRAN



1941-ci ilin 22 iyunu Britaniyanın baş naziri Uinston Çörçillin çoxdan və səbirsizliklə gözlədiyi bir günə çevrildi. Almaniyanın Sovet İttifaqı ilə müharibəyə başladığı bu gün Britaniyanın Üçüncü reyxlə təkbaşına üzüntülü müharibə aparmaq perspektivinə birdəfəlik son qoyuldu.

Üfüqdə SSRİ-nin timsalında əlverişli müttəfiq əldə etmək imkanları göründü. Elə həmin gün axşam Çörçill radio ilə çıxış etdi. O, Rusiya ilə köhnə ədavətləri də xatırladıb dedi: «Son 25 ildə kommunizmin mənim kimi ikinci bir ardıcıl düşməni olmayıb. Mən kommunizmin əleyhinə söylədiyim bir sözü də geri götürmək niyyətində deyiləm»[1].

Lakin daha sonra Rusiyanın və rusların taleyinə nəsib olmuş bu dəhşətli fəlakətlə bağlı öz fikrini ifadə etdikdən sonra o, söz verdi ki, «İngiltərə heç vaxt Hitler ilə sövdələşməyə getməyəcək və SSRİ-yə kömək əli uzadacaqdır»[2].

Çörçillin bu çıxışı onsuz da şok vəziyyətində olan Stalin və onun yaxın ətrafı üçün bir növ məlhəm oldu. Tezliklə hər iki ölkənin hökumət başçıları arasında ilk məxfi teleqram mübadilələri oldu. Nəticədə 1941-ci il iyulun 12-də İngiltərə və SSRİ hökumətləri arasında nəzərdə tutulmuş deklarasiya əvəzinə, Almaniya əleyhinə birgə mübarizə haqqında ingilis-sovet sazişi bağlandı.

Lakin şərq cəbhəsində vəziyyətin sürətlə pisləşməsi, böyük ərazilərin öz sənaye potensialları ilə birlikdə itirilməsi Sovet İttifaqını həqiqətən ciddi fəlakət qarşısında qoydu. Belə olduqda Ali Baş Komandan Stalin Çörçillə müraciət edib «Balkanlarda və ya Fransada ikinci cəbhə açılmasını»[3] xahiş etdi. Çörçill öz cavabında Stalinin nəzərinə çatdırdı ki, «hazırkı vaxtda Britaniyanın Qərbdə belə bir aksiyanı həyata keçirməsi qeyri-mümkündür»[4].

«Türkiyənin köməyi olmadan Balkanlarda da həmçinin ikinci cəbhə yaratmaq heç cür mümkün deyil»[5].

Sovet-alman cəbhəsi ilə yanaşı, SSRİ Ali Baş Komandanlığının narahatlığına səbəb olan başqa bir ciddi problem də mövcud idi. Alman-

ların İrandakı şübhəli fəaliyyəti gələcəkdə Bakı neft rayonuna ola biləcək real təhlükədən xəbər verirdi. Təbii ki, ölkənin əsas neft bazası olan Bakının təhlükəsizliyinə biganə qalmaq olmazdı. Odur ki, qonşu ölkədə baş verən açıq-gizli hadisələri diqqətlə izləyir, cavab tədbirləri görmək üçün əlverişli məqam gözləyirdi. İngiltərə ilə bağlanmış saziş belə bir məqamın yetişməsini sürətləndirdi. İran şahı Rza Pəhləvi başda olmaqla ölkənin hakim dairələrinin Üçüncü reyxə loyal münasibəti heç də gizli deyildi. Bunun müqabilində hələ müharibədən xeyli əvvəl Almaniya bu ölkədə öz mövqelərini möhkəmlətmək və hərtərəfli fəaliyyət göstərmək üçün gözəl imkanlar əldə etmişdi. Burada, xüsusilə güney Azərbaycan ərazisində ticarət agenti, səyyah, məsləhətçi və bu kimi adlar altında pərdələnmiş və almanlara məxsus geniş agentura şəbəkəsi fəaliyyət göstərirdi. Onların sərəncamında külli miqdarda müxtəlif silah və hərbi sursat vardı. Bunu başa düşən SSRİ hökuməti müharibənin elə ilk günlərindən İran hökumətinin diqqətini almanların ölkə ərazisindəki təxribatçılıq və kəşfiyyat xarakterli fəaliyyətlərinə cəlb edərək bir neçə dəfə bunun hansı nəticələrə gətirib çıxaracağına işarə etmişdi.

Lakin 1941-ci il sentyabrın 4-də «İran bitərəflik haqqında bəyanat versə də, Almaniya ilə əməkdaşlıq strateji xətt olaraq qalırdı»[6].

Almaniyanın hərbi potensialına bir hərbçi kimi yaxşı bələd olan, müharibənin əvvəlindən axırına qədər onun görkəmli sərkərdələrindən biri olan Sovet İttifaqı Marşalı Jukov da etiraf edirdi ki, «neft hasilatı Almaniyanın zəif yeridir və o, rumın neftini idxal etməklə öz ehtiyaclarını müəyyən qədər ödəyə bilirdi»[7]. Odur ki, neft ehtiyatını artırmaq üçün hər bir cüzi imkandan belə istifadə etməyə çalışırdı. Belə olduğu təqdirdə yaranmış əlverişli şəraitdən istifadə edərək, «Almaniya qeyri-qanuni yollarla İrandan yüksək keyfiyyətli benzin çıxara bilirdi»[8].

Almaniyanın 1940-cı ildə və 1941-ci ilin yazında qazandığı asan qələbələr, onun Balkanlarda möhkəmlənməsi, nəhayət Rommelin «Afrika korpusu»nun Quzey Afrikaya yeridilməsi, İranın Almaniyaya olan ümidlərini artırdı və bununla da öz xarici siyasətini alman amili ilə uzlaşdırmağa çalışdı. Bununla yanaşı, İranın hakim dairələrində ərazi iddiaları meyli də gündən-günə güclənirdi. Professor Cəmil Həsənli qeyd edir: «Bakıda yeni konsulluq üçün şəhadətnamə almaq məqsədilə İran səfirliyinin Rza şah və xarici işlər nazirinin imzaladığı XXİK-na *(Xalq xarici işlər komissarlığı – müəllif)* 17 may 1940-cı il 643 saylı notasında Azərbaycan SSR «Qafqaz Azərbaycanı kimi verilmişdi»[9]. Yoxlamalar nəticəsində hətta məlum oldu ki, «baş konsul XXİK-na göndərdiyi rəsmi sənədlərin fars mətnində öz vəzifəsini belə yazır: «Şahənşahın Qafqaz Azərbaycanında baş konsulu»[10]. Hətta rəsmi sənədlərdə Bakı şəhərinin adı da olduğu kimi yox, İranın mövcud dövlət siyasətinə uyğun şəkildə, əski fars dilində deyildiyi kimi «Badkubə»[11] yazılırdı.



Beləliklə, İran hökumətinin ekspansionizm meyllərinin gündən-günə artması və bir sıra başqa incə mətləblər SSRİ hökumətinin qonşu ölkəyə olan şübhələrini son həddə çatdırıb və İrana Sovet qoşunlarının yeridilməsini labüdləşdirdi. SSRİ-nin İran barəsindəki siyasəti böyük Britaniyanın da maraqlarına cavab verirdi. Belə olduqda 1941-ci il iyulun 12-də bağlanmış «İngiltərə-SSRİ» sazişinə əsasən ilk dəfə razılaşdırılmış şəkildə birgə əməliyyat aparmaq fürsəti yarandı. Çünki Britaniyanın özü də almanların İrandakı fəaliyyətindən ehtiyatlanır və özünün ölkədəki siyasi-iqtisadi maraqlarına böyük təhlükə duyurdu. Odur ki, Britaniya hökuməti də İran hökumətinə öz narazılığını dəfələrlə vurğulamış və bunun yolverilməz olduğunu onun nəzərinə çatdırmışdı. Artıq «iyulun 19-da Britaniya Nazirlər Kabineti İranın cənubuna daxil olmaq barədə gizli qərar qəbul etmişdi»[12].

Nəhayət Britaniya hökuməti ilə apardığı ilkin məsləhətləşmələrdən sonra Sovet İttifaqı İran hökumətinin nəzərinə çatdırdı ki, ölkədə başlanmış antisovet təxribatları nəzərə alaraq öz qoşunlarını İrana yeridəcək. Buna həmahəng olaraq Britaniya hökuməti də belə bir addım atdı. Avqustun 25-də İngiltərənin İrandakı səfiri Rider Bullerd də ingilis silahlı qüvvələrinin İranın cənubuna yeridilməsi barədəki məlumatı ölkə rəhbərliyinin nəzərinə çatdırdı.

Beləliklə, 1941-ci il avqustun 25-də gecə saat 2-də sovet qoşunları hərbi əməliyyata başladı və 1921-ci ildə Sovet Rusiyası ilə İran arasında bağlanmış müqavilənin altıncı bəndini əldə əsas tutaraq, SSRİ öz silahlı qüvvələrini cənub qonşusunun şimal bölgələrinə yeritdi. Həmin müqavilənin altıncı bəndinin şərti ondan ibarət idi ki, əgər İranın müstəqilliyinə və Sovet hökumətinin təhlükəsizliyinə üçüncü bir dövlət tərəfindən təhlükə yaranarsa, sovet silahlı qüvvələri İran ərazisinə girə bilər. Üçüncü dövlət kimi Almaniyanın İrandakı geniş miqyaslı fəaliyyəti də məhz belə bir təhlükə kimi qiymətləndirilirdi. Elə həmin gün Britaniya hərbi hissələri də İranın cənub bölgələrinə yeridildi. İran ordusu müqavimət göstərmək iqtidarından xeyli uzaq idi. «Saat 5.00-dan 6.30-a qədər bütün cəbhə ləğv edildi»[13].

Ölkədə yaranmış hərbi-siyasi durum baş nazir Əli Mənsur hökumətinin istefası ilə nəticələndi. Bilavasitə döyüşlərdə sovetlər 6 nəfər itirdi, 18 nəfər yaralandı, 9 nəfər Arazı keçərkən boğuldu[14].

Hərbi əməliyyatların qısa vaxtda və asanlıqla başa çatması baş nazir Çörçilli son dərəcə sevindirdi. O, bunu avqustun 30-da Stalinə göndərdiyi məxfi teleqramında xüsusi qeyd etdi: «...Farsların müqaviməti

dayandırmaq haqqındakı qərarı olduqca xoş bir xəbərdir»[15]. Cavab teleqramında Stalin də onunla razı olduğunu bildirdi: «...İran məsələsi, həqiqətən pis olmadı. Britaniya və sovet qoşunlarının birgə fəaliyyəti məsələni həll etdi. Gələcəkdə də belə olacaq. Çünki bizim qoşunlar birgə çıxış edəcəklər. Lakin İran yalnız bir epizoddur. Müharibənin taleyi isə, əlbəttə, İranda həll edilməyəcək»[16].

Əldə edilmiş ilkin razılığa əsasən müttəfiqlərin silahlı qüvvələri ölkənin paytaxtı Tehrana girməməli idi. Bunu Stalinə yazdığı teleqramda Çörçill bir daha təsdiqləmişdi: «Bizim fikrimizə görə, hazırkı dövrdə yaxşı olardı ki, nə biz, nə də ki, Siz Tehrana daxil olaq. Çünki bizə yalnız birbaşa yol gərəkdir»[17]. Lakin çox keçmədən Britaniya hökumətinin təklifi ilə hər iki ölkənin hərbi birləşmələri Tehranı da tutdular[18].

Nəticədə Britaniya özünün Yaxın Şərqdəki neft mədənlərinin təhlükəsizliyini təmin etdi. SSRİ isə güney Qafqazı, ən vacibi isə Bakı neft rayonunu istənilən vaxt İran vasitəsilə reallaşa biləcək alman müdaxiləsindən mühafizə etməyə nail oldu. Lakin Bakının təhlükəsi bununla sovuşmadı. Çünki Quzey Afrikada ingilis-alman qarşıdurmasının nə ilə nəticələnəcəyi hələ də məlum deyildi. Almanların qələbəsi onları Yaxın və Orta Şərq, habelə İran vasitəsilə birbaşa Bakıya gətirə bilərdi. Digər tərəfdən isə Bakı nefti uğrunda mübarizə hələ irəlidə idi. Bunu uğurla başa çatdırmaq üçün alman komandanlığı ilkin planının daha məqsədəuyğun olduğunu yəqin edib bütün diqqətini cənub istiqamətinə yönəltdi. Bu da öz növbəsində 1942-ci ilin əsas hadisələrinin məhz Qafqaz ətrafında cərəyan edəcəyini göstərirdi.

Britaniya-sovet birgə hərbi əməliyyatının mühüm bir cəhəti də ondan ibarət idi ki, nəticədə İran körfəzindən Xəzər dənizinə kimi etibarlı tranzit yolu yaradıldı. Bu öz növbəsində müttəfiqlərə «Lend-liz» üzrə nəzərdə tutulmuş hərbi-strateji yüklərin SSRİ-yə çatdırılmasını xeyli yüngülləşdirdi. Ümumiyyətlə, müttəfiqlər bu yolun əhəmiyyətini yüksək qiymətləndirirdilər. Xüsusilə də Çörçill. O belə hesab edirdi ki, mövcud olan digər iki yol – Vladivostokdan və Arktikadan keçən yollar son dərəcə etibarsızdır.

İran probleminin müvəffəqiyyətlə həll edilməsi vəziyyəti xeyli sabitləşdirsə də, Stalinin Bakı neft rayonu və ümumiyyətlə Qafqaz nefti barəsindəki narahatlığını tam aradan götürə bilməzdi. O, başa düşürdü ki, almanları Qafqazda yeni ərazilər ələ keçirmək deyil, ən çox neft maraqlandırır. Axı, heç almanların özləri də bunu gizlətmirdilər.

Sovet silahlı qüvvələrinin hərbi potensialına hələ fin kompaniyası dövründən yaxşı bələd olan Stalin almanların sürətli hərəkəti müqabilində onların cənuba, Qafqaza doğru labüd yürüşünün qarşısının alınmasını da ciddi problem sayırdı. Qərbdə ikinci cəbhənin açılmasını qurtuluş sayan Stalin sentyabrın 13-də yenidən bu barədə Çörçillə müraciət etdi və gözlənilmədən hətta yeni təkliflər də irəli sürdü. O, yazırdı: «...İkinci cəbhənin olmaması bizim ümumi düşmənlərimizin dəyirmanına su tökür. Mən şübhə etmirəm ki, İngiltərə hökuməti Sovet İttifaqına qələbə arzulayır və o məqsədə çatmaq üçün yollar axtarır. Əgər Qərbdə ikinci cəbhənin yaradılması İngiltərə hökumətinin fikrincə indiki zamanda mümkün deyilsə, bəlkə ümumi düşmənə qarşı Sovet İttifaqına fəal hərbi yardım etmək üçün başqa imkanlar tapmaq olardı»[19].



Lakin görünür Stalinin özü də ikinci cəbhənin belə tezliklə açılacağına böyük ümid bəsləmirdi. Odur ki, irəli sürdüyü yeni təklifə İngiltərə hökumətinin diqqətini cəlb etməyə çalışdı. Sözünə davam edərək o yazırdı: «Mənə elə gəlir ki, SSRİ ərazisində sovet qoşunları ilə hərbi əməkdaşlıq etmək məqsədilə İngiltərə heç bir risk etmədən Arxangelskə 25-30 diviziya çıxara bilər və yaxud onları İran vasitəsilə SSRİ-nin cənub rayonlarına yeridə bilər... Bu böyük kömək ola bilərdi. Mənə elə gəlir ki, belə bir kömək Hitler təcavüzünə qarşı ciddi zərbə olardı»[20].

Sentyabrın 19-da göndərdiyi cavabda Çörçill Stalinin nəzərinə çatdırdı ki, onun təklif etdiyi kimi, «hər iki cinahda – həm şimal, həm də cənubda şübhəsiz ki, ən xoşagələn imkanlar mövcuddur»[21]. Lakin şimal cinahında lazımi miqdarda hərbi qüvvənin və gəmilərin olmadığı ucbatından bu layihənin həmin vaxtda reallaşmasının qeyri-mümkünlüyünü diplomatik tərzdə qeyd edən Çörçill cənub cinahı barəsində Stalinin təklifinə nəzərə çarpacaq bir maraq göstərdi və bunun həyata keçirilməsi üçün hətta özü də təklif irəli sürdü. Stalinə ünvanladığı adı çəkilən göndərişdə o daha sonra yazırdı: «Cənuba gəldikdə isə Türkiyənin əhəmiyyəti misilsizdir: əgər Türkiyənin köməyini əldə etmək mümkün olarsa, o zaman ixtiyarımızda əlavə güclü bir ordu olar. Türkiyə istərdi ki, bizə qoşulsun, amma ehtiyat edir və bu əsassız deyildir»[22]. Niyyətini daha da açıqlayaraq, Çörçill qeyd edirdi ki, əgər ona lazımi səviyyədə «Britaniya silahlı qüvvələrinin köməyi və ehtiyac duyduğu texniki vasitələrin əldə edilməsi vəd olunarsa, o zaman Türkiyəyə həlledici təsir göstərmək də mümkün olar»[23].

SSRİ-nin cənub bölgəsinə ingilis silahlı qüvvələrinin yeridilməsi barədə Stalinin etdiyi təklif çox güman ki, Çörçill üçün təkcə taktiki deyil, əsasən strateji önəm daşıyırdı. Çünki əgər Stalini əsas etibarilə cənub bölgələrində yerləşən Qafqaz və, ilk növbədə, Bakı neft rayonunun alman işğalından mühafizə edilməsi məsələsi düşündürürdüsə, Çörçilli həm də daha perspektiv məqsədlər maraqlandırırdı. Əlbəttə o, neft rayonlarının almanların əlinə keçməsinə heç cür razı ola bilməzdi. Çünki

bu, müttəfiqlər üçün böyük fəlakətin başlanması demək olardı. Lakin eyni zamanda İngiltərə 1919-1920-ci illərdə güney Qafqazda və xüsusən də neftlə zəngin olan Azərbaycanda itirilmiş mövqelərini bərpa etmək və müharibədən sonrakı dövrdə yaranmış siyasi vəziyyətdən qalib bir dövlət kimi bəhrələnməklə, burada daha da möhkəmlənmək istəyirdi. Türkiyəyə isə o, əlverişli tərəfdaş kimi baxmaqla, istər onun silahlı qüvvələrindən, istərsə də yerləşdiyi əlverişli coğrafi məkandan, habelə Bosfor və Dardanel kimi strateji əhəmiyyət kəsb edən boğazlardan maneəsiz və səmərəli istifadə etmək məqsədi güdürdü. SSRİ-nin cənub bölgəsinə qoşun çıxarmaq ideyası Çörçilli o dərəcədə cəlb etmişdi ki, hətta 1942-ci ilin sonlarına qədər ondan əl çəkə bilmədi. Əksinə, bir qədər sonra ABŞ prezidenti Franklin Ruzvelti də bu ideya ilə maraqlandırmağa müvəffəq oldu. Beləliklə, Qafqaz və ilk növbədə Bakı nefti ətrafında gedən mübarizədə yeni çalarlar göründü.

Fəqət Türkiyəni müharibəyə cəlb etmək Almaniyanın da planlarına daxil idi. Güney Qafqazın, xüsusilə də Azərbaycanın tutulmasında almanların fikrincə Türkiyə böyük yardımçı ola bilərdi. Odur ki, Berlinin Ankaraya olan təzyiqi gündən-günə artırdı.

Sentyabrın 19-da Çörçill Stalinə göndərdiyi teleqramda bu məsələyə bir daha toxunurdu: «Mənə elə gəlir ki, əgər Türkiyəni qoşunların buraxılması barədə alman tələblərinə qarşı müqavimət göstərməyə sövq edə bilsəydik və ya daha yaxşısı, o bizim tərəfimizdə müharibəyə girmiş olsaydı, bu bizə ən təcili və səmərəli kömək olardı. Əminəm ki, Siz buna lazımi əhəmiyyət verəcəksiniz»[24]. Stalin öz cavabında yazırdı: «Türkiyə barədə söylədiyiniz fikirlərlə razıyam. Ümid edirəm ki, Britaniya hökuməti hazırki vaxtda lazımi fəallıq göstərir... SSRİ-nin münasib imkanlarının məhdudluğu təbii olan indiki zaman kəsiyində, bu xüsusilə vacibdir»[25].

Lakin İngiltərənin Liviyada almanlarla uzun sürən qarşıdurması ona müharibə səhnəsinin başqa bölgələrində geniş əl-qol açmağa imkan vermirdi. O cümlədən arzu etdiyi Qafqazda da. Bunu Çörçill özü də etiraf edirdi. O, Stalinə yazırdı: «Liviyada başladığımız hücum əgər ümid etdiyimiz kimi alman və italyan ordularının məhvinə səbəb olarsa, o zaman müharibə problemlərini daha böyük asudəliklə müzakirə edə bilərik... Bu məqsədlə biz yaxın gələcəkdə Sizin də tanıdığınız xarici işlər naziri İdeni ezam etməyə hazırıq. ...Onu yüksək vəzifəli hərbi və digər ekspertlər müşayiət edəcəkdir. O, nəinki Qafqaza qoşun çıxarılması, həmçinin Sizin orduların cənubdakı cəbhə xətti də daxil olmaqla müharibəyə aid olan bütün məsələləri müzakirə edə bilər»[26].





F.Ruzvelt



U.Çörçill

Lakin hərbi vəziyyətin mürəkkəbliyi, kommunikasiya xətlərinin etibarsızlığı, silahlı qüvvələri daşımağa qadir istənilən miqdarda nəqliyyat gəmilərinin olmaması[27], habelə Türkiyəni münaqişəyə sövq etmək cəhdlərinin nəticə verməməsi İngiltərənin Qafqaz bölgəsinə qoşun çıxarmaq istəyini heçə endirdi.

Bununla belə Qafqazın və Bakının almanlar tərəfindən tutulmaq perspektivi müttəfiqləri çox qorxudurdu. Odur ki, tərkibində iki ingilis diviziyası olan bir ekspedisiya korpusu yaratmaq və aviasiyanın müşayiətilə 1942-ci ilin yanvarında hava yolu ilə Bakıya çatdırmaq planlaşdırılırdı. Amma bunun nə dərəcədə almanların Bakını işğal etmələrinə mane ola biləcəyini söyləmək çətin idi. Bunu qərargah rəislərinə göndərdiyi memorandumda Çörçill özü də etiraf etmişdi. O, lazım gələrsə rusların Bakı mədənlərini partladacaqlarına da bir o qədər əmin deyildi. Rusların qeyri-səmimiliyi, görünür Çörçillin şübhələrini daha da artırmışdı. Onu heç əvvəllər də rəğbət bəsləmədiyi bir ölkənin – Sovet İttifaqının gələcək taleyi deyil, ümumiyyətlə müharibənin müqəddəratı, dünyanın sonrakı siyasi durumu və nəhayət Böyük Britaniyanın əmin-amanlığı daha çox maraqlandırırdı. Bunun üçün ilk növbədə müharibədə ən azı qalib gəlmək tələb olunurdu. Qələbəyə aparan yollardan biri də məhz Bakıdan keçirdi. Odur ki, işğal təhlükəsi reallaşdığı təqdirdə Bakı mədənlərinin bombardman edilməsini və yandırılmasını mümkün hesab edirdi. Bu məqsədlə partladıcı mütəxəssislərin Bakıya göndərilməsi də nəzərdə tutulmuşdu. Beləliklə Bakı neft rayonu qısa bir vaxt kəsiyində bir neçə dəfə ciddi surətdə müxtəlif dövlətlərin real təcavüz təhlükəsi ilə üzləşdi. Lakin əsl təhlükələr hələ qabaqda idi.

Hələlik isə almanların Moskva istiqamətində hərəkət etməsindən və beləliklə əsas hadisələrin də şübhəsiz ki, məhz orada və Leninqrad istiqamətində cərəyan edəcəyindən istifadə edərək vaxt itirmədən «Lend-liz» üzrə yük daşımalarını sürətləndirmək məqsədilə İran ərazisindən keçəcək tranzit yolunun təşkili sahəsində görüləcək işləri ön plana çəkməyi təklif etdi və konkret addımlar atmağa başladı. Stalinə göndərdiyi 3 sentyabr tarixli məxfi göndərişində Çörçill yazırdı: «Bizim İrana girməyimizin məqsədi neft mədənlərinin müdafiəsinin vacibliyi ilə yanaşı, daha çox Sizə doğru birbaşa yolun yaradılması istəyi ilə bağlıdır. Elə yol ki, onu kəsmək mümkün olmasın. Bunu nəzərə alaraq, biz İran körfəzindən Xəzər dənizinədək olan dəmiryolunu yenidən qurmalı, Hindistandan gətiriləcək əlavə dəmiryolu avadanlığından istifadə etməklə, onun fasiləsiz işləməsini təmin etməliyik»[28].

Bundan 3 gün sonra tranzit yolu ilə əlaqədar görülən konkret işlər barəsində Çörçill Stalinə yeni bir məlumat göndərdi: «Artıq biz İran



dəmiryolunu qatarlarla təchiz etmək barədə əmr vermişik. Bu da öz növbəsində onun hazırkı buraxma qabiliyyətini hər iki tərəfə gündə iki qatardan tam buraxma imkanlarınadək artırmağa səbəb olacaq. Daha doğrusu, gün ərzində hər iki tərəfə 12 qatara qədər. Buna 1942-ci ilin baharında nail olacağıq. O vaxta qədər isə buraxma qabiliyyəti get-gedə artırılacaq. Lokomotivlər və vaqonlar isə neft yanacağına keçirildikdən sonra İngiltərədən Ümid burnu vasitəsilə çatdırılacaqdır. Dəmiryolu boyunca su təchizatı sistemi inkişaf etdiriləcəkdir. İlk 48 lokomotiv və 400 vaqon bu günlərdə yola salınacaq»[29].

İran yoluna müstəsna əhəmiyyət verən Çörçill onun səmərəsini artırmaq üçün başqa variantlardan da istifadə etməyi lazım bilirdi. O bunu Stalinə də açıq izah edirdi. O, sentyabrın 19-da alınmış teleqramda yazırdı: «İran körfəzindən Xəzərədək birbaşa yolun təkcə dəmiryolu vasitəsilə deyil, həmçinin avtomobil magistralı vasitəsilə də açılması məsələsinə mən **b ö y ü k ə h ə m i y y ə t** *(seçmə mənimdir – müəllif)* verirəm və onun inşasına biz öz enerji və təşkilatçılıq qabiliyyətləri ilə fərqlənən amerikalıları da cəlb etməyə ümid edirik»[30].

Lakin tranzit yolunun təhlükəsizliyi məsələsi də mühüm həyati əhəmiyyət kəsb edirdi. İran hökumət dairələrinin nüfuzunun kəskin surətdə düşməsi və ayrı-ayrı etnik qruplar arasında baş verən ciddi qarşıdurma meylləri Britaniya hökumətinin böyük narahatlığına səbəb olurdu.

Stalinə ünvanladığı məktubda bunu Çörçill də etiraf etməyi özünə borc bilirdi: «Belə qanunsuzluqların yayılması o deməkdir ki, biz bu adamları sakitləşdirmək üçün öz qoşunlarımıza istinad etmək məcburiyyətində qalmalı olarıq. Bu da öz növbəsində avtomobil və dəmiryolu şəbəkəsini həmin qoşunların və onların təchizatı üçün lazım olan yüklərin daşınması məsələləri ilə yükləmiş olardı. Halbuki bizə yolları sərbəst saxlamaq, onun imkanlarını yaxşılaşdırmaq vacibdir ki, təchizatın Sizin ölkəyə çatdırılmasını təmin edək»[31]. Çörçill Stalinə müraciət edərək göstərirdi ki, asayişin qorunmasına farsların özlərini məcbur etmək lazımdır[32].

Çörçill Britaniyanın İrandakı maraqlarını əsasən iki cəhətdən səciyyələndirirdi: «Birincisi, almanların Şərqə girmələrinə mane yaradılması; ikincisi, Xəzər dənizinə yüklərin daşınması üçün birbaşa yolun təşkil olunması».

Çörçilli başa düşmək olardı. Əvvələ neft amili olduqca mühüm idi və onu nəzərdən qaçırmaq hər iki ölkə üçün ölümə bərabər idi. Təhlükəli cəhət həm də ondan ibarət idi ki, almanların böyük səy göstərərək ələ keçirmək istədikləri hər iki neft mənbəyi bir-birinə olduqca yaxın olan qonşu bölgədə yerləşirdi. Birinin itirilməsi, digərinin də itirilməsinə

səbəb olardı. Rusiyanın şimal və mərkəz rayonlarındakı hadisələrə ola bilsin ciddi maraq göstərməsə də, ancaq Qafqaz məsələsinə münasibətə gəldikdə isə son dərəcə ciddiləşir və təcili tədbirlər görməyə çağırırdı. O, almanların bu sahədə atdığı hər bir addımı, gördüyü hər tədbiri nəzarətdən qaçırmamağa çalışırdı. Şübhəsiz ki, o, Britaniyanın keçmiş baş naziri Lloyd Corcun 1918-ci ildə, Birinci dünya müharibəsinin başa çatmasına bir qədər qalmış dediyi sözləri də unutmamışdı. Lloyd Corcun mülahizəsinə görə, Antantanın əldə etdiyi mühüm üstünlüyə baxmayaraq, əgər Almaniya və onun müttəfiqləri Bakı neftini ələ keçirərlərsə, bu, hərbi əməliyyatların uzanmasına səbəb olar və müharibənin nə ilə nəticələnəcəyi isə şübhəli qalardı. Odur ki, Stalinin Qərbdə ikinci cəbhə açmaq təklifinə də ciddi yanaşmır və müsbət cavab verməkdən yayınırdı. O belə hesab edirdi ki, mövcud vəziyyətdə İngiltərənin təhlükəsizliyi ilk növbədə Yaxın və Orta Şərqdən və bir də Qafqazdan başlayır. Daha dəqiq desək, Bakıdan. Bakı və Yaxın Şərqin süqutu, çox güman ki, Britaniyanın böyük və ciddi problemlərlə üzləşəcəyinə səbəb ola bilərdi. Odur ki, ikinci cəbhə açmaqdansa, Afrikada Rommelin qarşısını kəsməyi, Yaxın Şərqdə isə İran ərazisi ilə SSRİ-yə birbaşa tranzit yolunun yaradılmasını daha üstün tuturdu. Cənub cinahının möhkəmləndirilməsinin vacibliyini o, dönə-dönə Stalinin nəzərinə çatdırmaqdan da çəkinmirdi. Və hətta bölgəyə lazım gələrsə silahlı qüvvələr çıxarmağa hazır olduğunu da dəfələrlə bəyan etmişdi. Oktyabrın 12-də Stalinə ünvanladığı göndərişdə Çörçill ilk baxışdan qəribə görünən bir təklif irəli sürdü: «Əgər Siz döyüş cəbhəsində istifadə etmək üçün orada *(İran - müəllif)* olan beş və ya altı rus diviziyasını geri qaytarmaq istəyində olsanız, asayişin qorunması və təchizat yollarının yararlı saxlanması və daha da yaxşılaşdırılması məsuliyyətini biz öz üzərimizə götürə bilərik»[33].

Burada mühüm bir cəhəti xüsusilə qeyd etməyi vacib bilirik. Bu, keçmiş Sovet İttifaqında on illərdən bəri təşəkkül tapmış və rəsmi dövlət siyasətinin əsasını təşkil edən üzdəniraq kommunist ideologiyasına aiddir. İnsan fəaliyyətinin ən müxtəlif sahələrinə nüfuz etmiş bu ideologiyanın saysız-hesabsız təmsilçiləri müharibə qurtardıqdan sonra uzun illər ərzində dünya müharibəsini geniş kütlələrə Böyük Vətən müharibəsi kimi təqdim etməklə, qəsdən onun əsl mahiyyətini təhrif etmiş, bir çox taleyüklü hadisələr düzgün qiymətləndirilməmiş, olmazın subyektivliyə yol verilmiş, müharibənin əsas qalibinin SSRİ olduğu fikri aşılanmışdır. Hətta «Lend-liz» müqaviləsinə əsasən müttəfiqlərin göndərdiyi yardımın əhəmiyyətini də heçə endirməyə cəhd göstərirdilər. Halbuki müttəfiqlərin yardımı təkcə tank, təyyarə, topdan ibarət deyildi. Buraya həmçinin ərzaq, paltar, müxtəlif sənaye malları və hətta hərbi sənayedə istifadə



olunan müxtəlif məmulatlar daxil idi. Xüsusilə də müharibənin ilk dövründə, SSRİ-nin vəziyyəti bir tükdən asılı olduğu vaxtda bu yardımın əhəmiyyəti, necə deyərlər, yerə-göyə sığmazdı. Bunu o vaxtlar Stalinin özü də etiraf etməkdən çəkinmirdi. Müharibənin ilk aylarında Çörçillə göndərdiyi məktublardan birində o yazırdı: «Əvvəl söz verdiyiniz 200 təyyarədən əlavə Sovet İttifaqına daha 200 təyyarə satmağı öhdənizə götürdüyünüzə görə minnətdarlığımı bildirirəm»[34]. Daha sonra Sovet İttifaqının müxtəlif səbəblər üzündən müdafiə qabiliyyətinin zəifləməsindən və bunun nəticəsində SSRİ-nin **ö l ü m  t ə h l ü k ə s i** *(seçmə mənimdir - müəllif)* ilə üz-üzə durmasından böyük həyəcanla söhbət açan Stalin kommunizmin qatı düşməni, onunla ömrü boyu mübarizə aparmış bir şəxsdən, hazırda Britaniyanın baş naziri Çörçilldən kömək diləmişdi: «...Bu son dərəcə xoşagəlməz vəziyyətdən hansı yolla çıxmaq mümkündür? Mənim fikrimcə belə vəziyyətdən çıxmaq üçün yalnız bir yol mövcuddur: elə bu ilin özündə ya Balkanlarda, ya da Fransada ikinci cəbhə açmaq lazımdır, elə ki, şərq cəbhəsindən 30-40 alman diviziyasını özünə cəlb edə bilsin və eyni zamanda da bu il oktyabrın əvvəlinə qədər Sovet İttifaqına 30 min ton alüminium və hər ay 400 təyyarə və 500 tankdan (kiçik və orta həcmli) ibarət minimum (?!) yardım edilməlidir.

Bu iki növ yardım olmazsa Sovet İttifaqı ya **m ə ğ l u b  o l a c a q** *(seçmə mənimdir - müəllif)*, ya da o dərəcədə **z ə i f l ə y ə c ə k** *(seçmə mənimdir - müəllif)* ki, hitlerizm ilə mübarizə cəbhəsində öz müttəfiqlərinə fəal hərəkətlərilə kömək etmək qabiliyyətini uzun müddətə itirəcəkdir»[35].

Stalinə xas olan hiyləgərliklə bəzi hallarda təşvişlə dolu xahişlər, müraciətlər müharibənin xüsusilə ilk iki ili ərzində dəfələrlə həm ABŞ prezidenti Franklin Ruzveltə, həm də Böyük Britaniyanın baş naziri Uinston Çörçillə ünvanlanmışdı. Bu, bir daha onu göstərir ki, rəsmi sovet təbliğatının istəyinin əksinə olaraq, bu savaş, deyildiyi və təbliğ edildiyi kimi təkcə Böyük Vətən savaşı deyil, ilk növbədə Cahan savaşı idi. Və onun taleyüklü məqamları isə Yer kürəsinin ən müxtəlif yerlərində təzahür etmişdi. Əgər Britaniyanın taleyi La-Manş sahilində deyil Afrika sahillərində həll olunurdusa, SSRİ-nin də taleyi Moskva yaxınlığında deyil, Qafqaz dağlarında, Stalinqrad çöllərində həll olunurdu. Hər ikisinin birlikdə taleyi isə Yaxın Şərq və Bakının neft mədənlərindən asılı idi.

Çörçillin hər iki bölgəyə yetirdiyi xüsusi diqqət onun Stalinə göndərişlərində də aydın hiss olunur. Stalinin növbəti xahişlərindən birinə cavab verərkən o yazırdı: «1942-ci ildə Avropa qitəsinə girmək üçün Britaniya orduları tələb olunan səviyyədə olacaqlarmı? Bu müəyyən hadisələrdən asılıdır ki, onları da qabaqcadan görmək çox çətindir.

Çox güman ki, qütb gecəsi düşdükdən sonra Uzaq Şimalda Sizə kömək etmək mümkündür. Biz ümid edirik ki, Orta Şərqdə olan ordularımızı bu ilin sonunadək dörddə üç milyon, 1942-ci ilin yayına qədər isə bir milyon nəfərə çatdıraq. Liviyada olan alman-italyan qüvvələri məhv edilən kimi, bu ordular Sizin cənub cinahınızdakı cəbhəyə qoşula bilərlər...»[36].

Almanların Moskva yaxınlığındakı məğlubiyyəti Qafqaz və Bakı ətrafındakı gərginliyi bir qədər azaltsa da, problemi aradan qaldırmadı. 1942-ci ilin qış aylarındakı nisbi sakitlikdən sonra bilavasitə Bakı və Qafqaz nefti uğrunda mübarizənin əsl və ciddi mərhələsi başlayacaqdı. Lakin Ali Baş Komandan Stalin də daxil olmaqla sovet hərbi komandanlığının bəzi yüksək rütbəli xadimləri bunu almanların növbəti uydurması kimi qiymətləndirir və əsas hadisələrin yenidən Moskva istiqamətinə yönələcəyini sübut etməyə çalışırdılar.

Halbuki Hitler 1942-ci il yanvarın 3-də yapon səfiri Osima ilə söhbətində alman hərbi komandanlığının planlarından danışarkən belə demişdi: «...Hələlik cəbhənin mərkəzində hücum əməliyyatları aparmaq niyyəti yoxdur, havalar yaxşılaşan kimi hücum əməliyyatlarını yenidən Qafqaz istiqamətinə doğru yönəltmək qərarına gəlmişəm. Bu əsas istiqamət mühüm əhəmiyyət kəsb edir. Son dərəcə vacibdir ki, neft rayonlarına, İrana, İraqa çıxaq...»[37].

Hitlerin birmənalı söylədiyi bu sözlər Çörçillin də narahatlığının əbəs olmadığını sübut edirdi. İrandan keçən tranzit yolunun hər iki qurtaracağında yerləşən zəngin neft bölgələrinin – Bakının və Yaxın Şərqin tutulması İkinci cahan savaşının zirvəsi ola bilərdi. Bunu Çörçill gözəl başa düşürdü. Odur ki, təhlükə tam sovuşana qədər müharibənin taleyüklü nöqtələri olan Şimali Afrika və Qafqazdan öz diqqətini azacıq da olsa yayındırmadı. Alman qartalının zəngin neft mənbələrinə qonmasına hər vasitə ilə mane olmağa çalışdı. Stalinin ikinci cəbhə açmaq təklifinin o dövrdə xülyadan başqa bir şey olmadığını dərk edərək öz qüvvələrinin parçalanmasına yol vermədi. Almanları Aralıq dənizi hövzəsində, Quzey Afrikada üzüntülü hərbi əməliyyatlara cəlb etməklə, onları nəinki neft bölgələrinə yaxın buraxmadı, həmçinin onun neft ehtiyatlarının getdikcə tükənməsi üçün əlindən gələni əsirgəmədi. 1941-ci il dekabrın 11-də yaponların Pirl-Harbor hərbi-dəniz bazasına etdiyi hücuma cavab olaraq ABŞ-ın da müharibəyə qatılmasından sonra Quzey Afrika probleminin çözülməsi yolunda yeni imkanlar açıldı. Çünki onun müsbət həlli, yaxın gələcəkdə Bakı probleminin də aradan qaldırılmasına əlverişli şərait yaratmış olardı.

# VII FƏSİL

# 1942-ci ildə İKİ SAVAŞ SƏHNƏSİ: QAFQAZ və QUZEY AFRİKA

İşğal edilməsi nəzərdə tutulan ərazilərin hərtərəfli mənimsənilməsi məsələləri hələ müharibə başlamamışdan əvvəl alman rəhbərliyi tərəfindən ciddi müzakirə edilir, geniş planlar hazırlanırdı. 1941-ci il iyunun 26-da keçirilmiş gizli iclasda çıxış edən Alfred Rozenberq məlumat vermişdi ki, Almaniya hökuməti işğal edilmiş ərazilərdə «dörd böyük blok yaratmaq fikrindədir ki, onlar da Almaniyanı Şərqdən mühafizə etməklə yanaşı, eyni zamanda Avropanı Şərqə doğru genişləndirməlidirlər»[1]. Adı çəkilən iclasda bloka daxil olan ərazilərin də adı elan edildi: «1) Finlandiya, 2) Pribaltika (Baltikyanı), 3) Ukrayna, 4) Qafqaz»[2]. Buna uyğun olaraq, işğal edilmiş əraziləri idarə etməkdən ötrü dörd general-qubernatorlaq və imperiya komissarlıqlarının yaradılması təklif olunurdu.

Volqa çayından şərqə, Rostov şəhərindən cənuba doğru olan ərazilərin hamısı Qafqaz imperiya komissarlığına aid edilirdi. Qafqaz da daxil olmaqla yuxarıda adları çəkilən bütün ərazilər yeni işğal edilmiş vilayətlər nazirliyinin sərəncamına verilirdi. Nazirliyin başçısı Alfred Rozenberq təyin olunmuşdu. 1941-ci il iyulun 16-da, alman ordularının böyük sürətlə SSRİ ərazisini tutduqları bir vaxtda, Sovet İttifaqının sonrakı taleyinin necə olacağı barədə qərargahda keçirilən müzakirədə çıxış edən Hitler demişdi: «...Qalitsiya, Volqaboyu koloniyalar, Bakı və Belostok vilayətləri, habelə Baltikyanı və Krım «imperiya vilayətləri» elan olunur»[3].

Qafqazın işğalı üçün tərtib edilmiş «Edelveys» planının həyata keçirilməsinin başlanması ilə təqribən eyni vaxtda işğal edilmiş şərq vilayətləri üzrə imperiya naziri Alfred Rozenberq «Qafqazın yenidən qurulması» barədə xüsusi məruzə hazırladı. Orada deyilirdi: «Almaniyanın maraqları ondan ibarətdir ki, Qafqazda möhkəm mövqelər yaradaq, bununla da kontinental Avropanın təhlükəsizliyini təmin edək, yəni özümüzə Yaxın Şərqlə əlaqə təmin olunsun. Neft mənbələri ilə yalnız belə bir əlaqə Almaniyanın və bütün Avropanın gələcəkdə dəniz ölkələrinin hər hansı bir koalisiyasından asılılığını aradan qaldırar. Alman siyasətinin



məqsədi: Qafqaz və onun cənub sərhəddində olan ölkələr üzərində həm siyasi, həm də hərbi cəhətdən hakim olmaq»[4]. Beləliklə Rozenberq də öz növbəsində Qafqaz neftinin Almaniyanın maraq dairəsində olduğunu təsdiqləyir və onu ələ keçirdikdən sonra Yaxın Şərq yanacaq mənbələrinin də tutulmasını zəruri hesab edirdi. Almaniyanın bu yüksək rütbəli dövlət məmuru eyni zamanda Qafqazda son dərəcə «sərtlik göstərməməyi», «nəhayətsiz hökmranlıq meyllərindən»[5] mümkün qədər çəkinməyi məsləhət görürdü.

O öz islahatlarında xarici atributlara ehtiyatla yanaşmağı lazım bilirdi. Belə ki, yerli əhalinin guya heysiyyətinə hörmət əlaməti olaraq, «imperiya komissarı» əvəzinə «Qafqaz üzrə imperiya himayədarı», «Qafqaz üzrə vali» və «Qafqaz üzrə rezident» kimi adlardan istifadə etməyi daha məqsədəuyğun sayırdı.

Rozenberqin tərtib etdiyi məruzədə məsələ konkret qoyulurdu: «Almaniya imperiyası bütün nefti öz əlinə almalıdır»[6]. Məruzədə daha sonra deyilirdi: «Qara dənizdəki konsessiyaların, ...Bakı rayonunun uzun müddətə hərbi cəhətdən təminatı təklif olunur»[7].

Qafqazın, o cümlədən Bakının zəngin «neft mənbələri «Kontinental – oyl», «Ost – oyl», «Karpaten – oyl» səhmdar cəmiyyətlərinin ixtiyarına keçməli idi»[8].

«Kontinental – oyl» (kontinental neft) səhmdar cəmiyyəti Almaniyada ən böyük neft qurumlarından biri sayılırdı və Sovet İttifaqındakı neft mənbələrinin istismarını həyata keçirmək məqsədilə 1941-ci il martın 27-də Berlində yaradılmışdı. Onun təsisçiləri Drezdener bankı, Reyxkreditgezelşaft və Berliner Handelyegezelşaftdan ibarət bank konsorsiumu idi[9]. «Yaradıldığı vaxt cəmiyyətin kapitalı 80 milyon marka müəyyən olunmuşdu. Lakin onun fəaliyyət dairəsinin ehtimal olunan genişlənəcəyini nəzərə alaraq, kapitalın 120 milyon markaya qədər artırılacağı da müəyyən edilmişdi»[10].

Cəmiyyətin nəzarət şurasına təsərrüfat naziri Funk (sədr), iqtisadi rəhbərliyin şərq qərargahının və təsisçi-bankların rəisi, general Tomas, inhisarçı-kapitalın digər təşkilatlarının nümayəndələri, habelə «İQ Farben – industri» kimya konserninin nümayəndəsi daxil idi.

Yaradılmış «Kontinental-oyl» səhmdar cəmiyyəti Sovet İttifaqının işğal edilmiş vilayətlərində neftin və yeraltı qazların kəşfiyyatı, hasilatı, emalı və satışı, habelə onlardan hasil edilmiş digər məhsullar üzərində 99 il müddətinə inhisar hüququ almışdı. Bura həmin vəzifələri həyata keçirmək üçün lazım olan yardımçı və başqa müəssisələrin inşaatı və işlədilməsi hüququ da daxil idi[11].

«Kontinental-oyl» şirkəti və onun filialları iki il müddətinə dövlətin xəzinəyə yığılan bütün vergilərdən azad edilirdi. Bundan əlavə bütün yerüstü və yeraltı tikililər, habelə boru kəmərləri və neftin nəqli üçün istifadə edilən digər vasitələr şirkətin ixtiyarına verilirdi. Bir sözlə, «hökumət şirkətə öz səhmdarlıq hüquqlarını həyata keçirməsi üçün xüsusi himayədarlıq edirdi»[12].

«Kontinental-oyl» şirkətinə SSRİ-dəki neft mədənlərinin istismarı üçün hökumət tərəfindən son dərəcə imtiyazlı şərait yaradılırdı[13]. Reyxsmarşal German Göringin başçılığı ilə tərtib olunmuş «Yeni işğal edilən şərq vilayətlərində iqtisadiyyata rəhbərlik haqqında direktivlər» adlı kitabça, Almaniyanın işğal edilmiş ərazilərdə aparacağı iqtisadi siyasətin əsas müddəalarını əks etdirirdi. Məxfi sənəd sayılan bu kitabça alman ordusunun yalnız yüksək vəzifəli məmurları arasında bölüşdürülmüşdü. Cildi yaşıl rəngdə olduğuna görə məxfi olaraq «Göringin yaşıl qovluğu» adlandırılan bu kitabçada yazılmışdı: «Fürerin əmrinə əsasən, işğal olunmuş əyalətlərdən təcili və tam şəkildə Almaniyanın maraqlarına uyğun istifadə etmək üçün bütün tədbirlər görülmədir. Bu vəzifənin yerinə yetirilməsinə mane ola biləcək bütün başqa tədbirlər təxirə salınmalı, ya da tamamilə ləğv edilməlidir. Almaniya üçün mümkün qədər **ç o x ə r z a q v ə n e f t** (*seçmə mənimdir – müəllif*) əldə edilməsi kampaniyanın əsas iqtisadi məqsədidir»[14]. «Kontinental-oyl» şirkəti də məhz bu məqsədi reallaşdırmaq üçün yaradılmışdı.

Şirkət yaradılarkən rəsmi olaraq bəyan edilmişdi ki, «ona Almaniyanın neft sənayesinin maraqlarının hər şeydən əvvəl xaricdə təmsilçisi olmaq vəzifəsi tapşırılmışdır»[15].

Almaniyanın Essen şəhərində nəşr olunan və reyxsmarşal Göringə yaxın olan «Nasional tseytunq» qəzeti 1941-ci il 30 mart tarixli sayında heyrətamiz bir açıqlıqla yazırdı: «Müharibə bütün gerçəkliyi ilə sübut etdi ki, kifayət qədər neftlə təchiz olunmaq nə deməkdir... Almaniyanın neft sarıdan asılılığının indiyə kimi daha çox dözülməzliyi onunla izah edilir ki, yaxınlıqdakı bütün neft rayonlarında, ilk növbədə Rumıniyada, İraqda, İranda və başqalarında ingilis konsessiyaları üstünlük təşkil edirdi. Belə vəziyyətə bundan sonra dözmək mümkün deyil. Odur ki, bütün neft mənbələrindən neft axınını təmin etmək üçün alman təsirini bərqərar etmək lazımdır. Rumın mədənləri artıq son dərəcə üzülüb, İraqda isə mədənləri xeyli genişləndirmək olar»[16].

*Lakin dərc edilmiş bu mətndə mühüm bir cəhətə diqqət yetirməyi* vacib sayırıq. Söhbət burada yalnız Yaxın Şərqin və Rumıniyanın neft yataqlarından gedir. SSRİ barəsində isə bir kəlmə də yoxdur. Belə bir sual meydana çıxır: görəsən, bu nə ilə əlaqədardır? Axı, Almaniyanın



Sovet İttifaqına qarşı hazırladığı müharibənin əsas cəzbedici amillərindən biri Qafqaz və ilk növbədə Bakı neft rayonu idi. «Kontinental-oyl» şirkəti yaradılanda da Hitler əsasən SSRİ-ni nəzərdə tutmuşdu. Məsələ burasındadır ki, «Nasional Tseytunq» qəzetində çap edilmiş məqalənin yazıldığı dövrdə SSRİ ilə Almaniya arasında bağlanmış «hücum etməmək haqqında» sovet-alman paktı mövcud idi. Odur ki, hər iki dövlət bir-birinə qarşı münasibətdə çox ehtiyatlı davranır, düşmənçilik əməllərindən hər vəchlə çəkinməyə səy göstərirdi. Bir növ **s t a t u s - k v o n u** (*seçmə mənimdir – müəllif*) saxlamağa çalışırdılar. Bu, kütləvi informasiya vasitələri də daxil olmaqla, bütövlükdə təbliğat xarakterli qurumların hamısına aid idi. Hətta Hitlerin özü də bu prinsipə riayət etməyi son dərəcə vacib bilirdi. «Hücum etməmək haqqındakı pakt»ın imzalanmasından bir həftə sonra, 1939-cu il sentyabrın 1-də reyxstaqda çıxışında bu məsələyə toxunarkən o demişdi: «Mən burada bəyan etmək istərdim ki, bu siyasi qərar (*pakt nəzərdə tutulur – müəllif*) gələcək üçün böyük əhəmiyyət kəsb edir və o məcburidir. Rusiya və Almaniya Birinci cahan savaşında bir-birinə qarşı mübarizə aparıb. Bu, təkrar olunmamalıdır və ikinci dəfə təkrar olunmayacaq»[17]. Halbuki ondan bir qədər əvvəl, paktın imzalanması ərəfəsində özünə yaxın adamlardan biri olan German Rauşninqlə söhbətində Hitler öz niyyətini daha açıq şəkildə ifadə etmişdi: «Onlar (*yəni SSRİ – müəllif*) hər nə istəsələr imzalamağa hazıram. Mən çox şeydə geri çəkilməyə də hazıram, təki əllərim **s ə r b ə s t o l s u n** (*seçmə mənimdir – müəllif*) ki, öz siyasətimi yerində bilim. Mən bütün sərhədlərin toxunulmazlığına təminat verirəm, hücum etməmək və dostluq haqqında məndən tələb olunan bütün paktları bağlamağa hazıram. Mənim tərəfimdən uşaqlıq olardı, əgər bu imkanlardan istifadə etməsəydim. Həm də bircə ona görə ki, nə vaxtsa üzərimə götürdüyüm bütün öhdəlikləri pozmalı olacağam, hətta ən təntənəli olanlarını da»[18].

O ki qaldı Yaxın Şərq neftinə, burada təəccüblü heç nə yox idi. Çünki orada mövcud olan neft rayonları illərdən bəri ingilislərin təsir dairəsinə daxil olmuşdu və Birinci cahan savaşının yekunları onu daha da möhkəmləndirmişdi. Britaniya ilə Almaniya isə onsuz da müharibə edirdi. Odur ki, «Kontinental-oyl» şirkəti Qafqaz, ilk növbədə isə Bakı neft rayonunun uzun müddətli və səmərəli istismar edilməsi üçün yaradılmışdı.

Beləliklə, Hitler SSRİ-nin fəth edilməsinə gələcək planlarının bərqərar olunması *yolunda bir mərhələ kimi baxırdı. Bunu «Göringin* Yaşıl qovluğu» da sübut edir. Məxfi sənəd olan bu kitabçada açıq-aydın deyilirdi ki, şərq kampaniyasının əsas məqsədi taxıl və **n e f t** (*seçmə mənimdir – müəllif*) idi.

1942-ci il martın 28-də qərargahda Hitlerin iştirakı ilə geniş müşavirə keçirildi. Burada yay kampaniyası ilə əlaqədar general Halderin rəhbərliyi ilə hazırlanmış hücum əməliyyatı planı müzakirə edilirdi. Həmin ilin yay kampaniyası neft uğrunda mübarizənin həlledici mərhələsi olmalı idi. Almanlar bu kampaniyaya böyük ümidlər bəsləyir, Moskva yaxınlığındakı uğursuzluğu təsadüfi hesab edirdilər. Bakı neft rayonunu ələ keçirməklə SSRİ-ni tezliklə süquta uğradacaqlarını zənn edirdilər. Həmin müşavirədə iştirak etmiş general Varlimont yazırdı: «Almanların düçar olduğu uğursuzluqlara baxmayaraq, Hitler hələ 1940-cı ilin dekabrında və 1941-ci ilin yayında dəstəklədiyi əsas ideyasına qayıtmağı vacib bildi. O, cəbhə xəttini eninə uzatmaqla, əsas təzyiqi yenidən cinahlarda cəmləşdirmək istəyirdi. Fərq yalnız ondan ibarət idi ki, quru qoşunlarının böyük itkilər verməsi və onların tam bərpa edilməsinin qeyri-mümkünlüyü, onu *(yəni Hitleri - müəllif)* məcbur edirdi ki, qarşısına qoyduğu məqsədləri cənubdan, yəni Qafqazdan başlayaraq növbə ilə həyata keçirsin. Moskva isə bir hücum obyekti kimi... hələlik tamamilə kənara qoyulurdu»[19].

Lakin almanların 1942-ci ildəki yay kampaniyasının əsl məqsədini Stalin tamamilə başqa cür təsəvvür edirdi. Hətta həmin ilin payızında Hitlerin niyyəti getdikcə daha da aşkar olan vaxtda Stalin öz yanlış mövqeyində durmaqda davam edirdi. Noyabrın 6-da Oktyabr inqilabının 25-ci ildönümü münasibətilə Moskva Sovetində keçirilmiş yığıncaqda çıxış edərkən o demişdi: «Almanların cənuba, neft rayonlarına doğru hərəkəti yardımçı xarakter daşıyır»[20]. Stalinin fikrincə almanlar bununla sovet silahlı qüvvələrinin «əsas ehtiyat hissələrini cənuba doğru yayındırmaqla, Moskva cəbhəsini zəifləmək istəyirlər»[21]. O, belə hesab edirdi ki, bunun nəticəsində almanlar Moskva üzərində «asanlıqla qələbə çalmaq»[22] istəyirlər. Stalin almanların əsas qüvvələrinin cənubda deyil, Oryol və Stalinqrad rayonlarında olmalarını da məhz bununla əlaqələndirirdi. Həm də görünür bu fikrə Stalin hələ çoxdan, yay kampaniyasının başladığı vaxtdan gəlmişdir. Sözünə qüvvət verərək, o, sovet kəşfiyyatçılarının əlinə keçmiş alman baş qərargahının bir zabiti haqqında məlumat verdi. Həmin zabitdən tapılmış xəritədə alman qoşunlarının hərəkət cədvəli və başqa məlumatlar əks olunmuşdu. Bu məlumatları Stalin belə şərh edirdi: «Bu sənəddən bəlli olur ki, almanlar bu il iyulun 10-da Borisoqlebskdə, iyulun 25-də Stalinqradda, avqustun 10-da Saratovda, avqustun 15-də Kuybışevdə, sentyabrın 10-da Arzamasda, sentyabrın 25-də Bakıda olmaq niyyətində idilər.

Bu sənəd bizim məlumatları tamamilə təsdiq edir ki, almanların yay hücumunun əsas məqsədi, dövrə vuraraq şərq tərəfdən Moskvaya yanaşmaq və sonra zərbə endirməkdir, cənuba doğru hərəkət isə hər şeydən artıq bizim qüvvələri Moskvadan yayındırmaq məqsədi güdürdü...

Xülasə, almanların yay hücumunun əsas məqsədi Moskvanı mühasirəyə almaq və müharibəni bu il başa çatdırmaqdır»[23].

Fəqət Stalin səhv etmişdi. Sonrakı hadisələr bunu əyani surətdə təsdiqlədi. Hər şeyə şübhə ilə yanaşmağa adət etmiş Stalinin əsir alman zabitindən tapılmış müəmmalı və ola bilsin ki, saxta xəritəyə inanması və düzgün nəticə çıxarmaması SSRİ-yə nəinki baha başa gəldi, hətta əlavə olaraq, yeni məhrumiyyətlərlə barışmaq məcburiyyətində qoydu. Stalin Hitlerin 1942-ci ilin yay kampaniyasında alman orduları qarşısında qoyduğu əsas məqsədin Moskva deyil, Qafqaz və ilk növbədə Bakı olduğunu başa düşə bilmədi. Bu yalnız sonralar ətraflı təhlil edildi və bir sıra görkəmli hərbi xadimlər tərəfindən də təsdiqləndi. Bu kitabın giriş hissəsində biz, sovet hərbi komandanlığının rəhbərliyində Stalindən sonra ikinci şəxs sayılan Sovet İttifaqı Marşalı Georgi Jukovun Stalinin ölümündən sonra onun fikirlərini təkzib edən və böyük strateji səhv kimi qiymətləndirən mülahizələrini oxucuların nəzərinə çatdırmışıq. Həmin hadisələrə yaxından bələd olan marşal Yeryomenko da Jukovla həmfikir olaraq, Stalin və ona dəstək verən digər hərbçilərin bu məsələ ilə bağlı konsepsiyalarının əsl həqiqətdən xeyli uzaq olduğunu göstərirdi. Özünün «Stalinqrad» kitabında Yeryomenko yazırdı: «...uzun müddət belə hesab edilirdi ki, düşmənin 1942-ci ilin yay planlarının əsasını, şərq tərəfdən mühasirə etmək yolu ilə Moskvanı tutmaqdır, guya ki, Stalinqrada vurulan düşmən zərbəsi də məhz bu məqsədi güdürdü. Hitlerçilərin cənuba, Qafqazın neft rayonlarına doğru hərəkəti isə yardımçı, yəni ehtiyat qüvvələrini Moskva strateji rayonundan yayındırmaq məqsədi kimi qiymətləndirilirdi. Lakin alman-faşist planlarının belə izahı sənədlərdə əks olunmuş faktlarla müqayisədə özünü doğrultmur»[24].

Moskva yaxınlığındakı uğursuzluqdan sonra general Halderi quru qoşunları baş qərargahının rəisi vəzifəsində əvəz edən general-polkovnik Kurt Tseytsler də təsdiq edir ki, 1942-ci ilin yay kampaniyasında Hitlerin əsas məqsədi «ilk növbədə Qafqazı və Stalinqradı tutmaq idi»[25]. Öz fikirlərini daha da inkişaf etdirərək o deyirdi: «Bu niyyətlərin həyata keçirilməsi sözsüz ki, böyük əhəmiyyətə malik olardı. Əgər alman ordusu Volqanı Stalinqrad rayonunda addımlayıb, bununla da rusların şimaldan cənuba uzanan əsas kommunikasiya xəttini kəsə bilsəydi və əgər Qafqaz nefti Almaniyanın hərbi tələbatının ödənilməsinə axıdılsaydı, şərqdəki vəziyyət əsaslı surətdə dəyişilərdi. O zaman müharibənin uğurla nəticələnəcəyinə olan ümidlərimiz də xeyli artardı. Hitlerin fikirləri belə idi.

Bu məqsədlərə çatdıqdan sonra o Qafqaz və ya başqa bir yolla Hindistana yüksək hərbi qabiliyyətə malik birləşmələr göndərmək istəyirdi»[26].

Stalin və onun komandasına daxil olan bəzi hərbi xadimlərin strateji səhvlərini bir daha sübut etmək üçün 1942-ci il martın 28-də Vermaxtın qərargahında keçirilmiş iclasda Hitlerin söylədiyi fikirlərə əsasən general Halderin öz gündəliyinə yazdığı bəzi qeydlərə nəzər salmaq kifayətdir.

Yay kampaniyasına həsr olunmuş bu iclasda Hitler yaranmış vəziyyəti təhlil edir, gələcək planları açıqlayırdı. Onun bəzi məqamları böyük maraq doğurur:

o) Cənuba doğru hücumları heç bir vəchlə zəiflətmək olmaz; o rus qüvvələrini təqib etməlidir. Neft mənbələri olmadan ruslar keçinə bilməzlər. Hərbi-desant qoşunlarından boşluqları bağlamaq üçün istifadə etməli. Cinahlarımıza daha çox tank yerləşdirmək.

r) …4. «Mərkəz» ordular qrupunun: fəaliyyəti cənubdakı uğurlardan asılıdır. **Məqsəd:** Qara dəniz – bağlı dəniz; Batumi – Bakı.

s) **Təqvim planı:** sentyabrın əvvəlində Quzey Qafqaz (çatmaq lazımdır)[27].

Bəzi tədqiqatçılar qeyd edirlər ki, baş qərargahın bir sıra üzvləri yenə də Moskva istiqamətinə üstünlük verirdilər. Lakin Hitler Qafqaz variantını üstün tutdu. Nəhayət, 1942-ci il aprelin 5-də yay kampaniyasının müfəssəl planını təsdiq edən Hitlerin məşhur 41 saylı direktivi yarandı. Son dərəcə məxfi olan və yalnız zabitlərin istifadəsinə verilməli olan bu sənəd müharibədən xeyli keçsə də böyük maraq doğurur. Onun bir çox müddəalarını olduğu kimi oxucuların nəzərinə çatdırmağı vacib bilirəm. Çünki 1942-ci ilin yay kampaniyasının əsas strateji xətti məhz bu direktiv əsasında müəyyənləşdirilirdi.

## VERMAXTIN ALİ BAŞ KOMANDANLIĞININ DİREKTİVİ

*№ 41* *5 aprel 1942*

Fürer və Ali Baş Komandan
Olduqca məxfi

Fürerin qərargahı
Yalnız zabitlərə verilir.

## DİREKTİV № 41

1.Ümumi mülahizələr.

«Şərq kampaniyasının öncül prinsiplərinə istinad edərək vacibdir ki, cəbhənin mərkəzi sahələrində fəal hərəkətlər etmədən, şimalda Leninqradın süqutuna nail olmaqla, quruda finlərlə əlaqə yaratmaq, cənub cinahında isə Qafqaz rayonuna soxulmaq.



Qış döyüşlərinin başa çatması ilə əlaqədar yaranmış vəziyyəti, əldə olan qüvvələri və imkanları, habelə mövcud nəqliyyat şəraitini nəzərə alaraq, bu vəzifə bir neçə mərhələdə yerinə yetirilə bilər.

Rəqibi Don çayından qərbdə məhv etmək məqsədilə əsas əməliyyatın həyata keçirilməsi üçün ilk növbədə əldə olan bütün qüvvələri cəbhənin cənub sahəsində cəmləşdirmək, sonra isə Qafqazın neft rayonlarını və Qafqaz dağ silsiləsinin aşırımlarını ələ keçirmək lazımdır»[28].

Beləliklə Qafqazı ələ keçirmək üçün almanlar Voronej rayonunda və ondan cənubda, habelə Don çayından şimalda və qərbdə yerləşmiş sovet silahlı qüvvələrini məhv etməli idilər.

41 saylı direktivin Qafqazın işğal olunmasına aid bölməsində deyilirdi ki, «…yay kampaniyasının əsas vəzifəsi Stalinqradı tutmaq deyil, Qafqazı onun neft mədənləri ilə birlikdə işğal etməkdir». Lakin buna baxmayaraq, belə qərara alındı ki, əvvəlcə iki ordular qrupu rəqib qüvvələrini mühasirəyə almaq yolu ilə onları Stalinqraddan qərbdə olan bir bölgədə məhv etməlidirlər; yalnız bundan sonra Qafqazın işğalı məsələsi qoyulmalı idi[29].

Hələ Birinci cahan savaşının iştirakçısı olmuş general Dörr yazırdı: «…Hitlerin düşüncələri ərazi böyüklüyünə görə geniş bir məqsədə yönəlmişdi: Batumi – Tbilisi – Bakıya»[30].

1942-ci il yanvarın 18-dən onun tam süqutuna qədər, daha dəqiq desək, 1943-cü il fevralın 2-nə qədər almanların 6-cı ordusuna rəhbərlik etmiş feldmarşal Paulyus sovet əsirliyindən azad edildikdən sonra vətəninə qayıtmışdı. «Barbaros» planının hazırlanmasında bilavasitə iştirak etmiş Paulyus, 1942-ci il kampaniyasının keçirildiyi dövrdə də əsas simalardan biri olmuşdur. O, 1954-cü ildə Drezden şəhərində ali hərbi məktəbin müdavimləri qarşısında məruzə ilə çıxış edərkən, həmin hadisələrə də toxunmuş və öz münasibətini bildirmişdi. Məruzəsinin bir yerində o belə demişdi: «1942-ci ilin hərbi əməliyyatı «Cənub» qrupunun fəaliyyət göstərdiyi rayonda keçirilməli idi. Əməliyyatın strateji məqsədi Quzey Qafqazın neftlə zəngin vilayətlərini tutmaq idi. Qafqaz neftinin ələ keçirilməsi Almaniya silahlı qüvvələrinə və onun müttəfiqlərinə müharibəni davam etdirmək üçün həyati əhəmiyyətə malik idi»[31].

Nəhayət, 1942-ci il iyun ayının 1-də şəxsən Hitlerin iştirakı ilə «Cənub» ordular qrupunun işğal edilmiş Poltava şəhərindəki qərargahında hərbi komandanların müşavirəsi keçirildi. Cənub istiqamətində aparılacaq əməliyyatların hərtərəfli müzakirəsinə həsr edilmiş bu geniş müşavirədə Hitleri müşayiət edən general-feldmarşal Keytel və general-leytenant Hoyzinger, habelə «Cənub» ordular qrupunun komandanı gene-

ral-feldmarşal fon Bok, quru qoşunları generalı Zodenştern, «Cənub» ordular qrupunun qərargah rəisi general-leytenant fon Qreyfenberq, general-polkovnik fon Kleyst...[32] və bir sıra başqa yüksək rütbəli zabitlər iştirak edirdi. 6-cı ordunun komandanı Paulyus da onların arasında idi. Müşavirə iştirakçılarının tərkibi onun son dərəcə vacibliyindən xəbər verirdi. «Hitler 1942-ci il 5 aprel tarixli direktivində nəzərdə tutulmuş hücumun məqsədlərini dəqiqləşdirdi»[33].

Cənub cinahında aparılacaq geniş miqyaslı hücum əməliyyatlarında Almaniya və onun müttəfiqləri tərəfindən bir milyon 500 min əsgər, mindən yuxarı təyyarə, minlərlə müxtəlif çaplı top və tank iştirak etməli idi. Əməliyyat uğurlu olacağı təqdirdə Volqa çayına çıxışı təmin etməklə bərabər, Qafqazın neft mənbələrinin ələ keçirilməsini də reallaşdırardı. Bu isə Hitlerin fikrincə Sovet İttifaqına ölümcül zərbə olardı. Beləliklə, Qafqazın alınmasını Almaniyanın Ali Baş Komandanlığı, Stalindən fərqli olaraq, yay kampaniyasının əsas məqsədi sayırdı. Stalinqrada qarşı əməliyyat isə hələ də köməkçi xarakter daşıyırdı.

Maraqlı burasıdır ki, SSRİ Ali Baş Komandanının qərargahında almanların Moskvaya təkrar hücumunun qarşısını almaq yolları araşdırılan vaxtda, xarici ölkələrdə artıq aprel ayında Hitlerin məhz cənuba doğru gedəcəyi ehtimal olunurdu. Çünki Hitler əvvəlki səhvlərdən nəticə çıxararaq, üzüntülü döyüşlərdənsə, «Rusiyanın iqtisadi qüdrətini sarsıtmağı, onun silahlı qüvvələrinin maddi əsaslarına zərbə vurmağı»[34] daha vacib sayırdı. Fuller Hitlerin bu taktikasını təhlil edərək belə yazırdı: «Qərara alındı ki, bunun üçün Rusiyanı Donets sənaye rayonundan, Kuban taxılından və Qafqaz neftindən məhrum etmək lazımdır. Xülasə, Rusiyanı Xarkov, Stalinqrad, Bakı, Batumi dördbucağında olan mühüm strateji rayonlardan kənarlaşdırmaq vacibdir ki, bu da sonralar rus ordusunu məhv edə bilərdi»[35].

Hitlerin özünün söylədiklərindən, alman radiosunun o dövrdəki verilişlərindən belə bir fikir yaranırdı ki, almanların əsas məqsədi Moskvanı tutmaq və rus ordularını məhv etmək deyil, «Volqa üzərində nəzarət» qoymaqdır, yəni Rusiyanın şimalı ilə cənubunun əlaqələrini kəsməkdir[36].

Almaniyanın xarici işlər naziri İoahim Ribbentrop demişdi: «Rusiyanın neft ehtiyatları tükəndikdən sonra Rusiya dizləri üstə çökəcəkdir»[37]. «Tayms» qəzetinin İstambuldan verdiyi bir məqalədə deyilirdi: «Türk ekspertləri hesab edirlər ki, almanların iki planı var: «Qafqaz planı» və «Volqa planı». Onlardan birincisi almanlara Qafqazı Rusiyanın qalan hissəsindən ayırmaq və Rusiyanı öz əsas neft mənbələrindən məhrum etmək imkanı verir... «Volqa planı» isə belə hesab edilir ki, rus or-



dularının məhvinə yönəldilib... Öncə onları bir-birindən ayırmaq, sonra da hissə-hissə dağıtmaq»[38].

Beləliklə, hələ aprel ayında qərb mətbuatında və siyasi dairələrində Almaniyanın Qafqaza gedəcəyi və ilk növbədə neft bölgələrini ələ keçirməyə cəhd edəcəyi heç bir şübhə doğurmurdu.

Lakin İkinci cahan savaşının ən görkəmli tədqiqatçılarından biri sayılan Con Fuller belə bir fikir irəli sürür ki, almanlar müharibəni udmaq üçün mütləq Moskvanı tutmalı, yaxud da heç olmasa mühasirədə saxlamalı idilər. O, bunu nə ilə əsaslandırırdı? Onunla əsaslandırırdı ki, «Rusiyanın ərazi genişliyini və rus ordularının gücünü nəzərə alaraq, onları taktiki cəhətdən əzməyin mümkünsüzlüyü aydın olar...»[39]. Rusların «yüksək mənəvi dəyanətə» malik olduqlarını da vurğulayan Fuller daha sonra yazırdı: «Beləliklə, yalnız onları strateji cəhətdən iflic etməklə uğur qazanmaq mümkün idi... neftdən, kömürdən və taxıldan məhrum etməklə yox, rusları məhz hərəkət etmək imkanından məhrum etmək lazım idi»[40]. Onun fikrincə Fransada Paris kimi, Moskva da eyni cür «Rusiya dəmiryollarının mərkəzi qovşağıdır»[41]. Bununla əlaqədar o, belə bir fikir irəli sürür: hələ 1914-cü ildə almanların Parisi tutmamaları onların Marnada fəlakətilə nəticələndiyi kimi, Moskva yaxınlığındakı məğlubiyyət də onların 1942-ci ildə Volqadakı uğursuzluğuna səbəb oldu. Lakin bu bir fərziyyədir. Onu qəbul etmək də olar, etməmək də. Lakin bircə məsələ aydındır ki, Fuller çox güman ki, Rusiya reallıqlarına o qədər də yaxşı bələd deyildi. Əvvəla, Rusiyanı Fransa ilə, Moskvanı da Parislə müqayisə etmək zənnimizcə düzgün olmazdı. Çünki Rusiyanın əsas həyatverici gücü, ilk növbədə, başda Bakı neft rayonu olmaqla Qafqaz nefti, müəyyən dərəcədə də Ukrayna kömürü idi. Fullerin dediyi kimi, elə məhz Rusiya ərazisinin nəhəngliyini nəzərə alsaq, yanacaq amilinin nə dərəcədə misilsiz əhəmiyyətə malik olduğu aydın görünər. Bunu bir daha sübut etməkdən ötrü 1918-1920-ci illər Rusiyasına ötəri də olsa nəzər salmaq kifayət edər. Həmin illərdə müvəqqəti olaraq Bakı neftindən məhrum olan Sovet Rusiyasının hansı fəlakətlərlə üzləşdiyi tarixə yaxşı bəllidir. Bu barədə istər Rusiya inqilabının rəhbəri Leninin, istərsə də yeni yaranmış rejimin digər xadimlərinin imzaladığı teleqramlar, məktublar, etdikləri çıxışların mətnləri mövcuddur. Həmin dövrdə Moskva da daxil olmaqla bütün ölkə ölü zonanı xatırladırdı. Halbuki 20-ci illərlə müqayisədə indiki vəziyyət daha təhlükəli, daha mürəkkəb xarakter daşıyırdı. Minlərlə tankın, təyyarənin, motorlaşdırılmış hissələrin, sualtı və suüstü gəmilərin intensiv surətdə hərbi əməliyyatlarda iştirakı duru yanacağı — nefti ucu-bucağı görünməyən bu nəhəng müharibənin əsas aparıcı qüvvəsinə çevirmişdi. Dəmir yollarının da kömür və duru

yanacaqla işləməsini bunlara əlavə etsək, enerji amilinin nə demək olduğunu daha aydın təsəvvür etmək olar. Qafqaz neftinin və xüsusilə də Bakı neft rayonunun almanların tam nəzarəti altına keçdiyi təqdirdə, «Rusiya dəmiryollarının mərkəzi qovşağı» olmasının səmərəsi nədən ibarət olardı? Və yaxud «rus xalqının yüksək mənəvi dəyanəti» ilə «rus ordularının gücü» hansı miqyasla ölçülərdi? Axı, almanların Stalinqraddakı məğlubiyyəti də əsasən yanacaq çatışmazlığı ilə bağlı idi. Bunu döyüşlərin xronikası da sübut edir. Hər halda hadisələr göstərdi ki, 1942-ci il, sözün əsl mənasında, böyük neft uğrunda qanlı müharibə ilinə çevrildi. Əgər Hitler və alman komandanlığının kobud səhvləri olmasaydı, nəticədə Stalinqrad və Qafqaz istiqamətlərində gedən hərbi əməliyyatlar arasındakı tarazlıq nisbəti pozulmasaydı, 1942-ci ilin yay kampaniyasının nəticələri başqa cür də ola bilərdi.

Əsas hadisələrin yetişməsinə çox az qalırdı. Hələlik isə almanlar Krıma doğru üz tutdular. Feldmarşal fon Manşteynin 12-ci ordusu may ayının 8-də Kerç üzərinə şığıdı və ayın 13-də şəhəri tutdu. Bundan sonra Manşteyn SSRİ-nin mühüm hərbi-dəniz bazası olan Sevastopola doğru hərəkət etdi. Ağır döyüşlərə baxmayaraq, şəhər almanların növbəti həmləsindən sonra süqut etdi. Bu, böyük itki idi. Onu marşal Jukov da etiraf etməyə məcbur oldu: «Krımın itirilməsi... və bizim qoşunların məcburi geri çəkilməsi nəticəsində Don və Donets hövzəsinin zəngin vilayətləri düşmənin əlinə keçdi. Rəqibin Volqa və Şimali Qafqaza çıxmaq, Kubanın itirilməsi və Qafqazda bütün yolların bağlanması, habelə ordu və sənayeni neftlə təchiz edən mühüm iqtisadi rayonun itirilməsi təhlükəsi yarandı»[42]. Jukovun təşvişi əbəs deyildi. Belə vəziyyət fəlakətli nəticələrə gətirib çıxara bilərdi. Marşal Qreçko yazırdı: «Krımın itirilməsi Qafqaz üçün bilavasitə təhlükə yaratdı»[43].

Bundan sonra Krım cəbhəsi ləğv edildi. Ali Baş Komandanlığın qərarına əsasən, yaranmış təhlükə ilə əlaqədar olaraq, Quzey Qafqaz istiqaməti Quzey Qafqaz cəbhəsinə çevrildi. Marşal Budyonnı cəbhənin komandanı təyin olundu.

# VIII FƏSİL

# SOVET-ALMAN CƏBHƏSİNDƏ ƏSAS HADİSƏLƏR: QAFQAZDA və STALİNQRADDA

İyunun 1-də Poltavada «Cənub» ordular qrupunun qərargahında keçirdiyi geniş müşavirədən sonra Hitler çoxdan arzusunda olduğu ideyanı reallaşdırmaq məqsədilə konkret addımlar atmağa başladı. Krımın tez bir zamanda alınması onu daha da ruhlandırdı. Lakin almanların əsaslı hücumları yalnız iyunun 28-də başladı. Artıq iyulun 2-də almanların iri birləşmələri Belqorod və Xarkov istiqamətində güclü hücuma keçdilər və nəticədə cəbhəni yarmağa nail oldular. İyulun 6 və 7-də mühüm strateji məntəqə olan Voronej general fon Veyxsin rəhbərliyi altında olan tank və motorlaşdırılmış birləşmələr tərəfindən alındı. Şəhərdə ağır döyüşlər getməsinə baxmayaraq, almanlar sürətlə cənuba doğru irəliləməyə başladılar. Belə bir vaxtda iyulun 21-də Hitler Ali Baş Komandanlığın 44 saylı direktivini imzaladı. Orada deyilirdi:

«Timoşenkonun qoşunlarına qarşı əməliyyatların gözlənilmədən çevik və uğurla inkişaf etməsi ümid etməyə əsas verir ki, tezliklə Sovet İttifaqını Qafqazdan, yəni neft mənbələrindən ayıra biləcəyik və amerikan-ingilis hərbi ləvazimatının daşınmasını ciddi surətdə pozacağıq. Bununla, həmçinin Donets sənayesinin bütövlükdə itirilməsi ilə Sovet İttifaqına elə bir zərbə endirilir ki, onun nəticələri uzaq gələcəkdə də hiss olunacaq»[1].

Bundan bir neçə gün sonra iyulun 23-də Ali Baş Komandanlığın yeni bir direktivi imzalandı.

Onun əsas müddəaları aşağıdakılardan ibarət idi:

Fürerin qərargahı
*23.07.1942.*

**DİREKTİV №45**

«Braunşveyq» əməliyyatının davam etdirilməsi haqqında.

Z... Əsas etibarilə motorlaşdırılmış birləşmələrdən təşkil olunmuş döyüş qrupu... Qroznı rayonunu ələ keçirməli, qüvvələrin bir hissəsi ilə Hərbi Osetiya və Hərbi-Gürcüstan yollarını kəsməli, aşırımları tutmaq üçün maksimum qüvvə tətbiq etməlidir. Bundan sonra Xəzər dənizinin sahili ilə hücuma keçərək Bakını tutmaq lazımdır. Ordular qrupu bir qədər sonra italyanlardan ibarət Alp korpusu ilə gücləndirilməyə ümid edə bilər. «A» ordular qrupunun bu əməliyyatlarına «Edelveys» şərti kod adı verilir. Məxfilik dərəcəsi: tamamilə məxfi.

V... Qroznıdan Bakıya hücumun əlaqələndirilməsi üçün kifayət qədər qüvvə ayrılmasını nəzərdə tutmaq.

Müharibənin bundan sonra davam etdirilməsi üçün Qafqazda neft hasilatının mühüm həlledici önəmini nəzərə alaraq, orada yerləşən neft mədənlərinə, iri neft ambarlarına, habelə Qara dənizdəki yükvurma limanlarına aviasiyanın hücumları yalnız o zaman edilə bilər ki, bu, quru qoşunlarının əməliyyatları üçün lazım olan tələbata cavab versin. Bununla belə, rəqibi Qafqazdan gətirilən neftdən mümkün qədər tez məhrum etmək məqsədilə son dərəcə vacibdir ki, hələ də istifadə olunan dəmir yollarını vaxtındaca iflic edək, neft kəmərlərini, habelə Xəzər dənizindəki su kommunikasiyalarını kəsək.

S... Hərbi-dəniz donanması.

...Düşmənin dəniz kommunikasiyalarını (neft daşınmasını və İranda anqlo-sakslarla əlaqəni) pozmaq məqsədilə Xəzər dənizində yüngül hərbi gəmilərdən döyüşdə istifadə etmək üçün hazırlıq görmək...

*Adolf Hitler*».



Yay kampaniyasını tez və uğurla başa çatdırmaqdan ötrü iki əsas strateji istiqamət müəyyən edildi. Bunun üçün «Cənub» ordular qrupunun əvəzinə iki böyük ordular qrupu yaradıldı. «A» ordular qrupu qarşısında Vermaxtın rəhbərliyi belə vəzifə qoydu: Rostovun cənubunda və cənub-şərqində sovet qoşunlarını mühasirəyə alıb məhv etdikdən sonra əsas zərbəni cənuba yönəltmək və Qafqazın Qara dəniz sahilini və Qroznı rayonunu ələ keçirmək. Bundan sonra Xəzər dənizi sahili ilə Bakıya doğru hərəkət etmək. «A» ordular qrupunun tərkibində 18 piyada, 3 tank, 4 motorlaşdırılmış, 6 dağ-atıcı, 3 yüngül piyada, 4 süvari və 2 gözətçi diviziyaları var idi[1]. Feldmarşal Vilhelm List qrupa komandan təyin edildi. Qrupa 167 min əsgər və zabit, 1130 tank, bir minə yaxın təyyarə, 4540 ədəd müxtəlif çaplı top və minaatan cəmləşdirilmişdi[1].

«B» ordular qrupu isə elə həmin vaxt ərzində Stalinqradı tutmalı, sovet silahlı qüvvələrini tamamilə darmadağın etdikdən sonra, motorlaşdırılmış birləşmələrin müəyyən hissəsini Həştərxana doğru yönəltməli idi.

Ali Baş Komandanlığın sərəncamında olan dörd ordudan üçü Qafqaz istiqaməti, biri isə Stalinqrad üçün nəzərdə tutulmuşdu. General Halder yazır ki, «bu qərar Vermaxt komandanlığının rəhbərliyində kəskin fikir ayrılıqlarına səbəb oldu»[5]. Bu qərarın əleyhinə çıxanlardan biri də elə Halderin özü idi. O, qeyd edir ki, «bu, Hitlerin qəzəbinə səbəb oldu və o komandanlığın ünvanına ağır iradlar söylədi»[6].

Halder gündəliyində daha sonra yazırdı: «Hitlerin hətta baş komandanlıqda olan yaxın məsləhətçiləri belə qəbul edilmiş qərarın riskli olmasını başa düşürdülər... İyulun 30-da qərargahda keçirilən müşavirədə Yodl dedi: «Qafqazın taleyi Stalinqrad yaxınlığında həll ediləcək». Odur ki, «vacibdir ki, «A» ordular qrupundakı qüvvələrin müəyyən hissəsi «B» ordular qrupuna verilsin»[7].

Hitlerin Qafqaz istiqamətinə güclü ordular qrupunu göndərmək meyli tezliklə Qafqazın neft mədənlərini ələ keçirmək və sonra da xüsusilə vacib olan Bakı neft rayonunu tutmaq istəyindən irəli gəlirdi. Lakin bu təkcə istək deyildi, həm də vacib həyati tələbat idi. Çünki almanlar yanacaq qıtlığını artıq hiss etməyə başlamışdılar. Hələ iyunun 1-də Poltavada Şərq cəbhəsinin komanda heyətinin geniş müşavirəsində Hitler birmənalı şəkildə belə demişdi: «Mənim əsas fikrim rus qüvvələrini əsaslı surətdə dağıtmaqla, Qafqaz diyarını ələ keçirməkdir... Əgər mən Maykopun və Qroznının neftini ala bilməsəm, müharibəni qurtarmalı olacağam»[8].

Artıq yaranmaqda olan yanacaq çətinliklərindən Hitlerə aydın olmuşdu ki, Quzey Qafqazın neft mədənlərinə sahib ola bilməsə, Bakıya da çata bilməyəcəkdir. Sadəcə Bakıya gəlməyə yanacağı olmayacaqdır. Qafqaz uğrunda 6 aya yaxın bir müddətdə gedən döyüşlər də bunu təsdiq etmişdi. Lakin o günlərə hələ çox qalırdı. Hələlik isə alman qoşunları böyük sürətlə Qafqaza doğru irəliləyirdilər. İyulun sonlarında Manıçın fəth edilməsi başa çatdırıldı. Avqustun 6-da isə demək olar ki, heç bir müqavimətə rast gəlmədən motorlaşdırılmış birləşmələr Yeysk-Bakı dəmir yoluna çıxdılar[9].

Stalin isə almanları hələ də Moskva yaxınlığında qarşılamağa hazırlaşırdı. Cənub cəbhəsinin yarılması artıq acı bir həqiqət idi. İsveç jurnalisti Arvid Fredborq yazırdı: «Rus cəbhəsi tamamilə dağılır... alman ordusu Don çayını geniş cəbhə boyu keçdi. Rus məlumatlarının ahəngi ciddiləşdi, radio verilişlərində narahatlığın getdikcə artması hiss olunurdu. Rusiyada ikinci cəbhənin açılması tələbləri təkidlə səslənirdi»[10].



Cənub cəbhəsində hadisələrin sürətlə pisliyə doğru dəyişməsi əliqolu Afrika ilə bağlanmış Çörçilli də az təşvişə salmamışdı.

İyulun 18-də Stalinə ünvanladığı göndərişdə o yazırdı: «...Sizin cənub cinahınızda Sizə necə kömək edək. Əgər biz Rommeli geri oturda bilsək, o zaman payızda sizin cəbhənizin sol cinahındakı əməliyyatlar üçün güclü hava qüvvələri göndərə bilərdik... Lakin əvvəlcə biz gərək Rommeli əzək»[11].

Lakin Qafqaza olan təhlükəni hələ də ciddi saymayan, onu alman baş komandanlığının növbəti fitnəsi sayan və əsas hadisələrin Moskva ətrafında olacağını zənn edən Stalin yenidən ikinci cəbhə problemini qaldırmağa səy göstərdi.

Afrikada və Qafqazda hərbi vəziyyətin kəskin surətdə pisləşməsi ilə əlaqədar olaraq Baş nazir Çörçill Moskvaya rəsmi səfərə gəldi.

Halbuki son aylarda hər iki dövlət başçısı arasında yaranmış soyuq münasibətlərin kəskinləşdiyi bir zamanda belə bir görüşün vacibliyi şübhə doğurmurdu. Həmin səfəri xatırlayan Çörçill öz memuarlarında yazırdı: «Mən bu qaraqabaq, heybətli bolşevik ölkəsinə olan missiyam haqqında fikirləşdim. Belə ki, vaxtilə onu yarandığı gündən etibarən inadla boğmağa cəhd edirdim, ta ki Hitler meydana gələnə qədər onu azad cəmiyyətin qatı düşməni sayırdım. İndi mən onlara nə deməli idim?

Ədəbiyyatçı qabiliyyətinə malik olan general Ueyvell bütün bunları şer şəklində cəmləşdirdi və axşama yaxın mənə göstərdi. Orada bir neçə bənd vardı və hər birinin son cümləsi belə səslənirdi: «Olmayacaq ikinci cəbhə! 1942-ci ildə». Bu, Şimal qütbünə böyük buz parçası daşımağa bənzəyirdi»[12].

İkinci cəbhə açmaq haqqındakı danışıqlar heç bir nəticə vermədi. Və verə də bilməzdi. Çünki İngiltərənin Rommel kimi ciddi bir problemi vardı. İngiltərənin bu mövqeyini o zaman ABŞ da dəstəkləmişdi. Təbii ki, Stalin danışıqların nəticəsindən son dərəcə narazı qalmışdı.

Çörçillə avqustun 13-də göndərdiyi memorandumda o yazırdı: «...1942-ci ildə ikinci cəbhənin yaradılmasından imtina edilməsi nəticəsində Qızıl Ordunun çətinlikləri İngiltərənin və digər müttəfiqlərin hamısının hərbi vəziyyətini pisləşdirəcəkdir»[13]. Çörçilli bir qədər qorxutmağa cəhd göstərdikdən sonra Stalin sözünə davam edərək yazırdı: «Mənə və mənim həmkarlarıma elə gəlir ki, 1942-ci il Avropada ikinci cəbhə yaratmaq üçün ən əlverişli şərait kəsb edir, çünki alman qoşunlarının demək olar ki, bütün qüvvələri, həm də ən yaxşı qüvvələri şərq

cəbhəsinə cəlb edilib. Avropada isə çox az qüvvə qalıb, həm də ən pisləri»[14].

Ertəsi gün Çörçilldən gələn cavab sözsüz ki, Stalini razı sala bilməzdi. Çörçill yazırdı: «1942-ci ildə ikinci cəbhənin ən yaxşı görünüşü, Atlantik okean tərəfdən yeganə mümkün olan və miqyasca əhəmiyyətli əməliyyat – «Məşəl» əməliyyatı ola bilər. Əgər bu əməliyyat oktyabr ayında keçirilə bilərsə, Rusiyaya daha çox köməyi dəyər, nəinki başqa bir plan...»[15].

İyulun 31-də Vermaxtın Ali Baş Komandanlığının əmrinə əsasən Stalinqrad istiqamətini bir qədər qüvvətləndirmək məqsədilə «A» ordular qrupunun tərkibində olan 4-cü tank ordusu «B» ordular qrupuna verildi. Beləliklə, Hitler bir daha göstərdi ki, əməliyyatlar hər iki istiqamətdə aparılacaq: Qafqaz və Stalinqrad. Onun bu fikrinə münasibət baş komandanlıqda birmənalı deyildi. Çoxları bu fikirdə idi ki, Almaniyanın buna gücü çatmayacaq. Hələ bahar aylarında cəbhə xətti Stalinqraddan 500 km, Qafqazdan isə 600 km aralı idi. Onların hər ikisinin arasındakı məsafə də az deyildi. Hücum əməliyyatlarının ikisi də əvvəlcə eyni nöqtədən başlamalı, sonra ayrı-ayrı istiqamətlərlə hərəkət etməli idi.

General Tseytslerin fikrincə bu özü böyük təhlükə doğururdu. O yazırdı: «...cəbhə xəttindən və bir-birindən bu qədər böyük məsafədə olan bu iki rayonu tutmaq üçün əlimizdə olan qüvvələr kifayət edəcəkmi? Cavab mənfi idi. Əməliyyat üçün tələb olunan qədər qüvvə tapmaq olarmı? Bu sual Hitler və onun hərbi məsləhətçiləri qarşısında qoyulmuşdu. Onun həlli yollarını isə mənim bildiyimə görə general Yodl təklif etmişdi. Bu təklifə əsasən Almaniyanın müttəfiqlərindən yeni diviziyalar tələb etmək olardı. Belə olduqda Şərq cəbhəsində 1942-ci il kampaniyasında Hitlerin niyyətlərini həyata keçirmək üçün kifayət qədər qüvvə toplamaq olardı. Lakin bu, 1942-ci ildə yol verilmiş ilk məhvedici səhv idi»[16].

Alman silahlı qüvvələri iyul ayındakı uğurlu əməliyyatları avqustda da davam etdirmək əzmində idilər.

Avqustun 6-da hava zərbələrindən sonra Armavir şəhəri alındı. Lakin əsas məqsəd Maykop neft rayonu idi. Odur ki, general fon Kleystin komandanlıq etdiyi 1-ci tank ordusunun 6 diviziyası Maykop istiqamətinə göndərildi. Əməliyyatda aviasiya da fəal iştirak edirdi. Nəhayət ayın 8-də Maykop ələ keçirildi. Ancaq bu, almanlara sevinc gətirmədi. Çünki alman komandanlığı burada böyük yanacaq ehtiyatları əldə etmək



ümidində idi. Birinci tank ordusunun ardınca almanların «mineral yağlar briqadası» adlandırılan mütəxəssisləri də gəlirdi[17].

«Lakin Maykopda gözlədiklərinin əksinə olaraq almanlar neft tapa bilmədilər. Neftin, benzinin və kerosinin bütün ehtiyatları əvvəlcədən daşınıb aparılmış, quyular daş-kəsəklə doldurulmuş, avadanlığın bir hissəsi də torpağa basdırılmışdı»[18]. Nəticədə almanların tezliklə neft əldə etmək üçün ilk cəhdləri uğursuzluqla nəticələndi. Bununla eyni vaxtda iki tank korpusu daha vacib bir rayona – Qroznıya üz tutdu. Almanlar nəyin bahasına olursa-olsun bu vacib neft rayonunu tezliklə tutmaq ümidində idilər. Əvvəla Bakının yolları buradan keçirdi. İkincisi isə tükənməkdə olan yanacaq ehtiyatı ciddi problemlər yaradırdı. General Tippelskirx bu barədə belə yazırdı: «Kəskin yanacaq qıtlığı bəzən onu hava ilə gətirməyə məcbur edirdi. Kommunikasiyalar o qədər uzanmışdı ki, yanacaq daşıyan avtomobil dəstələri gətirdikləri yükün böyük hissəsini yolda özlərinə sərf edirdilər. Bəzən vəziyyət inanılmaz xarakter alırdı. Yanacağı daşımaq üçün dəvə karvanlarından istifadə olunurdu»[19].

Ümumiyyətlə yanacaq çatışmazlığı getdikcə böyüyən ciddi bir problemə çevrildi. Bu özünü həm Qafqaz uğrundakı döyüşlərdə, həm də Stalinqrad ətrafındakı əməliyyatlarda göstərdi. Paulyusun 6-cı ordusunun Stalinqraddakı ağır məğlubiyyətinin mühüm səbəblərindən biri də, şübhəsiz ki, yanacaq olmaması idi. Sovet tarixçiləri məlum səbəblərə görə bu mühüm amilə lazımi qiymət verməmiş, almanların məğlubiyyətini başqa səbəblərlə əlaqələndirməyə çalışmışlar. Lakin faktlar sübut edir ki, bu heç də belə deyildi. Odur ki, gələn fəsillərdə bunu daha ətraflı təhlil etməyə, indiyədək kölgədə qalan mühüm bir həqiqəti üzə çıxarmağa çalışacağıq.

Qafqazın müdafiəsi üçün iki cəbhə mövcud idi: Quzey Qafqaz və Güney Qafqaz (Zaqafqaziya). Güney Qafqaz cəbhəsi eyni adlı hərbi dairənin əsasında yaradılmışdı. Onun təsir dairəsinə Qara dənizdə Lazarevsk məntəqəsindən Batumiyə qədər, sonra SSRİ – Türkiyə sərhəddi daxil idi. Bundan başqa İran – Türkiyə sərhəddini bağlamaq məqsədilə müəyyən miqdarda sovet hissələri İranın şimalında da yerləşdirilmişdi. Bu onunla izah edilirdi ki, almanların Qafqaz əməliyyatı uğurla nəticələndiyi təqdirdə Türkiyə Almaniyanın müttəfiqi kimi müharibəyə qoşula bilər və 1918-ci ildə olduğu kimi yenidən Bakıya doğru yeriyə bilərdi. Hətta belə bir fikir yaranmışdı ki, 1942-ci ilin yayında Türkiyə silahlı qüvvələrinin baş qərargahı «...Türkiyənin müharibəyə qoşulmasını qaçılmaz hesab edir. Bu o zaman ola bilərdi və olardı ki, Türkiyə ordusu

kifayət qədər silahla təmin olunsun. Türk hücumu İran təpəliklərindən keçərək Bakı istiqamətinə doğru ola bilər»[20]. Türkiyənin müharibəyə qoşulmaq ehtimalı həm də onunla izah olunurdu ki, Almaniyanın Ankaradakı səfiri fon Papen, almanların cənuba doğru etdikləri hücum əməliyyatları ilə eyni zamanda Türkiyənin siyasi xadimləri ilə ciddi danışıqlar aparır, alman təyyarələri onun sərhəddini maneəsiz pozur və türklər SSRİ sərhəddi boyunca 26 diviziyadan ibarət bir ordu yerləşdirmişdilər.

Digər tərəfdən, Rommelin «Afrika korpusu» da ciddi problem yaradırdı. Yaxın və Orta Şərqə çıxdığı təqdirdə şübhəsiz ki, o, Bakıya da real təhlükə ola bilərdi. Belə ki, Çörçillin Rommelə belə diqqət yetirməsi və Quzey Afrikanı ikinci cəbhə adlandırması heç də əbəs deyildi. Sovet komandanlığı şübhəsiz ki, Rommel amilindən xəbərsiz deyildi və onun təhlükəsini də lazımınca bilirdi. Axı, artıq almanlar Liviyada və Misirdə bir sıra ciddi qələbələr əldə etmişdilər. Və Afrika ekspedisiyasının nə ilə nəticələnəcəyi hələ heç kəsə bəlli deyildi.

*Qafqazın şimal tərəfdən müdafiəsi isə hərbi əməliyyatların başlan*masına qədər çox zəif təşkil edilmişdi. Bu da ondan irəli gəlirdi ki, Stalin almanların cənub əməliyyatını taktiki manevr hesab edərək, etibarlı müdafiə tədbirləri görməyi lazım bilməmiş və nəticədə bu mühüm strateji istiqaməti real təhlükə ilə üz-üzə qoymuşdu. Bu hələ bir yana, cəbhənin komandanlığını *da müasir müharibənin* tələblərinə cavab verə bilməyən, Rusiyada vətəndaş müharibəsi illərində yalnız süvari dəstələrinə rəhbərlik etmiş bir şəxsə – marşal Budyonnıya həvalə etmişdi. Aviasiyanın, tankın, zirehli texnikanın hökmranlıq etdiyi bir müharibədə keçmiş süvari komandiri nə edə bilərdi? Hadisələr göstərdi ki, heç nə! Odur ki, almanların sürətli hücumu da heç kimi təəccübləndirə bilməzdi. Halbuki marşal Qreçko onun əsas səbəblərini birtərəfli yozaraq yazırdı: «Mayın 25-dən avqustun 17-nə kimi Quzey Qafqazdakı döyüş əməliyyatları bizim üçün əlverişli olmayan bir şəraitdə keçirilirdi. Alman-faşist qoşunları tank, aviasiya və artilleriya cəhətdən böyük üstünlüyə malik idilər. *Düşmənin bu qədər böyük qüvvə üstünlüyü, alman-faşist işğalçı*larına bizim qoşunları Don çayından Baş Qafqaz silsiləsinin qərbindəki dağ ətəklərinə qədər geri çəkilməyə məcbur etmək üçün imkan yaradan əsas səbəb idi»[21]. Əlbəttə, Qreçko həqiqətdən heç də uzaq deyildi. Şübhəsiz ki, almanlar hərbi cəhətdən belə üstünlüyə malik olmasaydılar, *onların sürətli hücumları da mümkün olmazdı. Lakin Qreçko problemin* digər tərəfinə işıq salmaq istəmirdi. Halbuki o, yaranmış vəziyyətin əsl səbəbini başqalarından da yaxşı bilirdi. Çünki özü tezliklə Budyonnının



*əvəzinə Quzey Qafqaz cəbhəsinə komandan təyin edildi və əsl həqiqətin* bilavasitə canlı şahidi oldu. O yazırdı: «Cəbhənin qoşunlarında iri motorlu qüvvələr yox idi, halbuki düşmən qüvvələrinin 40 faizi tank və motorlaşdırılmış birləşmələrdən ibarət idi»[22].

Sovet hərbi texnikası isə, məlum olduğu kimi, əsasən şimal istiqamətində cəmləşdirilirdi. «Edelveys» *planına əsasən alman* komandanlığı Quzey Qafqazı tutduqdan sonra cənuba Qafqaza doğru yeriməli idi. Bunun üçün üç marşrut müəyyən edilmişdi. Onlardan birincisi Baş Qafqaz sıra dağlarının qərbindən, ikincisi şərqindən, üçüncüsü isə şimal tərəfdən, dağ aşırımlarından keçirdi.

Güney Qafqaza doğru yönəldilən əməliyyatlar ilk növbədə Bakı neft rayonunu işğal etmək və Bakı – Batumi neft kəmərini nəzarətə almaq məqsədi güdürdü.

Avqustun əvvəllərində Güney Qafqaz (Zaqafqaziya) cəbhəsinin komandanı ordu generalı Tülenev Qafqazın müdafiə planını SSRİ Ali Baş komandanlığına təqdim etdi. Plana görə üç xüsusi müdafiə rayonu yaratmaq təklif olunurdu. Bunun üçün Mahaçqala, Qroznı və Orconikidze (indiki Vladiqafqaz) daha əlverişli sayılırdı.

Bakı istiqamətinin təhlükəsizliyi xüsusilə böyük əhəmiyyət kəsb edirdi.

İyulun 23-də imzalanmış direktivə əsasən general Ruoffun komandanlığı altında olan birləşmiş ordu qrupu Qərbi Qafqazdan zərbə endirərək, Qara dəniz sahili boyunca hərəkət edib Batumiyə çatmalı və oradakı böyük neft ehtiyatını ələ keçirməli idi. 1-ci və 4-cü tank orduları isə Maykop və Qroznını, habelə Mərkəzi Qafqaz aşırımlarını tutub Tbilisi və Bakıya doğru irəliləməli idilər. Lakin 4-cü tank ordusunun Stalinqrad istiqamətinə göndərilməsi «A» ordular qrupunun müəyyən dərəcədə zəifləməsinə səbəb olmalıydı. Amma buna baxmayaraq avqustun 1-də yeni döyüş bölgəsinə yola düşən 4-cü tank ordusuna «A» ordular qrupunun komandanı feldmarşal List belə bir məzmunda teleqram göndərdi: «4-cü ordunun «A» ordular qrupu rayonundan getməsi ilə əlaqədar olaraq, ona həm yaxşı rəhbərliyə görə, həm də onun hərbi hissələrinin böyük qələbələrinə görə bir daha təşəkkür edirəm.

Ordu qarşısında indi yeni bir müşkül vəzifə dururdu ki, onun da yerinə yetirilməsi eyni zamanda «A» ordular qrupunun arxadan mühafizəsini təmin edərdi. Mən orduya bu vəzifəni də uğurla yerinə yetirməyi arzu edirəm və ümidvaram ki, vəzifəsini yerinə yetirdikdən sonra onu yenidən «A» ordular qrupunun tərkibində görəcəm»[23].

4-cü ordunun getməsinə baxmayaraq, almanlar yenə hücum əməliyyatlarını genişləndirməkdə davam edirdilər. Onlar tez bir zamanda Qafqazın məşhur kurort şəhərləri olan Kislovodsk, Pyatiqorsk və Yessentukini tutdular. Şərq tərəfdən isə mühüm neft rayonları Qroznı və Bakı istiqamətində öz sürətli hücumlarını davam etdirdilər.

1-ci tank ordusunun komandanı general fon Kleyst öz ordusuna böyük ümidlər bəsləyirdi. Birinci dünya savaşının iştirakçısı olan Kleyst Almaniyanın Fransaya hərbi müdaxiləsində də fəal iştirak etmişdi. O, qədim Prussiya generalları nəslindən idi və «taran» tipli tank döyüşlərinin əvəzolunmaz mütəxəssisi hesab olunurdu. Kleystin fikrincə Stavropol düzənliyinə və Tersk vadisinə çıxdıqdan sonra onun tanklarını heç kim saxlaya bilməyəcək və onlar sovet qoşunlarına şiddətli zərbələr endirərək Bakıya doğru şığıyacaqlar.

Baş Qafqaz dağ silsiləsinin ən yüksək nöqtələrində döyüş əməliyyatları aparmaq şərəfi general Konrad Rudolfun başçılıq etdiyi 49-cu dağ-atıcı korpusuna həvalə edilmişdi. Onun tərkibinə almanların ən yaxşı Alp diviziyaları daxil idi: 1-ci və 4-cü dağ-atıcı, 97-ci və 101-ci yüngül piyada diviziyaları[24].

«Edelveys» adlanan birinci diviziyaya general-leytenant Lants rəhbərlik edirdi. «Edelveys» alman ordusunun fəxri sayılırdı və odur ki, Kleyst «edelveys»lərin Qafqaz dağlarından dənizə doğru çıxacaqlarına zərrə qədər də şübhə etmirdi. 4-cü dağ-atıcı diviziyası da xeyli məşhur idi. Fransa və Yuqoslaviyada hərbi əməliyyatlarda fəal iştirak etmiş bu diviziya peşəkar alpinistlərdən təşkil olunmuşdu. Nəhayət, alman dağatıcıları böyük səy nəticəsində avqustun 21-də Avropanın ən yüksək dağ zirvəsi olan Elbrusa çatdılar və Almaniya bayrağını onun zirvəsinə sancdılar.

Bakıya böyük səylə can atanlardan biri də 23-cü tank diviziyasının komandanı general fon Makk idi. Deyilənlərə görə o Hitlerə üç dəfə raport göndərərək sübut etməyə çalışmışdı ki, Bakını işğal etməyi ondan yaxşı heç kim bacarmaz. Bakını tutduqdan sonra tank qoşunları generalı fon Makk İrana doğru yeriyib, Misirdən Süveyşə doğru hərəkət edən Rommelin qoşunları ilə birləşmək arzusunda idi.

Almaniyanın nüfuzlu və yüksək döyüş keyfiyyətlərinə malik hərbi hissələrindən biri də «SS»-ə məxsus «Vikinq» diviziyası idi. Onun tərkibinə «Nordland», «Vestland» və «Almaniya» adlı motorlaşdırılmış üç alay daxil idi. Hitler adəti üzrə onları əsas zərbə istiqamətlərinə göndərməyi lazım bilirdi. Belə istiqamətlərdən biri də şübhəsiz ki, Qafqaz idi.








*Əsir düşmüş alman zabitindən əldə edilmiş sxemin surəti. 30 sentyabr 1942-ci il*






*Hitlerin 41 saylı 5 aprel 1942-ci il tarixli direktivi üçün plan.*

Avqust ayı həqiqətən taleyüklü bir zaman kəsiyi idi. İstər Qafqazda, istərsə də Quzey Afrikada. Eyni məqsədə xidmət edən hər iki müharibə səhnəsindəki vəziyyət nikbinlikdən xəbər vermirdi. Tippelskirx yazırdı: «Hələ 1942-ci ilin avqustunda ingilislər belə düşünürdülər ki, Hitlerin qoşunları Qafqazı fəth edib Orta Şərqə doğru böyük hücuma keçə bilərlər. Onlar hesab edirdi ki, almanlar və italyanlar öz tankları ilə Afrikadan hərəkət edib Nil çayı və Süveyş kanalı vasitəsilə Fələstinə, Dodekanes və Kritdən Suriyaya, Şərq cəbhəsində isə Qafqaz vasitəsilə İrana çıxmağa qadirdilər. Moskvanın təkidlə ikinci cəbhənin açılması haqqındakı tələbləri ingilislərin təşvişini daha da artırırdı»[25].

Hadisələrin belə bir ssenari ilə cərəyan etməsi perspektivi şübhəsiz ki, həm SSRİ, həm də İngiltərə üçün böyük bir fəlakətə çevriləcəkdi. Çünki Bakının və Yaxın Şərqin zəngin neft rayonlarına sahib olan Hitlerin qarşısını almaq müşkül bir problemə çevriləcəkdi. Odur ki, Moskvada Stalinlə görüşərkən Çörçill bu məsələyə də xüsusi diqqət yetirərək yaranmış hərbi vəziyyətlə yaxından maraqlanmış və Stalindən ətraflı məlumat almağa səy göstərmişdi. Görüş vaxtı Stalin Çörçillin nəzərinə çatdırmışdı: «Qafqazı 25 sovet diviziyası müdafiə edir, almanlar dağ silsiləsini keçə bilməyəcəklər, Bakıya və Batumiyə doğru yol açmağı bacarmayacaqlar. İki aydan sonra isə qar yağıb dağları keçilməz edəcəkdir...»[26]. Daha sonra Stalin əlavə edib demişdi ki, «...onun belə inamlı olmasına həmçinin başqa əsaslı arqumentlər də var, məsələn, geniş əks-hücum planı»[27].

Lakin Qafqazdakı vəziyyətin son dərəcə katastrofik bir vaxtında Stalinin bu, əsassız nikbinliyi, görünür Çörçillin bədbinliyini azalda bilməmişdi. Ruzveltə və Ettliyə yazdığı məktubda o, öz fikrini belə açıqlayırdı: «Mən şəxsən hesab edirəm ki, onların davam gətirib-gətirməməsi şansı bərabərdir, lakin imperiya baş qərargahının rəisi buna şübhə edir»[28].

Stalinin nikbinliyi fonunda ABŞ prezidenti Ruzvelt daha bədbin görünürdü. Misirdə və Qafqazda yaranmış vəziyyət onu da çox narahat edirdi. Onun şəxsi nümayəndəsi Uendel Uilki Vaşinqtondan Moskvaya yola düşərkən prezident ona belə demişdi: «...çox güman ki, sizin Qahirəyə gəlişiniz onun süqutu ilə bir vaxta təsadüf etsin, Rusiyaya gəlişiniz isə onun tamamilə məhv olması ilə eyni vaxtda baş versin»[29]. Ruzveltin dediyi bu sözlər hər iki cəbhədə yaranmış vəziyyətin son dərəcə təhlükəli olmasına dəlalət edirdi.



Hitler isə öz növbəsində «avqustda ruslara sarsıdıcı zərbə vurduğunu» söyləyirdi[30]. Tippelskirx yazır: «...iyul ayında əldə edilən çevik qələbələrin təəssüratı ilə o, əvvəlkitək ikiqat məqsəd güdürdü: Stalinqradı və Qafqazı tutmaq»[31]. Tippelskirx daha sonra Hitlerin gələcək niyyətini belə açıqlayır: «Avqustun sonunda Hitlerin qərargahında belə sözlər eşitmək olardı ki, Sovet İttifaqı üzərində qələbə onun üçün ikinci dərəcəli məsələdir və artıq o, buna demək olar ki, heç diqqət də yetirmir və onu əsas etibarilə Orta Şərqin ələ keçirilməsi kimi böyük planlar daha çox maraqlandırır»[32]. Bu onu göstərir ki, Hitler Qafqazda döyüşən «A» ordular qrupu ilə Rommelin Misirdə döyüşən və artıq ciddi qələbələr əldə edən «Afrika korpusu» ilə qovuşma perspektivini heç də idealizə etmək fikrində deyildir. O bunun tam reallığına inanır və əlindən gələn hər şeyi etməyə çalışırdı. Onun bu inamı Qafqazda qazandığı ciddi qələbələrə də söykənirdi. Doğrudan da böyük ərzaq rayonu olan Kuban da daxil olmaqla Quzey Qafqazın geniş bir ərazisi artıq almanların əlində idi. Öz əhəmiyyətinə görə Qafqazın üçüncü neft mərkəzi olan Maykop tutulmuş, alman tankları isə öz yürüşlərini Qroznı və Bakı istiqamətində davam etdirmək əzmində idilər. Alman komandanlığı Qafqazdakı silahlı qüvvələrin bir hissəsini ehtiyatda saxlamaqla məqam düşən kimi Orta Şərqə hücum etməyi və «Rommelin Misirdəki ordusu ilə birləşməyi planlaşdırırdı»[33]. Bundan təşvişə düşən Çörçill Qafqazın müdafiəsi üçün ingilis-amerikan hərbi-hava qüvvələrindən istifadə etməyi Stalinə təklif də etmişdi. Saysız-hesabsız problemlər içində çırpınan Stalin bu təklifə razılıq verməsə də, rədd etmək iqtidarında da deyildi.

Almanlar isə hücumlarını bütün cəbhə boyu genişləndirərək avqustun 20-də Kubanın mərkəzi Krasnodarı tutdular, ayın 25-də isə Mozdoka çatdılar.

Qafqazın Bakıdan sonra ikinci neft mərkəzi sayılan Qroznı işğal təhlükəsi ilə üzləşdi. Tezliklə almanlar qərb tərəfdə yeni bir qələbə əldə etdilər. Sentyabrın 10-da Qara dənizin mühüm hərbi-dəniz bazası olan Novorossiysk ağır döyüşlərdən sonra süqut etdi. Lakin gözlənilmədən almanların Qafqaz kampaniyası tədricələ söngidi. Müxtəlif problemlərlə yanaşı Almaniya ilk dəfə olaraq ciddi şəkildə yeni bir problemlə üzləşdi. Bu, yanacaq problemi idi.

# IX FƏSİL

# YANACAQ QITLIĞI

General Kurt Tippelskirx yazırdı: «Avqustun 9-da Qroznı üzərinə yeriyən motorlaşdırılmış birləşmələr Pyatiqorska çatdıqdan sonra orada bir neçə həftə yanacaq gözləməli oldular. Ruslar isə elə həmin vaxtda yeni qüvvələr çəkib gətirir, aviasiyanı gücləndirirdilər. Avqustun sonunda hücumlar yenidən bərpa edildi. Lakin avqustun 25-də Mozdoku aldıqdan sonra alman qoşunları öz hərəkətlərini davam etdirə bilmədilər. Yanacağın gətirilməsindəki çətinliklər Qafqaz aşırımlarını qəfildən tutmağa mane oldu. Çünki ruslar onların müdafiəsini artıq əvvəlcədən gücləndirə bilmişdilər»[1].

İsveç jurnalisti Arvid Fredborq isə belə yazırdı: «Mənə həmçinin xəbər verdilər ki, Qafqazdakı müvəqqəti sakitlik... yanacağın çatışmazlığı ilə bağlıdır. Yanacaq nəqliyyatları Stalinqrada doğru yönəldilməli idi»[2]. Döyüşlərin heç kimin gözləmədiyi halda sənginməsini hərbi-tarixçi Fuller belə izah edirdi: «Yolların keçilməz olması, rusların müqavimət göstərməsi və yanacaq çatışmazlığı Qafqaz kampaniyasının qurtarmasına səbəb oldu»[3].

Yanacaq çatışmazlığının canlı şahidi olmuş feldmarşal fon Kleyst kapitan Liddel Qart ilə söhbəti zamanı belə demişdi: «Biz yanacağı işlətdik və dayandıq. Onun gətirilməsi kifayət etmirdi»[4]. Belə bir sual meydana çıxır: yay kampaniyasında başlamış uğurlu əməliyyatları zəfərlə başa çatdırmaq mümkün idimi? Əməliyyatların bilavasitə iştirakçısı olan fon Kleyst bu suala belə cavab vermişdi: «Biz məqsədimizə hələ də nail ola bilərdik, əgər Stalinqrada olan hücuma kömək etmək məqsədilə mənim qoşunlarım hissə-hissə zəiflədilməsəydi. Hitler ikinci dərəcəli məqsədə nail olmağa çalışarkən, əsas məqsədi diqqətdən qaçırtdı. Nəticədə heç birinə nail olmadı»[5]. Halbuki Fullerin də qeyd etdiyi kimi, «Qafqazın tutulması alman planının əsas məqsədi idi»[6].

Fon Kleystin söylədiyi fikirlər həqiqətdən heç də uzaq deyildi. Sonrakı hadisələr sübut etdi ki, yanacaq problemi təkcə Qafqazda yox,

həmçinin Stalinqrad döyüşlərində də bütün kəskinliyi ilə özünü göstərdi. Sovet silahlı qüvvələrinin duru yanacaqla tam təmin olunması fonunda almanların belə bir mühüm problemlə üzləşməsi və ən taleyüklü məqamlarda onu həll etmək imkanından məhrum olması, strateji xarakter daşıyan bu əməliyyatların son nəticəsinə həlledici təsir göstərməyə bilməzdi.

Lakin sovet tarixçiləri və hərbi memuar müəllifləri qeyri-obyektivliyə üstünlük verərək, bu mühüm məsələnin düzgün işıqlandırılmasından bir qayda olaraq yan keçməyə çalışırdılar. Və hətta obyektiv söylənmiş fikirləri, mülahizələri, təhlilləri tam inkar etməkdən belə çəkinmirdilər. Görünür qəbul edilmiş ideoloji ehkamları pozmaq, onları şübhə altına almaq daha çətin idi. Rus hərbi tarixçisi Deborin belə yazırdı: «Qafqaz istiqamətindəki uğursuzluqların əsas səbəbinin, Almaniyanın düçar olduğu neft qıtlığında olmasını sübut etməyə çalışan əzilmiş alman generallarının uydurmaları qətiyyən həqiqətdən uzaqdır»[7].

Zira, sovet tarix ədəbiyyatında belə *mülahizələrin* üstün yer tutmasına baxmayaraq, obyektiv faktlar almanların duru yanacaq sarıdan böyük çətinliklərlə üzləşdiyinə dəlalət edir. Yanacağın nəqli sahəsindəki problemlər bu çətinliyi daha da artırırdı. General Hans Dörr bu barədə belə yazırdı: «Alman orduları Don çayına çatdıqdan sonra onları Breslavl rayonundakı alman sərhəddindən 2500 km-lik bir məsafə ayırırdı. Rusiyada bərk örtüklü *(asfalt yol nəzərdə tutulur – müəllif)* yolların olmaması ucbatından təchizat əsas etibarilə dəmir yolları vasitəsilə həyata keçirilirdi»[8].

Quru qoşunları baş komandanlığının əməliyyat idarəsinin rəisi olmuş general Hoyzinger 1950-ci il iyulun 9-da general Dörrə göndərdiyi məktubunda belə bir məlumat açıqlayırdı: «Həmin vaxt belə bir məsələ müzakirə edilirdi ki, 11-ci ordudan Donda istifadə edək, yoxsa Leninqrad altında? Qərara alındı ki, onu Leninqrad rayonuna göndərək, çünki ordunu dəmir yollarında yaranmış katastrofik vəziyyətlə əlaqədar olaraq Dona tərəf göndərə bilməzdik»[9]. Daha sonra Hoyzinger belə bir məlumat verirdi: «...SS-in «Leybştandarte» diviziyası qərbə ilk növbədə ona görə göndərildi ki, yanacaq çatışmazlığına görə Şərq cəbhəsində fəaliyyət göstərə bilmirdi. ...Yanacaq hər zaman və hər yerdə çatışmırdı»[10].

Motorlaşdırılmış zirehli texnikanın döyüşlərin müqəddəratında həlledici rolunu Dörr belə izah edirdi: «Tank diviziyasının qələbəni bu gün cəbhənin bir sahəsində, bir neçə gün keçəndən sonra digər sahəsində təmin edə bilmək bacarığını alman əsgərləri dəfələrlə göstəriblər. Lakin yanacaq olan dəmiryol qatarı qüvvələrin əsas zərbə istiqamətində cəmləşdirilməsinə yalnız bircə dəfə kömək edə bilər, sonra o boşalır və artıq *onu sıxsan da heç nə çıxara bilməzsən*»[11]. Müharibə səhnəsində böyük miqdarda hərbi texnikanın iştirakı yanacaq qatarlarının epizodik deyil, mütəmadi olmasını tələb edirdi. Fəqət dəmir yollarının acınacaqlı vəziyyətdə olması bunu qeyri-mümkün edirdi. Odur ki, əsasən avtomobil *daşımalarından* istifadə olunurdu ki, onun da səmərəsi xeyli aşağı idi.



Lakin «Hitler belə dəlillərə qulaq asmırdı... Nəzərlərini Qafqazın neft rayonlarında mövcud olan nəhəng ehtiyatlara dikmişdi. O, belə bir dəlil ilə heç cür razılaşa bilmirdi ki, dağılmış qurğuları bərpa edib *yenidən işə salmaqdan ötrü çox aylar gəlib keçəcək*»[12].

Alman qoşunlarının yanacaq təchizatı sahəsindəki problemlərini təhlil edərkən böyük maraq doğuran belə bir mülahizə də diqqəti cəlb etməyə bilməz. Həmin mülahizəyə görə belə bir nəticəyə gəlmək olur: «Alman komandanlığının planlarının pozulması üçün təkcə yanacaq daşımalarının qeyri-müntəzəm olması kifayət edərdi»[13]. Yəni başqa amillərin əhəmiyyəti son dərəcə aşağı idi. Çünki alman ordusu bütün digər komponentlərə görə sovet silahlı qüvvələrini hər cəhətdən əsaslı surətdə üstələyirdi. *Texniki təchizatına və döyüş qabiliyyətinə görə quruda alman* ordusunun tayı-bərabəri yox idi.

Almanların neft mənbələrinə doğru hərəkətini saxlamaq üçün sovet rəhbərliyi hər bir vasitədən, eləcə də kommunist təbliğatının özünəməxsus xüsusiyyətlərindən də istifadə etməyə cəhd göstərirdi. Məsələn, «Герои Родины» qəzetinin 1942-ci il 14 sentyabr tarixli sayında alaylardan birinin döyüşçülərinin Qafqazı müdafiə edən bütün əsgərlərə və komandirlərə ünvanlanmış bir məktubu dərc olunmuşdu. Orada deyilirdi: «Yağı düşmən sovet incisi olan Qafqaza çatıbdır. Düşmən nəinki özünün hərb maşınını, habelə özünün vassal müttəfiqlərinin də qüvvə və ehtiyatlarını bura gətirib. Faşist quldurları Qroznı və Bakı neftini ələ keçirməklə özlərinin tükənməkdə olan yanacaq ehtiyatlarını doldurmağa, öz quldur planlarını həyata keçirməyə çalışırlar. Düşmən tələsir, özünün *bütün qüvvəsini gərginləşdirib qışa qədər Qafqazla qurtarmaq istəyir*.

Hitlerçi əclaflar Sovet Qafqazını heç vaxt görə bilməyəcəklər. Biz ölərik, ancaq bir addım belə geri çəkilmərik!»[14].

Döyüşçülər arasında siyasi və ideoloji iş aparmaq, Qafqazın siyasi, iqtisadi və strateji əhəmiyyətini onlara başa salmaq məqsədilə hərbi hissələrə, birləşmələrə 6 min təşviqatçı və təbliğatçı göndərilmişdi. Bununla yanaşı, bütün hərbi hissələrdə xüsusi xidmət orqanının çoxsaylı əməkdaşı böyük bir canfəşanlıqla geniş «fəaliyyət» göstərirdi.

Almanlar Quzey Qafqazda böyük ərazi tutmalarına baxmayaraq, əsas məqsədlərinə hələ də nail ola bilməmişdilər. Lakin buna baxmayaraq, ictimai fikri aldatmaq məqsədilə Göbbels nikbin əhval-ruhiyyəli bir bəyanat verdi. Orada deyilirdi: «Almaniya öz iqtisadi vəziyyətini əsasən Qafqazın hesabına xeyli yaxşılaşdırıb. İndi biz Qafqazdan 30 faiz neft əldə edirik»[15]. Göbbelsin bu bəyanatını «təbliğat kələyi»[16] adlandıran marşal Qreçko yazırdı: «Almaniya bu qədər nefti hardan götürə bilərdi? Düşmən Qroznıya və Bakıya çata bilməyib. Maykop və Malqobekin neft mədənləri isə dağıdılıb. Qoşunların ardınca alman neftçıxarma mütəxəssisləri Berlinə məlumat göndərmişdilər ki, neft hasilatını bərpa etmək üçün hələ çox vaxt tələb olunacaqdır»[17].

Neft mədənlərinin tələf edilməsi perspektivi alman Ali Baş Komandanlığının gələcək planlarını alt-üst edə bilərdi. Odur ki, Hitler xəbərdarlıq edib deyirdi ki, Qroznı və Bakının havadan bombardmanına yalnız müstəsna hallarda icazə verilə bilər. Bu məsələdə Hitleri Vermaxtın yüksək rütbəli generalları da birmənalı surətdə müdafiə edirdilər. Onlar burada cəmləşmiş çoxsaylı tank və zirehli texnikaya tələb olunan böyük miqdarda yanacağı min kilometrlərlə uzaqda yerləşən Rumıniyadan daşımaqdansa, onu daha yaxın yerdən – Bakıdan və Qroznıdan götürməyi həm iqtisadi, həm də strateji nöqteyi-nəzərdən misilsiz dərəcədə əlverişli sayırdılar.

Neft SSRİ-yə də hava-su kimi lazım idi. Yay kampaniyasının başlanması ilə əlaqədar onun daşınması böyük problemə çevrilməkdə idi. Ölkənin mərkəzi ilə Güney Qafqazı birləşdirən kommunikasiya xətlərinin etibarlı olmaması bu problemi daha da dərinləşdirə bilərdi. Lakin hələ yay kampaniyası başlamazdan əvvəl Bakıda yerləşən Xəzər gəmiçiliyinin tanker donanması onun xeyli dərəcədə həllinə nail olmuşdu. Volqa – Xəzər dəniz yolu, özünün gəmiləri və tanker donanması ilə birlikdə ən əsas yük və neftdaşıma magistralı idi. BBC radiostansiyasının və «Sandi tayms» qəzetinin SSRİ-dəki müxbiri Aleksandr Vert bu barədə belə yazırdı: «Qafqaz nefti bütünlüklə Volqa ilə daşınırdı. 1942-ci ilin baharında Volqada buzlar əridikdən sonra Moskva və Rusiyanın mərkəzi rayonlarına külli miqdarda Qafqaz nefti gətirildi ki, onun da ümumi həcmi demək olar ki, bir ilin ehtiyatına bərabər olardı. Lakin yay kampaniyasının başlanması ilə Volqa yolunun alman təyyarələri tərəfindən bombardman edilməsi, bu yolla da yükdaşımaları son dərəcə təhlükəli edirdi»[18]. Beləliklə, yay kampaniyası başlanana qədər ölkənin mərkəzi rayonlarına daşınmış neft sovet silahlı qüvvələrini xeyli müddət duru yana-



caqla təchiz etmək imkanı yaratdı. Doğrudur, sonralar Stalinqrad istiqamətindəki əməliyyatların daha da intensivləşməsi, Xəzər dənizinin şimal hissəsinin almanların nəzarəti altında olması, habelə Volqada yaranmış gərgin vəziyyət bu yolu da etibarsız etdi. Nəticədə neft daşınması üçün əvvəlkindən də ciddi və mürəkkəb yeni bir problem yarandı. Elə bir problem ki, nəinki neft daşımalarına, həmçinin Bakının neft sənayesi üçün də ağlasığmaz təhlükəyə çevrilə bilərdi. Lakin Azərbaycan neftçiləri və dənizçiləri böyük məhrumiyyətlər hesabına olsa da bu mühüm problemi həll etməyə müvəffəq oldular. Stalinqrad cəbhəsində baş verən hadisələr göstərdi ki, bu son dərəcə həyati əhəmiyyət kəsb edirdi. Özü də hər iki tərəf üçün.

Qafqazdakı əməliyyatların səngiməsi və böyük itkilərə baxmayaraq neft mənbələrinin hələ də ələ keçirilməməsi Hitleri hədsiz dərəcədə hiddətləndirib, onu təcili tədbirlərə əl atmağa məcbur etdi. Sentyabrın 9-da Hitler Quzey Qafqazdakı «A» ordular qrupunun komandanı general-feldmarşal Listi tutduğu vəzifədən azad etdi və komandanlığı müvəqqəti olaraq öz üzərinə götürdü. Sentyabrın 24-də general Halder qərargah rəisi vəzifəsindən kənarlaşdırıldı. Onu general Kurt Tseytsler əvəz etdi. Bu, yeganə dəyişiklik deyildi. Bununla da Hitler böyük uğurla başlanan və lap yaxın vaxtda qarşıya qoyulmuş əsas məqsədə – neft rayonlarına yönəldilmiş bir əməliyyatın səngiməsində məhz kimlərin günahkar olmasını göstərmək istəyirdi. Tezliklə Hitler üzərinə götürdüyü yeni vəzifənin icrasına başladı. Beləliklə, o həm Almaniyanın silahlı qüvvələrinin baş komandanı, həm quru qoşunlarının komandanı və nəhayət, həm də «A» ordular qrupunun komandanı oldu. Özünün Vinnitsa ətrafında yerləşən və «Vervolf» adlandırılan qərargahında olmasına baxmayaraq, Hitler «A» ordular qrupunun fəaliyyətinə, qrupun Stalino (indiki Donetsk) şəhərində məskunlaşmış qərargahı vasitəsilə rəhbərlik edirdi. Lakin bu tədbir də əhəmiyyətli nəticə vermədi. Yay-payız aylarında böyük ərazilərin tutulmasına baxmayaraq, əsas məqsədə çatmaq yenə də mümkün olmadı. Nə Bakı ələ keçirildi, nə də İran-İraq aşırımları.

General Kurt Tseytsler həmin dövr barəsində yazırdı: «Əməliyyatın uğursuzluğu List və Halderin adına yazıldı. Silahlı qüvvələrə operativ rəhbərlik qərargahının rəisi general Yodl Hitlerin ən yaxın hərbi məsləhətçisi idi. Hitler onu özünün şəxsi nümayəndəsi kimi Qafqaza göndərdi. O, heç olmasa Qafqaz dağlarını keçmək məqsədilə komandirləri və qoşunları hücum əməliyyatlarını yenidən davam etdirməyə məcbur etməli

idi. Lakin Yodl ora gəldikdən sonra tezliklə əmin oldu ki, qoşunlar tamamilə yorulublar və yeni hücum barəsində söhbət belə gedə bilməz»[19].

Yanacaq çatışmazlığı, zirehli və digər motorlaşdırılmış texnikanın məcburi olaraq vaxtaşırı hərəkətdən qalması və bunların nəticəsində nəzərdə tutulmayan gözləmələr şəxsi heyətin yorğunluğuna, hərbi hissələrdə psixoloji durumun aşağı düşməsinə səbəb olmuşdu. Lakin bütün bunlar Hitleri az maraqlandırırdı. O öz silahlı qüvvələrindən yalnız bir şeyi, tez bir zamanda qarşıya qoyulmuş əsas məqsədə – neft mənbələrinə çatmağı tələb edirdi. Odur ki, heç bir nəticə əldə etmədən geri qayıdan general Yodl Hitlerin sərt rəftarı ilə üzləşməli oldu. Tseytsler bunu belə təsvir edirdi: «Qərargaha qayıdan Yodl Qafqazda yaranmış vəziyyət haqqında Hitlerə məlumat verdi. Bu, Hitlerin xoşuna gəlmədi və o çığırdı: «Sizə komandirləri və qoşunları hücuma məcbur etmək əmri verilmişdi, «bu mümkün deyil» demək yox!»[20]

Mədənləri dağıdılmış, neft buruqları və digər texnoloji qurğuları partladılmış, ambarlarında zərrə qədər də nefti qalmayan Maykop almanların ümidini doğrultmadı. Bu neft rayonunun yaxın vaxtlarda yenidən neft verə biləcəyi ehtimalı sıfıra bərabər idi. Şübhəsiz ki, sovet komandanlığı almanların, növbəti mərhələ kimi, Qroznıya və daha sonra Bakıya üz tutacaqlarına əmin idi. Odur ki, Qroznı, Mahaçqala, Dərbənd ətrafında avqust, sentyabr ayları ərzində tank əleyhinə xəndəklərin, səngərlərin, istehkamların tikintisi üçün 90 min nəfərdən artıq mülki əhali səfərbər edildi. Lakin almanların hücumu Qroznıdan 100 km qərbdə, Mozdok yaxınlığında dayandırılmışdı. Güney Qafqaz (Zaqafqaziya) cəbhəsinin komandanı general Tülenev sonralar yazırdı: «Əgər almanlar bir neçə istiqamətdə hücum etməkdənsə, əsas qüvvələrini şərqdə cəmləşdirsəydilər, onlar Qroznıya və hətta Bakıya belə yol aça bilərdilər»[21].

İyul və avqust aylarında əldə edilmiş qələbədən ruhlanan Almaniya hökuməti Qafqazla bağlı planlarını daha da dəqiqləşdirir, gələcəkdə onun inzibati və iqtisadi cəhətdən idarə olunması prinsiplərini müəyyənləşdirirdi. Qafqazda məskunlaşmış çoxsaylı etnik xalqların, ölkələrin əvvəlcə Rusiya imperatorluğu, sonra isə kommunist Rusiyası tərəfindən zor gücünə işğal olunmasını əldə əsas tutaraq, Üçüncü reyxin hakimiyyət dairələri onlardan SSRİ-yə qarşı istifadə etməyin mümkünlüyünü istisna etmir və bu sahədə hərtərəfli iş aparırdılar. Əvvəla, işğal edilmiş Şərq vilayətləri nazirliyinin rəhbəri Alfred Rozenberq tərəfindən Qafqaza reyxskomissar təyin edilmiş Şikedants hələ 1942-ci il avqustun 28-də hazırladığı «K»-nın *(yəni «Qafqaz» – müəllif)* təşkilat qərargahının qısa



«hesabatı»nda məlumat verirdi ki, beş iri idarə yaratmaq nəzərdə tutulub: Gürcüstan, Azərbaycan, Dağlıq Qafqaz, Kuban, Terek[22]. Bundan xeyli əvvəl yaradılmış «Qafqaz» təşkilat qərargahı həbs düşərgələrində Qafqaz xalqlarına mənsub olan hərbi əsirlərlə iş aparmaq üçün geniş fəaliyyətə başladı. Bu məqsədlə yaradılmış «Dinsştille» adlı xüsusi orqan öz işini Şərq nazirliyinin idarələri ilə sıx əlaqədə qururdu[23].

Türkiyəni müharibəyə cəlb etmək məqsədilə alman komandanlığı Qafqazın müsəlman əhalisi ilə yaxın münasibətlər qurmağa çalışır, döyüş əməliyyatlarında istifadə etmək üçün tərkibi yalnız müsəlmanlardan ibarət olan hərbi legioner birləşmələr yaratmağı planlaşdırırdılar[24]. Həm də bundan istifadə edərək Hitler «bütün Orta Şərqi Almaniyanın orbitinə salmaq istəyirdi»[25].

Lakin bununla yanaşı başqa bir plan da vardı. Onun müəllifi Alfred Rozenberq «Berlin – Tbilisi oxu» yaratmağı məsləhət görürdü. Lakin Hitler onun bu nəzəriyyəsinə şübhə ilə yanaşırdı. 1942-ci ilin dekabrında o, bu məsələ ilə əlaqədar öz fikrini belə ifadə etmişdi: «Mən bilmirəm gürcülər özlərini necə aparacaqlar. Onlar türk xalqlarına daxil deyil. Mən yalnız müsəlmanları etibarlı hesab edirəm... Mən belə təmiz Qafqaz batalyonlarının yaradılmasını olduqca təhlükəli iş sayıram, lakin təmiz müsəlman hissələrinin yaradılmasında təhlükəli heç bir şey görmürəm... Rozenberqin və hərbçilərin verdiyi məlumatlara baxmayaraq, mən həmçinin ermənilərə də etibar etmirəm»[26]. Ola bilsin ki, Hitler Qafqazın müsəlman xalqlarına həm də ona görə etibar edirdi ki, bölgədə olan iri neft mənbələri onların məskunlaşdığı ərazilərdə yerləşirdi. Yerli xalqlarla əməkdaşlıq etməklə almanlar gələcəkdə neft mədənlərinə qarşı törədilə biləcək hər hansı bir aksiyanın qarşısını alar, onların təhlükəsizliyini daha səmərəli qoruya bilərdi.

İngilis publisisti Aleksandr Vert yazırdı ki, belə bir əməkdaşlığın doğrudan da mövcud olub-olmamasını müəyyənləşdirmək praktiki olaraq heç kimə müyəssər olmamışdı[27]. Lakin buna baxmayaraq, sovet totalitarizminə xas olan bir əməliyyat vəhşiliklə həyata keçirildi. Almaniya hökumətinin Qafqazın müsəlman xalqları ilə əməkdaşlıq etmək niyyətini bəhanə edərək, bu niyyətdən heç bir xəbəri olmayan və təbii heç bir əməkdaşlıq da etməyən yüz minlərlə sadə zəhmətkeş müsəlman xalqlarını ailəlikcə: uşaqlar, qocalar, qadınlar və xəstələr də daxil olmaqla, SSRİ-nin ucqar vilayətlərinə, Sibirə, Qazaxıstana sürgün etdilər. Bir çoxları isə öz doğma yurdlarındaca qətlə yetirildi. Halbuki qətlə yetirilən, sürgün olunanların oğulları, qardaşları, ərləri sovet-alman cəbhəsində al-

man silahlı qüvvələrinə qarşı döyüşür, Sovet İttifaqını işğaldan və dağılmaqdan müdafiə edirdilər. Onların bir çoxu SSRİ-nin müxtəlif orden və medallarına, hətta Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. Görünür, neft amili burada da özünü göstərmişdi. Hər halda Krım və Quzey Qafqaz xalqlarının başına gətirilən müsibətlər müharibədən sonra Azərbaycan xalqının da başına gətirilməliydi. Lakin müəyyən səbəblər bunun qarşısını aldı.

Ancaq qonşuluqda yerləşən Kuban diyarında baş vermiş daha ciddi hadisələrə göz yumaraq, onlara sovet rejiminə xas qəddar cəza tədbirləri tətbiq edilmədi. Halbuki bolşeviklərin qatı düşmənləri olan və onlara qarşı uzun müddət qanlı mübarizələr aparmış ağqvardiyaçı kazak generalları Krasnov və Şkuro Kubana gələrək, yerli kazak əhalisini Sovet hakimiyyətinə qarşı mübarizəyə səsləmiş və özlərinə xeyli tərəfdarlar yığmağa müvəffəq olmuşdular. Buna baxmayaraq, çeçenlərə, inquşlara, balkarlara, qaraçaylara, Krım tatarlarına, Məshəti türklərinə və digər müsəlman xalqlarına qarşı törədilən repressiya ölkənin digər işğal bölgələrinə şamil edilmədi.

Yay kampaniyasının almanlar üçün uğurlu keçməsi kommunist partiyasının inhisarında olan sovet mətbuatına da ciddi təsir etmişdi. Müharibənin ilk dövrləri ilə müqayisədə, 1942-ci ilin yayında və payızında cəbhə bölgələrindən, döyüş əməliyyatları keçirilən yerlərdən verilən xəbərlər son dərəcə açıq idi. Cərəyan edən hadisələr barəsində alınan xəbərlər nə qədər həyəcanlı, qorxulu və ümidsiz olsa da, ictimaiyyətə nisbətən doğru-düzgün çatdırılırdı. Görünür yaranmış son dərəcə təhlükəli vəziyyətin əsl mahiyyətini, onun hansı sonluqla nəticələnə biləcəyini gizlətmək, ört-basdır etmək daha təhlükəli idi. İrili-xırdalı yüzlərlə şəhərin, minlərlə kəndin, milyon kvadrat kilometrlərlə ölçülən ən məhsuldar torpaqların itirilməsinə, iri hərbi-sənaye komplekslərinin darmadağın edilməsinə, ölkənin kommunikasiya xətlərinin sıradan çıxmasına, müharibənin elə ilk aylarındaca silahlı qüvvələrin böyük bir hissəsinin fiziki və texniki cəhətdən məhv edilməsinə, əsgərlərin kütləvi şəkildə əsir düşməsinə, böyük məhrumiyyətlər hesabına olsa da dözmək məcburiyyətində qalan SSRİ kimi totalitar və avtoritar bir dövlət Qafqazın neft rayonlarının əldən verilməsinə yol verə bilməzdi. Bakının itirilməsi Sovet İttifaqının tam süqutu demək olardı.

Hələ oktyabrın ortalarına qədər cəbhədən gələn xəbərlər, vəziyyətin son dərəcə ciddi və təhlükəli olduğunu sübut edirdi. Lakin ayın sonuna yaxın mətbuatda nikbinliyə doğru bir canlanma hiss olundu. O



zaman kommunist partiyasının orqanı olan «Pravda» qəzeti yazırdı: «Sovet döyüşçülərinin qəhrəman müdafiəsi almanları Stalinqrad ətrafında dayanmağa məcbur etdi. Bu o deməkdir ki, almanlar Stalinqrad uğrunda döyüşlərdə olduqca qiymətli vaxt itirdilər. Belə ki, bu il ərzində hücum etmək üçün bundan əlverişli imkan ola bilməzdi»[38].

Lakin təəssüflər olsun ki, bunun əsas səbəbkarlarından birinin Bakı nefti olması barədə qəzet susurdu. Fəqət əsas hadisələr hələ irəlidə idi. Almanlar Mozdokda, Bakıya gedən yolun üstündə dayandıqlarına baxmayaraq, təhlükə Stalinqraddan və Bakıdan hələ sovuşmamışdı. Noyabrın 2-də almanların qəflətən yeni bir hücumu böyük qələbə ilə nəticələndi. Onlar Nalçiki tutub, Vladiqafqaza doğru irəlilədilər və Güney Qafqazın qapısı sayılan Hərbi-Gürcüstan yolunun şimal kandarına çatdılar. Bununla da Bakı üzərində yeni ciddi təhlükə yarandı.

# X FƏSİL

# «VELVET» ƏMƏLİYYATI

«Edelveys» planına görə Bakı 1942-ci il sentyabrın 25-də alman silahlı qüvvələri tərəfindən işğal olunmalı idi. Bunun həyata keçirilməsi ilk növbədə «A» ordular qrupuna daxil olan 1-ci tank ordusunun komandanı general Kleystə tapşırılmışdı. Almanlar Bakının alınmasını o dərəcədə yəqin etmişdilər ki, hətta işğaldan sonrakı fəaliyyətlərini planlaşdırmağı da zəruri hesab edirdilər. Belə ki, Leypsiqdə nəşr olunmuş «Qafqaz üzrə məlumat-sorğu kitabçası»nın əlavəsində Qafqazın bütün rayonlarına aid ətraflı məlumatlar verilmişdi. Bakıya həsr edilmiş birinci bölmə «Bakı neft fontanları» adlanırdı.

Biz əvvəldə də qeyd etmişdik ki, Qafqazda yaranmış təhlükəli vəziyyət müttəfiqlərin, ilk növbədə Çörçillin narahatlığına səbəb olmuşdu.

Hələ 1942-ci ilin yayında Çörçill Qafqaza müttəfiqlərin birləşmiş silahlı qüvvələrinin yeridilməsini Stalinə təklif etmişdi. Çörçill təklif edirdi: «Sovet ordusu öz qüvvələrini Stalinqrad ətrafında cəmləşdirsin. Qafqazın müdafiəsi isə Britaniya qoşunlarına həvalə edilsin»[1].

Bu məqsədlə ABŞ və İngiltərə «Velvet» planı hazırlamış və əlverişli məqam yetişdikdə öz hərbi-hava qüvvələrini Güney Qafqaza yeritmək əzmində idilər. ABŞ prezidenti Ruzveltə göndərdiyi məktubda Çörçill əməliyyat planını izah edərək yazırdı ki, «bu hərbi-hava qüvvələri bilavasitə ingilis komandanlığı altında olan eyni növlü müttəfiq qüvvələrindən ibarət olacaq və lazım gəldikdə o, *(yəni birləşmiş qüvvələrin komandanı müəllif)* öz hökumətinə müraciət etmək hüququnu saxlayacaqdır»[2].

Qafqazın böyük bir hissəsinin almanların əlinə keçdiyi bir vaxtda, sentyabrın 7-də Stalin Çörçilldən məxfi bir məktub aldı. Orada deyilirdi: «4...ingilis-amerikan hərbi-hava qüvvələri kontingentinin qış mövsümündə cənub cinahında Sizin apardığınız əməliyyatlarda iştirakı barədə etdiyim bir sıra təkliflərə Prezidentin *(ABŞ prezidenti Ruzvelt nəzərdə tutulur - müəllif)* cavabını gözləyirəm. Prinsip etibarilə o razıdır, mən isə ondan ətraflı planlar gözləyirəm. Mən sonra Sizə teleqrafla məlumat verərəm. Bundan əlavə, ümid edirəm ki, aerodromlar və kommunikasiyalar barəsində planların tərtib olunması mən Moskvada olarkən Sizin

tövsiyyəniz əsasında. Sizin zabitlərin razılaşdığı qaydada aparıla bilər. Bu məqsədlə əvvəlcə biz qərargah zabitlərini Misirdən Moskvaya göndərmək istəyirik...»[3]

Beləliklə, hələ avqustun 12-də Moskvada olarkən Çörçill müttəfiqlərin hərbi-hava qüvvələrinin Qafqaza göndərilməsini Stalinə şəxsən özü təklif etmişdi. Lakin Stalin nədənsə Çörçillin bu təklifini cavabsız qoydu. Görünür o, «Velvet» əməliyyatını Qafqazın işğalı kimi qiymətləndirmişdi. Buna baxmayaraq ABŞ və İngiltərə hökumətləri Qafqaza silahlı qüvvələr yeritmək ümidini itirmir, bu sahədəki fəaliyyətlərini davam etdirirdilər. Sentyabrın 28-də Çörçill qərargah rəislərinin komitəsinə göndərdiyi məktubda bu məsələnin həll edildiyini söyləyir və «Velvet» əməliyyatını başlamaq üçün məqam gözlədiyini bildirirdi[4]. Amma Qafqaza yeridilməli olan 10-cu Britaniya ordusunun sonrakı taleyi onu narahat edirdi. Yuxarıda adı çəkilən məktubda bu məsələ ilə bağlı o yazırdı: «Əgər 1942-ci ildə almanların Rusiyaya hücumu tam uğursuzluqla nəticələnərsə, 10-cu ordu ilə nə etməli?»[5].

Stalindən öz təklifinə heç bir cavab almayan Çörçill sentyabrın 30-da ona yeni bir məktub göndərdi və müttəfiqlərin bu məsələ ilə tam ciddi məşğul olduqlarını bir daha Stalinin nəzərinə çatdırmağa çalışdı: «Mənə belə gəlir ki, amerikanların köməyi ilə bizim tərəfdən Xəzər və Qafqazın müharibə səhnəsindəki Sizin hərbi-hava qüvvələrini iyirmi Britaniya və Amerika eskadrilyaları ilə qüvvətləndirmək haqqında Sizə dediyim plan böyük əhəmiyyət kəsb etməyə başlayır. Sizinlə görüşdən sonra bu plan üzərindəki işi dayandırmırdım. Ümid edirəm ki, təxminən bir həftədən sonra Prezidentdən *(ABŞ prezidenti Ruzvelt nəzərdə tutulur - müəllif)* onun tam razılığını alacam və bundan sonra bizim birgə təklifimizi Sizə çatdıra bilərəm»[6].

«Velvet» planını realizə etmək yolunda Çörçillin məqsədyönlü fəaliyyətini ABŞ prezidenti Ruzvelt yüksək qiymətləndirirdi. Oktyabrın 5-də göndərdiyi cavab teleqramında o belə yazırdı: «Mən tamamilə inanıram ki, biz Qafqaz üçün hərbi-hava qüvvələri verilməsi barədə öz üzərimizə möhkəm öhdəlik götürməliyik və bu əməliyyat heç bir şeydən asılı olmamalıdır»[7]. Bu, həm də onu sübut edir ki, Qafqaza silahlı qüvvələr yeritmək ideyası təkcə Britaniyanı yox, həmçinin ABŞ-ı da eyni dərəcədə maraqlandırırdı.

«Velvet» əməliyyatını təhlil edərkən, mühüm bir cəhət istər-istəməz diqqəti daha çox cəlb edir. Rəsmi sənədlərdə, gizli göndərişlərdə bir qayda olaraq «Cənub cinahı», «Cənub cəbhəsi», «Qafqaz» ifadələri işlədilməsinə baxmayaraq, necə deyərlər, ayının min oyununun bir armudun başında olduğu kimi, ABŞ və Britaniyanın hazırladıqları «Velvet» əməliyyatı da əsas etibarilə Bakı neft rayonuna doğru ünvanlanmışdı. Çünki



Maykop artıq almanların əlində idi. Qroznı mədənləri isə tutulmasa da hər halda sıradan çıxarılmışdı. Qalırdı bircə Bakı. Odur ki, müharibənin lap əvvəlindən Bakını daim diqqət mərkəzində saxlayan Çörçill, müharibənin hazırki mərhələsində, almanların Güney Qafqazın qapıları qarşısında durduqları bir vaxtda fövqəladə əhəmiyyət kəsb edən Bakı amilinə etinasız yanaşa bilməzdi. Stalinə göndərdiyi 30 sentyabr tarixli teleqramın birinci hissəsində Çörçill öz təşvişini təcili olaraq Sovet İttifaqı başçısına da çatdırmağa çalışmışdı. Həmin teleqramda deyilirdi: «...Almanlar Xəzər dənizində hərbi-dəniz əməliyyatlarını həyata keçirməli olan admiralı artıq təyin etmişlər. Onlar Mahaçqalanı özlərinin hərbi-dəniz bazasına çevirmək istəyirlər. Yollar açılan kimi, tərkibində İtaliyanın sualtı qayıqları və torpedo katerləri, tral gəmiləri olan 20-yə yaxın gəmi dəmiryolu vasitəsilə Mariupoldan Xəzərə gətirilməlidir. Azov dənizinin donmasını nəzərə alaraq, sualtı qayıqlar dəmiryol xəttinin tikintisi başa çatana qədər qatarlara yüklənəcəkdir»[8].

Lakin bu, sadəcə xəbərdarlıq məktubu deyildi, həm də «Velvet» əməliyyatının labüdlüyünü konkret faktlarla sübut etmək cəhdi idi.

Buna baxmayaraq Stalin Çörçillin bu təklifinə heç bir münasibət bildirmədi.

Ümumiyyətlə, həmin dövrdə İngiltərə – SSRİ münasibətlərində müəyyən bir soyuqluq özünü göstərməyə başlamışdı. Çox güman ki, bu, ikinci cəbhənin açılması ilə bağlı idi. Çünki hələ Moskva görüşündə Çörçill bu ideyanın hazırki şəraitdə qeyri-mümkünlüyünü nəzərə alaraq, rədd etmişdi. Hər halda Aleksandr Vert o dövrü şərh edərkən belə yazırdı: «Oktyabrda sovet mətbuatının apardığı anti-ingilis kampaniyası bir yana dursün, fəqət Çörçill ilə Stalin arasındakı yazışma heç də ürəkaçan deyildi»[9].

Lakin münasibətlərin belə olmasına baxmayaraq, ABŞ prezidenti Ruzvelt məsələyə açıq müdaxilə etməyi qərara aldı və oktyabrın 9-da Stalinə Çörçillin fikri ilə həmahəng bir teleqram göndərdi. Orada deyilirdi: «Mən baş nazirin *(Çörçill nəzərdə tutulur – müəllif)* Sizin adınıza göndərdiyi məktubun surətini aldım. Sizin strateji komandanlığınız altında Qafqazda fəaliyyət göstərəcək hərbi-hava qüvvələrini tezliklə Sizin sərəncamınıza vermək üçün mümkün qədər əlimizdən gələni edəcəyik»[10].

Ruzveltin teleqramından belə aydın olurdu ki, müttəfiqlər Qafqaza silahlı qüvvələr yeridilməsi planını artıq həll olunmuş hesab edirlər. Çünki həmin gün Stalin Çörçilldən bir teleqram aldı. Ruzveltin teleqramı ilə son dərəcə həmahəng səslənən bu olduqca məxfi göndərişdə deyilirdi: «...Prezident və mən arzu edirik ki, ingilis-amerikan qüvvələri tezliklə Sizin cənub cinahına *(Güney Qafqaz nəzərdə tutulurdu – müəllif)*

göndərilsinlər və Sovet Ali Komandanlığının strateji nəzarəti altında fəaliyyət göstərsinlər. Bu qüvvələrin heyəti belədir:

Britaniya – 9 qırıcı eskadrilya, 5 bombardmançı eskadrilya. Birləşmiş Ştatlar – 1 ağır bombardmançılar qrupu; 1 nəqliyyat qrupu. Biz yeni ilin əvvəlində döyüşlərə hazır olmaları üçün bu qüvvələrin formalaşması və yerləşdirilməsi barədə sərəncam vermişik»[11].

Beləliklə, Çörçill daha dərinə gedərək, Qafqaza yeridilməli olan hərbi-hava qüvvələrinin miqdarını da müəyyənləşdirib Stalinin nəzərinə çatdırmış və bununla da onu demək olar ki, fakt qarşısında qoymaq istəmişdi. Bunu Ruzveltin Stalinə göndərdiyi teleqram da bir növ təsdiq edir. Oktyabrın 12-də göndərilmiş bu teleqramda deyilirdi: «...Bizim ağır bombardmançı təyyarə dəstəsinə Sizin cənub cəbhəsindəki əməliyyatlarda iştirak etmək üçün ləngimədən hazırlaşmaq barədə xüsusi göstəriş verilib. Bu tədbirin həyata keçirilməsi, digər hər hansı bir əməliyyatdan və ya vəzifədən asılı olmayacaq. Bu təyyarələr və xeyli miqdarda nəqliyyat vasitələri yaxın vaxtda Qafqaza göndəriləcək»[12].

Maraqlı cəhət burasıdır ki, Stalin bu müraciətlərə nə cavab verir, nə də rədd edirdi. Yazışmalarda qarşı tərəfin diqqətini başqa problemlərə yönəltməyə çalışırdı. Qarşı tərəfin bu məsələ ilə fəallığı fonunda Stalinin etinasızlığı və daha dəqiq desək, laqeydliyi ingilis-amerikan-sovet münasibətlərində qəribə uyğunsuzluq yaradırdı. Görünür, cənub cinahında hərbi vəziyyətin nisbətən sabitləşməsindən istifadə edərək, Stalin avqust ayında Çörçill ilə görüşü zamanı Qafqaza ingilis-amerikan silahlı qüvvələrinin yeridilməsi barədə əldə edilmiş razılaşmadan birtərəfli şəkildə boyun qaçırmağa çalışırdı. Ümumiyyətlə, Qafqaza qoşun yeridilməsi haqqındakı razılaşmanın Sovet mətbuatında və tarix ədəbiyyatında, demək olar ki, əsaslı şəkildə təhlil və tədqiq edilməməsi (Molotov – Ribbentrop paktı kimi), belə bir fikir oyadır ki, onun əsl mahiyyəti geniş sovet ictimaiyyətindən mümkün qədər gizli saxlanılırdı. Görünür, yay kampaniyasının başlandığı qısa vaxt ərzində SSRİ-nin düşdüyü katastrofik vəziyyət – Krımın itirilməsi, Qafqaz istiqamətində sürətli hücum, almanların Don və Volqaya doğru hərəkəti, Çörçill və Ruzvelt kimi, Stalini də böyük təşvişə salmış, Qafqaza müttəfiq qoşunlarının yeridilməsinə razılıq verməyə məcbur etmişdi. Ola bilsin ki, Stalin Qafqazın neft mədənlərinin sovet silahlı qüvvələri tərəfindən təkbaşına müdafiə edilə biləcəyinə bir o qədər də inanmırdı. Çünki Ali Baş Komandan kimi Cənub cəbhəsində yerləşdirilmiş silahlı qüvvələrin döyüş potensialına yaxşı bələd idi. İkinci cəbhənin açılmayacağı məlum olduğu təqdirdə, görünür o, yeganə çıxış yolunu müttəfiq ordularının Güney Qafqaza girməsində görürdü. Beləliklə bu, SSRİ-nin bir dövlət kimi tam iqtidarsızlığından xəbər verirdi.



ABŞ və İngiltərəyə gəldikdə isə onu demək olar ki, Çörçillin və Ruzveltin bu məsələ ətrafında böyük fəallığı heç də təəccüblü olmamalı idi. Çünki bu, Çörçill ilə Stalin arasındakı avqust görüşündə əldə edilmiş razılaşmaya əsaslanırdı.

Lakin sovet tarix ədəbiyyatında bu razılaşmanın bütün müddəalarının açıq-aydın izahı verilməmiş, əvəzində isə ingilis-amerikan silahlı qüvvələrinin Qafqaza yeridilməsi planı bir tərəfli «təhlil» edilərək, yalnız SSRİ-yə qarşı işğalçılıq siyasəti kimi qiymətləndirilmişdir. Halbuki İkinci dünya savaşının tarixi göstərir ki, müttəfiqlər hərbi əməliyyatlarla bağlı bütün taleyüklü məsələləri bir qayda olaraq qarşılıqlı razılaşma yolu ilə həll etməyə səy göstərirdilər. Qafqaza hərbi-hava qüvvələrinin yeridilməsi də həmçinin.

Odur ki, bir sıra sovet tarixçilərinin sinfi xarakter daşıyan mülahizələri sözsüz ki, əsl həqiqətdən uzaqdır və obyektiv xarakter daşımır. Məsələn, A.Deborin yazır: «Nəinki Hitler Almaniyası sovet neftini ələ keçirmək istəyirdi. Bu istək, həmçinin Sovet İttifaqının çətin vəziyyətindən istifadə etməyə çalışan ABŞ və İngiltərə imperialistlərini də rahat qoymurdu. ABŞ və İngiltərə hökumətləri Yaxın Şərqdən Sovet Zaqafqaziyasına (Güney Qafqaza) qoşun yeritmək üçün plan («Velvet» planı) hazırladılar. ABŞ və İngiltərənin hakim dairələri Qafqaza girməkdən ötrü bir-birini qabaqlamağa çalışırdılar...»[13]

Əlbəttə, bu həqiqətə uyğun deyildir. Əksinə, Ruzvelt ilə Çörçill arasındakı yazışmalar göstərir ki, bu məsələ ilə bağlı onlarda fikir birliyi mövcud idi və hərbi əməliyyatı da birlikdə həyata keçirmək əzmində idilər.

Məsələyə birtərəfli mövqeyini əks etdirərək A.Deborin daha sonra yazırdı: «1942-ci ilin avqustunda Çörçill Moskvaya getdi. O Sovet hökumətinə rəsmi şəkildə bildirdi ki, 1942-ci ildə ikinci cəbhə yaradılmayacaq və onun təşkili 1943-cü ilə keçirilir. Bunun əvəzində... Çörçill, Sovet dövlətinin Stalinqrad döyüşləri günlərində düçar olduğu böyük gərginlikdən istifadə etmək istəyirdi. O, Sovet Zaqafqaziyasının ingilis qoşunları tərəfindən işğal olunmasını tələb edirdi. Lakin Çörçill bir daha inandı ki, o, belə razılığı heç vaxt ala bilməyəcək...»[14]. Əvvəla heç bir məntiqə sığmayan bir fikir. Bir tərəfdən Çörçill guya «tələb» edir, digər tərəfdən isə Stalinin «razılığını» gözləməli olur. Çörçillin «tələb» etməsi heç də inandırıcı səslənmir. Çünki Sovet İttifaqı ilə Britaniya müharibədən əvvəlki dövrdə bir-birinə qarşı antaqonist mövqelərdə durmalarına baxmayaraq, antihitler koalisiyası yaratdıqdan sonra, xüsusilə də müharibənin ilk illərində hər iki dövlətin başçısı bir-biri ilə ultimatum və ya tələb formasında da anlaşmaqdan çəkinməyə çalışırdı. Zira, bu ümumi işə yalnız misilsiz ziyan vura bilərdi. 1942-ci ilin avqustunda Çörçillin Stalinə tələb irəli sürməsi isə digər tərəfdən tamamilə absurddur. Çünki

həmin vaxt ingilislərin Quzey Afrikadakı vəziyyəti son dərəcə ağır idi. Belə gətsə idi almanların Yaxın Şərqi tutmaq planları həqiqətə çevrilə bilərdi. Odur ki, istər Çörçilli, istərsə də Ruzvelti hər halda həmin dövrdə ilk növbədə bir məsələ maraqlandıra bilərdi. Necə etməli ki, almanların Quzey Qafqazdan Bakıya, Quzey Afrikadan isə Yaxın Şərqə olan hərəkətinin qarşısı alınsın. Bu mürəkkəb dilemmanı həll etmək yolunda onlar istəsələr də, istəməsələr də SSRİ-yə əllərindən gələn, hərbi yardım da daxil olmaqla, hər bir yardımı etməyə hazır idilər.

Deborinin ABŞ ilə bağlı mülahizələri də, yumşaq desək, subyektiv xarakter daşıyırdı. O, sovet ideologiyasının müharibədən sonrakı illərdə formalaşmış düsturlarına uyğun olaraq belə yazırdı: «Amerika Birləşmiş Ştatları da həmçinin, sovet-alman cəbhəsində yaranmış gərgin vəziyyətdən istifadə etməyə cəhd göstərərək, öz tərəfindən Sovet İttifaqına qarşı işğalçılıq tələbləri irəli sürdü.

Belə ki, Vaşinqtonda ingilis silahlı qüvvələrinin Sovet Qafqazına göndərilməsinə dair Çörçillin təklifindən xəbər tutdular. ABŞ vaxt itirmədən bu təklifə qoşuldu və onun realizə olunmasında ABŞ silahlı qüvvələrinin də iştirakını israr etdi»[15]. Daha sonra müəllif öz mülahizələrinə sanki nöqtə qoyaraq yazırdı: «SSRİ hökumətinin qəti mövqeyinə baxmayaraq, ABŞ və İngiltərə hökumətləri Sovet Zaqafqaziyasına girmək planlarını hazırlamaqda davam edirdilər»[16].

Lakin dövlət başçılarının sonrakı yazışmaları sübut edir ki, yuxarıda adı çəkilən müəllifin subyektiv fikirləri o dövrdəki həqiqi vəziyyəti təhrif etməkdən başqa bir şey deyildir. Belə ki, noyabrın 2-də almanların Nalçik şəhərini tutması ilə Qafqazdakı vəziyyətin kəskin surətdə pisləşməsi Güney Qafqaza müttəfiqlərin qoşun birləşmələrinin yeridilməsi ideyasının yenidən aktuallaşmasına səbəb oldu.

Bundan üç gün sonra, noyabrın 5-də Stalin Baş nazir Çörçilldən məxfi göndəriş aldı. Orada deyilirdi: «...Sizin cənub cinahınıza Britaniya və Amerikanın 20 eskadrilyasının mümkün qədər tez göndərilməsinə çalışıram. Prezident Ruzvelt tam razıdır və indi Misirdə hər hansı bir fəlakət təhlükəsi yoxdur. Lakin bunu etməzdən əvvəl lazımdır ki, bizim və Sizin zabitlər uçma-enmə meydançaları barədə hərtərəfli razılığa gəlsinlər və s. Göndərilməsi nəzərdə tutulan eskadrilyaların miqdarı barəsində mənim 9 oktyabr tarixli teleqramımda məlumat verilib. Buna uyğun olaraq Sizinlə razılıq əldə edənə qədər görülməli olan hazırlıqları həyata keçiririk... Qafqazda vəziyyətiniz barədə Sizdən məlumat almağa çox şad olardım»[17].

İşğalçılıq niyyətlərindən çox-çox uzaq olan bu göndərişə Stalin təcili cavab göndərməyə tələsdi. Qafqazdakı vəziyyətin təhlükəli xarakter almasından təşvişə düşən Stalin noyabrın 8-də yazırdı: «...Cənub cəbhəsinə 20 Britaniya və Amerika eskadrilyalarının göndərilməsi haqqında Sizin və Prezidentin sərəncamı barədə verdiyiniz məlumata görə



Sizə minnətdarlığımı bildirirəm. İyirmi eskadrilyanın təcili göndərilməsi çox **q i y m ə t l i** *(seçmə mənimdir – müəllif)* kömək olacaqdır. Bu məsələ ilə bağlı lazımi müşavirələrə, habelə ingilis, amerikan və bizim aviasiyamızın nümayəndələrinin konkret tədbirlər hazırlamasına gəldikdə isə yaxşı olar ki, müvafiq görüşləri əvvəlcə Moskvada, sonra da lazım gələrsə, bilavasitə Qafqazda təşkil olunsun. Mənə artıq məlumdur ki, ABŞ tərəfindən bu məqsədlə general Y.Y.Edler gəlir. Böyük Britaniya tərəfindən kimin təyin olunması barədə məlumatları gözləyirəm.

Oktyabrdakı vəziyyətlə müqayisədə bizim Qafqaz cəbhəsindəki vəziyyətimiz bir qədər pisləşib»[18].

Beləliklə, Stalin ingilis-amerikan hərbi-hava birləşmələrinin Güney Qafqaza yeridilməsinə nəinki etiraz etmirdi, hətta sonsuz minnətdar olduğunu da bəyan edirdi.

Müttəfiqləri isə əvvəl dediyimiz kimi, ilk növbədə, Bakı neft rayonunun təhlükəsizliyi daha çox düşündürürdü.

Odur ki, Çörçillin cavabını çox da gözləmək lazım gəlmədi. Noyabrın 13-də Çörçill yazırdı: «Sizin cənub cəbhəsində 20 Britaniya və Amerika eskadrilyalarından istifadə etmək üçün əvvəlcədən görülən tədbirlər barədə sovet, amerikan və Britaniya nümayəndələri arasındakı qərargah danışıqları üçün mən aviasiya marşalı Dremmondu Böyük Britaniyanın nümayəndəsi təyin etmişəm... Mən əminəm Siz bilirsiniz, nə dərəcədə biz arzu edirik ki, üzərinizə düşən hədsiz yükün müəyyən hissəsini azaldaq...

...Güman edirəm ki, Siz əvvəlki tək arxayınsınız ki, qış ayları ərzində Qafqaz dağlarını keçə bilməzlər»[19].

Beləliklə, qarşılıqlı anlaşma və razılaşma əsasında yazılmış bu teleqram mübadiləsi heç bir işğalçılıq niyyətlərindən xəbər vermirdi. Əksinə, qarşılıqlı yardımlaşma prinsiplərinə əsaslanırdı. Çünki belə olmasaydı,o zaman İran körfəzindən Xəzər dənizinə doğru təşkil edilmiş tranzit yükdaşıma yolunu da, Britaniya ordusunun İranın cənub bölgələrini tutmasını da işğalçılıq planlarının tərkib hissəsi adlandırmaq olardı.

Əlbəttə, SSRİ-nin hərbi vəziyyətinin qənaətbəxş olduğu təqdirdə, çox güman ki, Stalin müttəfiqlərin Qafqaza silahlı qüvvələr çıxarmalarına heç cür razılıq verməzdi. Və ola bilsin ki, müttəfiqlər də belə bir təkliflə müraciət etməyi lazım bilməzdilər. Ancaq mövcud hərbi vəziyyət şübhəsiz ki, belə bir ideyanın yaranmasına təkan verdi. Vəziyyətin bir qədər sabitləşməsi bu plandan imtina etməyə səbəb ola bilərdi. Belə də oldu. Ertəsi gün, noyabrın 14-də Stalinin Çörçillə göndərdiyi teleqram əvvəlkindən əsaslı dərəcədə fərqlənirdi. Stalin yazırdı: «...Son günlərdə Vladiqafqazın həndəvərində almanların hərəkətini dayandırmağa və vəziyyəti sabitləşdirməyə nail olduq. Vladiqafqaz bizim əlimizdədir və güman edirəm ki, bizdə də qalacaq. Şimali Qafqazdakı mövqelərimizi saxlamaq

üçün mümkün olan bütün tədbirləri görürük. Yaxın günlərdə qış kampaniyasına başlamaq fikrindəyik.

Onun başlanması vaxtı havadan asılıdır ki, o da bizim ixtiyarımızda deyil. Əməliyyatın keçirilməsi barədə Sizə müntəzəm məlumat verəcəyəm»[20]. Vəssəlam. Göründüyü kimi, Stalin ingilis-amerikan hərbi-hava qüvvələrinin Güney Qafqaza daxil olmaları barədə bundan qabaq razılaşdırılmış plana heç bir münasibət bildirmədi. Odur ki, bir qədər gözlədikdən sonra, dekabr ayının 16-da ABŞ prezidenti Ruzvelt Stalinə teleqram göndərib onun bu vacib məsələyə etinasız münasibətinə təəccüb və təəssüfünü bildirdi. Ruzvelt yazırdı: «*Qafqazda Amerika aviasiyasının köməyi barədə bizim etdiyimiz təklifə olan anlaşılmaz münasibət mənə aydın deyil.* Mən amerikalı təyyarəçilərdən və təyyarə heyətlərindən ibarət birləşmələr göndərməyə tamamilə hazıram. Mən hesab edirəm ki, onlar amerikalı komandirlərin rəhbərliyi altında olan birləşmələrin tərkibində fəaliyyət göstərməlidirlər. Lakin taktiki məqsədlər naminə hər bir dəstə, əlbəttə ki, ümumi rus komandanlığı altında olmalıdırlar.

Xahiş edirəm mümkün qədər tezliklə öz münasibətinizi mənə bildirəsiniz. Çünki mən əlimdən hər nə gəlirsə, səmimi qəlbdən hamısını etmək istəyirəm.

Qırıcı təyyarələrə aid olan proqrama toxunmağa ehtiyac yoxdur. Mənim nəzərdə tutduğum əsasən bombardman tipli təyyarələrə aiddir və onlar Qafqaza özləri də uçub gələrlər»[21].

Stalinqrad yaxınlığında almanların 6-cı ordusunun mühasirəyə düşməsi, habelə ingilis-amerikan silahlı qüvvələrinin Şimali Afrikada həyata keçirdikləri uğurlu «Torç» *(«Məşəl» - müəllif)* əməliyyatının sovet-alman cəbhəsinə müsbət təsiri Stalini daha sərbəst hərəkət etməyə ruhlandırmışdı. Nəticədə o, Güney Qafqaza silahlı qüvvələr yeritmək barədə ABŞ - İngiltərə planından imtina etməyi qərara aldı və Ruzveltə göndərdiyi cavab teleqramında belə bir addımın səbəblərini aydınlaşdırmağa çalışdı. Teleqramda deyilirdi: «Bizə kömək etməyə hazır olduğunuza görə Sizə son dərəcə minnətdaram. İngilis-amerikan təyyarə dəstələrinin öz şəxsi heyətləri ilə birlikdə Zaqafqaziyaya göndərilməsinə gəldikdə isə hazırda buna heç bir ehtiyac yoxdur. İndi əsas döyüşlər Mərkəzi cəbhədə və Voronej rayonunda gedir və bundan sonra da orada gedəcəkdir. Əgər Siz təyyarələrin, xüsusilə də qırıcıların göndərilməsini sürətləndirsəniz, Sizə son dərəcə minnətdar olaram. Təyyarə heyətləri isə lazım deyil, çünki onlar hazırda Sizin özünüzə də olduqca gərəkdir.

Sovet aviasiyasının vəziyyəti belədir ki, təyyarəçilərimiz istənilən qədərdir. Onun ancaq təyyarələri çatışmır»[22].

Stalinin bu göndərişi faktiki olaraq, ingilis-amerikan planından imtina etmək demək idi. Bunu Ruzvelt də başa düşdü və dekabrın 21-də göndərdiyi teleqramda bu məsələnin bağlandığına işarə edərək belə



yazmışdı: «Bununla da ingilis-amerikan eskadrilyaları barəsində Sizin məktubunuzu almağımı təsdiq edirəm»[23].

Beləliklə, Ruzvelt bir daha bu məsələyə qayıtmadı. Çörçillə gəldikdə isə o hələ Ruzveltin Stalinə son məktubundan bir qədər əvvəl bu məsələyə nöqtə qoymağı qərara almış və başqa bir ideya ilə, Türkiyəni müharibəyə qoşmaq təklifi ilə çıxış etmişdi. O, SSRİ-ni də bu işdə yardımçı olmağa dəvət edirdi. O, Stalinə noyabrın 24-də göndərdiyi teleqramda yazırdı: «Əgər biz Türkiyəni müharibəyə cəlb edə bilsəydik, nəinki Qara dənizdə Sizin sol cinahınıza doğru gəmi yolu açmaq məqsədilə *əməliyyatlara başlaya bilərdik, həmçinin Türkiyədəki bazalardan* rumın neft mənbələrini bombardman edə bilərdik, belə ki, Qafqazın əsas neft ehtiyatlarının *(Bakı neft rayonu nəzərdə tutulur - müəllif)* Sizin tərəfdən uğurla müdafiə edildiyi təqdirdə, pakta daxil olan ölkələr üçün mühüm həyati önəm kəsb edir»[24].

Beləliklə, Çörçill özünə sadiq qalaraq, bir daha neft amilinə xüsusi diqqət yetirməyi vacib saymışdı. Bakı neft rayonunun təhlükəsizliyinə nisbətən əmin olmağına baxmayaraq, o, Almaniyanın rumın neftindən də təcrid olunmasını təxirəsalınmaz bir vəzifə kimi ortaya atmağı lazım bilmişdi.

Güney Qafqaza silahlı qüvvələr yeridilməsində təkid etməməsinə gəldikdə isə, görünür, Çörçill əsasən iki səbəbdən çıxış edirdi. Birincisi, «Torç» *(«Məşəl» - müəllif)* əməliyyatının uğurları sayəsində Quzey Afrikadan Yaxın Şərqin neft bölgələrinə olan təhlükənin sovuşması ilə, ikincisi isə Stalinqrad ətrafında almanların ağır vəziyyətilə və Qafqaza olan təzyiqin xeyli zəifləməsi ilə əlaqədar idi.

Lakin bütün bunlarla yanaşı belə bir ehtimalı da istisna etmək olmaz ki, müharibə başa çatdıqdan sonra dünyanın hərbi-siyasi durumunun son dərəcə anlaşılmaz ola biləcəyi perspektivi müttəfiqləri, xüsusilə də Böyük Britaniyanı Güney Qafqazda möhkəmlənməyə sövq edə bilərdi. Çünki bu günki müttəfiqlərin gələcəkdə Sovet İttifaqı ilə münasibətlərinin hansı keyfiyyətdə inkişaf edəcəyi böyük sual doğururdu. Hər şeyə şəkk-şübhə ilə yanaşmağa adət etmiş Stalin isə öz növbəsində çox güman ki, Güney Qafqazın, ilk növbədə isə Bakı neft rayonunun müharibə qurtardıqdan sonra dünənki müttəfiqlərin strateji maraq dairəsinə düşə biləcəyi perspektivindən ehtiyatlana bilərdi. Əlbəttə, bütün bu mülahizələr bir ehtimaldır. Fəqət qoca tarix dəfələrlə sübut edib ki, ziddiyyət olan yerdə, hər hansı bir ehtimal həqiqətə çevrilə bilər.

# XI FƏSİL

## BAKI – SAVAŞIN TALEYİ HƏLL OLUNAN ŞƏHƏR

Almanların 1942-ci ildə başladıqları yay kampaniyası SSRİ-nin əsas neft bazası olan Bakının etibarlı müdafiəsinin təşkil edilməsini təxirəsalınmaz bir vəzifəyə çevirdi. SSRİ-nin müqəddəratı üçün son dərəcə müstəsna əhəmiyyət daşıyan bu şəhərin müdafiəsi ilk növbədə Quzey Qafqazdan başlamalı idi. Lakin Ali Baş Komandan Stalinin bağışlanmaz strateji səhvi nəticəsində Quzey Qafqazda etibarlı müdafiə tədbirləri görülməmişdi.

Sonralar Quzey Qafqaz cəbhəsinin komandanı olmuş marşal A.Qreçko bu barədə belə yazırdı: «...Quzey Qafqazda döyüş əməliyyatları başlayanda, Güney Qafqazın şimaldan müdafiəsi tamamilə yox dərəcəsində idi. Yalnız 44-cü ordu Sulak çayı hüdudunda müdafiə işləri aparır və Dərbənd dövrəsini, habelə Bakı rayonunu müdafiə etmək üçün mühəndislik nöqteyi-nəzərdən möhkəmləndirirdi.

Sovet-alman cəbhəsinin cənub cinahında vəziyyətin mürəkkəbləşməsi və düşmənin Qafqazın ərazisinə soxulmaq cəhdləri ilə əlaqədar, Ali Baş Komandanlığın qərargahı 1942-ci il iyunun 7-də Güney Qafqazın şimal tərəfdən qorunması məqsədilə əmr verdi»[1].

«3. Bakı yaxınlığının şimal tərəfdən möhkəm müdafiəsi 44-cü orduya həvalə edilsin...

6. Güney Qafqazın şimaldan müdafiə olunması planı iyunun 20-nə kimi hazırlansın və baş qərargaha təqdim edilsin!»[2].

Marşal Qreçkonun fikrincə tərtib edilmiş bu planda ciddi nöqsanlar olduğuna görə Ali Baş Komandanın qərargahı onu təsdiq etmədi və 30 iyul tarixli direktivi ilə Güney Qafqaz cəbhəsinin qoşunları qarşısında bir qədər dəyişdirilmiş vəzifələr qoydu[3].

Bakının təhlükəsizliyini təmin etməkdən ötrü üç müdafiə zolağı yaradılmalı idi. Onlardan biri Mahaçqalada, ikincisi Dərbənddə, üçüncüsü isə Bakının həndəvərində olmalı idi.

Şəhərin bilavasitə müdafiəsi 10-cu atıcı briqadaya, Bakı rayonundakı hava-hücumundan müdafiə dəstəsinə, habelə 3 piyada, 1 artilleriya və 1 hərbi-dəniz məktəbinə həvalə edilmişdi[4].

Bundan əlavə, şəhər ətrafında zenit artilleriyasından ibarət hərbi birləşmə yerləşdirildi.

Kontr-admiral F.Sedelnikovun komandanlığı altında olan Xəzər Hərbi-Dəniz Donanması şəhərin dəniz tərəfdən təhlükəsizliyini təmin etməli idi. 1942-ci ilin yayında onun tərkibinə 6 kanoner qayığı, 3 ədəd üzən zenit batareyası, 3 gözətçi gəmisi, 15 gözətçi kateri, 2 tral gəmisi, mina düzən hərbi gəmi və 3 torpedo kateri daxil idi[5].

«A» ordular qrupunun sürətli hücumu və Quzey Qafqazın xeyli hissəsinə almanların nəzarət etmələri, Bakının da gələcək perspektivini son dərəcə dumanlı edirdi. Çünki alman komandanlığı iyul, avqust aylarında Quzey Qafqazda asanlıqla əldə etdikləri qələbələrin eyforiyası altında Bakıya can atdıqlarını heç də gizlətmirdilər. Bakını ələ keçirməklə, onlar əsasən üç mühüm məqsədə çatmaq ümidində idilər. Birincisi, Sovet İttifaqını bir dövlət kimi diz çökdürmək, ikincisi, çoxdan arzuladıqları Bakının zəngin neft yataqlarını ələ keçirmək, üçüncüsü isə Yaxın və Orta Şərqi İngiltərədən qoparıb, tamamilə nəzarətləri altına almaq. Bakı alınmadığı təqdirdə bunların heç biri nəinki mümkün olmazdı, əksinə, Üçüncü reyx həlledilməz problemlərlə üzləşməli olardı.

Bunu yaxşı bilən almanlar deyirdi: «Müharibə pis şeydir. Bakını alsaq, müharibənin sonu olacaq, almasaq bizim sonumuz»[6].

Bu həm də onunla bağlı idi ki, Quzey Qafqazın tez bir zamanda böyük bir hissəsini işğal etmələrinə baxmayaraq, almanlar oradakı neft ehtiyatlarından bəhrələnə bilməmişdilər. O zaman SSRİ Neft Sənayesi komissarının birinci müavini işləmiş Nikolay Baybakov həmin dövrdə Dövlət Müdafiə Komitəsində keçirilmiş ciddi bir söhbəti xatırlayaraq yazırdı: «Orada Krasnodar vilayətindəki neft mədənlərində xüsusi tədbirlərin həyata keçirilməsi üçün Quzey Qafqaza mütəxəssislər göndərilməsi haqqında qəbul edilmiş qərar barədə uzun bir söhbət oldu. Əsas diqqət bir məsələyə yönəldildi: «...Hər şey etmək lazımdır ki, Qafqazın neft mədənlərinə can atan almanlara bircə damcı da neft qismət olmasın. Mənə belə bir sual da verildi:

- Elə tədbirlər görmək olmazmı ki, almanlar quyulardan neft ala bilməsinlər, biz isə lazım gəldikdə onu tez bir zamanda götürə bilək?

- Tamamilə qanunauyğun sualdır, lakin belə üsullar yoxdur, - deyə mən cavab verdim. Yalnız bir yol mövcuddur – ən qiymətli avadanlığı, geoloji materialları vaxtındaca söküb başqa rayonlara göndərmək, son



dəqiqəyə qədər neft çıxardıb cəbhəni yanacaqla təmin etmək, sonra isə quyuları və mədən təsərrüfatını məhv etmək. Bunu necə etmək barəsində isə ciddi düşünmək lazımdır»[7].

Almanlar Maykopu ələ keçirdikdə məhz gözləmədikləri belə bir vəziyyətlə üzləşmək zorunda qaldılar.

Təcrübəli neft mühəndislərindən və daxili işlər komissarlığının partladıcı sahə üzrə mütəxəssislərindən təşkil edilmiş xüsusi qrup almanların şəhəri alacaqları ərəfədə bütün neft mədənlərini yararsız hala saldı. Lakin mədənləri son dəqiqəyə qədər işlədib, sonra da partlatmaq müəyyən risq ilə bağlı idi. Çünki cəbhədəki hadisələr elə şəkildə cərəyan edirdi ki, əməliyyatı həyata keçirmək üçün nəzərdə tutulan son anı, son dəqiqəni dəqiq müəyyənləşdirmək olduqca çətin idi. Əks halda işlək mədənlər almanların əlinə keçə bilərdi. Belə hallarda «məsuliyyəti öz üzərimizə götürməyə məcbur idik»[8].

Baybakov belə bir maraqlı faktı da açıqlayır: «Hələ Moskvada ikən..., biz xəbərdar edildik ki, əgər neft almanlara qismət olsa, bizi güllələnmə gözləyəcək, yox əgər tələskənlik edib mədənləri məhv etsək, onlar isə nəticədə işğal edilməsə, bizim aqibətimiz yenə də o cür olacaq - güllələnəcəyik»[9].

Maraqlı cəhət həm də ondan ibarətdir ki, hər iki tərəf – həm almanlar, həm də sovet komandanlığı duru yanacağın həlledici əhəmiyyətini aydın başa düşərək, bir-birini eyni səylə neft mənbələrindən təcrid etməyə çalışırdılar. Bunun üçün ən müxtəlif, hətta ən qorxunc, qeyri-insani üsullara əl atmaqdan belə çəkinmirdilər. Bir işə baxın, yerin qara qanı, insanın qırmızı qanından qat-qat dəyərli idi. Məhz Qafqaz uğrunda gedən və 6 aya yaxın bir dövrü əhatə edən mübarizə, müharibənin əsas etibarilə neft üzərində kökləndiyini sübut edirdi. Müharibənin əsl mahiyyəti də məhz Qafqazda üzə çıxdı.

O dövrdə adi normaya çevrilmiş hadisələrdən birini xatırlayaraq Baybakov yazırdı: «...Cəbhə komandanının müavinlərindən biri telefon vasitəsilə məni tapdı. Partlayışların həyata keçirilməsi üçün komanda verildi, lakin indi bunu almanların düz gözü qabağında etmək lazım gəlirdi. Belə ki, onlar artıq Krasnodar vilayətindəki neft mədənlərinin başladığı yerə – Apşeronskaya stanitsasına çatmışdılar. Apşeronskayada olan elektrik stansiyalarını avtomat və pulemyot atəşləri ilə məhv edirdik»[10].

Mədənlərin məhv edilməsi almanlara baha başa gəldi. Onların sürətli hücumları səngimək məcburiyyətində qaldı. SSRİ isə bu mədən-

ləri itirdisə də bu, taktiki itki sayıla bilərdi. Çünki ölkənin əsas neft bazası, şübhəsiz ki, Bakı rayonu hesab edilirdi.

Lakin onu müdafiə edib təhlükəsizliyini təmin etmək nə qədər çətin idisə, mədənləri daim işlək halda saxlamaq, çıxarılan nefti emal edib cəbhəyə çatdırmaq da bir o qədər müşkül iş idi. Vəziyyəti ağırlaşdıran cəhətlərdən biri də o idi ki, minlərlə fəhlənin cəbhəyə göndərilməsi, yüksək ixtisaslı kadrların çatışmazlığına səbəb olmuşdu. Onları əsas etibarilə qadınlar, əsgər yaşı çatmayan gənclər və qocalar əvəz edirdilər. Peşəkarlıq cəhətdən aşağı səviyyədə olan belə fəhlə qüvvəsi ilə müharibə şəraitində neft uğrunda mübarizə aparmaq son dərəcə çətin idi. Lakin vaxt gözləmirdi. Bakı həm öz neftini hasil etməli, həm Quzey Qafqazda itirilmiş, əldən çıxmış mədənlərin də yükünü öz üzərinə götürməli idi. Neft-mədən avadanlığının getdikcə artan çatışmazlığı vəziyyəti daha da mürəkkəbləşdirirdi. Bir qədər sonra, çətinliklə olsa da, Bakı müəssisələrində bu avadanlığın istehsalı təşkil olundu.

1942-ci ilin yayında Güney Qafqazın işğal təhlükəsi artdığı bir zamanda hökumətin qərarı ilə Abşeron mədənlərində qazma işlərinin həcmi xeyli azaldıldı. Sentyabr ayından etibarən isə tamamilə dayandırıldı. Bu, o demək idi ki, neft hasilatı planının və öhdəliklərin yerinə yetirilməsini yalnız mövcud quyu fondunun daha səmərəli işlədilməsi sayəsində təmin etmək olardı[11]. Odur ki, neftçilər təşəbbüs və texniki ixtiraçılıq sayəsində, quyu rejimini ətraflı öyrənmək, köhnə və başlıbaşına buraxılmış quyuları yenidən işə salmaqla hasilatı artıra bilirdilər[12].

Lakin alman ordularının artıq Volqa sahillərinə çıxması, Bakıdan cəbhəyə və sənaye mərkəzlərinə neft və neft məhsulları göndərilməsinin qarşısını almaq üçün əsas dəmiryolu magistrallarını və su yollarını nəzarətə almaları Bakı neftçilərinin böyük məhrumiyyətlərlə üzləşən fədakar əməyinin nəticələrini heçə endirə bilərdi. Çünki hasil edilmiş neftin nəqli böyük problemə çevrilmişdi.

Bakı – Batumi neft kəmərinin böyük bir hissəsinin sökülməsi və Qara dəniz sahili boyunca alman təzyiqinin güclənməsi, Bakı neftinin bu istiqamətdə nəql olunmasını praktiki olaraq qeyri-mümkün edirdi. Neft mərkəzə və cəbhə bölgəsinə yalnız dolayı yollarla göndərilə bilərdi. Neftdaşıyan gəmilərin tələb edilən qədər olmaması, qeyri-ənənəvi üsullar və vasitələr axtarmağa məcbur edirdi.

Bakının özündə vəziyyətin ağır olmasına, neft mədənlərinin qeyri-normal şəraitdə işlədilməsinə baxmayaraq, Azərbaycan neftçiləri 1941-ci il həcmində olmasa da, 1942-ci ildə 15 milyon 209 min ton[13] duru yanacaq hasil etmişdilər. Onun böyük hissəsi Krasnovodsk limanı vasitəsilə



nəql edilməli idi. Lakin Xəzərin şərq sahilində yerləşən bu liman böyük həcmdə neft və neft məhsullarını qəbul etmək iqtidarında deyildi.

Digər tərəfdən Xəzər dənizi səmasının böyük bir hissəsi alman təyyarələrinin nəzarəti altında olduğu üçün dəniz vasitəsilə neft daşınması son dərəcə təhlükəli idi.

Alman aviasiyasının hücumları neft və neft məhsullarının dənizlə Volqa ağzına daşınmasını çox çətinləşdirirdi[14].

Odur ki, Krasnovodsk yolu nisbətən etibarlı sayılırdı. Buna baxmayaraq, 1942-ci ilin payızında neft daşıyarkən Xəzər dənizçiləri 46 dəfə alman təyyarələrinin hücumuna məruz qalmışdı.

Bakı öz qədim tarixinin ən dramatik dövrlərindən birini yaşayırdı. Şəhər bəşər tarixinin ən dəhşətli müharibəsinin cazibə mərkəzlərindən birinə çevrilmişdi. Qafqaz dağlarında, Volqa sahillərində taleyi həll edilən nəhəng bir ölkə öz ümidlərini Abşeron mədənlərində min bir əzabla çıxarılan, emal edilən neft və neft məhsullarına bağlamışdı. Lakin neftin hasilatı və emalı bir problem, nəqli isə başqa bir problem idi. Və bu problemlər gündən-günə dərinləşirdi.

Neft çənləri və yeraltı ambarların hamısı ağzına qədər dolu idi. Belə bir vəziyyətdə nəinki yeni quyular qazılmır, əksinə, işləyən quyuların böyük bir hissəsi bir ucdan müvəqqəti bağlanırdı.

Baybakov yazırdı: «Lakin ölkəyə neft lazım idi, özü də tələbat gündən-günə artırdı. Onsuz isə nə döyüşmək mümkün idi, **n ə d ə q a l i b** *(seçmə mənimdir – müəllif)* **g ə l m ə k**»[15].

Vəziyyət həqiqətən çıxılmaz idi. Nə etməli? - sualı hamını düşünməyə, qeyri-standart yollar axtarmağa məcbur edirdi. Hasilatın məhdudlaşdırılmasına baxmayaraq nefti yığmağa yer tapılmırdı. Baybakov vəziyyəti yaxşı bilirdi. Onu da bilirdi ki, duru yanacaqsız ordu da, onun ən müasir texnikası da heç nədir. Bir qədər sonra almanların Stalinqrad ətrafında düşdükləri çıxılmaz vəziyyət bunu ilk dəfə dəhşətli şəkildə sübut etdi. Odur ki, həmin döyüşlərin taleyüklü anlarını xatırlayarkən Baybakov yazırdı: «...bütün ambarlar neftlə dolu idi. Nefti yığmağa yer tapılmırdı... Orduya isə benzin lazım idi, ona olan ehtiyac son dərəcə böyük idi! Lakin neftin qalıqları ilə nə etməli? Axı bu da qiymətli xammaldır, vəsait, əmək sərf edilib! Və nəhayət budur, neft mədənlərinin istismarı texnologiyası nöqteyi-nəzərindən ağlasığmaz bir təklif irəli sürülür: nefti çıxarmaq, boru kəməri vasitəsilə «Qara şəhər»dəki neftayırma müəssisələrinə nəql etmək, orada onun üzünü (benzini) götürmək, qalığını isə geriyə qaytarıb, yenidən neft laylarına vurmaq»[16].

Həqiqətən də qəribə görünən bu üsul tezliklə həyata vəsiqə aldı. Bakı neftçilərinə əlavə yeni qayğı yaratmasına baxmayaraq, bu üsul cəbhəni, ilk növbədə Stalinqrad cəbhəsində almanların şiddətli təzyiqi ilə üz-üzə duran sovet silahlı qüvvələrini benzinlə tam təmin etməyə imkan verdi. Benzini çıxarılmış ağır neft qalığına gəldikdə isə Baybakov bu barədə belə yazırdı:

«Bunun üçün xüsusi bir quyu ayrıldı və onun vasitəsilə bilavasitə neft laylarında saxlanmaq üçün yarım milyon tona qədər benzindən ayrılmış neft vuruldu. Demək lazımdır ki, sonralar bu neft bütünlüklə yenidən çıxarıldı. Təbii ki, artıq müharibədən sonra»[17].

Quzey Qafqazda almanların neft əldə edə bilmədikləri bir şəraitdə sovet silahlı qüvvələrinin Bakıdan göndərilən neft məhsulları ilə fasiləsiz təmin edilməsi, yaxın gələcəkdə almanlar üçün ciddi problemlər yarada bilərdi.

Quzey Qafqazda isə qəribə bir vəziyyət əmələ gəlmişdi. Qarşı-qarşıya durmuş hər iki tərəf nəinki oradakı neft mədənlərindən istifadə edə bilmirdi, həmçinin hər vəchlə bu işdə bir-birinə mane olmağa səy göstərirdi.

«Alman qoşunlarının arxasında 140-dan artıq partizan dəstələri və qrupları fəaliyyət göstərirdi. Onların əsas vəzifəsi işğalçılara neft hasilatına başlamağa imkan verməməkdi. Hitlerçilər artıq Almaniyada «Qafqaz alman nefti» səhmdar cəmiyyəti yaratmışdılar. Lakin bundan heç nə əldə edə bilməmişdilər. Kubanda olduqları müddətdə onlar nə bir mədənin, nə də bir quyunun bərpasına nail olmadılar»[18].

Halbuki almanlar Quzey Qafqaz mədənlərindən tezliklə neft alacaqlarına o qədər əmin idilər ki, hətta özləri ilə müəyyən neft-mədən avadanlığı, borular və başqa ləvazimat gətirməyi də unutmamışdılar.

Bəzən belə hallara da rast gəlmək olurdu: «...Kabardin rayonunda alman qoşunları görünür, geriyə çəkilən bizim hissələrlə faşistlər arasında atışma gedir, neftçilər isə quyuların ləğvini davam etdirirlər»[19].

Belə işlərdə almanlar da geri qalmamağa, sovet qoşunlarını Quzey Qafqazın neft mənbələrindən istifadə etmək imkanlarından məhrum etməyə çalışırdılar. Hətta Qroznı neftinin ələ keçirilməsinin mümkün olmadığını yəqin etdikdən sonra, almanlar Hitlerin əmrini yerinə yetirərək, orada yerləşən neftayırma müəssisələrini bombardman etməyə başladılar.

1942-ci ilin payızında isə «Fokke-vulf» tipli 80-dən artıq bombardmançı təyyarə Qroznının neftayırma müəssisələrinə bir-birinin ardınca üç dəfə həmlə etdi[20].



Beləliklə, almanların özləri neft götürə bilməsələr də, çıxarılmağa macal tapılmamış müəssisələri dağıtmaqla onlardan yaxın vaxtlarda istifadə olunmasını qeyri-mümkün edirdilər.

Odur ki, belə şəraitdə həm alman, həm də sovet komandanlığı üçün Bakı neft rayonunun əhəmiyyəti müstəsna dərəcədə artdı. Belə vəziyyət Bakını dəhşətli faciələrlə üzləşdirə bilərdi.

Belə ki, 1942-ci il noyabrın 8-də Quzey Qafqazda hərbi vəziyyətin SSRİ-nin zərərinə kəskin surətdə pisləşdiyi bir vaxtda, Stalinin Çörçilldən aldığı məxfi teleqramda deyilirdi: «Şübhəsiz ki, Hitler Bakını tutmaq ümidlərini itirdikdə o, hava hücumları vasitəsilə onu dağıtmağa çalışacaqdır.

Sizdən xahiş edirəm mənim məlumatıma inanasınız»[21].

Ertəsi gün Stalin Baş nazir Çörçillə cavab məktubunda yazırdı: «...Bakı haqqında xəbərdarlığa görə təşəkkür edirəm. Bizim tərəfdən cavab tədbirləri görülür»[22].

Çörçillin Stalinə göndərdiyi xəbərin doğruluğu, alman qoşunları Quzey Qafqazdan geri çəkildikdə bəlli oldu. O zaman xüsusi yaradılmış qənimət komandaları almanların apara bilməyib qoyub getdikləri müxtəlif çeşidli əmlakı müsadirə edərkən, üzərində «Bakı üçün» sözləri yazılmış 600 ədəd dəmiryolu vaqonu da ələ keçirilmişdi. Vaqonlar ağzına qədər aviasiya mərmiləri ilə yüklənmişdi.

Beləliklə, Bakını sentyabrın 25-də ələ keçirməyi planlaşdıran Hitler, son məqamda onu SSRİ-yə qismət olmasın deyə bombardman etməyi qərara almışdı. Çünki yaxşı bilirdi ki, Bakı neft rayonu Sovet İttifaqının əlində qalsa, müharibənin müqəddəratı da onun xeyrinə həll edilməyəcək.

Lakin Bakıya təcavüz təkcə Hitlerin planlarına daxil deyildi. Bakı mədənlərini sönməz məşələ çevirmək ideyası Stalinə də məxsus idi. Alman silahlı qüvvələrinin Bakını ələ keçirmək niyyətinin həqiqətə çevriləcəyi təqdirdə, xüsusi tərtib edilmiş plana uyğun olaraq, əvvəlcədən minalanmış neft quyuları partladılmalı idi. Bu məqsədlə partladıcı qruplar hazırlanmış və səlahiyyətli orqanların sərəncamı ilə Abşeronun hər bir neftçıxarma bölgəsində yerləşdirilmişdi.

Bakıda yaranmış o zamankı vəziyyəti nəzərə alsaq, belə bir aksiyanın istər almanlar, istərsə də sovet hakimiyyət orqanları tərəfindən həyata keçirilməsi şəhəri misli görülməmiş fəlakətlərə düçar edə bilərdi. Əvvəla, SSRİ-*nin* ən böyük sənaye və mədəniyyət mərkəzlərindən biri sayılan Bakı hər tərəfdən böyük neft mədənləri ilə əhatə olunmuşdu. İkincisi, şəhərdə çoxlu neft emalı və neft-kimya müəssisələri fəaliyyət

göstərirdi. Üçüncüsü isə min bir əzabla çıxarılan nefti daşıyıb qurtarmaq mümkün olmadığından, o, ətrafdakı çala-çuxurlara doldurulur. Zığ gölünə axıdılırdı. Şəhərdə böyük miqdarda neftlə dolu çənlərin, yeraltı anbarların, dəmir yolu və tanker daşımaları üçün neftdoldurma stansiyalarının da mövcudluğunu nəzərə alsaq, hərbi əməliyyatların necə müdhiş nəticələnə biləcəyini təsəvvür etmək heç də çətin deyildir.

Lakin nefti nəql etmək nəinki lazım, həm də son dərəcə vacib idi. Dövlət Müdafiə Komitəsinin birbaşa nəzarəti altında olan taleyüklü dövlət məsələsi idi.

Baybakov yazırdı: «1942-ci ilin iyulunda alman qoşunlarının Stalinqrad rayonuna gəlib çıxması ilə Volqada gəmi hərəkəti və Bakıdan neft məhsullarının daşınması kəsildi. Onunla bir vaxtda Bakıdan Tixoretsk – Rostov dəmiryolu ilə neft məhsullarının göndərilməsi də dayandırıldı»[23].

Marşal Qreçko yazırdı: «Belə şəraitdə Xəzər dənizi yolu əsas neft magistralına, o cümlədən, cəbhə də daxil olmaqla, bütün ölkə üçün olduqca mühüm kommunikasiyaya çevrildi. Neft məhsullarının daşınması Xəzər hərbi donanmasının mühafizəsi altında həyata keçirilirdi ki, bu da strateji vəzifə idi. Hərbi daşımalar isə geniş vüsət aldı»[24].

Yaranmış vəziyyətlə əlaqədar, dünya təcrübəsində görünməyən bir üsul Bakıda tətbiq edildi və gərginliyi bir qədər azaltdı. Ən vacibi isə Stalinqrad cəbhəsinin duru yanacaqla təchiz olunması problemini aradan qaldırdı.

Beləliklə, Bakıda neftlə doldurulmuş dəmiryol sisternləri panton kimi yedəyə alınaraq, fasiləsiz olaraq, dəniz yoluyla Xəzərin şərq sahilinə – Krasnovodsk və Quryev limanlarına daşındı. Sahilə çatdırılandan sonra bu sisternlər yenidən dəmiryol relsinin üstünə qoyulub, Orta Asiya və Qazaxıstan vasitəsilə SSRİ-nin mərkəz rayonlarına, cəbhə bölgələrinə ötürülürdü. Bu üsulla neftin xeyli hissəsi nəhəng çənlərlə də daşınırdı.

Lakin ilk baxışdan ağlasığmaz görünən bu üsulun çətinlikləri də az deyildi. Əvvələ, müxtəlif nəqliyyat vasitələrindən ibarət olan qarışıq nəqliyyat yolu məsafə etibarilə xeyli uzun və çətin idi. Göndərilən yanacağın böyük bir hissəsi onu daşıyan nəqliyyatın özünə – lokomotivlərə sərf olunurdu.

Neftin nəqli vaxtaşırı başqa çətinliklərlə də üzləşirdi. Xəzər dənizinə xas olan şiddətli qasırğalar neft daşımalarının tez-tez pozulmasına səbəb olurdu. Bundan başqa, neft karvanları tez-tez alman təyyarələrinin hücumuna məruz qalırdı.



Lakin başqa əlac yox idi. Nəyin bahasına olursa-olsun silahlı qüvvələr yanacaqla təmin olunmalı idi.

Bakıdan göndərilən benzinin həcmi, sovet komandanlığına hərbi-hava qüvvələrinin ümumi miqdarının sayca xeyli artırılması üçün əlverişli şərait yaratdı. Taleyüklü Stalinqrad cəbhəsində qırıcı təyyarələrin azlığından böyük narahatlıq keçirən Ali Baş Komandan Stalin yaranmış vəziyyəti nəzərə alaraq, Çörçillə göndərdiyi teleqramlardan birində tank və artilleriya əvəzinə ayda 800 təyyarə göndərməsini xahiş edirdi. Həm də onların 500-ünü Amerika Birləşmiş Ştatlarından, 300-ünü isə Böyük Britaniyadan almağı məqsədəuyğun sayırdı. Stalin həmçinin Böyük Britaniya kəşfiyyatının verdiyi məlumatı təkzib edərək, sübut etməyə çalışırdı ki, Almaniya göstərildiyi kimi ayda 1300 yox, işğal etdiyi ölkələrlə birlikdə ayda ən azı 2500-ə qədər müxtəlif tipli qırıcı və bombardmançı təyyarələr istehsal edir. Məhz bunun sayəsində onlar havada böyük üstünlük qazanmağa nail olublar. Nəticədə isə bizim vəziyyətimiz xeyli pisləşib. Stalin onu da qeyd edirdi ki, qırıcı təyyarələrin çatışmazlığı üzündən quru qoşunlarının havadan mühafizəsini təşkil etmək mümkün olmur. Odur ki, «Spitfayer» və «Aerokobra» təyyarələrinə böyük ehtiyacımız var[24].

Təyyarə göndərilməsi barədə Stalin Ruzveltə də müraciət etmişdi. 1942-ci il 7 oktyabr tarixli teleqramında o yazırdı: «Biz müvəqqəti olaraq tank, təyyarə, artilleriya, döyüş sursatı, tapança və sairədən tamamilə imtina edə bilərik. Lakin bununla yanaşı müasir tipli (məsələn «Aerokobra») qırıcı təyyarələrin göndərilməsinin artırılmasına bizim böyük ehtiyacımız var...»[25].

Ruzveltdən ayda 500 təyyarə[26] göndərilməsini xahiş edən Stalin daha sonra yazırdı: «Cəbhədəki vəziyyətə gəldikdə isə Siz, əlbəttə, bilirsiniz ki, son aylar bizim vəziyyətimiz cənubda, xüsusilə də Stalinqrad rayonunda təyyarələrin, əsasən də qırıcıların çatışmazlığı üzündən xeyli pisləşib. Məlum olub ki, almanların böyük təyyarə ehtiyatı var. Almanlar cənub cəbhəsində havada ən azı ikiqat üstünlüyə malikdirlər. Bu da bizə qoşunlarımızı havadan müdafiə etməyə imkan vermir. Müharibə təcrübəsi göstərdi ki, ən cəsur qoşunlar belə, əgər hava zərbələrindən qorunmurlarsa, tezliklə acizləşirlər»[27].

Buna cavab olaraq Ruzvelt yazırdı: «Sovet İttifaqına göndərilən qırıcı təyyarələrin miqdarının artırılması imkanlarını araşdırıram. Məsələ bundadır ki, istehsal olunan «Aerokobra»ların hamısı dərhal cəbhəyə göndərilir.

Hazırki vaxtda təxirəsalınmaz hərbi ehtiyacların Sizin üçün «Aerokobra»ların miqdarını artırmağa imkan verməməsinə baxmayaraq, Sizə daha çox təyyarə vermək üçün, başqa növlərin hesabına, bu növlərin istehsalını artırmağa ümid edirəm.

...Oktyabrda Sizə 276 döyüş təyyarəsi göndərəcəyik və onu tezləşdirmək üçün mümkün olan hər şey edilir»[28].

Beləliklə Bakıda istehsal edilmiş neft məhsullarının və ilk növbədə avia benzinin fasiləsiz olaraq Stalinqrad cəbhəsinə çatdırılması probleminin aradan qaldırılması son dərəcə vacib bir məsələnin, qırıcı təyyarələrin miqdarının artırılması məsələsinin də müsbət həll edilməsinə əlverişli imkan yaratdı. Bakı həm müttəfiqlərin göndərdikləri, həm də istehsalı SSRİ-də günbəgün artan sovet təyyarələrinin hamısını öz benzini ilə təmin etmək iqtidarında idi.

Sovet hərbi aviasiyasının yaradıcılarından biri olan A.Yakovlev müharibədən sonra yazırdı:

«Moskva məğlubiyyətindən sonra Hitler məcbur oldu ki, istər Moskvaya birbaşa zərbə vurmaq, istərsə də onu Kalinin – Volokolamsk – Tula istiqamətindən mühasirə edib məngənəyə salmaq planlarından imtina etsin. Alman komandanlığı 1941-42-ci ilin qışı ərzində öz qüvvələrini cəmləşdirib, didilib-dağılmış diviziyalarını, piyada, tank və aviasiya hissələrini yenidən tamamlayaraq, 1942-ci ilin yazında öz ordusunun bütün qüvvəsini Ukraynanı keçərək Don çayının döngəsindən Volqaya və Kubana doğru yönəltdi. Ona görə ki, Quzey Qafqazı və Bakını bir-birindən ayıraraq, işğal etməklə, bizim təyyarələrimizi, tanklarımızı, avtomobillərimizi yanacaqdan məhrum etsinlər»[29].

İstənilən qədər Bakı benzini ilə təmin olunan sovet aviasiyası Stalinqrad döyüşlərinin uğurla nəticələnməsində mühüm rol oynadı və bir qədər əvvəl böyük üstünlüyə malik olan alman aviasiyasına hətta ciddi tələfat da verə bildi. Bunu tanınmış təyyarə konstruktoru Yakovlev də təsdiq edirdi. O, alman hərbi tarixçisi Qreffrata istinad edərək yazırdı: «Alman hərbi-hava qüvvələri Stalinqrad ətrafındakı əməliyyatlar zamanı böyük itkilər verdilər. 1942-ci ilin noyabrın 19-dan dekabrın 31-nə qədər almanlar 3 minə qədər təyyarə itirdi»[30].

## TEXNİKA VƏ BENZİN NÖVLƏRİ

Mühərrikli hərbi texnikanın müstəsna əhəmiyyəti elə müharibənin ilk günlərindən SSRİ rəhbərliyinə bəlli oldu. Almanların müasir tipli



güclü döyüş potensialına malik olan tankları, təyyarələri ilə müqayisədə sovet texnikası olduqca acınacaqlı idi. Müttəfiqlərin tank və təyyarə daxil olmaqla hərbi yardımı olmasaydı, Hitlerin «Blits-kriq» ideyası çox güman ki, uğurlu da ola bilərdi. Odur ki, hərbi yardım ala-ala, Sovet İttifaqı özünün istehsal etdiyi tank və təyyarələrin keyfiyyətini o dövrün tələbləri səviyyəsinə qaldırmaq məcburiyyətində qaldı.

Müharibə dövründə ən məşhur sovet təyyarəsi «Yak» qırıcı təyyarələri idi. Onun yaradıcısı konstruktor Yakovlev Ali Baş Komandan Stalinin də iştirak etdiyi bir müşavirə haqqında belə yazırdı: «Müharibə vaxtı döyüş maşınlarını (tank, təyyarə) daim yaxşılaşdırmağa çalışırdılar. Bunu isə ağılla etmək lazımdır. Döyüş maşınlarını bütöv kompleks şəkildə nəzərə almadan onun zirehini birtərəfli şəkildə çalışdırmaq olmaz. Həm də unutmaq olmaz ki, tankın çəkisi artıb, mühərrik ki, əvvəlkidir. Belə ağırlaşma nəticəsində mühərrik həddən artıq yüklənmiş, çox gərilmiş oldu. Maşının etibarlılığı azaldı, tank keçmə və manevr etmə keyfiyyətlərini itirdi... Bu, aviasiyaya da aid idi. Orada da «təyyarələri və mühərrikləri yaxşılaşdırmağı» sevirdilər, - Stalin təyyarə mühərriklərinin gücünün artırılması, bununla əlaqədar aviasiya benzininin keyfiyyətinin yaxşılaşdırılması barədə danışırdı. O, əvvəllər buraxılan oktan ədədi B-74 benzini əvəzinə, oktan ədədi B-78 olan benzinin istehsalının artırılmasını tələb edirdi»[31].

Müşavirədə SSRİ neft sənayesi komissarı İ.Sedovun da iştirak etdiyini qeyd edən Yakovlev təyyarə mühərriklərinin gücünü artırmaq məqsədilə B-78 benzininin istehsalının artırılması barədə Stalinin ona qəti göstəriş verdiyini də xüsusi olaraq vurğulamışdı[32].

Şübhəsiz ki, belə göstərişlər bir qayda olaraq Bakıda həyata keçirilərdi. Odur ki, benzin istehsalını müharibənin daim artan tələbləri səviyyəsinə qaldırmaq üçün Azərbaycan alimləri Bakı neftayıranları ilə birlikdə yüksək oktanlı benzin istehsalını artırmağın yollarını axtarmağa başladılar.

Bakının neftayırma müəssisələrindən birində akademik Yusif Məmmədəliyevin ixtira etdiyi üsulla yüksək oktanlı alkilbenzol və onun komponentləri istehsal edilməyə başlanmışdı. Bunun səbəbinə neftayıranlar təyyarə yanacağının və sürtgü yağlarının istehsalını 30 faiz artırmağa nail oldular.

Nəticədə Bakı neftayırma müəssisələri birlikdə, qiymətli benzin növlərinin istehsalını xeyli artırdılar. Sülh dövrü ilə müqayisədə onlar, demək olar ki, üç dəfə artıq benzin istehsal edirdilər.

Cəbhənin istənilən qədər yüksək keyfiyyətli benzinlə fasiləsiz təmin edilməsi, artıq əsas etibarilə müasir təyyarələrlə təchiz olunmuş sovet aviasiyasının döyüş qabiliyyətini müstəsna dərəcədə artırdı. Stalinqrad döyüşlərində bu, xüsusilə aydın hiss olunurdu. Stalinqrad əməliyyatı sona yaxınlaşdıqca almanların havadakı əvvəlki üstünlüyü getdikcə zəiflədi, axırda müqavimət göstərmək iqtidarında belə olmadı. Bunun şübhəsiz ki, başqa səbəbləri də vardı. Fəqət bu, təbii ki, əsasən yanacaqla bağlı idi. Lakin bu barədə bir qədər sonra.

Almanların duru yanacaq sarıdan dəhşətli qıtlıq çəkdikləri bir zamanda Volqa sahillərinə doğru fasiləsiz olaraq axan Bakı benzini İkinci cahan savaşının hərbi-strateji cəhətdən ən taleyüklü, ən kövrək cəbhə bölgələrində əsaslı surətdə dönüş yaradan mühüm amillərdən biri oldu. Bunu ön cəbhədən gələn saysız-hesabsız xəbərlər, məktublar, cəbhə qəzetlərində dərc olunmuş yazılar da sübut edirdi. Doğrudur, onlar bir qayda olaraq kommunist ideologiyasına uyğun bir tərzdə təşkil edilib yazılırdı. Lakin hər halda onların mövcudluğu real faktlara əsaslandığı üçün müəyyən mənada maraq doğurmaya bilməz.

Bakı benzininə yüksək qiymət verən hərbi hissələrdən birinin döyüşçüləri yazırdı: «*Düşmən şiddətli surətdə müqavimət göstərir, lakin* biz sürətlə ona hücum edirik, geri oturdururuq və qırırıq. Bu işdə həmçinin Qızıl Ordunun döyüş maşınlarını yüksək keyfiyyətli benzinlə təmin edən Bakı neftçilərinin də xidməti böyükdür»[33].

Stalinqrad cəbhəsindən gələn başqa bir məktubda isə yazılmışdı: «Əziz dostlar və qardaşlar, Xəzər dənizçiləri! Çatdırdığınız yanacağa görə, sizə dərin cəbhə təşəkkürümüzü bildiririk. Düşmən istehkamlarını vaxtındaca dağıtmaqda o, bizim hücumçu təyyarələrə kömək elədi. Şöhrətli Bakı neftçilərinin çıxardığı, sizin isə çatdırdığınız yanacaq bizim şərəfli piyadalara hücuma keçmələri üçün yardım göstərdi»[34].

*Almanların isə təbii ki, belə imkanları yox idi. Və hətta təyyarə* istehsalında da bu cəhət mühüm önəm kəsb edirdi. Bu barədə Yakovlev yazırdı: «Müharibədən qabaq Almaniya yeni yaranmış dizel mühərrikləri olan «Yunkers» bombardmançı təyyarələrini çox reklam etmişdi. Dizelin üstünlüyü onun qənaətli olmasındadır; o yanacağı az işlədir. Bundan başqa dizel, bahalı benzin əvəzinə ucuz kerosin ilə işləyir. Məlum olduğu kimi Almaniyada müharibədən əvvəl aviasiya yanacağı sarıdan gərgin vəziyyət yaranmışdı.

Öz nefti olmadığına görə almanlar sintetik benzin istehsal etməyə məcbur idilər. Odur ki, kerosindən istifadə etmək imkanı onlar üçün fövqəladə əhəmiyyətə malik idi.



Lakin ilk baxışdan açıq-aydın görünən bu üstünlük təyyarələrin təcrübə nümunələrinin sınağı və istismarı vaxtı özünü doğrultmadı. Nəticədə dizelin alman aviasiyasında heç bir inkişafı olmadı»[35].

Böyük benzin imkanlarına malik olan Sovet İttifaqında isə aviasiya sənayesi hələ «1941-ci ildə 15735, ağır 1942-ci ildə, aviasiya müəssisələrinin köçürülməsi şəraitində 25436, 1943-cü ildə 34900, 1944-cü ildə 40300 və 1945-ci ilin birinci yarısında 20900 təyyarə istehsal etmişdi. Cəmi 137271 təyyarə»[36].

# XII FƏSİL

# QUZEY AFRİKADA HƏRBİ KAMPANİYALAR

Napoleon Bonapart qeyd edirdi: «Operativ-strateji istiqamətin dəyişdirilməsi dahilik aktıdır, lakin operativ-strateji istiqamətin itirilməsi elə bir bağışlanmaz səhvdir ki, onu etmiş general – canidir»[1].

Operativ-strateji istiqamət dedikdə mütəxəssislər konkret olaraq nəyi nəzərdə tuturlar və onun mənası nədən ibarətdir? Mütəxəssislərin fikrincə bu hərəkət istiqaməti deyil və taktiki vəziyyətin dəyişməsindən də heç cür asılı deyil. Operativ-strateji istiqamət elə bir istiqamətdir ki, birbaşa müharibənin ağırlıq mərkəzinə doğru aparır[2].

Müharibəni tədqiq edən qərb tarixçilərinin bir çoxu belə bir qənaətə gəlmişlər ki, İkinci dünya savaşının ağırlıq mərkəzi qüdrətli dəniz dövləti olan Britaniyanın iqtidardan salınmasından ibarət olmalı idi. Bunun üçün Britaniya adalarına birbaşa hərbi əməliyyatların keçirilməsi bir o qədər vacib sayılmırdı. İtaliya ilə müttəfiq olduqdan sonra Almaniyanın əlverişli strateji vəziyyəti imkan verirdi ki, müharibəni Aralıq dənizinə keçirsin və Misiri məğlub etməklə Britaniyanın hərbi dəniz qüdrətini köklü surətdə süquta uğratsın.

Hələ 1939-cu il mayın 23-də öz çıxışında Hitler belə demişdi: «Britaniya... bizim düşmənimizdir, onunla müharibə ölüm-dirim mübarizəsi olacaq... Britaniya – Almaniya əleyhinə olan əsas hərəkətverici qüvvədir»[3].

Üçüncü reyxin nüfuzlu rəhbərlərindən biri olan Görinq də Britaniya ilə mübarizəyə xüsusi əhəmiyyət verirdi. O dəfələrlə Hitlerə təklif etmişdi ki, Britaniyanın Aralıq dənizinə çıxmasına imkan verməsin. Həm də İtaliyanın müharibəyə qoşulması onsuz da Britaniyanın Aralıq dənizindəki hökmranlığını aradan qaldırmış və onun Misirlə dəniz vasitəsilə birbaşa əlaqəsinin kəsilməsinə səbəb olmuşdu.

Müharibədən sonra 1946-cı il sentyabrın 16-da general-feldmarşal Keytel bu məsələyə münasibətini belə bildirmişdi: «Rusiyaya hücum etmək əvəzinə biz gərək Aralıq dənizini bağlamaqla Britaniya imperiyasını

boğmalı idik. Bu əməliyyatın ilk addımı Cəbəlüttariqin ələ keçirilməsi olmalı idi...»[4].

Bəs Hitler bunu nəyə görə etmədi? Feldmarşal fon Rundştedtə görə Hitler belə hesab edirdi ki, «Rusiya ilə müharibə on həftədən artıq davam etməyəcək»[5].

Qraf Çiano isə öz gündəliyində belə qeyd etmişdi: «Almanlar belə hesab edir ki, hər şey səkkiz həftə ərzində həll olunacaq»[6].

Lakin Fuller bunun səbəbini başqa cür izah edir. Onun fikrinə görə səbəb ondan ibarətdir ki, «Hitler müharibənin ağırlıq mərkəzinin harada olmasını aydın təsəvvür etmirdi»[7].

Fullerə görə, məhz bu səbəbdən Hitler anlaya bilmirdi ki, «əsl operativ-strateji istiqamət Moskvaya yox, Londona doğru olan istiqamət idi»[8]. Lakin Fuller onu da qeyd edirdi: «Hitler operativ-strateji istiqaməti itirməmişdi. O, onu şüurlu olaraq tərk etdi və bunu etdikdən sonra nəhayət müharibəni də uduzdu»[9].

Halbuki Hitler hərbi əməliyyatları öncə nəzərdə tutulmuş istiqamətdə davam etdirməli idi: Aralıq dənizi, Misir, Şərqi Afrika və Orta Şərq. Bunun üçün əlverişli imkanlar da yaranmışdı. Qüvvələr nisbəti heç də Britaniyanın xeyrinə deyildi. General Ueyvellin komandanlığı altında Britaniyanın Orta Şərqdə cəmi 83 minlik bir ordusu cəmləşdirilmişdi. Onun 36 mini Misirdə, 9 mini Sudanda, 5,5 mini Keniyada, 1.475 nəfəri Britaniya Somalisində, 27.500-ü Fələstində, 2.500-ü Ədəndə, 800 nəfəri isə Kiprdə[10] yerləşdirilmişdi.

İngilislərlə üzbəüz dayanmış qüvvə isə xeyli böyük idi. Liviyada marşal Balbonun 215 minlik və İtaliya Şərqi Afrikasında hersoq Aostanın 200 minlik[11] ordusu vardı.

Nəticədə ağırlıq mərkəzi Misir olmaqla geniş bir coğrafi ərazidə Britaniya ilə İtaliya arasında 9 ay ərzində qanlı döyüşlər getdi.

Maraqlı cəhət burasıdır ki, İtaliya ordusunun hərbi üstünlüyünə baxmayaraq, birinci Liviya kampaniyasını, gözlənildiyinin əksinə olaraq, marşal Balbo yox, ingilis generalı Ueyvell başladı. Hücum əməliyyatları kiçik dəstələrlə, bir qayda olaraq gecə vaxtları həyata keçirilirdi. İngilislərin gah bu, gah da başqa bir yerdə həyata keçirdikləri gözlənilməz həmlələr italyanları əməlli-başlı çaşbaş salmışdı. 1940-cı il iyunun 28-də ingilis aviasiyasının hücumu nəticəsində marşal Balbo öldürüldü. Onun yerinə marşal Rudolfo Qratsiani təyin edildi. Mussolini ona qəti tədbirlər görməyi əmr etdi. Qratsiani Misir sərhəddini keçdikdən bir qədər sonra səhrada müdafiə zolaqları yaratmaq məqsədilə ordunun hərəkətini saxlamağı vacib bildi. Lakin general Ueyvell çox keçmədən,



oktyabrın 20-də ikinci Liviya kampaniyasına başlamağı üstün tutdu. Üç mərhələdən ibarət olan bu kampaniya da Britaniya silahlı qüvvələrinin tam qələbəsi ilə nəticələndi. İngilislərin müharibə ərzində həyata keçirdikləri ən cəsarətli hərbi əməliyyatlardan biri olan bu kampaniyada cəmi iki diviziya iştirak etməsinə baxmayaraq, təkcə 1940-cı il dekabrın 7-dən 1941-ci il fevralın 7-nə qədərki dövrdə 10 korpusdan ibarət olan (10 diviziya)[12] italyan ordusu darmadağın edildi. Nəticədə ingilislər 130 min əsir, 400 tank, 1240 top ələ keçirdilər[13].

Liviyada aparılan hərbi əməliyyatları xarakterizə edərkən Con Fuller yazır: «...heç şübhə yoxdur ki, əgər 1940-cı ilin payızında Liviyada italyanlara almanlar komandanlıq etsəydilər və əgər italyanlar kömək məqsədilə heç olmasa almanların bir tank və iki piyada diviziyasını əldə edə bilsəydilər, bu ağırlıq mərkəzi *(yəni müharibənin – müəllif)* ləğv edilə bilərdi və bütün Quzey və Şərqi Afrika, habelə Orta Şərq oxa *(Berlin – Roma oxu nəzərdə tutulur – müəllif)* daxil olan dövlətlərin tam sərəncamına keçə bilərdi. Britaniya və onun imperiyası üçün bu, fəlakət, Rusiyaya soxulmağı nəzərdə tutan Hitler üçün isə bu son dərəcə əlverişli şərait yaradardı. Belə ki, alman orduları rusların ən mühüm strateji rayonuna – Qafqazın neft mədənlərinə zərbə vurmaq üçün lap yaxınlaşmış olardılar»[14].

Bu bir daha sübut edir ki, Britaniya Almaniyadan fərqli olaraq, müharibənin ağırlıq mərkəzini daha düzgün müəyyən etmişdi. Odur ki, Stalinin dəfələrlə etdiyi təkidlərə baxmayaraq, əsas təhlükə, yəni Orta və Yaxın Şərqin işğal edilməsi təhlükəsi sovuşana qədər, Avropanın qərbində ikinci cəbhənin açılmasına heç bir vəchlə razılıq vermədi. Əksinə, Quzey Afrikanı daha mühüm müharibə səhnəsi hesab edərək, əsas diqqəti məhz bu bölgəyə yetirməyi daha vacib saydı. Görünür baş nazir Uinston Çörçill belə hesab edirdi ki, almanlar Orta və Yaxın Şərqi ələ keçirdikdən sonra Bakı neft mədənlərinə daha asanlıqla çata bilərlər, nəinki bütün Şərqi Avropanı keçib böyük bir coğrafi əraziyə malik olan Sovet İttifaqının hərbi qüdrətini darmadağın etmək vasitəsilə. Müharibənin Orta Şərqə keçirilməsi Almaniya üçün çox güman ki, daha perspektivli ola bilərdi. Bir tərəfdən Almaniyaya loyal münasibət bəsləyən Fransanın Vişi hökumətinin Suriyadakı mövqeyi istənilən dərəcədə güclü idi və lazım gəldikdə bu ərəb ölkəsi Almaniyaya yardımçı da ola bilərdi. Digər tərəfdən isə İranın Almaniyaya, yumşaq desək, loyal münasibəti də heç kimdə şübhə doğurmurdu. Əlverişli şərait yarandıqda Almaniya İranın da ona tam tərəfdaş olmağına şübhəsiz ki, tamamilə əmin ola bilərdi. Beləliklə də Bakı neft rayonunun ələ keçirilməsi son

dərəcə reallaşa bilərdi. Şübhəsiz ki, bunu Hitler də aydın dərk edirdi. Çünki belə olmasaydı, Almaniyanın İrandakı nüfuzu gündən-günə artmaz, siyasi-iqtisadi mövqeləri durmadan möhkəmlənməzdi. Digər tərəfdən 1941-ci il may ayının 2-də İraqda Böyük Britaniya əleyhinə baş qaldırmış üsyan və kömək almaq məqsədilə məhz Almaniyaya ünvanlanmış müraciət də çox mətləblərdən xəbər verirdi.

Görünür Hitler Orta Şərqi ələ keçirməyi bir o qədər də çətin iş hesab etmir, onun reallaşması üçün çox da böyük olmayan bir hərbi qüvvənin kifayət edəcəyini düşünürdü. Ola bilsin bölgədə cəmləşmiş Böyük Britaniya silahlı qüvvələrinin o qədər də çox olmayan ümumi sayı və mövcud hərbi-texniki imkanları onun bu qənaətə gəlməsinə səbəb olmuşdu.

Britaniya silahlı qüvvələrinin elə bir ciddi müqavimət göstərə bilməyəcəyini zənn edən Hitler, çox güman ki, ilk mərhələdə İtaliya silahlı qüvvələrindən istifadə olunmasını daha məqsədəuyğun sayırdı.

Liviyada və Eritreyada cəmləşdirilmiş 415 min nəfərlik İtaliya silahlı qüvvələri şübhəsiz ki, belə düşünməyə əsas verə bilərdi.

Lakin əvvəlcə marşal Balbonun, sonra isə ingilis aviasiyasının Tobruk şəhərinə hücumu nəticəsində həlak olan Balbonu əvəz edən marşal Qratsianin komandanlıq etdiyi italyan ordusunun düçar olduğu ağır məğlubiyyətlər və bununla da birinci və ikinci Liviya kampaniyalarının ingilislərin şübhəsiz qələbəsi ilə nəticələnməsi, almanların Orta Şərqə çıxmasını və beləliklə də bölgənin, habelə Bakı başda olmaqla Qafqazın neft mədənlərini ələ keçirmək perspektivini böyük şübhə altında qoydu. Belə olduqda Hitler təcili olaraq öz müttəfiqi Mussolininin köməyinə tələsdi. Fevralın 11-də alman silahlı qüvvələri Tripolitaniyaya çıxarıldı. Ayın 12-də isə «Afrika korpusu»nun komandanı Ervin Rommel Tripoliyə təşrif gətirdi. Bundan bir qədər əvvəl general Ueyvell sərəncamında olan Britaniya silahlı qüvvələrinin xeyli hissəsini Yunanıstana göndərmişdi. Odur ki, Quzey Afrikaya almanların hərbi qüvvə çıxarması barədə ingilislərdə məlumat olsa da, onun miqdarı onlara bəlli deyildi.

Rommelin Quzey Afrikaya gəlməsi hadisələri daha da sürətləndirdi. Çevik və gözlənilməz hücumlara üstünlük verən general Rommel artıq martın 31-də ciddi əməliyyata başladı. Onun sərəncamında yüngül tanklardan ibarət bir alman diviziyası və iki italyan diviziyası vardı.

Rommel əvvəlki Liviya kampaniyaları ilə müqayisədə hücum əməliyyatlarında əsaslı dəyişikliklər etdi. Onun əmrinə əsasən, alman diviziyasının ən mühüm və ilkin vəzifəsi ingilislərin duru yanacaq daşıyan avtomobil çənlərini mütəmadi olaraq məhv etməkdən ibarət idi.



Rommelin fikrincə bu, Britaniya silahlı qüvvələrinə vurulan ən ağır zərbə ola bilərdi. Çünki Britaniya ordusunun duru yanacaqla təchiz olunmasını, o, rəqibinin ən əsas problemlərindən biri hesab edirdi.

Beləliklə, böyük neft uğrunda başlanan üçüncü Liviya kampaniyası ilk növbədə rəqibin duru yanacaq ehtiyatlarını məhv etmək, onu yanacaq təchizatından məhrum etmək məqsədi güdürdü. Bunun, əlbəttə, məntiqi əsası vardı. Çünki o reallaşdığı təqdirdə Britaniya silahlı qüvvələrinin tərkibində olan tank hissələri və mexanikləşdirilmiş dəstələr, habelə aviasiya hərəkətsiz qalardı. Quzey Afrika səhralarının heç də əlverişli olmayan iqlim və coğrafi şəraitində bu, ağır nəticələrə gətirib çıxara bilərdi. Həm də nəzərə almaq lazımdır ki, kommunikasiya xətləri böyük bir ərazi boyunca uzanırdı və bu da öz növbəsində təbii ki, əlavə çətinliklər yaranmasına səbəb olurdu.

Maraqlı cəhət burasıdır ki, ingilislər də öz növbəsində almanların əlavə duru yanacaq əldə edə bilmələrinə mane olmaq üçün hər bir vasitədən istifadə etməyə çalışırdılar. Lakin bəzi hallarda bu, ingilislərin özləri üçün də ağır nəticələrə gətirib çıxarırdı. Belə ki, Rommelin başladığı hücumdan cəmi bir neçə gün sonra aprelin 3-də belə bir xəbər yayıldı ki, almanların güclü tank hissələri ingilislərin nəzarəti altında olan Zaviyet-Msusa yaxınlaşırlar. Belə olduqda gözətçilər almanların əlinə keçməsin deyə, mövcud yanacaq anbarını təcili surətdə yandırdılar. Bu, ingilislərə baha başa gəldi. Çünki heç də vacib olmayan bu tələskənliyin nəticəsində Britaniya qoşunlarının Kirenaikadakı komandanı general-leytenant Nimin tank hissələri tam yanacaqsız qaldı. Alman hücumlarını söngitmək, onun hərəkətini ləngitməli olan general Nim Benqazi şəhərini tərk edib, tələsik Vadi-Dərna, Əl-Məkili xəttinə çəkilmək məcburiyyətində qaldı.

Tezliklə məlum oldu ki, ingilislər bu xətti də müdafiə etmək iqtidarında deyillər. Rommelin ingilisləri hər vasitə ilə yanacaqdan məhrum etmək taktikası tez bir zamanda öz bəhrəsini verdi. Britaniyanın ikinci tank diviziyası yanacağa qənaət etmək məcburiyyətində qaldığına görə, general Nimin möhkəmlənmək istədiyi əl-Məkiliyə bir qədər gec, yalnız aprelin 6-da axşam çata bildi. Çünki, «yanacaq... daşıyan nəqliyyata havadan edilən şiddətli hücumlar irəliyə hərəkəti son dərəcə ləngidirdi»[1]. General Fuller: «yanacaq qıtlığı üzündən üçüncü tank briqadası buradan *(yəni Əl-Məkilidən – müəllif)* Dərnaya doğru hərəkət etdi və elə oradaca rəqib tərəfindən ələ keçirildi»[16].

Fəqət ingilislərin uğursuzluqları təkcə bununla bitmədi. Geri çəkilməkdə olan general Nimə kömək məqsədilə göndərilmiş general-

leytenant O'Konnor və digər yüksək rütbəli ingilis zabiti general Nim ilə birlikdə almanlar tərəfindən əsir götürüldü.

Britaniyanın Orta Şərqdəki qoşunlarının komandanı general Ueyvell vəziyyətin son dərəcə təhlükəli olduğunu başa düşdü və yaranmış şəraitdə yeganə düzgün qərar qəbul etdi. Tobruk limanında ingilislərin min tonlarla yanacaq ehtiyatı olduğunu və onun almanların əlinə keçə biləcəyi ehtimalının ciddiliyini nəzərə alaraq, sərəncamında olan qüvvələrin xeyli hissəsini onun müdafiəsinə yönəltməyi lazım bildi. Artıq aprelin 7-də yeddinci Avstraliya diviziyası və az miqdarda tank dəniz yolu ilə bu liman şəhərinə çatdırıldı. Aprelin 11-də isə Tobruk almanlar tərəfindən mühasirəyə alındı. Lakin intensiv döyüş əməliyyatları Rommelin ordusunu da möhkəm yormuşdu. Britaniya silahlı qüvvələri isə öz fəallığını artırmaq iqtidarında deyildi. Odur ki, döyüşlər tezliklə səngidi və üçüncü Liviya kampaniyası da sona yetdi. 12 gün davam edən bu kampaniya bir sıra maraqlı cəhətləri ilk dəfə olaraq üzə çıxardı. Bu, əsasən yanacaq məsələsi ilə bağlı idi. Daha dəqiq desək, «mexanikləşdirilmiş hissələrin yanacaqla təchizatı, yanacaq ehtiyatlarının hərəkətdə olmasının təmin edilməsi və nəqliyyatın hava hücumlarından mühafizə olunması *məsələləri»*[17] *son dərəcə mühüm önəm kəsb edən problem*lərdən biri oldu. Rommelin qısa vaxt ərzində əldə etdiyi qələbələr də ilk növbədə məhz bu amillərlə bağlı idi. İngilislərin böyük yanacaq ehtiyatı olduğu halda, ucsuz-bucaqsız Liviya səhralarında döyüş əməliyyatları aparan ordunun tank və mexanikləşdirilmiş hissələrini duru yanacaqla müntəzəm təmin edə bilmirdi. Bu, onunla əlaqədar idi ki, ingilislərin yanacaq ehtiyatı köhnə qayda ilə əsasən ambarlarda saxlanılırdı. Bu hələ Birinci dünya savaşında tətbiq olunan bir qayda idi və cəbhə hərəkətsiz olduğu halda onun faydalı olması şübhə doğurmurdu. Lakin Rommel əyani surətdə sübut etdi ki, mövcud döyüş əməliyyatlarında bu yolverilməz səhvdir. Çünki hərbi əməliyyatlar sürətlə inkişaf edir və komandanlığı təchizatla məşğul olan intendantlardan asılı etmək, onu sərbəstlikdən məhrum etmək deməkdir. Bu isə öz növbəsində böyük hərbi uğursuzluğa aparırdı. Rommel həm də onu sübut etdi ki, böyük yanacaq ehtiyatına malik olmaq, hələ hər şey demək deyil. Ondan səmərəli istifadə etməyi bacarmaq da son dərəcə mühüm şərtdir.

On iki günlük aprel qarşıdurması başqa bir cəhəti də qabartdı. İngilis tarixçisi, general Fuller yazır: «Afrika kampaniyası ilk növbədə göstərdi ki, Rommel və onun kiçik hərbi dəstəsi Qratsianinin məğlubiyyətindən sonra yox, əvvəl onun köməyinə göndərilsəydi, güman etməyə əsas var ki, ...Ueyvellin qoşunları Misirdən qovula bilərdi. Beləliklə, əgər taktiki cəhətdən Rommel lazımi yerə göndərilmişdisə, strateji nöqteyi-nəzərdən vaxtı düzgün müəyyən edilməmişdi. O, dörd ay gecikmişdi, və rəqibi darmadağın etmək üçün yox, müharibənin bütün gedişatını dəyişmək məqsədilə gəlmişdi. Almanlar lazım olan hər bir vasitəyə malik idilər, komandan da öz yerində idi, onun taktikası da çox yaxşı idi. Fəqət, Hitlerin strategiyası yanlış olduğundan Rommelin İskəndəriyyəyə çıxmaq cəhdləri də əbəs oldu, çünki lazımi strateji an əldən verilmişdi»[18].



İtaliya qoşunlarının Misirdə darmadağın edilməsinin Hitler üçün tamamilə gözlənilməz olduğunu qeyd edən alman tarixçisi general Kurt Tippelskirx yazır: «...Almaniyanın hərbi-hava qüvvələri İskəndəriyyəyə zərbə endirməli və Süveyş kanalını minalamalı idi ki, ingilis gəmiləri oradan keçə bilməsinlər. Əgər bu tədbirlər cəmi bir neçə ay əvvəl italyanlarla qarşılıqlı əlaqədə həyata keçirilsəydi, o zaman Quzey Afrikadakı hadisələr tamamilə başqa şəkil ala bilərdi. Lakin dekabrdakı gözlənilməz məğlubiyyət vəziyyəti əsaslı surətdə dəyişdirdi. Uğurlu hücumu inkişaf etdirmək üçün Almaniyanın planlaşdırdığı yardım isə indi yalnız fəlakəti sovuşdurmaq üçün bir vasitəyə çevrildi»[19].

Beləliklə, istər Fuller, istərsə də Tippelskirx qəti əmindirlər ki, *alman və italyan qoşunları lap əvvəldən birgə hərəkət etsəydilər, Brita*niyanı Orta Şərqdə böyük məğlubiyyətə uğrada bilərdilər. Nəticədə Orta və Yaxın Şərqin, habelə Qafqazın neft mədənlərinin almanların əlinə keçməsi son dərəcə reallaşa bilərdi.

Lakin buna baxmayaraq, Rommelin aprel qələbələri Böyük Britaniyanın baş naziri Çörçilli ciddi təşvişə saldı. O, ingilislərin məğlubiyyəti nəticəsində Quzey Afrikada yaranmış vəziyyəti olduqca ciddi və təhlükəli sayırdı. Və belə hesab edirdi ki, almanlar əldə etdiyi qələbələrlə kifayətlənməyəcək, zəfər yürüşünü durmadan davam etdirəcəklər. Lakin o, öz zənnində yanılmışdı. Alman komandanlığı, nə qədər təəccüblü olsa da, əldə etdiyi qələbələrlə hələlik kifayətləndi və müharibənin Quzey Afrika səhnəsinə əlavə qüvvələr göndərilməsini məhdudlaşdırdı. Bu vaxt Hitleri «SSRİ-yə qarşı yönəldilmiş «Barbaros» planı daha çox düşündürürdü. Quzey Afrikaya isə o, bir qədər əvvəl qeyd etdiyimiz kimi yalnız «Barbaros»-u reallaşdırdıqdan sonra qayıtmağı nəzərdə tuturdu. «Barbaros»u isə, bildiyimiz kimi, çox qısa vaxtda həyata keçirmək ümidində idi.

Baş nazir Çörçill isə öz növbəsində Quzey Afrikadakı mövqelərin itirilməsini Britaniyanın Yaxın Şərqdəki hərbi planları üçün haqlı olaraq ciddi təhlükə hesab edirdi. Odur ki, ingilislər öz əvvəlki mövqelərini bir qədər bərpa etmək məqsədilə almanlara qarşı bir sıra əməliyyat həyata keçirməyə çalışsalar da xeyri olmadı. Rommel qətiyyətlə bunun qarşısını

aldı. *Mayın 15-də ingilislər vacib strateji məntəqə sayılan Tobrukun mühasirəsini ləğv etməyə ciddi-cəhd göstərdilər.* Lakin bu da heç bir nəticə vermədi.

Almanların da, öz növbəsində, hərbi potensialı xeyli məhdud idi. Odur ki, Rommel istəsə belə hərbi əməliyyatları daha da genişləndirməyə imkan tapa bilmirdi. Bu onunla əlaqədar idi ki, «Barbaros» planı artıq hərəkətə gəlmişdi və Almaniyanın hərbi qüvvələrinin əsas hissəsi Sovet İttifaqının ərazisinə yeridilmişdi. SSRİ-ni tezliklə məğlub edəcəyinə şübhə etməyən Hitler Quzey Afrikadakı müharibə səhnəsini hələlik ikinci plana çəkməyi lazım bildi. Və əsas zərbəni Moskvaya yönəltməklə neft mənbələrinə aparan uzun və mürəkkəb yolun daha da uzanmasının və nəticədə həlledilməz bir problemə çevrilməsinin, özü də bilmədən əsas səbəbkarı oldu.

Fəqət, Çörçill yaxşı başa düşürdü ki, gec-tez Hitler öz nəzərlərini yenidən Quzey Afrikaya yönəldəcək və böyük neft uğrunda apardığı geniş müharibəni Liviya və Misir səhralarında davam etdirməyə çalışacaq. Odur ki, yaranmış fasilədən istifadə edərək Quzey Afrikadakı seyrəlmiş ingilis hərbi birləşmələrini yeni qüvvələrlə möhkəmlətməyə, Misirdə böyük miqdarda qoşun hissələri cəmləşdirməyə sərəncam verdi. Çörçill görünür hiss edirdi ki, almanlarla əsl qarşıdurma hələ irəlidədir. Sonrakı hadisələr sübut etdi ki, bu, həqiqətən də belədir.

Tezliklə Orta Şərqdəki Britaniya qoşunlarının rəhbərliyi də dəyişdirildi. Son vaxtlar böyük uğursuzluqlara düçar olmuş general Ueyvelli general Okinlek əvəz etdi. Tippelskirx qeyd edir: «Rommelin xoşbəxtliyindən tez bir zamanda Okinlek də almanların Afrika korpusunun əldə etdiyi misilsiz uğurların təsiri altına düşdü və anlaya bilmədi ki, təchizat alman-italyan qoşunlarının zəif yeridir. Odur ki, şəraitin tələb etdiyinin əksinə olaraq, öz hücumunu daha uzun müddətə təxirə saldı»[20].

Britaniya haqlı olaraq hesab edirdi ki, əvvəl-axır Almaniya ingilislərin Orta Şərqdəki hegemonluğuna son qoymaq üçün hər vasitədən və imkandan istifadə etməyə səy göstərəcəkdir. Baş verən hadisələr sübut edirdi ki, ingilislərə zərbəni təkcə Quzey Afrika səhralarında deyil, həmçinin Orta Şərqin özündə də vurmaq mümkündür. Və öz-özlüyündə bu, Britaniya üçün ən azı ciddi narahatlıq yarada bilərdi. Belə də oldu. Rommelin Liviyadakı hücumları ilə eyni vaxtda alman təbliğatı və kəşfiyyatı İraqda Britaniya əleyhinə yönəldilmiş fəaliyyətlərini daha da genişləndirdi. Nəhayət dövlət çevrilişi baş verdi. Almanların muzdlu agenti Rəşid əl-Qaylani İraqın baş naziri oldu. Vəziyyət ingilislərin əleyhinə kəskin surətdə pisləşdi. Rommelin uğurlu əməliyyatları fonunda bu, ingilislərə yaxşı heç bir şey vəd etmirdi. İraq neft mədənlərinin ingilislərin nəzarəti altından çıxmaq təhlükəsi yarandı. Britaniya təcili tədbirlər görməli idi. Tippelskirx yazır: «...İngilislər Şatt-əl-Ərəb vadisində öz maraqlarını qorumaq bəhanəsi ilə qoşunlarını Mosul rayonuna çıxarıb, oranı zəbt etdikdə, İraq hökuməti kömək almaq məqsədilə Almaniyaya müraciət etdi. Almaniya təyyarələr göndərdi, onların bir hissəsi fransızların mandatında olan ərazilərdə – Suriya və Livanda... yerə endilər»[21].



Şübhəsiz ki, Britaniya buna dözə bilməzdi. Həm də almanlar Suriyaya soxulmaqda davam edirdilər. Bunda Vişi hökumətinə sədaqətli qalan fransız qoşunlarının Suriyadakı komandanı general Dentsin də rolu az olmamışdı. Belə olduqda, hələ öz vəzifəsində qalmaqda davam edən ingilis generalı Ueyvell almanları Suriyadan qovmaq əmri aldı. Alman təyyarələrinin Fransanın mandatında olan ərazilərə enməsi, ingilislərə hərbi müdaxilə üçün göydəndüşmə bir bəhanə oldu. Tippelskirx qeyd edir: «İngiltərənin xarici işlər naziri bu hadisədən parlamentdəki çıxışında istifadə etdi, ingilis təyyarələri isə Suriya aerodromlarına bombalar tökdü...»[22].

Ueyvell 7-ci Avstraliya diviziyasının böyük bir hissəsini, habelə «Azad Fransa»ya sədaqətli olan fransız silahlı qüvvələrinin tərkibində olan bir neçə hərbi dəstəni Suriyaya girmək üçün Fələstinə yolladı. Bundan əlavə, ingilislərin İraqdakı silahlı qüvvələri hesabına Suriyaya müdaxilə etməyə hazırlaşan hərbi kontingent bir qədər də gücləndirildi. Nəhayət iyunun 8-də hərbi əməliyyatın başlanması əmri verildi. General Dentsin komandanlıq etdiyi qoşunlar ciddi müqavimət göstərsələr də, tab gətirə bilmədilər. *Dörd həftə çəkən döyüşlərdən sonra iyulun 11-də* general Dents barışıq təklif etdi. İngilislər bunu qəbul etdikdən sonra iyulun 14-də Suriyada işğal rejimi tətbiq edildi. Barışıq şərtlərinə görə İngiltərə Suriya və Livan üzərində idarəetmə hüququna malik oldu. Bundan bir qədər əvvəl iyunun 1-də İraqda Britaniya əleyhinə olan üsyanı yatırtmaqla ingilislər devrilmiş üsul-idarəni bərpa etdilər. Bununla da İraqın öz neft mədənləri ilə birlikdə Almaniyanın nəzarəti altına keçməsinin qarşısı qətiyyətlə alındı.

Lakin Orta Şərq uğrunda mübarizə bununla bitmədi. Yalnız Almaniyanın Sovet İttifaqına qarşı başladığı geniş miqyaslı hərbi əməliyyatla əlaqədar bir müddət səngidi. Hitler müharibənin ağırlıq mərkəzini Şərq, daha doğrusu, sovet-alman cəbhəsinə doğru yönəltdi. SSRİ ilə başladığı iti sürətli müharibəni başa vurduqdan sonra hərbi əməliyyatları Quzey Afrika istiqamətinə doğru yönəltməyi və Orta Şərq məsələsini də birdəfəlik həll etməyi planlaşdırırdı.

Bunu Britaniya komandanlığı da şübhəsiz ki, aydın başa düşürdü. Odur ki, Orta Şərqdəki hərbi hissələrini mümkün qədər gücləndirməyə çalışırdı. Bunun həyata keçirilməsində Malta adası mühüm önəm kəsb edirdi. Burada ingilislərin sualtı qayıq bazası və hərbi-hava bazası yerləşirdi. Məhz Maltanın hesabına ingilislər Quzey Afrikadakı qoşunlarını təchiz etmək imkanı əldə etmişdi. Aralıq dənizi rayonunda istər havada, istərsə də dənizdə hegemonluq büsbütün ingilislərə məxsus idi. Quzey Afrikadakı birləşmiş alman-italyan qoşunları üçün göndərilən hərbi yüklərin xeyli hissəsi mütəmadi olaraq ingilislərin həmlələri nəticəsində məhv edilirdi. Və bu göstəricilər gündən-günə, aydan-aya daha da artırdı. Almanlardan fərqli olaraq ingilislər Maltanın strateji əhəmiyyətini daha düzgün dərk etmişdilər. Bunu ingilis generalı Fuller də qeyd etmişdir. O yazırdı: «Nə qədər təəccüblü olsa da Almaniyanın ali komandanlığı başa düşmədi ki, son dərəcə vacibdir ki, Malta ya neytrallaşdırılmalı, ya da daha yaxşı olar ki, tutulmalıdır»[23].

Başqa bir məlumatda almanların bu məsələyə etinasız münasibəti haqda belə deyilir: «Alman ali komandanlığı aviasiyanın bir hissəsinin Balkan yarımadasından Aralıq dənizinin mərkəzi hissəsinə göndərilməsi barədə edilən bütün xahişlərə rədd cavabı verirdi. O inadkarcasına qurudakı müharibə naminə dənizdəki maraqlarını qurban verirdi. Alman ali komandanlığı italyan donanmasına hətta kifayət qədər neft belə buraxmamışdı»[24]. Bunun nəticəsi idi ki, Rommelə göndərilən bütün hərbi yüklərin və köməyin avqust ayında 35 faizi, oktyabrda isə 63 faizi məhv edildi»[25].

Fuller yazır: «Beləliklə Maltanın sayəsində general Okinlek, onun dəniz kommunikasiyalarının 12 min mil uzanmasına baxmayaraq, öz ordusunu daha tez gücləndirə bildi. Yalnız oktyabrın sonunda... alman ali komandanlığı yaranmış vəziyyətdən çıxış yolu axtarmağa səy göstərdi. Atlantik okeanından Aralıq dənizinə gec də olsa 25 sualtı qayıq keçirdi ki, onlar da noyabrın 13-də ilk qələbə əldə etdilər, Britaniyanın «Ark Royyal» təyyarə daşıyan gəmisini torpedo ilə suya qərq etdilər»[26].

Britaniya hərbi qüvvələrinin daim qüvvətləndirilməsinə çalışan Çörçill general Okinlekdən «cəsarətli addımlar atmağı və mümkün qədər qısa vaxt ərzində hücuma hazırlaşmağı təkidlə tələb edirdi»[27].

O, alman ordularının sovet-alman cəbhəsində, xüsusilə də Moskva yaxınlığında üzüntülü hərbi əməliyyatlara cəlb edilməsini nəzərə alıb, haqlı olaraq qeyd edirdi ki, yaranmış vəziyyətdən bəhrələnərək, «məhz indi onlara cəld və sarsıdıcı zərbə vurulması həlledici əhəmiyyət kəsb edir»[28].



Beləliklə, ingilislərin noyabrın 18-nə təyin edilmiş qəfil hücumu həm də dördüncü Liviya kampaniyasının başlanması demək idi. Hücum o dərəcədə gözlənilməz idi ki, hətta Rommel öz yerində deyildi. Komandanın Romada olmasından və rəqibin çaşqınlığından istifadə edən ingilislər, Çörçillin tələb etdiyi kimi, az bir vaxtda tank birləşmələrinin böyük fəallığı sayəsində və qarşı tərəfin ciddi müqavimət göstərmədiyi bir şəraitdə böyük bir ərazini öz nəzarətləri altına aldılar.

Lakin Rommelin təcili olaraq qayıtması və əməliyyatlara bilavasitə rəhbərlik etməsi vəziyyəti nəinki sabitləşdirdi, hətta ingilislərə bir sıra ağır zərbələr vurulmasına da səbəb oldu. Kampaniya gah bu, gah da digər tərəfin üstünlüyü şəraitində keçməklə son nəticədə almanların xeyli zəifləməsilə və Qərb istiqamətində geri çəkilməsilə nəticələndi. Dördüncü Liviya kampaniyası 1942-ci il yanvarın 17-də başa çatdı. Almanlar və italyanların itkisi 24.500 nəfər olduğu halda, Britaniyanın itkiləri 18 min nəfər təşkil edirdi[29].

## YENİ CƏHD

Növbəti Liviya kampaniyası çox tez başlandı. Fullerin beşinci adlandırdığı bu kampaniya əvvəlkilərdən əsaslı surətdə fərqlənirdi. Əvvəla almanların Moskva yaxınlığındakı gözlənilməz uğursuzluğu Hitleri Almaniyanın gələcək hərbi strategiyasına əhəmiyyətli dəyişikliklər etməyə məcbur elədi. Məğlubiyyətin əsas səbəbkarı sayılan feldmarşal fon Brauxiçi dekabrın 19-da istefaya göndərdikdən sonra Almaniyanın quru qoşunlarının komandanlığını da öz üzərinə götürən Hitlerin, nəhayət, yadına düşdü ki, axı başladığı bu nəhəng müharibə ilk növbədə xammal və ərzaq mənbələri, xüsusən də böyük neft uğrundadır. Qələbəni də Moskvada deyil, yalnız və yalnız cənubda, əsasən də Bakı və Orta Şərqin neft rayonlarında axtarmaq lazımdır. Odur ki, Qafqaz ilə yanaşı, Orta Şərq probleminin həlli də əsas diqqət mərkəzinə çevrildi. Əvvəllər buraxılmış strateji səhvlərin tez bir zamanda aradan qaldırılması üçün təcili tədbirlərə əl atıldı. Onlardan ən vacibi Aralıq dənizinin mərkəzi hissəsində üstünlüyün yenidən əldə edilməsi idi. Fuller yazır: «1941-ci ilin oktyabrında alman komandanlığı nəhayət başa düşdü ki, əslində bu lap əvvəldən açıq-aydın bəlli idi, Rommelin uğurlu fəaliyyəti üçün ilk növbədə Aralıq dənizinin mərkəzi hissəsində üstünlüyə malik olmaq və onu əldə saxlamaq vacibdir. Əvvəllər buna əhəmiyyət vermədiyinə görə, alman komandanlığı Quzey Afrikada təşəbbüsü rəqibinə verdi»[30]. Fuller

belə bir mühüm cəhəti də qeyd edir ki, «əgər 1941-ci ilin noyabrında Rommelin qoşunlarının gücü 50 faiz də artırılsaydı o, Tobruku ala bilərdi. Okinlek onun ordusuna hücum etməyə cürət etməzdi Tobrukun süqutundan sonra isə Rommel Misiri də ələ keçirə bilərdi»[31]. Bu da öz növbəsində Orta və Yaxın Şərqin neft mənbələrinin qapılarının almanların üzünə açılması üçün əlverişli şərait yaradardı. Bu, çox güman ki, İrana da güclü təsir vasitəsi olardı. Almaniyaya, yumşaq desək, loyal münasibət bəsləyən hərbi və siyasi dairələrin daha da fəallaşmasına gətirib çıxara bilərdi.

Zira, 1941-ci ilin payızında əsas zərbəni Moskvaya yönəltməklə, Hitler belə bir əlverişli fürsəti əldən verdi, nəticədə istər Qafqazın, istərsə də Yaxın və Orta Şərqin neft rayonlarına aparan yolların daha da uzanmasına səbəb oldu.

Dördüncü Liviya kampaniyası başa çatdıqdan dərhal sonra beşinci kampaniya start götürdü. Alman komandanlığı Aralıq dənizinin mərkəzi hissəsində təşəbbüsü ələ almaq əzmində idi. Malta yenidən almanların diqqət mərkəzinə çevrildi.

Hələ beşinci kampaniya başlamamışdan bir qədər əvvəl Aralıq dənizinə gətirilmiş alman sualtı qayıqları Britaniya donanmasına ciddi zərbələr endirmiş, «Ark Royyal» təyyarədaşıyan gəmisindən başqa, «Barhem» linkorunu, «Neptun» və «Qalateya» kreyserlərini, «Qəndahar» esminetsini, «Persey» və «Triumf» sualtı qayıqlarını[32] da məhv edə bilmişdi.

«Beləliklə, 1941-ci ilin sonunda Aralıq dənizinin şərq və mərkəzi hissələrində hökmranlıq uğrunda mübarizə aparmaq üçün Britaniyanın cəmi 3 kreyseri və az miqdarda esminetsi qalmışdı. Almanların dənizdə əldə etdiyi üstünlüyün dərəcəsi onunla ölçülür ki, 1942-ci ilin yanvarında Afrika korpusuna göndərilmiş yüklərin hamısı heç bir itki olmadan gəlib çatmışdı. Yanvarın 21-də Rommel əks-hücuma keçə bildi və fevralın 7-də yenidən əl-Qazalıya çatdı»[33].

Yanvar ayından başlayaraq Maltaya alman-italyan aviasiyasının hücumlarının ardı-arası kəsilmədi. Dağıntılar o dərəcəyə çatmışdı ki, Malta hərbi-dəniz bazası kimi öz əhəmiyyətini artıq itirmişdi. Lakin ingilislər adanı hər vəchlə müdafiə etməyə səy göstərir, onu heç olmasa hava bazası kimi qoruyub saxlamağa çalışırdılar. Bu onu göstərir ki, Maltanın strateji əhəmiyyəti hər iki tərəf üçün həqiqətən böyük idi. Hərbi yüklərin çatdırılması böyük çətinliklərlə üzləşirdi. Yanacaqla təchizat vaxtaşırı böyük bir problemə çevrilirdi. Odur ki, ingilislər bir çox hallarda yanacağı sualtı qayıqlarla daşımağa məcbur olurdular.



Ümumiyyətlə, 17 gün davam edən beşinci Liviya kampaniyasının da nəticələri Britaniya üçün uğurlu sayıla bilməzdi. Fuller yazır: «İngilislərin havada hökmranlıq etməsinə baxmayaraq, Rommel 17 gün ərzində 350 mil* qət etdi»[34]. İngilis generalı Dremmond isə buna əlavə edir: «Ümumiyyətlə havadan heç bir kömək olmadan»[35].

Liviya kampaniyasının təhlili bir sıra maraqlı cəhətləri də aydınlaşdırmağa və lazımi nəticə çıxarmağa imkan verir. Onlardan biri duru yanacaqla bağlıdır və o, Liviyadakı hərbi əməliyyatlarda az əhəmiyyət kəsb etmirdi. Döyüşlərdə tanklardan geniş istifadə olunması və bir çox taleyüklü əməliyyatlarda onların həlledici rolu, tanklara qarşı mübarizəni son dərəcə aktual problemə çevirirdi.

«Tank hissələrinin səmərəli surətdə buxovlanması, yanacaq ehtiyatlarının məhv olunması və onların həmin ehtiyatlardan məhrum edilməsi, yaxud da uzaqlaşdırılması ilə mümkündür. Tanklar yanacaqsız faydasız olurlar...»[36].

Fullerin gəldiyi bu nəticə İkinci cahan savaşının cərəyan etdiyi ən müxtəlif bölgələrdə dəfələrlə təsdiqləndi. Xüsusilə də Qafqaz və Stalinqrad uğrundakı döyüşlərdə. Halbuki hələ 1941-ci ilin payızında Moskva ətrafındakı döyüşlərin ən həlledici məqamlarında almanların güclü tank birləşmələri yanacaq qıtlığından xeyli əziyyət çəkirdi.

Lakin Qafqaz və Stalinqrad əməliyyatları zamanı yaranmış katastrofik xarakter daşıyan yanacaq çatışmazlığı sonda almanlar üçün böyük hərbi fəlakətlə nəticələndi. Ümumiyyətlə 1942-ci ilin hadisələri yanacaq problemini birmənalı şəkildə ön plana çəkdi. Müharibə səhnəsinin gündən-günə genişlənməsi və onun üzüntülü xarakter alması yanacağın strateji əhəmiyyətinin son dərəcə vacib olduğunu sübut etdi. Tam qətiyyətlə söyləmək olar ki, 1942-ci il böyük neft uğrunda müharibəyə çevrildi. Çünki açıq-aydın görünürdü ki, Birinci dünya savaşının sonunda olduğu kimi, mühüm hərbi əməliyyatların marşrutu şüurlu surətdə neftlə zəngin olan bölgələrə doğru uzanır. Lakin bu yolda müxtəlif maneələr və əngəllər də az deyildi.

Gah sovet-alman, gah da Quzey Afrika və Aralıq dənizində öz fəallığını artıran Almaniya tezliklə iri neft mənbələrinə çıxmağa çalışırdı. Sovet İttifaqına qarşı 1942-ci ilin yay kampaniyasını hazırlamaqla yanaşı, alman komandanlığı vaxt itirmədən, Quzey Afrikadakı əməliyyatlara yeni impuls verməklə tez bir zamanda strateji qələbəyə nail olmaq əzmində idi. Həm də, bir tərəfdən bütün cəhdlərə baxmayaraq neft mənbələrinə

---

* 1 mil – 1,609 kilometrə *(quru nəzərdə tutulur - müəllif)* bərabərdir.

çata bilməməsi, digər tərəfdən isə onu müntəzəm olaraq yanacaqla təmin edən Rumıniya neft mədənlərinin istənilən vaxt Britaniya aviasiyasının həmlələrinə hədəf ola biləcəyi ehtimalı Hitleri narahat etməyə bilməzdi. SSRİ-yə qarşı başlanacaq yay kampaniyasına hələ çox qalırdı. Belə şəraitdə alman komandanlığı əvvəllər buraxdığı səhvi təcili surətdə aradan qaldırmağa çalışdı. Bu səhv nədən ibarət idi? Ondan ibarət idi ki, Orta Şərqin neft mənbələrinə gedən yol Misirdən keçirdi. Bu yolda ən böyük maneələrdən biri Britaniya hərbi-dəniz qüvvələri idi. Misirə aparan yol isə Maltadan keçirdi. Maltanı ələ keçirməklə Rommelin təchizatını daha yüksək səviyyəyə qaldırmaq olardı. Ancaq yanacaq problemi çox güman ki, burada da özünü göstərmişdi. Maltaya hücum əməliyyatı iyul, ən gec avqusta nəzərdə tutulmuşdu. Lakin «Mussolini Hitlerə yazdı ki, əgər bizim 40 min ton neftimiz olmasa, biz əməliyyatı (Maltaya soxulmaq) qeyri-müəyyən vaxta qədər təxirə salmağa məcbur olacağıq»[37].

Londonda çıxan «Observer» qəzeti 1947-ci il 8 iyun tarixli sayında Hitlerin öz admiralları ilə keçirdiyi müşavirənin protokollarına istinad edərək yazırdı: «1942-ci il aprelin sonunda Mussolininin iştirakı ilə keçirilmiş hərbi şurada qərara alındı ki, mayın sonunda, yaxud iyunun əvvəlində Liviyada hücuma keçmək, sonra da iyunun ortasında Maltanı tutmaq və yalnız bundan sonra Qahirəyə və Süveyş kanalına həlledici hücuma başlamaq lazımdır. Alman donanması tərəfindən daim təkidlə əhəmiyyəti qeyd edilən Maltaya qarşı iri miqyasda planlaşdırılan əməliyyat italyan qüvvələri ilə deyil, əsas etibarilə alman qüvvələri ilə yerinə yetirilməli idi... Lakin iyulun əvvəlində Rommelin əldə etdiyi uğurların hədsiz təsirinə qapılan Hitler nə italyanlarla, nə də özünün dəniz qərargahı ilə məsləhətləşmədən Malta əməliyyatını gözlənilmədən ləğv etdi. Əməliyyat «Misirin işğalı» başa çatana qədər təxirə salındı və əməliyyat üçün nəzərdə tutulmuş sursat Rommelə göndərildi»[38]. Ola bilsin ki, Hitlerin bu qərarına Mussolininin Malta əməliyyatını həyata keçirmək üçün ondan 40 min ton neft tələb etməsi də müəyyən dərəcədə təsir etmişdi. Çünki SSRİ-nin cənubunda geniş miqyaslı yay kampaniyasına hazırlaşan Almaniyanın yanacaq ehtiyatları şübhəsiz ki, tükənməz deyildi. Həm də kampaniyanın keçiriləcəyi ərazinin miqyasını, əməliyyatlarda iştirak edəcəyi ehtimal olunan motorlaşdırılmış texnikanın, habelə müxtəlif tipli təyyarələrin miqdarını nəzərə alsaq, duru yanacaq amilinin nə dərəcədə önəmli olduğu tamamilə aydın olar. Eyni zamanda sovet cəbhəsində olan alman orduları ilə yanacaq mənbələri arasındakı məsafə də xeyli artmışdı. Yay kampaniyasının başlayacağı təqdirdə bu məsafə, təbii ki, daha da artacaqdı. Bu da öz növbəsində qoşunların yanacaqla təchizatını xeyli çətinləşdirə bilərdi. Şübhəsiz, alman komandanlığı da bu mühüm amili nəzərə almaya bilməzdi. Həm də yanacaq qıtlığının nə olduğunu almanlar artıq öz təcrübələrində hiss etmişdilər. Xüsusilə də Moskva ətrafındakı həlledici döyüşlərdə.



Beləliklə, italyanların ilk növbədə Maltanı tutmaq barəsində dəfələrlə etdiyi təkidlərə baxmayaraq, alman komandanlığı hərbi əməliyyatlara əvvəlcə Liviyada başlamağı qərara aldı.

Onu da qeyd etmək vacibdir ki, italyan komandanlığı Malta əməliyyatı üçün külli-miqdarda aviasiyadan istifadə etməyi təklif etmişdi. Bu da öz növbəsində şübhəsiz ki, müntəzəm olaraq külli miqdarda benzin tələb edəcəkdi. Ola bilsin alman komandanlığı bu cəhəti də ətraflı təhlil etmiş və mövcud hərbi-strateji şəraiti nəzərə alaraq onu qeyri-məqbul saymağa məcbur olmuşdu. Çünki hər iki əməliyyatı eyni zamanda aparmaq və yanacaqla təchiz etmək mümkün ola bilməzdi.

Nəhayət, aprelin 30-da Oberzaltsberqdə Mussolini ilə Hitler arasında görüş keçirildi. Hitler Liviyada hərbi əməliyyatları mayın sonunda başlamağı təklif etdi. Maltaya qarşı əməliyyatı isə iyunun ortalarına qədər təxirə salmağı məsləhət gördü və onun uğurlu olmasını təmin etmək üçün texniki yardım göstərəcəyini də vəd etdi. Nəticədə Mussolini Hitlerin təklifləri ilə razılaşmalı oldu və İtaliya silahlı qüvvələrinin baş qərargahının rəisi marşal Kavalleronu mayın 5-də Liviyaya, Rommelin qərargahına yola saldı. Kavallero Rommelin Tobruku tutmaq təklifi ilə tam razı olduğunu bildirdi. Tobruk mühüm strateji məntəqə sayılırdı və Misiri ələ keçirmək yolunda əsas maneə rolu oynayırdı. Odur ki, onun Malta əməliyyatı başlanana qədər, yəni iyunun 20-dən gec olmayaraq ələ keçirilməsi son dərəcə vacib hesab edilirdi. Lakin başlamaqda olan və Fullerin «altıncı» adlandırdığı yeni Liviya kompaniyası Britaniya üçün də az əhəmiyyət kəsb etmirdi. Sonrakı hadisələr göstərdi ki, bu həqiqətən belə idi. Alman qoşunlarının 1942-ci ilin yay kompaniyası dövründə böyük sürətlə Qafqaza doğru irəlilədikləri və bir sıra ciddi qələbələri fonunda, onların Quzey Afrikadakı hərbi uğurları son dərəcə ciddi narahatlığa səbəb olmuşdu. Çünki hərbi əməliyyatların hər iki cəbhədə almanların ssenarisi əsasında cərəyan etməsi, müharibəni Hitlerin nəzərdə tutduğu və arzuladığı məntiqi sonluqla nəticələndirə bilərdi. Bu da ilk növbədə istər Yaxın və Orta Şərqin, istərsə də Bakı başda olmaqla Qafqazın neft mənbələrinin tam ələ keçirilməsi demək idi. Bu, reallaşdığı təqdirdə həm Britaniyanın, həm də SSRİ-nin gələcək perspektivi, yumşaq desək, son dərəcə dumanlı ola bilərdi. Odur ki, Britaniya haqlı olaraq Quzey Afrikada strateji təşəbbüsü əldə saxlamağı olduqca vacib

sayırdı. Bu münasibətlə Tippelskirx yazır: «İngiltərə hökumətinə olduqca vacib idi ki, Okinlek mümkün qədər tez hücuma keçsin. Nəinki təkcə Maltanın vəziyyətinin yüngülləşdirilməsi tələb edilirdi; Quzey Afrika həm də yeganə «ikinci cəbhə» idi və bununla da Stalinin müntəzəm olaraq etdiyi müraciətlərə cavab vermək istəyirdilər. Çörçill Yaxın Şərqdəki ingilis komandanlığını may ayının ortalarında hücuma keçməyə çağırırdı. Lakin o qəti imtina etdikdə, bunu iyunun əvvəlindən gec olmayaraq etməyi tələb etdi»[39]. Daha sonra Tippelskirx belə bir cəhəti də qeyd etməyi vacib bilir: «Beləliklə, iki komandandan biri cürət edib hücuma birinci olaraq başlamalı idi»[40].

Rommel birinci başladı və çox keçmədən təşəbbüsü öz əlinə aldı. İngilislərin ciddi müqavimətinə baxmayaraq, o, nəzərdə tutduğu planı addım-addım həyata keçirməyə başladı. İyunun ilk günlərində bir sıra uğurlar qazanan Rommel iyunun 12-də özünün tank hissələrinin bilavasitə iştirakı ilə keçirilən və iki gün davam edən döyüşlərdə ingilislərin iki zirehli-tank diviziyasından ibarət olan zərbə qrupunu darmadağın etdi. Mühasirəyə düşmək təhlükəsi ilə üzləşən ingilis diviziyaları təcili olaraq geri çəkilmək məcburiyyətində qaldılar. Nəticədə darmadağın edilmiş hər iki zirehli tank diviziyası böyük itkilər verməklə, 300 kilometrdən artıq səhra yollarını qət edərək özlərini nəhayət Misirə çatdırdı. Bundan sonra ingilislərin mühüm hərbi bazası olan Tobrukun gələcək taleyi havadan asılı vəziyyətdə qaldı. Vəziyyətin ağırlığı həm də onunla izah olunurdu ki, şəhər mühasirəyə düşdüyü təqdirdə, ingilislərin dəniz donanması onu, əvvəllər olduğu kimi, təchiz etmək iqtidarında deyildi.

Lakin buna baxmayaraq, ingilislər müəyyən mənada tərəddüd etsələr də Tobruku müdafiə etmək qərarına gəldilər.

İyunun 17-nə qədər, böyük çətinliklə olsa da, onlar buna müvəffəq olurdular. Belə olduqda Rommel təzyiqi daha da gücləndirdi və bir sıra gözlənilməz manevrlər edərək rəqibi çıxılmaz vəziyyətdə qoydu. İyunun 19 və 20-si Tobrukun taleyini həll etdi. İyunun 21-də səhər tezdən Rommelin qoşunları şəhərə daxil oldu. Fuller yazır: «Ümumi təslim olma yox idi, ümumi tarmar var idi»[41]. Rommel bununla kifayətlənmək istəmədi. İki günlük fasilədən sonra əsas qüvvələrini almanların çoxdan arzuladıqları Liviya-Misir sərhəddinə doğru yönəltdi və iyunun 23-də nəhayət. Misir sərhəddini keçməyə müvəffəq oldu. Tobrukun ələ keçirilməsi ingilislərin orada topladıqları böyük miqdarda hərbi sursatın da almanların ixtiyarına keçməsi ilə nəticələndi. Hitler hələ Tobruk tutulmamışdan əvvəl orada toplanmış hərbi ehtiyatlara böyük ümid bəsləyirdi. Lakin bu ümidlər tam doğrulmadı. Bunu Tippelskirx də qeyd edir. O yazır:



«...Sonralar məlum oldu ki, o, *(hərbi qənimət – müəllif)* qoşunların böyük ehtiyac duyduğu yanacaq deyil, ərzaq ehtiyatlarından ibarətdir»[42].

Ümumiyyətlə, sonrakı hadisələr göstərdi ki, sovet-alman cəbhəsində olduğu kimi, yanacaq problemi burada da dəfələrlə özünü göstərmiş və bir çox hallarda qarşıdakı əməliyyatlarda da həlledici amillərdən biri olmuşdu. Hələlik isə əldə edilmiş qələbələrdən məst olan Hitler Rommel ilə həmrəylik göstərərək, hücum əməliyyatlarını davam etdirməklə Misirin işğalını mümkün qədər tezləşdirməyə çalışdı. Lakin Hitlerin bu planı Mussolinini heç cür təmin etmirdi. O, aprelin 30-da Oberzaltsberqdə əldə edilmiş razılaşmanı əldə əsas tutaraq Malta əməliyyatını ön plana çəkməyi Hitlerə israrla məsləhət görürdü. Lakin ona göndərdiyi cavab sübut edirdi ki, Hitleri öz fikrindən daşındırmaq indiki vəziyyətdə qeyri-mümkündür. Hitler yazırdı: «...Misirin işğalı müstəsna dərəcədə mühüm əhəmiyyətə malikdir və gələcəkdə İtaliyanı bütün qayğılardan azad edəcəkdir»[43].

*General E.Rommel*
*Liviyada*



Şərq cəbhəsini əsas müharibə səhnəsi hesab etməsinə baxmayaraq, hərbi mütəxəssislərin fikrincə, Hitler «Misirin ələ keçirilməsinə son dərəcə mühüm önəm verirdi»[44]. Çünki, Hitler başa düşürdü ki, Almaniya heç vaxt zəngin neft mənbələrinə indiki qədər yaxın düşməmişdi. Rommelin qələbələrindən ruhlanan Hitler ona feldmarşal rütbəsi verdi və bununla da ona hər cəhətdən etibar etdiyini, onun hərbi planlarını bundan sonra da dəstəkləyəcəyini bildirdi. Beləliklə, Hitlerin böyük etimadını qazanan feldmarşal Rommel Üçüncü reyxin Hitlerdən sonra, demək olar ki, ikinci hərbi fiquruna çevrildi. Lakin ədalət naminə qeyd etmək lazımdır ki, Rommelə edilən bu etimad heç də əbəs deyildi. Bu, ilk növbədə onun nadir hərbi istedadı ilə əlaqədar idi. Bunu onun rəqibləri də qiymətləndirməyi vacib sayırdılar. İngilis hərbi tarixçisi Aleksandr Klifford Rommelə həsr etdiyi kitabında yazırdı: «Rommel öz hissələrini səhrada dərhal istənilən tərəfə yönəldə bilirdi, çünki bir qayda olaraq özü komandanlıq edirdi. O, başa düşürdü ki, öz donanması ilə dənizə çıxan və döyüşün ən qəliz nöqtəsində olmaqla ona rəhbərlik edən admiral kimi, səhradakı tank döyüşlərində də komandan hadisə yerində olmalıdır. Bütün vacib informasiyanı vasitəçilər birbaşa ona çatdırırdılar. O, bir neçə saniyəyə qərar qəbul edər, bir neçə dəqiqəyə əmr verə bilərdi. Rommel döyüşlərin bütün gedişatını, bu xəbərlər Britaniya qərargahına göndərilənə qədər dəyişə bilirdi»[45].

Tippelskirx isə onun haqqında belə yazırdı: «Rommel kimi görkəmli bir adamın fəaliyyəti, iki il ərzində Quzey Afrikadakı hərbi əməliyyatlarda öz izini qoymuş, onun özü isə nəinki dostlarının, həmçinin düşmənlərinin də gözündə əfsanəvi şəxsiyyət olmuşdu»[46].

Rommelin Quzey Afrikadakı fəaliyyətinin ən parlaq və ümdə cəhəti, onun tank qoşunlarından maksimum və son dərəcə məharətlə istifadə etməsidir. Liviya kampaniyalarındakı döyüş əməliyyatlarında tank birləşmələri daha çox iştirak edirdi. Mühüm əməliyyatların taleyini də məhz tanklar həll edirdi. Rommelin müharibənin Quzey Afrika səhnəsinə gətirdiyi ən böyük yenilik də məhz bundan ibarət idi. Rommel mövcud şəraitdə piyada hissələrinə ikinci dərəcəli önəm verirdi. Onun əsas zərbə gücü tank birləşmələri idi. Bu sahədə o, ingilisləri xeyli qabaqlamışdı. Əsir düşmüş yüksək rütbəli ingilis zabiti ilə söhbət zamanı o belə demişdi: «...Əgər siz öz tank qüvvələrinizi səpələyərək, onları hissə-hissə əzmək üçün mənə imkan verirsinizsə, o zaman mənim bir tankıma qarşı sizin iki tankınızın olmasının nə faydası? Siz mənə qarşı növbə ilə 3 briqada yönəltmisiniz»[47].



Lakin böyük ərazidə aparılan intensiv tank döyüşləri çoxlu yanacaq da tələb edirdi. Alman komandanlığı hər vəchlə bu tələbatı ödəməyə çalışırdı. Hətta Mussolininin təkidlərinə baxmayaraq Malta əməliyyatını təxirə salmaq yolu ilə olsa belə. Görünür Hitler neft mənbələrinə tezliklə çatacağına son dərəcə arxayın idi. Rommelin qələbələri bunu həqiqətən də reallaşdıra bilərdi. Odur ki, Rommelin tərtib etdiyi plan Hitlerin də ürəyindən idi.

«İndi onun birinci məqsədi... əl-Alameyn, ikincisi Nil çayı idi. Ona görə ki, sonra İskəndəriyyəni ələ keçirsin, ya da Qahirəyə qədər irəliləsin»[48].

Rommelin fikrincə ingilislərin mövcud hərbi qüvvəsi Nil çayının 80 kilometrlik sahəsini müdafiə etmək iqtidarında olmayacaq və Süveyş kanalına doğru çəkilmək məcburiyyətində qalacaq ki, bu da onların təchizatında ciddi çətinliklər yaradacaqdır. Onun nikbinliyi italyanları da ruhlandırdı və onlar öz nəzərlərini Maltadan Misirə tərəf yönəltdilər. İyunun 30-da Rommel Qahirədə və ya İskəndəriyyədə olmağı planlaşdırmışdı. Ancaq mümkün olmadı. Alman-italyan qoşunları həmin gün yalnız əl-Alameynə çata bildilər. Qahirəyə isə hələ 100 kilometr qalırdı. İngilislərin vəziyyəti son dərəcə kritik bir xarakter almışdı. Lakin Rommel özündən asılı olmadan, uğurla başladığı bu hücum əməliyyatını davam etdirə bilmədi. Ordu yorulmuş, texniki imkanları xeyli azalmışdı. Alman tank diviziyalarında 370 əvəzinə 50 tank[49] qalmışdı. İtalyanların isə 75 tankı[50] vardı. Rommelə mane olan başqa bir səbəb də vardı. Tropik şəraitdə döyüşlər aparmaq üçün xüsusi hazırlanmış və Rommelin sərəncamına verilməli olan iki tank diviziyası, SSRİ-nin cənubunda başlanan yay kampaniyası ilə əlaqədar, təcili sovet-alman cəbhəsinə göndərildi. Əgər belə olmasaydı, çox güman ki, Rommel qarşısına qoyduğu məqsədə çata bilərdi. Lakin Hitler Qafqazı daha üstün tutdu.

İngilislər isə döyüşlərin sengiməsindən istifadə edib Misirə əlavə qüvvələr gətirməyə, tank hissələrinin sayını xeyli artırmağa nail oldular. Nəhayət müəyyən qədər qüvvə toplamış ingilislər bir neçə dəfə əks-hücuma keçməyə də cəhd göstərsələr də diqqəti cəlb edən uğurlar əldə edə bilmədilər. Tezliklə ingilislərin də fəallığı azaldı. Altıncı Liviya kampaniyası cəbhənin nisbi sabitləşməsi ilə başa çatdı. Lakin Britaniya komandanlığı qarşısında çoxlu problemlər də qoydu. Çünki Misirin işğalı hələ də gündəlikdə dururdu. Hitler isə böyük neft uğrunda mübarizənin ən ciddi, ən taleyüklü mərhələsinə başlamışdı.

# XIII FƏSİL

## «LEND-LİZ» – MÜTTƏFİQLƏRİN STRATEJİ YARDIMI



SSRİ ilə Almaniya arasında başlanan müharibə beynəlxalq vəziyyətin kəskin surətdə dəyişməsinə səbəb oldu. Bunu nəzərə alaraq ABŞ prezidenti F.Ruzvelt və Böyük Britaniyanın baş naziri U.Çörçill 1941-ci il avqustun 9-dan 12-nə kimi Nyufaundlend adasındakı Arcentin buxtasında sonralar «Atlantika konfransı» adlanan bir görüş keçirdilər. Görüşdə əldə edilmiş razılıqlar əsasında tərtib edilmiş birgə bəyannamə avqustun 14-də ictimaiyyətə çatdırıldı. Tarixə «Atlantika xartiyası» kimi daxil olan bu sənədin əsas prinsipləri Sovet İttifaqı tərəfindən də bəyənildi.

Konfransda Sovet İttifaqına silah və digər strateji materialların verilməsi məsələsinə də baxıldı və müvafiq qərar qəbul edildi. Onun nəticələri Ruzvelt və Çörçillin dərc edilmiş birgə göndərişində elan olundu.

SSRİ-yə ABŞ, Böyük Britaniya və Kanada dövlətləri tərəfindən edilən hərbi-texniki yardım böyük həyati əhəmiyyət kəsb edirdi. Bu, 1942-ci ilin yay kampaniyası dövründə xüsusilə əvəzedilməz idi. Sovet-alman cəbhəsinin cənub cinahında yaranmış təhlükəli vəziyyət koalisiyaya daxil olan bütün dövlət başçılarını eyni dərəcədə narahat edirdi. Belə şəraitdə İran körfəzindən Xəzər dənizinə qədər yaradılmış tranzit yükdaşıma marşrutu son dərəcə əvəzsiz idi. Şimal marşrutundan xeyli uzun olmağına baxmayaraq, bu marşrut öz təhlükəsizliyi ilə əsaslı surətdə fərqlənir, göndərilən malların itkisiz daşınmasını təmin edirdi.

Müharibənin əvvəlindən fəaliyyətə başlayan Şimal yolu əsas marşrut sayılırdı. Onun vasitəsilə PQ konvoyları SSRİ-yə külli miqdarda hərbi texnika və strateji mallar daşımışdı. Lakin ingilis jurnalisti Aleksandr Vert yazırdı: «Çörçill Murmanska və Arxangelskə konvoy göndərilməsi imkanlarına getdikcə daha şübhəli münasibət göstərməyə başlamışdı»[1].

Məsələ burasında idi ki, hər bir PQ konvoyuna 35 gəmi daxil olurdu və onları Arktika yolu ilə sağ-salamat Arxangelskə və ya Murmanska

çatdırmaq heç də asan deyildi. Yol boyu konvoy alman aviasiyasının və sualtı qayıqlarının ardı-arası kəsilməyən hücumlarına məruz qalırdı. Nəticədə gəmilərin müəyyən hissəsi göyərtəsində olan hərbi texnika da daxil olmaqla batırılır, şəxsi heyətə böyük tələfatlar verilirdi. PQ-17 konvoyunun aqibəti xüsusilə faciəli idi. Konvoya daxil olan gəmilərin böyük əksəriyyəti almanlar tərəfindən darmadağın edilmişdi. 34 gəmidən cəmi 11-i Arxangelskə çatmağa macal tapmışdı. Odur ki, Stalinə göndərdiyi məktubda Çörçill PQ 18 konvoyunun göndərilməsini məqsədəuyğun saymırdı. O, Stalinə yazırdı: «...Növbəti PQ 18 konvoyunun göndərilməsi cəhdi Sizə xeyir gətirə bilməzdi, ümumi işə isə yalnız əvəzedilməz ziyan vura bilərdi»[2].

Bunun müqabilində Çörçill başqa bir variant irəli sürürdü. O, PQ-18 konvoyuna daxil olan gəmilərin bir hissəsinin İran körfəzinə göndərilməsinə hazır olduğunu bildirirdi. Öz mülahizələrini əsaslandırmaq üçün Çörçill belə bir faktı da Stalinin nəzərinə çatdırmağı lazım bildi. Yuxarıda adı çəkilən 18 iyul tarixli məktubunda o yazırdı: «Biz Şimali Rusiyaya kiçik konvoylar göndərilməsinə 1941-ci ilin avqustunda başlamışıq və dekabra qədər almanlar buna mane olmağa heç bir cəhd göstərməyiblər. 1942-ci ilin fevralından konvoyların həcmi artırıldı. Belə olduqda almanlar Şimali Norveçə sualtı qayıqlardan, böyük miqdarda təyyarələrdən ibarət hərbi qüvvələr göndərdilər və konvoylara qarşı *qətiyyətli hücumlar etməyə başladılar*»[3]. *İlk dövrlərdə vəziyyətdən birtə*-hər çıxmağın mümkünlüyünü qeyd edən Çörçill, indiki zamanda bu əməliyyatların böyük itkilərlə nəticələnəcəyini söyləyirdi.

Lakin 1942-ci ilin yayında Çörçillin cənub marşrutuna meyl göstərməsi təkcə şimal yolunun təhlükəli olması ilə izah olunmurdu. Bu, ilk növbədə şərq cəbhəsindəki döyüş əməliyyatlarının ağırlıq mərkəzinin cənub cinahında, daha dəqiq desək Qafqaz istiqamətində olması ilə əlaqədar idi. Bu, həmçinin İngiltərəyə, Rommelə qarşı döyüşən ordularını da təchiz etməyə imkan verir və hətta lazım gəldikdə SSRİ üçün nəzərdə tutulmuş hərbi texnikanın müəyyən hissəsinin təcili surətdə Afrika cəbhəsinə ötürülməsinə şərait yaradırdı. Əlbəttə, bu əvvəlcə Stalinlə razılaşdırıldıqdan sonra edilirdi. Stalin isə bu müraciətlərə əsasən müsbət yanaşırdı. Çünki bilirdi ki, müttəfiqlərin Afrikadakı uğurlu fəaliyyəti, eyni zamanda Güney Qafqazın, xüsusilə də Bakı neft rayonunun təhlükəsizliyinə xidmət edirdi.



1942-ci ilin yayında almanların istər SSRİ-nin cənub cinahında, istərsə də Quzey Afrikada həyata keçirdikləri uğurlu əməliyyatların gündən-günə genişləndiyi bir vaxtda Stalin ABŞ prezidenti Ruzveltdən bir teleqram aldı. 6 iyul tarixli bu teleqramda Ruzvelt yazırdı: «Sovet Sosialist Respublikaları İttifaqını təchiz edən yollara təhlükə yaradan Misir böhranı, Baş Nazir Çörçilli hazırda İraqda olan və Sovet Sosialist *Respublikaları İttifaqına çatdırılmalı 40 ədəd A-20* bombardmançı təyyarələrin Misir cəbhəsinə verilməsinin mümkünlüyü barədə təcili olaraq sorğu ilə mənə müraciət etməyə sövq edib. Bizdə olan məlumatların çatışmazlığı ucbatından, mən bu məsələ barəsində fikir söyləmək imkanına malik deyiləm. Bu səbəbdən hesab edirəm ki, bütövlükdə Birləşmiş Millətlərin hərbi səylərini nəzərə alaraq, yaxşı olar ki, Sizə müraciət edib qərar qəbul etməyi xahiş edək»[4].

Ertəsi gün Ruzveltə göndərdiyi cavab teleqramında Stalin yazırdı: «Müttəfiqlərin qoşunları üçün Misirdə yaranmış vəziyyətlə əlaqədar olaraq, SSRİ üçün nəzərdə tutulmuş, hazırda İraqda olan 40 ədəd A-20 bombardmançı təyyarələrin Misir cəbhəsinə verilməsinə etiraz etmirəm»[5].

Güney Qafqaza alman təhlükəsinin gündən-günə artmasına baxmayaraq, SSRİ üçün nəzərdə tutulmuş 40 bombardmançı təyyarənin Misir cəbhəsinə ötürülməsinə Stalinin razılıq verməsi, müstəsna hal kimi qiymətləndirilə bilər. Bu onu göstərir ki, sovet komandanlığı Güney Qafqazın *təhlükəsizliyi baxımından Misir cəbhəsində baş verən hadisələrə* də xüsusi maraq göstərməyə, lazım gəldikdə kömək etməyə məcbur idi. Bunu Çörçillin Stalinə göndərdiyi 10 iyul tarixli minnətdarlıq teleqramı da sübut edirdi: «Mən indicə Prezident Ruzveltdən xəbər tutdum ki, Sizə göndərilmək üçün Bəsrəyə gətirilmiş 40 ədəd bombardmançı «Boston» təyyarələrinin Misirdəki bizim silahlı qüvvələr üçün göndərilməsinə icazə vermisiniz.

İndiki zamanda belə bir xahişlə Sizə müraciət etmək çox çətindir və mən bu mərhəmətli cavabınıza görə Sizə son dərəcə borcluyam. Onlar birbaşa döyüşə göndərilirlər və bizim təyyarələr orada düşməni böyük tələfata uğradırlar»[6].

Qafqazdakı vəziyyətin ağırlığını nəzərə alan Ruzvelt, Misirə göndərilmiş təyyarələrin əvəzinə SSRİ-yə əlavə döyüş sursatı və ehtiyat hissələri də daxil olmaqla yüz on beş ədəd orta həcmli tank göndərilməsi[7] barədə Stalinə məlumat verdi.

Hazırki müharibədə Yaxın və Orta Şərqin böyük əhəmiyyət kəsb etdiyini gözəl başa düşən Ruzvelt İran, İraq, Türkiyə, Suriya, Səudiyyə Ərəbistanı və Misir hökumətlərinə, Almaniyanın müharibədə qalib gələcəyi təqdirdə bu ölkələrin gələcəyi üçün nə dərəcədə böyük təhlükə yaranacağı ehtimalını izah etmək üçün öz şəxsi nümayəndəsi Uilyam Uilkini oraya göndərəcəyi barədə Stalinə teleqram vuraraq, onun da bu məsələ ilə bağlı rəyini bilmək arzusunda olduğunu bəyan etmişdi.

Təhlükənin Yaxın və Orta Şərqə əsasən iki istiqamətdən ola biləcəyi şübhəsiz ki, Ruzveltə yaxşı bəlli idi. Əgər istiqamətin biri Quzey Afrikadan idisə, digəri Bakı neft rayonu tutulduqdan sonra Güney Qafqazdan olmalı idi. Bu, Hitlerin imzaladığı və «Barbaros» əməliyyatı başa çatdıqdan sonrakı dövrə hazırlıq» adlanan 32 saylı direktivdə də öz əksini tapmışdı. Həmin direktivə görə «motorlaşdırılmış ekspedisiya korpusu Güney Qafqaz vasitəsilə İran körfəzi və İraq, Suriya, Misir istiqamətlərində hərəkət etməli idi»[8].

Çörçill Stalinə göndərdiyi teleqramda xəbər verirdi ki, «almanlar arası kəsilmədən Afrikaya getdikcə daha çox adam və təyyarə göndərirlər. *Lakin Okinlekə də böyük kömək gəlməkdədir, ağır bombardmançı*lardan ibarət güclü ingilis-amerikan birləşmələrinin bu günlərdə gözlənilən gəlişi Aralıq dənizinin şərq hissəsinin təhlükəsizliyini təmin edər. Rommeli təchiz edən limanları – Tobruku və Benqazini isə blokadaya ala bilər»[9].

Sovet-alman cəbhəsinin cənub cinahında almanların hərbi-hava qüvvələri böyük üstünlüyə malik olduğuna görə, İngiltərə – SSRİ münasibətlərinin müəyyən qədər soyumasına baxmayaraq, Stalin dəfələrlə Çörçillə müraciət edərək, müqavilədə nəzərdə tutulduğundan əlavə qırıcı təyyarələr göndərməsini xahiş edirdi.

Qafqaz cəbhəsini azacıq da olsa diqqətindən yayındırmayan Çörçill, İran körfəzindən keçən marşrutu daha çox etibar edərək, «150 ədəd «Spitfayer» və əlavə olaraq 50 təyyarə ekvivalentinə bərabər olan ehtiyat hissələri»[10] göndərəcəyini öhdəsinə götürmüşdü.

Onu da qeyd edək ki, 2 top və 4 pulemyotla silahlanmış «Spitfayer» qırıcı təyyarələri almanlar üçün olduqca böyük təhlükə kəsb edirdi. Ümumiyyətlə müttəfiqlərin SSRİ-yə hərbi-strateji yardımı İkinci dünya müharibəsində həyata keçirilmiş ən önəmli tədbirlərdən biri idi. Onun miqyası və miqdarı indi də böyük maraq doğurur.



Amerika Birləşmiş Ştatları və Böyük Britaniyanın birləşmiş silahlı qüvvələrinin 1944-cü ilin iyununda Normandiyaya çıxarılmasından bir neçə gün sonra «Pravda» qəzetində SSRİ xarici ticarət komissarlığının geniş bir məlumatı dərc olunmuşdu. Həmin *məlumatda 1941-ci il iyunun* 22-dən, yəni müharibənin başlandığı gündən 1944-cü il aprelin 30-na qədər bir dövrdə SSRİ-yə göndərilmiş hərbi-strateji yardımın miqdarı əks olunmuşdu. Ayrı-ayrı ölkələr üzrə onun tərkibi və həcmi belə idi.

**Amerika Birləşmiş Ştatları**

| | |
|---|---|
| təyyarə  6430 ədəd | kanoner qayığı  12 ədəd |
| *tank* – 3734 ədəd | kiçik tonnajlı gəmi  82 ədəd |
| tral gəmisi – 10 ədəd | avtomobil – 210 min ədəd |

Bunlardan əlavə zenit topları, 2 mln. avtomobil şini, 90 min ton alüminium və düralüminium, 184 ton mis və misdən hazırlanmış məmulatlar, sink, nikel, polad və poladdan hazırlanmış məmulatlar, 20 min dəzgah, 17 min motosikl, 991 min patron, 22 milyon mərmi, 88 ton barıt, 245 min telefon aparatları, 5,5 milyon cüt əsgər ayaqqabısı, kranlar, lokomotivlər, ekskavatorlar, neftayırma müəssisələri üçün avadanlıq, enerji gücləndirici avadanlıq və s.

**İngiltərə:**

| | | | |
|---|---|---|---|
| təyyarə | 5800 ədəd | mis | 33 min ton |
| tank | 4292 ədəd | qalay | 29 min ton |
| tral gəmisi | 12 ədəd | qurğuşun | 48 min ton |
| kauçuk | 103 min ton | cut | 93 min ton |
| alüminium | 33 min ton | | |

Bunlardan əlavə İngiltərə digər xammal materialları, partladıcı maddələr, mərmilər və başqa hərbi materiallar da göndərmişdi[11].

SSRİ-yə hərbi yardım etməkdə Kanada da fəal iştirak etmişdi. Onun 355 milyon dollar dəyərində olan hərbi yardımına 1188 tank, 842 zirehli transportyor və başqa vacib materiallar, ərzaq malları daxil idi[12].

Ümumiyyətlə, marşal Jukovun açıqladığı məlumata görə ABŞ, İngiltərə və Kanada hökumətləri birlikdə götürdükdə, SSRİ-yə 18000 «Spitfayer», «Aerokobra», «Harrikeyn», «Kitihauk» tipli təyyarələr, 11000 tank[13], 400000 avtomobil[14] göndərmişdi. Onların böyük bir hissəsi

cənub marşrutu ilə gətirilmiş və Güney Qafqazın, eləcə də Bakı neft rayonunun müdafiəsində bilavasitə iştirak etmişdi. Bu, külli-miqdarda hərbi texnika, həmçinin SSRİ-də istehsal olunmuş hərbi texnika da daxil olmaqla əsasən Bakı nefti ilə hərəkətə gətirilirdi.

Lakin müttəfiqlərin yardımı yalnız hərbi texnika ilə məhdudlaşmırdı. Sovet silahlı qüvvələri üçün lazım olan hərbi geyimin və ayaqqabının xeyli hissəsi ABŞ-da istehsal olunurdu. Lakin hərbi geyimin böyük bir qismi də Bakıdakı tikiş fabriklərində hazırlanırdı. Bu məqsədlə Amerikadan cənub marşrutu vasitəsilə Bakıya 23 milyon yard (1 yard 91,44 sm-ə bərabərdir) mahud parça gətirilmişdi[15].

İngilis generalı C.Dinin verdiyi məlumata əsasən, ümumiyyətlə, 1941-ci ilin oktyabrından müharibənin sonuna qədər Rusiyaya 15 milyon tondan artıq yük göndərilmişdi[16].

General Din göndərilən yardımda böyük miqdarda dərman, paltar, ayaqqabı olduğunu qeyd edərək daha sonra yazırdı: «Göndərilən malların və xidmətlərin dəyəri təxminən 11 milyard dollara bərabər idi.

Əgər ruslara qələbəni hətta bunlar təmin etmədilərsə də, hər halda şübhəsiz ki, onlara böyük xeyir gətirmiş oldu[17].

Hətta Sovet İttifaqının Almaniya ilə apardığı müharibəyə loyal münasibətdə olan ingilis jurnalisti və tədqiqatçısı Aleksandr Vert yazırdı: «Qızıl Ordu sözsüz ki, Qərbdən gələn hər bir yardımı qiymətləndirirdi.

Avtomobillər, habelə «Aerokobralar», «Spitfayerlər», ət konservləri, əsgər ayaqqabısı və s. xüsusilə yüksək qiymətə layiq idi. Bu da bir faktdır ki, müttəfiqlərdən gələn xammal materialları sovet müdafiə müəssisələri üçün çox böyük kömək idi»[18].

Lakin istər müharibə dövründə, istərsə ondan sonra müttəfiq dövlətlərin bu geniş miqyaslı yardımına kölgə salmaq, onun əhəmiyyətini son dərəcə kiçiltmək cəhdləri də az olmadı. A.Vert yazır: «Sovet hökuməti Qərbdən gələn yardım haqqında mümkün qədər az danışmağı üstün tuturdu. Aydındır ki, belə mövqe qərbin narazılığına səbəb olurdu, belə ki, rusların «naşükürlüyünə» görə ilk ciddi irad 1943-cü ilin martında baş verdi. O zaman ABŞ-ın Moskvadakı səfiri admiral Stendli mətbuat konfransında sovet hakimiyyət dairələrinin «Rusiyaya kömək fondu»na edilmiş şəxsi ianələrə və ümumiyyətlə amerikan köməyinə «naşükür» münasibət göstərməsindən gileylənmişdi»[19].

Hətta bir neçə qələbədən lovğalanan bəzi hərbçilərdə belə bir fikir yaranmışdı ki, guya Qızıl Ordu almanları təkbaşına da darmadağın edə



bilərdi. Ancaq ədalət naminə demək lazımdır ki, şəxsən Stalin özü belə mülahizələri o zaman qətiyyətlə rədd etmişdi.

Günlərin bir günü, 1943-cü ildə Stalin şəxsən etiraf etmişdi ki, Sovet İttifaqı təkcə öz qüvvələri ilə müharibəni uda bilməz[20].

Lakin burada başqa bir mühüm cəhətə diqqət yetirməyi vacib sayardıq. Bir qədər yuxarıda oxucuların nəzərinə çatdırılan SSRİ Xarici Ticarət Komissarlığının məlumatında ABŞ, İngiltərə və Kanadanın SSRİ-yə göstərdikləri hərtərəfli yardımın əsasən nədən ibarət olduğu göstərilibdir. Müharibənin qanlı-qadalı dörd ilə yaxın dövrü ərzində, dərc edilmiş məlumatdan göründüyü kimi, müttəfiqlər bağlanmış müqaviləyə əsasən SSRİ-yə müxtəlif yollarla və vasitələrlə ərzaq məhsullarından tutmuş ən müasir hərbi texnika, döyüş sursatına qədər külli miqdarda müxtəlif strateji məhsullar göndərirdi. Ancaq, bircə neftdən savayı. Çünki Sovet İttifaqının ehtiyac duymadığı bir şey vardısa, o da əlahəzrət neft idi.

SSRİ-nin bir dövlət kimi gələcək taleyi 1942-ci ilin yay kampaniyasında öz həllini tapmalı idi. Bunu Hitler başda olmaqla alman komandanlığı da əsla gizlətmirdi. Onlar 1942-ci ili müharibədə köklü surətdə dönüş ili hesab edirdilər. Çünki, Quzey Qafqazdakı neft rayonları da daxil olmaqla, Bakı neftinin ələ keçirilməsini yaxın günlərin məsələsi kimi qiymətləndirərək, yeni perspektiv planlar arzusunda idilər.

# XIV FƏSİL

# CƏNUB İSTİQAMƏTİNDƏ YENİ HÜCUM TƏŞƏBBÜSÜ

Qafqaz cəbhəsində böyük hərbi üstünlüyə malik olmasına, geniş bir ərazini ələ keçirməsinə baxmayaraq, Hitler, «A» ordular qrupunun fəaliyyətindən son dərəcə narazı idi. Bu ilk növbədə hücum əməliyyatlarının Terek çayı boyunca səngiməsi ilə əlaqədar idi. Sentyabrın 9-da Hitlerin qərargahı belə bir məlumat verməK zorunda qaldı. Orada deyilirdi: «Sovet qoşunları Terekdə alman ordularının Qroznı istiqamətindəki irəliləyişini dayandırmağa cəhd edirlər. Döyüş getdiyi rayonda Terek çayının eni 500 metr, dərinliyi isə 2 metrdir. Çay axarının itiliyi və sahillərin bataqlaşmış olması, onu olduqca ciddi maneəyə çevirir. Belə ki, onu *dəf etmək üçün müəyyən vaxt tələb olunur»*[1].

Belə vəziyyət Hitleri heç cür təmin edə bilməzdi. Ertəsi gün, sentyabrın 10-da Almaniya silahlı qüvvələrinin ali komandanlığının baş qərargahının rəisi general-feldmarşal Keytel Hitlerin şəxsi tapşırığına əsasən «A» ordular qrupunun komandanı general-feldmarşal Listi, «Cənub» ordular qrupunun Stalino (indiki Donetsk) şəhərində məskunlaşmış qərargahına dəvət etdi və yaranmış vəziyyətlə əlaqədar onunla təkbətək söhbət etdi. Nəticədə List tutduğu vəzifə ilə vidalaşmalı oldu.

Lakin məsələ yalnız Terekdə yaranmış vəziyyətlə əlaqədar deyildi. Almanlar nəyin bahasına olursa-olsun Qroznı neft rayonunu tez bir vaxtda ələ keçirməyə çalışırdılar. Görülən bütün tədbirlər onu göstərirdi ki, almanlar bu niyyətlərindən heç cür əl çəkmək fikrində deyillər. Əksinə, onun reallaşması üçün əllərindən gələni əsirgəmirlər. Berlindən almanların Qafqazdakı 1-ci tank ordusunun qərargahına göndərilən teleqramların ardı-arası kəsilmirdi. Həmin teleqramlarda Hitler Qroznının tezliklə tutulmasını tələb edirdi. Bu kontekstdə sözsüz ki, Bakı məsələsi xüsusi yer tutur, mühüm strateji əhəmiyyət kəsb edirdi. Çünki hələ sent-*yabrın 1-də 1-ci tank ordusunun komandanlığı Bakıya hücum planı haq*qında, «A» ordular qrupunun komandanına göndərdiyi məlumatda qeyd edirdi ki, «Qroznıdan sentyabrın 6-dan, Mahaçqaladan isə sentyabrın 16-dan başlayaraq irəliləmək mümkündür»[2].




*II Dünya müharibəsi zamanı Bakını bombalamalı olan Britaniya Hərbi hava qüvvələrinin xəritəsi. Hitler Bakını aldığı təqdirdə müttəfiqlər neft mədənlərini bombardman etməli idilər. Neft emalı qurğularının cəmləşdiyi Qara şəhər (1), hökümət idarələrinin yerləşdiyi Ağ şəhər (2), aeroport (10), hərbi anbarlar (11), neft ehtiyatları (12), Şollar su anbarı (18), dəmiryol şəbəkəsi (19) xüsusi bombardman hədəfi idi. Xəritə Edinburqda yerləşən Şotlandiya Milli Kitabxanasında aşkar olunmuşdur. 1997-ci ildə onun həqiqiliyini sübut etmək üçün müəyyən tədbirlər həyata keçirilmişdir.*



Lakin sonrakı hadisələr göstərdi ki, sentyabr ayında qeydə alınan irəliləyiş cüzi xarakter daşıyırdı. Ayın sonuna yaxın 1-ci tank ordusu Mozdokdan cənuba doğru çox az irəliləməyə nail olmuşdu. Həmin əməliyyatlar zamanı ordu «...6 mindən artıq əsgər və zabit, habelə böyük miqdarda texnika»[3] itirdi.

Belə olduqda alman hərbi komandanlığı Mozdok hərbi qruplaşmasını daha da gücləndirmək məcburiyyətində qaldı. Bu məqsədlə SS-in motorlaşdırılmış «Vikinq» diviziyası Tuapse istiqamətindən götürülüb Mozdok rayonuna göndərildi. Bu tədbir alman komandanlığının niyyətinin son dərəcə ciddiliyindən xəbər verirdi. Vəziyyəti belə görən sovet Ali Baş Komandanlığının qərargahı sentyabrın 23-də təcili bir direktiv hazırlamağa məcbur oldu. Cənubi Qafqaz cəbhəsi qoşunlarına ünvanlanan bu direktivdə tələb olunurdu ki, cəbhə komandanı «Şimal» qrupu qoşunları qarşısında sentyabrın 25-nə qədər iki zərbə qrupunun cəmləşdirilməsi vəzifəsini qoysun. Lakin bu direktiv yerinə yetirilmədi. Bu da öz növbəsində yaxın gələcəkdə sovet komandanlığı qarşısında mürəkkəb problemlərin əmələ gəlməsinə səbəb oldu.

Almanlar isə öz növbəsində güclü birləşmə yaratmağa nail oldular ki, bu da onlara yeni hücum əməliyyatları aparmağa imkan yaratdı. Sovet mövqelərini yarıb keçmək üçün almanlar, «Elxotovo qapıları» adlanan yerdən istifadə etməyi qərara aldılar. Nəhayət üç gün davam edən fasiləsiz döyüşlərdən sonra Elxotovo sentyabrın 27-də almanların əlinə keçdi. Bu, xüsusilə də Bakı üçün artıq böyük və ciddi bir təhlükə idi.

Almanların güclü hücumu nəticəsində hərbi hissələrin və birləşmələrin böyük bir hissəsi ağır və uzun sürən döyüşlərə cəlb edilmiş oldu. Halbuki onlar əsas etibarilə hazırlanmaqda olan əks zərbələr üçün formalaşdırılmışdı.

Elxotovo itirildikdən dərhal sonra bu barədə Güney Qafqaz cəbhəsinin komandanına məlumat göndərən «Şimal» qrupu qoşunlarının komandanı xüsusi olaraq qeyd edirdi ki, ağır döyüşlərə cəlb edilmiş hərbi hissələri və birləşmələri oradan çıxarmaq indiki şəraitdə mümkün deyil. Çünki belə olduqda müdafiə son dərəcə zəifləyə bilər ki, bu da əsla yol verilməzdir. Həm də əks təqdirdə, bu qarşısı alınmaz fəlakətlərə gətirib çıxara bilər. Yaranmış vəziyyətdə müvəqqəti olaraq müdafiə taktikasına keçmək ən əlverişli və etibarlı çıxış yolu sayılırdı. Məqsəd ondan ibarət idi ki, müdafiə döyüşləri aparmaqla almanları yormaq, onları böyük itkilər verməyə məcbur etmək və imkan yaranan kimi güclü əks zərbələr endirmək. Sovet komandanlığı yeganə çıxış yolunu bunda görürdü.

Bu münasibətlə Ali Baş Komandanlıq müəyyən tədbirlərin təcili surətdə həyata keçirilməsi barədə sentyabrın 29-da əmr verdi. Həmin

əmrin 6-cı bəndində deyilirdi: «...43-cü atıcı briqada Bakıdan Qudermes rayonuna, Şimal qoşunları qrupunun ehtiyatına göndərilsin»[4].

Marşal Qreçko yazırdı ki, «düşmən sentyabrın 27-də Elxotovonu ələ keçirməsinə baxmayaraq, Elxotovo qapıları vasitəsilə Qroznıya doğru yol aça bilmədi. Özünün güclü tank qruplarının zərbələri sayəsində Qroznı və Orconikidzeni (indiki Vladiqafqaz) ələ keçirməyə can atan düşmən sonrakı hücumlardan imtina etmək məcburiyyətində qaldı»[5].

Bunun əsas səbəblərindən biri də alman komandanlığının sərəncamında tələb olunan miqdarda ehtiyat hissələrin olmaması idi. Bu isə alman komandanlığının manevr etmək imkanlarını son dərəcə məhdudlaşdırırdı.

Həm də nəzərə almaq lazımdır ki, alman qoşunlarının böyük bir qruplaşması Stalinqrad ətrafında sovet qoşunlarının inadlı müqavimətini qırmaqla məşğul idi.

Marşal Qreçkonun fikrincə «Mozdok istiqamətində aparılan müdafiə əməliyyatları Qafqazın müdafiəsində böyük əhəmiyyətə malik idi»[6]. Qreçko yazırdı: «Bu əməliyyatda bizim qoşunlar 1-ci tank ordusunu məğlubiyyətə uğratdılar və Hitler komandanlığının Qroznı və Bakı neft rayonlarının tutulmasına yönəldilmiş planını müvəffəqiyyətsizliyə uğratdılar»[7].

Lakin Hitler Qafqaz neftindən əl çəkmək fikrində deyildi. Bunu o, etdiyi çıxışlarda da dəfələrlə xüsusi vurğulayırdı. Cənubi Qafqaz cəbhəsinin komandanı general Tülenev Hitlerin oktyabrın əvvəlində Berlində söylədiyi proqram çıxışına isnad edərək yazırdı: «Öz çıxışında o, xüsusilə bəyan etdi ki, bu il qarşıya bizim neft mənbələrimizə yanaşmaq, onları tutmaq, ya da heç olmazsa, ayırmaq məqsədi *(«ayırmaq» dedikdə, Hitler şübhəsiz ki, neft mənbələrinin SSRİ-nin qalan hissəsindən ayırmağı nəzərdə tuturdu – müəllif)* qoymuşdu.

Bu bəyanatdan sonra düşmən neft mənbələrinə dolayı yolların axtarışını gücləndirdi.

Mozdok rayonunda, Malqobek ətrafında, Elxotovo qapıları yaxınlığında – bütün istiqamətlərdə düşmən döyüşləri qızışdırdı»[8].

Malqobek müdafiə əməliyyatının nəticəsi Novorossiysk ətrafında gedən döyüş əməliyyatlarına da ciddi təsir göstərdi. Bu istiqamətdə gedən döyüşlərin ən gərgin bir məqamında SS-in «Vikinq» diviziyasının Malqobek istiqamətinə göndərilməsi, almanların Novorossiysk altında döyüşən 17-ci ordusunun xeyli zəifləməsinə səbəb oldu. Nəticədə Novorossiyskin böyük bir hissəsinin ələ keçirilməsinə baxmayaraq, alman qoşunları sentyabrın 27-dən etibarən müdafiəyə çəkilməyə məcbur oldular. Çox keçmədən «A» ordular qrupunun komandanlığına müdafiəyə



keçmək barədə Hitlerin əmri daxil oldu. Oktyabrın 14-də Hitlerin imzaladığı və «Strateji müdafiəyə keçmək haqqında Vermaxt qərargahının əmri»ndə deyilirdi: «Hələ də davam edən ayrı-ayrı əməliyyatlar və nəzərdə tutulmuş yerli xarakterli hücum əməliyyatları istisna olunmaqla, yay və payız kampaniyaları başa çatmışdır. Böyük nəticələr əldə edilmişdir.

Güclü hücum əməliyyatları nəticəsində düşmən Qafqaz və Dona tərəf geri atılmış, Rusiyanın mərkəzi hissəsi isə müharibəni bundan sonra da davam etdirmək üçün **m ü h ü m h ə y a t i ə h ə m i y y ə t ə m a l i k** *(seçmə mənimdir – müəllif)* olan Qafqaz rayonlarından əsasən ayrılmışdır...»[9].

Beləliklə, sentyabrın sonunda və oktyabrın əvvəlində Quzey Qafqazda hərbi vəziyyət bir qədər sabitləşdi.

Ehtiyat qüvvələrinin məhdudluğu almanlara geniş miqyaslı əməliyyatlar keçirməyə imkan vermirdi. Baş Qafqaz sıra dağlarının qarlı aşırımlarını keçmək isə heç cür mümkün olmurdu. Halbuki burada almanların xüsusi hazırlıq keçmiş seçmə hərbi hissələri cəmləşdirilmişdi. Dağ qoşunları generalı Konradın komandanlıq etdiyi 47-ci dağ atıcı korpusunun tərkibində 2 dağ atıcı və 2 yüngül piyada diviziyası fəaliyyət göstərirdi.

Bundan əlavə, dağ aşırımlarında gedən döyüşlərdə iştirak etmək üçün rumınlardan ibarət 2 dağ-atıcı diviziyası da «A» ordular qrupunun sərəncamına göndərilmişdi. Qafqaz dağlarına göndərilmiş digər bir hərbi hissəni ayrıca qeyd etmək lazımdır. O, xüsusi təyinatlı korpus statusuna malik idi və döyüş əməliyyatlarında bir qayda olaraq iştirak etmirdi. Avanqard hərbi birləşmələrin ardınca irəliləyən bu korpus daha strateji məqsədlər üçün nəzərdə tutulmuşdu. Güney Qafqaz, xüsusən də Bakı neft rayonu işğal edildikdən sonra o, Yaxın Şərqə yeridilərək, oradakı hərbi əməliyyatlarda bilavasitə iştirak etməli, perspektivdə isə Misirdə general Rommelin komandanlığı altında döyüşlər aparan «Afrika korpusu» ilə birləşməli idi.

Lakin sentyabrın sonunda strateji ehtiyatları məhdud olan almanlar geniş miqyaslı əməliyyatlar əvəzinə qərbdə Tuapse, cənubda isə Orconikidze istiqamətində ardıcıl zərbələr endirməyi planlaşdırdılar. Orconikidzeni tutmaqla onlar Hərbi Gürcüstan yolunu bağlamaq və bununla da Güney Qafqazdan sovet qoşunları qrupu üçün daşınan yanacağın, döyüş sursatının və ərzağın qarşısını almaq istəyirdilər. Sonra isə 1-ci tank ordusunu Stalinqrad cəbhəsindəki hərbi birləşmələr hesabına gücləndirib əvvəlcə Mahaçqala, sonra isə Bakı üzərinə yerimək nəzərdə tutulmuşdu. Əlbəttə, bu Stalinqradın süqutundan sonra ola bilərdi. Hələlik isə «A»

ordular qrupunun sərəncamına verilməsi nəzərdə tutulan 48-ci tank korpusu, habelə 24-cü tank və 29-cu motorlaşdırılmış diviziyalar Stalinqrad cəbhəsində məşğul idi və heç bir yerdəyişmədən söhbət gedə bilməzdi. Halbuki bu, Bakıya aparan ən yaxın yol sayılırdı. Lakin Bakıya gedən başqa bir yol, başqa bir imkan da mövcud idi. Bu yol Qara dəniz boyunca idi. Bunu alman komandanlığı da yaxşı bilirdi və ona böyük əhəmiyyət verirdi. Bunun üçün Tuapse rayonunda Qara dəniz sahilinə çıxmaq son dərəcə vacib idi. 1942-ci il sentyabrın 18-də general-feldmarşal Keytel ilə söhbət zamanı onun əhəmiyyəti barədə Hitler belə demişdi: «Həlledici məsələ Tuapseyə çıxmaqdır. Sonra Hərbi Gürcüstan yolunu bağlamaq və Xəzər dənizinə doğru yol açmaq...»[10].

## TUAPSE – QARA DƏNİZ

Oktyabr ayında Tuapse istiqamətində hərbi vəziyyət gündən-günə gərginləşməyə başladı. Ali Baş Komandanlıq təcili tədbirlərə əl atmağa məcbur oldu. Güney Qafqaz cəbhəsi komandanının nəzərinə çatdırıldı ki, o, yaranmış vəziyyəti düzgün qiymətləndirməyi bacarmır və Qara dəniz qoşunları qrupunun rolunu dərk etmir.

Ali Baş Komandanlıq xüsusi olaraq onu qeyd edirdi ki, Qara dəniz istiqamətinin əhəmiyyəti Mahaçqala istiqamətinin əhəmiyyətindən heç də az deyil. Almanların Tuapseyə çıxdıqları təqdirdə Qara dəniz qrupuna daxil olan qoşunların demək olar ki, hamısı təcrid olunar və bu da nəhayətdə onların əsir düşmələri ilə nəticələnə bilər. Daha sonra almanlar Poti və Batumini ələ keçirib Kutaisi və Tbilisiyə çıxmaq imkanı əldə edə bilərlər. Bu çox təhlükəlidir. Çünki, son nəticədə alman qoşunları vadilərlə hərəkət edib Güney Qafqaz cəbhəsinin arxasına çıxaraq, tez bir vaxtda Bakının həndəvərinə yaxınlaşa bilərdilər.

Yaranmış təhlükəli vəziyyətlə əlaqədar Ali Baş Komandanın verdiyi əmrin 2-ci maddəsində deyilirdi:

«2. Qara dəniz qoşunları qrupunun təxirəsalınmadan qüvvətləndirilməsi üçün bütün tədbirləri görmək, Qara dəniz sahilində güclü ehtiyatlar yaratmaq və bunun üçün; a) Şimal qrupunun ehtiyatında olan üç qvardiya atıcı briqadası təcili olaraq 18-ci ordunun sərəncamına göndərilsin; eyni zamanda, onların əvəzində Bakıdan 34-cü, 164-cü və 165-ci atıcı briqadaları Şimal qrupunun ixtiyarına verilsin»[11].

Tuapse rayonunda sovet hərbi mövqelərinin zəifliyi və qoşunların müqavimət göstərmək qabiliyyətinin aşağı olması alman komandanlığına



yaxşı bəlli idi. Oktyabrın 16-da «A» ordular qrupunun döyüş əməliyyatları jurnalında vəziyyəti səciyyələndirən maraqlı bir yazı verilmişdi. Orada deyilirdi: «Tuapse rayonunda son günlərdə düşmənin müqavimətinin nəzərə çarpacaq dərəcədə zəifləməsi, belə bir nəticə çıxarmağa imkan verir ki, rusların müqaviməti bizim fasiləsiz hücumlarımız, habelə aviasiyanın səmərəli köməyi nəticəsində əsaslı surətdə sarsılmışdır»[12].

Oktyabr ayının birinci yarısında müəyyən sakitliyə baxmayaraq, hər iki tərəf əsas və həlledici döyüşlərin hələ irəlidə olduğunu yaxşı bilirdi. Sovet komandanlığı Güney Qafqaz cəbhəsinin «Şimal» qrupunun hərbi potensialını artırmaqla məşğul olarkən, alman komandanlığı əsasən 1-ci tank ordusunun imkanlarından geniş istifadə etməklə, Qroznı, daha sonra Mahaçqala və Bakıya zərbə endirməyə hazırlaşırdı.

Nəhayət noyabrın 3-ü və 4-də almanlar 150-yə yaxın tankın iştirakı ilə Orconikidze şəhərinə doğru hücuma başladılar. Onların bu hücumu son dərəcə inadlı xarakter daşıyırdı. Belə ki, nəyin bahasına olursa-olsun tezliklə Bakı neft rayonuna çıxmaq əzmində idilər. Alman komandanlığı yaxşı başa düşürdü ki, yaxınlaşmaqda olan qış mövsümü ərəfəsində aylardan bəri qazanılmış hərbi təşəbbüsü əldən vermək, ən azı böyük uğursuzluq demək idi. Daha dəqiq desək, bu, müharibənin son nəticədə uduzulmasına ən real səbəb ola bilərdi. Digər tərəfdən Quzey Afrikada SSRİ-nin müttəfiqləri ilə ağır döyüşlər aparan Rommelin «Afrika korpusu»nun və Stalinqradda mühasirəyə düşməkdə olan Paulyusun 6-cı ordusunun vəziyyəti heç də uğurlu perspektivdən xəbər vermirdi. Odur ki, almanlar döyüş əməliyyatlarını daha da genişləndirməyə çalışır və çətinliklə olsa da, bir sıra taktiki uğurlara nail olurdular. Belə uğurlardan biri süvari generalı fon Makenzeni Hitler qərargahına belə bir məzmunda teleqram göndərməyə ruhlandırdı: «Son vaxtlara qədər Terek çayının qərb sahilində, bizim korpusun ön tərəfində mövcud olan düşmən qüvvələrinin məhv edildiyini hesab etmək olar... Onların dağlara doğru geri oturdulmuş qalıqları məhvə doğru gedirlər... Düşmənin Vladiqafqaz istiqamətində təqib olunması davam etdirilir»[13].

Noyabrın 5-də 1-ci tank ordusunun qərargahına Hitlerin yeni bir teleqramı daxil oldu. Orada deyilirdi: «...rusların inqilabi bayramı olan 7 noyabrda, bütün şərq cəbhəsi boyunca iri hücum əməliyyatlarını gözləmək lazımdır; fürer ümid edir ki, qoşunlar son nəfərə qədər hər qarış torpağı müdafiə edəcəklər»[14]. Lakin elə həmin gün almanların hücumu dayandırıldı. Bu, Nalçik əməliyyatında dönüş günü kimi qeydə alındı.

Mühüm döyüşlərdən biri Vladiqafqazın 12 kilometrliyində yerləşən Mayramadağ kəndi ətrafında baş verdi. Noyabrın 9-da başlanan ən

gərgin mübarizə ayın 11-nə qədər davam etdi və nəhayət almanların müqavimətinin qırılması ilə nəticələndi.

Nalçik müdafiə əməliyyatını xarakterizə edərkən marşal Qreçko yazırdı: «o, *(yəni əməliyyat - müəllif)* Qafqazın müdafiəsi üçün mühüm əhəmiyyətə malik idi. Vladiqafqaz həndəvərində alman qoşunlarının darmadağın edilməsi nəticəsində hitlerçilərin Qroznı və Bakı neft rayonlarına, habelə Güney Qafqaza yol açmaq üçün son cəhdi puça çıxdı»[15].

Beləliklə, almanlar müdafiəyə keçməyə məcbur oldular. Lakin Bakının təhlükəsi hələ də sovuşmamışdı. Stalinqrad uğrunda gedən döyüşlərin nə ilə nəticələnəcəyi hələ şübhəli idi. Stalinqradın taleyi Qafqazda həll edildiyi kimi, Qafqazın da taleyi Stalinqradda həll olunurdu.

Noyabrın 11-də Vladiqafqaz həndəvərində gərgin döyüşlərin getdiyi vaxtda, artıq sovet və alman qoşunları bilavasitə Stalinqrad küçələrində döyüşür, hər ev, hər məhəllə uğrunda ölüm-dirim mübarizəsi aparırdılar. General Paulyusun komandanlıq etdiyi 6-cı ordunun qərargahı isə Stalinqradın mərkəzindəki binalardan birində yerləşdirilmişdi.

Marşal Qreçko öz xatirələrində yazırdı: «Həmin günlərdə Stalinqradın başı üzərini alan təhlükə son dərəcə böyük idi»[16].

# XV FƏSİL

## ƏL-ALAMEYN və «MƏŞƏL» («TORÇ») ƏMƏLİYYATI

Quzey Afrikadakı hərbi əməliyyatlar elə ilk günlərdən başlayaraq SSRİ rəhbərliyinin diqqət mərkəzində idi. Görünür, Stalin alman-italyan ordularının ingilislərin müqavimətini gec-tez qırıb, Orta Şərqə soxulacağını, sonra da fürsət tapan kimi Sovet İttifaqının cənub sərhədlərinə doğru yeriyəcəyini heç də əsassız saymırdı. Belə olduqda Bakı neft rayonunun real işğal təhlükəsi ilə üzləşməsi perspektivi, təbii ki, son dərəcə ağır nəticələrə səbəb olacaqdı. Odur ki, Moskva yaxınlığındakı ölüm-dirim mübarizəsinin ən həlledici çağında general Ueyvellin ikinci Liviya kampaniyasındakı ilk uğurları Stalinin nəzərindən kənarda qalmadı. 1941-ci il noyabrın 23-də baş nazir Çörçillə göndərdiyi teleqramda Stalin yazırdı: «...Britaniya qoşunlarının Liviyada başladıqları uğurlu hücum əməliyyatı münasibətilə mənim təbrikimi qəbul etməyinizi rica edirəm»[1].

Bir qədər sonra Stalini ad günü münasibətilə təbrik etmiş Çörçillə dekabrın 27-də minnətdarlıq məktubu göndərən Stalin fürsətdən istifadə edib Afrikadakı hadisələrlə bağlı öz rəyini bildirməyi də unutmadı: «...İmkandan istifadə edərək Liviyadakı yeni qələbələr münasibətilə Sizə və dost ingilis ordusuna səmimi təbrikimi göndərirəm»[2].

Qratsiani ordusunun Ueyvell tərəfindən darmadağın edilməsi və ingilislərin səhra ordusunun hərbi təşəbbüsü öz əlinə alması SSRİ-də də böyük əks-səda doğurdu. Yanvarın 16-da Stalin baş nazir Çörçillə yazırdı: «...Quzey Afrikadakı ciddi uğurlar münasibətilə Sizi və Böyük Britaniya ordusunu salamlayıram»[3].

Burada zənnimcə bir mühüm cəhəti qeyd etməyi özümə son dərəcə vacib hesab edirəm. Bu nədən ibarətdir? Bu ondan ibarətdir ki, İkinci cahan savaşının tarixini tədqiq edən sovet tarixçiləri Stalindən fərqli olaraq Quzey Afrikadakı hadisələrə obyektiv qiymət verməkdən çəkinmiş, bir çox hallarda isə ümumiyyətlə nəzərdən qaçırmışlar. Bu irad şübhəsiz ki, Azərbaycan tarixçiliyinə də eyni dərəcədə aiddir. Həm də



bəlkə bir qədər də çox. Şübhəsiz ki, bu, ilk növbədə siyasi-ideoloji motivlərlə əlaqədardır. Belə ki, İkinci dünya savaşının hansı mövqedən işıqlandırıldığı hamımıza yaxşı bəllidir. Odur ki, İkinci dünya savaşı haqqındakı bilgilərimiz, bir qayda olaraq, sovet-alman cəbhəsindəki hadisələrlə məhdudlaşır. Və səhvən belə bir fikir aşılanır ki, guya son cahan savaşının taleyi yalnız SSRİ məkanında həll edilibdir.

Halbuki araşdırmalar göstərir ki, Quzey Afrikadakı qarşıdurma mühüm əhəmiyyət kəsb edirdi. Çünki Britaniyanın strateji uğursuzluğu, son nəticədə nəinki Birləşmiş Krallığın, eyni zamanda SSRİ-nin də fəlakəti ilə nəticələnə bilərdi. Bunu Stalin də gözəl bilirdi. Əgər belə olmasaydı ABŞ prezidenti Ruzveltin 1942-ci il iyulun 6-da ona etdiyi müraciətə, elə ertəsi gündəcə təcili və müsbət cavab verməzdi. Kitabın əvvəlki fəsillərindən birində qeyd etmişdik ki, altıncı Liviya kampaniyasında Rommelin ciddi qələbəsi nəticəsində yaranmış Misir böhranı ilə əlaqədar olaraq Çörçill Ruzveltdən xahiş etmişdi ki, Amerikadan SSRİ üçün göndərilmiş 40 ədəd A-20 tipli bombardmançı təyyarənin Misirdəki Britaniya silahlı qüvvələrinin sərəncamına verilməsi barədə Stalinə müraciət etsin. Ruzvelt bu müraciəti etmiş, Stalin isə, bildiyimiz kimi, rədd cavabı verməmişdi. Halbuki SSRİ-nin cənubunda yaranmış təhlükəli vəziyyətlə əlaqədar olaraq Stalinin bunu etməyə yəqin ki, mənəvi əsası da ola bilərdi. Lakin o, hər iki cəbhədə yaranmış mürəkkəb operativ vəziyyəti qiymətləndirərkən, Rommelin Orta Şərqə, sonra da İran vasitəsilə Güney Qafqaza soxulmaq ehtimalını heç də az təhlükə hesab etməmişdi. Odur ki, Quzey Qafqazda almanlarla həyati əhəmiyyət kəsb edən savaşlarda bulunmaq zorunda qalan SSRİ rəhbərliyi real cənub təhlükəsini sovuşdurmaq məqsədilə, özünə hava-su kimi lazım olan təyyarələrin Britaniya silahlı qüvvələrinin sərəncamına verilməsinə razı olmuşdu. Stalinin bu «səxavəti» Çörçilli o qədər məmnun etmişdi ki, hətta iyulun 10-da və 18-də ona ünvanladığı teleqramlarda bu çətin zamanda göstərdiyi alicənablığa görə iki dəfə təşəkkür etməyi də lazım bilmişdi.

ABŞ prezidenti Franklin Ruzvelt isə iyulun 9-da Stalinə göndərdiyi teleqramda belə yazırdı: «Qırx ədəd bombardmançı təyyarənin Misirə göndərilməsinə razılıq verdiyiniz barədə Sizin teleqramınıza görə dərindən minnətdaram. İyul protokolunun şərtlərinə uyğun olaraq yüklənməkdə olan tanklardan savayı, Sizə təcili surətdə döyüş sursatı və ehtiyat hissələri ilə birlikdə yüz on beş ədəd orta tank göndərmək haqqında sərəncam vermişəm»[4].

Baş nazir Çörçillə yanaşı prezident Ruzvelt də Quzey Afrikada yaranmış vəziyyətdən ciddi narahatlıq keçirirdi. Odur ki, SSRİ-yə hərbi

yardım göstərməklə bərabər, Britaniyanı dəstəkləməyi də lazım bilirdi. Stalinin təkidlərinə baxmayaraq ikinci cəbhənin hələ də açılmaması, habelə «Lend-liz» müqaviləsinə əsasən hərbi yüklərin şimal yolu ilə deyil, İran körfəzi vasitəsilə daşınmasına üstünlük verilməsi məhz Britaniya hökumətinin istəyinə uyğun idi və əvvəllərdə qeyd etdiyimiz kimi, obyektiv olaraq müəyyən mənada sağlam məntiqə əsaslanırdı. Halbuki sovet tarixşünaslığında hər iki cəhət mənfi qiymətləndirilmiş, müttəfiqlərin öz vədlərinə əməl etmədikləri kimi qələmə verilmişdir. Lakin Çörçill avqustun 14-də Moskvadan getdikdən sonra Stalinin ona ünvanladığı memoranduma cavab olaraq göndərdiyi məktubda Britaniya üçün böyük həyati əhəmiyyətə malik olan *(hadisələr göstərdi ki, təkcə Britaniya üçün deyil – müəllif)* «Torç» («Məşəl») əməliyyatının vacibliyini bir daha qeyd etməklə yanaşı birmənalı şəkildə onu da qeyd etmişdi: «Nə Böyük Britaniya, nə Birləşmiş Ştatlar heç bir vədi pozmayıblar»[5].

Ümumiyyətlə, 1942-ci ilin yayında yaranmış hərbi vəziyyət istər Quzey Afrikada, istərsə də SSRİ-nin cənubunda müttəfiqlərə heç də yaxşı perspektiv vəd vermirdi. Hər hansı cəbhədən birinin dağılması digərini də fəlakətə sürükləyə bilərdi. Odur ki, müttəfiq dövlətlərin başçıları istəsələr də, istəməsələr də bir-birilə kompromisə getməyə, vəziyyətdən əlbir şəkildə çıxış yolu axtarmağa məcbur idilər. Çörçillin avqustun 31-də Qahirəyə getməsi, sonra da oradan Moskvaya gəlməsi məhz bununla əlaqədar idi. Almanlar Qafqaz istiqamətində təzyiqi gücləndirməklə yanaşı, Misir problemini də tezliklə aradan qaldırmağa çalışırdılar. Bunu Çörçill də yaxşı bilirdi. Yaranmış nisbi sakitlikdən istifadə edən ingilislər ilk növbədə öz hərbi potensiallarını artırmaq üçün təcili tədbirlər görməyə başladılar və Afrikanı dolanmaqla «Ümid burnu»nu keçərək xeyli hərbi texnika və əsgəri qüvvə gətirməyə nail oldular. Tezliklə Rommelə aydın oldu ki, qüvvələr nisbəti ingilislərin xeyrinə durmadan dəyişməkdədir. Dəyişiklik Britaniyanın Orta Şərq komandanlığında da baş verdi. General Okinleki general Aleksander əvəz etdi. 8-ci ordunun komandanlığı isə general-leytenant Montqomeriyə tapşırıldı. İngilislərin üstünlüyü tankların miqdarında xüsusilə aydın görünürdü. Əvvəlki əməliyyatlar isə sübut etmişdi ki, səhra şəraitində tank hissələri müstəsna əhəmiyyət kəsb edirlər. Martel yazırdı: «Tanklara görə Rommel çox geri qalırdı. Onun 230, Montqomerinin isə 390 maşını *(tankı - müəllif)* vardı...»[6] O, başa düşdü ki, belə getsə ingilislərin potensialı daha da artacaq. Almanların əsas qüvvələri isə Qafqazı ələ keçirməklə məşğul idilər. Şübhəsiz ki, Hitler uğurlu gedən Qafqaz əməliyyatını qoyub Rommelə əsaslı yardım edə bilməzdi. Bir sözlə, vaxt Rommelin xeyrinə işləmirdi.



Odur ki, avqustun sonunda o, təcili hücum əməliyyatına başlamaqla nə qədər ki, gec deyil Qahirəni və İskəndəriyyəni tutmaq qərarına gəldi. Lakin Rommelin başqa bir mühüm problemi də vardı. «Yanacaqla bağlı vəziyyət əvvəlkitək böyük təşviş doğururdu. Lakin italyanlar avqustun sonunda istənilən miqdarda yanacaq gətirəcəklərini vəd etdilər və hətta ehtiyat gəmilərini hazır vəziyyətdə saxlayırdılar ki, batırılanları əvəz etsinlər. Bundan əlavə, Kesselrinq hesab edirdi ki, lazım gəldikdə o, hər gün hava yolu ilə Rommelə 500 ton yanacaq çatdıra bilər»[7].

Nəhayət Rommel xeyli götür-qoy etdikdən sonra özünə əlverişli olmayan bir şəraitdə avqustun 30-dan 31-nə keçən gecə hücuma başlamaq əmri verdi. Həmin gün Stalinə göndərdiyi teleqramda Çörçill yazırdı: «Rommel hücuma başladı, biz ona qarşı hazırlaşırdıq. İndi mühüm döyüşlər baş verə bilər»[8].

Bu teleqramı göndərməklə görünür, Çörçill özünün tamamilə haqlı olduğunu, Rommel təhlükəsinin hələ də mövcud olduğu halda ikinci cəbhənin açılmasının qeyri-mümkün olduğunu Stalinə bir daha sübut etmək istəyirdi. Fəqət Stalinin öz problemləri vardı. Qafqaz öz neft mənbələri ilə birlikdə müharibə başlanandan ilk dəfə olaraq real işğal təhlükəsi ilə üz-üzə dayanmışdı. Vəziyyətdən qurtuluş yolu hələ ki görünmürdü.

İngilislər isə Rommelin hücumuna hazır olduqlarını əyani şəkildə sübut etdilər. Almanların nəzərdə tutduqları qəfil hücum əməliyyatı istənilən səmərəni verə bilmədi.

Rommel çoxlu problemlərlə üzləşdi. Həmçinin onu həmişə narahat edən yanacaq problemi ilə də. Kurt Tippelskirx: «Çünki italyanların vəd etdiyi yanacaq, onu gətirən tankerin ingilislər tərəfindən batırılması nəticəsində Rommelə çatdırılmadı. Görünür elə bu səbəbdən də alman aviasiyası ingilis təyyarələrinin öhdəsindən gələ bilmədi. İki günlük döyüşlərdən sonra yanacağın olmaması üzündən alman-italyan hücumu əsasən dayandırıldı. Əldə olan cüzi yanacaq ehtiyatı yalnız son dərəcə vacib ləvazimatın daşınması üçün sərf edilirdi. Tutulmuş mövqelərin əldə saxlanmasının mümkünsüzlüyünü dərk edən Rommel sentyabrın 3-də geri çəkilmək üçün əmr verdi. Fəqət, yanacaq amili yenə də özünü biruzə verdi. Onun qıtlığı geri çəkilmə prosesini xeyli ləngidir, quru qoşunlarını ingilis təyyarələrinin aramsız həmlələrinin nişangahı edirdi. Nəticədə alman-italyan qoşunları təqribən 3 minə qədər itki verdi. Məhz yanacaq böhranı ucbatından hərəkətsiz qalan çoxlu miqdarda ağır silah və avtomobil qənimət olaraq Britaniya silahlı qüvvələrinin əlinə keçdi.

Vəd edilmiş 5 min ton yanacağın yarısı batırılmışdı, dörddə bir hissəsi isə hələ də İtaliya limanlarında qalırdı»[9].

İtaliya silahlı qüvvələri baş qərargahının rəisi marşal Kavallero belə hesab edirdi ki, «tankerlərin təhlükəsizliyinə cavabdeh olan italyan aviasiyası onları havadan tələb olunan səviyyədə qorumamaqla, cinayətkarcasına qayğısızlığa yol vermişdir»[10].

Tippelskirx yanacaq təchizatının almanlar tərəfində də qənaətbəxş olmadığını qeyd edir: «Kesselrinq yanacağın çatdırılması barəsində verdiyi vədi çox cüzi dərəcədə yerinə yetirə bildi. İngilis aviasiyasının üstünlüyü nəqliyyat təyyarələrini uzaq aerodromlarda enməyə məcbur edirdi. Elə buna görə də yanacağın xeyli hissəsi hələ qoşunlara çatdırılana qədər sərf edilirdi»[11].

Belə bir maraqlı cəhəti də qeyd etmək, zənnimcə, yerinə düşərdi. Rommel qoşunlarının yanacaq problemi ucbatından fəal döyüş əməliyyatları keçirə bilmədiyi bir vaxtda, Quzey Qafqaza yeriyən alman tank birləşmələri də artıq yanacaq qıtlığı ilə üzləşməyə məcbur olmuşdular. Paradoks ondan ibarət idi ki, neft mənbələrinə doğru hər iki istiqamətdə hərəkət edən alman orduları, həmin mənbələrin iki addımlığında olduqları halda, son məsafəni qət etmək iqtidarında deyildilər. Halbuki müharibənin başlanmasını şirnikdirən başlıca amillərdən biri də məhz neft amili idi.

Hər halda Rommelin Misiri ələ keçirmək üçün etdiyi növbəti cəhd uğursuzluqla nəticələndi. İngilislərin bu mühüm qələbəsi Çörçilli də təbii ki, sevindirdi və o, sentyabrın 7-də Stalinə də bu barədə məlumat verdi. O yazırdı: «2. Rommelin Misirdəki hücumu güclü surətdə dəf edildi və mən bu ay ərzində yararlı nəticə əldə edəcəyimizə böyük ümidlər bəsləyirəm.

3. «Məşəl» əməliyyatı, Sizə dediyim erkən möhlətdən 3 həftə təxirə salınsa belə, mükəmməl surətdə hazırlanır»[12].

Yalnız bundan sonra sentyabrın 8-də Stalin Çörçillə cavab göndərdi: «Sizə Misirdə Rommelə qarşı keçirilən əməliyyatda uğur, habelə «Məşəl» əməliyyatının keçirilməsində tam müvəffəqiyyət arzulayıram»[13].

## ƏL-ALAMEYN

Quzey Qafqazda və Stalinqrad istiqamətində yaranmış çıxılmaz vəziyyət Ruzvelt və Çörçilli təcili tədbirlərə əl atmağa məcbur etdi. Mövcud şəraitdə ikinci cəbhənin açılmasının mümkünsüzlüyünü yaxşı



dərk edən müttəfiqlər, şərq cəbhəsində gərginliyi azaltmaq məqsədilə orada döyüşən alman qoşunlarının bir hissəsini qərb istiqamətinə yayındırmaq üçün alternativ imkanlar aramağa başladılar. Çünki almanların nəinki Quzey, həmçinin Güney Qafqazı işğal etmək ehtimalı son dərəcə böyük idi. Bakı neft rayonu da tutulduqdan sonra almanların İrandan keçib Orta Şərqə soxulmalarının qarşısını almaq həqiqətən də müşkül məsələ olardı.

Vəziyyətin ciddiliyi Ruzvelti o qədər təşvişə salmışdı ki, o, vaxt itirmədən elə sentyabr ayı ərzində ingilis-amerikan silahlı qüvvələrini Fransanın qərbindəki Şerbur yarımadasına yeritməyi təkid etdi. Lakin qarşılıqlı anlaşmalar tezliklə sübut etdi ki, bu, texniki cəhətdən hələ mümkün deyil. Belə əməliyyat böyük hazırlıq tələb edir. Belə olduqda qərara alındı ki, təxminən eyni vaxtda iki əməliyyat həyata keçirilsin. Birinci əməliyyat nəticəsində Afrikanın quzey-şərqinə ingilis-amerikan qoşunlarının çıxarılması təmin edilsin, ikincisi isə Misirdən Afrikanın qərbinə hücum əməliyyatı başlasın. Bu Çörçillin planları ilə tamamilə üst-üstə düşürdü. Çünki belə olduqda o, Rommel təhlükəsini birdəfəlik aradan qaldırmış olardı. Bunu hərbi tarixçi Batçer də təsdiq edir. O yazır ki, Quzey Afrikaya qoşun çıxarılmasını «amerikalı hərbi rəhbərlər yox, baş nazir *(Çörçill nəzərdə tutulur – müəllif)* istəyirdi»[14].

Avqustun 30-dan 31-nə keçən gecə almanların qəfil hücumu, iyulun 23-də əldə olunmuş ingilis-amerikan razılaşmasının aktuallığını qeyd etməklə yanaşı, onun həyata keçirilməsinə bir növ təkanverici amil oldu. Digər tərəfdən almanların Qafqazdakı uğurları əvvəldə də qeyd etdiyimiz kimi Berlində böyük eyforiya yaratmış və «Sovet İttifaqı üzərindəki qələbənin Hitler üçün artıq ikinci dərəcəli bir məsələyə çevrildiyi»[15] fikriylə tam səslənməyə başlamışdı. Hitler qərargahından sızan xəbərlərdən belə bir rəy yaranırdı ki, «hazırda onu (Hitleri) ən çox Orta Şərqi tutmaq üçün geniş planlar maraqlandırır»[16].

Alman qoşunlarının Quzey Qafqazın neft bölgələrindən biri olan Maykopu tutması, çox keçmədən digər neft şəhəri Qroznının həndəvərinə çatması və ən nəhayət sentyabrın 25-də Bakının da işğal ediləcəyinin açıq-aydın elan olunması, müttəfiqlərin, xüsusən də ingilislərin Quzey Afrikadakı fəaliyyətlərinin daha da qızışmasına səbəb oldu. SSRİ-nin davam gətirəcəyinə qəti əmin olmayan Britaniya hökuməti və şəxsən baş nazir Çörçill ABŞ silahlı qüvvələrinin Avropadakı hadisələrə mümkün qədər tez müdaxilə etməsinə çalışırdı. Çünki Quzey Afrikadakı üzüntülü qarşıdurmanın nə ilə nəticələnəcəyi hələ də məlum deyildi. Fəqət bircə şey yaxşı məlum idi ki, ingilislərin yanacaq təminatı almanlarla müqayi-

sədə qat-qat etibarlı idi. Lakin Bakı neft rayonunun ələ keçiriləcəyi təqdirdə bu üstünlüyün almanların xeyrinə əsaslı surətdə dəyişəcəyi heç kimdə şübhə doğura bilməzdi. İngilislərdə də həmçinin. Odur ki, Britaniya hökuməti Quzey-Şərqi Afrikaya birləşmiş ingilis-amerikan silahlı qüvvələrinin tez bir zamanda çıxarılmasını yaranmış vəziyyətdə günün vacib tələbi hesab edirdi.

Fuller yazır: «...strateji nöqteyi-nəzərdən Quzey Afrikaya qoşun çıxarılması əl-Alameyn döyüşünü qabaqlamalı idi»[17]. Lakin tələb edilən miqdarda desant vasitələrinin olmaması «Məşəl» əməliyyatını bir qədər ləngitdi. Nəticədə almanların Stalinqradda başladıqları son hücumdan bir neçə gün sonra, oktyabrın 23-də ingilis qoşunları əl-Alameyn altında Rommelə qarşı hücuma keçdilər. Bu, öz hərbi-strateji əhəmiyyətinə görə Stalinqraddan heç də geri qalmayan bir əməliyyat idi. Halbuki sovet tarixşünaslığı ona son dərəcə etinasız münasibət bəsləyir, əhəmiyyətini heçə endirməyə çalışırdı. Lakin hər halda 1942-ci ilin payızında SSRİ rəhbərliyində əl-Alameyn əməliyyatı daha müsbət qiymətləndirilirdi. Noyabrın 5-də Misirdəki uğurlu hərbi əməliyyat barədə Çörçillin göndərdiyi teleqrama cavab olaraq, Stalin noyabrın 8-də yazırdı: «Misirdə hərbi əməliyyatların uğurla inkişaf etməyi münasibətilə Sizi təbrik edirəm və əmin olduğumu bildirirəm ki, indi Rommelin bandalarının və onun italyan müttəfiqlərinin darmadağın edilməsini başa çatdırmaq mümkün olacaqdır»[18].

Stalin həmçinin «Məşəl» əməliyyatının da uğurlu olacağına ümid etdiyini bildirməyi vacib saymışdı. Halbuki o zaman Qafqaz cəbhəsindəki vəziyyət SSRİ-nin xeyrinə olmayaraq son dərəcə pisləşmişdi. Almanlar Nalçik şəhərini ələ keçirərək, artıq Vladiqafqazın həndəvərinə çatmışdılar. Stalinqradda da vəziyyət gərgin olaraq qalırdı. Lakin Quzey Afrikadan gələn xoşagəlməz xəbərlər artıq Stalinqradda döyüşən almanlara çatmışdı. Stalinqrad döyüşlərinin bilavasitə iştirakçısı Helmut Velts yazırdı: «...Afrikada işlərimiz pisdir. Oktyabrın 23-də 8-ci ingilis ordusu əl-Alameyn altında hücuma keçdi. Rommel geri çəkilməli oldu»[19].

Tippelskirx döyüşləri təsvir edərkən yanacaq probleminin bir daha bütün kəskinliyi ilə özünü biruzə verdiyini qeyd edərək yazırdı: «Almanların benzin ehtiyatları sona çatmaqda idi»[20]. İtaliya ali komandanlığının fəaliyyətindən bəhs edərkən Tippelskirx onu da qeyd edirdi ki, «onlar (italyanlar) mümkün olan hər şeyi edirdilər ki, orduya kömək göndərsinlər, ehtiyatlarını artırsınlar; o da doğrudur ki, xroniki yanacaq qıtlığını aradan qaldırmaq iqtidarında deyildilər, bu da tankların fəaliyyətində özünü göstərirdi. Onu da qeyd etmək lazımdır ki, düşmən aviasiyasının



fəaliyyəti nəticəsində böyük miqdarda hərbi sursat, **y a n a c a q** *(seçmə mənimdir – müəllif)* və ərzaq hələ dənizdə ikən və ya avtomobil nəqliyyatı ilə daşınarkən itirilmişdi»[21].

Beləliklə, noyabrın 1-dən 2-nə keçən gecə ingilislərin başladıqları həlledici hücum noyabrın 3-də əl-Alameyn altında Rommelin tam məğlubiyyəti ilə nəticələndi. Böyük itkilərə məruz qalan almanlar geri çəkilməyə məcbur oldular. Bu, çox mühüm bir qələbə idi. İki illik bir müddətdə davam edən qarşıdurmada dönüş yaradan bir qələbə.

«Məşəl» əməliyyatı isə noyabrın 8-nə təyin edilmişdi və olduqca məxfi saxlanılırdı. Əməliyyata rəhbərlik general Eyzenhaurə tapşırılmışdı. Noyabrın 5-də o artıq Cəbəllüttariqdə idi. Əməliyyatda 110 nəqliyyat və 200-dən artıq amerikan və ingilis hərbi gəmiləri iştirak etməliydi. Nəhayət noyabrın 8-də amerikan-ingilis hərbi birləşmələri Əlcəzair və Mərakeş sahillərindən Qərbi Afrika ərazisinə yeridildilər. «Məşəl» əməliyyatının başlanması xəbəri ildırım sürətilə yayıldı.

«Sandi Tayms» qəzetinin və BBC radiosunun SSRİ-dəki müxbiri Aleksandr Vert bu hadisəni belə xatırlayırdı: «Quzey Afrikaya qoşun çıxarılması haqqında iki gündən sonra alınmış xəbər Moskvada böyük təsir buraxdı... bir qədər sonra Stalinqradda... Quzey Afrikaya qoşun çıxarılması xəbəri dərhal bütün hərbi hissələrə çatdırıldı və bu əsgərlərə son dərəcə gözəl təsir bağışladı. Kessidiyə göndərdiyi 13 noyabr tarixli ikinci məktubunda Stalin Quzey Afrikadakı kampaniyanın uğurla davam etməsi münasibətilə dərindən məmnun olduğunu bildirdi. Onun sözlərinə görə bu, «yaxın zamanda italyan-alman koalisiyasının dağılması perspektivi»nə doğru açılan bir yol olacaq». O yazırdı ki, bu «əməliyyat aydın göstərdi ki, ingilis-amerikan rəhbərləri «ciddi hərbi kampaniya hazırlamağa qabildirlər» və əlavə etdi ki, Qərb səhrasında düşmən qoşunlarının darmadağın edilməsi «ustalıqla» həyata keçirilib. O, İtaliyanın yaxın zamanda müharibədən çıxacağını da qabaqcadan xəbər verdi. O yazırdı ki, hərçənd Quzey Afrikadakı kampaniyanın Sovet İttifaqına olan təzyiqi nə dərəcədə azalda biləcəyini söyləmək hələ tezdir, amma onun mülahizəsinə görə səmərəsi böyük olacaqdır»[22].

Noyabrın 9-da Çörçillə göndərdiyi teleqramda Stalin yazırdı: «Sizin Liviyadakı nailiyyətləriniz və «Məşəl» əməliyyatının uğurla başlanması bizi çox sevindirir. Tam uğurlar arzulayıram»[23].

Noyabrın 13-də cavab teleqramında Çörçill yazırdı: «İstər Misirdə, istərsə də Fransa Quzey Afrikasındakı bizim hücumlarımız əhəmiyyətli uğurlarla nəticələnmişdir... Məşəl yaxşı yanır, general Eyzenhauer və

bizim komandanlar Fransa Quzey Afrikasında tam nəzarəti əldə edəcəklərinə qəti əmindirlər...»[24].

Noyabrın 14-də Stalin ABŞ prezidenti Ruzvelti də parlaq qələbə münasibətilə təbrik etdi.

Buna cavab olaraq Ruzvelt yazırdı ki, «gələcəkdə Aralıq dənizində həyata keçirəcəklərimiz sizin əla kampaniyanıza müəyyən təsir edəcəkdir...»[26].

1952-ci ildə öz xatirələrindən birində belə yazırdı: «əl-Alameyn ətrafındakı döyüşə və general Eyzenhauerin Quzey Afrikaya qoşun çıxarmasına qədər İkinci cahan savaşı demək olar ki, sıra ilə düzülmüş fasiləsiz uğursuzluqlar və məğlubiyyətlərdən ibarət idi... Bu iki hadisə müharibənin bütün gedişatını dəyişdirdi»[27].

Tippelskirx yazır: «Fransa Quzey Afrikasına qərb dövlətlərinin qoşunlarının çıxarılması ox dövlətləri üçün gözlənilməz idi»[28].

Bunu İsveç jurnalisti Fredborq da özünəməxsus şəkildə təsdiq edir: «Budur 8 noyabr gəldi. Müttəfiqlərin qoşun çıxarması haqdakı məlumatın Berlində törətdiyi sonsuz heyrəti heç vaxt unutmayacağam...»[29]. Əməliyyatın gözlənilməz olduğunu Fuller də vurğulayır və Hitler üçün yeni problemin yarandığını qeyd edərək yazırdı: «...hərçənd müttəfiqlərin qoşun çıxarması onu qəflətən yaxalasa da, o özünə xas bir sürətlə fəaliyyət göstərirdi»[30].

Beləliklə, Hitler təcili tədbirlər görməyə məcbur oldu. Döyüş meydanı yaratmaq məqsədilə o, noyabrın 10-da Tunisə hərbi qüvvələr göndərilməsini əmr etdi. O, Quzey Afrikada strateji üstünlüyün əldən verilməsi ilə heç cür razılaşa bilmirdi. Bu onun iki il ərzində fasiləsiz göstərdiyi səylərin hədər getməsi ilə nəticələnə bilərdi. Odur ki, Rommelin sərəncamına yeni-yeni hərbi birləşmələr göndərməklə onun döyüş potensialını artırmağa çalışdı. Bunun üçün hətta Stalinqrad cəbhəsindən belə yararlanmaqdan çəkinmədi. Halbuki almanların vəziyyəti nikbinlikdən xəbər vermirdi. Vermaxtın keçmiş zabiti Helmut Veltsin hadisələrlə bağlı xatirələrində deyilir:

«...Afrikada təhlükəli vəziyyət...

- ...Köhnə yeşiklər də (təyyarə nəzərdə tutulur – jarqon) daxil olmaqla bütün aviasiyanı indi Afrika cəbhəsinə yola salırlar. Özünüz görürsünüz ki, gərgin vəziyyətlə hesablaşmadan biz Rusiyadan bütün avia nəqliyyat birləşmələrini götürmüşük. Başqa yol yox idi.

- ...İcazənizlə soruşmaq istərdim, axı nəyə görə?

- ...Afrikaya yeni diviziyalar daşımaqdan ötrü. İndi Tunis uğrunda döyüşürük ki, amerikanlara və ingilislərə Əlcəzair vasitəsilə qərbə çıxmağa imkan verməyək. Bunun üçün sonuncuya qədər bütün təyyarələr lazımdır»[31].



Təyyarələrin Quzey Afrikaya göndərilməsini rus tarixçisi Q.Zastavenko da təsdiqləyir. O yazır ki, «müttəfiqlərin qoşunlarının Quzey Afrikaya çıxarıldığı vaxtdan başlayaraq, təyyarələrin miqdarı xeyli azaldı, çünki faşist təyyarələrinin bir hissəsi Aralıq dənizi rayonuna göndərilmişdi»[32].

Belə bir maraqlı, həm də təzadlı cəhəti də nəzərə almaq lazımdır ki, Stalinqrad cəbhəsindən alman təyyarələrinin Quzey Afrikaya göndərildiyi vaxt, Paulyusun 6-cı ordusu artıq mühasirə günlərini yaşayırdı. Belə bir zamanda hər bir əlavə təyyarə onun özünə hava-su kimi lazım idi. Yanacaq böhranı isə gündən-günə şiddətlənirdi. Bu paradoksal vəziyyət 6-cı ordunun mühasirə həyatını sürən əsgərləri üçün də anlaşılmaz idi. Əsgərlərdən birinin «bu təyyarələr hara göndərilir?» sualına belə cavab verilir: «Çox güman ki, şərqə. İngilis və amerikanlar 1942-ci il noyabrın əvvəlində Əlcəzairə desant çıxarıblar, onlar da şərqə, Tunisə doğru hücuma başlayıblar»[33].

Helmut Velts əvvəlki söhbəti belə xatırlayırdı:

«- Bəs bizə lazım olan bombardmançılar və kəşfiyyatçılar necə olacaq?

- Hamısını aparırlar! Burda yalnız ən vacib olanı saxlayacaqlar. Onsuz da onların sizə hazırda heç bir xeyri dəyməyəcək: benzin çatışmır. Məgər fikir vermirsiniz ki, artıq bir həftədir səmada bir dənə də kəşfiyyatçı görünmür?

- Fikir vermişik, bəs səbəbi nədir?

- Benzin daşıyanların hamısı buradan aparılıb...

- Lakin biz hava kəşfiyyatı olmadan qala bilmərik axı!

- Bundan başqa əlacınız yoxdur. Lakin yaxın zamanda sizə yanacaq göndərməyə ümid edirəm»[34].

Beləliklə, hətta Stalinqrad cəbhəsindən təcili olaraq gətirilmiş təyyarələr və digər hərbi birləşmələr hesabına xeyli qüvvətləndirilmiş «Afrika korpusu» müttəfiqlər üzərində bir sıra qələbələr əldə etsə də, faydası olmadı. Halbuki «öz döyüş təcrübəsinə və bacarığına görə alman qoşunları özlərinin amerikan, ingilis və fransız rəqiblərini xeyli üstələyirdilər»[35].

Noyabrın 13-də mühüm strateji məntəqə olan Tobrukun, 20-də Benqazinin itirilməsinə baxmayaraq almanlar əvvəlki inadkarlıqla döyüşür, müttəfiqlərə təsirli zərbələr endirirdilər. Belə ki, 1943-cü il fevralın 14-də amerikanların müdafiə xəttini yaran alman tankları gözəl taktiki

fənd nümayiş etdirərək, onların zirehli tank diviziyasını darmadağın etdilər.

«Amerika komandanlığı etiraf etməyə bilmirdi ki, onların birləşmələri döyüşlərdə sınanmış rəqiblərindən çox geridə qalırdılar»[36].

Lakin bütün bunlara baxmayaraq strateji təşəbbüs artıq müttəfiqlərin əlində idi. Alman komandanlığı yeni bir cəhd edərək «Afrika korpusu» əvəzinə «Afrika» ordular qrupunu yaratdı. Onun komandanlığına isə təbii olaraq Hitlerin sevimlisi Rommel təyin olundu. Fəqət artıq gec idi. Hətta Rommelin sərkərdəlik istedadı da kömək etmədi. «Görünür, Hitler tamamilə onu başa düşmürdü ki, Tunisdə italyan-alman qoşunlarının zamanı artıq tükənib»[37]. Rommel isə bunu başa düşmüşdü. Hətta deyilənlərə görə öz sevimli ordusunun acınacaqlı aqibətini onunla bölüşdürmək belə istəmişdi.

Beləliklə, Hitler öz səhvlərinin qurbanı oldu. Almaniya isə böyük neft uğrunda başladığı və öncə böyük uğurla apardığı mübarizənin son dərəcə mühüm mərhələsini uduzmaq zorunda qaldı. Bu, strateji məğlubiyyət idi. Onun acı nəticələri özünü tezliklə göstərəcəkdi.

# XVI FƏSİL

# TÜRKİYƏNİ SAVAŞA CƏLB ETMƏK CƏHDLƏRİ və BUNUN SƏBƏBLƏRİ

İkinci cahan savaşında, xüsusilə də onun ilkin mərhələsində Türkiyə hərbi qarşıdurmada iştirak edən hər iki tərəf üçün mühüm strateji əhəmiyyət kəsb edirdi. Odur ki, Türkiyənin bu və ya digər cəbhəyə qatılması yolunda hər iki tərəf əlindən gələni əsirgəmirdi.

Ədalət naminə demək lazımdır ki, yaranmış vəziyyətdə bunun obyektiv səbəbləri də az deyildi. Çünki müharibələr tarixi göstərir ki, hərbi münaqişəyə cəlb edilmiş hər bir dövlətin öz mənafeyi, öz strateji maraqları olur ki, bu da öz növbəsində həm obyektiv, həm də subyektiv məntiqə əsaslanır. Bu baxımdan müharibəyə qoşulmamasına baxmayaraq Türkiyə amili müstəsna əhəmiyyətə malik idi. Burda Türkiyənin geosiyasi vəziyyəti mühüm rol oynayırdı. Çünki onun vasitəsilə istər Orta Şərqə, istərsə də Güney Qafqaza asanlıqla çıxmaq olardı. Bunu Birinci cahan savaşının təcrübəsi də aydın sübut edirdi. Həmin vaxt Osmanlı Türkiyəsi ilə Dördlər ittifaqında birləşmiş kayzer Almaniyası, yenidən Türkiyə amilindən yetərincə bəhrələnməyə çalışdı.

Marşal Qreçko yazır: «Qafqazın ələ keçirilməsinə faşist Almaniyasının rəhbərləri çox böyük önəm verirdilər: onlar ona ümid edirdilər ki, Qafqaz neftinin itirilməsi Sovet İttifaqını daha da zəiflədəcək, alman qoşunlarının Güney Qafqaza çıxması isə, SSRİ-nin Qafqaz və İran vasitəsilə xarici aləmlə əlaqələrini pozacaq; Qafqazın və Güney Qafqazın ələ keçirilməsi ilə faşist Almaniyası onların böyük ehtiyac duyduqları yanacaq mənbələrinə sahib ola bilərdi; Qafqazın tutulması ilə hitlerçilər Türkiyənin SSRİ əleyhinə müharibəyə qoşulmasına nail olmaq istəyirdilər...»[1].

Marşal Yeryomenko bu fikri daha da genişləndirərək yazırdı: «Türkiyənin müharibəyə cəlb edilməsi Yaxın və Orta Şərqin ələ keçirilməsi yolunda, söz yox ki, ilk addım olardı»[2]. Bunu o belə izah edir: «...1942-ci ilin baharı ərəfəsində Türkiyə də SSRİ-nin cənub sərhədlərinin bilavasitə yaxınlığında özünün təqribən 25 diviziyasını cəmləşdirmişdi»[3]. Bunu, Güney Qafqaz cəbhəsinin komandanı olmuş ordu generalı Tülenev də təsdiqləyirdi: «...Türkiyə sərhəddinin faşist təyyarələri tərəfindən cəzasız olaraq pozulması faktları mövcud idi. Türkiyə komandanlığı sovet sərhəddi yaxınlığında iyirmi altı diviziya toplamışdı. Bunun hamısı sübut edirdi ki, əlverişli şərait yarandıqda Türkiyə Sovet İttifaqı əleyhinə müharibəyə qoşula bilər»[4].



Bu cəhətdən general Halderin öz gündəliyinə qeyd etdiyi bir açıqlama diqqəti cəlb edir. Orada yazılmışdır: «Nil və Fərat çayları istiqamətində istər Kirenaika tərəfdən, istərsə Anadolu vasitəsilə və ola bilsin Qafqaz vasitəsilə İrana hücumun hazırlanması... Anadolu vasitəsilə Suriyaya qarşı əməliyyat, Qafqazdan köməkçi əməliyyatla uyğunlaşdırılaraq, Bolqarıstanda lazımi qüvvələri təşkil etdikdən sonra başlanacaqdır ki, onları da eyni zamanda Türkiyəyə siyasi təzyiq göstərmək üçün istifadə etmək lazımdır. Ona görə ki, qoşunları Türkiyə vasitəsilə keçirməyə nail olaq[5].

Türkiyənin imtina etdiyi təqdirdə, 32 saylı direktivlə «onun müqavimətini silah gücü ilə sındırmağı» (sənəd №22) əmr edirdi»[6].

Sovet İttifaqı ərazisindən İraq istiqamətində əməliyyatı həyata keçirmək üçün tərkibində iki tank, bir motorlaşdırılmış və iki dağ-atıcı diviziyaları olan «Qafqaz-İran» əməliyyat qrupu yaratmaq nəzərə alınmışdı (sənəd №24).

«Afrika korpusu»nun Quzey Afrikadakı fəaliyyəti də daxil olmaqla bu əməliyyatların hamısı eyni strateji məqsədə xidmət edirdi: Quzey Afrikadan hərəkət edən Rommelin qoşunları Türkiyədən və Güney Qafqazdan İraqa doğru yeriyən alman silahlı qüvvələri ilə birləşməli, bununla da qapalı Avropa-Quzey Afrika istehkamı yaratmaqla ABŞ və İngiltərəyə qarşı müharibədə strateji təşəbbüsə nail olmalı idilər.

Almanlar, həmçinin Qara dəniz sahillərini də tez bir zamanda ələ keçirməyə çalışırdılar. Həm də təkcə ona görə yox ki, SSRİ-nin buradakı hərbi-dəniz donanmasını məhv etsinlər. Həm də ona görə ki, Türkiyəni SSRİ-yə qarşı müharibəyə cəlb etməklə Bakı neft rayonunun işğalını asanlaşdırsınlar.

Bununla belə, Britaniyanın və SSRİ-nin Türkiyəyə aid öz planları vardı. Bu planlar əsasən üst-üstə düşürdü. Almanların Türkiyə ərazisindən İraqın neft bölgələrinə soxula bilmək ehtimalı Britaniya hökumətini narahat etməyə bilməzdi. Çünki bu reallaşdığı təqdirdə nəinki ingilislərə məxsus zəngin neft mənbələri əldən çıxardı, həmçinin Britaniya silahlı qüvvələrinin arxasında almanlar ikinci cəbhə aça bilərdilər. Belə perspektiv ingilisləri heç cür təmin edə bilməzdi. Çünki iki cəbhədə döyüş-

mək onlar üçün son dərəcə müşkül bir iş olardı. Odur ki, Türkiyəni özünə müttəfiq etməklə alman ordularının İraqa girmək ehtimalını heçə endirə bilərdi. SSRİ də öz növbəsində təkidlə Türkiyəni özü ilə müttəfiq olmağa dəvət edirdi. Bir çox hallarda isə bu dəvət təzyiqə də bənzəyirdi. Sovet hökuməti haqlı olaraq hesab edirdi ki, Türkiyənin SSRİ tərəfdən müharibəyə qatılması Güney Qafqazın, ilk növbədə Bakı neft mənbələrinin alman işğalından qorunmasında əhəmiyyətli rol oynayardı. Məhz buna görə də həm SSRİ, həm də Britaniya hər vəchlə Türkiyəni müttəfiqliyə şirnikləndirməyə çalışırdılar. Hələ «1941-ci il yanvarın sonunda Çörçill Türkiyə prezidenti İnönüyə müraciət etdi və ona, əgər Almaniya Bolqarıstana girərsə bu Türkiyəyə qorxulu bir təhlükə olacağını bildirdi... Bolqarıstan aerodromları almanların aviasiya hissələrini artıq qəbul etməyə hazırlaşırdı. Ona görə o, Türkiyə prezidentinə Bolqarıstandan nümunə götürməyi və öz aerodromlarını xarici, lakin yalnız ingilis təyyarələrinə verməyi təklif etdi. O zaman Bolqarıstanın bitərəfliyini saxlamağa məcbur etmək üçün Türkiyədən nəinki təzyiq vasitəsi kimi istifadə edəcək və əgər Almaniya Bolqarıstana girərsə, İngiltərə hava hücumları ilə rumın neft mədənlərini hətta hədələyə də bilər. ...Bundan savayı, İngiltərə Türkiyəyə 100 ədəd zenit topu göndərməyə hazırdır...»[7].

Lakin Türkiyə hökuməti bu təkliflərdən imtina etdi. Onun fikrincə bu, Almaniyanı Türkiyəyə qarşı əks-tədbirlərə sövq edə bilərdi.

Lakin bir qədər sonra Balkanlarda vəziyyət daha da ciddiləşdi. Çörçill Türkiyə prezidentinə yeni bir təklif göndərdi və Almaniyaya qarşı ümumi cəbhə yaratmaq arzusunda olduğunu bildirdi. Lakin Türkiyə bu təklifi də cavabsız qoydu.

1941-ci il sentyabrın 6-da Çörçill Stalinə yazırdı: «Liviyada alman-italyan qüvvələri məhv edildikdən sonra... Türkiyəyə təsir etməyə ümid etmək olar, o mənada ki, heç olmazsa öz bitərəfliyinə sədaqətlə riayət etsin»[8]. Başqa bir göndərişində Çörçill yazırdı: «...Türkiyənin fövqəladə əhəmiyyəti var»[9].

Hətta «Məşəl» əməliyyatı uğurla nəticələndikdən sonra belə müttəfiqlər Türkiyəni müharibəyə qoşmaq fikrindən əl çəkmək istəmirdilər. Noyabrın 24-də Çörçill Stalinə yazırdı: «Türkiyə barəsindəki bəzi ilkin mülahizələrimi prezident Ruzveltə bildirdim və aşkar etdim ki, o məndən asılı olmadan demək olar ki, analoji nəticələrə gəlmişdir. Mənə elə gəlir ki, biz hamımız yeni səylə çalışmalıyıq ki, Türkiyəni yazda bizim tərəfdən müharibəyə qoşulmağa məcbur edək.

Bu məqsədlə istərdim ki, Birləşmiş Ştatlar Türkiyənin ərazi bütövlüyü və statusu haqqında ingilis-sovet təminatına qoşulsun»[10].



Hələ 1941-ci il avqustun 10-da SSRİ və Böyük Britaniya hökumətləri Türkiyə Respublikasının ərazi toxunulmazlığına hörmətlə yanaşdıqları barədə Türkiyə hökumətinə bəyanat vermişdilər. Bəyanatda həm də deyilirdi ki, əgər o hər hansı bir Avropa dövlətinin təcavüzünə məruz qalarsa, ona hər cür kömək və yardım göstərməyə hazırdırlar. Şübhəsiz ki, «Avropa dövləti» dedikdə müttəfiqlər ilk növbədə Almaniyanı nəzərdə tuturdular.

Stalin noyabrın 27-də göndərdiyi cavab teleqramında Çörçill və Ruzveltin Türkiyə barəsindəki rəyləri ilə tam razı olduğunu bildirərək, onu da qeyd etdi ki, «əlbəttə, bu, Hitler və onun cinayətkar yoldaşlarının darmadağın edilməsini tezləşdirmək üçün böyük əhəmiyyətə malik olardı»[11].

«Məşəl» əməliyyatının uğurla nəticələnməsinə, general Paulyusun komandanlıq etdiyi 6-cı ordunun Stalinqradda mühasirəyə düşməsinə və Quzey Qafqazda almanların təzyiqinin azalmasına baxmayaraq, müttəfiqlər Türkiyəni müharibəyə qoşmaqdan ötrü hər vasitədən istifadə etməyə çalışırdılar. Çünki Qara dəniz istiqamətindən Güney Qafqaza soxulmaq təhlükəsi hələ də gündəlikdə dururdu. Bundan başqa, digər problemlər də az deyildi. Türkiyə hər cəhətdən müttəfiqlərə əlverişli partnyor ola bilərdi. Çörçill 1943-cü il yanvarın 29-da Stalinə yazırdı: «Prezident Ruzvelt ilə belə şərtləşdik ki, mən gələcəkdə gözlənilən hər hansı bir hadisəni nəzərə alaraq, Türkiyə ordusunun hərbi ləvazimatla yaxşı və mümkün qədər tez təchiz edilməsi məqsədilə tədbirlər görülməsi üçün Türkiyə prezidentinə mənimlə görüşməyi təklif edim»[12]. Daha sonra Çörçill qeyd edir ki, Türkiyə prezidenti «ümumi müdafiə təhlükəsizliyi»[13] planının böyüdülməsini ürəkdən bəyənir.

Lakin bu onu göstərirdi ki, Türkiyə müharibədə fəal iştirak etməkdən daha çox öz milli təhlükəsizliyinin qayğısına qalmağı üstün sayırdı. Münaqişədə iştirak edən tərəflərin heç birinə qoşulmamaqdan ötrü Türkiyə hökuməti çox ehtiyatlı siyasət yeritmək və yalnız diplomatik vasitələrdən istifadə etməklə, bu mürəkkəb zaman kəsiyində öz təhlükəsizliyini qorumaq məcburiyyətində qalmışdı. Çünki Birinci dünya savaşının acı dərsləri belə tezliklə unudula bilməzdi.

Lakin Azərbaycan da daxil olmaqla keçmiş SSRİ tarixşünaslığında Türkiyə ilə bağlı məqamlar zənnimcə son dərəcə birtərəfli işıqlandırılmışdır. Bu da təbii ki, dövrün ideoloji tələblərilə izah olunmalıdır.

1954-cü ildə Azərbaycan SSR Elmlər Akademiyası tərəfindən nəşr olunmuş «Azərbaycan tarixi» kitabında müharibənin ağır çağında Qafqaza, o cümlədən də Azərbaycana cənubdan, Türkiyə tərəfindən cid-

di təhlükə yaranmasını qeyd edən müəllif kollektivi birmənalı şəkildə sübut etməyə çalışırdı ki, guya «İkinci cahan savaşı dövründə Türkiyə faktiki olaraq Almaniyanın əlaltısı idi»[14]. Heç bir dəlil, tarixi fakt və ya sənəd irəli sürmədən bu akademik nəşrin müəllifləri daha sonra yazırlar: «Sözdə öz bitərəfliyini bəyan edən Türkiyə hökuməti, işə gəldikdə Hitler Almaniyasına hər cür kömək göstərirdi. O, almanları strateji xammalla təchiz edir, onlarla birlikdə Qafqazı tutmaq üçün planlar işləyib hazırlayırdı»[15].

Daha çox ittihama bənzəyən bu mülahizə də həqiqətdən çox-çox uzaqdır. Çünki yaxşı məlumdur ki, Türkiyənin Almaniyaya verə biləcəyi heç bir strateji xammalı yoxdur. Bu xammal ilk növbədə duru yanacaq deməkdir. Bölgədəki duru yanacaq mənbələri isə sirr deyil ki, Britaniyanın tam nəzarəti altında idi. O ki, qaldı başqa sahələrdəki köməyə, bu da absurd fikirdir. Belə ki, Türkiyənin istər hərbi, istərsə hərbi-texniki potensialı heç də mövcud hərbi durumun tələbləri səviyyəsində deyildi və onun üçün İkinci cahan savaşında fəal iştirak etməsi son dərəcə arzuolunmaz bir məsələ idi. Əgər belə olmasaydı, Çörçill Türkiyə ordusunun tez bir zamanda texniki və hərbi sursatla təchiz olunması fikrini irəli sürməzdi. Odur ki, Türkiyə yalnız öz təhlükəsizliyini, ərazi bütövlüyünü qorumalı idi və ona da çalışırdı. SSRİ-nin cənub sərhəddində cəmləşmiş 25 və ya 26 türk diviziyasına gəldikdə isə, zənnimcə, bu da məhz həmin məqsədə xidmət edirdi. Çünki SSRİ və Britaniya silahlı qüvvələrinin İran ərazisinə yeridilməsi artıq danılmaz bir fakt idi və təbii ki, bu fövqəladə hərbi tədbirlər Türkiyə hökumətinin təlaşına səbəb olmaya bilməzdi.

Türkiyədə pantürkist təşkilatlarının fəallaşmasını qeyd edən yuxarıda adı çəkilən kitabın müəllifləri daha sonra yazırlar: «1941-ci ildə Türkiyənin «Boz qurt» jurnalında «Türkizm gözləyir» məqaləsi çap olunmuşdur. Orada gələcək «böyük Türkiyənin» xəritəsi təsvir edilmişdir. Onun tərkibinə sovet əraziləri olan Güney Qafqaz və Orta Asiya daxil edilmişdir. Pantürkistlər bu əraziləri tutmaqdan ötrü açıq-açığına Sovet İttifaqına hücum etməyə çağırırdılar»[16].

İctimai xarakterli bir neçə gənclər təşkilatının çağırışlarının və müstəqil mətbuatı təmsil edən bir jurnalın yazdığı fikirlərin Türkiyə hökumətinin rəsmi mövqeyi səviyyəsinə qaldırılması cəhdləri, problemin əsl mahiyyətini ört-basdır etməkdən başqa bir şey deyildir. Çünki yaxşı məlumdur ki, hələ müharibə başlamazdan əvvəl Stalin Bosfor və Dardanel boğazlarını SSRİ-nin nəzarəti altına almaqdan ötrü çox ciddi səylar



göstərirdi ki, onun reallaşması üçün hətta Hitlerə diplomatik təzyiqlər göstərməkdən belə çəkinmirdi. Türkiyə təbii ki, bunu da unutmamışdı.

Digər tərəfdən Türkiyə müstəqil bir dövlət olaraq, hər hansı bir dövlətlə diplomatik münasibətlər yaradıb, öz milli maraqlarına cavab verən siyasi addımlar ata bilərdi. Odur ki, o, həm SSRİ və Britaniya, həm də Almaniya ilə ən müxtəlif səviyyələrdə qarşılıqlı önəm daşıyan rəsmi danışıqlarda bulunmaqla öz mövqeyini müdafiə etməyə çalışırdı. Lakin yuxarıda adı çəkilən akademik nəşrin müəllifləri bu məsələdə də birtərəfli mövqe tutaraq, bir qədər yumşaq desək, bir növ ideoloji qısqanclıq nümayiş etdirmişdilər. SSRİ və Britaniya ilə olan anlaşmalardan nədənsə yan keçən müəlliflər heyəti, diqqəti yalnız Almaniya ilə bağlı məsələlərə doğru yönəltməyi lazım bilmişlər. Türkiyə ilə Almaniya arasındakı münasibətləri qabartmağa çalışan kitab müəllifləri belə yazırdılar: «1941-ci ilin avqustunda Hitlerin Türkiyədəki səfiri fon Papen Berlinə xəbər verirdi ki, Türkiyənin hakim dairələri Azərbaycanın və əsas etibarilə Bakı neftinin ələ keçirilməsində maraqlıdırlar. Fon Papen yazırdı ki, bu dairələr «...1918-ci il hadisələrinə qayıtmağa meyllidirlər və bu vilayəti, xüsusilə də olduqca qiymətli olan Bakının neft mənbələrini özlərinə birləşdirmək istəyirlər»[17].

Lakin cərəyan edən hadisələr bunun tam əksini göstərdi. Çünki əgər Türkiyə hökumətinin belə bir niyyəti olsaydı, 1942-ci ilin avqust ayında yaranmış hərbi vəziyyət onun üçün göydən düşmə bir fürsət idi. Belə ki, Quzey Afrikada ingilislərin, Quzey Qafqazda isə Sovet Ordusunun düçar olduğu ağır məğlubiyyətlər və alman silahlı qüvvələrinin böyük qətiyyətlə Orta Şərqin və Bakının neft mədənlərinə yeridikləri bir vaxtda Türkiyə çox asanlıqla Almaniya tərəfində müharibəyə qoşula bilərdi. Əgər belə olsaydı, hadisələr Almaniyanın xeyrinə tamamilə başqa şəkildə cərəyan edə bilərdi. Çox güman ki, o zaman Stalinqrad ətrafındakı hadisələr də öz sonrakı əhəmiyyətini itirmiş olardı. Lakin Türkiyə bu fürsətdən istifadə etmədi. Daha doğrusu, istifadə etməkdən boyun qaçırdı. Və beləliklə də sözsüz ki, SSRİ və Britaniyaya misilsiz kömək göstərmiş oldu. Və eyni zamanda da mövcud problemlərə, böyük çətinliklərə, ciddi təzyiqlərə baxmayaraq müstəqil siyasət yeritdiyini açıq-aydın sübut etdi. Bunu sonrakı hadisələr də təsdiqlədi.

Çörçill 1943-cü il fevralın 1-də Stalinə yazırdı: «...biz hərbi materialların daşınması üçün kommunikasiyaların yaxşılaşdırılması məqsədilə Ankarada qarışıq İngiltərə-Türkiyə komissiyası yaradırıq. Əgər onlar Almaniya, yaxud Bolqarıstan tərəfdən hücuma məruz qalarlarsa, onlara kömək etmək üçün biz müştərək planlar tərtib edirik»[18]. Lakin bu məsə-

lənin bir üzü idi. Çörçill öz əsas niyyətini belə açıqlayırdı: «Yəqin ki, ...bitərəfliyi geniş şəkildə izah etmək yolu ilə... onlar Almaniya üçün mühüm həyati əhəmiyyətə malik olan Ployeştinin neft mənbələrinə Britaniya və Amerika bombardmançılarının həmlələr etməsi üçün təyyarələrə yanacaq doldurmaq məqsədilə onlar öz aerodromlarından istifadə etməyə icazə versinlər, xüsusilə də indi, Sizin orduların Maykopu qaytardıqları bir vaxtda»[19].

Beləliklə Türkiyəni müharibəyə cəlb etməyin hələlik real olmadığını başa düşən hər iki tərəf heç olmazsa onun öz bitərəfliyinə sadiq qalacağını arzu etmək istərdilər. Xüsusilə də Almaniya. Çünki hərbi şərait elə bir vəziyyətə çatmışdı ki, almanlar böyük neft əldə etməkdən daha çox Rumıniya neft mənbələrini qoruyub saxlamağa səy göstərməli idilər. Lakin tezliklə məlum oldu ki, getdikcə bu da müşkül bir problemə çevriləcəkdir. Xüsusilə də Türkiyə ərazisindəki aerodromlar Britaniya və Amerika təyyarələrinin sərəncamında olacağı təqdirdə. Şübhəsiz ki, ingilis-amerikan komandanlığı bu imkandan maksimum bəhrələnməyə, almanları onların yeganə duru yanacaq mənbəyi olan Ployeşti mədənlərindən mümkün qədər tez təcrid etməyə çalışacaqdı.

Ümumiyyətlə, Rumıniyanın neft mədənlərinin mühafizəsi bir problem olaraq, daim Hitlerin diqqət mərkəzində olmuşdur. Hələ Mussolininin 1940-cı ilin oktyabrında Yunanıstana qarşı hərbi avantürasına öz rəyini bildirərkən, bunun neft mədənləri üçün olduqca təhlükəli nəticələrə səbəb olacağından son dərəcə ehtiyatlanmışdı.

Hətta SSRİ-yə etdiyi hücumdan bir gün əvvəl, 1941-ci il iyunun 21-də İtaliya diktatoru Benito Mussoliniyə göndərdiyi məktubda Hitler təbii narahatlığını ifadə edərək yazırdı: «Duçe!... Polşanın ləğvindən *(işğalından – müəllif)* sonra Sovet Rusiyasında ardıcıl bir istiqamət özünü biruzə verməyə başlayıb. O, *(yəni Rusiya - müəllif)* ağılla, ehtiyatla, lakin durmadan köhnə bolşevik ideyası olan Sovet dövlətinin genişləndirilməsinə doğru can atır»[20].

Məktubda daha sonra deyilir: «Tamamilə mümkündür kt, Rusiya rumın neft mənbələrini məhv etməyə çalışacaq. Güman edirəm ki, gördüyümüz müdafiə tədbirləri bizi bundan mühafizə edəcəkdir. Ordularımızın vəzifəsi ondan ibarətdir ki, bu təhlükəni mümkün qədər tez bir vaxtda aradan qaldırsın»[21].

Aralıq dənizindəki Krit adasının işğalı da ilk növbədə Ployeşti neft rayonu ilə bağlı idi. İngilislərin adadakı hərbi-hava bazalarını ələ keçirməklə, almanlar neft mədənlərinə Britaniya aviasiyasının hücum etmək



ehtimalını aradan qaldırdılar. Beləliklə, «...Rumıniyanın neft mədənləri indi ingilis bombardmançıları üçün əlçatmaz oldu»[22].

Odur ki, Britaniya hökuməti Türkiyəyə diplomatik təzyiqi gücləndirməklə, onun ərazisindəki aerodromlardan hərbi məqsədlər üçün istifadə etməyə çalışırdı. 1943-cü ilin yanvarın 30-31-də Türkiyənin Adana şəhərində baş nazir Çörçill ilə Türkiyənin hökumət rəhbərləri arasında keçirilmiş konfrans da məhz bu məsələ ilə əlaqədar idi. Konfrans başa çatdıqdan dərhal sonra fevralın 1-də Çörçill Stalinə yazırdı: «Türklərdən nə müəyyən siyasi öhdəlik xahiş etdim, nə də bunu onlardan aldım, onları xəbərdar etdim ki, onlar belə də bəyanat verə bilərlər»[23]. Beləliklə, Türkiyə hökuməti müstəqil siyasət yeritməklə yanaşı, beynəlxalq proseslərdən geri qalmamağa, bölgədə cərəyan edən hadisələrə öz milli maraqlarına uyğun şəkildə münasibət bəsləməyə çalışırdı. Bunu Çörçill də qeyd edirdi. O Stalinə yazırdı: «Buna baxmayaraq onların mənimlə görüşləri, bütövlükdə onların mövqeyi və birgə rəsmi məlumat... onları əvvəlkindən daha açıqlıqla antihitler sisteminə cəlb edir və bu bütün dünya tərəfindən məhz belə də qavranılacaqdır»[24]. Beləliklə Çörçillin «əvvəlkindən daha açıqlıqla» deməsi birmənalı şəkildə sübut edir ki, rus və Azərbaycan tarixçilərinin yazdığının əksinə olaraq, Türkiyə heç vaxt Almaniyanın əlaltısı olmamış, sadəcə öz milli təhlükəsizliyinin qayğısına qalmağa çalışmışdır.

Ədalət naminə onu da qeyd edək ki, SSRİ-nin Türkiyəyə qarşı tarixən mənfi mövqeyinə baxmayaraq, Çörçillə göndərdiyi cavab məktubunda Stalin də onun bu fikri ilə razı olduğunu özünə məxsus şəkildə təsdiqləmişdi. Fevralın 6-da Çörçillə belə yazırdı: «...istər sovet-alman müharibəsinin başlanmasından bir neçə ay əvvəl, istərsə müharibə başlandıqda bizim tərəfimizdən Türkiyəyə ünvanlanmış bir sıra bəyanatlar verilmişdi ki, onların dost xarakterli olması Britaniya hökumətinə də məlumdur. Türklər bu addımlara münasibət bildirmədilər, görünür, almanları qəzəbləndirməkdən ehtiyatlanırdılar»[25].

Türkiyənin ən böyük xidməti ondan ibarət oldu ki, o, 1942-ci ilin yay kampaniyası zamanı Almaniya ilə ittifaqa girib müharibəyə qoşulmadı. Yoxsa nəticəsi çox güman ki, son dərəcə gözlənilməz ola bilərdi. Əvvəldə qeyd etdiyimiz kimi, Orta və Yaxın Şərqin də, Bakının da neft bölgələrinin qapıları almanların üzünə açıla bilərdi.

«Adana konfransında baş nazirin *(Çörçill nəzərdə tutulur – müəllif)* prezident İsmət bəyə və Türkiyə nümayəndə heyətinə etdiyi bəyanatların icmalı» adlı sənəddə Çörçill qeyd edirdi ki, «...Ruzvelt və o istəyirlər ki, Türkiyə güclü olsun, İngiltərə və ABŞ ilə sıx bağlansın. Çörçillin

fikrincə bu xüsusilə vacibdir, çünki, «Almaniyanın neftə olan ehtiyacı və Şərqə doğru meyli qalmaqdadır» və həm də Balkanlarda «anarxiya vəziyyəti» yarana bilər ki, bu da «Türkiyə hökumətini, özünün xüsusi maraqlarını müdafiə etmək məqsədilə hadisələrə qarışmağa vadar edər»[26]. İcmalda daha sonra deyilir ki, Stalin «Türkiyəni yaxşı silahlanmış və təcavüzdən müdafiə olunmağa hazırlıqlı görmək istəyir»[27].

Çörçill müttəfiqlər adından Türkiyə hökumətini əmin edirdi ki, onlar yaxın zamanda ölkəyə tələb olunan qədər hərbi materiallar, habelə «zenit artilleriyası və tank əleyhinə hissələr»[28] göndərməyə hazırdırlar. Britaniyanın baş naziri bir qədər keçdikdən sonra, Türkiyəyə kömək məqsədilə «Polşa korpusu»nun və eləcə də ingilislərin 9-cu və 10-cu ordu hissələrinin göndəriləcəyini bəyan etmişdi»[29].

Beləliklə, müttəfiqlərin də rəyinə istinad edən və Adana konfransının sənədlərinə əsaslanan Çörçill Türkiyədən nəinki Ployeştinin neft mədənlərinə, həmçinin başqa hərbi əməliyyatlarda da istifadə etməyi planlaşdırırdı. 1943-cü il martın 11-də Stalinə göndərdiyi məxfi göndərişdə Çörçill «...Kritin və ya Dodekanez adalarının, yaxud da hər ikisinin tutulması və Yunanıstana desant çıxırılması»na[30] dair əməliyyat planlarının öyrənilməsi haqqında məlumat verirdi. Çörçill, həmçinin onu da qeyd etmişdi ki, «Türkiyənin köməyi və türk aerodromlarından istifadə olunması, əlbəttə, son dərəcə qiymətli ola bilərdi»[31].

# XVII FƏSİL

# STALİNQRAD – SAVAŞIN AĞIRLIQ MƏRKƏZİ

1942-ci il sentyabrın sonunda general Halderin yerinə təyin edilmiş Almaniyanın quru qoşunları baş komandanlığının baş qərargah rəisi Kurt Tseytsler alman hərbi komandanlığının 1942-ci il üçün hazırladığı yay kampaniyasını xarakterizə edərək yazırdı: «1942-ci ilin yay hücumunu planlaşdırarkən, Hitler ilk növbədə Stalinqrad və Qafqazı tutmaq niyyətində idi. Bu niyyətin həyata keçirilməsi, əlbəttə, böyük əhəmiyyət kəsb edirdi. Əgər alman ordusu Stalinqrad rayonunda Volqa çayını keçə bilsəydi və rusların şimaldan cənuba gedən əsas kommunikasiya xətti kəsilsəydi, beləliklə də Qafqaz nefti Almaniyanın hərbi ehtiyaclarının təmin edilməsinə yönəlsəydi, o zaman Şərqdəki vəziyyət əsaslı surətdə dəyişər, müharibənin bizim üçün əlverişli qurtaracağına ümidlərimiz xeyli artardı. Hitlerin fikirləri belə idi. Bu məqsədlərə çatdıqdan sonra o, Qafqaz və ya başqa bir yolla yüksək çevikliyə malik olan birləşmələri Hindistana yeritmək istəyirdi»[1].

Tarixi dəlillər sübut edir ki, 1942-ci ilin yay kampaniyası planlaşdırılarkən alman komandanlığı üçün Qafqaz amili son dərəcə mühüm önəm kəsb edir, Stalinqrad isə bir qədər arxa planda qalırdı. Bunu, hərbi tarixçi İ.Parotkin də təsdiqləyir. O yazır: «Öz qoşunlarının Qafqaza uğurlu hücumunu təmin etməkdən ötrü alman komandanlığı əvvəlcə iki tank və iki səhra ordusunun gücü ilə cənub-qərb və cənub cəbhələrinin qoşunlarını məğlubiyyətə uğratmaq üçün Stalinqrad istiqamətində zərbə endirmək, Stalinqrad rayonunu tutmaq və Qafqaza doğru irəliləyən, özünün zərbə qruplaşmasının sol cinahını təmin etmək üçün Don çayı boyunca müdafiə mövqeləri yaratmaq istəyirdi.

Beləliklə, alman komandanlığının ilkin planına görə Stalinqrad rayonunun tutulması köməkçi əhəmiyyət daşıyırdı. Alman qoşunlarının əsas səyləri Qafqazın tutulması üçün cəmləşdirilməli idi»[2].

Yay kampaniyasını həyata keçirmək üçün dörd hərbi əməliyyat nəzərdə tutulmuşdu. Hitlerin imzaladığı 41 saylı direktivə görə onun mərhələləri aşağıdakı ardıcıllıqla müəyyənləşdirilmişdi:



«1. Voronejə doğru cəbhənin yarılması.

2. Don çayından qərbdə, 6-cı ordunun tərəfində olan düşməni darmadağın etmək.

3. Stalinqrada hücum.

«A» və «B» ordular qrupları Stalinqrad rayonunda birləşməli və onu tutmaqla və ya atəşə məruz qoymaqla, bu şəhəri onun hərbi sənaye və kommunikasiya qovşağının mərkəzi olmaq əhəmiyyətindən məhrum etmək.

4. Qafqazı işğal etmək»[3].

Lakin yay kampaniyası başladıqdan bir qədər sonra vəziyyət köklü surətdə dəyişdi. Qısa vaxtda qazanılmış ilk hərbi uğurlar alman komandanlığını daha iri miqyaslı qələbələrə şirnikləndirdi.

Nəzərdə tutulan dörd əməliyyatı ardıcıllıqla həyata keçirmək əvəzinə o, Qafqazı və Stalinqradı eyni vaxtda ələ keçirməyi qərara aldı. Bu isə öz növbəsində alman qüvvələrinin istər-istəməz parçalanmasına səbəb olmalıydı. Bu belə də oldu. Alman hərbi komandanlığı çox keçmədən Qafqaza hücumu daha da genişləndirmək üçün nəzərdə tutduğu ehtiyat hərbi qüvvələrini Stalinqrada doğru irəliləyən «B» ordular qrupunun həmlə hissəsini gücləndirməyə yönəltdi. Bunun nəticəsində əvvəllər yardımçı xarakter daşıyan Stalinqrad istiqaməti, çox keçmədi şərq cəbhəsində əsas istiqamətə çevrildi. Onu da qeyd etmək lazımdır ki, artıq oktyabr ayında Stalinqrad istiqamətində olan alman hərbi potensialının həcmi Qafqaz istiqamətindəkindən təqribən iki dəfə artıq idi. Əgər həmin dövrdə Stalinqrad istiqamətində 50 alman diviziyası döyüşürdüsə, Qafqaz istiqamətində cəmi 26 diviziya döyüşürdü.

Yay kampaniyasının strateji məqsədinin Qafqaz və onun neft rayonlarının tutulması olduğunu təsdiq edən general-feldmarşal Paulyus sonralar yazırdı: «Qafqaz istiqamətində bu əməliyyatın həyata keçirilməsi vaxtı cinahları müdafiə etmək və arxanı qorumaq məqsədilə Stalinqrad rayonunda Volqaya çatmaq lazım idi. Bununla eyni zamanda mühüm su yolunu kəsmək və beləliklə də Sovet ordusunu Stalinqradın hərbi-sənaye müəssisələrindən məhrum etmək məqsədi güdülürdü. Lakin Stalinqradın tutulması vəzifəsi «Cənub» ordular qrupu və əməliyyatda iştirak edən ordular qarşısında yalnız 1942-ci il iyulun sonunda qoyuldu»[1].

Burada kiçik bir haşiyə çıxaraq, hörmətli oxucuların nəzərinə çatdırmaq istəyirəm ki, Stalinqrad uğrunda gedən və yarım ildən artıq davam edən hərbi əməliyyatlar haqqında çox sayda elmi, publisistik və bədii əsərlər, habelə həmin döyüşlərdə bilavasitə iştirak etmiş istər alman, istərsə sovet mövqeyini əks etdirməyə çalışan yüksək rütbəli hərbçilərin memuarları, xatirələri və məqalələri çap olunub oxuculara

təqdim olunmuşdur. Bu əsərlərdə Stalinqrad əməliyyatı istər elmi, istərsə hərbi nöqteyi-nəzərdən geniş tədqiq edilmiş, bir-birilə mübarizə aparan hər iki tərəfin taktiki və strateji gedişləri, buraxdığı səhvlər, döyüş əməliyyatlarının bir-birinə bənzəməyən müxtəlif mərhələlərində əldə edilmiş uğurlar və düçar olduqları uğursuzluqlar ətraflı təhlil olunmuşdur. Şübhəsiz ki, indiyə kimi bizə məlum olan müxtəlif ədəbiyyat nümunələrində obyektiv fikirlərlə yanaşı, subyektiv mülahizələr də az deyil. Bu, Sovet İttifaqında yazılıb çap edilmiş elmi əsərlərdə və memuar ədəbiyyatında özünü xüsusilə qabarıq göstərir. Hamıya çoxdan və yaxşı bəllidir ki, Stalinqrad uğrunda gedən döyüşlər İkinci cahan savaşında, xüsusilə şərq sovet-alman hərbi qarşıdurmasında son dərəcə mühüm yer tutur. O da yaxşı bəllidir ki, bu qarşıdurma son nəticədə bir ölkənin, yəni Sovet İttifaqının böyük zəfəri idisə, digər ölkənin - Almaniyanın isə müharibə ərzində ən böyük faciələrindən biri idi. Elə faciə ki, Quzey Afrikadakı «Məşəl» əməliyyatı ilə birlikdə götürüldükdə, İkinci cahan savaşının taleyini faktiki olaraq həll etmiş oldu. Bu zəfərin və faciənin səbəbləri həddindən çoxdur. Onların meydana gəlməsi isə həm obyektiv, həm də subyektiv amillərlə bağlıdır. Lakin obyektiv amillər daha çoxdur. Onların biri isə son dərəcə fövqəladə əhəmiyyət kəsb edir və təəssüflər olsun ki, bu amil tədqiqatçıların diqqətini son dərəcə az cəlb edib. Daha doğrusu, heç əsaslı dərəcədə cəlb də etməyib. Yalnız ötəri xarakter daşıyıb ki, bu da əldə edilmiş zəfərin ilk növbədə başqa amillərlə əlaqəli olduğunu sübuta yetirmək məqsədi daşıyıb. Uzun axtarışlardan, geniş təhlillərdən və nəhayət misqal-misqal toplanıb yığılmış çoxsaylı məlumatlardan, informasiyalardan, döyüş əməliyyatlarının bilavasitə iştirakçılarının söylədiklərindən, habelə əldə olan təkzibolunmaz faktlardan gəldiyim qənaət budur ki, bu mühüm və həlledici amil ilk növbədə məhz duru yanacaq – neft amili olmuşdur. Xüsusilə də Bakı nefti. Son məqamda birinin faciəsi, digərinin isə zəfəri üçün. Odur ki, geniş oxucu kütləsinə təqdim etdiyim bu kitabda Stalinqrad döyüşlərinin zəfər kimi qələmə alınmış çoxsaylı əməliyyatlarının xronologiyası, hərbi uğurlar və uğursuzluqlar, hərbi komandanlıqların və ya ayrı-ayrı komandirlərin, habelə bu və ya digər hərbi hissə və birləşmələrin *(hər iki tərəf nəzərdə tutulur – müəllif)* üzərlərinə düşən vəzifələrin öhdəsindən gəlib-gəlməmələri barədə deyil, Stalinqrad döyüşlərinin, eləcə də İkinci cahan savaşının taleyini həll etmiş neft amili barədə geniş və ətraflı tədqiqat aparmağı daha məqsədə uyğun saymışam.

Marşal Yeryomenko yazır: «Stalinqradın və yaxınlığındakı rayonun ələ keçirilməsi almanlara 1942-ci ilin bütün yay kampaniyası dövründə qazandıqları uğurları qoruyub möhkəmləndirmək yolunda



mühüm təminat olardı. Stalinqradın tutulması almanların Qafqaz qruplaşmasının böyük və olduqca real təhlükədən qurtulmasına səbəb olardı. Axı, Qafqaz neftinin nəzərdə tutulmuş işğalına Hitler çox böyük qüvvələr və qiymətli vaxt sərf etmişdi»[5].

Lakin bu barədə bir sıra mülahizələr mövcuddur. Alman generallarının bir çoxu belə hesab edirdi ki, əgər Hitler onları Stalinqraddakı çarpışmalara məcburən cəlb etməsəydi, o zaman onlar qələbə qazanar və hər halda 1942-ci ilin payızına qədər Qafqazı tuta bilərdilər.

Böyük Britaniyanın baş naziri Çörçill isə hərbçilərin nöqteyi-nəzərinə istinad etməklə, özü də bu fikirdə idi ki, «1942-ci ilin payızında Stalinqrad artıq öz əhəmiyyətini itirmişdi». Stalinqradın şəhər olmaq etibarilə öz əhəmiyyətini itirdiyi barədə Çörçillin bu nöqteyi-nəzərini, keçmiş alman generallarının demək olar ki, əksəriyyəti tam dəstəkləyirdi. Bu fikirlər Vermaxtın ən nüfuzlu generallarından Quderianın, Manşteynin, Mellentinin və bir çox başqalarının hərbi-tarixi əsərlərində də öz əksini tapmışdır.

Bunu general Dörr də təsdiqləyir. O sübut edir ki, «bir sənaye mərkəzi kimi sıradan çıxarıldıqdan sonra, Stalinqrad alman tərəfi üçün bütün əhəmiyyətini itirmişdi»[6].

Sovet müəlliflərinin əksəriyyətindən fərqli, general A.Tarasov da bu fikirdə idi ki, «...artıq iyul ayının ortalarında Stalinqrad rayonunda sovet qoşunlarının mühasirəyə alınması əməliyyatını başa çatdırmağın heç bir mənası yox idi, çünki müdafiə əməliyyatlarının gedişində bizim qoşunların uğursuzluqları, sovet cəbhəsinin cənub cinahının strateji yarılmasına gətirib çıxardı...»[7] Fikrini davam etdirərək general Tarasov daha sonra yazır: «Stalinqrad uğrunda mübarizədə Hitlerin şöhrətpərəstliyi də az rol oynamadı. Stalinin adını daşıyan şəhərin ələ keçirilməsi müəyyən siyasi əhəmiyyətə səbəb olar və şəxsən Hitlerə müzəffər şan-şöhrəti yaradardı»[8].

Halbuki, Hitler özü dolayı yolla olsa da, bunu təkzib edirdi. Alman ordusunun keçmiş zabiti Helmut Velts, Fürerin radio ilə çıxışını belə təsvir edirdi: «Bu gün noyabrın 8-də (1942-ci il) Hitler «öz köhnə qvardiyasına» nitqlə müraciət edəcəkdir...nəhayət diktor fürerin çıxışını elan edir...»

«Mən müəyyən bir məntəqədə, müəyyən bir şəhərin yaxınlığında Volqaya çatmaq istəyirdim. Təsadüfən bu şəhər Stalinin özünün adını daşıyır. Lakin mən oraya bu səbəbə görə can atmırdım. Şəhər tamamilə başqa cür də adlana bilərdi. Mən oraya ona görə gedirdim ki, o olduqca vacib məntəqədir. Onun vasitəsilə otuz milyon ton yükün göndərilməsi

həyata keçirilir ki, onun da demək olar ki, doqquz milyon tonu neftdir... Orada nəhəng yükboşaltma məntəqəsi vardı»[9].

Lakin fakt öz faktlığında qalır. Artıq yay kampaniyası dövründə almanlar Stalinqrad ətrafındakı döyüşlərdə əsaslı uğurlar qazanmış, avqustun ortalarına yaxın şəhərin qərb tərəfdən 60-70 kilometrliyinə, cənubdan isə 20-30 kilometrliyinə çatmışdılar. Fasiləsiz bombardmanlar nəticəsində şəhər böyük dağıntılara məruz qalmış, onun bütün infrastrukturu demək olar ki, tamamilə məhv edilmişdi. Bunun canlı şahidi olmuş marşal Yeryomenko öz xatirələrində yazırdı: «Ötən müharibədə çox bəlalar görmüşəm, lakin avqustun 23-də Stalinqradda gördüklərimiz öz misilsiz dəhşəti ilə bizi heyrətə gətirdi. Partlayan mərmilərin odlu-tüstülü şölələri gah burda, gah da orda yuxarı sovrulurdu. Neft ambarı rayonundan çox böyük alov sütunları göylərə qalxır, aşağıya isə alov dənizi və acı tüstü yağırdı. Yanan neft və benzin seli Volqaya doğru yeriyir, çayın üstü və Stalinqrad reydində duran gəmilər yanır, küçə və səkilərin asfaltı üfunətlə tüstülənir, teleqraf dirəkləri kibrit kimi alışırdı...»[10]

Qafqaza böyük neft ardınca gəlməyə can atan almanlar, hər vəchlə sovet ordusunu məhz elə duru yanacaqdan məhrum etməyə çalışırdılar. Bu Stalinqrad əməliyyatında xüsusilə aydın görünür.

Marşal Yeryomenko yazır: «...avqustun 10-da cəbhə komandanlığı hava ordusunun qarşısında məsul vəzifə qoydu: Volqa ilə Həştərxandan Stalinqrada doğru hərəkət edən benzinlə doldurulmuş barj tipli 16 gəmidən ibarət olan karvan etibarlı surətdə qorunmalıdır»[11].

«...Avqustun 18-də günün ikinci yarısında barjlardan ibarət karvan yeddi «Yunkers» tərəfindən hücuma məruz qaldı. Onlar hədəfə yaxınlaşdıqda, bizim gizli aerodromlarımızdan qalxan qırıcılarımız onlara həmlə etdi»[12].

«...Avqustun 19-da və 20-də almanlar öz aviasiyasının böyük miqdarda qüvvəsi ilə barjları batırmağa çalışırdılar. Lakin bizim gəmilərə qarşı edilən hər bir hücum cəhdi alman təyyarəçilərinin məhvi ilə nəticələnirdi. Yanacaq Stalinqrada çatdırılmışdı...»[13]

Alman komandanlığı yaxşı bilirdi ki, Sovet ordusunun alman ordusu ilə nisbətdə malik olduğu əsas üstünlüyü SSRİ-nin duru yanacaq ehtiyatlarının tükənməzliyi ilə ölçülür. Stalinqrad istiqamətində külli miqdarda motorlaşdırılmış texnikanın cəmləşdirilməsi və onlardan geniş miqyasda istifadə edilməsi duru yanacağın və sürtgü yağlarının əhəmiyyətini ön plana çəkməklə yanaşı, tezliklə onu gələcək qələbənin əsas arqumentinə çevirdi. Odur ki, almanlar Bakıdan Həştərxana gətirilən, oradan isə Volqa ilə Stalinqrada neft daşıyan gəmi karvanlarına, neft ambarlarına və ümumiyyətlə yanacaqla bağlı olan hər bir obyektə qarşı



aramsız hücumlar edir, beləliklə də sovet qoşunlarını yanacaqsız qoymağa çalışırdılar. Lakin tezliklə məlum oldu ki, onlar nəinki sovet qoşunlarını yanacaqsız qoymağa nail olmadılar, əksinə, çox keçmədən özləri dəhşətli yanacaq qıtlığının qurbanı oldular. Elə bir qıtlıq ki, indiyə qədər qazandıqları nailiyyətlərin üstündən xətt çəkməklə yanaşı, sovet-alman cəbhəsində əsaslı dönüşün başlanmasına gətirib çıxardı.

Müharibələr tarixində ilk dəfə idi ki, neft amili qələbəni təmin edən həlledici amilə çevrilirdi. Lakin alman komandanlığı bunun nə dərəcədə ciddi olduğunu çox gec başa düşdü. Digər tərəfdən isə Qafqaz və Bakının neft mənbələrini ələ keçirmək, sovet qoşunlarını isə əksinə, bu mənbələrdən təcrid etmək üçün görülən geniş miqyaslı tədbirlər, çox hallarda isə təkəbbürlü hərəkətlər hələ ki, real nəticəyə nail olmağa imkan vermirdi. Lakin avqustun sonu sentyabrın əvvəlində almanların vəziyyəti son dərəcə ümidverici idi. İstər Qafqaz cəbhəsində, istərsə Stalinqradda.

General Dörr yaranmış vəziyyəti səciyyələndirərək yazırdı: «Stalinqrad sentyabrda əsas etibarilə bizim əlimizdə idi, şəhərin şimalındakı sənaye obyektlərinin böyük hissəsi isə hələ ki, ruslar tərəfindən tutulmuşdu.

Doğrudur, Volqa su magistralı kimi artıq istifadə oluna bilməzdi. Stalinqrad kommunikasiya qovşağı olmaq rolunu itirmişdi... Sənaye müəssisələri köçürülmüş, dağıdılmış və yaxud alman artilleriyasının atəş zonasında idi. Beləliklə Hitlerin 1942-ci il 5 aprel tarixli direktivində əməliyyatın bu dövrü üçün göstərilən vəzifə yerinə yetirilmişdi. Bu cəhətdən, Stalinqrad rayonunun hamısının bütünlüklə ələ keçirilməsi məqsədilə hücumun davam etdirilməsi, bundan artıq daha heç nə verə bilməzdi»[14].

General Tarasov isə belə yazır: «...artıq avqust ayında bəlli oldu ki, Stalinqrad uğrunda döyüşlərin bundan sonra da davam etdirilməsinin mənası yoxdur. Yaranmaqda olan vəziyyətin şərtləri elə idi ki, sovet qoşunlarının Stalinqrad rayonunda darmadağın edilməsinə və eyni zamanda Qafqaza doğru uğurlu hücuma güman etmək mümkün deyildi»[15]. Lakin bütün bunlara baxmayaraq, sentyabrın 15-də Hitlerin təkidi ilə Stalinqrada hücum başlandı.

Birinci cahan savaşının iştirakçısı, ingilis generalı və hərbi yazıçısı Con Fullerin qeyd etdiyinə görə, «mənasız həmlələrdə alman qoşunlarının itkiləri o dərəcədə ağır idi ki, general Qot oktyabrın 15-də hücumları dayandırmaq və müntəzəm top atəşi və havadan bombardman etməklə Stalinqradı yer üzündən silmək əmrini aldı». Bunun nə üçün edildiyi sualına Fuller belə cavab verir: «Yalnız bir cavab mümkündür:

Hitlerin nüfuzunu saxlamaq naminə, çünki şəhər artıq xarabazarlığa çevrilmişdi. Stalinqradın sənayesi məhv edilmiş, Volqa ələ keçirilmiş, nəqliyyatın Volqa ilə yuxarıya və aşağıya hərəkəti dayandırılmışdı. Neftin Bakıdan Moskvaya daşınmasına nəhayət verilmişdi.

...Şəhər özü taktiki cəhətdən heç bir əhəmiyyət kəsb etmirdi»[16].

Bu məsələ ilə bağlı marşal Yeryomenkonun da bir mülahizəsi diqqəti cəlb edir. Onun fikrincə, «həqiqətdə Hitlerin bəlası onun Stalinqrada və Qafqaza eyni vaxtda hücum etməsində deyildi, bəla onda idi ki, Sovet ordusunun gücünü lazımi qədər qiymətləndirmədən o, Vermaxtın çiyinlərinə qüvvədən xaric vəzifələr qoymuşdu və bununla da öz əlaltılarına və mümkün müttəfiqlərinə onun *(yəni Vermaxtın – müəllif)* döyüş aparma qabiliyyətini nümayiş etdirmək istəyirdi»[17].

Lakin zənnimcə, Yeryomenko obyektivlikdən uzaqlaşmağa meyl göstərib. Çünki Qafqaz, xüsusilə də Stalinqrad döyüşləri inandırıcı surətdə sübut etdi ki, bu əməliyyatlar zamanı Vermaxtın bir nömrəli düşməni orduları bürümüş dəhşətli yanacaq qıtlığı idi. Halbuki alman ordusu sovet ordusundan heç də zəif deyildi. Əksinə, mühərrikli hərbi texnika sarıdan daha mükəmməl təchiz olunmuşdu.

Stalinqradın tam ələ keçirilməsini hərbi nöqteyi-nəzərdən mənasız hesab edən alman generalı Dörr israr edir ki, «Qafqaza hücum olduğu təqdirdə, şimal-şərq cinahını strateji cəhətdən mühafizə etməkdən ötrü Həştərxan, Kalaç, Voronej xəttini və Volqa ilə Don arasında əsas dayaq mənətəqəsi olan bərzəxi tutmaq kifayət idi. Stalinqradı bu xəttə daxil etməyə lüzum yox idi. Çünki Volqanın Krasnoarmeysk yaxınlığında olan döngəsindəki bütün yüksəkliklər və bərzəxin müdafiəsinin təməl daşı olan Don çayının Kalaçın şimalındakı qərb sahili alman qoşunları tərəfindən möhkəm mühafizə olunurdu»[18].

Lakin baş komandanlığın direktivində deyilirdi: «Komandanlıq Stalinqrad uğrundakı döyüşü şəhərin digər rayonlarını düşməndən təmizlədikdən sonra başa çatdırmaq istəyir»[19]. Dörr bu vəzifənin taktiki xarakter daşıdığını[20] iddia edir. Lakin Dörr onu da qeyd edir ki, «hər iki tərəfdən ona strateji əhəmiyyət verilmişdi»[21]. Alman generalı bunu belə izah edir: «Nə vaxta qədər ki, ruslar Volqadan qərbdə vuruşurdular, Stalin öz şəhərinin qəhrəmancasına müdafiə olunmasını iddia edə bilərdi. Hitler Stalinqrad adlanan son torpaq parçasını onun qoşunları ələ keçirməyənə qədər rahat olmaq istəmirdi»[22]. Bunun ilk növbədə hərbidən daha çox «siyasət, nüfuz, təbliğat»[23] xarakteri daşıdığını vurğulayan Dörr, bunu həm də onunla izah edirdi ki, «nə baş hərbi komandanlıq, nə də 6-cı ordunun komandanlığı o zaman, 1942-ci ilin sentyabrında ağıllarına belə



gətirmək istəmirdilər ki, Stalinqrad uğrunda vuruşan ruslarda inadlı müqavimət göstərmək üçün kifayət qədər qüvvə tapıla bilər»[24].

Bu mülahizələrin obyektivliyini əsla şübhə altına almaq fikrində olmasam da, hər halda, zənnimcə onu da xüsusi qeyd etmək lazımdır ki, alman baş komandanlığının ağlına gətirmədiyi bir məsələ də, hərbi texnika sarıdan korluq çəkməyən, yüksək intizamlı alman ordusunun çox keçmədən fəlakətli yanacaq qıtlığı ilə üzləşə biləcəyi ehtimalı idi. Bunu, görünür o zaman təcrübəli alman generalı Dörr də ağlına gətirə bilməzdi. Hətta müharibənin başa çatmasından xeyli vaxt keçməsinə baxmayaraq, Stalinqrad əməliyyatını olduqca geniş və ətraflı səciyyələndirən Dörr, alman ordusunun üzləşdiyi yanacaq probleminə toxunsa da, onun həlledici amillərdən biri olması faktından nədənsə bir qədər yan keçmişdi. Halbuki onun qeyd etdiyi kimi «ruslarda inadlı müqavimət göstərmək üçün kifayət qədər qüvvə tapıla bilər»[25] dedikdə, ilk növbədə «ruslarda» kifayət qədər yanacaq ehtiyatının olması nəzərdə tutulmalıdır. Almanlarda isə belə ehtiyatlar yox idi və heç ola da bilməzdi. Bunun üçün onlar hökmən Quzey Qafqazın və Bakının zəngin neft mənbələrini ələ keçirməli idilər. Sonrakı hadisələr göstərdi ki, bunu həyata keçirmək üçün alman ordusunun sərəncamında olan vaxt hədər gedir və getməkdə də davam edirdi. Qafqazın ələ keçirilməsini əsas məqsəd sayan 5 aprel 41 saylı direktivi həyata keçirməkdənsə, alman qoşunları Hitlerin tərsliyi üzündən Stalinqrad uğrunda hədər yerə üzüntülü döyüşlərə cəlb edilmiş oldular.

Stalinqrad uğrunda gedən döyüşlərə alman komandanlığı fasiləsiz olaraq yeni-yeni qüvvələr cəlb edirdi. Nəticədə sovet-alman cəbhəsində strateji nöqteyi-nəzərdən yeni vəziyyət yarandı. Müharibənin ağırlıq mərkəzi əsas istiqamət sayılan Qafqaz cəbhəsindən tədricən və ardıcıl olaraq köməkçi rol oynamalı olan Stalinqrad cəbhəsinə keçirildi.

Belə bir mülahizə mövcuddur ki, «Stalinqrad rayonunun 1942-ci ilin əsas mübarizə mərkəzinə çevrilməsi faşist hərbi rəhbərliyinin planlarına uyğun yox, məhz onların ziyanına, sovet komandanlığının iradəsilə baş verdi. Qızıl Ordu düşməni Stalinqrad ətrafındakı həlledici vuruşa, onun gözləmədiyi və ona hazır olmadığı bir yerdə qatılmağa məcbur etdi»[26].

Bu fikirlər, zənnimcə, həqiqətdən heç də uzaq deyil. Doğrudan da Hitlerin məhz şöhrətpərəstliyi və lovğalığı Almaniyaya olduqca baha başa gəldi.

Sovet Ali Baş Komandanlığı yaranmış vəziyyəti düzgün qiymətləndirdi. O, almanların güclü hərb maşını ilə Qafqazın bilavasitə zəngin neft rayonlarında çarpışmaqdansa, onu tədricən Stalinqrad çöllərinə sürükləmək və sonra da üzüntülü müdafiə döyüşlərinə cəlb etməklə, ya-

yaxınlaşmaqda olan sərt qış şəraitinin imkanlarından maksimum bəhrələnərək məhv etməyi daha məqsədəuyğun saydı. Beləliklə də alman komandanlığı ardıcıl olaraq böyük neft uğrunda mübarizə aparmaq əvəzinə, özünün ən seçmə hərbi qüvvələrinin və təcrübəli sərkərdələrinin şübhəli perspektivə malik bir əməliyyata cəlb edilməsinə imkan verdi. Nəticədə böyük strateji məna daşıyan Bakı neft rayonuna doğru üç istiqamətdə hərəkət etməli olan alman qoşunlarının uğurla başladıqları hücum əməliyyatları səngidi və onların öz məqsədlərinə çata bilmək perspektivi böyük şübhə altında qaldı.

Stalinqradın tezliklə ələ keçirilməsi perspektivi o qədər cazibədar göründü ki, Hitler, hətta Qafqaz istiqamətindəki qüvvələrin müəyyən bir hissəsinin Stalinqrad istiqamətinə yönəldilməsi ideyasını daha məqsədəuyğun saydı. Beləliklə, Qafqaza və Bakıya olası əsas təhlükə Stalinqrada yönəldildi.

Marşal Qreçko yazırdı: «Həmin günlərdə Stalinqradın başının üstünü almış təhlükə çox böyük idi. Şəhəri ələ keçirmək üçün düşmən sonuncu inadlı həmlələrini edirdi. Özünün Stalinqrad qruplaşmasını gücləndirmək üçün, bu, alman komandanlığını yeni ehtiyatlar axtarmağa məcbur edirdi. Bu ehtiyatları onlar Qafqaz istiqamətindən götürmək niyyətində idilər»[27].

Lakin bütün bunlara baxmayaraq, Qafqazdakı vəziyyət hələ də təhlükəli olmaqda davam edirdi. Bunu baş nazir Çörçillə göndərdiyi teleqramda Stalin də etiraf edirdi. Noyabrın 8-də o yazırdı ki, «oktyabr ayındakı ilə müqayisədə bizim Qafqaz cəbhəsindəki vəziyyətimiz bir qədər pisləşib. Almanlar Nalçik şəhərini ələ keçirməyə və Vladiqafqaz şəhərinə yaxınlaşmağa nail olublar, orada böyük döyüşlər gedir»[28].

Daha sonra Stalin Qızıl Ordunun zəifliyinin səbəbini «qırıcı təyyarələrin çatışmazlığında»[29] görürdü.

Bundan bir qədər əvvəl, daha doğrusu, noyabrın 4-də Stalinqradın müdafiəsində iştirak edən 21-ci ordunun generalı İ.Çistyakovun qərargahında Ali Baş Komandanın qərargahından gəlmiş yüksək rütbəli təmsilçilərin iştirakı ilə geniş iclas keçirildi. İclasda «ordu generalı G.Jukov, Don cəbhəsi qoşunlarının komandanı general-leytenant K.Rokossovski, Cənub-Qərb cəbhəsi qoşunlarının komandanı İ.Vatutin, orduların və korpusların komandanları»[30] iştirak edirdilər.

Həmin iclasda iştirak edənləri, yaxın gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan «nəhəng əks-hücum planı ilə tanış etdilər»[31]. Bu plana əsasən «düşmənin əsas qüvvələri mühasirəyə alınmalı və məhv edilməli idi»[32].

Böyük ümidlər vəd edən bu planın müvəffəqiyyətini təmin etmək üçün üç cəbhənin — Cənub-Qərb, Don və Stalinqrad cəbhələrinin tam



hərbi potensialının cəmləşdirilməsi tələb olunurdu. Bu, sözsüz ki, əməliyyat planında da öz yerini tapmalıydı. Belə də oldu.

Əsgərlərin döyüş ruhunu yüksəltmək məqsədilə ideoloji-təbliğat işlərinin genişləndirilməsi məqsədəuyğun sayıldı.

Noyabrın 6-da qəzetlərin birinci səhifələrində «Stalinqrad müdafiəçilərinin andı» çap edildi. Orada deyilirdi: «Stalinqradı tutmaqla Hitler, bizim Volqa yolumuzu kəsmək, sonra Volqa ilə cənuba doğru irəliləyərək, Xəzər dənizinə çıxmağa, bununla da ölkəmizi əsas neft mənbələrindən ayırmağa cəhd edir. Əgər düşmən bu planları həyata keçirə bilsə, o zaman o, boşalmış qüvvələri dərhal ... Leninqrada və Moskvaya qarşı göndərəcək»[33].

Ali Baş Komandanlıq bu əməliyyata son dərəcə mühüm önəm verirdi. Odur ki, «Onun keçirilməsi üçün üç cəbhənin məntəqələrində sovet-alman cəbhəsində mövcud olan tankların və mexanikləşdirilmiş birləşmələrin 60 faizi cəmləşdirilmişdi»[34]. Əməliyyatda böyük miqdarda təyyarənin də iştirak etdiyini nəzərə alsaq, aydın olar ki, onları sərt qış şəraitində iki aydan artıq bir müddətdə daim hərəkətdə saxlamaq üçün külli miqdarda, həm də ardı-arası kəsilmədən duru yanacaq təminatı tələb olunurdu. Sonrakı hadisələr dərhal göstərdi ki, almanlardan fərqli olaraq Sovet komandanlığı belə təminata malikdir və bu iş, ilk növbədə Bakı neft rayonunun üzərinə düşürdü. Bakı neftçilərinin minbir əzabla hasil etdikləri duru yanacaq müxtəlif yollarla, ağlasığmaz vasitələrlə gecəli-gündüzlü cəbhə bölgələrinə daşınır və sovetlərə motorlaşdırılmış hərbi texnikanın imkanlarından mümkün qədər tam istifadə etməyə əlverişli şərait yaradırdı. Alman qoşunları bunu şirin bir xəyal kimi yalnız yuxularında görə bilərdilər. Halbuki şaxtalı səngərlərdə və istehkamlarda donub buza dönmüş alman əsgərləri üçün bu olduqca müşkül bir iş idi. Mühasirəsinə çox az qalmış general Paulyusun 6-cı ordusunun bütün hərbi texnikasının da donub hərəkətsiz duracağı günləri isə barmaqla saymaq olardı. Beləliklə, Stalinqrad epopeyasının yeni, olduqca ciddi və taleyüklü bir mərhələsi başlayırdı. Bunu həm də, duru yanacağın son dərəcə həlledici rol oynadığı bir mərhələ kimi də qiymətləndirmək düzgün olardı.

Belə bir vaxtda Ali Baş Komandan Stalin Böyük Britaniyanın baş naziri Uinston Çörçillə 20 noyabr tarixli gizli bir teleqram göndərdi. Orada deyilirdi: «Stalinqrad rayonunda, cənub və şimal qərb bölmələrində hücum əməliyyatları başlanmışdır... Əməliyyat pis getmir»[35].

Buna cavab olaraq noyabrın 24-də Çörçilldən də teleqram gəldi. O, Stalinə yazırdı: «Sizin hücumunuz barədə bizə şanlı xəbərlər gəlir. Hücumu nəfəs dərmədən izləyirik»[36].

Çörçillin sevinci əbəs deyildi. Yay kampaniyasının başladığı gündən hərbi əməliyyatları diqqətlə izləyən Çörçill almanların sürətlə irəliləməsindən bərk narahatlıq keçirir. Quzey Qafqazın və Bakının neft rayonlarının onların əlinə keçəcəyindən ehtiyatlandığını gizlətmirdi. Belə perspektiv Böyük Britaniyanın baş nazirini heç cür razı sala bilməzdi. Odur ki, Stalinqradda hücum əməliyyatının başlanması xəbərini böyük sevinc və nikbinliklə qarşıladı. Çünki bu, almanların Güney Qafqaza yönəldilmiş təzyiqlərinin azalmasına, nəticədə Bakı neft rayonunun işğal edilməsi ehtimalının aradan qaldırılmasına səbəb ola bilərdi.

Lakin yuxarıda adı çəkilən teleqramı göndərməklə baş nazir Çörçillin məqsədi, Stalini sadəcə hücum əməliyyatının başlanması münasibətilə təbrik etmək deyildi. Onun bu gizli göndərişi daha qlobal mətləblərdən xəbər verirdi. Yaranmış vəziyyətdən maksimum istifadə etməklə, başqa problemləri də aradan qaldırmağa çalışırdı. Bu problemlərdən ən ümdəsi şübhəsiz ki, neft məsələsi idi. Daha doğrusu, Almaniyanı duru yanacaq mənbələrindən birdəfəlik təcrid etməklə, Çörçill onun hərbi potensialını kəskin surətdə zəiflətməyi qarşıda duran ən vacib məsələlərdən biri sayırdı. «Məşəl» əməliyyatının uğurlu olmasına baxmayaraq, Quzey Afrikadakı qarşıdurma hələ də davam edirdi. Rumıniyanın neft mənbələrindən bəhrələnən alman aviasiyası, həmçinin motorlaşdırılmış hissələr və tank birləşmələri Quzey Afrikadakı müharibə səhnəsində fəal iştirak etməklə, hərbi vəziyyəti daim alman komandanlığının nəzarətində saxlamağa çalışırdılar. «Məşəl» əməliyyatı, alman komandanlığını Norveçdə olan aviasiyanın əsas qüvvələrini Güney Avropaya göndərməyə məcbur etdi. Bu Çörçilli narahat etməyə bilməzdi. Odur ki, özünün köhnə arzusunun, daha dəqiq desək, Türkiyəni müharibəyə qoşmağın vaxtının artıq çoxdan çatdığını yəqin edərək, bu məsələnin həllinin tezləşdirilməsini Stalinə də işarə etməyi vacib bildi. Həmin teleqramda o yazırdı: «Sizin Qafqazda və ondan şimalda *(Stalinqrad nəzərdə tutulur – müəllif)* apardığınız əməliyyatlar da çox güman ki, böyük təsir edə bilər. Əgər biz Türkiyəni müharibəyə cəlb edə bilsəydik..., onda biz həm də Türkiyə bazalarından rumın neft mənbələrini səylə bombardman edə bilərdik, belə ki, onlar Qafqazdakı əsas neft ehtiyatlarının *(sözsüz ki, Bakı neft rayonu nəzərdə tutulur – müəllif)* Sizin tərəfinizdən müvəffəqiyyətlə müdafiə olunduğundan müttəfiq dövlətlər üçün mühüm həyati önəmə malikdir».

Çörçillin Türkiyəni müharibəyə qoşmaq cəhdini Stalin də bəyəndi. Görünür bu, ilk növbədə həm də ona görə idi ki, bu yolla Rumıniyanın neft mənbələrini məhv etmək və bununla da Almaniyanı, eləcə də alman ordusunu kəskin surətdə duru yanacaq böhranı ilə üzbəüz qoymaqla məğlub etmək olardı.

# XVIII FƏSİL

# GENERAL FELDMARŞAL PAULYUSUN YANACAQ QITLIĞI ilə ÜZLƏŞMİŞ 6-cı ORDUSU

1942-ci il dekabrın 6-da Stalin Böyük Britaniyanın baş naziri Çörçillə yeni bir teleqram göndərdi. Bir sıra vacib problemlərə öz münasibətini bildirməklə yanaşı, Şərq cəbhəsi üçün böyük əhəmiyyət kəsb edən ümidverici bir xəbəri ona çatdırmağı da unutmadı. Teleqramda deyilirdi: «İstər Stalinqrad, istərsə də Mərkəzi cəbhədə döyüşlər genişlənir. Stalinqrad ətrafındakı alman qoşunlarının böyük bir qrupunu mühasirədə saxlayırıq və ilin sonunadək onların ləğvini başa çatdırmaq ümidindəyik»[1].

Şübhəsiz ki, söhbət general Paulyusun komandanlıq etdiyi almanların 6-cı ordusunun mühasirəsindən gedirdi. Bu mühasirə almanların qarşılaşdığı və onsuz da kəskin xarakter almış başqa bir problemi də bütün ciddiliyi ilə üzə çıxardı, onun daha dərinləşməsinə və nəhayətdə fəlakətə çevrilməsinə səbəb oldu. Bu, duru yanacaq problemi idi. Bu problem birdən-birə yaranmadı və heç göydəndüşmə də deyildi. Bu, tədrici bir proses idi. Bunun irili-xırdalı səbəbləri çox idi. Bir çoxları bunu almanların buraxdığı taktiki səhvlərlə əlaqələndirir. Bəzi müəlliflər isə sovet Ali Baş Komandanlığının böyük strateji uğuru kimi qiymətləndirirlər. Bu mülahizələri ya təsdiq, ya da inkar etmək fikrindən sadəcə olaraq uzağam. Bir çoxları kimi mənim özümün də gəldiyim nəticəyə görə, bu, ilk növbədə Hitlerin təkidi ilə alman Ali Baş Komandanlığının strateji səhvinin nəticəsi idi.

Daha doğrusu, 1942-ci il aprelin 5-də imzalanmış 41 saylı direktivin, 23 iyul tarixli 45 saylı direktivlə əvəzlənməsi ilin sonunda hərbi vəziyyətin almanların xeyrinə olmayaraq dəyişməsinə səbəb oldu.

Əldə olan dəlillərə əsaslanaraq demək mümkündür ki, kəskin yanacaq böhranı da məhz bu səbəbdən yarandı. Halbuki ilk öncə bu məsələ ciddi narahatlığa heç bir əsas vermirdi. Əksinə, işğalı nəzərdə tutulan rayonların təbii ehtiyatlarından və sənaye potensialından maksimum istifadə etmək üçün geniş planlar hazırlanır, xüsusi qurumlar yaradılırdı. Bu barədə biz əvvəlki fəsillərdən birində də söhbət açmışdıq. Lakin bu məsələyə bir daha qayıtmaq və onunla bu və ya digər şəkildə əlaqəli olan Paulyusun 6-cı ordusunun qərargahında gedən bir söhbəti araşdırmaq,



zənnimcə müəyyən dərəcədə maraqlı olmalıdır. Bu söhbətin canlı şahidi olan polkovnik Vilhelm Adam həmin vaxt Paulyusun birinci yavəri idi və təbii ki, öz generalının keçirdiyi bütün müşavirə və tədbirlərdə bilavasitə iştirak edirdi. Öz memuarlarında Adam həmin hadisə haqqında belə yazırdı: «...bizim qərargaha çoxlu zabit və əsgər gəldi. Onlar özlərini «uçot üzrə komanda» adlandırırdılar. Bəs, bu nə demək idi? ...Məlum oldu ki, bu adamlar – metallurgiya üzrə mütəxəssislərdir. Göstərişləri və əmrləri onlar bilavasitə fürerin qərargahından alırdılar. Onların vəzifəsi iri sənaye müəssisələrindəki avadanlığı, yarımfabrikatları və xammalı, xüsusilə əlvan metalları uçota almaq və onların hamısını təxirə salmadan arxaya *(yəni Almaniyaya – müəllif)* göndərməkdən ibarət idi.

Komandana məlumat verdiyim vaxt Paulyus bu mövzuya toxundu:

– Hə, Adam, necədir, bizə yeni gələnlər barəsində nə deyə bilərsiniz? – deyə gülümsəyərək qeyd etdi. Bu adamlara çox az şey uçota almaq müyəssər olacaq. Aviasiya hər şeyi məhv edir. Müəssisələrdən yalnız xaraba yığını qalıb»[2].

Sözünə davam edərək, Adam daha sonra qeyd edir ki, «belə komandalar Qafqaza yeriyən «A» ordular qrupunun da ardınca gedirdilər və onlar Maykop və Qroznıdakı, daha sonra Bakıdakı neft mədənlərinin işlədilməsi ilə məşğul olmalıdırlar»[3].

Paulyus ilə olan bu qısa söhbət, görünür polkovnik Adama müəyyən təsir bağışlamışdı. Bunu o özü də etiraf edərək yazırdı: «Paulyus general-mayor Şmidtin yanına getdi. Bir qədər öncə komandan ilə olan söhbət isə mənim başımdan çıxmırdı»[4].

Adam, Yozef Göbbelsin öz çıxışlarından birində söylədiyi «bu, taxıl və çörək uğrunda müharibədir... xammal uğrunda, kauçuk uğrunda, dəmir və filiz uğrunda müharibədir» sözlərini xatırladığını qeyd edərək, həm də buna bənzər fikirlərin, «Mayn kampf» kitabında Adolf Hitlerin də bəyan etdiyini»[5] göstərirdi.

Hitlerin «Rusiyada alman aqrar siyasəti haqqında» düşüncələrini yada salaraq, Adam onu da qeyd edir ki, «bu hərbi məqsədlərə yetişməyi, şübhəsiz ki, «uçot üzrə komandalar» və «neft briqadaları» təmin etməli idilər»[6].

Lakin cərəyan edən hadisələr nəinki bunun mümkünsüzlüyünü sübut etdi, həmçinin alman komandanlığını təcili surətdə çıxış yolları axtarmağa məcbur etdi. Əgər avqustun sonunda, sentyabrın əvvəllərində Qafqazda almanlar duru yanacaq qıtlığından əziyyət çəkirdilərsə, artıq Stalinqradda döyüşən 6-cı ordu hərb tarixində misli görünməyən yanacaq böhranı ilə üz-üzə qaldı. Beləliklə yanacaq böhranı 6-cı ordunun bir saylı düşməninə çevrildi. Belə vəziyyət 6-cı ordunun hələ tam mühasi-

rəyə düşməsindən xeyli əvvəl yarandı və alman Ali Baş Komandanlığında böyük təlaşa səbəb oldu.

General Paulyusun birinci yavəri Adam yazır: «Oktyabrın ortalarında quru qoşunları general-kvartirmeysteri, general-leytenant Vaqner 6-cı ordunun qərargahına təşrif gətirdi. O, təchizat işlərinin vəziyyəti ilə tanış olmaq və lazım olan yüklərin nəql edilməsinin yaxşılaşdırılmasının mümkünlüyünü yoxlamaq istəyirdi. Lakin o da kömək etmədi»[7].

Bir çox alman hərbçilərinin dediklərinə görə, alman qoşunlarında yanacaq qıtlığı hətta uğurla başlanan yay kampaniyasının ilk dövrlərində də özünü büruzə verirdi və bir sıra hallarda hətta fəal döyüş əməliyyatları gedən vaxtlarda belə gözlənilməz problemlər yaradırdı. 6-cı ordunun əməliyyat şöbəsinin rəisi vəzifəsinə yenicə təyin edilmiş polkovnik Elxleppə istinad edən Adam yazır: «General Vaqner yaranmış vəziyyət barədə Hitlerin qərargahında açıqdan-açığa öz fikrini bildirərdi. Generallardan heç biri ona *(yəni Hitlerə – müəllif)* etiraz etməyə cürət etmirdilər. Onların hamısı öz hökmdarlarının əsəb tutmasından qorxuya düşmüşdülər. Vaqnerin özü 1942-ci ilin yayında Ali Baş Komandana yanacaq çatışmazlığı barədə məlumat vermiş və tələb etmişdi ki, hərbi əməliyyatların planlaşdırılması təchizatın vəziyyəti ilə uyğunlaşdırılsın»[8].

General Vaqnerin bu tələbi əsassız deyildi. Çünki yanacaq problemi həqiqətən artıq xroniki xarakter almışdı. Bu da öz növbəsində ayrı-ayrı əməliyyatların, almanların nəzərdə tutmadıqları sonluqla nəticələnməsinə səbəb olurdu.

Noyabrın 22-də baş vermiş bir hadisəni general Paulyusun birinci yavəri polkovnik Adam belə təsvir edirdi: «...bir daha həyəcanlı təzə xəbərlər gəldi. cinahdan hücum etməklə düşmənin irəliləyişini dayandırmağa borclu olan general Xubenin komandanlıq etdiyi 14-cü tank korpusu artıq yanacaqdan tamamilə məhrum idi. Hücum barəsində heç fikirləşməyə dəyməzdi. korpus öz mövqelərini belə saxlaya bilmirdi, həmçinin 11-ci ordu korpusu və düşmən onu Don çayından şərqə doğru sıxışdırırdı. Kalaç yaxınlığında Don çayı üzərində olan və strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən körpü döyüşsüz tərk edildi»[9].

Stalinqrad döyüşlərində fəal iştirak etmiş alman zabiti Helmut Velts yaranmış dramatik vəziyyəti öz xatirələrində belə səciyyələndirirdi: «...1941-42-ci ilin qışı ilə müqayisədə yanacaqla bağlı vəziyyət daha da pisləşdi və onu yaxşılaşdırmaq mümkün deyildi. Ordunun *(6-cı ordu nəzərdə tutulur – müəllif)* yanacaq bazası oktyabra qədər hər gün 2-3 qatar sistern alırdı, beləliklə də gün ərzində 450 kubmetr yanacaq gətirilirdi. Hal-hazırda isə biz gündə cəmi 20 ton alırıq. Yanacaq-sürtgü maddələri ilə əlaqədar vəziyyət isə daha kədərlidir. İyirmi dərəcə



şaxtada zəruri olan qış sürtgü yağı orduda, ümumiyyətlə daha yoxdur. Hər bir sağlam düşüncənin ziddinə olaraq göstəriş verildi ki, əldə olan sürtgü materialları 20 faizə qədər benzin ilə qarışdırılsın. Sürtgünün özlülüyü itir, silindrin pistonları dayanır, diyircəkli yastıqlar əriyir. Müxtəlif tipli olduqlarından, xarab olmuş hissələrin dəyişdirilməsi qarşısıalınmaz çətinliklərə dirənirdi»[10]. Daha sonra duru yanacağa işarə edərək Velts yazırdı: «O şeyə ki, ən çox tələbat hiss olunur, məhz o, bir qayda olaraq yoxdur. Təyyarələr, demək olar ki, heç nə gətirmirlər. Odur ki, motorlaşdırılmış diviziyalar hərəkətdən məhrum olmuşdular»[11].

Yanacaq çatışmazlığı ilə əlaqədar yaranmış katastrofik vəziyyət alman Ali Baş Komandanlığının ciddi narahatlığına səbəb oldu. Nəzərdə tutulmuş əməliyyat planları bir-bir pozulur. Paulyusun 6-cı ordusunun vəziyyəti isə nikbinlikdən xəbər vermirdi. Belə bir zamanda vaxtilə Hitlerin yaxın silahdaşlarından biri olmuş reyxsmarşal Henrix Görinq öz sözünü deməyə tələsdi və noyabrın 24-də hərbi-hava qüvvələri baş qərargahının rəisi general-polkovnik Yeşonnek vasitəsilə Hitlerə xəbər göndərdi ki, geniş miqyaslı hava əməliyyatı lazımdır və onun həyata keçirilməsini öz üzərinə götürməyə hazırdır. Sonrakı hadisələr göstərdi ki, Görinqin daha çox lovğalığa bənzəyən bu əməliyyat planı, vəziyyəti nəinki yüngülləşdirmədi, əksinə, daha da ağırlaşdırdı. Nəticədə ümid çırağı yandırmaq əvəzinə, olan-qalan cüzi ümidlərin də məhvinə səbəb oldu. Halbuki alman mütəxəssisləri bunu əvvəlcədən görür, onun müvəffəqiyyətli olacağına böyük şübhə ilə yanaşırdılar. Görinq Hitlerə göndərdiyi məlumatda onu inandırmağa çalışırdı ki, Stalinqradda mühasirədə olan qoşun birləşmələrini hava vasitəsilə təchiz etməyi yalnız belə bir şərtlə boynuna götürür: yüklərin mühasirə həlqəsinin içinə tullanması üçün aerodromların və enmə meydançalarının mühafizəsi təmin edilməlidir[12].

Görinqin ortaya atdığı bu ideya yaranmış vəziyyətdən çıxış yolu axtaran Hitlerin böyük marağına səbəb oldu. Odur ki, təcili müşavirə çağırdı. Müşavirədə iştirak edən Hitlerin yavəri, general Engel noyabrın 25-də öz gündəliyində yazmışdı: «Stalinqradın havadan təchiz edilməsi məsələsi barədə böyük müşavirədə Görinq ordunun təchiz edilməsini öhdəyə götürür. O deyir ki, gündə orta hesabla 500 ton yük çatdırmaq mümkündür; hamısını cəlb etmək lazımdır, hətta nəqliyyat aviasiyasından «YU 90»ları da. Tseytsler şübhələnib təklif edir ki, 500 ton kifayət etməz, diqqəti havaya, itkilərə cəlb edir. Lakin reyxsmarşal bərk inciyir, deyir ki, «təyyarələr istənilən havada uçacaqlar...»[13]

Görinqin belə bir nikbinliyini müşavirə iştirakçıları hiddətlə qarşıladılar. Engelin sözlərinə görə «onun bu böyük nikbinliyinə hətta hərbi-hava qüvvələri baş qərargahının zabitləri»[14] də şərik olmadılar. Lakin

köhnə silahdaşının irəli sürdüyü bu əməliyyat planı Hitleri son dərəcə heyran etdi. General Engel müşavirədə fürerin reyxsmarşal haqqında dediyi sözləri də öz gündəliyində əks etdirmişdir. Hitler deyir: «O, (yəni Görinq – müəllif) əvvəllər olduğu kimi fəaliyyət göstərir: quru qoşunlarının bir çox zabitlərində mövcud olan ağciyərlik, onda yoxdur»[15].

Lakin sonrakı hadisələr çox tezliklə sübut etdi ki, Görinqin təklif etdiyi əməliyyat planı həqiqətdə xülyadan başqa bir şey deyil və mühasirədə olan 6-cı ordunu nəinki yanacaqla, heç ərzaq və döyüş sursatı ilə də təchiz etmək iqtidarında deyil. Əvvəla tezliklə bəlli oldu ki, Görinqin planına əsasən hava yolu ilə daşınmalı olan yükün ümumi həcmi ilə 6-cı ordu komandanlığının tələb etdiyi həcm arasında əsaslı fərqlər mövcuddur. Belə ki, «6-cı ordu komandanlığı özünün radio ilə etdiyi sorğusunda Stalinqrad gün ərzində 750 ton yük daşınmasını tələb etmişdi (onun 380 tonu ərzaq, 120 t. yanacaq və 250 t. döyüş sursatı idi)»[16]. Halbuki Görinqin planına əsasən gündəlik daşınma norması 500 ton həcmində müəyyən edilmişdi. Lakin cərəyan edən hadisələr hətta bu rəqəmin də reallıqdan uzaq olduğunu göstərdi. Hadisələri bir qədər qabaqlayaraq onu da qeyd edək ki, alman hərbi mənbələrinin verdiyi məlumata əsasən, «həqiqətdə 1942-ci il noyabrın 25-dən 1943-cü il fevralın 2-nə qədər olan müddətdə alman aviasiyası mühasirədə olan qoşunlar üçün gündə orta hesabla 94 ton yük çatdırmağa müvəffəq olmuşdu»[17].

Hitlerin böyük iftixarına səbəb olan planın səmərəliliyinə şübhə edənlərdən biri də hərbi-hava qüvvələri baş qərargahının operativ şöbəsinin rəisi Kristian idi. Radio ilə məlum müraciətdən bir gün sonra qərargahdakı məruzəsində o, bəyan etmişdi ki, aviasiya mühasirə zonasına yaxşı hava şəraitində gün ərzində olsa-olsa 100-150 ton yük daşıya bilər. 500 ton isə qeyri-real rəqəmdir»[18]. Beləliklə, qərargahın yüksək rütbəli zabiti bu planın hətta nəzərdə tutulmuş həcmdə belə həyata keçirilməsini qeyri-mümkün sayırdı. Bu isə öz növbəsində, ümumiyyətlə əməliyyatın uğursuzluğuna dolayı yolla olsa da bir işarə idi. Lakin vəziyyətdən çıxmaq üçün hətta saman çöpündən belə yapışmağa hazır olan Hitleri acı həqiqətdənsə, şirin xülyalar daha çox cəlb edirdi. Yüksək rütbəli zabitin dediklərinə etiraz edən Hitler hamının nəzərinə çatdırdı ki, «təchizat, qeyri-məhdud səlahiyyətlərə malik olan, son dərəcə bacarıqlı bir təşkilatçı tərəfindən təmin olunacaqdır»[19].

Lakin hadisələr heç də Hitlerin istəyinə uyğun şəkildə cərəyan etmirdi. Paulyus ordusunun vəziyyəti gündən-günə ağırlaşır, qurtuluş yolları bir-bir qapanırdı. Yanacağın olmaması ordunu get-gedə tam hərəkətsizliyə düçar edir, iflic vəziyyətinə salırdı. Təyyarələrlə daşınan yanacaq isə dəryada bir damlaya bənzəyirdi.

# XIX FƏSİL

## MÜHASİRƏDƏ OLAN 6-cı ORDUNUN TƏCHİZATININ MÜMKÜNSÜZLÜYÜ

Noyabrın 24-də Stalinrad yaxınlığındakı vəziyyəti qiymətləndirərkən Almaniyanın yüksək nüfuzlu hərbçilərindən sayılan feldmarşal Manşteyn belə nəticəyə gəlmişdi: «6-cı ordunun müstəqil olaraq mühasirəni yarmaq fürsəti artıq əldən verilmişdir. Odur ki, onun köhnə mövqelərdə qalıb kənardan kömək gözləməsi daha yaxşıdır»[1].

Manşteynin vəziyyətə belə qiymət verməsi təsadüfi deyildi. Onu müharibə səhnəsinin önünə çıxarmaqla, Hitler yaranmış təhlükəli vəziyyətdən tezliklə çıxış yolu tapmaq ümidində idi. «Don» ordular qrupunun yaradılması da məhz elə bu məqsədə xidmət edirdi. Qrupun komandanlığı da təbii ki, feldmarşal Manşteynə həvalə edildi.

Bu hadisələrlə həmahəng olaraq, noyabrın 24-də 6-cı ordunun komandanı Paulyusun imzaladığı bir əmr ordunun sərəncamında olan bütün hərbi birləşmələrə göndərildi və böyük əks-sədaya səbəb oldu. Müqavimətin davam etdirilməsini tələb edən bu əmrə cavab olaraq, 51-ci ordu korpusunun komandiri general fon Zeydlits ertəsi gün noyabrın 25-də komandanın ünvanına səhər tezdən göndərdiyi məxfi məktubda yazırdı: «...indiki zamanın bütün ciddiliyini başa düşərək, vəziyyətin mənim tərəfimdən qiymətləndirilməsini yazılı surətdə bir daha ifadə etməyi özümə borc bilirəm. Bu, son 24 saat ərzində alınan məlumatlarla təsdiqlənir»[2].

«Ordu üçün yalnız iki yol mövcuddur»[3] deyən Zeydlits onlardan birinin cənub-qərb istiqamətində cəbhənin yarılmasında, ikincinin isə yaxın günlərdə ordunun məhvində görürdü.

Komandanlıq etdiyi ordu korpusunun yanacaq və döyüş sursatı ilə son dərəcə aşağı səviyyədə təchiz olunmasından şikayətlənən Zeydlits, Göringin hava əməliyyatı planına da mənfi münasibətdə olduğunu gizlətmirdi. O belə də yazırdı: «Hesablamalar göstərir ki, hava ilə kifayət qədər təchizat hətta 51-ci ordu korpusu üçün şübhəlidir, ordu üçün isə nəticə etibarilə tamamilə istisna edilir. «31 Yunkers»in və yaxud hələ ki, vəd edilmiş əlavə 100 «Yunkers»in[3] daşıyacaqları yük dəryada bir damladır. Buna ümid bəsləmək saman çöpündən yapışmaq kimi bir şeydir. Anlamaq olmur ki, ordunun təchizatı üçün tələb olunan böyük miqdarda «Yunkers» haradan gələ bilər. Əgər hətta imkan olduğu təqdirdə belə, onları bütün Avropadan və Şimaldan* götürüb yeni bazalar əsasında yerlərini dəyişdirmək lazım gələcəkdir»[4].



Daha sonra öz məktubunda Zeydlits yanacaqla əlaqədar son dərəcə mühüm bir problemə də diqqət çəkməyi lazım bilir. O yazır: «Bu təyyarələrin qət etməli olacaqları məsafələri nəzərə alsaq, onların yanacağa tələbatı o qədər böyük olardı ki, indiki yanacaq qıtlığı şəraitində müvafiq ehtiyatlar axtarıb tapmaq son dərəcə müşkül görünür, bütövlükdə götürdükdə, müharibənin aparılması üçün yanacağın bu cür israfının nəticələri barədə heç danışmağa dəyməz»[5].

General Zeydlits 6-cı ordunun komandanı Paulyusun nəzərinə çatdırmağa çalışırdı ki, «əgər gün ərzində nəzərdə tutulmuş 130 əvəzinə hətta 500 təyyarə gələrsə belə, 1000 tondan artıq yük gətirilə bilməz. Halbuki iri miqyaslı döyüşlər aparan və ehtiyatları olmayan 200000-lik bir ordu üçün bu da kifayət deyil»[6]. Generalın fikrincə, belə olduqda «yanacağa tələbatı ancaq minimal səviyyədə ödəmək mümkün olacaqdır»[7].

Məktubda yaxın gələcəyin acı perspektivi bütün gerçəkliyi ilə təsvir olunur. Yanacaq qıtlığını ən böyük bəlalardan biri hesab edən Zeydlits bu qənaətə gəlir ki, mühüm nəqliyyat vasitəsinə çevrilmiş «atların hamısı bir neçə gündən sonra məhv olacaqdır»[8]. Bu da təbii olaraq öz növbəsində ona gətirib çıxaracaqdır ki, «taktiki manevrlər daha da azalacaq, hərbi hissələrin təchizatı xeyli çətinləşəcək, digər tərəfdən isə yanacağa tələbat artacaqdır»[9].

Yanacaqla bağlı başqa bir məqam da xüsusilə diqqəti cəlb edir. Təchizat probleminin kəskinləşməsi hərbi hissələri sərəncamlarında olan ehtiyatları çox böyük qənaətlə işlətməyə vadar edirdi. Lakin bunu əsas etibarilə ərzaq məhsullarına şamil etmək olardı. Zeydlits öz məktubunda xüsusi qeyd edir ki, bu, «...müəyyən dərəcədə bizim özümüzdən asılıdır. Mövcud yanacağa və döyüş sursatına qənaət edilməsi imkanlarına gəldikdə isə, o, demək olar ki, tamamilə düşməndən asılıdır»[10]. Bununla da Zeydlits onu demək istəyirdi ki, sovet qoşunlarının intensiv hücum etdikləri bir şəraitdə yanacağa və döyüş sursatına istəsən də, istəməsən də qənaət etmək qeyri-mümkündür. «O nə qədər inadla və güclü hücum edirsə, biz bir o qədər sürətlə öz döyüş sursatımızı sərf edirik»[11].

Yanacaq qıtlığından misli görünməyən dərəcədə əziyyət çəkən 6-cı ordunun komandanı general-feldmarşal Paulyus baş komandanlığa göndərdiyi raportda yazırdı: «14-cü tank korpusu (komandiri tank qoşunları generalı Xube) Vertyaçi, Qolubinka yüksəkliklərində döyüşür. Kor

* «Şimal» dedikdə Zeydlits Quzey Afrikanı nəzərdə tutur

pus böyük yanacaq çatışmazlığı ilə üzləşib və o, çətin şəraiti olan ərazidədir»[12].

Noyabrın 22-dən 23-nə keçən gecə Paulyus quru qoşunları baş komandanlığına və «Don» ordular qrupuna yeni bir raport göndərdi. Orada deyilirdi: «Hətta cəbhə arxası ilə etibarlı əlaqə olduğu təqdirdə belə son vaxtlarda təchizatla bağlı vəziyyət pis idi. Bütün məlumatlara əsasən mühasirədə olan qoşunların daim və kifayət qədər hava vasitəsilə təchiz olunması mümkündür. Lakin təchizatla bağlı vəziyyət tezliklə ordunun müqavimət gücünü sarsıdacaqdır»[13].

İlk öncə 6-cı ordunun köhnə mövqelərdə qalıb kənardan kömək gözləməsini daha əlverişli hesab edən feldmarşal Manşteyn tezliklə öz qərarını dəyişdi və 6-cı ordunun geriyə, hətta Dnepr çayına qədər arxaya çəkilməsində israr etdi.

Hitlerin birinci yavəri general Engel, Manşteynin irəli sürdüyü bu fikrə, Hitlerin münasibətini öz gündəliyində belə təsvir edir: «Tseytsler *(baş qərargah rəisi – müəllif)* bu mülahizələrin mahiyyəti barədə məlumat verdi... Fürer onların hamısını rədd edir... Tseytsler xahiş edir ki, lazım gələrsə 6-cı orduya sərbəstlik verilsin. Fürer bunu kəskin surətdə rədd edir. Söhbət yalnız blokadanı götürmək barədə gedə bilər ki, bunun üçün də 4-cü tank ordusunun əsas qüvvələri mövcuddur»[14].

Blokadanı yarmaq ərəfəsində «Don» ordular qrupunun sərəncamına əlavə olaraq cəmi iki tank diviziyası verildi. Manşteyn başa düşürdü ki, bu əsla kifayət deyil. O, Qafqaz istiqamətində döyüşən «A» ordular qrupundan özü üçün əlavə qüvvələr almağa cəhd göstərdi. Bu məqsədlə dekabrın 25-də quru qoşunları baş komandanlığına müraciət də etdi. Lakin xeyri olmadı.

«A» ordular qrupunda 20-dən artıq diviziya olmasına baxmayaraq, Hitler buna icazə vermədi. Çünki Qafqazın neft mənbələrinin ələ keçirilməsindən imtina etmək perspektivi onun planlarına daxil deyildi. Quru qoşunları baş komandanlığı isə öz növbəsində Manşteynin nəzərinə çatdırdı ki, bu, Şimali Qafqaz cəbhəsinin sabitliyini təhlükə altına alar. Bu isə tamamilə yolverilməzdir.

Feldmarşal Paulyusun şəxsi arxivindən əldə edilmiş bir yazı var. Onun müəllifi 6-cı ordunun sabiq komandanının özüdür. Orada deyilir: «Dekabrın sonunda aydın oldu ki, blokadanın yarılması cəhdi müvəffəqiyyətsizliyə uğradı. Mühasirədə olan 6-cı ordu bu vaxta qədər, qısa müddətdə məhdud döyüş qabiliyyətinə malik idi ki, bu da daimi itkilərdən və təchizatın kifayət etməməsi nəticəsində qoşunlarda artmaqda olan bədbinlikdən irəli gəlirdi. Bu zaman yaralıları təyyarələrlə daşımaq hələ mümkün idi. Əməliyyatları aparmaq qabiliyyəti əsas etibarilə yana-



cağın çatışmazlığı üzündən itirilmişdi. Bu iki səbəbə görə ordular qrupundan və quru qoşunları komandanlığından təkidlə tələb edirdim ki, ilk növbədə mühasirənin yarılmasını təmin etmək üçün hava ilə yanacaq, ərzaq və döyüş sursatının daşınmasını əhəmiyyətli dərəcədə dərhal artırsınlar (göstərilən ardıcıllıqda)»[15].

Burada maraqlı bir məqam diqqəti xüsusilə cəlb edir. Əsas vurğunu birmənalı şəkildə yanacaq çatışmazlığına yönəldən Paulyus, hər iki komandanlıq qarşısında qoyduğu təchizatla bağlı tələbnamədə yanacağın adını birinci yerdə göstərir və hətta onu da xüsusi olaraq qeyd edir ki, daşınmalı olan yüklərin ardıcıllığı onun nəzərdə tutduğu kimi olmalıdır. Bu işarə bir daha onu sübut edir ki, 6-cı ordu ilk növbədə yanacaq sarıdan böhran keçirirdi və onun müvəffəqiyyətsizliyinin əsas səbəblərindən biri də məhz bununla bağlı idi.

Lakin buna baxmayaraq, Paulyus ordunu yaxınlaşmaqda olan fəlakətdən qurtarmaq üçün müxtəlif yollar axtarırdı. Mühasirəni yarmağa hazırlıq üçün korpuslara yeni əmrlər verilmişdi. O bunu «piyada diviziyaları ilə altı motorlaşdırılmış və tank diviziyalarının birgə səyləri»[16] ilə həyata keçirmək istəyirdi. Öz niyyətini açıqlayarkən o yazırdı: «Son dərəcə böyük miqdarda avtomobillərin olması şəraitində, piyada diviziyalarının əsas hissəsini hərəkətə gətirmək mümkün olardı. Bu zaman ordunun 200 tankı vardı. Bunun üçün təyyarələrlə yalnız tələb olunan miqdarda yanacağın çatdırılması lazım idi ki, orduya 80 kilometrlik məsafəni qət etməyə imkan versin»[17].

General Zeydlits Paulyusa göndərdiyi və yuxarıda adını çəkdiyimiz məktubda mühasirənin yarılması ilə bağlı problemə toxunaraq, ordunun hərəkətsizliyə düçar olmaq *ehtimalını xüsusi vurğulayırdı. Öz mülahizə*sini o belə izah edirdi: «Mühasirənin yarılması üçün nəzərdə tutulan qruplaşmanın cəmləşdirilməsinin sürətləndirilməsi və çoxlu miqdarda motorlu nəqliyyat dəstələrindən istifadə edilməsi mümkünlüyünə bel bağlamaq olmur. Belə dəstələr *(nəqliyyat – müəllif)* və yanacaq görünür ki, yoxdur, əks təqdirdə, onları Stalinqrad kimi mühüm cəbhəni təmin etmək üçün daha əvvəl hərəkətə gətirərdilər, elə bir vaxtda ki, bunun üçün daha az nəqliyyat vasitələri tələb olunurdu»[18].

Paulyusun diqqətini bir daha yanacaq probleminə yönəltməyi özünə borc bilən general Zeydlits «indiki müdafiə xətlərinin böyük bir hissəsində yanacağın demək olar ki, tam yoxluğu şəraitində soyuqların düşməsi təhlükəsi»ni[19] də xüsusi qeyd edirdi.

General Dörr yazır ki, «mühasirədə olan 6-cı ordunun təchiz olunmasına aid suala, 1942-ci ilin noyabrında da bu günkü kimi aydın cavab

vermək olardı»[20]. O göstərir ki, «bunu, «B» ordular qrupunun komandanının 22 noyabr tarixli məktubu da sübut edir»[21].

Həmin məktubda aydın yazılmışdır: «ordunun təchizatını təmin etmək mümkün deyil»[22].

Quru qoşunları qüvvələri baş qərargahının rəisi, general-kvartirmeyster və 4-cü hava ordusunun komandanı da məlumat verdilər ki, «hava vasitəsilə 6-cı ordunu təchiz etmək qeyri-mümkündür»[23]. Həmin məlumatda həmçinin bildirilirdi ki, «mühasirənin artıq ilk günlərində ərzaq ehtiyatları o dərəcədə az idi ki, onlar yalnız 12 günə çatardı, yem isə demək olar ki, tamamilə yox idi. Döyüş sursatı ehtiyatı normanın 20 faizini, çox vaxt isə yalnız 10 faizini təşkil edirdi»[24]. Məlumatda yanacaq problemi xüsusi qeyd edilmişdi. Orada deyilirdi: «Yanacaq o qədər az idi ki, taktiki xarakterli qruplaşmaları, məsələn, cənubda mühasirə həlqəsini yarmaq üçün tankların cəmləşdirilməsini həyata keçirmək mümkün deyildi»[25].

Mütəxəssislərin hesablamalarına görə hər bir mühərrik üçün gün ərzində ən azı 10 litr[26] yanacaq tələb olunurdu. Mühasirədə olan ordunun sərəncamında təxminən 10000 ədəd motorlu texnikanın olduğu nəzərə alınsa, bir gündə minimum 100 ton[27] yanacağın vacibliyi əsla şübhə doğurmur. Lakin orduya 306 ton ərzaq, 540 ton döyüş sursatı da çatdırılmalı idi. Yəni cəmisi 946 ton[28]. Bundan başqa, «8000 at üçün yem, müxtəlif növ atıcı silahlar üçün döyüş sursatı, mühəndis-texniki avadanlığı, təmir-bərpa işləri üçün materiallar, geyim və səhra poçtu və sairə»[29] nəzərə alınmalı idi. Belə olduqda gün ərzində hava ilə çatdırılmalı olan yüklərin ümumi həcmi 1200 tona[30] qədər artırılmalı idi. Mütəxəssislər bu rəqəmləri də minimum hesab edirdilər. Lakin buna baxmayaraq, «6-cı ordu mühasirənin 70 günü ərzində hava ilə faktiki olaraq, gün ərzində orta hesabla 94, 16 ton yük almışdı»[31].

Təbii ki, bu, dəhşətli yanacaq qıtlığı ilə üzləşmiş Paulyus ordusunu təmin etmək iqtidarında deyildi. General Dörrün fikrincə «bu, 6-cı ordu üçün faciə idi»[32].

Vəziyyətin gündən-günə ağırlaşdığını görən Paulyus yazırdı: «Yanvarın 19-20-də vəziyyətlərinin ağırlaşması nəticəsində qoşunlarda güclü pozulma hiss olunmağa başladı, xüsusilə də əsas döyüş sahələrində. ...yanvarın 20-də yuxarı komandanlığa bir daha müraciət etməyi özümə borc bildim. Ordular qrupuna və quru qoşunları komandanlığına eyni vaxtda bir sıra raportlar göndərdim ki, onlar da ümumi şəkildə aşağıdakılardan bəhs edirdi: «Ərzaq, yanacaq və döyüş sursatının müdhiş vəziyyətdə az olması üzündən qoşunların döyüş qabiliyyəti sürətlə aşağı düşür...»[33].

Ali komandanlığın cavabını çox da gözləmək lazım gəlmədi. Paulyusun yazdığına görə, orada belə deyilirdi: «Təslim olmaq istisna edilir.



Ordu öz tarixi vəzifəsini yerinə yetirməlidir...»[34].

Lakin Paulyusun 1943-cü il yanvarın 20-də göndərdiyi və heç də nikbinlikdən xəbər verməyən raportları görünür, ali komandanlığın böyük narahatlığına səbəb olmuşdu. Odur ki, Paulyusun sözlərinə görə «yanvarın 21-də ya da 22-də mühasirə rayonundakı vəziyyəti yerindəcə aydınlaşdırmaq məqsədilə hava-nəqliyyat birləşməsinin komandiri 6-cı ordu komandanının yanına gəldi. O xəbər verdi ki, onun birləşməsi Aralıq dənizi rayonundan Rostov vilayətinə keçirilmişdir və döyüşə hazır vəziyyətdədir. O göstərdi ki, gün ərzində təyyarələrin hamısının birgə reysi ilə 300 tondan artıq yük göndərə bilər. 100 təyyarə, o cümlədən yeni tipli iri təyyarələr (nəhənglər) artıq gəlib; digər 100 təyyarə bir qədər sonra gələcək. Lakin həddindən artıq gec idi. Bir gün sonra sonuncu aerodrom itirildi. Yanvarın 24-dən etibarən hava yolu ilə təchizat yalnız tullamaq *(təyyarədən — müəllif)* vasitəsilə mümkün idi»[35].

Lakin Paulyus tezliklə başa düşdü ki, bu, perspektivi olmayan bir əməliyyatdır. Çünki məlum oldu ki, təyyarələrdən atılan yüklərin böyük hissəsi sovet qoşunlarının əlinə keçib.

Beləliklə reyxsmarşal Henrix Görinqin hazırlayıb həyata keçirməyə çalışdığı hava əməliyyatı heç bir əməli nəticə vermədi və çoxlarının proqnozlaşdırdığı kimi tam müvəffəqiyyətsizliyə uğradı.

6-cı ordunun 1942-ci il noyabrın 22-dən etibarən başlayan mühasirəsi, 1943-cü il yanvarın 31-də general-feldmarşal Paulyusun və 6-cı ordunun qərargahının əsir götürülməsi ilə nəticələndi. Fevralın 2-də isə almanların son hərbi hissəsi, 11-ci ordu korpusu da mübarizəni dayandırmaq məcburiyyətində qaldı.

Paulyus ordusunun süqutundan dərhal sonra, fevralın 6-da feldmarşal Manşteyn Hitlerin yanına çağırıldı. Elə həmin gün fürerin iştirakı ilə geniş müşavirə keçirildi. Müşavirədə iştirak edən Manşteyn sonralar öz təəssüratını belə təsvir edirdi: «6-cı ordunun faciəli taleyi üçün məsuliyyəti kim daşıyır sualına Hitler özü olduqca aydın cavab verdi... Həmin gün müşavirəni açarkən o dedi: «Stalinqrad üçün bütün məsuliyyəti mən tək özüm daşıyıram. Mən, əlbəttə, onu bəhanə gətirə bilərdim ki, mühasirəyə düşmüş ordunu hava yolu ilə təchiz etmək üçün bizim aviasiyanın sərəncamında olan imkanlar haqqında Görinq məni düzgün məlumatlandırmamışdı. Beləliklə də bu ağır məsuliyyətin heç olmazsa bir hissəsini onun çiyinlərinə qoymuş olardım. Lakin mən Stalinqrada görə məsuliyyəti, elə özüm təyin etdiyim varisin üzərinə qoya bilmirəm»[36].

Sovet komandanlığının təkidlə etdiyi tələblərə və vəziyyətin gündən-günə daha da ağırlaşmasına baxmayaraq, 6-cı ordunun son məqama

qədər təslim olmaqdan imtina etməsinin səbəbləri barədə çox fikirlər söylənilib. Lakin onların bir çoxu zənnimcə subyektiv xarakter daşıyır və cərəyan etmiş hadisələrin son nəticəsini əsasən siyasi-ideoloji amillərlə əlaqələndirməyə çalışır. Odur ki, hadisələrin əsas iştirakçılarından biri olan feldmarşal Paulyusun bu məsələyə münasibəti şübhəsiz ki, maraq doğurmaya bilməz. Təslim olduqdan bir neçə gün sonra Paulyusun birinci yavəri Vilhelm Adam baş vermiş hadisələr haqqında feldmarşalın şəxsi fikrini öyrənməyə səy etmişdir. Onların təkbətək söhbətinin bəzi məqamlarını Vilhelm Adam belə açıqlayır: «1943-cü il yanvarın 10-da axşam Paulyusla olan söhbəti heç vaxt unutmaram. Bu söhbət göstərir ki, o zaman bizi daxili ziddiyyət parçalayırdı. Bu, həm də onu sübut edirdi ki, əvvəl-axır biz hamımız o zaman müharibənin davam etməsinə tərəfdar idik və hesab edirdik ki, 6-cı ordunu qurban verməliyik.

- Mənim əzizim Adam, - deyə komandan söhbətə başladı, - indi, əlbəttə, əsgərlərin və zabitlərin çoxu soruşurlar: nə üçün Paulyus təslim olmaq haqqındakı təklifi qəbul etmədi, nə üçün o belə bir ümidsiz vəziyyətdə Hitlerin əmrinin əksinə hərəkət etmir? Siz bilirsiniz ki, ali komandanlığın əmrlərinin ziddinə hərəkət etməyə mənim ixtiyarım yoxdur. Lakin təslim olmağa imkan verməyən təkcə bu deyil. Əgər bizim Qafqazdakı ordularımız da mühasirəyə alınarsa, müharibə nə ilə qurtarar? Axı belə bir təhlükə onlar üçün mövcuddur. Nə qədər ki, biz mübarizə aparırıq, rus ordularının əl-qolunu burada bağlayırıq, hansılar ki, onlara Qafqazdakı «A» ordular qrupuna və Voronejdən Qara dənizə qədər hələ də qeyri-sabit olan cəbhəyə qarşı böyük hücum əməliyyatları üçün lazımdır. Biz burada son nəfərə kimi dayanmalıyıq ki, Şərq cəbhəsi sabitləşə bilsin. Əgər, bu baş tutarsa, o zaman ümid etmək olar ki, müharibə Almaniya üçün müvəffəqiyyətlə başa çatacaq.

- Cənab general-polkovnik, izn verin, bir fikir söyləyim, - deyə qeyd etdim. Çox güman ki, Sizin yerinizdə mən də təslim olmağa çətin ki, qərar verərdim. Lakin fərz edək ki, bu baş vermişdir. Məgər ruslar özlərinin buradan azad olmuş ordularını bizdən 300 kilometrdən çox aralı olan cəbhəyə bir neçə həftədən tez göndərə bilərdilərmi?

- Bu barədə siz, şübhəsiz ki, yanılırsınız. Ruslar qabaqcadan hazırlıq görmədən, qəfil hücum etmək ustalarıdır, onlar bunu keçmişdə dəfələrlə sübut ediblər. Sizə qeyri-mümkün görünən məsələ, onlar üçün mümkündür. Cənub hissəsində bizim çətin vəziyyətimizdə düşmən qüvvələrinin hər hansı güclənməsi, ordumuz üçün fəlakətlə nəticələnə bilər. Müharibənin bütövlükdə uduzulmasında mən günahkar ola bilərəm. Bu dəhşətin qarşısını almaq üçün biz bundan sonra da döyüşməliyik»[1].

# XX FƏSİL

# QUZEY QAFQAZ ƏMƏLİYYATININ SONU

Stalinqrad ətrafında alman qoşunlarının fəlakətli vəziyyəti Quzey Qafqazda hərbi əməliyyatlar aparan almanların təqribən 700 min nəfərlik «A» ordular qrupunu tam mühasirə təhlükəsi ilə üz-üzə qoydu. Nəticədə bu iri hərbi qruplaşma tezliklə nəhəng bir tələyə düşəcəkdi. Hələ noyabrın sonlarında quru qoşunları baş qərargahının rəisi vəzifəsində general Halderi əvəz edən general Tseytsler Hitlerin qarşısında «A» ordular qrupunun Quzey Qafqazdan çıxarılması məsələsini qoydu. Lakin Hitler buna qəti etiraz etdi və bu tələbin yolverilməz olduğunu təkidlə bildirdi. O, nəinki qoşunların çıxarılmasını, hətta buna hazırlıq görülməsini də qadağan etdi.

Nəhayət dekabrın ortalarında Stalinqradda Paulyus ordusunun başı üstündə dolaşan fəlakət kabusu Quzey Qafqazdakı «A» ordular qrupu üzərində də dolaşmağa başladı. Lakin Hitler əvvəlkitək tərsliyindən dönmür, qoşunların çıxarılmasına heç cür razılıq vermirdi. Sovet Ordusunun 1942-ci il dekabr hücumları «A» ordular qrupunu həqiqətən çıxılmaz vəziyyətə salmışdı. Stalinqraddakı qədər olmasa da, hər halda kəskin yanacaq qıtlığı vəziyyəti getdikcə daha dözülməz edirdi. Bakıya gedən yollar gündən-günə daralır və uzaqlaşırdı.

«A» ordular qrupunun mühasirəyə düşəcəyinin yaxın vaxtda reallaşa biləcəyini dərk edən general Tseytsler öz şəxsi təşəbbüsü ilə təcili tədbirlər görməyə başladı. O, iki ordunun 17-ci səhra və 1-ci tank ordularının geri çəkilməsi planını hazırladı. Xatirələrində Tseytsler yazırdı: «Bütün bunlar Hitlerin xəbəri olmadan edilirdi. Əgər o bundan xəbər tutsaydı, mən həyatımla vidalaşa bilərdim»[1].

Lakin hələ dekabrın 11-də «A» ordular qrupunun komandanı adından 1-ci tank ordusunun komandanına ünvanlanan teleqramda bildirilirdi: «Bütün komandirlərə aydınlaşdırmaq vacibdir ki, rəqibin güclü təzyiqinə baxmayaraq, nəyin bahasına olursa-olsun öz mövqelərini qoruyub saxlamağa borcludurlar. Hazırda hər şey dişləri bir-birinə sıxıb dözməkdən



ibarətdir»[2]. Bu teleqram onu göstərir ki, Hitler Qafqaza olan ümidlərini hələ də itirməmişdi və asanlıqla oradan çəkilmək fikrində deyildi.

Həmin dövrü xarakterizə edən marşal Qreçko yazırdı: «Rəqib öz hərəkətlərini fəallaşdırır, tez-tez əks-hücumlar edirdi. O, nəyin bahasına olursa-olsun bizim qoşunların təzyiqini dəf etməyə çalışırdı. Məqsədi öz mövqelərində möhkəmlənmək və qüvvələrinin bir hissəsini Stalinqrad ətrafına göndərmək üçün imkan yaratmaqdı. Bu məqsədlə alman komandanlığı özünün müdafiə cəbhəsini məhdudlaşdırdı. Nəticədə sərbəst olan SS-in «Vikinq» motorlu diviziyası buradan götürülərək dərhal Stalinqrad ətrafında mühasirəyə alınmış qruplaşmanın köməyinə göndərildi»[3].

Görünür noyabrın ikinci yarısında və dekabrın əvvəllərində sovet qoşunlarının keçirdiyi əks-hücumların, yumşaq desək, kəsərli olmaması Hitlerin Qafqazda qalmaq ümidlərini xeyli artırmışdı. Odur ki, verilən məsləhətləri qulaq ardına vurmağa çalışırdı.

Sovet qoşunlarının əks-hücumları öz növbəsində lazımi səviyyədə hazırlanmır, tələsiklik daim özünü göstərirdi. Kəşfiyyat işlərinin təşkili heç də qənaətbəxş deyildi. Almanlar isə sovet qoşunlarından fərqli olaraq daha mütəşəkkil idilər. Yanacaq qıtlığı şəraitində yaxşı təşkil olunmuş müdafiə sistemləri vardı. Geri çəkildikləri təqdirdə isə hər yeri: yolları, körpüləri, səngərləri, hətta cığırları belə minalamağı unutmurdular. Stalinqrad məğlubiyyəti olmasaydı, Qafqazdakı vəziyyətin gələcəyi də çox güman ki, başqa cür ola bilərdi.

Marşal Qreçko yazırdı: «Qafqaz uğrunda döyüşlərin müdafiə dövrü beş ay çəkdi. Bu müddətdə alman qoşunları böyük səy və itkilər hesabına Baş Qafqaz dağlarının ətəklərinə və Terek çayına qədər çatdılar. Lakin düşmənin sovet qoşunlarına həlledici zərbə endirmək, bununla da Bakıya, Güney Qafqaza və Qara dənizə çıxmaq cəhdləri uğursuzluğa düçar oldu»[1].

6-cı ordunun Stalinqrad mühasirəsindən qurtulması üçün görülən tədbirlərin heç bir nəticə vermədiyi bir daha bəlli olduqdan sonra baş qərargahın rəisi Tseytsler növbəti dəfə Hitlerlə görüşdü və qoşunların Qafqazdakı durumu məsələsini yenə də qaldırmaq məcburiyyətində qaldı. Əvvəllər olduğu kimi fürerin bu dəfəki münasibəti də mənfi oldu. Qoşunların Qafqazdan çıxarılması barədə söz-söhbətləri o eşitmək belə istəmirdi. Lakin bütün bunlara baxmayaraq o, qoşunların çıxarılması məsələsini Hitlerlə olan sonrakı görüşlərində də dəfələrlə qaldırdı və bunun son dərəcə vacib olduğunu ona sübut etməyə çalışdı. Yalnız dekabrın 27-də Hitler güzəştə getməyə razı oldu və «A» ordular qrupunun komandanlığına ehtiyat tədbirlər görülməsinə icazə verdi. Dekabrın 27-

dən 28-nə keçən gecə Tseytsler Hitlerə bütün Qafqaz qruplaşmasının son dərəcə fəlakətli vəziyyətdə olması barədə məlumat verdi[5].

Həmin söhbətin sonunda Tseytsler Hitlerə belə demişdi: «Əgər siz indi Qafqazdan geri çəkilmək haqqında əmr verməsəniz, o zaman biz çox tezliklə ikinci Stalinqradın acısını çəkməli olacağıq»[6].

Bu sözlər Hitlerə güclü təsir etdi. «Artıq Hitleri nə siyasi nüfuzu, nə də Qafqazın sərvətləri düşündürürdü. Tezliklə fəlakətin qarşısını almaq lazım idi»[7].

Tseytsler yazırdı: «Mən onun razılığını güclə qopartdım. «Yaxşı» - deyə *nəhayət* cavab verdi və əlavə etdi: «Lazımi sərəncam verin!»[8].

Dekabrın 27-də axırı ki, 2 saylı «Əməliyyat əmri» imzalandı. Orada «A» ordular qrupu qarşısında qoşunların tədricən Qafqazdan çıxarılması vəzifəsi qoyulurdu»[9].

Hadisənin təfsilatını xatırlayaraq Tseytsler yazırdı: «Onun otağından çıxandan dərhal sonra mən Hitlerin birbaşa qəbul otağından telefonla geri çəkilmək əmrini verdim. Orada deyilirdi: «Əmr qoşunlara təxirə salınmadan çatdırılsın və elə o saatda da onların geri çəkilməsinə başlansın»[10].

Özünün bu hərəkətinin səbəbini Tseytsler sonralar belə izah edirdi: «Mən nahaq yerə tələsmirdim. Çünki saat yarımdan sonra öz qərargahıma çatdıqda, məni artıq təcili telefonoqram gözləyirdi. Hitler ona zəng etməyimi əmr edirdi. Əvvəlcədən bunun nə demək olduğunu bilərək, telefon dəstəyini götürdüm və məni Hitlerlə calaşdırmağı xahiş etdim. O dedi: «Qafqazdan geriyə çəkilmək haqqındakı sərəncamı hələ göndərməyin. Sabah bu *məsələni biz yenidən müzakirə edərik»*. Mən dedim: - «Mənim fürerim, çox gecdir. Əmri mən hələ sizin qərargahda olarkən göndərmişəm. İndi o cəbhədəki hissələrə və birləşmələrə çoxdan çatıbdır. Əmri ləğv etsək, cəbhədə ağlasığmaz qarışıqlıq yaratmış olarıq. Mən *sizdən bunu etməməyi* xahiş etmək məcburiyyətindəyəm»[11].

Bu hadisə bir daha sübut edir ki, Hitler şəxsən Qafqaza, xüsusilə də onun neft sərvətinə necə böyük əhəmiyyət verirdi. O, yaxşı anlayırdı ki, müharibəni zəfərlə başa vurmaqdan ötrü mütləq Bakı neft rayonu ələ keçirilməlidir. Odur ki, hər vəchlə, ən müxtəlif imkanlardan istifadə etməklə Qafqazı tərk etməməyə çalışırdı. Əks təqdirdə onun ağır nəticələrini aydın təsəvvür edirdi. «Bakını tutsaq müharibənin sonu olacaq, tutmasaq, bizim sonumuz» ifadəsini də Hitler nahaq yerə söyləməmişdi. Qafqazdan geri çəkilmək əmrinin yubadılması da məhz elə bununla əlaqədar idi.

Tseytsler Hitlerin həmin hadisə vaxtı keçirdiyi narahatlığı təsvir edərək yazırdı: «Hitler susmuşdu, *görünür, nə edəcəyini kəsdirə bilmirdi.*



Nəhayət o dedi: «Yaxşı, qoy elə olsun!» Beləliklə də mən 1-ci tank və 17-ci səhra ordularının, 6-cı orduya qismət olan o bəd aqibətdən qurtulmasına nail oldum»[12].

Lakin hətta bundan sonra da Hitler Qafqazdan tamam getmək istəmirdi. O, Taman yarımadasında möhkəmlənmək ideyasından yapışaraq, *oradan 1943-cü ildə yeni hücum üçün bir hərbi meydan kimi istifadə* etmək məqsədi güdürdü. Görünür, Hitler Quzey Qafqaza və Bakı neftinə olan ümidlərini hələ itirməmişdi. Və itirmək də istəmirdi. Odur ki, hətta 1943-cü il yanvarın sonlarına qədər bir mühüm məsələ öz həllini hələ də tapmamışdı: «Görəsən *Taman yarımadasında* «A» ordular qrupunu bütövlükləmi, yoxsa onun müəyyən bir hissəsini saxlamaq. Qəti qərar yalnız yanvarın 24-də qəbul edildi. Ona əsasən 1-ci tank ordusu hesabına gücləndirilmiş 17-ci ordu Taman yarımadasına, 1-ci ordunun qalan hissələri isə Rostova göndərildi.

İngiltərədə nəşr olunan «Sandi tayms» qəzetinin və BBC radiosunun 1941-ci ildən 1946-cı ilə qədər SSRİ-də akkreditə olunmuş, müharibənin SSRİ ərazisində gedişatına yaxşı bələd olan müxbiri Aleksandr Vert «Rusiya 1941-1945-ci illər müharibəsində» adlı kitabında yazırdı: «1942-ci ilin son beş ayı ərzində bütün nəzərlər Stalinqrada yönələndə, sovet mətbuatı Qafqazdakı hadisələrə nisbətən az diqqət yetirirdi. Belə ki, hətta sonralar uzun illər boyu bu bölgədəki döyüşlər haqqında olduqca az yazırdılar. Bu kampaniyanın birinci mərhələsi sovet komandanlığı üçün ən ağır kampaniyalardan biri olmuşdu... Stalinin «Geriyə yol yoxdur» əmrinə baxmayaraq, Qızıl Ordunun hissələri 1941-ci ilin ən ağır günlərində necə tələsikliklə geriyə çəkilirdilərsə, eləcə də Kubandan və Quzey Qafqazdan çəkilirdilər»[13].

Bu onu göstərir ki, Quzey Qafqazın və Bakının neft mənbələrinin taleyi, necə deyərlər, bir tükdən asılı idi. Nahaq yerə Hitler Bakını sentyabrın 25-də *işğal etməyi planlaşdırmamışdı. Çünki, hər şey reallıq*dan doğur. Reallıq isə belə idi.

Aleksandr Vert daha sonra yazır: «Qafqazın almanlar tərəfindən işğalı yarım il çəkdi. 1942-ci ilin avqustunda onlar nəhəng ərazini hansı sürətlə tutmuşdularsa həmin sürətlə də 1943-cü ilin yanvar və fevralında oranı tərk etməli oldular»[14].

Almanlar təcili surətdə geri çəkildikdən sonra xüsusi fəaliyyət göstərən komandalar xeyli qənimət ələ keçirdilər. Quzey Qafqaz cəbhəsinin komandanı olmuş, ordu generalı Tülenev yazırdı: «Onun əsas hissəsini hərbi sursat təşkil edirdi. Bu qənimətlərin arasında «aviasiya bombaları yüklənmiş 600 dəmiryol vaqonu da vardı». Onların üzərində gözə çarpan bir yazı vardı: «Bakı üçün».

Qafqaza səfərə başlayarkən, Hitler Bakını 1942-ci il sentyabrın 25-nə kimi tutmağa ümid edirdi. Hətta soraq və bələdçi kitabçaları nəşr olunur, «Qafqazda alman nefti» adlı səhmdar cəmiyyəti üçün işçilər toplanırdı. Dekabrda isə Hitler Bakını bombardman etmək arzusunda idi. Lakin bu da ona nəsib olmadı»[15].

Bunun səbəblərini araşdıraraq Aleksandr Vert yazır: «Məlum oldu ki, Qafqazı ələ keçirmək üçün alman planı həddindən artıq iddialı idi. Bu, Hitlerin ağlına gəlmiş ən uğursuz ideyalardan biri idi. Onun ilkin planı, gördüyümüz kimi, ondan ibarət idi ki, əvvəlcə Stalinqrad tutulmalı idi, özü də daha böyük qüvvələrlə, nəinki son nəticədə ora göndərmişdi. Sonra isə Xəzəryanı tərəfdən başlayaraq, bütün Qafqaz. Bu hücumun birinci dərəcəli obyektləri Qroznı və Bakı olmalı idi.

Hitler Rostovu asanlıqla tutduqdan sonra elə düşünürdü ki, ruslar o qədər zəifdirlər ki, o öz qüvvələrini iki hissəyə bölə bilər. Onlardan biri Stalinqradı tutar, ikincisi isə Qafqazı. O, Qafqaz neftinə çoxdan iştahlı idi və belə hesab edirdi ki, Volqa təchizat yolunu kəsib, Qafqazın üç neft mərkəzini ələ keçirməklə çox qısa bir vaxtda SSRİ iqtisadiyyatını tamamilə məhv edə bilər. Bakının işğalı avqustun *(1942-ci il - müəllif)* ortası və ya sonuna nəzərdə tutulmuşdu»[16].

# XXI FƏSİL

# 6-cı ORDUNUN SÜQUTU və STALİNQRAD DÖYÜŞLƏRİNİN SONU

1942-ci il noyabrın 22-də Paulyusun ordusu, əvvəldə qeyd etdiyimiz kimi, Stalinqradda mühasirəyə alındı. Noyabrın 24-də isə Hitler ordunun mühasirədən çıxmasını qəti qadağan etdi. Lakin mühasirənin ertəsi günü, noyabrın 23-dən başlayaraq general Paulyus Hitlerə və «Don» ordular qrupunun komandanı general-feldmarşal fon Manşteynə radioqrammalar və məktub göndərərək yaranmış ağır vəziyyəti izah etməklə yanaşı orduda mövcud olan və getdikcə daha da artan ərzaq, döyüş sursatı, xüsusilə də **y a n a c a q** *(seçmə mənimdir – müəllif)* qıtlığından şikayətlənirdi. O zaman Quzey Qafqazın kommunikasiya xətlərinə və Xəzərin şimal hissəsinə nəzarət edən alman komandanlığı çox güman ki, təsəvvür etmirdi ki, dolayı yollarla Bakı nefti Volqanın şərq sahilinə çatdırılır və beləliklə də Qızıl Ordu hissələri arası kəsilmədən duru yanacaqla təchiz edilirdi. Volqa çayının yeganə kommunikasiya xətti olduğunu iddia edənlərə general Kurt Tippelskirx belə cavab vermişdi: «...Həmin vaxta qədər onlar *(ruslar nəzərdə tutulur – müəllif)* artıq Volqanın şərqində başqa kommunikasiyalar yaratmışdılar və onların mövcudluğu haqqında hələ heç nə məlum deyildir»[1].

Tippelskirx 6-cı ordunun mühasirəyə düşməsinin və ümumiyyətlə almanların 1942-ci ilin qışındakı uğursuzluqlarının səbəbini təhlil edərək yazır: «Alman qoşunlarının Stalinqradda və Qafqazda hücumlarını Stalin əsəbi bir sevinclə izləyirdi. O, öz ehtiyatlarını olduqca qənaətlə sərf edirdi... Ruslar tam əmin olmaq istəyirdilər ki, qərb dövlətlərinin qoşunları almanların böyük qüvvələrinin əl-qolunu bağlasınlar. Bundan əlavə onlar inanırdılar ki, ötən ildə olduğu kimi, qışın şaxtası rus əsgərinə müəyyən üstünlüklər qazandıracaqdır. Odur ki, hücuma keçməyə tələsmir, gözləyirdilər ki, Misirdəki ingilislərin 8-ci ordusunun hücumu və Quzey Afrikada desant əməliyyatı müəyyənləşsin. Bunlar baş verdikdən sonra rus qoşunları hücuma keçdilər»[2].



Həqiqətən də Yaxın və Orta Şərqin neft bölgələrinə can atan general Ervin Rommelin başçılıq etdiyi «Afrika korpusu»nun məğlubiyyəti Qızıl Ordunun əl-qolunun tam açılmasına səbəb oldu.

Yanvarın 24-də 6-cı ordunun komandanı Paulyus sonuncu dəfə Hitlerə müraciət edib ordunun təslim edilməsi üçün icazə istəyir. Lakin Hitler yenə də onun təklifini rədd edir.

Yanvarın 29-da əsir alınmamışdan iki gün əvvəl Paulyus Hitlerə ünvanlanan yeni bir radioqrammaya imza atdı. Orada deyilirdi: «Fürerə. Sizin hakimiyyətə gəlişinizin ildönümü münasibətilə 6-cı ordu öz fürerinə salam göndərir. Üstündə svastika *(xaç – müəllif)* olan bayrağımız hələ də Stalinqrad üzərində dalğalanır. Qoy bizim mübarizəmiz bu günkü və gələcək nəsillərə ibrət olsun. Görsünlər ki, hətta çıxılmaz vəziyyətdə belə qoşunlar təslim olmurlar və zaman gələcək, Almaniya qələbə çalacaq. İmza: Paulyus»[3].

Lakin Paulyusun bu ritorikası uzun sürmədi. Yanvarın 31-də sovet ordusu 6-cı ordunun komandanı general-feldmarşal Paulyusu öz qərargahı ilə birlikdə əsir götürdü. Fevralın 2-də isə 6-cı orduya daxil olan son hərbi korpus təslim olduğunu bildirdi. Təkcə son bir həftə ərzində Stalinqrad çöllərində ölən alman əsgər və zabitlərinin sayı 100 min nəfərdən artıq idi. Maraqlı burasıdır ki, soyuqdan donub ölənlərin sayı, güllə və mərmilərdən ölənlərin sayından heç də az deyildi. Bütün ciddi-cəhdlərə baxmayaraq yanacaq böhranını aradan qaldırmaq sonadək mümkün olmadı. Yanacağın olmaması ucbatından hərəkətsizliyə düçar olmuş 6-cı ordu fəlakətdən yaxa qurtara bilmədi. Səngərlər acından ölən, şaxtadan donmuş alman əsgərləri ilə dolu idi. Səngərlərdə qızınmaq üçün hətta kiçicik bir manqal da qalamaq qeyri-mümkün idi.

«Don» ordular qrupunun komandanı general-feldmarşal fon Manşteyn yazırdı: «Qoşunların itkisinə 1942-ci ilin yay kampaniyası nəticəsində öz sərvət ehtiyatları ilə birlikdə ələ keçirdiyimiz nəhəng bir ərazini bütövlüklə rusların tutmasını da əlavə etmək lazımdır. Bununla belə biz Qafqaz neftini ələ keçirməyə nail olmadıq. Halbuki bu bizim hücumumuzun əsas qayəsi idi»[4].

Fon Manşteynin daha bir açıqlaması da, zənnimcə, böyük maraq doğurar. O, yazır: «Orta Şərq ölkələrini İngiltərəyə qarşı mübarizəyə cəlb etməyə və alman aviasiyasının inkişafına və motorlaşmaya imkan yaratmalı olan Qafqazın neft yataqlarının ələ keçirilməsinə olan bütün ümidlərdən əl çəkməli olduq»[5].

Bu bir daha sübut edir ki, həm SSRİ, həm də Almaniya Orta və Yaxın Şərqə böyük əhəmiyyət verirdilər. İngiltərənin bu bölgədə mövqeyinin itirilməsi, əvvəldə də müharibənin sonrakı taleyində əhəmiyyətli dəyişikliklər yarada bilərdi. Rommel amili bir yandan, üstəlik «Lend-liz» sazişinə əsasən cənub yolu ilə SSRİ-yə göndərilən, habelə Quzey Afrikada almanlarla döyüşən Böyük Britaniya qoşunlarını təchiz edən strateji yüklərin daşınması da müşkül bir iş olardı.

Stalinqrad əməliyyatı bitdikdən sonra bir çox örtülü mətləblər də faş oldu. Əvvəla, məlum oldu ki, Stalinqradın süqutu Qafqazı, xüsusilə də Bakını, yumşaq desək, son dərəcə çətin vəziyyətə sala bilərdi. Digər tərəfdən isə Qafqazın və Bakının öz neft yataqları ilə birlikdə ələ keçirilməsi təkcə Stalinqradın deyil, həm də bütün Sovet İttifaqının faciəsi demək olardı.

Həqiqətən də Bakı nefti hər iki problemin aradan qaldırılmasında, yəni Qafqazın və Stalinqradın müdafiə olunmasında, habelə yaxın gələcəkdə müharibənin zəfərlə başa çatmasında müstəsna rol oynadı. Məşhur sovet marşalları da öz xatirələrində hərdən bir bu barədə öz fikirlərini açıq söyləmək məcburiyyətində qalırdılar. Təbii ki, obyektivlik naminə. Məsələn, *Sovet İttifaqı Marşalı Georgi Jukov yazırdı: «Bakı neftçiləri* cəbhəyə və ölkəyə o qədər yanacaq verirdilər ki, bu, Vətənimizi müdafiə etməyə və düşmən üzərində tezliklə qələbə çalmağa tam kifayət edirdi»[6].

Sovet İttifaqı Marşalı İvan Tolbuxin isə belə yazmışdı: «Bizim minlərlə tankımız, özüyeriyən toplarımız, təyyarələrimiz və avtomobillərimiz şanlı Bakı neftçilərinin hasil etdikləri yanacaqla hərəkətə gətirilir»[7].

Lakin çox-çox heyflər olsun ki, qələbədən məst olub başı gicəllənənlər həmin qələbəni təmin etmiş əsas amili Bakı nefti və *onu min* əzab-əziyyət və məhrumiyyətlə yerin təkindən çıxaran neftçilərin, bu əsrarəngiz cövhərdən çeşidbəçeşid benzinlər, yağlar istehsal edib gecə-gündüz ön cəbhəyə yola salan neftayıranların cahanşümul əməyi çox tez unuduldu. Halbuki Hitlerin məşhur «Blits-kriq» - ildırım sürətli müharibə ideyasının iflasa uğramasında Bakı nefti son dərəcə mühüm rol oynamışdır. Məlumdur ki, «Blits-kriq» ilk növbədə qoşunların yüksək mütəhərrikliyini və çevikliyini nəzərdə tuturdu. Bunu isə mühərrikli hərbi texnika təmin edə bilər ki, bu da öz növbəsində külli-miqdarda duru yanacaq sərf olunmasını tələb edir.

Stalinqrad döyüşlərinin iştirakçısı olmuş alman zabiti Helmut Velts öz xatirələrində «Blits-kriq» haqqında yazır: «həmin günlər hələ müharibədən əvvəl oxuduğum bir kitab yadıma düşdü. Onu «Blits-kriq»in nəzəriyyəçisi olan general fon Dennevits adlı bir nəfər yazıbdır. O, sübut edir ki, Almaniya yalnız «ildırım sürətli» müharibələri uda bilər. Fransızları 14-cü ildə, 15-ci ildə, hətta 16-cı ildə *(Birinci cahan savaşı nəzərdə tutulur - müəllif)* məğlub etmək mümkün idi. Lakin müharibənin üçüncü və yaxud dördüncü ilində ingilis və amerikanların hələ də tükənməz ehtiyatları olduğu bir vaxtda artıq bu olduqca gec idi. Müəllif kitabını bu sözlərlə bitirir: «Əgər məsələ tükənmə strategiyasına çatsa, Almaniya öz rəqiblərindən əvvəl süqut edəcək. Bu sözlər zənnimcə, öz önəmini indiki müharibə üçün də saxlayıb. İlk uğursuzluq İngiltərəyə qarşı müharibədə baş verdi. Burada, şərqdə isə «Blits-kriq» strategiyası birdəfəlik iflasa uğradı. Beləliklə, biz tükənmə mərhələsinə qədəm qoyduq. Almaniyanın hərbi potensialının kiçikliyini nəzərə alsaq, onun hərbi müvəffəqiyyətinin sona yetdiyinin şahidi olarıq»[8].

Beləliklə, Almaniya istər Bakı başda olmaqla Qafqaz neft mənbələrindən, istərsə də «Məşəl» əməliyyatından sonra Yaxın və Orta Şərqin neft mənbələrindən birdəfəlik olaraq təcrid edildi. İndi müttəfiqlərin qarşısında başqa bir vacib problemin həlli dururdu. Hələ də güclü hərbi texnikaya və hərbi-sənaye kompleksinə malik olan Almaniyanı, nəzarətdə saxladığı Rumıniyanın neft mənbələrindən, habelə öz ərazisində süni üsulla sintetik duru yanacaq istehsal edən müəssisələrin potensialından məhrum etmək.

# XXII FƏSİL

# ALMANİYANIN 1943-1944-cü illərdə YANACAQ PROBLEMLƏRİ

1942-ci ilin sonu 1943-cü ilin əvvəli İkinci cahan savaşının müqəddəratında həlledici önəm kəsb etdi. Bir tərəfdən Quzey Afrikadakı hadisələr, daha dəqiq desək, noyabrın 3-də ingilis silahlı qüvvələrinin 8-ci ordusunun əl-Alameyni tutması və noyabrın 8-də isə ABŞ və Böyük Britaniya silahlı qüvvələrinin birgə iştirakı ilə «Məşəl» əməliyyatının böyük uğurla nəticələnməsi, digər tərəfdən isə Quzey Qafqazda və Stalinqradda alman ordularının düçar olduqları ağır məğlubiyyətlər Almaniyanın «böyük neft» uğrunda apardığı misli görünməmiş müharibənin tam iflasını daha da yaxınlaşdırdı. Bununla da nəinki strateji təşəbbüs əldən verildi, hətta Almaniyanın duru yanacaq sarıdan gələcək perspektivinə olan-qalan ümidi də itirildi. Müttəfiqlər isə əksinə, yeni hərbi qələbələr qazanmaqla yanaşı özlərinin neft mənbələrini qoruyub saxladılar və onların gələcək təhlükəsizliyini tam təmin etməyə nail oldular.

Almanların Stalinqraddan və Quzey Qafqazdan uzaqlaşdırılması kommunikasiya xətlərinin bərpasına səbəb oldu ki, bu da öz növbəsində SSRİ-nin mərkəz bölgələrinə, ən çox da cəbhə xəttinə duru yanacağın daşınmasını xeyli sürətləndirdi. Volqa yolunun açılması xüsusilə mühüm rol oynayırdı.

Həştərxan   Saratov neft kəmərinin çəkilişini sürətləndirmək məqsədilə bir qədər əvvəl sökülmüş Bakı   Batumi neft kəmərinin nasos stansiyaları və borularından istifadə olunurdu[1].

Hərbi texnika, xüsusilə təyyarə və tanklar 1943-cü ildə istər kəmiyyət, istərsə də keyfiyyətcə müharibə dövrünün gündən-günə artan tələblərinə daha yüksək səviyyədə cavab verməyə başladı.

Təbii ki, SSRİ-də müasir tələblərə uyğun hərbi texnikanın yaradılmasında Bakı da öz mötəbər sözünü dedi. Şəhərin neft emalı müəssisələrində Bakı neftindən alınan müxtəlif çeşidli və yüksək oktanlı benzin və yüksək keyfiyyətə malik sürtgü yağları olmasaydı, bu qüdrətli hərbi texnikanı yaratmaq və hərəkətə gətirmək də mümkün olmazdı. Belə ki, artıq 1943-cü ilin yayında Oryol   Kursk qövsündə keçirilmiş

taleyüklü əməliyyatlar ərəfəsində SSRİ Hərbi-Hava qüvvələri güclü aviasiya texnikasına, *quru qoşunları isə çətin sınaqlardan uğurla çıxmış* tanklara malik idi. Əgər SSRİ sənayesi 1942-ci ildə 25 min tank istehsal etmişdisə, 1943-cü ildə onların sayı 35 minə çatdırıldı.

Kursk qövsündəki döyüşlərin iştirakçısı olmuş və 16-cı hava ordusuna komandanlıq etmiş S.Rudenko həmin hadisələri xatırlayaraq, 1944-cü il *avqustun 16-da «Красная звезда»* qəzetində *çap etdirdiyi* «Авиация наступления» («Hücum aviasiyası») məqaləsində yazırdı: «1943-cü ilin yayında Oryol – Kursk əməliyyatının cəmi bircə günü ərzində aviasiyanın gördüyü işi səciyyələndirən rəqəmlərin bəziləri bunlardan ibarətdir. $12^{00}$-dan – $13^{00}$ qədər çəkən bir saat ərzində 411 təyyarədən ibarət bir dəstə geniş miqyaslı zərbə endirdi. $15^{30}$-dan $16^{30}$-a kimi 444 təyyarə iştirak edirdi və nəhayət $19^{00}$-dan $20^{00}$-a qədər çəkən üçüncü zərbə 460 təyyarənin iştirakı ilə endirildi»[2].

Beləliklə Oryol – Kursk qövsündə yalnız bir gün ərzində aparılmış hava döyüşlərində ümumilikdə 1315 təyyarə iştirak etmişdi. Onu da nəzərə alsaq ki, Oryol – Kursk əməliyyatı iyulun 5-dən avqustun 5-nə kimi davam etmişdi, o zaman bir ay ərzində hava döyüşlərində bilavasitə iştirak edən təyyarələrin ümumi sayı təqribən 50 min olardı.

Bu qədər hərbi təyyarə, habelə on minlərlə tank, zirehli maşın, avtomobil və digər hərbi texnika təbii ki, əsas etibarilə Bakıda istehsal olunmuş duru yanacaqla hərəkətə gətirilirdi.

Almaniyanın duru yanacaq probleminin vəziyyəti isə tam-başqa idi. Çünki hərbi texnika sarıdan Almaniya son dərəcə güclü idi. Ölkənin sənaye müəssisələri nəinki istənilən qədər, həm də daha müasir hərbi texnika istehsal edə bilərdi. Lakin duru yanacaq problemi Almaniyanın bütün planlarını alt-üst edir, puça çıxarırdı.

1943-cü ilin fevralında İsveçrədə nəşr olunan «Tribün de Cenev» qəzeti vəziyyəti təhlil edərək yazırdı: «Rommelin məğlubiyyətindən, Elista və Nalçikin ruslar tərəfindən tutulmasından sonra möhtəşəm kolbətin manevri uğursuzluğa düçar oldu. Bu manevrin məqsədi eyni vaxtda sovet hərbi potensialını məhv etmək, Britaniya imperiyasını birdəfəlik parçalamaq və Aralıq dənizi hövzəsini təmizləmək məqsədi güdürdü. Lakin «Polad pakta» daxil olan dövlətlər üçün daha böyük təhlükə kəsb edən cəhət, neft yataqlarını ələ keçirmək naminə onların qurduqları kombinasiyaların tam iflasa uğraması idi. O yerlərin *(yəni neft yataqlarının – müəllif)* ələ keçirilməsi onları *(yəni almanları – müəllif)* amerikalıların potensialı ilə xeyli dərəcədə bərabərləşdirərdi. Belə olmadıqda isə Almaniya öz proqramını həyata keçirə bilməz»[3].



Müharibənin müqəddəratında Quzey Afrikada baş vermiş hadisələrin rolunu *qiymətləndirərkən* Uinston Çörçill 1952-ci ildə belə demişdi: «İkinci cahan savaşı əl-Alameyn uğrundakı döyüşlərə və general Eyzenhauerin qoşunlarının Quzey Afrikaya çıxarılmasına qədər, demək olar ki, aramsız uğursuzluqlar və məğlubiyyətlər silsiləsi təşkil edirdi. Bu iki hadisə müharibənin bütün gedişatını dəyişdi»[4].

Dünyanın zəngin neft mənbələrini ələ keçirmək imkanından birdəfəlik məhrum olan Almaniya öz ixtiyarında olan duru yanacaq mənbələrindən də məhrum olmaq təhlükəsi ilə üzləşdi.

Məlum idi ki, Almaniyanın ixtiyarında cüzi əhəmiyyətə malik cəmi iki neft bölgəsi qalıb: biri Rumıniyada, digəri isə Macarıstanda. Lakin *Almaniyanın sərəncamında həmçinin* sintetik yanacaq istehsal edən 10 iri müəssisə vardı. Onlar Leyna, Pelitse, Gelzenberq, Bruks, Bolen, Tseyts, Vesselinq, Maqdeburq, Velheym və Şolvendə yerləşirdi.

Lakin başqa bir mənbədə iddia edilir ki, artıq 1939-cu ilə qədər «Virtşaftsqruppe kraftindustri»nin himayəsi altında sintetik neft istehsal edən 25 *müəssisə tam gücü ilə* fəaliyyət göstərir, bir neçəsi də inşa edilirdi[5].

Doğrudur, sintetik neft məhsulları baha başa gəlir, keyfiyyəti isə təbii yanacaqdan aşağı olurdu. Benzinin keyfiyyətində isə bu fərq, xüsusilə aydın hiss olunurdu. İngiltərə ilə Almaniya arasında gedən müharibədə ingilislərin «Spitfayer» təyyarələrinin böyük üstünlüyü göz qabağında idi. Hələ 1940-cı ilin avqustunda Almaniyanın «Dəniz şiri» kodu altında İngiltərəyə qarşı apardığı hücum əməliyyatlarının cəmi 3 ayı ərzində «lüftvaffe»* 1700 təyyarə itirdisə, İngiltərənin hərbi-hava qüvvələrinin itkisi cəmi 900 təyyarədən ibarət oldu[6]. Onu da qeyd edək ki, almanların başqa cəbhələrdə də itkisi heç də az olmurdu. Mütəxəssislər bunu onunla izah edirdilər ki, «Spitfayer»lər 100 oktanlı benzindən istifadə etdikləri halda, alman təyyarələrinin mühərrikləri layihələşdirilərkən onların aşağı oktanlı sintetik benzin ilə işləyəcəkləri mütləq nəzərə alınmalıydı[7]. Bu isə təyyarənin sürət və yerdənqalxma imkanlarına mənfi təsir göstərirdi. Təsadüfi deyil ki, məhz məlum keyfiyyətlərinə görə Stalin 1942-ci ildə Stalinqradın və Qafqazın taleyi havadan asılı vəziyyətdə olduğu vaxtda «Spitfayer» təyyarələrinin göndərilməsini Böyük Britaniyanın baş naziri Çörçilldən israrla dönə-dönə xahiş edərdi.

Məlumdur ki, 1939-cu ildə Polşanın süqutundan sonra Böyük Britaniya aviasiyası Almaniyanın sənaye obyektlərini intensiv hava hücumlarına məruz qoyurdu. Lakin ingilis hərb tarixçisi Con Fuller Britaniya

---

* Almaniyanın hərbi-hava qüvvələri

komandanlığının bu əməliyyatlarını tənqid edərək yazırdı: «Əgər Çörçill strateji nöqteyi-nəzərdən düşünsəydi, o zaman oranı (yəni Almaniyanı – müəllif) viran etmək əvəzinə ona aydın olmalı idi ki, bombardman obyektləri sənaye müəssisələrinin özləri deyil, onları enerji ilə təmin edən mənbələr olmalı idi. Yəni kömür və neft. Əgər bu mənbələr durmadan zəiflədilsəydi, o zaman son nəticədə Almaniya sənayesinin fəaliyyəti 90 faizə qədər dayandırıla bilərdi»[8].

İngilislər əsasən almanların sənaye obyektlərini dağıtmağa üstünlük verirdilər. Fullerin fikrincə o zaman mövcud olan vasitələrlə bunu etmək müşkül idi. Həm də nəzərə almaq lazımdır ki, Almaniyanın hərbi müəssisələri 130 kvadrat mil[9] bir ərazidə yerləşirdi. Bunun üçün küllimiqdarda bombardmançı təyyarə tələb olunurdu. Halbuki İngiltərənin bütün sənaye potensialı bu qədər təyyarəni istehsal etmək iqtidarında deyildi.

1943-cü ildə Almaniyanın özündə 6 milyon 180 min ton[10] sintetik yanacaq istehsal edilmişdi. Rumıniya və Macarıstandan gətirilən neft isə cəmi 2 milyon ton[11] idi.

1943-cü ilin avqustunda Amerikanın bombardmançı təyyarələri ilk dəfə Ployeştidəki *(Rumıniyadadır – müəllif)* neftayırma müəssisələrinə hücum etdilər. 1944-cü ilin aprelində belə hücumlar bir daha təkrarlandı. Lakin nəticələr kifayətedici deyildi[12].

1945-ci il iyunun 18-də keçirilən istintaq zamanı 1943-cü ili səciyyələndirərkən general-polkovnik Yodl demişdi: «1943-cü ildəki döyüşlərin nəticələri göstərdi ki, təşəbbüs rusların əlinə keçib, alman ordusu birincisi öz çevikliyini itirib. İkincisi isə gələcəkdə öz itirilmiş kadrlarını yenidən bərpa etmək imkanından məhrum olub»[13].

Şübhəsiz ki, çevikliyin itirilməsi ilk növbədə gündən-günə kəskinləşən duru yanacaq qıtlığı ilə əlaqədar idi.

1944-cü ilin yay kampaniyasından bəhs edərkən general-polkovnik Yodl demişdi: «Biz ehtimal edirdik ki, ruslar zərbəni cənub sahəsinə, daha doğrusu, rumın nefti istiqamətinə endirəcəklər. Odur ki, tank diviziyalarının əsas hissəsi orduların cənub qrupları rayonunda cəmləşdirildi. Bu zaman operativ müşavirələrdən birində Hitler demişdi: «Belorus meşələrini itirsəm daha yaxşı olar, nəinki rumın neftini»[14].

Lakin hadisələr Hitlerin istədiyi kimi cərəyan etmədi. 1944-cü il avqustun 29-da general R.Malinovskinin komandanlıq etdiyi hərbi hissələr Rumıniyanın əsas neft rayonlarından biri olan Buzeunu, avqustun 30-da isə Ployeştini ələ keçirdilər. Beləliklə də Almaniya Rumıniyadakı təbii enerji mənbələrindən məhrum oldu. Bu onun üçün son dərəcə ağır zərbə idi. Bu münasibətlə general Yodl belə demişdi: «Almaniya demək olar ki, yanacaqsız qaldı»[15].



Rumıniyanın neft mədənlərinin itirilməsi nəticəsində Almaniyanın sintetik duru yanacaqdan asılılığı görünməmiş dərəcədə artdı. Lakin müttəfiqlərin, ilk növbədə ABŞ və Böyük Britaniya aviasiyası artıq almanların sintetik yanacaq istehsal edən müəssisələrinə də böyük maraq göstərməyə başladı. Belə ki, artıq 1944-cü il mayın 12 və 13-də onların hərbi təyyarələri Pelitse, Leyna və Praqanın yaxınlığında olan Bruksdakı sintetik yanacaq müəssisələrinə ilkin uçuşlar etməyə müvəffəq oldular. Bu hadisədən dərhal sonra Almaniyanın silahlanma naziri Şneyer belə demişdi: «Mayın 12-də baş vermiş hadisənin mümkünlüyü iki ildən artıq idi ki, bizi daim vahimələndirirdi»[16].

Mayın 28-də yeni hava hücumu baş tutdu. Bu dəfə zərbə Lütsendorf, Tseyts, Köniqsborn və Leynada yerləşən müəssisələrə endirildi. Bu hücumda Amerikanın böyük miqdarda bombardmançı təyyarələri iştirak edirdi. Misli görünməyən bu hava əməliyyatı təqribən iki minə qədər ingilis qırıcı təyyarəsinin müşayiəti ilə həyata keçirildi. Lakin əsas zərbə müttəfiqlərin Normandiyaya çıxmasından sonra endirildi. Artıq iyul ayında iri müəssisələrin hamısı bu və ya digər dərəcədə zədələnmişdi.

Əgər may ayında bu müəssisələr birlikdə 316 min ton[17] məhsul istehsal etmişdisə, iyun ayında aylıq istehsal 107 min tona[18], sentyabr ayında isə 17 min tona[19] qədər azaldı.

Hava zərbələri aviasiya yanacağının da istehsalının kəskin surətdə azalmasına səbəb oldu. Belə ki, aprel ayında onun ümumi həcmi 175 min ton[20] idisə, artıq iyulda 30 min tona[21], sentyabrda isə 5 min tona[22] qədər azaldı. Lakin bu müəssisələr alman mütəxəssisləri tərəfindən ağlabatmaz bir sürətlə yenidən bərpa edilir, əvvəlki qədər olmasa da, hər halda, məhsul istehsalının davam etdirilməsinə xeyli imkan yaradılırdı. Fəqət hava hücumları da nəticəsiz qalmırdı. Məsələn, Leyna şəhərinin iri yanacaq müəssisəsinə edilmiş 22 hava hücumu buna əyani sübutdur. Onların 20-si ABŞ-ın 8-ci hava donanmasının, 2-si isə ingilis aviasiyasının payına düşürdü. Bu hücumlarda ümumilikdə 6552[23] bombardmançı təyyarənin iştirakı qeydə alınmışdı. Müəssisə üzərinə atılmış mərmilərin ümumi çəkisi 18328[24] tona bərabər idi. Bu dəhşətli hava hücumu nəticəsində müəssisənin istehsal gücünün cəmi 9 faizi[25] səviyyəsinə enməsinə səbəb oldu.

Bu barədə Amerika Birləşmiş Ştatlarının «Strateji bombardmanların nəticələrini öyrənən idarə»sinin yaydığı belə bir rəsmi hesabat diqqəti xüsusilə cəlb edir. Orada deyilir:

*«Yanacaq istehsalının azalması* başqa sahələrdə də özünü biruzə verirdi. 1944-cü ilin avqustunda təyyarə mühərriklərinin son yoxlanışı iki saatdan yarım saata qədər azaldıldı. Yanacaq qıtlığı ucbatından təyyarəçilərin onsuz da azaldılmış məşqləri bir daha ixtisar edildi. Döyüş itkiləri, nəqliyyat çətinliklərinin daim artması, habelə yanacaq istehsalının kəskin azalması nəticəsində yayda almanların tank diviziyalarının çevikliyi durmadan məhdudlaşırdı.

Şneyerin *(Almaniyanın silahlanma naziri – müəllif)* dediyinə görə, dekabrda yanacaq qıtlığı fəlakətli həddə çatdı. 1944-cü il dekabrın 16-da almanlar özlərinin növbəti əks-hücumlarına başlayanda onların yanacaq ehtiyatları bu əməliyyatları həyata keçirmək üçün tələb olunan səviyyədən xeyli aşağı idi. Almanlar müttəfiqlərin ehtiyatlarını *(yanacaq nəzərdə tutulur – müəllif)* ələ keçirməyə ümid bəsləyirdilər. Onlar buna nail ola bilmədilər. Odur ki, tank birləşmələrinin böyük bir qismi döyüşdə yanacağını sərf etdikdən sonra hərəkətsiz qaldı...

Yanacaq qıtlığı özünü şərq cəbhəsində də biruzə verirdi. 1945-ci ilin fevralında və martında rusların Sileziyadakı qələbəsi alman ordusunda yanacağın çatışmamasına görə xeyli sürətləndi. Mövqeləri saxlamaq məqsədilə Baranov döyüş meydanında almanların cəmləşdirdikləri 1200 tank yanacaq olmadığı üçün hərəkət edə bilmədi və darmadağın edildi. Marşal Stalinin etirafına görə, «sintetik yanacaq müəssisələrinin bombardmanları rusların qələbəsinin sürətləndirilməsində mühüm rol oynadı»[26].

Beləliklə, deyilənlərdən belə nəticəyə gəlmək olur ki, alman silahlı qüvvələrinin 1944-cü ildə düçar olduqları ağır məğlubiyyətlərin *mühüm səbəblərindən olan yanacaq amili, şübhəsiz ki,* son dərəcə önəmli yer tutur. Onun təzahürləri əvvəlki illərdə, xüsusilə Stalinqradda, Quzey Qafqazda, Quzey Afrikada özünü göstərsə də, 1944-cü ildən başlayaraq bu problem sözün əsl mənasında Almaniya üçün böyük fəlakətə çevrildi və onun süqutunun yaxınlaşmasını daha da sürətləndirdi. Daha doğrusu, qaçılmaz etdi.

Lakin bəşər tarixində baş vermiş saysız-hesabsız müharibələrdə olduğu kimi, İkinci cahan savaşında da ağlasığmaz vəziyyətlər az deyildi. Onlardan biri, nə qədər təəccüblü olsa da, məhz yanacaqla bağlı idi. Daha dəqiq desək, Almaniyanın duru yanacaq istehsal edən müəssisələrinin yuxarıda qeyd etdiyimiz hava bombardmanları ilə sıx əlaqədardır.

ABŞ-ın «Strateji bombardmanların nəticələrini öyrənən idarəsi»nin yuxarıda adı çəkilən hesabatında o da qeyd edilirdi ki, Almaniyada **d i b r o e t a n** *(seçmə mənimdir – müəllif)* istehsal edən yalnız bir müəssisə mövcud idi. Bu maddədən isə etil məhsulu hasil olunurdu.



Hesabatda deyilir: «*yüksək keyfiyyətli aviasiya benzininin* vacib tərkib hissəsi olan bu mühüm məhlul olmasa heç bir müasir təyyarə uça bilməz. Lakin buna baxmayaraq, bu yeganə müəssisə heç vaxt bombardmanlara məruz qalmamışdı, halbuki onun havadan müdafiəsi son dərəcə zəif idi»[27].

General Fuller bu məsələyə münasibətini belə izah edir: «...Bu yeganə obyekti bombardman etməklə Almaniyanın hərbi hava qüvvələrinə daha böyük ziyan vurmaq olardı, nəinki aviasiya müəssisələrinə edilmiş bütün dağıdıcı hücumları birlikdə götürdükdə. Etil məhlulu demək olar ki, bütün problemlərin «məğzi» idi. Lakin o diqqətdən kənarda qalmışdı. Göründüyü kimi, bizim texnika əsrində, əsgərlər və təyyarəçilər texniki cəhətdən düşünmürlərsə, bu zaman onlar xeyirdən çox ziyan gətirirlər»[28].

# XXIII FƏSİL

# ATLANTİK və SAKİT OKEAN SƏHNƏSİNDƏ NEFT MÜCADİLƏSİ

## YAPONİYANIN PİRL-HARBOR QƏLƏBƏSİ VƏ LEYTE MƏĞLUBİYYƏTİ

1944-cü il İkinci cahan savaşının həm də Uzaq Şərq səhnəsindəki hərbi əməliyyatlarında dönüş nöqtəsi oldu. Neft problemi burada da savaşa rəvac verən mühüm və həlledici amillərdən birinə çevrildi. Əslində Yaponiyanın müharibəyə qoşulmasında neft amili də son dərəcə mühüm rol oynamışdı. Belə ki, Asiya qitəsinin istər hərbi, istərsə də iqtisadi cəhətdən ən qüdrətli dövləti olan Yaponiya öz sənayesi üçün vacib olan bir sıra xammal növünün çatışmazlığından xeyli əziyyət çəkirdi. Onlardan biri də ölkə üçün böyük həyati əhəmiyyəti olan neft idi. Yaponiyanın iqtisalı potensialı beynəlxalq neft şirkətlərinin dünyanın müxtəlif ölkələrindən gətirdikləri neftdən tamamilə asılı vəziyyətdə idi.

Lakin neft Yaponiyanın təkcə iqtisadiyyatı üçün deyil, həm də ölkənin militarist dairələrinin hərbi strateji maraqlarına daxil olan vacib xammal növü idi. Almaniya və İtaliya ilə eyni hərbi bloka daxil olan Yaponiya özünün «Böyük Asiya» planını həyata keçirmək üçün tükənməz neft ehtiyatlarına malik olmalı idi. Bu isə son dərəcə müşkül bir məsələyə çevrilmişdi. Çünki ölkənin duru yanacaq imkanları o qədər cüzi idi ki, bununla geniş miqyaslı və uzunmüddətli müharibə aparmaq qeyri-mümkün idi.

Tarixə qısa bir ekskurs edərsək görərik ki, XIX yüzilliyin II yarısında başlayan (xüsusilə Bakı və ABŞ-da) neft qızdırması getdikcə dünyanın başqa bölgələrinə, o cümlədən də Yaponiyaya yayılmışdı. Çünki neftin iqtisadi dəyəri ilə yanaşı, hərbi-siyasi əhəmiyyəti də artıq tam gerçəkliyi ilə hər yerdə dərk edilməyə başlamışdı.

Yaponiyada isə ilk neft kəşfiyyatı 1890-cı ilə təsadüf edir. Neftin ilk hasilatı Honsü adasının qərb sahilində, Niiqata prefekturasında qeydə alındı. Bir qədər sonra Akita prefekturası da Yaponiyanın neft hasil edilən bölgələri sırasına daxil oldu. Lakin Hokkaydo adasında, Sapporo şəhərinin şimal-şərqində aşkar edilmiş kiçik neft yatağı isə hələ Yaponi-

yanın gələcəkdə böyük perspektivə malik neft ölkəsi olmasından xəbər vermirdi. Elə də oldu. Gündoğar ölkə müharibəyə qədərki dövrdə daxili tələbatı üçün işlətdiyi 4,4 milyon tona yaxın neftin yalnız 10-12 faizini öz ərazisində hasil edirdi[1]. İdxal edilən neftin 75 faizi ABŞ-ın, 13 faizi İndoneziyanın, 8 faizi isə İngiltərənin müstəmləkəsi olan Şimali Borneonun payına düşürdü[2].

Lakin İkinci cahan savaşının başlanması ilə əlaqədar olaraq, 1941-ci ilin iyul ayından etibarən Yaponiyaya xammal ixracı dayandırıldı. Əvvəlcə ABŞ, sonra isə İngiltərə və Hollandiya Yaponiya ilə olan ticarət əlaqələrinə embarqo tətbiq etdilər. Bu sırada neft xüsusi yer tuturdu. Bu onunla izah edilirdi ki, Yaponiya silahlı qüvvələri adı çəkilən ölkələrin Asiyadakı strateji maraqlarına ciddi təhlükə yaradırdı. Yəni İndoneziyanın və bölgənin digər neft hasil edən ölkələrinin Yaponiya tərəfindən işğal olunması reallaşa bilərdi. Odur ki, Yaponiya duru yanacaq idxal etmək imkanından mümkün qədər çox məhrum edilməli idi.

Yaranmış vəziyyət Yaponiya iqtisadiyyatının çətin vəziyyətə düşməsinə, hərbi potensialının zəifədilməsinə səbəb oldu. Bu, şübhəsiz ki, Yaponiyanı adekvat tədbirlər görməyə vadar etdi. Beləliklə, ölkənin siyasi elitasında müharibə tərəfdarlarının sayı xeyli artdı. Böyük Britaniyanın 1957-1963-cü illərdə baş naziri olmuş Harold Makmillan Yaponiyanın müharibəyə qoşulmasının səbəblərini araşdırarkən sonralar belə bir fikir irəli sürmüşdü ki, bu, ilk növbədə «neftə qoyulmuş qadağa» ilə əlaqədar idi[3].

Odur ki, heç də təəccüblü deyil ki, 1941-ci il dekabrın 7-də Pirl-Harborda və 1942-ci ilin fevralında Sinqapurda əldə edilən uğurlarla müharibəyə qoşulan Yaponiya üçün əsas strateji məqsəd Hollandiyanın Ost-İndiyadakı (indiki İndoneziya) və İngiltərənin Birmadakı mədənlərini tez bir zamanda ələ keçirmək oldu. Nəticədə 1941-ci ilin sonunda və 1942-ci ilin əvvəlində Malayya*, İndoneziya, Birma və Filippin yapon silahlı qüvvələri tərəfindən işğal edildi. Yaranmış vəziyyət Avstraliyanın təhlükəsizliyini də şübhə altında qoydu.

Lakin bu hərbi uğurlar yaponların nəzərdə tutduqları nəticəni verə bilmədi. Belə ki, Ost-İndiyada (İndoneziya) mövcud olan və «Royyal Datç/Şell» şirkətinə məxsus neft sənayesi texnoloji avadanlığının 88 faizini artıq geri çəkilən Hollandiyanın silahlı qüvvələri yararsız vəziyyətə salmışdılar. Dağıdılan neft obyektlərinin ümumi dəyəri 500 milyon dollardan artıq idi[5].

* 1957-ci ildə müstəqil Malayya federasiyası. 1963-cü ildə Malayziya federasiyası tərkibinə daxil oldu.



Birmadakı vəziyyət də ürəkaçan deyildi. Yaponlar təşrif buyuranadək ingilis hərbçiləri, neft avadanlığının demək olar ki, hamısını artıq partladıb dağıda bilmişdilər. Beləliklə bəzi hərbi uğurlara baxmayaraq, yaponlar nəzərdə tutduqları səviyyədə yanacaq problemini həll etməyə nail ola bilmədilər.

Doğrudur, bir qədər sonra yaponlar dağıdılmış neft qurğularının bir qismini böyük maddi və texniki vəsait hesabına bərpa edib, istismara versələr də, duru yanacaq qıtlığından yaxa qurtara bilmədilər. Bu qıtlıq müharibənin sonuna qədər davam etdi. Sonda isə, Almaniyada olduğu kimi, əsl fəlakətə çevrildi. Çünki bütün müharibə dövründə öz müttəfiqi Almaniya kimi, Yaponiya da əsas etibarilə sintetik üsulla əldə edilmiş yanacaq ilə kifayətlənməli olurdu.

Yaponlar öz aviasiyasının gündən-günə benzinə artan tələbatını nəzərə alaraq almanlardan fərqli olaraq, hətta yeni bir üsul da kəşf etməyə müvəffəq oldular. Nəticədə yapon təyyarələri şam ağaclarının köklərindən əldə edilmiş sintetik benzinlə uçmağa başladılar. Lakin, əlbəttə o, təbii benzini əvəz etmək iqtidarında deyildi.

Digər tərəfdən, Pirl-Harborda aldığı dəhşətli zərbədən sonra təzə özünə gələn ABŞ Sakit okean donanmasını təcili surətdə bərpa etdi və cənubdan neft də daxil Yaponiyaya digər strateji xammalın daşınmasının qarşısını almağa nail oldu.

1944-cü ildə amerikalıların Sakit okean adalarını bir-bir addayaraq, Yaponiyaya doğru durmadan irəliləməsi yaponların yanacağa olan ehtiyacını daha da şiddətləndirdi. ABŞ aviasiyası artıq ölkənin paytaxtı Tokionu bombradman etmək imkanı əldə edə bilmişdi.

Həmin il Filippin adaları Yaponiya üçün son dərəcə həyati əhəmiyyət kəsb etdi. 1944-cü ilin oktyabrında Leyte adasının həndəvərində iki düşmən tərəfin – ABŞ və Yaponiyanın hərbi-dəniz qüvvələrinin toplanması qeydə alındı. Hər iki ölkə üçün taleyüklü əhəmiyyət daşıyan bu həlledici döyüşə amerikalılar 32 təyyarədaşıyan gəmidən, 12 linkor, 23 kreyser və 58 eskadra minadaşıyan gəmidən ibarət böyük bir qüvvə cəmləşdirdilər. Yaponlar da onlardan geri qalmırdı. Bütün qüvvə və imkanları səfərbər edib döyüş bölgəsində toplamağa müvəffəq oldular. Bu hərbi-dəniz birləşməsinin tərkibinə o dövrdə dünyanın ən nəhəng linkorları sayılan «Yamoto» və «Musasi», 19 kreyser, 33 eskadra minadaşıyan gəmi, göyərtəsində 116 təyyarə olan 4 təyyarədaşıyan gəmi və digər 5 gəmi daxil idi. İri miqyaslı bu hərbi əməliyyatda yaponlar həmçinin kamikadzelərin idarə etdikləri təyyarələrdən də geniş istifadə edirdilər.

Bu döyüşdə qələbə yaponlara hava-su kimi lazım idi. Əks təqdirdə Filippindən Cənubi Asiyaya gedən yollar yaponlar üçün birdəfəlik

bağlanmış olardı. Orada isə külli miqdarda **n e f t** *(seçmə mənimdir – müəllif)* və digər strateji materiallar vardı.

Vəziyyətin ciddiliyi və qarşıdakı həlledici döyüşün hədsiz əhəmiyyətini dərindən dərk edən yapon admiralı Onisi döyüşlər ərəfəsində komandir və döyüşçülər qarşısındakı çıxışında vətənin təhlükədə olduğunu, hökumətin və baş qərargahın onu xilas etmək iqtidarında olmadığını söyləmişdi. O, sözünə davam edərək demişdi ki, «vətənin taleyi gənclərin, igidliyə hazır olan əsgərlərin əlindədir. Odur ki, milyonlarla həmvətənimiz adından sizə müraciət edirəm. Sizin qəhrəmanlıqlarınız haqqında imperatora məlumat verəcəm. Sizin hamınızdan xahiş edirəm ki, həyatınızı belə qurban verməyə hazır olasınız».

Lakin Filippin adalarının labirintində baş vermiş dəhşətli mücadilə yapon kamikadzelərinin misilsiz şücaətlərinə baxmayaraq, yapon hərbi-dəniz qüvvələrinin tam məğlubiyyəti ilə nəticələndi. Nəticədə 4 təyyarədaşıyan gəmi, 10 kreyser, 11 minadaşıyan və 3 digər gəmi məhv edildi. Böyük neft ehtiyatlarına sahib olmaq uğrunda aparılan bu nəhəng hərbi çarpışmada öz müstəsna fədakarlıqları ilə hərb tarixində yeni səhifə yazmış 2500-dən artıq kamikadze həlak oldu. Lakin Yaponiya böyük ümidlər bəslədiyi neft ehtiyatlarına sahib ola bilmədi. Bu strateji uğursuzluq ona baha başa gəldi. ABŞ isə Yaponiyanı duru yanacaq əldə etmək imkanlarından birdəfəlik təcrid etməklə, Yaponiya ilə müharibədə hərbi-strateji üstünlüyü tamamilə öz əlinə almış oldu.

Digər tərəfdən isə ardıcıl və fasiləsiz olaraq bombardman edilməsi nəticəsində Yaponiya tez bir zamanda hətta ölkə daxilində belə yanacaqsız qalmaq perspektivi ilə üzləşməli idi. Və üzləşdi də.

Əvvəldə qeyd etdiyimiz kimi, Almaniya artıq bu fəlakətin acısını dadırdı. Xaricdən neft gətirmək imkanından məhrum olan hər iki ölkənin yeganə ümidi sintetik yanacaq istehsal edən müəssisələrə qalmışdı. Onu da qeyd etmək lazımdır ki, onlar son dərəcə səmərəli fəaliyyət göstərirdilər. Bircə onu göstərmək kifayətdir ki, hətta 1944-cü ildə belə Almaniyanın hərbi-hava qüvvələrinin istifadə etdiyi benzinin 90 faizi kömürdən əldə edilirdi[6]. Lakin fasiləsiz hava hücumları bu müəssisələrin fəaliyyətini, Almaniyada olduğu kimi, Yaponiyada da gündən-günə məhdudlaşdırdı. Nəticədə 1945-ci ilin əvvəlində yanacaq problemi son həddə çatdı və Yaponiya sözün əsl mənasında çıxılmaz vəziyyətdə qaldı. Bu da öz növbəsində, hərbi-hava və hərbi-dəniz qüvvələri də daxil olmaqla. ümumilikdə yapon sioahlı qüvvələrinin hərəkətetmə imkanlarını son dərəcə zəiflətdi, manevr etmə qabiliyyətini əsaslı surətdə məhdudlaşdırdı. 1945-ci il, Almaniya kimi, Yaponiya üçün də məğlubiyyət ilinə çevrildi. Həmin il ABŞ silahlı qüvvələri Filippin adalarını və Yaponiyaya məxsus



Okinava adasını ələ keçirdilər[7]. Avqustun 6-da Hirosima, 9-da isə Naqasaki şəhərləri amerikalıların atom bombardmanlarına məruz qaldı[8]. Öz növbəsində SSRİ də Yaponiyaya qarşı hərbi əməliyyatlara başlamaq qərarına gəldi və avqustun 8-də Yaponiyaya müharibə elan etdi. Təbii ki, belə bir vəziyyətdə yapon silahlı qüvvələri müttəfiqlərə qarşı ciddi müqavimət göstərmək iqtidarında deyildi. Çox keçmədi Almaniya kimi Yaponiya da təslim aktını imzalamaq məcburiyyətində qaldı.

Hələ 1941-ci ilin dekabrında ABŞ-ın Sakit okean donanmasına komandan təyin olunarkən admiral Nimits belə bir fikir söyləmişdi ki, Yaponiya üzərində qələbə «paxla, güllə və neftin» olmasından asılıdır. Lakin 1945-ci ildə o öz fikrini dəyişərək neft amilini birinci sıraya çəkdi[9].

## ATLANTİK OKEANDA TANKER OVU

1944-cü ilin əlamətdar hadisələrindən biri də Atlantika uğrunda illərdən bəri aparılan mücadilənin uğurla nəticələnməsi oldu.

Məlumdur ki, dünyanın hər yerində neft mədənlərinə sahib olan İngiltərə eyni zamanda dəniz yollarına da nəzarəti öz əlində saxlayırdı. Bu isə ona Almaniya ilə müqayisədə böyük üstünlük qazandırırdı. Lakin problem ondan ibarət idi ki, İngiltərənin öz ərazisində neft hasil olunmurdu. Odur ki, öz daxili tələbatını ödəmək üçün duru yanacağı Şimali Amerika və Yaxın Şərq limanlarından daşımaq məcburiyyətində idi. Almaniya ilə müharibə başlanandan bəri bu tələbat daha da artdı. İngiltərənin güclü tanker donanması olmasına baxmayaraq, neft daşınması ciddi problemə çevrilmişdi. Buna səbəb almanların sualtı donanmasının ingilis tankerlərinə etdikləri fasiləsiz hücumlar idi. 1939-cu ilin sentyabr ayından başlanan bu hücumlar İngiltərənin tanker donanmasına külli miqdarda ziyan yetirdi. Belə ki, 1941-ci ilin iyuluna qədər İngiltərənin okean gəmilərinin yarıdan çoxu artıq məhv edilmişdi. Lakin yaranmış vəziyyətdən çıxış yolu tapıldı. Almaniyanın işğal etdiyi bir sıra Avropa ölkələrinin, o cümlədən Norveçin və Hollandiyanın tanker donanmaları ingilislərin ixtiyarına keçdi. Bu işdə ABŞ-da öz yardımını əsirgəmədi: Qərəlb dənizindən Kanada sahilindəki Halifaks limanına neft daşımaqdan ötrü 50 tanker ayırdı[10]. Nəticədə transatlantik məsafə 1 min mil qısaldıldı[11].

Lakin müharibənin əhatə dairəsinin genişlənməsi, hərbi əməliyyatların vüsətlənməsi və getdikcə daha qlobal xarakter alması, yanacaq ehtiyatlarının lazımi səviyyədə saxlanmasına ciddi problemlər yaradırdı.

ABŞ-ın müharibəyə qoşulması isə vəziyyəti bir qədər də gərginləşdirdi. Alman sualtı qayıqlarının həmlələri daha da intensivləşdi. Bu da öz növbəsində Venesueladan və Meksika körfəzindən Nyu-Yorka və ABŞ-ın şimal-şərq ştatlarına neft daşıyan tankerləri real təhlükələrlə üz-üzə qoydu.

1942-ci ilin qışında və 1943-cü ildə vəziyyət o həddə çatdı ki, ABŞ-ın Atlantik okean sahilində yerləşən ştatlarının duru yanacaqla təmin edilməsi məsələsi böyük bir problemə çevrildi. Bu, ilk növbədə əhali arasında ciddi narazılığa səbəb oldu. Bir sıra bölgələrdə etiraz nümayişləri və hətta qiyamlar da müşahidə edildi.

Lakin 1943-cü ilin ortalarına qədər vəziyyət xeyli sabitləşdi. Buna səbəb Meksika körfəzindən ABŞ-ın şimal-şərqinə doğru çəkilmiş neft kəməri oldu. Cəmi 350 günə[12] inşa edilmiş bu nəhəng kəmər, yaranmış gərginliyi əsasən aradan qaldırdı. Qısa bir müddət ərzində ABŞ tərsanələrində inşa edilmiş yeni tankerlər isə vəziyyəti daha da sabitləşdirdi. Alman sualtı qayıqlarının fasiləsiz həmlələrinə baxmayaraq, ilin sonuna qədər istifadəyə verilmiş tankerlərin miqdarı, məhv edilmiş tankerlərin miqdarından xeyli çox idi. Beləliklə Atlantika okeanı uğrunda mübarizə 1944-cü ildə ABŞ-ın tam qələbəsi ilə nəticələndi. Bu qələbə Normandiya əməliyyatının uğurunu da şəksiz təmin etmiş oldu. Onu da qeyd etmək vacibdir ki, müharibənin sonuna yaxın ABŞ-ın milli donanmasının tərkibində 800-dən artıq tanker var idi[13]. Onların yükdaşıma qabiliyyəti isə müharibədən əvvəlki dövrdə birlikdə götürdükdə bütün dünya ölkələrinin tanker donanmalarının ümumi imkanlarına bərabər idi. Bu da öz növbəsində İkinci cahan savaşında böyük yanacaq ehtiyatı əldə edərək müttəfiqlərin ox dövlətləri üzərində cahanşümul qələbəsinin rəhni oldu.

Neft və müharibə mövzusunu təhlil edən Ralf Deyvis haqlı olaraq yazır: «Müasir müharibə silahlanmadan asılıdır, silahlanma isə neftdən» [14].

# XXIV FƏSİL

# QƏRB CƏBHƏSİNDƏ YANACAQ BÖHRANI və III REYXİN SÜQUTU

Təbii ki, yanacaq problemi ilə təkcə alman silahlı qüvvələri üzləşmirdi. Müttəfiqlərin silahlı qüvvələri də bu və ya digər şəkildə bu problemdən əziyyət çəkməli olurdular. Əgər almanların əsas problemi ümumiyyətlə yanacaq qıtlığı ilə bağlı idisə, müttəfiqlərin əsas başağrısı yanacağın nəqli ilə bağlı idi. Bu, harada isə, başa düşülən məsələ idi. Çünki Normandiyada həyata keçirilmiş «Overlord» əməliyyatı son dərəcə mürəkkəb olmaqla yanaşı, istər canlı qüvvə, istərsə də hərbi texnika sarıdan çox böyük itkilər hesabına başa gəlmişdi. Odur ki, yanacağın vaxtında hərbi hissələrə çatdırılması çox güman ki, müəyyən çətinliklərlə üzləşməli olurdu.

Müttəfiqlərin silahlı qüvvələrinin yanacaqla təchiz edilməsində ciddi böhranın təşviş doğuran ilk təzahürlərindən biri Avranş ətrafında bəlli oldu. General fon Klyugenin müttəfiqlərin mövqelərinə endirdiyi qəfil zərbə yanacaq təchizatı sahəsində xeyli problemlərin olduğunu üzə çıxardı.

İllər keçəndən sonra, vaxtilə müttəfiqlərin birləşmiş silahlı qüvvələrinin baş komandanı olmuş general Duayt Eyzenhauer həmin hadisəni belə şərh edir: «Əgər o zaman bizim təyyarələr yerdə olsaydı, rəqib çox güman ki, elə ilk həmlədən *(«Overlord» əməliyyatı – müəllif)* sonra Avranşı tuta bilərdi. Bu isə bizi, müəyyən müddətdə Avranş ətrafındakı cənub və şərq dəhlizlərində döyüşən qoşunlarımızı hava vasitəsilə təchiz etmək *(yanacaq nəzərdə tutulur – müəllif)* məcburiyyətində qoya bilərdi»[1].

General Fullerin fikrincə, «məcburiyyətində qoya bilərdi» sözləri ona işarə edir ki, təchizatın belə üsulla *(yəni hava yolu ilə – müəllif)* edilməsi Eyzenhauerin heç də xoşuna gəlmirdi. Şübhəsiz ki, general Eyzenhauer Stalinqradda mühasirəyə düşmüş Paulyusun 6-cı ordusunu yanacaqla təchiz etmək məqsədilə həyata keçirilən uğursuz və daha çox təxribata bənzər «məşhur» ideyasından xəbərsiz olmamış deyildi. Lakin yaranmış ekstremal vəziyyət onu belə bir addımı atmaq məcburiyyətində



qoydu. Buna səbəb general Pattonun komandanlıq etdiyi müttəfiqlərin hərbi birləşmələrinin Sena çayına doğru yaxınlaşması oldu. Eyzenhauer yazırdı: «Avtomobil nəqliyyatı tələbləri qətiyyən ödəmək iqtidarında deyildi, ona görə də yenicə təşkil olunmuş 1-ci müttəfiq hava-desant ordusundan, habelə strateji aviasiyanın tərkibindən təyyarələr götürdük ki, Pattona gündə min ton yanacaq verək; bir qədər sonra bu rəqəmi iki dəfə artırmalı olduq»[2].

Həmin hadisələri xatırlayan general Arnold yazır: «Qoşunlarımızın bütün ehtiyaclarını təmin etməkdən ötrü yük avtomobillərindən ibarət dəstələr Şerburdan «Qırmızı kürələr» adlandırılmış şosse ilə (yalnız yanacaq daşınan yollar qırmızı kürələrlə işarə olunmuşdu) gecəli-gündüzlü axınla hərəkət edirdilər. Lakin bu kifayət etmirdi. Amerika tankları saatda min qallon benzin sərf edirdilər. İrəliyə doğru hər bir mil hərəkət etdikcə yanacaq təchizatı sarıdan bizim vəziyyətimiz getdikcə daha da ağırlaşırdı»[3].

Lakin müttəfiqlərin yanacaqla bağlı problemləri yalnız yuxarıda deyilənlərlə məhdudlaşmırdı. General Martel yazdığı əsərdə yanacaqla bağlı digər problemlərə də işıq salırdı. O, yanacaq probleminin həllinin kifayət qədər dəqiq düşünülmədiyi fikrində idi. Nəticədə arzuolunmaz vəziyyətlər yaranırdı. Məsələn, avqustun 30-da avtomobillərin 1-ci Amerika ordusunu yanacaqla təchiz etmək üçün səfərbər edilməsi xoşagəlməz nəticələrə səbəb oldu. Belə ki, üçüncü Amerika ordusunun tankları hərəkətsizliyə düçar oldular. General Martel vəziyyəti şərh edərək yazırdı: «Əməliyyatın demək olar ki, lap əvvəlindən aydın oldu ki, yanacaq çatışmazlığı özünü göstərəcək. Odur ki, son məqamda daha az əhəmiyyət kəsb edən əşyaların, məsələn, ehtiyat hərbi geyimlərin əvəzinə yanacağın yüklənməsi və daşınması planları tərtib olundu. Bundan başqa, yanacaq daşıyan avtomobillərə normal yük sayılan 650 qallon əvəzinə, 1300 qallon yüklənmişdi. Diviziya nəqliyyatı normal yanacaq ehtiyatını əgər 100 mil məsafə üçün götürürdüsə, indi apardığı ehtiyat 200 mil üçün nəzərdə tutulurdu»[4].

Gerçəkdən qəribə, eyni zamanda ağlasığmaz bir vəziyyət yaranmışdı. Almaniya ilə heç bir müqayisəyə girməyəcək dərəcədə bol duru yanacaq ehtiyatlarına malik olan ABŞ və Böyük Britaniyanın Normandiyaya çıxarılmış birləşmiş silahlı qüvvələri ciddi şəkildə yanacaq böhranı ilə üzləşmişdilər. Bunun səbəbi nədə idi? General Fuller bunu belə izah edir: «...Çünki hərbi-hava qüvvələri demək olar ki, yalnız strateji və taktiki cəhətdən tətbiq olunurdu. Elə ki, havada hökmranlıq təmin edildi məlum oldu ki, aviasiyadan arxa xətdə xidmət etmək üçün istifadə olunma imkanları yaddan çıxarılıb. Doğrudan da heç kim anlamadı ki,

madam təyyarə yollar olmadan da keçinə bilər və indi mövcud olanların hamısından daha çevik «arabadır», o, yükləri bir yerdən digərinə daşımaq üçün özünü ideal vasitə kimi göstərir. Həm də o yerdə ki, daşımaların qiyməti heç bir əhəmiyyət daşımır»[5].

ABŞ və Böyük Britaniyanın neft ehtiyatlarını səciyyələndirən Fuller daha sonra yazır: «Amerikanların və ingilislərin sərəncamında dünyanın neft ehtiyatlarının yarısından çoxunun olmasına baxmayaraq, amerikan-ingilis cəbhəsi boyu hava nəqliyyatının olmaması ucbatından yanacaq təchizatı 1944-cü ilin sentyabr ayında hər iki qərb müttəfiqi üçün demək olar ki, almanlardakı kimi qıt, eləcə də həlledici amil idi: halbuki onlar *(almanlar – müəllif)* avqustdan başlayaraq yalnız sintetik yanacaqdan istifadə edirdilər ki, onun da istehsalı daim azalırdı»[6].

Yaranmış belə vəziyyəti aradan qaldırmaqdan ötrü amerikan-ingilis komandanlığı təcili və əməli tədbirlər görməyə məcbur oldu. Dəmir yolları və avtomobil nəqliyyatı vasitəsilə yanacaq daşınmasının həcminin kifayət etmədiyini nəzərə alaraq, ingilis-amerikan komandanlığı hava nəqliyyatından daha səmərəli istifadə etmək məqsədilə təyyarələrdə bir sıra texniki yeniliklər etmək qərarına gəldi. General Arnold bu münasibətlə yazırdı: «S – 47 nəqliyyat təyyarələri İngiltərədən benzin doldurulmuş beş qallonluq bidonlarla yola düşürdülər. Ağır bombardmançılara nəqliyyat xidmətində qulluq etmək nəsib olmuşdu»[7].

Daha sonra öz xatirələrində general Arnoldun gəldiyi qənaət son dərəcə maraqlı və diqqətəlayiqdir. Arnold yazırdı: «Yaranmış vəziyyət onları taleyüklü dəyərlərin qiymətlərini belə müəyyənləşdirməyə vadar etdi: birinci yerdə benzin, ikinci yerdə döyüş sursatı oldu. Ərzağın yeri isə üçüncü idi»[8].

Görülən bütün bu tədbirlərə baxmayaraq, general Eyzenhauer tezliklə əmin oldu ki, yanacaq ehtiyatlarının artırılmasının səviyyəsi o dərəcədə deyil ki, bütün orduları qış gələnə qədər Almaniyaya yeritmək mümkün olsun.

Morhed öz xatirələrində yazır ki, «bu, gecikmənin ən təhlükəli dövrü idi. Almanların mənəvi ruhu hər saat, hər gün möhkəmləndirilirdi. Darmadağın edilmiş 15-ci və 7-ci orduların qalıqları böyük çətinliklə geriyə, Almaniyaya qayıtdıqca onları yeni hərbi birliklərin tərkibinə qatırdılar»[9].

Beləliklə, müttəfiq qoşunlarında yanacaq çatışmazlığı yenə də öz sözünü dedi. Bu mühüm amil Fransa uğrunda gedən döyüşün yarımçıq qalmasının əsas səbəbkarı oldu. Halbuki havada müttəfiqlər hökmranlıq edir, alman mövqelərini və ümumilikdə Almaniyanı, təxminən bir ay ərzində ardı-arası kəsilmədən dağıdıcı bombardmanlara məruz qoyurdular.






*ABŞ qoşunlarının Normandiyada desant çıxarması. İyun, 1944-cü il*





General de Qoll (soldan 2-ci) müttəfiqlərin desant çıxardıqları yerdə. 14 iyun 1944-cü il



U.Çörçill və feldmarşal B.Montqomeri. 22 iyun 1944-cü il



Hətta amerikanların 11-ci ordusu sentyabrın 11-də Almaniya sərhəddini də keçməyə müvəffəq olmuşdu. Lakin yanacaq qıtlığı hücum əməliyyatının dayandırılması haqqında komandanlığın verdiyi əmrlə nəticələndi. Çünki dağıdıcı vəzifəsini böyük uğurla həyata keçirən aviasiya, digər mühüm problemin həllini, daha dəqiq desək, tələb olunan həcmdə yanacaq daşınmasını təmin edə bilməmişdi. Almanlar isə yaranmış vəziyyətdən yararlanaraq, öz pərakəndə qüvvələrini cəmləşdirməyə nail oldular və müttəfiqlərin gələcək hücumlarının qarşısını uğurla almaq fürsəti əldə etdilər.

Burada istər-istəməz reyxs-marşal German Göringin Stalinqradda həyata keçirməyə cəhd göstərdiyi «məşhur» hava əməliyyatı yada düşür. Ədalət naminə demək vacibdir ki, Göringin qarşısına qoyduğu vəzifə daha çətin, daha ciddi və daha təxirəsalınmaz idi. Onu da nəzərə alaq ki, Göringin təyyarələri daha uzaq məsafədən yanacaq daşımalı və onu son dərəcə mürəkkəb hərbi və iqlim şəraitində və misli görünməmiş mühasirəyə düçar olmuş bir orduya – Paulyusun 6-cı ordusuna çatdırmalı idi. Hərbi mütəxəssislərin fikrincə onun mümkünsüzlüyü, necə deyərlər, göz qabağında idi.

Lakin Fransada yaranmış vəziyyət tamamilə başqa idi. Birincisi, iqlim şəraiti müqayisə edilməz dərəcədə əlverişli idi. İkincisi, məsafə xeyli yaxın idi və rəqib ərazisindən uçmaq lazım gəlmirdi. Üçüncüsü, daşınan yanacaq mühasirədə olan orduya deyil, hücum edən və hərbi-texniki cəhətdən mükəmməl təchiz olunmuş müttəfiqlərin ordu qrupları üçün nəzərdə tutulmuşdur. Dördüncüsü isə almanların və müttəfiqlərin yanacaq ehtiyatlarını heç müqayisə etmək olmazdı. Fəqət sonda neft amili öz qüdrətli hökmünü verdi. Duru yanacaq özünün həqiqətən danılmaz fövqəl gücə malik olduğunu əvvəllərdəki kimi bir daha sübut etdi. 1945-ci il xüsusilə əlamətdar oldu. 1939-cu ildən tarixdə misli görünməyən, necə deyərlər, enerji macərası, yəni neft uğrunda gah səngiyən, gah da əvvəlkindən daha şiddətlə alovlanan neft uğrunda ölüm-dirim mübarizəsi nəhayət ki, sona yetdi. Bu mübarizə milyonlarla insanın həyatı bahasına başa gəldi, minlərlə şəhər, kənd, qəsəbə viran edildi, sənaye və kənd təsərrüfatı obyektləri dağıdıldı, mədəni və tarixi abidələr tarmar edildi, insan ləyaqəti alçaldıldı, mənəvi dəyərlər vəhşicəsinə təhqirə məruz qaldı. Ən əsası isə insanlığa qarşı misli görünməmiş və heç zaman bağışlanmayacaq haqsızlıq və zorakılıq tətbiq olundu. Çox-çox təəssüflər olsun ki, Birinci cahan savaşının müdhiş fəlakətli nəticələri çox tez unuduldu. Ondan lazımi ibrət dərsləri götürülmədi...

Lakin bütün bunlar sonralar təhlil edildi. Hələlik isə irəlidən 1945-ci il gəlirdi. Tarixə dünya birliyinin faşizm üzərində çaldığı tarixi qələbə

kimi daxil olmuş əlamətdar bir il. Müharibənin taleyi artıq heç kimdə şəkk-şübhə doğurmurdu. Lakin, hər halda böyük səy və ardı-arası kəsilməyən duru yanacaq tələb olunurdu. Bunu Hitler də yaxşı başa düşürdü. Odur ki, Üçüncü reyxi dəhşətli fəlakətdən xilas etmək üçün necə deyərlər, suda boğulan saman çöpündən yapışdığı kimi, o da mümkün olan və olmayan ən cüzi imkandan belə yapışmağa can atır, qurtuluş üçün yollar arayırdı. O imkanlardan ən vacibi isə təbii ki, yanacaq idi. Hətta ölkənin paytaxtı Berlinin müdafiəsinin zəiflədilməsi hesabına olsa da, ilk növbədə cəbhənin yanacaq ehtiyatlarını nəyin bahasına olursa-olsun ödəməyə çalışırdı. Lakin bircə ümid yeri qalırdı. Bu, Macarıstan nefti idi.

1944-cü il dekabrın 16-da başlamış və almanlar üçün uğurlu nəticəyə səbəb olmuş Ardenn əməliyyatı müttəfiqləri böyük çətinliklərlə üzləşdirdi. Digər tərəfdən bu uğurlu əməliyyat alman komandanlığına şərq cəbhəsində də fəal hücum əməliyyatları aparmaq imkanı yaratdı. 1945-ci il iyunun 18-də istintaq zamanı verdiyi izahatda general-polkovnik Alfred Yodl o hadisələri xarakterizə edərkən demişdi: «Fürer nəyin bahasına olursa-olsun Dunay və Dravaya çıxmaq məqsədilə Macarıstanda fəal əməliyyatlar aparılmasını tələb edirdi. Quru qoşunları baş qərargahının rəisi general-polkovnik Quderian etiraz etməyə cəhd göstərdi. Lakin Hitler belə cavab verdi: «Siz hücuma neftsiz keçmək istəyirsiniz – yaxşı, baxaq görək bundan nə hasil olacaq»[10].

İstintaq protokolunda Yodlun söylədiyi bir açıqlama xüsusilə əhəmiyyətlidir. Yodl demişdi: «Fürerin bu niyyətini *(Macarıstan əməliyyatı nəzərdə tutulur - müəllif)* həyata keçirməkdən ötrü **B e r l i n** *(seçmə mənimdir - müəllif)* istiqamətində olan qruplaşmanı zəiflətməli olduq. Sonradan məlum oldu ki, Macarıstan əməliyyatı müvəffəqiyyətsizliyə uğrayıb. Nəticədə isə Berlinin müdafiəsini möhkəmləndirmək üçün əlavə heç bir qüvvə göndərmək mümkün olmadı»[11].

Budapeşt ətrafında 6-cı tank ordusunun iştirakı ilə əks-hücum cəhdi haqqında general-feldmarşal Vilhelm Keytel 1945-ci il iyunun 17-də istintaqa verdiyi izahatda belə demişdi: «Qeyd etmək lazımdır ki, bu ideya şəxsən fürerə məxsusdur. O, hesab edirdi ki, mövcud şəraitdə Nadkanijedə olan 70 min ton neft və Vyana ilə Avstriyanın təchizatı həlledici əhəmiyyət kəsb edir. O, deyirdi ki, macar neftini və Avstriyanı itirməkdənsə, Berlini tezliklə təslim etmək daha sərfəlidir. Bu mülahizədən çıxış edərək Hitler qərb cəbhəsində olan 6-cı tank ordusunun Budapeşt rayonuna göndərilməsini əmr etdi. Bu əməliyyat yeddi-səkkiz həftə çəkdi. Çünki Almaniyanın nəqliyyat şəbəkəsinin tamamilə dağıdılması onu xeyli çətinləşdirmişdi. Bütün bu cəhdlərin uğursuzluqla nəticələnməsindən sonra Almaniyanın vəziyyəti tamamilə aydınlaşdı»[12].





*SSRİ, ABŞ və İngiltərə hökumət başçılarının Krım (Yalta) konfransı. Fevral 1945-ci il*



*Antihitler koalisiyası ölkələrinin müttəfiq qoşunlarının baş komandanları. Soldan sağa: feldmarşal B.Montqomeri, general D.Eyzenxaur, marşal G.Jukov və general J.Delatr de Tassinyi*

Beləliklə, Hitlerin son ümidi olan Macarıstan neftini əldə saxlamaq cəhdləri də tam iflasa uğradı. Artıq bu, Almaniyanın özünün tam iflası demək idi. O, nəinki müharibənin gedişində dəyişikliyə nail ola bilmədi, heç özünü də müdafiə etmək iqtidarında deyildi. SSRİ və onun müttəfiqləri ABŞ və Böyük Britaniyanın duru yanacaqla gen-bol təchiz edilmiş silahlı qüvvələri istər havada, istər dənizdə, istərsə də quruda bir-birinin ardınca uğurlu əməliyyatlar həyata keçirərək, Hitler başda olmaqla faşist Almaniyasının hərbi, siyasi, iqtisadi və mənəvi süqutunu tam reallığa çevirdilər. Bu əməliyyatlarda həm qərb, həm də şərq cəbhələrində tarixdə misli görünməmiş sayda yanacaqla işləyən mühərrikli hərbi texnikadan istifadə olundu. Təkcə onu qeyd etmək kifayətdir ki, yalnız Berlin əməliyyatı zamanı SSRİ aviasiyası cəmi bir gün ərzində nə az, nə çox 17500 təyyarə uçuşunu təşkil etməyə müvəffəq olmuşdu. 70 min ton Macarıstan neftinə sahib çıxmaq naminə Berlini müttəfiq ordularına təslim etməyə hazır olan Hitler rejimi, təbii ki, bu nəhəng qüvvəni dəf etmək iqtidarında ola bilməzdi. Və ola bilmədi də.

Bu xüsusda 1945-ci il aprelin 30-da günün ikinci yarısında baş vermiş bir hadisə rəmzi xarakter daşıdığı kimi, həm də son dərəcə ibrətamizdir.

Həmin gün sovet qoşunları güclü hücum nəticəsində reyxstaqı ələ keçirməyə müvəffəq oldular. Saat $15^{30}$-da isə Hitlerin olduğu otaqdan atəş səsi eşidildi. Böyük bir çaşqınlığın və əsəb gərginliyinin hökm sürdüyü bir vaxtda bu gözlənilməz atəş səsi Hitlerin şəxsi qərargahının əməkdaşlarını bərk təşvişə saldı. Onlar Hitlerin otağına daxil olduqda gözlərinə inanmadılar. Hitler intihar etmişdi. Bormanın əmrinə əsasən Fürerin cansız cəsədi imperiya dəftərxanasının həyətinə çıxarıldı. Bir qədər sonra Hitlerin şəxsi yavəri və sürücüsü benzin töküb cəsədi yandırdılar. Böyük Britaniyanın baş naziri Uinston Çörçill bu hadisəni obrazlı şəkildə belə ifadə etmişdir: «Rus toplarının gurultusu altında alovlanan Hitlerin matəm tonqalı Üçüncü imperiyanın dəhşətli aqibətinin təntənəsi idi»[13].

# NƏTİCƏ

Bəşər tarixi müharibələrlə zəngindir. Qısa müddətli müharibələr də olubdur, uzun çəkən müharibələr də. Fəqət otuz illik nədir ki, hətta yüzillik müharibələr haqqında da yazılıbdır qoca tarixin kitablarında.

Lakin XX əsr yeni mərhələ açdı müharibələr tarixində: cahan müharibələri mərhələsi. Tarixdə hələlik iki cahan savaşı qeydə alınıb: 1914-1918-ci illər və 1939-1945-ci illər müharibələri. Belə bir sual meydana çıxır. Nəyə görə bu cür qlobal savaşlar əvvəlki əsrlərdə baş verməmiş, məhz XX əsrə təsadüf etmişdir? Doğrudan da Atillanın savaşları, Makedoniyalı İskəndərin dünyanın sonunu görmək istəyi, Çingiz xanın, Teymurləngin, Napoleonun, Suvorovun və bir çox başqa sərkərdələrin hərbi yürüşləri son nəticədə cahan savaşına çevrilmədi. Və çevrilə də bilməzdi. Niyə? Ona görə ki, indi, hər şeydən öncə, yanacaq və ondan istifadə edilməsi kimi həlledici amil yaranmışdır. Bu amil də, ilk növbədə, çağdaş mühərrikli hərbi texnikanın hərəkətə gətirilməsi ilə sıx bağlıdır.

Hər şey daxili yanacaq mühərrikinin kəşfindən başlandı. İlk vaxtlar çoxlarının dərk edə bilmədiyi bu ibtidai mühərrik hərbi texnika sahəsində yeni eranın başlanmasına yol açdı. Çox keçmədi onun əhatə dairəsi sürətlə genişləndi, orbitinə yeni-yeni sahələri çəkdi. Yerdə də, göydə də, dənizdə də maşınların polad ürəyi – yanacaqla işləyən mühərriklərin tətbiqinə geniş meydan açıldı. Mühərrikli hərbi texnika qoşunların mütəhərrikliyini, çevikliyini və sürətini dəfələrlə artırdı. Qədim və orta əsrlərin alim, hökmdar və sərkərdələrinin təsəvvür belə edə bilməyəcəyi bu elmi-texniki sıçrayış hərbi əməliyyatlara misilsiz vüsət və qüdrət gətirdi və dünyanın demək olar ki, bütün qitələrinin irili-xırdalı onlarla ölkəsini cəlb etdi. Müxtəlif qitələrin ölkələrinin hərbi bloklar, ittifaqlar,

alyanslar, koalisiyalar yaratması məhz bununla əlaqədardır. Birinci cahan savaşında da belə olmuşdu, İkincidə də. Birinci cahan savaşı sanki məşq-sınaq rolu oynadı. Buna bir növ ilk təcrübə məktəbi də demək olar. Məhz Birinci cahan savaşında neftin hərbi nöqteyi-nəzərdən strateji əhəmiyyəti dərk edildi. Vaxtilə ABŞ-da ağ neft istehsalı zamanı hasil olunan və heç nəyə yaramayan bir maddə hesab olunan benzin, son dərəcə qüdrətli bir vasitəyə çevrildi. Dünya hərb tarixində misilsiz döyüş vasitələrindən sayılan aviasiyanın yaranıb inkişaf etməsində benzin müstəsna rol oynadı. Məhz bu keyfiyyətinə və qiymətinə görə vaxtilə ondan qat-qat yüksəkdə duran kerosini bu qiymətli duru yanacaq növü üstələdi. Benzinə tələbat durmadan artdı. Dünyanın neftayırma müəssisələri, elmi laboratoriyalar, kimyaçı alimlər və elmi-tədqiqat mərkəzləri intensiv surətdə yüksək oktanlı benzin əldə etməyə can atdılar. Çünki yüksək oktanlı benzin ilk növbədə güclü potensiala malik olan təyyarə mühərrikini hərəkətə gətirirdi. İkinci cahan savaşı göstərdi ki, havada üstünlük kimdə idisə, qalibiyyət də sözsüz ki, onunku olurdu. İkinci cahan savaşı bu baxımdan ən yüksək mərhələyə çatmışdı. Hətta müharibənin ilk illərində təyyarələrin azlığından daim şikayətlənən və ABŞ-dan, Böyük Britaniyadan dönə-dönə təyyarələr göndərilməsini xahiş edən Stalin Quzey Qafqazda və Stalinqrad ətrafında gedən və müqəddəratı hələ də böyük şübhə doğuran döyüşlərin ən gərgin və həlledici dövründə Böyük Britaniyanın baş naziri Çörçillə ünvanladığı göndərişdə bu sözləri vurğulamağı da unutmamışdı: «...Almanların böyük aviasiya ehtiyatı var ki, onu da Stalinqrad rayonunda cəmləşdirdilər və havada ikiqat üstünlüyə nail oldular. Yerdəki qoşunlarımızı qorumaq üçün qırıcı təyyarələrimiz çatmadı. Havadan kömək olmadıqda hətta ən cəsur ordular belə imkansız olurlar. Bizə «Spitfayer»lər və «Aerokobra»lar son dərəcə vacibdir»[1].

İngilis hərbi yazarı, Birinci cahan savaşının iştirakçısı general-mayor Con Fuller İkinci cahan savaşını təhlil edərək yazırdı: «Müharibə iki əsas xüsusiyyəti ilə fərqlənirdi: o heyrətamiz dərəcədə çevik hərəkətli və görünməmiş miqyasda amansız idi. Birinci xüsusiyyət elm və texnikanın inkişafı ilə əlaqədar idi...

Müharibənin birinci xüsusiyyəti haqqında o qədər yazılıb ki, indi yalnız bir para əlavələr etmək lazım gəlir. Gördüyümüz kimi, mütəhərriklik əsas etibarilə daxili yanacaq mühərrikinin tətbiqi ilə əlaqədardır, istər quruda, istərsə havada, xüsusilə də havada. Çünki məhz təyyarə müharibənin xarakterini müəyyən etdi. Və nəinki döyüş meydanının, həmçinin bütövlükdə savaş meydanlarında cərəyan edən hadisələrin həcmini genişləndirməklə.



...Təyyarənin müstəqil fəaliyyət göstərə bilmək qabiliyyəti onu mənəvi və siyasi cəhətdən korafəhim olan insanların əlində hədsiz dağıdıcı gücə malik olan bir silaha çevirmiş olur»[2].

İkinci cahan savaşı yer kürəsinin bütün qitələrindəki ölkələrin bu və ya digər şəkildə xeyli qismini öz orbitinə cəlb etdi. Nəticədə iki nəhəng hərbi-siyasi blok yarandı: Berlin-Roma-Tokio ox dövlətləri və ABŞ-Böyük Britaniya – SSRİ müttəfiq dövlətləri. Artıq hamıya yaxşı məlumdur ki, misli görülməyən bu savaşda yüz minlərlə tank, təyyarə, zirehli maşın və digər mühərrikli hərbi texnikadan istifadə olundu. Sovet İttifaqı Marşalı Jukovun verdiyi məlumata görə təkcə «Lend-liz» qanununa əsasən ABŞ və Böyük Britaniyadan SSRİ-yə müxtəlif tipli «18000 təyyarə, 11000 tank, 400000 avtomobil»[3] gətirilmişdi. SSRİ-nin öz istehsal etdiyi texnikanı da əlavə etsək, son dərəcə böyük rəqəm alınar. Təkcə onu qeyd etmək kifayətdir ki, SSRİ-də müharibə illərində 137271 ədəd müxtəlif tipli təyyarə, on minlərlə tank və başqa hərbi texnika istehsal olunmuşdur.

İkinci cahan savaşı bir sıra başqa fərqli xüsusiyyətləri ilə də diqqəti cəlb edir. Birincisi, qarşı-qarşıya durub üzüntülü mübarizə aparan hər iki koalisiyaya daxil olan dövlətlərin çox mühüm məsələdə olan fərqli vəziyyətləri. Əgər ABŞ, Böyük Britaniya və SSRİ zəngin duru yanacaq mənbələrinə malik idilərsə, əksinə, Almaniya, İtaliya və Yaponiya belə imkandan məhrum idilər. Onların duru yanacaq ehtiyatları son dərəcə məhdud idi. Və hətta demək olar ki, asılı vəziyyətdə idilər. Duru yanacağın isə müharibənin müqəddəratında həlledici rol oynaması artıq heç kimdə şübhə oyatmır. Təbii ki, bunu o zaman Hitler və onun müttəfiqləri də aydın dərk edirdilər. Hələ «1941-ci il yanvarın 28-də Halderin general Fromm ilə keçirdiyi müşavirədə müəyyən edilmişdi ki, hazırlanmış insan ehtiyatları *(resursları)* SSRİ-yə qarşı müharibədə labüd olan itkilərin yerini yalnız 1941-ci ilin payızına kimi doldurmaq imkanına malikdir. **Y a n a c a q** (*seçmə mənimdir - müəllif*) təchizatı isə ciddi narahatlıq doğurur»[4]. Çox güman ki, «Blits-kriq», yəni ildırım sürətli müharibə ideyası da ilk növbədə bu səbəbdən meydana gəlmişdi.

Hakimiyyətə gələndən dərhal sonra Hitler və onun komandasını, ilk növbədə, hərbi sənayeni yenidən bərpa edib çağdaş tələblər səviyyəsinə çatdırmaqla yanaşı, gələcəkdə başlayacağı müharibəni təmin edə biləcək duru yanacaq ehtiyatlarına sahib olmaq barədə də düşünməyə vadar edirdi. İndi bizə məlum olan imkanlardan savayı, Almaniya gizli yollarla da duru yanacaq əldə etməkdən çəkinmirdi. O'Konnor «Neft imperiyası» kitabında maraqlı bir faktın üzərinə işıq salır. O, yazır: «1945-ci ildə amerikan ordusu tərəfindən ələ keçirilən bir sənədə

əsasən, «İQ Farbeniindustri» *(alman şirkətidir - müəllif)* Hitlerə məlumat verdi ki, o, «Cersi»dən *(Amerika şirkətidir - müəllif)* elə məlumatlar alıb ki, onlarsız, «indiki üsulla müharibənin aparılması ağlasığmazdır». Almaniyanın silahlı qüvvələri («Vermaxt») inandırırdılar ki, «Cersi»nin köməyi sayəsində onlar nəhayət ki, aviasiya benzini və sürtgü yağlarının ehtiyatını yaratmağa nail olublar. Onu da demək lazımdır ki, «İQ Farbeniindustri» boynuna aldı ki, o həmçinin «Royyal Datç-Şell»ə də *(ingilis – holland neft şirkətidir - müəllif)* minnətdardır»[5].

Almaniyanın müttəfiqləri olan İtaliya və Yaponiyanın özlərinin neft yataqları ümumiyyətlə yox idi. Odur ki, başqa ölkələrdən əldə edilən yanacaqla kifayətlənirdilər.

Antihitler koalisiyasına daxil olan ölkələrdə isə tamamilə başqa mənzərə vardı. Təkcə ABŞ müharibədən əvvəl dünyada hasil edilən neftin təqribən üçdə ikisinə malik idi. SSRİ isə təkcə Bakının hesabına müharibənin dörd ili ərzində 62 milyon tondan[6] artıq yüksək keyfiyyətli duru yanacaq əldə etmişdi.

Böyük Britaniyanın da neft ehtiyatlarını bura əlavə etsək, alman rəhbərliyinin heç yuxusuna belə girə bilməyəcək bir rəqəm alınar. Əgər nəzərə alsaq ki, külli miqdarda hərbi texnikanı hərəkətə gətirə biləcək duru yanacaq müharibəni udmağın əsas amilidir, o zaman tam aydınlığı ilə bəlli olur ki, müharibə başladığı ilk gündən etibarən qarşı-qarşıya duran tərəflərin imkanları heç də bərabər deyildir. Əksinə, biri digərini xeyli üstələyir. Müharibənin uzanması müttəfiqlər üçün son dərəcə vacib idi. Və gerçəkdən də belə fikir yaranır ki, onlar elə bunun üçün çalışırdılar. Almaniyanın onsuz da məhdud olan duru yanacaq ehtiyatı tükənəndən sonra onun hələ də kifayət qədər olan hərbi texnikası cansız bir metal yığınına döndü. Quzey Afrikada da, quzey Qafqazda da, Moskva yaxınlığında da və bir çox başqa yerlərdə də belə oldu. Lakin ən dəhşətlisi, şübhəsiz ki, Stalinqradda olmuşdu. Böyük qoşun birləşməsi olan 6-cı ordunun tam hərəkətsiz donub qaldığı vaxt. İkinci cahan savaşı onu da birmənalı sübut etdi ki, neftə çatmaq üçün də məhz neft gərəkdir. Bu xüsusda Bakı haqqında ayrıca danışmaq lazımdır. Çünki, Bakı qədər diqqət çəkən ikinci neft mənbəyi tapmaq çətindir. Maraqlı burasıdır ki, müharibənin başladığı elə ilk gündən Bakı neft rayonu nəinki almanların, həm də müttəfiq dövlətlərin son dərəcə maraq dairəsində idi. Təkcə ona görə yox ki, neft qoxusu çoxlarına bihuşedici təsir göstərirdi. Həm də ona görə ki, Bakı neft bölgəsi son dərəcə strateji nöqtə idi. Onun itirilməsi və ya qorunub saxlanması müharibənin müqəddəratında çox önəmli rol oynaya bilərdi və oynadı da. SSRİ-nin Almaniya üzərində qələbə çalmasını təmin etdi. Müharibə dövründə Sovet İttifaqı «Lend-liz» qanununa



əsasən ABŞ və Böyük Britaniyadan öncə də dediyimiz kimi, hərbi ləvazimatdan, tikinti materiallarından, paltar-parçadan tutmuş ərzağadək deməklə, saymaqla başa gəlməyəcək qədər yardım almışdı. Əlbətdə, yalnız neftdən savayı. Çünki Bakı vaxt-bivaxt, dinclik-rahatlıq bilmədən istər ön, istərsə də arxa cəbhəni duru yanacaq və sürtgü yağları ilə təmin edirdi. Müharibənin nəhəng sobasında on milyon tonlarla Bakı nefti yandırıldı. Bu səbəbdən Rusiya televiziyasının verdiyi bir informasiya son dərəcə maraqlıdır. Orada deyilirdi ki, «Lend-liz» qanununa əsasən müharibə dövründə ABŞ və Böyük Britaniya SSRİ-yə təmənnasız olaraq 113,5 milyard dollar məbləğində ərzaq yardımı göstəriblər. Bu qədər ərzaqla 10 milyonluq bir ordunu 3 il tam təmin etmək mümkündür.

Bakının əhəmiyyəti həm də ona görə müstəsnadır ki, dünyanın heç bir neft bölgəsi müharibə illərində onun qədər hərbi, siyasi, ideoloji, mənəvi və fiziki təzyiqə məruz qalmamışdır. Bir yandan real işğal olunmaq təhlükəsi, digər tərəfdən eybəcər kommunist rejiminə xas olan qəddar üsul idarənin yaratdığı qeyri-insani münasibətlər: repressiya qorxusu, acınacaqlı məişət şəraiti, mənəvi sarsıntı və bir sıra başqa amillər. Bütün bunlar Bakı neft rayonunda, eləcə də bütövlükdə Azərbaycanda mövcud olan anormal vəziyyətin yalnız bir hissəsi idi. Mədənlərdə vəziyyət xüsusilə dözülməz idi. Orada çalışan fəhlə və qulluqçuların demək olar ki, yarısı qadınlar, qalan hissəsi isə yeniyetmələr və qocalar idi. Əgər 1941-ci ildə qadın qazmaçıların sayı 13 nəfər, operatorlarınkı 325 nəfər idisə, 1943-1944-cü illərdə bu rəqəm müvafiq olaraq 270-ə və 1040 nəfərə qədər artmışdı. Dünyanın heç bir neft bölgəsindəki vəziyyət Bakıdakına bənzəmirdi. Dünyanın heç bir neft bölgəsi cəbhə xəttinə Bakı qədər yaxın olmamışdı. Hətta Yaxın və Orta Şərqin neft mənbələrinə can atan Rommelin «Afrika korpusu» belə yanacaq mənbəyindən xeyli uzaqda idi və bu mənbəyə qarşı müharibənin bütün gedişi ərzində təhlükə doğuracaq fitnə-fəsad törədə bilməmişdi. Mədənlər adi iş qaydasında sabit fəaliyyət göstərirdi. Bakının isə nəinki mədənləri, həm də hasil edilmiş duru yanacaq da açıq havada təhlükə altında idi. Məhsulun daşınması böyük çətinliklər və məhrumiyyətlər bahasına başa gəlirdi. Bu da öz növbəsində neftin saxlanmasını müşkül bir işə çevirirdi. Bakı ətrafındakı gölməçələrə, çalalara axıdılan neftin bir hissəsi itib tələf olmaqla yanaşı, ətraf mühiti də çirkləndirib yararsız hala salırdı.

Mədənlərin almanlar tərəfindən bombardman edilməsi ehtimalı ilə onların işğal edildiyi təqdirdə SSRİ rəhbərliyinin əmrinə əsasən partladılmasının mümkünlüyü uzun müddət Domokl qılıncı kimi Bakının başı üzərində asılıb qalmışdı.

Franklin Ruzveltin və Uinston Çörçillin 1942-ci ilin yayından başlayaraq Qafqaza, xüsusilə də Bakıya son dərəcə böyük diqqət yetirmələri də əbəs deyildi. Onlar yaxşı başa düşürdülər ki, əgər alman qoşunları Qafqaz müdafiəçilərinin müqavimətini qırıb, Bakı neft rayonunu ələ keçirsəydilər, onda tezliklə «A» ordular qrupunun Rommelin «Afrika korpusu» ilə nəzərdə tutulmuş birləşməsi şəksiz reallaşa bilərdi. Bu dəhşətli «kəlbətin» müttəfiq dövlətlərin bütün planlarını alt-üst edə bilərdi. Onu da qeyd edək ki, Bakı neftinin ələ keçirilməsi, İran da daxil olmaqla, Yaxın və Orta Şərqə can atan alman ordularının yanacaq problemini birdəfəlik həll etməklə bərabər, həm də Rommelin əl-qol açmasına geniş şərait yaradardı. Çünki Quzey Afrikada almanlara qarşı ağır döyüşlər aparan Böyük Britaniya iki cəbhədə vuruşmaq təhlükəsi ilə üzləşə bilərdi. Odur ki, Stalinin yalvarışa bənzəyən təkrar xahişlərini müsbət cavablandırmaqla yanaşı, qərb dövlətlərinin liderlərinin özləri də bir sıra təşəbbüslərdə bulunmaqla Quzey Qafqazdakı hərbi vəziyyəti sabitləşdirmək üçün əllərindən gələn hər şeyi etməyə başladılar. «Lend-liz» üzrə cənub yolu ilə yükdaşımaların təşkil edilməsi də əsasən elə bu məqsədə xidmət edirdi.

Nəhayət müharibə başa çatdı. Onun səbəbləri və nəticələri ətraflı tədqiq və təhlil edildi. Bir çox sualların cavabı tapıldısa da, yəqin ki, cavabsız qalan mətləblər də az olmadı. Hadisələrə qiymət verərkən obyektivlik nə dərəcədə oldusa, subyektivlik də çox güman ki, bir o qədər oldu. Lakin belə bir mühüm amil əsla şübhə doğurmur: duru yanacaq müharibənin müqəddəratında həlledici rol oynadı. Axı, İkinci cahan savaşı mühərriklər müharibəsi idi. Burada qələbəni yalnız yüksək mütəhərriklik, çeviklik və sürətli manevr etmək qabiliyyəti təmin edirdi – yerdə də, göydə də, dənizdə də. Taktika da, strategiya da elə bunun üzərində qurulurdu. Duru yanacaqsız bütün bunlar mümkün deyildi. Qara neft kimdə idisə, qələbə də onun tərəfində idi. Elə ona görə də nə qədər qəribə görünsə də, müharibənin müqqədəratı lap əvvəldən məlum idi. Lakin bunu çoxları görə bilmədi. Təbii ki, heç görə də bilməzdi. Çünki bəşər tarixi boyu baş vermiş saysız-hesabsız müharibələrdən fərqli olaraq, dünya savaşları tarixi o qədər də zəngin deyildi. Deməli, dərin təhlillər, elmi araşdırmalar da şübhəsiz ki, yetərincə olmamışdı.

İkinci cahan savaşından sonra neft uğrunda mübarizə xüsusilə şiddətləndi. Çünki ötən müharibə duru yanacağın tarixi yerini də, əhəmiyyətini də birmənalı olaraq müəyyənləşdirdi. Bu mübarizənin olacağını, əlbəttə, əvvəlcədən proqnozlaşdırmaq olardı. Ötən müharibənin verdiyi ibrət dərsləri çətin ki, unudulsun.



İstər əhatə dairəsinə, istərsə də həmin mübarizəyə bu və ya digər şəkildə qoşulmuş irili-xırdalı ölkələrin sayına görə bu mübarizəni neft uğrunda savaş kimi də qiymətləndirmək olar. Lakin bu müharibənin bənzər cəhətləri olduğu kimi, ümdə fərqli cəhətləri də mövcuddur. Əsas bənzər cəhəti odur ki, əvvəldə olduğu kimi, ümdə cazibə qüvvəsi yenə də Bakı nefti ilə Yaxın və Orta Şərq neftidir. Bütün beynəlxalq çəkişmə və intriqaların əsas hədəfi məhz bu bölgələrdir.

Fərqli cəhəti isə ondan ibarətdir ki, müharibənin forma və üsulları dəyişib. Mahiyyət isə eynidir. Geniş miqyaslı müharibəni daha mötəbər örtülü üsullar əvəz edib: lokal müharibələr, terror əməliyyatları, siyasi, iqtisadi, hərbi təzyiqlər, super dövlət amili, hərbi çevrilişlər, maraq dairələri strategiyası və s. və i.a.

Təəssüflər olsun ki, ədalət, beynəlxalq hüquq prinsipləri, mənəvi dəyərlər və adi əxlaq normaları heç də hər yerdə və hər zaman nəzərə alınmır. Hər şey gücə söykənir: siyasi, iqtisadi və hərbi gücə.

Təəssüf doğuran mühüm cəhət ondan ibarətdir ki, neft heç də hər zaman öz torpağında illər boyu onu hasil edən, onun min bir əziyyətinə qatlaşan xalqların, məmləkətlərin dirçəlişinə, çiçəklənməsinə, dünyanın sivil və demokratik ölkələri sırasına çıxmasına kömək etmir. Əksinə, yoxsulluğun, rəzalətin, müxtəlif şəkildə eybəcər diktaturaların bərqərar olmasına, daxildən və xaricdən qaynaqlanan qarşıdurmaların, müxtəlif avantüraların, süni şəkildə törədilən etnik, dini, irqi münaqişələrin girdabına sürüklənməsinə xidmət edir. Halbuki hələ 1923-cü ildə özünün «Neft trestləri və ingilis-amerikan münasibətləri» kitabında Nikolas Deyvenport yazırdı: «Dünyanın neft sərvətləri nə zaman bəşəriyyətin sərvəti kimi qiymətləndiriləcəkdir? Özü də bəşəriyyətin əmin-amanlığı naminə işlənməlidir, belə ki, yataqların istismarından əldə edilən ilk gəlir vergisi torpağının altında neft olan ərazilərdə yaşayan geridə qalmış xalqlar üçün nəzərdə tutulmuş olsun. Belə adi suallar indiki vaxtda şübhəsiz ki, səriştəli siyasətbazların gülüşünə səbəb olacaqdır»[7].

Bunlar 1923-cü ildə yazılmasına baxmayaraq, iyirmi birinci yüzillikdə də təxminən eyni aktuallıqla səslənir.

# SUMMARY

The history of mankind is rich in wars. However the XX century opened a new milestone in the history of wars: the period of world wars.

Millions of people died, thousands of cities, towns and villages were turned into ruins during World War I, and World War II was the most cruel war in history.

Many peoples of countries of the world regardless of religion, race and sex suffered incredible physical and moral losses.

A huge amount of physical and cultural property was destroyed.

This war was directed against mankind by its scale, coverage as well as by its cruelty, and was called criminal.

It's a pity that miracle-working oil, sent to people by God, became the leading and key purpose of the war, and resulted in such tragic consequences.

When working on this book, I considered that oil shouldn't become the cause of war between peoples and countries, violence against mankind, military and political confrontation, and destruction of material and moral values. On the contrary, it must promote safety in each place on our planet, happy future for people, and serve to promote further development of world civilization.

When analyzing the history of World War II, I came to the conclusion that oil is not destructive, but creative power. And it must serve this purpose.

The bright future of our planet requires this.

However, the struggle for oil after World War II became more violent because that war made clear the strategic importance of liquid fuel. Certainly this struggle may have been forecast beforehand.

This struggle may be described as the war for oil, by its coverage and participation of a number of large and small countries.



No wonder that Baku oil and the oil in the Near East became of major importance again.

Many international disputes and intrigues are directly connected with these regions. The forms and methods of the war changed but the essence remains the same.

Large-scale war was replaced by more subtle conflicts: local wars, acts of terrorism, political, economical and military threats, superpower, interference revolutions, and so on.

Unfortunately, justice, principles of international law, moral values and even elementary norms of behavior were not always respected.

Oil extracted by peoples on their lands did not always stimulate the prosperity of that country, and didn't promote the joining of such country into the group of civil and democratic countries.

On the contrary, such countries turned into social outcasts. Poverty and corruption prospered and dictatorial, authoritarian regime dominated conflicts roused by internal and foreign powers, as well as ethnic and religious disputes.

As early as in 1923 Nicolas Davenport asked in his book "Oil trusts and Anglo-American relations": "When will oil resources of the world be considered as mankind's property, and when will they be used for the welfare of the people so that the first tax on the profit from oilfield's exploitation world provide for backward people, living on the territory where the oil is?

Such elementary questions undoubtedly will cause laughter amongst experienced politicians".

Though it was written in 1923 this is relevant to the XXI century, too.

The edifying lessons of the World War II should not be forgotten.

One of these lessons is the fact that the owner of the oil, became the winner in the end.

The anti-Hitler coalition of the USA, Great Britain and USSR were the owners of unlimited reserves of liquid fuel, however, Germany, Italy and Japan didn't have substantial reserves.

The fact that fuel played the key role in the result of the war was not surprising.

Unfortunately, the post-war oil strategy of the leading states of the world continves to be based on this factor.

Immoral as it may be, control over the world's oil remains the main objective of the XXI century.

And this in its turn can place mankind in the face of catastrophe because an action usually causes a reaction.

# РЕЗЮМЕ

История человечества богата войнами.

Но XX век открыл новую веху в истории войн: период мировых войн.

В первой, и особенно во второй мировой войне, оказавшейся самой жестокой в истории, погибли миллионы людей, тысячи городов, поселков, деревень превратились в руины.

Народы десятков стран мира, независимо от их вероисповедания, расы, пола подверглись неимоверным физическим и моральным страданиям. Наряду с этим были уничтожены бесчисленное количество материальных и культурных ценностей.

Эта война по своему масштабу, охвату стран и народов, а также по своей жестокости в полном смысле этого слова была направлена против человечества и, по праву, называется преступной.

Жаль, что данная Всевышним человечеству столь чудотворная сила – нефть явилась ведущей и решающей целью войны за её обладание и обернулась столь трагичными последствиями.

Работая над книгой, автор еще раз убедился в том, что нефть не должна стать первопричиной войн между народами и странами, насилия против человечества, военного и политического противостояния, уничтожения материальных и моральных ценностей, напротив, она должна способствовать безопасности в каждом уголке нашей планеты счастливому будущему людей, служить еще большему развитию мировой цивилизации.

Исследуя и анализируя историю второй мировой войны, в основе которой по большому счету была борьба за нефть, автор при-



шел к выводу, что нефть в своей сущности является не разрушающей, а созидательной силой. Она должна служить этой цели. И мирное будущее нашей планеты требует этого.

Однако после второй мировой войны борьба за нефть еще более ожесточилась. Война однозначно прояснила незаменимую историческую миссию жидкого горючего. Конечно же, эту схватку за нефть можно было прогнозировать заранее. По своему масштабу и вовлечению в эту борьбу больших и малых стран эту схватку можно оценить как войну за нефть. Неудивительно, что притягательной силой, как и раньше, стали нефтеносные районы Азербайджана и Ближнего Востока. Все международные споры и интриги связаны непосредственно с этими регионами. Попросту изменились формы и методы войны. Суть же остается прежней. Широкомасштабная война заменена более изощренными тайными методами: локальные войны, террористические акты, политические, экономические, военные угрозы, фактор сверхдержавы, военные перевороты и т.д.

К сожалению, справедливость, принципы международного права, моральные ценности и, наконец, элементарные нормы поведения не везде и не всегда принимаются во внимание.

Удручает и тот факт, что нефть, добываемая народами на своей земле столетиями, не всегда стимулирует процветанию этого края, не способствует вхождению страны в систему цивилизованных и демократических стран. Наоборот, эта страна становится изгоем, где разгораются противоречия, подогреваемые внутренними и зарубежными силами, где искусственно разгораются этнические, религиозные противостояния.

Еще в 1923 году Николас Дейвенпорт в своей книге «Нефтяные тресты и англо-американские отношения» спрашивал: «Когда же нефтяные богатства мира будут рассматриваться как достояние человечества, которые должны разрабатываться на благо человечества с тем, чтобы первый налог – на доходы от эксплуатации месторождений – предназначался для отсталых народов, живущих на территории, в недрах которой залегает нефть? Такие элементарные вопросы в настоящее время, несомненно, вызовут смех у искушенных политиканов».

Хотя это и написано в 1923 году, но эти слова вполне созвучны и сегодня в XXI столетии.

Назидательные уроки второй мировой войны, вряд ли будут забыты. Одним из уроков войны явилось то, что кто являлся обладателем нефти, тот в конечном итоге стал победителем.

Если страны, входившие в антигитлеровскую коалицию – США, Великобритания и СССР обладали неограниченными резервами жидкого горючего, наоборот страны оси – Германия, Италия и Япония были лишены этой возможности.

А то, что решающую роль в исходе войны сыграло горючее, давно уже ни у кого не вызывает сомнений. К сожалению, послевоенная нефтяная стратегия ведущих держав мира основывается именно на этом факторе.

Идеология гегемонии над мировой нефтью, какой бы безнравственной она ни была, так и остается основной целью XXI-го столетия. Это в свою очередь может поставить человечество перед катастрофой. Ибо действие обычно вызывает противодействие.



# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## GİRİŞ


1. Nazim Rza İsrafiloğlu. Odlu məmləkət, Bakı, 2002, s. 63.
2. Yenə orada, s. 88.
3. Сталин И. О Великой Отечественной войне Советского Союза, Москва, 1950, с. 22.
4. Типпельскирх К. История второй мировой войны. Москва, 1956, с. 229.
5. Вельтц Г. Солдаты которых предали, Москва, 1965; Дёрр Г. Поход на Сталинград, Москва, 1957; Типпельскирх К., История второй мировой войны, Москва, 1956; Вильгельм Адам. Трудное решение, Москва, 1972; Фуллер Дж. Вторая мировая война (1939-1945). Стратегический и тактический обзор, Москва, 1956; Верт А., Россия в войне - 1941-1945, Москва, 1967.
6. Сталин И. Göstərilən əsər, s. 22-23.
7. Маршал Жуков Г. Воспоминания и размышления, т. II, Москва, 1983, с. 69.
8. Гречко А. Битва за Кавказ, Москва, 1969, с. 7.
9. Цейтцлер К. Роковые решения, Москва, 1958, с. 153.
10. Тюленев И. Через три войны, Москва, 1972, с. 185.
11. Mədətov Q. Azərbaycan Böyük Vətən müharibəsi illərində, Bakı, 1965; Аббасов М. Баку в годы Великой Отечественной войны, Баку, 1967.
12. История Азербайджана, т. II, Баку, 1954.


## I FƏSİL
## SAVAŞDAN SAVAŞA


1. Фуллер Дж. Göstərilən əsər, s. 30.
2. Nitti F.S. Peaceless Europe, 1922, p. 114.
3. «Blue Book», Cmd. 6106, 1939, p. 162.

4. Кейнс Джон Мейнард. Экономические последствия Версальского мирного договора, Москва, 1922, с. 5.
5. Yenə orada, s. 6.
6. V.İ.Leninin əsərləri məcmuəsi. Bakı, 1981, s. 366.
7. Кейнс Дж. Göstərilən əsər, s. 16.
8. «Hansard», vol. 113, H. Of C., Deb. 55, Col. 84.
9. V.İ.Lenin. Əsərləri külliyyatı. V nəşr, cild 42, s. 73-74.
10. Фуллер Дж. Göstərilən əsər, s. 31.
11. Никольсон Г. Как делался мир в 1919 г., Москва, 1945, с. 53.
12. Nitti F.S. Peacelless Europe, 1922, p. 92-93.
13. Фуллер Дж. Göstərilən əsər, s. 35.
14. Yenə orada.
15. Yenə orada.


## II FƏSİL
## ALMANİYANIN İKİNCİ CAHAN SAVAŞINA YUVARLANMASI VƏ SSRİ-nin BUNA MÜNASİBƏTİ


1. Воспоминание Гинденбурга. Петроград, 1922, с. 104.
2. Yenə orada.
3. Совершенно секретно! Только для командования! Документы и материалы, Москва, 1967, с. 49.
4. Yenə orada.
5. Yenə orada, s. 50.
6. Yenə orada, s. 51.
7. Yenə orada, s. 52.
8. Statistisches Jahrbuch für das Deutsche Reich, 58. Jg. 1939/40, Berlin 1940, s. 165 f.f. / Германский империализм и вторая мировая война. Москва, 1963, с. 516.
9. Германский империализм и вторая мировая война, Москва, 1963, с. 524.
10. Yenə orada, s. 525.
11. Statistisches Jahrbuch für das Deutsche Reich, 58. Jg. 1939/40, Berlin. s. 165 f.f. / Германский империализм и вторая мировая война, с. 526.
12. Маршал Жуков Г. Göstərilən əsər, I cild, s. 276.
13. Типпельскирх К. Göstərilən əsər, s. 38.
14. K.Ludecke, I Knew Hitler, New York, 1938, p. 468. /Деборин Г., Вторая мировая война, Москва, 1958, с. 10.
15. Нюрнбергский процесс. Сборник материалов, Москва, 1955. Издание 3-е, т. II, с. 285.





16. Richard W. Van Alstyne, American Diplomacy In Action, Stanford University Press, California, 1944, p. 379. / Деборин Г. Göstərilən əsər, s. 9.
17. Типпельскирх К. Göstərilən əsər, s. 105.
18. Yenə orada.
19. A.Hitler. Main Kampf. 1939, s. 127-128. / Деборин Г. Göstərilən əsər, s. 9-10.
20. Верт Александр. Göstərilən əsər, s. 63. / Alexander Werth. RUSSIA AT WAR – 1941-1945/
21. Типпельскирх Курт. Göstərilən əsər, s. 8-9.
22. Yenə orada, s. 10.
23. Yenə orada, s. 38.


## III FƏSİL
## ALMANİYANIN QƏRB VƏ YAXIN ŞƏRQ ƏMƏLİYYATLARI


1. П.Дарабади. Бомбовый удар по Баку, «Зеркало» - «Ayna» qəz. №24, 21 iyun 1997-ci il.
2. Charles de Gaulle, Memoires de guerre. L'Appel, 1940-1942, Paris, 1954, p. 26.
3. Darabadi P. Göstərilən əsər.
4. Gamelin, Servir, Paris, 1946, v. III, p. 199-200.
5. Darabadi P. Göstərilən əsər.
6. Меркс Ф. Черная кровь, Москва, 1978, с. 124.
7. Людендорф Э. Мои воспоминания о войне 1914-1918 г., Москва, 1924, с. 219-220.
8. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 76.
9. «Петролэум фэктс энд фигерс», издание 9-е; О'Коннор Х. Империя нефти, Москва, 1958, с. 363.
10. «National Petroleum News», November 15, 1950; Arabian American Oil Company, Arabian Oil and the World Shortage, N. D., p. 16.
11. Меркс Ф. Göstərilən əsər, s. 40.
12. Фуллер Дж. Göstərilən əsər, s. 123.
13. Деборин Г. Göstərilən əsər, s. 153.
14. Сталинград: Уроки истории. Свидетельствуют участники битвы на Волге, Москва, 1976, с. 12.
15. Yenə orada.

## IV FƏSİL
## SOVET-ALMAN SAVAŞI ƏRƏFƏSİNDƏ

1. Фуллер Дж. Göstərilən əsər, s. 78-79.
2. «Hansard», vol. 359, H. Of C., Deb. 5 s., col. 359.
3. Меркс Ф. Göstərilən əsər, s. 124.
4. Yenə orada.
5. Типпельскирх К. Göstərilən əsər, s. 105.
6. Yenə orada, s. 106.
7. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 143.
8. Yenə orada, s. 130.
9. Типпельскирх К. Göstərilən əsər, s. 106.
10. Yenə orada, s. 106.
11. Типпельскирх К. Göstərilən əsər, s. 118.
12. Yenə orada, s. 119.
13. Фуллер Дж. Göstərilən əsər, s. 127.
14. Типпельскирх К. Göstərilən əsər, s. 119.
15. Yenə orada, s. 135.
16. Yenə orada, s. 118.
17. Yenə orada.
18. Yenə orada, s. 119
19. Halder – KTB Kriegstagebuch. Bd. III, s. 39.
20. KTB OKW. Kriegstagebuch. Bd. I, s. 1038-1040.
21. «Hansard», vol. 357, H. Of C. Deb. 5 s., col. 924.
22. Spaight J.M., Bombing Vindicated, 1944, p. 68, 74.
23. Фуллер Дж. Göstərilən əsər, s. 293.
24. Yenə orada.
25. Германский империализм и вторая мировая война, с. 64. / Spanish Government and the Axis, письмо Франко Гитлеру от 21 февраля 1941 г.
26. Германский империализм и вторая мировая война, с. 64.
27. Yenə orada.
28. Фуллер Дж. Göstərilən əsər, s. 153.
29. Типпельскирх К. Göstərilən əsər, s. 156.
30. Маршал Жуков Г. Göstərilən əsər, t. I, s. 290.
31. «Defeat in the West», p. 60-61. / Фуллер Дж. Göstərilən əsər, s. 155.
32. Fredborg A. Behind the Steel Wall, p. 32. / Фуллер Дж. Göstərilən əsər, s. 155.
33. Graves P. The Seventh Quarter, p. 126. / Фуллер Дж. Göstərilən əsər. s. 155.
34. «Our Armoured Forces», p. 246. / Фуллер Дж. Göstərilən əsər, s. 155.



## V FƏSİL
## ALMANİYANIN ALİ BAŞ KOMANDANLIĞINDA İKİTİRƏLİK

1. Ludwell Denny, We Fight for Oil Knopf, 1928, p. 16-17.
2. О'Коннор Х. Göstərilən əsər, s. 366.
3. Меркс Ф. Göstərilən əsər, s. 127.
4. Yenə orada, s. 127.
5. Фуллер Дж. Göstərilən əsər, s. 156.
6. Yenə orada.
7. Yenə orada.
8. Yenə orada, s. 156-157.
9. Гречко А. Göstərilən əsər, s. 22.
10. Военно-исторический журнал. 1959 г. №2, с. 67.
11. Фуллер Дж. Göstərilən əsər, s. 157.
12. Yenə orada.
13. Yenə orada.
14. Yenə orada.
15. Yenə orada.
16. Султанов Ч. Прерванный полет. Вторая попытка, Баку, 1997 г. с. 111.
17. Типпельскирх К. Göstərilən əsər, s. 191.
18. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 284.
19. Yenə orada, s. 285.
20. Yenə orada, s. 286.
21. «Военно-исторический журнал», 1959, №12, с. 77-78.
22. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 317.
23. Halder – KTB Kriegstagebuch. Bd. III, s. 39.
24. Военно-исторический журнал. 1962 г., №11, с. 90.
25. Фуллер Дж. Göstərilən əsər, s. 167.
26. Блюментрит Г. Роковые решения, Москва, 1958, с. 75.
27. The Goebbels Diaries. London, 1948, p. 92.
28. Еременко А. Сталинград, Москва, 1961, с. 40.
29. Yenə orada, s. 40.

## VI FƏSİL
## ANTİHİTLER KOALİSİYASI VƏ İRAN

1. Верт А. Göstərilən əsər, s. 106.
2. Yenə orada, s. 107.

3. Переписка Председателя Совета Министров СССР с президентом США и премьер министром Великобритании во время Великой Отечественной войны 1941-1945 гг., Москва, 1989, том 1, док. №10, с. 29.
4. Yenə orada, док. №11, с. 29.
5. Yenə orada, s. 30.
6. Həsənli C. Güney Azərbaycan: Tehran – Bakı – Moskva arasında (1939-1945), Bakı, 1998, s. 36.
7. Sultanov Ç. Göstərilən əsər, s. 111.
8. Həsənli C. Göstərilən əsər, s. 36.
9. Yenə orada, s. 37.
10. Yenə orada.
11. Azərbaycan Respublikası, MDA, f. 28, s. 4, iş. 2, v. 135.
12. Həsənli C. Göstərilən əsər, s. 40.
13. Yenə orada, s. 41.
14. Yenə orada.
15. Переписка, док. №9, с. 26.
16. Переписка, док. №10, с. 28.
17. Yenə orada, dok. №9, s. 27.
18. Переписка, комментарий №10 к док. №9, с. 439.
19. Переписка, док. №12, с. 31-32.
20. Переписка, с. 32.
21. Yenə orada, dok. №13, s. 33.
22. Yenə orada.
23. Yenə orada, s. 33-34.
24. Yenə orada, dok. №14, s. 35.
25. Yenə orada, dok. №16, s. 38.
26. Yenə orada, dok. №21, s. 43-44.
27. Yenə orada, s. 44.
28. Yenə orada, dok. №9, s. 26-27.
29. Yenə orada, dok. №11, s. 30.
30. Yenə orada, dok. №13, s. 33.
31. Yenə orada, dok. №15, s. 36-37.
32. Yenə orada, s. 37.
33. Yenə orada, dok. №18, s. 39.
34. Yenə orada, dok. №10, s. 29.
35. Yenə orada.
36. Yenə orada, dok. №11, s. 31.
37. KTB OKW. Kriegstagebuch. Bd. II, Hb. I, s. 5.



## VII FƏSİL
## 1942-ci ildə İKİ SAVAŞ SƏHNƏSİ: QAFQAZ VƏ QUZEY AFRİKA

1. Государственный Архив Российской Федерации, f. 7445, s. 1, iş. 1666, v. 187-188.
2. Yenə orada.
3. Государственный Архив Российской Федерации, f. 7021, s. 148, iş. 226, v. 1-15.
4. Государственный Архив Российской Федерации, f. 7445, s. 1, iş. 1666, v. 122.
5. Yenə orada.
6. Yenə orada.
7. Yenə orada, s. 2, iş. 99.
8. Гречко А. Göstərilən əsər, s. 241.
9. Леонтьев А. Зеленая папка Геринга, Москва, 1942, с. 19.
10. Yenə orada, s. 18-19.
11. Архив отдела истории Великой Отечественной войны ИМЛ при ЦК КПСС, инв. №5337, с. 17.
12. Yenə orada, s. 18-19.
13. Германский империализм и вторая мировая война, с. 29.
14. Государственный Архив Российской Федерации, f. 7445, s. 1, iş. 1711, v. 3.
15. Леонтьев А. Göstərilən əsər, с. 19.
16. Yenə orada, s. 20.
17. Yenə orada, s. 11.
18. Yenə orada, s. 10.
19. W.Warlimont. Op. cit., s. 242.
20. Сталин И. Göstərilən əsər, s. 16-17.
21. Yenə orada.
22. Yenə orada, s. 17.
23. Yenə orada, s. 19.
24. Еременко. А. Göstərilən əsər, s. 39-40.
25. Роковые решения. Сталинградская битва, Москва, 1956, с. 153.
26. Yenə orada.
27. Halder – KTB Kriegstagebuch. Bd. III, s. 420-421.
28. Вельц Г. Göstərilən əsər, s. 335-336.
29. Дёрр Г. Поход на Сталинград, Москва, 1957, с. 18.
30. Yenə orada, s. 28.
31. Сталинград: урок истории, Москва, 1976, с. 271-272.
32. Адам В. Göstərilən əsər, s. 45.
33. Yenə orada.
34. Фуллер Дж. Göstərilən əsər, s. 238.

35. Yenə orada.
36. Yenə orada, s. 239.
37. «Ciano's Diary», p. 462.
38. The Times, 16 th. April, 1942.
39. Фуллер Дж. Göstərilən əsər, s. 240.
40. Yenə orada.
41. Yenə orada.
42. Маршал Жуков Г. Göstərilən əsər, s. 259-260.
43. Гречко А. Göstərilən əsər, s. 51.

## VIII FƏSİL
## SOVET-ALMAN CƏBHƏSİNDƏ ƏSAS HADİSƏLƏR: QAFQAZDA VƏ STALİNQRADDA

1. Hitlers Weisungen..., s. 194-196. // Совершенно секретно! Только для командования! Документы и материалы, Москва, 1967, с. 285.
2. Вельц Гельмут. Göstərilən əsər, s. 240-242.
3. Гречко А. Göstərilən əsər, s. 52.
4. Великая Отечественная война Советского Союза. 1941-1945 г.г., Краткая история, Москва, 1965, с. 166.
5. Halder – KTB Kriegstagebuch. Bd. III, s. 489.
6. Yenə orada.
7. Yenə orada, Bd. III, s. 493.
8. Еременко А. Göstərilən əsər, s. 43.
9. Типпельскирх К. Göstərilən əsər, s. 236.
10. Fredborg A., Behind the Steel Wall, p. 120.
11. Переписка, том 1, док. №56, с. 66.
12. W.Churchill. The Second World War. vol. IV. p. 428.
13. Переписка, том 1, док. №65, с. 73.
14. Yenə orada.
15. Yenə orada, dok. №66, s. 73.
16. Роковые решения, Москва, 1958, с. 154.
17. Гречко А. Göstərilən əsər, 1969, s. 85.
18. Yenə orada.
19. Типпельскирх К. Göstərilən əsər, s. 236.
20. Германская политика в Турции (1941-1943 г.г.) Документы министерства иностранных дел Германии, Выпуск II, Москва. 1946 г. с. 98.
21. Гречко А. Göstərilən əsər, s. 88.
22. Yenə orada, s. 88-89.
23. Архив МО Российской Федерации, f. 6598, s. 725168, iş. 1176, v. 4.



24. Тюленев И.В. Göstərilən əsər, s. 164.
25. Типпельскирх К. Göstərilən əsər, s. 255.
26. Верт А. Göstərilən əsər, s. 338.
27. Yenə orada.
28. W.Churchill, op. cit, vol. IV, pp. 425-428.
29. Верт А. Göstərilən əsər, s. 345.
30. Типпельскирх К. Göstərilən əsər, 1972, s. 225.
31. Yenə orada.
32. Yenə orada.
33. Тюленев И. Göstərilən əsər, s. 182.

## IX FƏSİL
## YANACAQ QITLIĞI

1. Типпельскирх К. Göstərilən əsər, s. 236-237.
2. Fredborg A., Behind the Steel Wall, p. 125.
3. Фуллер Дж. Göstərilən əsər, s. 245-246.
4. Sunday Dispatch, 15 th September 1946.
5. Yenə orada.
6. Фуллер Дж. Göstərilən əsər, s. 244.
7. Деборин Г.А. Göstərilən əsər, s. 205.
8. Дёрр Г. Поход на Сталинград. Göstərilən əsər, Moskva, 1957, s. 31.
9. Yenə orada.
10. Yenə orada.
11. Yenə orada.
12. Yenə orada.
13. Yenə orada.
14. Гречко А. Göstərilən əsər, s. 98.
15. Yenə orada, s. 120.
16. Yenə orada.
17. Yenə orada.
18. Верт А. Göstərilən əsər, s. 291.
19. Роковые решения, с. 156.
20. Yenə orada, s. 157.
21. Верт А. Göstərilən əsər, s. 410.
22. Немецко-фашистский оккупационный режим. Москва, 1965, с. 127.
23. Yenə orada.
24. Верт А. Göstərilən əsər, s. 418.
25. Yenə orada.
26. A.Dallin, German Rule in Russia, London, 1947, p. 251.
27. Верт А. Göstərilən əsər, s. 419.
28. Yenə orada, s. 348.

## X FƏSİL
## «VELVET» ƏMƏLİYYATI


1. Гречко А. Göstərilən əsər, s. 96.
2. W.Churchill. The Second World War, vol. IV, p. 507.
3. Переписка, том. I, док. №70, с. 78.
4. Гречко А. Göstərilən əsər, s. 98.
5. W.Churchill. The Second World War, vol. IV, p. 515.
6. Переписка, том. I, док. №74, с. 82.
7. W.Churchill. The Second World War, vol. IV, p. 516.
8. Переписка, том. I, док. №74, с. 82.
9. Верт А. Göstərilən əsər, s. 349.
10. Переписка, том. II, док. №42, с. 31.
11. Yenə orada, I, dok. №77, s. 84-85.
12. Yenə orada, II, dok. №43, s. 32.
13. Деборин А. Göstərilən əsər, s. 202.
14. Yenə orada, s. 203.
15. Yenə orada, s. 204.
16. Yenə orada.
17. Переписка, том. I, док. №80, с. 87.
18. Yenə orada, dok. №81, s. 88.
19. Yenə orada, dok. №85, s. 89-91.
20. Yenə orada, dok. №86, s. 91.
21. Yenə orada, II, dok. №59, s. 40.
22. Yenə orada, dok. №60, s. 41.
23. Yenə orada, dok. №61, s. 41.
24. Yenə orada, dok. №88, s. 93.


## XI FƏSİL
## BAKI – SAVAŞIN TALEYİ HƏLL OLUNAN ŞƏHƏR


1. Гречко А. Göstərilən əsər, s. 104.
2. Архив МО Российской Федерации, f. 209, s. 1060, iş. 1, s. 88-90.
3. Гречко А. Göstərilən əsər. s. 104.
4. Архив МО Российской Федерации, f. 224, s. 360, iş. 11, s. 152-154.
5. Гречко А. Göstərilən əsər. s. 70.
6. Архив МО Российской Федерации, f. 224, s. 360, iş. 11, s. 152-154.
7. Байбаков Н. «Дело жизни», Москва, 1984, с. 108-109.
8. Yenə orada, s. 113.
9. Yenə orada.
10. Yenə orada.





11. История Азербайджана, том II, с. 430.
12. Yenə orada.
13. «Səhər» qəzeti, 2 sentyabr 1990-cı il.
14. История Азербайджана, том II, с. 442.
15. Байбаков Н. Göstərilən əsər, s. 67.
16. Yenə orada.
17. Yenə orada, s. 68.
18. Yenə orada, s. 114.
19. Yenə orada.
20. Yenə orada, s. 116.
21. Переписка, том I, док. №83, с. 89.
22. Yenə orada, dok. №84, s. 89.
23. Байбаков. Göstərilən əsər, s. 120.
24. Переписка, том I, док. №75, с. 83.
25. Yenə orada, tom II, dok. №41, s. 30.
26. Yenə orada.
27. Yenə orada.
28. Yenə orada, dok №43, s. 31-32.
29. Яковлев А. Цель жизни. Москва, 1970, с. 325.
30. Yenə orada, s. 333-334.
31. Yenə orada, s. 347.
32. Yenə orada, s. 348.
33. История Азербайджана, том II, с. 440.
34. Yenə orada, s. 442.
35. Yenə orada, s. 432.
36. Yenə orada, s. 443.


## XII FƏSİL
## QUZEY AFRİKADA HƏRBİ KAMPANİYALAR


1. «Correspondanse de Napoleon», vol. XVII, №14343.
2. Фуллер Дж. Göstərilən əsər, s. 122.
3. Cooper R.W. The Nuremberg Trial, p. 59.
4. «Defeat in West», p. 55-58. / «Ciano's Diary», 1939-1945, Eng. Ed., 1947, p. 286.
5. Yenə orada, s. 65.
6. «Ciano's Diary», 1939-1945, Eng. Ed., 1947, p. 360, 559.
7. Фуллер Дж. Göstərilən əsər, s. 121.
8. Yenə orada, s. 122.
9. Yenə orada, s. 123.
10. Yenə orada.
11. Yenə orada.
12. Yenə orada, s. 132.

13. Yenə orada.
14. Yenə orada, s. 123.
15. Yenə orada, s. 147.
16. Yenə orada.
17. Yenə orada.
18. Yenə orada, s. 148.
19. Типпельскирх К. Göstərilən əsər, s. 126.
20. Yenə orada, s. 135.
21. Yenə orada, s. 157.
22. Yenə orada.
23. Фуллер Дж. Göstərilən əsər, s. 207.
24. Stitt G., The Mediterranean and Sea Power, The New Englich Review, August 1946, p. 144.
25. Фуллер Дж. Göstərilən əsər, s. 207.
26. Yenə orada, s. 207-208.
27. Типпельскирх К. Göstərilən əsər, s. 222.
28. Yenə orada.
29. Фуллер Дж. Göstərilən əsər, s. 216.
30. Yenə orada.
31. Yenə orada, s. 216-217.
32. Yenə orada, s. 217.
33. Stitt G., The Mediterranean and Sea Power, The New Englich Review, August 1946, p. 144.
34. Фуллер Дж. Göstərilən əsər, s. 219.
35. Drummond P.R.M., The Air Compaign in Libia and Tripolitania, Journal of the Royal United Service Institution, Nowember 1943, p. 260.
36. Фуллер Дж. Göstərilən əsər, s. 222.
37. «Ciano's Diary», p. 483.
38. «The Observer», London, 8 June, 1947.
39. Типпельскирх К. Göstərilən əsər, s. 243.
40. Yenə orada.
41. Фуллер Дж. Göstərilən əsər, 1956, s. 231.
42. Типпельскирх К. Göstərilən əsər, s. 246.
43. Yenə orada.
44. Yenə orada.
45. Clifford A., Three Against Rommel, p. 225.
46. Типпельскирх К. Göstərilən əsər, s. 131.
47. Graves P., The Eleventh Quarter, p. 103.
48. Типпельскирх К. Göstərilən əsər, s. 246.
49. Yenə orada, s. 247.
50. Фуллер Дж. Göstərilən əsər, s. 231.



## XIII FƏSİL
## «LEND-LİZ» - MÜTTƏFİQLƏRİN STRATEJİ YARDIMI

1. Верт А. Göstərilən əsər, s. 335.
2. Переписка, том I, док. №56, с. 65.
3. Yenə orada, s. 63.
4. Переписка, том II, док. №26, с. 22.
5. Yenə orada, dok. №27, s. 22.
6. Переписка, том I, док. №55, с. 63.
7. Переписка, том II, док. №29, с. 23.
8. Корольков И. Как подготовлялся план Барбаросса, «Военная мысль», №8, 1946, с. 53.
9. Переписка, том I, док. №56, с. 66.
10. Yenə orada, dok. №77, s. 85.
11. Верт А. Göstərilən əsər, s. 451.
12. Yenə orada.
13. Маршал Жуков Г. Göstərilən əsər, s. 328.
14. Yenə orada, s. 327.
15. Верт А. Göstərilən əsər, s. 452.
16. John R. Deane. The Strange Alliance, London, 1947, pp. 93-95.
17. Yenə orada.
18. Верт А. Göstərilən əsər, s. 452.
19. Yenə orada, s. 452-453.
20. Yenə orada, s. 421.

## XIV FƏSİL
## CƏNUB İSTİQAMƏTİNDƏ YENİ HÜCUM TƏŞƏBBÜSÜ

1. Архив МО Российской Федерации, f. 6598, s. 725168, iş. 1176, s. 63.
2. Архив МО Российской Федерации, f. 6598, s. 725167, iş. 806, s. 6.
3. Yenə orada, s. 200.
4. Гречко А. Göstərilən əsər, s. 123.
5. Yenə orada, s. 124.
6. Yenə orada, s. 128.
7. Yenə orada.
8. Тюленев И. Göstərilən əsər, s. 185.
9. KTB OKW. Kriegstagebuch. Bd. II, Hb. II, s. 1301-1304.
10. «Военно-исторический журнал», 1961, №1, с. 40.
11. Архив МО Российской Федерации, f. 209, s. 1060, iş. 7, s. 210-211.
12. Гречко А. Göstərilən əsər, s. 185.
13. Тюленев И. Göstərilən əsər, s. 211.

14. Архив МО Российской Федерации, f. 6598, s. 725109, iş. 78, s. 41.
15. Гречко А. Göstərilən əsər, s. 213.
16. Yenə orada, s. 215.

## XV FƏSİL
## ƏL-ALAMEYN VƏ «MƏŞƏL» («TORÇ») ƏMƏLİYYATI

1. Переписка, том I, док. №22, с. 45.
2. Yenə orada, dok. №27, s. 47.
3. Yenə orada, dok. №31, s. 49.
4. Переписка, том II, док. №29, с. 23.
5. Переписка, том I, док. №66, с. 74.
6. Martel G.Q. Our Armured Forces, 1945, p. 198.
7. Типпельскирх К. Göstərilən əsər, s. 248.
8. Переписка, том I, док..№69, с. 76.
9. Типпельскирх К. Göstərilən əsər, s. 249.
10. Yenə orada.
11. Yenə orada.
12. Переписка, том I, док. №70, с. 77.
13. Јенə орада, том I, док. №71, с. 78.
14. Butcher H.C. Three with Eisenhower, 1946, p. 18.
15. Типпельскирх К. Göstərilən əsər, s. 255.
16. Yenə orada.
17. Фуллер Дж. Göstərilən əsər, s. 316.
18. Переписка, том. I, док. №81, с. 88.
19. Вельц Г. Göstərilən əsər, s. 87.
20. Типпельскирх К. Göstərilən əsər, s. 276.
21. Yenə orada, s. 277.
22. Верт А. Göstərilən əsər, s. 351.
23. Переписка, том I, док. №84, с. 89.
24. Yenə orada, dok. №85, s. 90.
25. Переписка, том II, док. №49, с. 34.
26. Yenə orada, dok. №50, s. 35.
27. Деборин Г. Göstərilən əsər, s. 210.
28. Типпельскирх К. Göstərilən əsər, s. 285.
29. Fredborg A., Behind the Steel Wall, 1944, p. 149.
30. Фуллер Дж. Göstərilən əsər, s. 318.
31. Вельц Г. Göstərilən əsər , s. 97.
32. Yenə orada, s. 12.
33. Yenə orada, s. 97.
34. Yenə orada.



35. Типпельскирх К. Göstərilən əsər, s. 286.
36. Yenə orada, s. 288.
37. Yenə orada, s. 289.

## XVI FƏSİL
## TÜRKİYƏNİ SAVAŞA CƏLB ETMƏK CƏHDLƏRİ VƏ BUNUN SƏBƏBLƏRİ

1. Гречко А. Göstərilən əsər, s. 27.
2. Еременко А. Göstərilən əsər, s. 44.
3. Yenə orada.
4. Тюленев И. Göstərilən əsər, s. 156-157.
5. Halder - KTB Kriegstagebuch. Bd. III, s. 39.
6. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 196.
7. Типпельскирх К. Göstərilən əsər, s. 137.
8. Переписка, том I, док. №11, с. 30.
9. Yenə orada, tom I, dok. №13, s. 33.
10. Yenə orada, tom I, dok. №88, s. 92.
11. Yenə orada, dok. №89, s. 95.
12. Yenə orada, tom I, dok. №105, s. 104.
13. Yenə orada.
14. История Азербайджана, том II, с. 434.
15. Yenə orada.
16. Yenə orada.
17. Yenə orada.
18. Переписка, том I, док. №109, с. 106.
19. Yenə orada.
20. Совершенно секретно! Только для командования! Москва, 1967, с. 186.
21. Yenə orada, s. 189.
22. Типпельскирх К. Göstərilən əsər, s. 156.
23. Переписка, том I, док. №109, с. 106.
24. Yenə orada.
25. Yenə orada, dok. №111, s. 108-109.
26. Yenə orada. Qeydlər (Примечания), №50, s. 444.
27. Yenə orada.
28. Yenə orada.
29. Yenə orada.
30. Yenə orada, dok. №123, s. 117.
31. Yenə orada.

## XVII FƏSİL
## STALİNQRAD – SAVAŞIN AĞIRLIQ MƏRKƏZİ


1. Цейтцлер К. Роковые решения, Москва, 1958, с. 153.
2. Дёрр Г. Поход на Сталинград, Москва, 1957 г, с. 5.
3. Yenə orada, s. 17-18.
4. Сталинград: Уроки истории, Москва, 1976, с. 272.
5. Еременко А. Göstərilən əsər, s. 206.
6. Дёрр Г. Göstərilən əsər, s. 50.
7. Еременко А. Göstərilən əsər, s. 205-206.
8. Yenə orada.
9. Вельц Г. Göstərilən əsər, s. 61-62.
10. Еременко А. Göstərilən əsər, s. 135-136.
11. Yenə orada, s. 260.
12. Yenə orada, s. 261.
13. Yenə orada.
14. Дёрр Г. Göstərilən əsər, s. 50.
15. Еременко А. Сталинград, Москва, 1976, с. 206.
16. Фуллер Дж. Göstərilən əsər, s. 247.
17. Еременко А. Göstərilən əsər, s. 206.
18. Дёрр Г. Göstərilən əsər, s. 50.
19. Yenə orada.
20. Yenə orada, s. 51.
21. Yenə orada.
22. Yenə orada.
23. Yenə orada.
24. Yenə orada.
25. Yenə orada.
26. Муталлимов Х. 51-я гвардейская многонациональная. Баку, 1978, с. 34.
27. Гречко А. Göstərilən əsər, s. 212-213.
28. Переписка, том I, док. №81, с. 88.
29. Yenə orada.
30. Муталлимов Х. Göstərilən əsər, s. 64.
31. Yenə orada.
32. Yenə orada.
33. Верт А. Göstərilən əsər, s. 348-349.
34. Муталлимов Х. Göstərilən əsər, s. 64.
35. Переписка, том I, док. №87, с. 91-92.
36. Yenə orada, dok. №88, s. 94.
37. Yenə orada.




## XVIII FƏSİL
## GENERAL-FELDMARŞAL PAULYUSUN YANACAQ QITLIĞI İLƏ ÜZLƏŞMİŞ 6-cı ORDUSU


1. Переписка, том I, док. №93, с. 97.
2. Адам В. Трудное решение, Москва, 1972, с. 120.
3. Yenə orada.
4. Yenə orada.
5. Yenə orada, s. 121.
6. Yenə orada.
7. Yenə orada, s. 146.
8. Yenə orada.
9. Yenə orada, s. 177.
10. Вельц Г. Göstərilən əsər, s. 152.
11. Yenə orada, s. 153.
12. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 422.
13. Yenə orada, s. 422-423.
14. Yenə orada.
15. Yenə orada.
16. KTB OKW. Kriegstagebuch. Bd. II, Hb. I, s. 86.
17. Yenə orada.
18. Yenə orada.
19. Yenə orada.


## XIX FƏSİL
## MÜHASİRƏDƏ OLAN 6-cı ORDUNUN TƏCHİZATININ MÜMKÜNSÜZLÜYÜ


1. Manstein E. Verlorene Siege. Bonn. 1955, s. 336.
2. Адам В. Göstərilən əsər, s. 283.
3. Yenə orada, s. 284.
4. Yenə orada.
5. Yenə orada.
6. Yenə orada.
7. Yenə orada.
8. Yenə orada.
9. Yenə orada, s. 284-285.
10. Yenə orada, s. 285.
11. Yenə orada.
12. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 468.

13. Yenə orada.
14. KTB OKW. Kriegstagebuch. Bd. II, Hb. I, s. 86.
15. Сталинград. Уроки истории, Москва, 1976, с. 284.
16. Yenə orada.
17. Yenə orada.
18. Адам В. Göstərilən əsər, s. 286.
19. Yenə orada, s. 287.
20. Дёрр Г. Göstərilən əsər, s. 113.
21. Yenə orada.
22. Yenə orada.
23. Yenə orada.
24. Yenə orada, s. 114.
25. Yenə orada.
26. Yenə orada.
27. Yenə orada.
28. Yenə orada.
29. Yenə orada.
30. Yenə orada.
31. Yenə orada.
32. Yenə orada, s. 115.
33. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 474.
34. Yenə orada.
35. Yenə orada, s. 475.
36. Manstein E. Verlorene Siege. Bonn. 1958, s. 395. / Сталинград: Уроки истории, Москва, 1976, с. 419.
37. Адам В. Göstərilən əsər, s. 300-301.

## XX FƏSİL
## QUZEY QAFQAZ ƏMƏLİYYATININ SONU

1. Цейтцлер К. Göstərilən əsər, s. 197.
2. Гречко А. Göstərilən əsər, s. 218. / Архив МО Российской Федерации, f. 6598, s. 725109, iş. 1165, s. 70-72.
3. Гречко А. Göstərilən əsər, s. 218.
4. Yenə orada, s. 225.
5. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 427.
6. Цейтцлер К. Göstərilən əsər, s. 198.
7. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 427.
8. Цейтцлер К. Göstərilən əsər, s. 198.



9. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 427.
10. Цейтцлер К. Göstərilən əsər, s. 198.
11. Yenə orada.
12. Yenə orada.
13. Верт А. Göstərilən əsər, s. 408.
14. Yenə orada.
15. Тюленев И. Göstərilən əsər, s. 198.
16. Верт А. Göstərilən əsər, s. 410.

## XXI FƏSİL
## 6-cı ORDUNUN SÜQUTU VƏ STALİNQRAD DÖYÜŞLƏRİNİN SONU

1. Типпельскирх К. Göstərilən əsər, s. 239.
2. Yenə orada, s. 256.
3. Дёрр Г. Göstərilən əsər, s. 123
4. Manstein E. Verlorene Siege. Bonn. Athenäum Verlag. 1955, s. 467-468.
5. Yenə orada.
6. Гритченко А. Азербайджанский фронт, Баку, 1998 г., с. 14.
7. Yenə orada.
8. Вельц Г. Göstərilən əsər, s. 218.

## XXII FƏSİL.
## ALMANİYANIN 1943-1944-cü illərdə YANACAQ PROBLEMLƏRİ

1. Байбаков Н. Дело жизни, Москва, 1948, с. 120.
2. Яковлев А. Цель жизни. Москва, 1970, с. 360.
3. Архив МО Российской Федерации, f. 32, s. 11306, iş. 318, s. 96.
4. Деборин Г. Göstərilən əsər, s. 210.
5. Тьюгендхет К., Гамильтон А. Нефть. Самый большой бизнес, Москва, 1978, с. 164.
6. Меркс Ф. Черная кровь, Москва, 1978, с. 124.
7. Тьюгендхет К., Гамильтон А. Göstərilən əsər, s. 164.
8. Фуллер Дж. Göstərilən əsər, s. 293-294.
9. Yenə orada.
10. The United States Strategie Bombing Survey, Overall Report (European War), 30 th September, 1945, p. 41.
11. Yenə orada.

12. Yenə orada.
13. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 637.
14. Yenə orada.
15. Yenə orada.
16. «The United States Strategie Bombing Survey», Overall Report (European War), 30 th September, 1945, p. 41.
17. Фуллер Дж. Göstərilən əsər, s. 413.
18. Yenə orada.
19. Yenə orada.
20. Yenə orada.
21. Yenə orada.
22. Yenə orada.
23. Yenə orada, s. 414.
24. Yenə orada.
25. Yenə orada.
26. «The United States Strategie Bombing Survey», Overall Report (European War), 30 th September, 1945, p. 44.
27. Yenə orada, p. 45.
28. Фуллер Дж. Göstərilən əsər, s. 414-415.

## XXIII FƏSİL
## ATLANTİK VƏ SAKİT OKEAN SƏHNƏSİNDƏ NEFT MÜCADİLƏSİ

1. Меркс Ф. Черная кровь, Москва, 1978, с. 134.
2. Yenə orada.
3. Тьюнгендхет К. Гамильтон А. Нефть. Самый большой бизнес, Москва, 1978, с. 167.
4. Yenə orada.
5. Yenə orada.
6. Yenə orada, s. 169.
7. Советский Энциклопедический Словарь. Москва, 1987, с. 225.
8. Yenə orada.
9. Меркс Ф. Göstərilən əsər, s. 137.
10. Тьюнгендхет К. Гамильтон А. Göstərilən əsər, s. 168.
11. Yenə orada.
12. Yenə orada, s. 169.
13. Yenə orada.
14. Yenə orada, s. 163.



## XXIV FƏSİL
## QƏRB CƏBHƏSİNDƏ YANACAQ BÖHRANI VƏ III REYXİN SÜQUTU

1. Фуллер Дж. Göstərilən əsər, s. 436. / «Report by the Supreme Commander», p. 54.
2. Yenə orada, p. 60.
3. General Arnold's Second Report, 27 th February, 1945, p. 30. / Фуллер Дж. Göstərilən əsər, s. 437.
4. Martel G. Our Armoured Forces, 1945, p. 325. / Фуллер Дж. Göstərilən əsər, s. 437.
5. Фуллер Дж. Göstərilən əsər, s. 438.
6. Yenə orada.
7. General Arnold's Second Report, 27 th February, 1945, p. 30. / Фуллер Дж. Göstərilən əsər, s. 438.
8. Yenə orada.
9. Morehead A. Eclipse, p. 170. / Фуллер Дж. Göstərilən əsər, s. 439.
10. Совершенно секретно! Только для командования! Документы и материалы, с. 638.
11. Yenə orada.
12. Yenə orada, s. 653.
13. Churchill. The Second World War, vol. VI, p. 533.

## NƏTİCƏ

1. Переписка, том I, док. №75, с. 83.
2. Фуллер Дж. Göstərilən əsər, s. 530-531.
3. Маршал Жуков Г. Göstərilən əsər, t. 3, s. 328.
4. Совершенно секретно! Только для командования! Москва, 1967, с. 135-136.
5. О'Коннор Х. Göstərilən əsər, s. 55.
6. «Səhər» qəzeti. 2 sentyabr 1990-cı il.
7. О'Коннор Х. Göstərilən əsər, s. 485.

# KİTABIN İÇİNDƏKİLƏR


Ön söz *(E.Muradəliyeva)* ........ 5
Müəllifdən ........ 9
**GİRİŞ** ........ 10
**I FƏSİL.** Savaşdan savaşa ........ 28
**II FƏSİL.** Almaniyanın İkinci cahan savaşına yuvarlanması və SSRİ-nin buna münasibəti ........ 38
**III FƏSİL.** Almaniyanın Qərb və Yaxın Şərq əməliyyatları ........ 49
**IV FƏSİL.** Sovet-alman savaşı ərəfəsində ........ 61
**V FƏSİL.** Almaniyanın Ali Baş Komandanlığında ikitirəlik ........ 79
**VI FƏSİL.** Antihitler koalisiyası və İran ........ 90
**VII FƏSİL.** 1942-ci ildə iki savaş səhnəsi: Qafqaz və Quzey Afrika ........ 103
**VIII FƏSİL.** Sovet-alman cəbhəsində əsas hadisələr: Qafqazda və Stalinqradda ........ 115
**IX FƏSİL.** Yanacaq qıtlığı ........ 128
**X FƏSİL.** «Velvet» əməliyyatı ........ 138
**XI FƏSİL.** Bakı – savaşın taleyi həll olunan şəhər ........ 150
**XII FƏSİL.** Quzey Afrikada hərbi kampaniyalar ........ 162
**XIII FƏSİL.** «Lend-liz» – müttəfiqlərin strateji yardımı ........ 182
**XIV FƏSİL.** Cənub istiqamətində yeni hücum təşəbbüsü ........ 190
**XV FƏSİL.** Əl-Alameyn və «Məşəl» («Torç») əməliyyatı ........ 199
**XVI FƏSİL.** Türkiyəni savaşa cəlb etmək cəhdləri və bunun səbəbləri ........ 211
**XVII FƏSİL.** Stalinqrad – savaşın ağırlıq mərkəzi ........ 222
**XVIII FƏSİL** General-feldmarşal Paulyusun yanacaq qıtlığı ilə üzləşmiş 6-cı ordusu ........ 233
**XIX FƏSİL.** Mühasirədə olan 6-cı ordunun təchizatının mümkünsüzlüyü ........ 239
**XX FƏSİL.** Quzey Qafqaz əməliyyatının sonu ........ 247
**XXI FƏSİL.** 6-cı ordunun süqutu və Stalinqrad döyüşlərinin sonu.. 253
**XXII FƏSİL.** Almaniyanın 1943-1944-cü illərdə yanacaq problemləri ........ 258
**XXIII FƏSİL.** Atlantik və Sakit okean səhnəsində neft mücadiləsi... 267
**XXIV FƏSİL.** Qərb cəbhəsində yanacaq böhranı və III Reyxin süqutu ........ 273
**NƏTİCƏ** ........ 283
**SUMMARY** ........ 290
**PE3IOME** ........ 292
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** ........ 295